# HƏZRƏT NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞINDA PEYĞƏMBƏRLİK ANLAYIŞI VƏ HƏZRƏT MƏHƏMMƏD (s.a.s.)

**SİRACƏDDİN HACI**

**2-Cİ KİTAB**

***Elmi redaktorlar***:
*Professor, doktor* **Abdullah Kahraman**
*Sivas Cumhuriyyət Universitetinin*
*və Bakı Dövlət Universitetinin professoru*

*Filologiya elmləri doktoru* **Mahirə Quliyeva**
*AMEA-nın Nizami adına Ədəbiyyat*
*İnstitutunun baş elmi işçisi*

***Rəyçilər***:
*Filologiya elmləri namizədi* **Leyli Əliyeva**
*AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun*
*baş elmi işçisi*

*Fəlsəfə elmləri namizədi* **Yadulla Paşayev**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar*
*İnstitutunun elmi işçisi*

***Ədəbi redaktor***:
*Filologiya elmləri namizədi* **Vəfa Muradxanqızı**
*AMEA-nın Folklor İnstitutunun  elmi işçisi*

ISBN  9952-437-02-1

Monoqrafiyada İslam dinində peyğəmbərlik anlayışının başlıca prinsipləri göstərilir, İslam dininin müqəddəs kitabı Qurani-Kərim və mübarək hədislər işığında peyğəmbərliyin mahiyyəti açıqlanır. Kitabda din və ədəbiyyat, ərəb, fars, türk ədəbiyyatında nət mövzusu öyrənilir, həzrət Nizami Gəncəvinin «Sirlər xəzinəsi» dastanında həzrət Məhəmməd (s.a.s.) ilə bağlı üçüncü və dördüncü nətlər beyt-beyt şərh edilir.

$S\frac{4603020000-2}{071-2008}$ Qrifli nəşr

© Siracəddin Hacı, 2008

# «SİRLƏR XƏZİNƏSİ» DASTANINDA OLAN ÜÇÜNCÜ VƏ DÖRDÜNCÜ NƏTİN ŞƏRHİ

## HZ. MƏHƏMMƏD (s.a.s.) AZADLIQ VƏ NUR PEYĞƏMBƏRİDİR

مُّحَمَّدٌ رَّسُولُ اللَّهِ وَالَّذِينَ مَعَهُ أَشِدَّاء عَلَى الْكُفَّارِ رُحَمَاء بَيْنَهُمْ تَرَاهُمْ رُكَّعاً
سُجَّداً يَبْتَغُونَ فَضْلاً مِّنَ اللَّهِ وَرِضْوَاناً سِيمَاهُمْ فِي وُجُوهِهِم مِّنْ أَثَرِ
السُّجُودِ ذَلِكَ مَثَلُهُمْ فِي التَّوْرَاةِ وَمَثَلُهُمْ فِي الْإِنجِيلِ كَزَرْعٍ أَخْرَجَ شَطْأَهُ
فَآزَرَهُ فَاسْتَغْلَظَ فَاسْتَوَى عَلَى سُوقِهِ يُعْجِبُ الزُّرَّاعَ لِيَغِيظَ بِهِمُ الْكُفَّارَ وَعَدَ
اللَّهُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ مِنْهُم مَّغْفِرَةً وَأَجْراً عَظِيماً

(əl-Fəth, 48/29)

«Məhəmməd (əleyhissəlam) Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar (möminlər) kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər. Sən onları (namaz vaxtı) rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların nişanəsi üzlərində olan səcdə yeridir. (Qiyamət günü onlar üzlərindəki möminlik nuru ilə tanınırlar). Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxarmış, onu bəsləyib, cana-qüvvətə gətirmiş, o da (o cücərti də) möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur. (Allahın bu təşbehi) kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət (günahlardan bağışlanma) və böyük mükafat (cənnət) vəd buyurmuşdur!»

لَقَدْ كَانَ فِي قَصَصِهِمْ عِبْرَةٌ لِّأُوْلِي الأَلْبَابِ مَا كَانَ حَدِيثاً يُفْتَرَى وَلَـكِن
تَصْدِيقَ الَّذِي بَيْنَ يَدَيْهِ وَتَفْصِيلَ كُلَّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً لِّقَوْمٍ يُؤْمِنُونَ

(Yusuf, 12/111)

«(Peyğəmbərlərin) hekayələrində ağıl sahibləri üçün, sözsüz ki, bir ibrət var. (Bu Quran) uydurma bir söz deyil. Ancaq özündən əvvəlkilərin (ilahi kitabların) təsdiqi, (Allahın bəndələrindən ötrü) hər bir şeyin (bütün hökmlərin, halal-haramın) müfəssəl izahıdır. O, iman gətirən bir tayfa üçün hidayət (doğru yolu göstərən rəhbər) və mərhəmətdir!».

أُوْلَـئِكَ الَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ وَالْحُكْمَ وَالنُّبُوَّةَ فَإِن يَكْفُرْ بِهَا هَـؤُلاء فَقَدْ وَكَّلْنَا بِهَا قَوْماً لَّيْسُواْ بِهَا بِكَافِرِينَ

(Ənam,6/89)

«Onlar Bizim kitab, hökm və peyğəmbərlik verdiyimiz kimsələrdir. Əgər onlar bu dəlilləri dansalar, Biz onlara həmin dəlilləri inkar etməyən bir tayfanı müvəkkil edərik (onların yerinə dəlillərimizi inkar etməyəcək bir zümrə gətirərik)».

الَّذِينَ يَتَّبِعُونَ الرَّسُولَ النَّبِيَّ الأُمِّيَّ الَّذِي يَجِدُونَهُ مَكْتُوباً عِندَهُمْ فِي التَّوْرَاةِ وَالإِنْجِيلِ يَأْمُرُهُم بِالْمَعْرُوفِ وَيَنْهَاهُمْ عَنِ الْمُنكَرِ وَيُحِلُّ لَهُمُ الطَّيِّبَاتِ وَيُحَرِّمُ عَلَيْهِمُ الْخَبَآئِثَ وَيَضَعُ عَنْهُمْ إِصْرَهُمْ وَالأَغْلاَلَ الَّتِي كَانَتْ عَلَيْهِمْ فَالَّذِينَ آمَنُواْ بِهِ وَعَزَّرُوهُ وَنَصَرُوهُ وَاتَّبَعُواْ النُّورَ الَّذِيَ أُنزِلَ مَعَهُ أُوْلَـئِكَ هُمُ الْمُفْلِحُونَ

(Əraf, 7/157)

«O kəslərə ki, əllərindəki Tövratda və İncildə (adını, vəsfini və əlamətlərini) yazılmış gördükləri rəsula – ümmi (heç kəsin yanında oxuyub elm öyrənməmiş, ya da məkkəli) Peyğəmbərə tabe olurlar. (O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar. Pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (pak olmayan) şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar (şəriətin çətin hökmlərini götürər). Ona (o Peyğəmbərə) iman gətirən, yardım göstərən və onunla (onun peyğəmbərliyi sayəsində) endirilmiş nurun (Quranın) ardınca gedənlər, məhz onlar nicat tapanlardır!»

قُلْ يَا أَيُّهَا النَّاسُ إِنِّي رَسُولُ اللّهِ إِلَيْكُمْ جَمِيعاً الَّذِي لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ لا إِلَـهَ إِلاَّ هُوَ يُحْيِـي وَيُمِيتُ فَآمِنُواْ بِاللّهِ وَرَسُولِهِ النَّبِيِّ الأُمِّيِّ الَّذِي يُؤْمِنُ بِاللّه وَكَلِمَاتِهِ وَاتَّبِعُوهُ لَعَلَّكُمْ تَهْتَدُونَ

(Əraf, 7/158)

«De: «Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş Peyğəmbəriyəm. (O Allah ki) göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir Tanrı yoxdur. O, dirildir və öldürür. Buna görə də, Allaha, Allahın sözlərinə inanan və ümmi Peyğəmbər olan Rəsuluna iman gətirin və Ona tabe olun ki, doğru yolu tapa biləsiniz!» .

وَمَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِّلنَّاسِ بَشِيراً وَنَذِيراً وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

(Səbə, 34/28)

«Ey Məhəmməd! Şübhəsiz, Biz səni (təkcə öz qövmünə deyil) bütün insanlara (möminlərə Cənnətlə) müjdə verən, (kafirləri isə Cəhənnəm əzabı ilə) qorxudan bir Peyğəmbər olaraq göndərdik. Ancaq insanların çoxu bunu bilmir!».

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ آمِنُواْ بِاللّهِ وَرَسُولِهِ وَالْكِتَابِ الَّذِي نَزَّلَ عَلَى رَسُولِهِ وَالْكِتَابِ الَّذِيَ أَنزَلَ مِن قَبْلُ وَمَن يَكْفُرْ بِاللّهِ وَمَلاَئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ وَالْيَوْمِ الآخِرِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيداً

(Nisa, 4/136)

«Ey iman edənlər! Allaha, Peyğəmbərinə endirdiyi kitaba və daha öncə endirdiyi kitaba iman edin. Kim Allahı, mələklərini, kitablarını, Peyğəmbərlərini və axirət gününü inkar edərsə, son dərəcə böyük bir azğınlığa düşmüş olar».

إِنَّ الَّذِينَ يَكْفُرُونَ بِاللّهِ وَرُسُلِهِ وَيُرِيدُونَ أَن يُفَرِّقُواْ بَيْنَ اللّهِ وَرُسُلِهِ وَيقُولُونَ نُؤْمِنُ بِبَعْضٍ وَنَكْفُرُ بِبَعْضٍ وَيُرِيدُونَ أَن يَتَّخِذُواْ بَيْنَ ذَلِكَ سَبِيلاً . أُوْلَـئِكَ هُمُ الْكَافِرُونَ حَقّاً وَأَعْتَدْنَا لِلْكَافِرِينَ عَذَاباً مُّهِيناً

(Nisa, 4/150-151)

«Allahı və Peyğəmbərlərini inkar edənlər, Allah və Peyğəmbərlərin arasını açmaq istəyənlər, bir qisminə inanıb, bir sırasını inkar edənlər və (iman ilə küfr) arasında bir yol

tutmaq istəyənlər. Kafir olanlar məhz bunlardır. Biz belə kafirlər üçün zəliledici bir əzab hazırladıq».

وَالَّذِينَ آمَنُواْ بِاللّهِ وَرُسُلِهِ وَلَمْ يُفَرِّقُواْ بَيْنَ أَحَدٍ مِّنْهُمْ أُوْلَـئِكَ سَوْفَ يُؤْتِيهِمْ أُجُورَهُمْ وَكَانَ اللّهُ غَفُوراً رَّحِيماً

(Nisa, 4/152)

«Allah və Peyğəmbərinə iman edənlərə, Peyğəmbərlərdən heç biri arasında fərq qoymayanlara isə mükafatları veriləcəkdir. Allah çox bağışlayıcıdır, çox mərhəmətlidir».

يَا أَيُّهَا النَّبِيُّ إِنَّا أَرْسَلْنَاكَ شَاهِداً وَمُبَشِّراً وَنَذِيراً. وَدَاعِياً إِلَى اللَّهِ بِإِذْنِهِ وَسِرَاجاً مُّنِيراً

(Əhzab, 33/45-46)

«Ey Peyğəmbər! Biz səni şahid, müjdəçi, uyarıcı, Allahın izni ilə ona dəvət-edici və aydınladıcı bir işıq olaraq göndərdik».

وَإِذْ قَالَ عِيسَى ابْنُ مَرْيَمَ يَا بَنِي إِسْرَائِيلَ إِنِّي رَسُولُ اللَّهِ إِلَيْكُم مُّصَدِّقاً لِّمَا بَيْنَ يَدَيَّ مِنَ التَّوْرَاةِ وَمُبَشِّراً بِرَسُولٍ يَأْتِي مِن بَعْدِي اسْمُهُ أَحْمَدُ فَلَمَّا جَاءهُم بِالْبَيِّنَاتِ قَالُوا هَذَا سِحْرٌ مُّبِينٌ

(Saf, 61/6)

«Bir vaxt Məryəm oğlu İsa belə demişdi: «Ey İsrail oğulları, mən Allahın elçisiyəm. Məndən öncə gələn Tövratı təsdiqedici, məndən sonra gələcək bir Peyğəmbərin də müjdəçisi olaraq gəldim. O Peyğəmbərin adı Əhməddir». Ancaq O, onlara açıq dəlillərlə gələndə, «bu açıq bir sehrdir», dedilər».

إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيماً

(Əhzab, 33/56)

«Sözsüz, uca Allah və onun mələkləri Peyğəmbərə səlat edərlər. Ey möminlər! Siz də Ona salavat gətirin, Onun şanına yaraşan şəkildə Ona salam göndərin».

*Əziz və fədakar anam Adilə xanımın, uca Allahın seçdiyi Vəfa xanımın adına ithaf edirəm*

## ALLAH (c.c) PEYĞƏMBƏRLƏ ELM GÖNDƏRMİŞDİR

İslamın şanlı Peyğəmbəri mübarək hədislərində belə buyurur:

«... Səxavətli bir adam bir qonaqlıq verər, böyük bir ziyafət süfrəsi açar. O, bir dəvətçi göndərərək hər kəsi ziyafətə çağırar. Dəvət edənin çağırışına qulaq asanlar qonaqlığa gələr və ziyafət süfrəsindəki gözəl nemətlərdən yeyər. Dəvətçinin çağırışına qulaq asmayanlar isə qonaqlığa gəlməz və ziyafət süfrəsindəki gözəl nemətlərdən yeməzlər. **Kim Məhəmmədə itaət edərsə, Allaha itaət etmiş olar. Kim də Məhəmmədə üsyan edərsə, Allaha üsyan etmiş olar».**

«Allahın mənimlə göndərdiyi hidayət və elm bir yerə yağan yağışa bənzəyər. O yerin bir hissəsi gözəldir, suyu canına çəkər, ot və bol çəmənlik bitirər. Bu torpağın bir qismi də münbit deyil, ancaq bu torpaq da suyu saxlayar. Allah bu torpağın saxladığı su ilə insanlara fayda verər, bu torpaqda yığılan sudan insanlar içərlər, heyvanları, əkin-biçini bu su ilə suvararlar. Yerin başqa bir hissəsinə də yağış yağar. Ancaq bu yer çox sərtdir və münbit deyil. Bu yer nə su saxlayar, nə də ot bitirər. Elə Allahın dinində fakih olan (və Allahın mənimlə göndərdiyi şeydən faydalanan, öyrənən, öyrədən) bir şəxsin misalı ilə, dinə münasibətdə təkəbbürdən başını qaldırmayan və mənimlə göndərilən Allahın doğru yolunu qəbul etməyənin misalı da belədir».

## QALDIRIB BARMAQ GƏTİRMİŞ ASİMAN İMAN SANA

O, ümmidir, ümmihatın mayasıdır,
O, yer üzünün nuru, ərşə kölgədir.

***Hz. Nizami***

Mən sağ olduğum müddətdə Qurani-Hakimin qulu, köləsi, xadimiyəm. Məhəmməd Mustafa (s.a.s.) yolunun tozu, torpağıyam.

***Hz. Mövlana***

Sen Ahmed ü Mahmud u Muhammedsin Efendim,
Haktan Bize sultani-mueyyedsin Efendim.

***Şeyx Qalib***

Dərdli beynimə dərman et, onun
Dərmanını Mustafanın ayağının torpağından et.

***Hz. Nizami***

Hüsni-Kurani görür insan olur hayran sana,
Desti-kudretle yazılmış hilyedir Kuran sana.

***Müəllim Naci***

Gül Məhəmməd təridir.

***Yunis Əmrə***

Ey vücudun əsəri-xilqəti-əşya səbəbi,
Nəbi ol vaxt ki, bilfel gərəkməzdi Nəbi.

***Füzuli***

Ey olub merac bürhani-ulüvvi-şan sana,
Yerə enmiş göydən istiqlal üçün Furkan sana.

***Füzuli***

Ebediyyen sevecek can Onu, canan olarak,
Şart-ı peyman olarak, huccet-i iman olarak,
Şeb-i Miracda simasını seyretti diye,
Kapanır yerlere gök secde-i şükran olarak.

***Kemal Edip Kürkçüoğlu***

Gel, ey Muhammed, bahardır…
Dudaklar ardında saklı
Aminlerimiz vardır!...
Hacdan döner gibi gel;
Miractan iner gibi gel;
Bekliyoruz yıllardır!...
***Arif Nihad Asya***

## *D U A*

**Allahım!**

**Hər zaman və hər məkanda, bütün həyatımda, hər işimdə rəhmətdən uzaq olan şeytanın və onun dostlarının şərindən Sənə sığınıram!**

**Allahım!**

**Sən Rəhmansan. Bizi bizdən çox sevən, rəhmət və mərhəmət sahibisən. Sənin hər əmrinə boyun əyirəm. Sonunda cənnətə ümidim var, çünki Sən Rəhimsən!**

**Allahım!**

**Göylərdə və yerdə var etdiyin, göy ilə yer arasında olanlar və yaradacağın hər şeyin sayı qədər Sənə həmd olsun. Sənin tam və mükəmməl olduğunu bilirəm. Sən əksik və nöqsanlardan uzaqsan! Bütün aləmə yol göstərən, güclü və hər şeyi bilən Rəbb Sənsən!**

**Allahım!**

**Razı olduğun yolu, cənnət yolunu, Quran yolunu, İslam yolunu, peyğəmbərlərin yolunu bizə göstər! Bizi o yola yönəlt!**

**Allahım!**

**Sənin mübarək elçin həzrət Məhəmmədə – səllallahu əleyhi və səlləm- səlat və salam olsun! Salamın, rəhmət və bərəkətin o mübarək Peyğəmbərin pak ailəsinin üzərinə olsun!**

**Allahım!**

**Əzəmətinlə, nurunla, cəlalınla, rəhmət, mərhəmət və lütfünlə Səndən istəyirəm, bağışla bizi, mərhəmət et bizə! Bizi özündən başqasına möhtac etmə! Razı olduğun bir həyat və sonunda cənnət ver! Bizi nəbilərin, sadiq-**

lərin, şəhidlərin, salehlərin yolu olan iman, islam, ehsan, Quran yoluna - doğru yola yönəlt, bizi bu mübarək yola bağla!

Allahım!

Özünə verdiyin, yaratdıqlarından birinə öyrətdiyin, kitabında endirdiyin, ya da heç kimin bilmədiyi, ancaq sənin bildiyin bütün mübarək adlarının haqqı üçün Səndən istəyirəm. Quranı qəlbimin baharı, köksümün nuru eylə! Onunla dərdlərimi, kədərimi yox et!

Allahım!

Sənin qulun və peyğəmbərin həzrət Məhəmmədin - səllallahu əleyhi və səlləm - Səndən istədiyi şeylərin bərəkətini mən də Səndən istəyirəm. Sənin qulun və peyğəmbərin həzrət Məhəmmədin - səllallahu əleyhi və səlləm- Sənə sığındığı şeylərin şərindən Sənə sığınıram!

Allahım!

Sənin əzabın böyükdür, cəzan böyükdür, mükafatın böyükdür, rəhmət, mərhəmət, lütf və inayətin böyükdür. Sənə şərik qoşmaqdan, küfrdən, üsyandan uzaq olmaq, Sənə layiq bir qul olmaq üçün Sənin yardımını istəyirəm. Qəlblərimizi Sənə itaət etməyə yönəlt! Qəzəb və əzabından Sənə sığınıram! Sənə möhtacam! Səndən gələcək olan hər bir xeyirə ehtiyacım var!

Allahım!

Qulağımı, gözümü və ağlımı mənə faydalı et. Dindar olaraq sağlam və rahat yaşamağımı təmin et! Zalımlara qarşı mübarizədə bizə yardımçı ol! Onlardan intiqamımızı al! Bunu da bizə göstər!

Allahım!

Mənə elə bir iman ver ki, qəlbimə yerləşsin. Hər şeyi Səndən bilim və Sənin icazən olmadan heç bir şeyin

**mənə toxunmayacağına inanım! Mənə ayırdığın ruzi ilə məni razı et!**

**Ey dərdlərə dərman, xəstələrə şəfa verən Allahım!**

**Bütün sıxıntılarımı yox et, dərdimə dərman ver! Xəstəliyimə şəfa Səndəndir! Sənin şəfandan başqa şəfa, Səndən başqa şəfa verəcək yoxdur! Elə bir şəfa ver ki, dərdimə dərman olsun, məni başqalarına möhtac etməsin!**

**Ey insanların və bütün varlıqların Rəbbi olan Allahım!**

**Sən Sübhansan! Bütün peyğəmbərlərə səlat və salam olsun! Uca Allahın (c.c) rəhməti, bərəkəti və salamı həzrət Nizaminin pak ruhuna olsun!**

**Aləmlərin Rəbbi olan Allaha həmd olsun!**

**Amin!**

# İ Ç İ N D Ə K İ L Ə R


HZ. MƏHƏMMƏD (s.a.s.) AZADLIQ VƏ NUR PEYĞƏMBƏRİDİR....4
ALLAH (c.c) PEYĞƏMBƏRLƏ ELM GÖNDƏRMİŞDİR....9
QALDIRIB BARMAQ GƏTİRMİŞ ASİMAN İMAN SANA....10
D U A....12
G İ R İ Ş: DƏYƏR BİZİM SƏRHƏDİMİZDİR....21
HZ. NİZAMİYƏ GÖRƏ DÜŞÜNCƏMİZİN QAYNAQLARI....22
İMANIN ƏSASLARI....22
HAQQ DİNİNİN ÖZƏLLİKLƏRİ....24
İSLAM DİNİNİN ƏSASLARI....25
PEYĞƏMBƏRLİK ANLAYIŞI....28
PEYĞƏMBƏRLƏRİN SAYI VƏ ÖZƏLLİKLƏRİ....32
PEYĞƏMBƏRLƏRİN VƏZİFƏLƏRİ....38
PEYĞƏMBƏRLƏRİN TƏBLİĞ METODLARI....40
HƏZRƏT MƏHƏMMƏDİ (s.a.s.) BAŞQA PEYĞƏMBƏRLƏRDƏN AYIRAN ÖZƏLLİKLƏR....41
ƏRƏB, FARS VƏ TÜRK ƏDƏBİYYATINDA NƏT....45
ƏRƏB ƏDƏBİYYATINDA NƏT....48
FARS ƏDƏBİYYATINDA NƏT....52
TÜRK ƏDƏBİYYATINDA NƏT....54
NƏTİN QURULUŞU....61
HZ. NİZAMİ GƏNCƏVİNİN NƏTİNİN ŞƏRHİ....62
HƏZRƏT PEYĞƏMBƏRƏ SALAVAT QURAN BUYURUĞUDUR....64
HƏZRƏT NİZAMİ GƏNCƏVİYƏ GÖRƏ ALLAHDAN ELM ÖYRƏNMƏYİN YOLU....65
«SİRLƏR XƏZİNƏSİ»NDƏN ÜÇÜNCÜ NƏTİN ŞƏRHİ....75
ÜÇÜNCÜ NƏTİN ÖZƏLLİKLƏRİ....76
BİRİNCİ BEYTİN ŞƏRHİ: «RUHUM SƏNƏ FƏDA OLSUN, EY ALLAHIN RƏSULU!»....83
PEYĞƏMBƏRƏ SEVGİ VƏ MÜRACİƏT MƏDƏNİYYƏTİ....83
HZ. NİZAMİYƏ GÖRƏ TƏSLİMİYYƏTİN ÖLÇÜLƏRİ....94
İNSANIN FİTRƏTİ....96
ƏSHABIN PEYĞƏMBƏRƏ TƏSLİMİYYƏTİ....98
İKİNCİ BEYTİN ŞƏRHİ: «RƏHMƏT EVİNİN BƏRƏKƏTİ»....103

«RƏHMƏT» SÖZÜNÜN MƏNASI ................................................ 103
DİVAN ƏDƏBİYYATINDA PEYĞƏMBƏRİN RƏHİM, RƏHMAN, RAUF ADI ................................................ 111
H.NİZAMİYƏ GÖRƏ RƏHMƏT EVİ ................................................ 112
ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ: «SƏN DOĞRU YOLU GÖSTƏRƏNSƏN» ................................................ 129
KİSRAYA YAZILAN MƏKTUB ................................................ 138
DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ: «ONLAR YOLU SƏNƏ GÖRƏ TAPIRLAR» ................................................ 142
NİZAMİYƏ GÖRƏ DOĞRU YOL ................................................ 145
BEŞİNCİ BEYTİN ŞƏRHİ: «SƏNİN KİMİ MƏRHƏMƏTLİLƏR AZUQƏNİ TƏK YEMƏZLƏR» ................. 155
NİZAMİYƏ GÖRƏ TAMAŞA ETMƏK ANLAYIŞI ..................... 160
NİZAMİNİN MƏRHƏMƏT ANLAYIŞI ................................................ 165
ALTINCI BEYTİN ŞƏRHİ: «O, BİZƏ XURMA YEDİYİ SÜFRƏDƏN PAY GƏTİRDİ» ................................................ 172
XURMA UCA ALLAHIN (c.c) NEMƏTİDİR ................................ 172
NİZAMİNİN XURMAYA YÜKLƏDİYİ MƏNA .......................... 175
YEDDİNCİ BEYTİN ŞƏRHİ: «SƏNİN DODAQLARININ TƏRAVƏTİNDƏN HAMIYA XURMA NƏSİB OLSUN» ............ 181
XURMA HƏYAT AĞACIDIR ................................................ 182
XURMA MÜSƏLMAN KİMİDİR ................................................ 183
SƏKKİZİNCİ BEYTİN ŞƏRHİ: «SƏNƏ OLAN EŞQİN ATƏŞİ BİZİM ÜÇÜN DİRİLİK SUYUDUR» ................................ 188
DİVAN ƏDƏBİYYATINDA PEYĞƏMBƏRİN SAÇI .................. 189
NİZAMİYƏ GÖRƏ DİRİLİK SUYU ................................................ 195
DOQQUZUNCU BEYTİN ŞƏRHİ: «AĞIL SƏNƏ MƏFTUN OLMUŞDUR» ................................................ 201
DİVAN VƏ TƏSƏVVÜF ƏDƏBİYYATINDA SEVGİLİNİN ÜZÜ ................................................ 201
NİZAMİYƏ GÖRƏ MƏFTUNLUQ ANLAYIŞI ............................ 207
ONUNCU BEYTİN ŞƏRHİ: «SÜBH SƏNİN GÜNƏŞ ÜZÜNÜN BİR TƏBƏSSÜMÜDÜR» ................................................ 209
DİVAN ƏDƏBİYYATINDA HZ.MƏHƏMMƏDİN (s.a.s) SULTAN OBRAZI ................................................ 209
YERİN VƏ GÖYÜN MƏHVƏRİ HZ.MƏHƏMMƏDDİR (s.a.s) . 210
ŞAİRİN NUR MƏNZƏRƏSİ ................................................ 211

ON BİRİNCİ BEYTİN ŞƏRHİ: «BU ALƏMİN İSLANMIŞ ƏTƏYİ SƏNİN SAYƏNDƏ QURUDU» ....... 213
GÜNAH ÖLÇÜSÜZLÜYÜN NƏTİCƏSİDİR ....... 217
KƏBƏ YERİN GÖBƏYİDİR ....... 218
ON İKİNCİ BEYTİN ŞƏRHİ: «SƏNİN TORPAĞININ TƏSİRİNDƏN ƏRƏB TORPAĞI MÜŞK SAÇIR» ....... 224
ON ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ: «SƏNİN TORPAĞIN SÜLEYMAN YELİNDƏN YAXŞIDIR» ....... 225
HƏDİSLƏRDƏ HƏZRƏT SÜLEYMAN ....... 230
DİVAN ŞERİNDƏ HZ.SÜLEYMAN ....... 232
HZ. MƏHƏMMƏD (s.a.s) BƏRƏKƏTLİ TORPAQ KİMİDİR ....... 233
CƏNNƏT BAĞI ....... 234
ON DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ: «ALLAHIN BÖYÜKLÜYÜNÜ ALQIŞLAMAQ ÜÇÜN KƏBƏ SƏNƏ SƏCCADƏ OLDU» ....... 237
ON BEŞİNCİ BEYTİN ŞƏRHİ: «SƏNİN TAXTIN YER, TACIN GÖYDÜR» ....... 242
ON ALTINCI BEYTİN ŞƏRHİ: «SƏN ALLAHIN (c.c) İŞIĞININ KÖLGƏSİSƏN» ....... 244
DİVAN ŞAİRLƏRİNƏ GÖRƏ PEYĞƏMBƏRİN KÖLGƏSİ ....... 245
NİZAMİYƏ GÖRƏ O, BÖYÜK NURDUR ....... 247
ON YEDDİNCİ BEYTİN ŞƏRHİ: «SƏNİN MÜSƏLMANLIĞININ ƏLAMƏTİ DÖRD BAYRAĞINDIR» ....... 251
NİZAMİYƏ GÖRƏ CƏMİYYƏTİN XOŞBƏXTLİYİNİN ƏSASLARI ....... 254
ORUC BAYRAĞI ....... 257
ZƏKAT BAYRAĞI ....... 259
HƏCC BAYRAĞI ....... 260
NAMAZ BAYRAĞI ....... 261
HƏDİSLƏRDƏ NAMAZ ....... 262
ON SƏKKİZİNCİ BEYTİN ŞƏRHİ: «ALLAHIN ƏZİZLƏRİNİN GÖZLƏRİ SƏNİNLƏ İŞIQLANIB» ....... 268
ALLAHIN ƏZİZLƏRİ ....... 270
PEYĞƏMBƏR SEVGİSİ OLAN KÖNÜL ÇİÇƏK AÇAR ....... 271
ON DOQQUZUNCU BEYTİN ŞƏRHİ: «SƏNİN QƏDƏMLƏRİN GÖYÜN BAŞINA ÖZ ƏTƏYİNİ DARTDI» ....... 274
İYİRMİNCİ BEYTİN ŞƏRHİ: «ONUN (GÖYÜN) ƏTƏYİ SƏNİN SAYƏNDƏ QIZIL VƏ CƏVAHİRLƏ DOLDU» ....... 280

İYİRMİ BİRİNCİ BEYTİN ŞƏRHİ: «SƏBA YELİ SƏNİN MÜŞK VƏ ƏNBƏR ƏTRİNİ YAYDI» ........................................281
SƏBA YELİ ......................................................................................281
İYİRMİ İKİNCİ BEYTİN ŞƏRHİ: «ƏNBƏR QOŞUNU BAYRAQ SANCDI» ......................................................................283
İYİRMİ ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ: «BU ƏNBƏR ƏTRİNİ İKİ ALƏMƏ DƏYİŞSƏN, UCUZ VERMİŞ OLARSAN» .............284
İYİRMİ DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ: «ƏRŞ SƏNİN EYVANINDA BİR KÜRSÜ QOYANDIR»...................................285
SİDR AĞACI ......................................................................................285
QURANDA ƏRŞ ANLAYIŞI ......................................................292
HƏDİSLƏRDƏ ƏRŞ ANLAYIŞI ..................................................294
İYİRMİ BEŞİNCİ BEYTİN ŞƏRHİ: «SƏNİN RUHUNUN BACASI SÜBH ÇAĞI PARLAYIR» ............................................297
İYİRMİ ALTINCI BEYTİN ŞƏRHİ: «SƏNİN NURUN YER ÜZÜNƏ NECƏ DÜŞƏ BİLƏRDİ?»......................................300
İYİRMİ YEDDİNCİ BEYTİN ŞƏRHİ: «SƏN İKİ CAHANSAN».302
İYİRMİ SƏKKİZİNCİ BEYTİN ŞƏRHİ «SƏN PAK XƏZİNƏSƏN»...........................................................305
İYİRMİ DOQQUZUNCU BEYTİN ŞƏRHİ: «SƏNİN KÖLGƏN YOXDUR» ...............................................................306
XƏZİNƏ QAZANMAĞIN YOLU HEÇLİYİNİ DƏRK ETMƏKDİR.......................................................................308
OTUZUNCU BEYTİN ŞƏRHİ: «KAMANA BƏNZƏR ÇƏRX SƏNİN ANININ HƏDƏFİDİR»........................................314
DOLÇA BÜRCÜ ..........................................................................317
OTUZ BİRİNCİ BEYTİN ŞƏRHİ: «GECƏ VƏ GÜNDÜZ SƏNİN YOLUNU GÖZLƏYİR».....................................................320
OTUZ İKİNCİ BEYTİN ŞƏRHİ: «AĞLIN ŞƏFASI SƏNSƏN» ...322
OTUZ ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ: «SƏNİ GÖZLƏYƏNLƏRİN GECƏSİNİ GÜNDÜZƏ ÇEVİR».................325
«SİRLƏR XƏZİNƏSİ»NDƏN DÖRDÜNCÜ NƏTİN ŞƏRHİ.......329
DÖRDÜNCÜ NƏTİN BAŞLICA ÖZƏLLİKLƏRİ ........................330
BİRİNCİ BEYTİN ŞƏRHİ: «SƏN GÜNƏŞSƏN»..........................331
MƏKKƏ VƏ MƏDİNƏ..................................................................331
İKİNCİ BEYTİN ŞƏRHİ: «BİZƏ NUR VƏ ƏTİR VER» .............335
ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ: «FƏRYADIMIZ SƏNİN ÜÇÜNDÜR»..........................................................................336

DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ: «ATINI ƏCƏMƏ ÇAP» .............337
BEŞİNCİ BEYTİN ŞƏRHİ: «BU CAHANI TƏZƏLƏ» .................339
ALTINCI BEYTİN ŞƏRHİ: «XÜTBƏNİ SƏN OXU» ...................341

YEDDİNCİ BEYTİN ŞƏRHİ: «SƏNİN TORPAĞIN ÖLKƏYƏ ƏTİR SAÇDI» ...........345
SƏKKİZİNCİ BEYTİN ŞƏRHİ: «ASUDƏLƏRİ HÖKMDARLIQ TAXTINDAN DÜŞÜR» ...........346
DOQQUZUNCU BEYTİN ŞƏRHİ: «ONLAR EVDƏ YAŞAYAN CİNLƏRDİR» ...........347
ONUNCU BEYTİN ŞƏRHİ: «ONLARIN RUZİLƏRİNİ AZALT» ..... 351
ON BİRİNCİ BEYTİN ŞƏRHİ: «GƏL BİZƏ CAN OL» ................359
SÜLEYMAN ŞAH VƏ QARIŞQA ...............364
NİZAMİYƏ GÖRƏ ƏDALƏTLİ CƏMİYYƏTİN ÖLÇÜLƏRİ .....368
ON İKİNCİ BEYTİN ŞƏRHİ: «DİNİN (ALTINDAN) YARĞIN AÇIRLAR» ...........375
ON ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ: «ORDUNUN MƏRKƏZİ SƏNSƏN» ...........378
ON DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ: «ƏLİNİ VURUŞ MEYDANINA, ÖMƏRİ ŞEYTAN QARŞISINA GÖNDƏR» .......380
ON BEŞİNCİ BEYTİN ŞƏRHİ: «GECƏ ZÜLFÜNÜ YƏMƏN AYININ BAŞINA SAL» ...........385
HƏDİSLƏRDƏ YƏMƏN ÖLKƏSİ VƏ YƏMƏNLİLƏR ..............387
ON ALTINCI BEYTİN ŞƏRHİ: «VURUŞ ÜÇÜN KƏMƏRİNİ BAĞLA» ...........391
NİZAMİYƏ GÖRƏ «QAPIBAĞLAYANLAR»IN TƏFSİRİ .........391
ON YEDDİNCİ BEYTİN ŞƏRHİ: «YUXUDA KEÇİRDİYİM BEŞ YETMİŞ İL BƏSDİR» ...........396
ON SƏKKİZİNCİ BEYTİN ŞƏRHİ: «DUR VƏ İSRAFİLƏ BUYUR»...399
İSRAFİL ADLI MƏLƏK VƏ QİYAMƏT GÜNÜ ..........399
ON DOQQUZUNCU BEYTİN ŞƏRHİ: «SİRLƏR PƏRDƏSİNİN ARDINDA OTUR» ...........411
İYİRMİNCİ BEYTİN ŞƏRHİ: «ƏLİNİ QALDIR VƏ HAMIYA ƏL TUT» ...........415
İYİRMİ BİRİNCİ BEYTİN ŞƏRHİ: «SƏN ANCAQ DOĞRU OLANI SEVİRSƏN» ...........419
İYİRMİ İKİNCİ BEYTİN ŞƏRHİ: «BÜTÜN ÇƏTİN İŞLƏRİ HƏLL EDƏRSƏN» ...........423

İYİRMİ ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ: «ƏL BARMAĞINLA BİR DAİRƏ CIZ» ....... 426
İYİRMİ DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ: «SƏNİN İŞİNƏ HEÇ KİM QARIŞA BİLMƏZ» ....... 431
İYİRMİ BEŞİNCİ BEYTİN ŞƏRHİ: «SƏNİ GÖRSƏ, HƏR İKİ CAHAN XİRQƏSİNİ ƏYNİNDƏN ÇIXARAR» ....... 433
ALTINCI BEYTİN ŞƏRHİ: NİZAMİNİN BEYNİ SƏNİN ƏTRİNLƏ CANLANIR ....... 435
İYİRMİ YEDDİNCİ BEYTİN ŞƏRHİ: «SÜLEYMAN MÜLKÜNÜ BU FƏQİRƏ BAĞIŞLA» ....... 437
NİZAMİYƏ GÖRƏ «VƏFA ƏTRİNİN» ŞƏRHİ ....... 440
UCA ALLAH (c.c) NİZAMİNİN DUASINI QƏBUL ETMİŞDİR ....... 443
DUA ....... 445
QAYNAQLAR ....... 446

# G İ R İ Ş: DƏYƏR BİZİM SƏRHƏDİMİZDİR

«Hz. Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və hz.Məhəmməd (s.a.s.)» mövzusunun dərindən öyrənilməsi bir-birindən asılı olan bir neçə məsələnin araşdırılmasına bağlıdır. Bu mövzunu doğru qavramaq, doğru dəyərləndirmək üçün ilk sırada klassik Azərbaycan türk ədəbiyyatının xarakteri, bu ədəbiyyatın qaynaqları və hədəfləri doğru müəyyən edilməlidir.

İslam mühitində yaranan, böyük ədəbi əsərlər ortaya qoyan qədim və orta yüzilliklər Azərbaycan türk ədəbiyyatının başlıca qaynaqlarından biri İslam dini və mədəniyyətidir. Bu mədəniyyətin ölməz dəyərlərini doğru öy-rənmədən klassik Azərbaycan türk ədəbiyyatının mahiyyətini, mövzularını, başlıca dəyərlərini olduğu kimi qavramağın yolu bağlıdır. **Təbiidir ki, dəyər yoxdursa, azad, öz kimliyini anlayan fərqli bir millət də yoxdur. Çünki dəyər bizim sərhədimizdir, dəyər bizim ölçümüzdür, dəyər bizi başqalarından ayıran, seçən cövhərdir. Azərbaycan xalqını tanımağın, tanıtmağın, onu sevməyin yolu da bu xalqın dəyərlərini bilməyə bağlıdır. Dəyər insanı, toplumu daimi müsbət yöndən yeniləşdirir, onu köhnəlməyə qoymur, insani və milli düşüncəni diri saxlayır, cəhalətin yolunu bağlayır, azad və ədalətli insanın, toplumun başlıca dayaqlarına, güc qaynağına çevrilir. Bu ölməz dəyərlər unudulanda, təhrif olunanda, doğru anlaşılmayanda köləliyə gedən yolun qapısı açılmış olur.**

Hz.Nizami Gəncəvi kimi ölməz sənətkarlar azad, ədalətli insan olmağın, barış içində yaşayan bir toplumun ölçülərini, dəyərlərini müəyyənləşdiriblər. **Nizami Gəncəvi irsinin başlıca hədəfi uca Allahı insana tanıtmaqdır, qadir Allahı**

**və Onun aciz qulunu bir-birinə sevdirməkdir.** Uca Allahı tanımağın yolu da onun göndərdiklərini öyrənmək, onun buyruqlarını (əmr və yasaqlarını) yerinə yetirməklə mümkündür. Bu, insan və toplum olaraq diri qalmağın, xilasın, azad və ədalətli olmağın tək yoludur.

## HZ. NİZAMİYƏ GÖRƏ DÜŞÜNCƏMİZİN QAYNAQLARI

**Hz.Nizami Gəncəviyə görə, bizim düşüncəmizin, varlığımızın qaynaqları üçdür: islami dəyərlər, milli dəyərlər, bəşəri dəyərlər. Diqqətlə düşünsək, görərik ki, bu dəyərlər pozulanda ilahi nizamdan uzaqlaşma baş verir və insan köləliyə yuvarlanır, yadların və nəfsinin köləsinə çevrilir. Bu dəyərlərin pozulması sonda insanı fitrətindən uzaqlaşdırır, ədalətsiz, kölə, sevgidən uzaq bir insan tipi və başıpozuq bir toplum yaranır.**

Deməli, bu gün hz.Nizaminin, eləcə də bütün böyüklərimizin yaratdığı ölməz dəyərləri olduğu kimi öyrənmək və öyrətmək bir milli və təxirəsalınmaz vəzifədir.

## İMANIN ƏSASLARI

«Hz. Nizami Gəncəvi yaradıcılığında peyğəmbərlik anlayışı və Hz.Məhəmməd (s.a.s.)» mövzusunu diqqətlə araşdırmaq üçün öncə bu məsələlərin müqəddəs kitabımız Quranda qoyuluşuna baxmalıyıq.

**İslam dininə görə, imanın əsasları bunlardır: Allahın varlığına və birliyinə inanmaq, mələklərə inanmaq, kitablara inanmaq, peyğəmbərlərə inanmaq, axirət gününə inanmaq, xeyir və şəri ilə birlikdə qədərə inanmaq.** Böyük

İslam alimi Əhməd bin Hənbələ görə, «İslam aşkar və meydanda olandır. İman isə qəlbdədir».[1]

İslam Peyğəmbəri həzrət Məhəmməd (s.a.s) bir hədisində imanı belə tərif etmişdir: «İman, Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə və bir də xeyir və şəri ilə birlikdə qədərə inanmaqdır».[2]

Buradan da göründüyü kimi, iman bir könül işidir, könüldən bir şeyə inanmaqdır. İslam alimləri kamil imanla bağlı çeşidli düşüncələr irəli sürmüşlər. Bu dəyərləndirmələr sırasında aşağıdakı ölçü demək olar ki, bütün alimləri birləşdirmişdir: «İman, kalp ile tasdik, dil ile ikrar ve uzuvlarla amel etmekdir»[3].

İman və imanla əməlin bağlılığı məsələsi Qurani-Kərimin ayrı-ayrı ayələrində də özünə yer tutmuşdur. Bu ayələrdən bir neçəsinə baxaq:

لَّكُمْ وَطَعَامُكُمْ حِلُّ لَّهُمْ وَالْمُحْصَنَاتُ مِنَ الْمُؤْمِنَاتِ وَالْمُحْصَنَاتُ مِنَ
الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ إِذَا آتَيْتُمُوهُنَّ أُجُورَهُنَّ مُحْصِنِينَ غَيْرَ
مُسَافِحِينَ وَلاَ مُتَّخِذِي أَخْدَانٍ وَمَن يَكْفُرْ بِالإِيمَانِ فَقَدْ حَبِطَ عَمَلُهُ وَهُوَ
فِي الآخِرَةِ مِنَ الْخَاسِرِينَ

(Maidə, 5/5)

«Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır. Möminlərin, həmçinin sizdən əvvəl kitab verilmişlərin (yəhudilərin və xaçpərəstlərin) azad və ismətli (özlərini zinadan və nəfslərini haram şeylərdən qoruyan) qadınları mehrlərini verdiyimiz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə (evlənmək üçün)

1. «el-Müsned», III, 134-135.
2. Müslim, «İman», I.
3. «İslamda İnanc Esasları», İstanbul, 2002, s. 36.

sizə halaldır. İmanı dananın bütün işləri boşa çıxar və o, axirətdə zərər çəkənlərdən olar!».

وَمَن يَعْمَلْ مِنَ الصَّالِحَاتَ مِن ذَكَرٍ أَوْ أُنثَى وَهُوَ مُؤْمِنٌ فَأُوْلَـئِكَ يَدْخُلُونَ الْجَنَّةَ وَلاَ يُظْلَمُونَ نَقِيراً

(Nisa, 4/124)

«Kişi olsun, qadın olsun, hər kim mömin olaraq xeyirli işlər görərsə, belələri cənnətə girərlər və zərrəcə haqsızlığa uğramazlar».

فَمَن يَعْمَلْ مِنَ الصَّالِحَاتِ وَهُوَ مُؤْمِنٌ فَلَا كُفْرَانَ لِسَعْيِهِ وَإِنَّا لَهُ كَاتِبُونَ

(Ənbiya, 21/94)

«Bu etibarla hər kim mömin olaraq xeyirli işlər görərsə, onun əməli inkar edilməyəcəkdir. Biz bunu onun əməl dəftərinə yazmaqdayıq».

Göründüyü kimi, imanın şərtləri sırasında peyğəmbərlərə iman da var və onların gətirdiklərinə uyğun hərəkət etmək bir hökmdür.

## HAQQ DİNİNİN ÖZƏLLİKLƏRİ

İslam dini son dindir və haqq dinidir. **Haqq dini olmağın özəllikləri də bunlardır: haqq dininin ilahi qaynağı var, dini göndərən, onu yaradan Allahdır, insanların birbaşa Allahla danışmağı mümkün olmadığına görə uca Allah dinini qullarına çatdırmaq üçün insanlar arasından peyğəmbərlər seçir, din peyğəmbərlərin təbliğatı ilə öyrənilir, peyğəmbərlər təbliğ mətnini Allahdan alırlar, bu mətnlər kitablardır, Allahın dininin məqsədi insanı xoşbəxt etməkdir.** (Bütövlükdə İslam dininin məqsədi, hədəfi beşdir:

həyatı qorumaq, ailəni qorumaq, insan ağlını qorumaq, dini qorumaq, malı qorumaq. Yeri gəlmişkən, onu da deyək ki, Qurani-Kərimdə bu hədəflərə çatmağın yolları və ilahi ölçüləri bir-bir göstərilib). Haqq dini olmağın bir özəlliyi də axirətə inanmaqdır. Dinə görə, gerçək xoşbəxtlik axirətdədir.

Bütün peyğəmbərlər bu ilahi dəyərləri təbliğ etmişlər. Kitabı olan (Zəbur, Tövrat, İncil, Quran) dinlər (Yəhudilik, Xristianlıq, İslam) bu müqəddəs dəyərlər üzərində qurulmuşdur. Yuxarıda sadalanan dinlərdən üçü (Yəhudilik, Xristianlıq, İslam) səmavi dindir. Ancaq Yəhudilik və Xristianlıq da təhrif edildiyinə görə haqq dini özəlliyini itirmişdir.

## İSLAM DİNİNİN ƏSASLARI

Deyildiyi kimi, İslam dini son və haqq dinidir. İmanın əsasları olduğu kimi, İslamın da əsasları var və bu əsaslar sırasında peyğəmbərlərə inanmaq da yer tutur. **İslam dininin əsasları bunlardır: Allahdan başqa Tanrı yoxdur və Məhəmməd onun elçisidir, namaz qılmaq, zəkat vermək, Ramazan orucu tutmaq, imkan olduqda Kəbəni ziyarət edib həcc vəzifəsini yerinə yetirmək.**

İslam dini, bu dünya və axirət dini olmaqla bir sıra özəlliklərə sahibdir. Öncə bu din son və ən mükəmməl (yetkin) dindir, bu din hz. Məhəmməddən (s.a.s) öncə olan peyğəmbərləri və kitabları təsdiq edir, bütün haqq peyğəmbərlərə və ilahi kitablara inanmağı əmr edir:

آمَنَ الرَّسُولُ بِمَا أُنزِلَ إِلَيْهِ مِن رَّبِّهِ وَالْمُؤْمِنُونَ كُلٌّ آمَنَ بِاللّهِ وَمَلآئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ لاَ نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِّن رُّسُلِهِ وَقَالُواْ سَمِعْنَا وَأَطَعْنَا غُفْرَانَكَ رَبَّنَا وَإِلَيْكَ الْمَصِيرُ

(Bəqərə, 2/285)

«Peyğəmbər də Rəbbindən özünə endiriləni iman etdi, möminlər də. Bunların hamısı Allaha, onun mələklərinə, kitablarına və peyğəmbərlərinə inandı. Onun peyğəmbərlərindən heç birini başqalarından ayıra bilmərik, dedilər. (Allahın hökmlərini) eşitdik (anladıq) və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla, (axırda) Sənin dərgahına (hüzuruna) qayıdacağıq!».

Ancaq yəhudilər yalnız İsrail övladlarından olanları və təkcə Tövratı qəbul edirlər. Xristianlar da İsrail övladlarından olan peyğəmbərlərə, Tövratla birgə İsa peyğəmbərə və İncilə inanırlar. **İslam isə bütün səmavi dinləri və haqq peyğəmbərlərini tanıyır. İslam bəşəri bir dindir. O, onun peyğəmbəri də bir millətə, bir topluma deyil, bütün insanlığa göndərilmişdir:**

قُلْ يَا أَيُّهَا النَّاسُ إِنِّي رَسُولُ اللّهِ إِلَيْكُمْ جَمِيعاً الَّذِي لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ لا إِلَـهَ إِلاَّ هُوَ يُحْيِـي وَيُمِيتُ فَآمِنُواْ بِاللّهِ وَرَسُولِهِ النَّبِيِّ الأُمِّيِّ الَّذِي يُؤْمِنُ بِاللّه وَكَلِمَاتِهِ وَاتَّبِعُوهُ لَعَلَّكُمْ تَهْتَدُونَ

(Əraf, 7/158)

«(Ey Rəsulum!) De: «Ey insanlar! Mən Allahın sizin, hamınıza göndərilmiş peyğəmbəriyəm. (O Allah) göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir Tanrı yoxdur. O dirildir və öldürür. Buna görə də, Allaha, Allahın sözlərinə inanan və ümmi peyğəmbər olan Rəsuluna iman gətirin və ona tabe olun ki, doğru yolu tapa biləsiniz!».

وَمَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِّلنَّاسِ بَشِيراً وَنَذِيراً وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

(Səbə, 34/28)

«(Ey Rəsulum!) Biz səni (təkcə öz qövmünə deyil) bütün insanlara (möminlərə Cənnətlə) müjdə verən, (kafirləri isə Cəhənnəm əzabı ilə) qorxudan bir peyğəmbər olaraq göndərdik. Ancaq insanların çoxu bunu bilməz!».

Qurana görə peyğəmbər cinlərə də göndərilmişdir:

قُلْ أُوحِيَ إِلَيَّ أَنَّهُ اسْتَمَعَ نَفَرٌ مِّنَ الْجِنِّ فَقَالُوا إِنَّا سَمِعْنَا قُرْآناً عَجَباً . يَهْدِي إِلَى الرُّشْدِ فَآمَنَّا بِهِ وَلَن نُّشْرِكَ بِرَبِّنَا أَحَداً

(Cin, 72/1-2)

«Ey Məhəmməd! De ki, mənə belə vəhy olundu: «Cinlərdən bir zümrə (mənim Quran oxumağımı) dinləmiş və belə demişdir: Biz heyranlıq verən və doğru yola yönəldən bir Quran dinlədik. Biz də ona iman etdik və biz bir daha heç kəsi Rəbbimizə şərik qoşmayacağıq».

İslam dini insan yaradılışına, insan fitrətinə ən uyğun olan bir dindir. Belə ki insan varlığı maddədən (insan torpaqdan yaradılıb) və ruhdan ibarətdir. **İslam dini də insanın maddi varlığına və ruhuna üz tutur, onlarla bağlı ilahi qaydalar müəyyənləşdirir. İslam insan xoşbəxtliyini bu iki təməlin ölçülü bir biçimdə, bir arada tutulmasında görür və bununla bağlı ilahi ölçülər buyurur. İslam dini insan ağlına böyük önəm verir, onu qorumağın yollarını göstərir. İslamda ağılla vəhy arasında uyğunsuzluq yoxdur, vəhylə gələn ilahi mesajlar ağılla da təsdiq olunur.** İslam insan fitrətinə uyğundur və bu dünya ilə axirət arasında tarazlıq yaradır:

وَابْتَغِ فِيمَا آتَاكَ اللَّهُ الدَّارَ الْآخِرَةَ وَلَا تَنسَ نَصِيبَكَ مِنَ الدُّنْيَا وَأَحْسِن كَمَا أَحْسَنَ اللَّهُ إِلَيْكَ وَلَا تَبْغِ الْفَسَادَ فِي الْأَرْضِ إِنَّ اللَّهَ لَا يُحِبُّ الْمُفْسِدِينَ

(Qəsəs, 28/77)

«Allahın sənə verdiyindən özünə axirət qazan (malını Allah yolunda sərf et). Dünyadakı nəsibini də unutma. Allah sənə (sərvət verməklə) yaxşılıq etdiyi kimi, sən də (varından yoxsullara, qohum-əqrabaya xərcləməklə) yaxşılıq et. Yer

üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah, fitnə-fəsad törədənləri sevməz!».

İslam Peyğəmbəri bu dünya ilə axirət arasındakı tarazlığı bir mübarək hədisində belə anladır: «Mən yəhudilik, ya da xristianlığı təbliğ etmək üçün göndərilmiş bir peyğəmbər deyiləm. Əksinə, mən orta yolu seçən, sağlam yaradılışa uyğun olan, asan və yaşanması mümkün olan bir dini öyrətmək üçün göndərildim. Məhəmmədin varlığı qüdrət əlində olan Allaha and içirəm ki, Allah yolunda və İslamı yaymaq uğrunda bir sabah yüyürüşü, bir axşam gəzintisi dünyadan və onun içində olan hər şeydən dəyərlidir. Yenə and içirəm ki, sizdən birinizin savaş sırasında yer tutması altmış illik (nafilə) namazından xeyirlidir»[4].

## PEYĞƏMBƏRLİK ANLAYIŞI

Biz, «Hz.Nizami Gəncəvi yaradıcılığında peyğəmbərlik anlayışı və hz. Məhəmməd (s.a.s.)» mövzusunun daha dərindən anlaşılması üçün bütövlükdə İslam dinində peyğəmbərlik institutunun yeri və önəmi üzərində durmağı da doğru sayırıq. Hər şeydən öncə onu deməliyik ki, peyğəmbərlər Allaha yaxın ən uca zirvələrdir. İslam dinində peyğəmbərliklə bağlı bir neçə qavram var: **nübüvvət, vəhy, nəbi, rəsul.**

«Nübüvvət» ərəbcə «bilinməyən bir şeyi xəbər vermək» deməkdir. «Dini kültürümüzde peygamberlik diye intikal eden nübüvvet terim olaraq şöyle tanımlanır: Kainatı yaratan Allahın, dini ve dünyevi konularda insanları bilgilendirip buyruklarını haber vermək üzere seçtiyi bir insani elçilikle görevlendirmesidir. Yüce Allah elçilik yapmakla görevlendirdiği kişiye başta kendi varlığı, nitelikleri, canlı-

4. Ahmed bin Hanbel, «el-Müsned», V, 266.

cansız bütün yaratıkları barındıran kainatın yaratılışı, oluşumu, yaratılış amacı, işleyişi ve sonu, ahiret alemi, varlıklar içinde insanın yeri, önemi ve görevleri, bilgi üretme yöntemleri, fert ve toplumun mutluluğu için dünya hayatında uyulması gereken belli başlı kurallar olmak üzere insanı ilgilendiren hemen her konuda vahiy yoluyla bilgiler öğretmiş ve bunları diger insanlara tebliğ etmesini emr etmişdir. Şu halda Allah ile yaratıkları arasında ilişki ve iletişimi ifade eden nübüvvet müessesesinde vehy aslı bir unsur olaraq karşımıza çıkar».[5]

İslam dinində peyğəmbərlik institutu ilə bağlı başqa bir önəmli məsələ vəhy anlayışıdır. «Gizlice söylemek ve bildirmek, ya da gizlice söylenen söz» anlamında işlənən bu söz termin olaraq «… Allah Tealanın çeşitli konulara ilişkin bilgileri söz ve ya mana şeklinde, doğrudan doğruya, yaxut melek vasitasiyla peygamberlere gizlice bildirmesidir».[6]

Peyğəmbərlik anlayışı-institutu ilə bağlı terminlərdən biri də «Nəbi-Rəsul» qavramıdır. «Nəbi», ərəbcə «xəbər verən», «xəbər verilən insan» deməkdir. «Rəsul» isə «xəbər gətirən elçi» anlamındadır. Bu iki termin yerinə daha çox «peyğəmbər» qavramı işlədilir. İslam dinində «nəbi» və «rəsul» terminləri çox zaman bir-birinin yerinə işləndiyi kimi, alimlər bu iki qavram arasında fərq olduğunu da irəli sürmüşlər: «…«resul» yeni bir şeriatla gönderilen peygamber», «nebi» ise önceki bir peygamberin getirdiyi şeriatı tebliğ eden peygamber diye tanımlanmıştır»[7].

Qurani-Kərimdə «rəsul» qavramı «mələk», ya da «mələklər» anlamında da işlədilmişdir:

---

5. «İslamda İnanc Esasları», İstanbul, 2002, s. 162.
6. «İslamda İnanc Esasları», İstanbul, 2002, s.162.
[7] «İslamda İnanc Esasları», İstanbul, 2002, s. 165.

الْحَمْدُ لِلَّهِ فَاطِرِ السَّمَاوَاتِ وَالْأَرْضِ جَاعِلِ الْمَلَائِكَةِ رُسُلاً أُولِي أَجْنِحَةٍ مَّثْنَى وَثُلَاثَ وَرُبَاعَ يَزِيدُ فِي الْخَلْقِ مَا يَشَاءُ إِنَّ اللَّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

(Fatir, 35/1)

«Həmd göyləri və yeri yoxdan var edən, mələkləri iki, üç və dörd qanadlı elçilər edən, yaratmaqda dilədiyi qədər də artıran Allaha məxsusdur. Allah şübhə yoxdur ki, hər şeyə qadirdir».

**İslam dininə görə, peyğəmbərlik uca Allahın insanlara rəhmətinin, sevgisinin, ədalət və hikmətinin göstəricisidir. Peyğəmbərlik institutunu zəruri edən şərt uca Allahın insanları bu dünyada və axirətdə xoşbəxt etmək istəyidir. İnsan təkbaşına, ağlı və duyğuları ilə Allahı doğru tanımaq gücündə deyil. Onun həmişə çaşmaq, yolunu azmaq ehtimalı var. Ona görə də, uca Allah insanı yaratdı, ona doğrunu açıqlayan bir kitab, bu kitabı insanlara öyrədəcək müəllimlər-peyğəmbərlər göndərdi. Peyğəmbərlik, kitabı, müəllimi, məktəbi olan, hədəfi Allahın razı qalacağı insan yetişdirmək olaraq müəyyənləşdirilmiş bir sistemdir.**

Yuxarıda deyildiyi kimi, peyğəmbərlərə iman İslamın və imanın əsaslarından biridir:

مَّا كَانَ اللّهُ لِيَذَرَ الْمُؤْمِنِينَ عَلَى مَا أَنتُمْ عَلَيْهِ حَتَّىَ يَمِيزَ الْخَبِيثَ مِنَ الطَّيِّبِ وَمَا كَانَ اللّهُ لِيُطْلِعَكُمْ عَلَى الْغَيْبِ وَلَكِنَّ اللّهَ يَجْتَبِي مِن رُّسُلِهِ مَن يَشَاءُ فَآمِنُواْ بِاللّهِ وَرُسُلِهِ وَإِن تُؤْمِنُواْ وَتَتَّقُواْ فَلَكُمْ أَجْرٌ عَظِيمٌ

(Ali-İmran, 3/179)

«Allah pisi yaxşıdan ayırmadan möminləri yaşadığınız bu hal üzrə buraxacaq deyildir. Allah sizə qeybi bildirəcək də deyildir. Ancaq Allah peyğəmbərlərindən dilədiyini seçər (ona qullarının qəlblərində olanları bildirir). Bu

halda Allaha və peyğəmbərlərinə iman edin. Əgər inansanız və qorxsanız, ən böyük mükafat sizindir».

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ آمِنُواْ بِاللّهِ وَرَسُولِهِ وَالْكِتَابِ الَّذِي نَزَّلَ عَلَى رَسُولِهِ وَالْكِتَابِ الَّذِيَ أَنزَلَ مِن قَبْلُ وَمَن يَكْفُرْ بِاللّهِ وَمَلاَئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ وَالْيَوْمِ الآخِرِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيداً .

(Nisa, 4/136)

«Ey iman edənlər! Allaha, peyğəmbərinə endirdiyi kitaba və daha öncə endirdiyi kitaba iman edin. Kim Allahı, mələklərini, kitablarını, peyğəmbərlərini və axirət gününü inkar edərsə, son dərəcə böyük bir sapıqlığa düşmüş olar».

إِنَّ الَّذِينَ يَكْفُرُونَ بِاللّهِ وَرُسُلِهِ وَيُرِيدُونَ أَن يُفَرِّقُواْ بَيْنَ اللّهِ وَرُسُلِهِ وَيقُولُونَ نُؤْمِنُ بِبَعْضٍ وَنَكْفُرُ بِبَعْضٍ وَيُرِيدُونَ أَن يَتَّخِذُواْ بَيْنَ ذَلِكَ سَبِيلاً . أُوْلَـئِكَ هُمُ الْكَافِرُونَ حَقّاً وَأَعْتَدْنَا لِلْكَافِرِينَ عَذَاباً مُّهِيناً.

(Nisa, 4/150-151)

«Allahı və peyğəmbərlərini inkar edənlər, Allah və peyğəmbərləri arasını açmaq istəyənlər, bir qisminə inanıb, bir qismini inkar edənlər və (iman ilə küfr) arasında bir yol tutmaq istəyənlər. Kafir olanlar məhz bunlardır. Biz belə kafirlər üçün zəliledici bir əzab hazırladıq».

وَالَّذِينَ آمَنُواْ بِاللّهِ وَرُسُلِهِ وَلَمْ يُفَرِّقُواْ بَيْنَ أَحَدٍ مِّنْهُمْ أُوْلَـئِكَ سَوْفَ يُؤْتِيهِمْ أُجُورَهُمْ وَكَانَ اللّهُ غَفُوراً رَّحِيماً .

(Nisa, 4/152)

«Allaha və peyğəmbərlərinə iman edənlərə, onlardan heç biri arasında fərq qoymayanlara isə mükafatları veriləcəkdir. Allah çox bağışlayıcıdır, çox mərhəmətlidir».

Bu ayələrdən aydın göründüyü kimi, uca Allah bir neçə önəmli məsələni bir yerdə vurğulayır. **Bu məsələlərdən biri peyğəmbər seçiminin insanların əlində olmamasıdır. Peyğəmbərləri uca Allah seçir. Uca Allah seçdiyi**

**peyğəmbərlərin səlahiyyətlərinin sınırını da özü bəlli edir. Bu ayələrdə önə çıxan ikinci məsələ Allaha imanla peyğəmbərə imanın yanaşı, bir-birinə bağlı olaraq verilməsidir. Qadir Allahın peyğəmbərlərə iman etmədən Allaha imanın mümkünsüzlüyünü buyurması, əmr etməsi bir yandan Allahın birliyi inancının qorunub saxlanmasının hədəf olduğunu, başqa yöndən isə peyğəmbərlik institutunun və peyğəmbərlərin önəmini göstərir.**

Uca Allah seçdiklərinə yetki verir, onları qoruyur və insanlara uca Allaha qovuşduracaq yolun peyğəmbər öndərliyində gediləcəyini bildirir. Peyğəmbər öndərliyindən, ona iman etməkdən imtina isə küfrə gedən yolun önünü açır. Ona görə də, uca Allah yuxarıdakı ayələrdə peyğəmbərlərə imandan imtinanın ağır cəzasını da göstərdiyimiz önəmli məsələlərlə birgə xatırlatmağı zəruri sayır. Mərhəmətli Allah bu yanlış yola girənlərin «azacağını», «kafir olacağını», «zəliledici bir əzaba düçar olacağını» israrla bildirir. Allaha və peyğəmbərə inananların isə «mükafatlandırılacağı» bəyan edilərək, bunun ardından uca Allahın «bağışlayıcı və mərhəmətli» olduğu önə çəkilir. **Deməli, peyğəmbərlik və peyğəmbərlər Allahın birliyi inancının ayrılmaz tərkib hissəsidir və bu məsələnin yanlış yozumuna Allahın heç bir güzəşti yoxdur.**

## PEYĞƏMBƏRLƏRİN SAYI VƏ ÖZƏLLİKLƏRİ

İslam alimləri peyğəmbərlərin sayı ilə bağlı çeşidli rəqəmlər göstərmişlər. Qurani-Kərimdə peyğəmbərlərin sayı ilə bağlı dəqiq bir bilgi yoxdur. Qurani-Kərimdə bir sıra peyğəmbərlərin adı çəkilmiş, başqalarından isə danışılmamışdır[8]. Qurani-Kərimdə adı çəkilən peyğəmbərlər bunlardır: Adəm, Davud, İlyas, Əyyub, Harun, Hud, İbrahim, İdris, İlyas,

---

[8] «Nisa», 4/164; «Nəhl», 16/36; «Fatır»,35/24; «Mömin», 40/78.

İsa, İshaq, İsmayıl, Lut, Musa, Nuh, Saleh, Süleyman, Şuayb, Yaqub, Yəhya, Yunus, Yusif, Zəkəriyyə, Zülqifl və həzrət Məhəmməd. Uzeyir, Loğman və Zülqərneynin peyğəmbərlikləri isə mübahisəlidir.

**Peyğəmbərlər Allahın seçdiyi mübarək insanlar olduqları üçün onların bir sıra özəllikləri var. Bu özəllikləri aşağıdakı kimi sıralamaq olar: onlar insandırlar, onlar da adi insanlar kimi doğular, yeyər, içər, sevər, evlənər, işləyər, qəmlənər, xəstələnər, ölər.** Qurani-Kərimdə peyğəmbərlərin insan olmaları, yəni bəşəri yönü dönə-dönə vurğulanır:

مَّا الْمَسِيحُ ابْنُ مَرْيَمَ إِلاَّ رَسُولٌ قَدْ خَلَتْ مِن قَبْلِهِ الرُّسُلُ وَأُمُّهُ صِدِّيقَةٌ كَانَا يَأْكُلاَنِ الطَّعَامَ انظُرْ كَيْفَ نُبَيِّنُ لَهُمُ الآيَاتِ ثُمَّ انظُرْ أَنَّى يُؤْفَكُونَ

(Maidə, 5/75)

«Məryəm oğlu Məsih ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişdir. Onun anası isə çox pak (Allahın hökmlərini sidq ürəkdən təsdiq edən) bir qadın idi. Onların hər ikisi (adi insanlar kimi) yemək yeyirdi. Gör, Biz ayələri onlara necə başa salırıq, onlar (bu ayələrdən) gör, necə üz çevirirlər».

وَلَقَدْ أَرْسَلْنَا رُسُلاً مِّن قَبْلِكَ وَجَعَلْنَا لَهُمْ أَزْوَاجاً وَذُرِّيَّةً وَمَا كَانَ لِرَسُولٍ أَن يَأْتِيَ بِآيَةٍ إِلاَّ بِإِذْنِ اللّهِ لِكُلِّ أَجَلٍ كِتَابٌ .

(Rəd, 13/38)

«Səndən öncə də peyğəmbərlər göndərmiş və onlara xanımlar və uşaqlar vermişdik. Heç bir peyğəmbərin Allahın izni olmadan bir möcüzə göstərməsi mümkün deyildir. Hər surənin (yazıldığı) bir kitab vardır».

وَمَا أَرْسَلْنَا قَبْلَكَ إِلاَّ رِجَالاً نُّوحِي إِلَيْهِمْ فَاسْأَلُواْ أَهْلَ الذِّكْرِ إِن كُنتُمْ لاَ تَعْلَمُونَ .وَمَا جَعَلْنَاهُمْ جَسَداً لَّا يَأْكُلُونَ الطَّعَامَ وَمَا كَانُوا خَالِدِينَ

(Ənbiya, 21/7-8)

«Səndən öncə də özlərinə vəhy etdiyimiz bir sıra adamları göndərmişdik. Əgər bilmirsinizsə, (inanan) kitab əhlindən soruşun. Onları yemək yeməz bir cəsəd deyildilər. Əbədi də deyildilər».

وَمَا جَعَلْنَا لِبَشَرٍ مِّن قَبْلِكَ الْخُلْدَ أَفَإِن مِّتَّ فَهُمُ الْخَالِدُونَ .

(Ənbiya, 21/34)

«Səndən öncə heç bir insanı ölümsüz etmədik. Sən ölüb də onlar əbədi qalacaqlarmı?».

وَقَالُوا مَالِ هَذَا الرَّسُولِ يَأْكُلُ الطَّعَامَ وَيَمْشِي فِي الْأَسْوَاقِ لَوْلَا أُنزِلَ إِلَيْهِ مَلَكٌ فَيَكُونَ مَعَهُ نَذِيراً .

(Furqan, 25/7)

«Dedilər: «Bu necə peyğəmbərdir ki, yemək yeyir, bazarları gəzib dolaşır? Məgər ona özü ilə birlikdə (insanları Allahın əzabı ilə) qorxudan (və onun həqiqi peyğəmbər olduğunu təsdiq edən) bir mələk göndərilməli deyilmi?».

وَما أَرْسَلْنَا قَبْلَكَ مِنَ الْمُرْسَلِينَ إِلَّا إِنَّهُمْ لَيَأْكُلُونَ الطَّعَامَ وَيَمْشُونَ فِي الْأَسْوَاقِ وَجَعَلْنَا بَعْضَكُمْ لِبَعْضٍ فِتْنَةً أَتَصْبِرُونَ وَكَانَ رَبُّكَ بَصِيراً .

(Furqan, 25/20)

«Səndən öncə heç bir peyğəmbər göndərmədik ki, yemək yeməmiş və küçələrdə gəzməmiş olsun. Ey insanlar! Biz sizin bəzinizi başqası üçün sınaq vasitəsi etdik. Heç səbir etmirsinizmi? Rəbbim hər şeyi haqqıyla görəndir».

إِنَّكَ مَيِّتٌ وَإِنَّهُم مَّيِّتُونَ.

(Zumər, 39/30)

«(Ey Məhəmməd!) Əlbəttə, sən də öləcəksən, onlar da öləcəklər».

**Təbiidir ki, uca Allahın peyğəmbərləri insanlar arasından seçməsinin də bir hikməti var. İnsanların öz cinsindən olmayan bir varlığın vasitəsi ilə Allahın insanlarla bağlı bəlli etdiyi dəyərlərə inanması, onun ardınca getməsi inandırıcı deyil. Allahın verdiyi müqəddəs bir yükü, əmanəti insanlar arasından seçilmiş bir peyğəmbər daşıya bilirsə, deməli, başqa insanlar da onun ardınca gedə bilər. Peyğəmbərlərin insanlar arasından seçilməsi insanların düşüncəsində şübhəyə, etiraza, inkara və suala yer qoymur. Peyğəmbərlər mələk olsa idi, insanlar onun dediklərini yerinə yetirməyə gücü çatmayacaqlarını asanlıqla irəli sürə bilərdilər.**

Ancaq peyğəmbərlər insan olsalar da, başqa insanlardan üstün ağlı, iti zəkası, gözəl əxlaqı, qüsursuz bədənləri ilə seçilirlər. İnsanlarla ünsiyyətdə, cəhalətlə mübarizədə bunlar çox önəmli üstünlüklərdir. «Hz. Yusufun cezbedici güzelliyi, hz. İbrahimin Nemrudu tartışmada mağlub eden deliller getirmesi ve puta tapmanın anlamsızlığını göstermek üzere zekice bir plan kurması bu konudan çarpıcı örneklerdendir».[9]

**Peyğəmbərlərin başqa bir özəlliyi vəhy ala bilmək gücündə olmaları və vəhy almalarıdır.** Bilindiyi kimi, vəhyin alınması çox ağır bir işdir. Adi insan bədəninin bu gücü yoxdur. Qaynaqların yazdığına görə, hz. Məhəmməd (s.a.s.) vəhy alarkən tərləyir, vəhyin gəlişi peyğəmbər dəvənin üstündə olarkən baş verirdisə, dəvə çökür, bir sıra hallarda yaxınlıqda olanlar arı vızıltısı kimi səslər eşidirdi[10].

**Peyğəmbərlərin bir özəlliyi də kişi cinsindən olmalarıdır.** Bunun səbəbi isə peyğəmbərlərin çox ağır bir

---

[9] «İslamda İnanc Esasları», İstanbul, 2002, s. 183.
[10] Buxari, «Müsnəd», I 34, II 176.

missiya daşıyıcısı olmaları ilə bağlıdır. Qadın bu ağır yükü daşımaq gücündə deyil.

**Peyğəmbərləri başqalarından seçən özəlliklərdən biri də onları Allahın seçməsidir. Peyğəmbərlik vərasət yolu ilə verilməz.**

**Peyğəmbərlərin günahdan qorunmaları da onların özəllikləri sırasında yer tutur. Heç bir peyğəmbər ilahi yükün daşıyıcısı olduğu dönəmdə günah işləməmişdir. Peyğəmbərlər inanılan, etibarlı insanlardır. Peyğəmbərlər əmanətə xəyanət etməz. Peyğəmbərlərin bir özəlliyi də vəhyi təbliğ etmələridir:**

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ .

(Maidə,5/67)

«Ey Peyğəmbər! Rəbbindən sənə endirilən (ayələri) təbliğ et. Əgər bunu etməsən, Rəbbinin peyğəmbərliyini təbliğ etməmiş olarsan. Allah səni insanlardan qoruyar. Allah, şübhəsiz, kafir qövmə hidayət etməz».

الَّذِينَ يُبَلِّغُونَ رِسَالَاتِ اللَّهِ وَيَخْشَوْنَهُ وَلَا يَخْشَوْنَ أَحَداً إِلَّا اللَّهَ وَكَفَى بِاللَّهِ حَسِيباً.

(Əhzab, 33/39)

«Peyğəmbərlər (peyğəmbərlik vəzifəsi olaraq) Allahın əmr və yasaqlarını təbliğ edərlər və Ondan qorxarlar. Ondan başqa da heç kimdən qorxmazlar. Allah özü haqq-hesab çəkməyə kifayətdir».

**Peyğəmbərlər uca Allahın sevimli, seçilmiş, ayrıca ilahi missiya ilə vəzifələndirilmiş qulları olmaqla birgə, dərəcələrinə görə bir-birindən fərqlənirlər.** Bu, Quranda da açıqca bildirilmişdir:

تِلْكَ الرُّسُلُ فَضَّلْنَا بَعْضَهُمْ عَلَى بَعْضٍ مِّنْهُم مَّن كَلَّمَ اللّهُ وَرَفَعَ بَعْضَهُمْ دَرَجَاتٍ وَآتَيْنَا عِيسَى ابْنَ مَرْيَمَ الْبَيِّنَاتِ وَأَيَّدْنَاهُ بِرُوحِ الْقُدُسِ وَلَوْ شَاء اللّهُ مَا اقْتَتَلَ الَّذِينَ مِن بَعْدِهِم مِّن بَعْدِ مَا جَاءتْهُمُ الْبَيِّنَاتُ وَلَـكِنِ اخْتَلَفُواْ فَمِنْهُم مَّنْ آمَنَ وَمِنْهُم مَّن كَفَرَ وَلَوْ شَاء اللّهُ مَا اقْتَتَلُواْ وَلَـكِنَّ اللّهَ يَفْعَلُ مَا يُرِيدُ .

(Bəqərə, 2/253)

«Bəli, bu peyğəmbərlər. Onlardan bəziləri başqalarına üstün qılınmışdır. Allahın danışdığı, bəzilərinin də dərəcələrini yüksəltdiyi kimsələr onlardır. Məryəm oğlu İsaya açıq dəlillər vermiş və onu Ruhul-Qüds ilə dəstəkləmişdir. Əgər Allah diləsəydi, bu peyğəmbərlərdən sonra gələn (millətlər) özlərinə açıq dəlillər gəldikdən sonra bir-birilərini öldürməzdilər. Ancaq ixtilafa düşdülər. Onlardan bir qismi iman etdi, bir qismi də küfr etdi. Əgər Allah diləsəydi, bir-birilərini öldürməzdilər. Ancaq Allah istədiyini edər».

## PEYĞƏMBƏRLƏRİN VƏZİFƏLƏRİ

**Peyğəmbərlərin bir sıra vəzifələri də var. Bunları aşağıdakı kimi sıralamaq olar: İnsanları bir olan Allaha inanmağa dəvət etmək, İlahi buyruqları (əmr və yasaqları) açıqlamaq, tətbiq etmək və insanlara örnək olmaq, bütün məsələlərdə ilahi hökmləri ölçü götürmək və nəfsi arzularına uymamaq, insanlara gözəl əxlaq aşılamaq, Allahın dəlili olmaq.** Biz bu vəzifələri qavramlarla versək, peyğəmbərin vəzifəsinin Təbliğ, Bəyan (açıqlama), Dəvət, Təlim, Təmizləmə olduğunu görərik. Bu beş ilahi vəzifə Quran ayələri ilə təsbit olunmuşdur.

**Təbliğ vəzifəsi:**

قُلْ أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ فَإِن تَوَلَّوا فَإِنَّمَا عَلَيْهِ مَا حُمِّلَ وَعَلَيْكُم مَّا حُمِّلْتُمْ وَإِن تُطِيعُوهُ تَهْتَدُوا وَمَا عَلَى الرَّسُولِ إِلَّا الْبَلَاغُ الْمُبِينُ .

(Nur, 24/54)

«De: «Allaha itaət edin, peyğəmbərə itaət edin. (Çünki Peyğəmbərə itaət etmək elə Allaha itaət etməkdir). Əgər (Peyğəmbərin əmrindən) üz döndərsiniz, (bilin ki) onun vəzifəsi ancaq ona tapşırılanı, sizin də vəzifəniz ancaq sizə tapşırılanı yerinə yetirməkdir. Əgər ona itaət etsəniz, doğru yolu tapmış olarsınız. Peyğəmbərin öhdəsinə düşən isə yalnız (dini, risaləti) açıq-aşkar təbliğdir».

**Bəyan (açıqlama) vəzifəsi:**

بِالْبَيِّنَاتِ وَالزُّبُرِ وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ

(Nəhl, 16/44)

«Onlara açıq dəlillər və kitabları göndərdik. Sənə də insanlara endiriləni onlara açıqlayasan deyə Quranı endirdik. Bəlkə onlar da düşünərlər».

**Dəvət vəzifəsi:**

ادْعُ إِلِى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ وَجَادِلْهُم بِالَّتِي هِيَ أَحْسَنُ إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِمَن ضَلَّ عَن سَبِيلِهِ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ

(Nəhl, 16/125)

«Ey Məhəmməd! Rəbbinin yoluna hikmətlə və gözəl öyüdlə dəvət et. Onlarla ən gözəl bir şəkildə mübahisə et. Şübhəsiz, öz yolundan azanları ən yaxşı bilən Rəbbindir. Doğru yolda olanları da ən yaxşı o bilir».

**Təlim (öyrətmək) vəzifəsi:**

رَبَّنَا وَابْعَثْ فِيهِمْ رَسُولاً مِّنْهُمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِكَ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَيُزَكِّيهِمْ إِنَّكَ أَنتَ العَزِيزُ الحَكِيمُ .

(Bəqərə, 2/129)

«Rəbbimiz! Onlara öz içlərindən sənin ayələrini oxuyan, kitab və hikməti öyrədən və onları (şirkdən) arındıran bir peyğəmbər göndər. Şübhəsiz, əziz və hakim olan ancaq sənsən».

**Təmizləmə vəzifəsi:**

Peyğəmbərin vəzifəsi insanları, toplumu pisliklərdən arındırmaqdır. İbadət və əməllə gerçəkləşən bu vəzifə insanda uca Allaha sonsuz bir inam yaradır. Peyğəmbər (s.a.s.) bu vəzifəni gözəl sözlə, gözəl davranışla, gözəl işlə gerçəkləşdirib:

هُوَ الَّذِي بَعَثَ فِي الْأُمِّيِّينَ رَسُولاً مِّنْهُمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَإِن كَانُوا مِن قَبْلُ لَفِي ضَلَالٍ مُّبِينٍ .

(Cümə, 62/2)

«Ummi ərəblər içindən onlardan olan, onlara Allahın ayələrini oxuyan, onları təmizləyən və onlara kitabı, hikməti öyrədən bir rəsul göndərən Odur. Halbuki, öncədən bu ərəblər açıq bir sapıqlıq içində idilər».

**Peyğəmbərlər vəhyi yaşanan bir dinə çevirmişlər.** Ona görə də Fəxrəddin Yıldıza görə, «Peygamberlik daha çok praktikle ilgili bir müessesedir»[11].

[11] «Altınoluk» dərgisi, sayı,184, Haziran, 2001, s. 7.

## PEYĞƏMBƏRLƏRİN TƏBLİĞ METODLARI

Peyğəmbərlər təbliğ görəvlərini sonadək yerinə yetirmişlər. Onlar üzərilərinə düşəni gerçəkləşdirmək üçün bir sıra metodlardan yararlanmışlar. Məsələn, hz. Məhəmməd təbliğin ilk mərhələsini gizli gerçəkləşdirmiş, bu mərhələdə təbliğdə **xəbərdarlıq metoduna** üstünlük vermiş, Allahın əzabı ilə qorxutmuşdur.

Peyğəmbərin təbliğdə ən güclü silahı səbir və dözüm idi. O, təbliğ siyasətində **mərhələli olmaq prinsipini** əsas götürmüşdür.

Peyğəmbərlərlə bağlı olan bir sıra xüsusiyyətlər onlara ilahi vəzifələrini yerinə yetirməkdə yardım etmişdir. Məsələn, bütün peyğəmbərlər risalətdən öncə xalq içində seviliblər, onlara böyük inam olub (risalətdən öncə Məkkədə insanlar hz.Məhəmmədi (s.a.s.) «Məhəmməd Əmin» adlandırırdı). Peyğəmbərlərin həyatı xalqın gözü qarşısında keçib, xalq onları tanıyıb, onlarla ünsiyyət qurub. (Hz. Məhəmmədin (s.a.s.) ömrünün bütün yönləri bəllidir). Bütün bunlar onlara inam yaradıb.

**Təbliğdə də başlıca məsələlərdən biri təbliğ edən insanın şəxsiyyətinə inamın olmasıdır.** Peyğəmbərlər **inandırma və çəkindirmə** yolu ilə insanları yaradan Allahın buyruqlarına yönəldiblər.

**Qurani-Kərimin təliminə görə, cəhalətlə mübarizədə aşağıdakı metod tətbiq olunmalıdır: Təbliğdə önəmli olan məsələlərdən biri ardıcıllıqdır.** Peyğəmbərlər bu təbliğ yoluna sonadək sadiq qalmışlar. Burada ardıcıllıq deyilərkən iki məsələ nəzərdə tutulur. Birincisi, təbliğdə nədən başlayıb nədə qurtarmaq önəmlidir. Məsələlərin doğru sırası ideyanın qəbulunda ayrıca yer tutur. Təbliğdə

kimdən başlamalı sualı da önə keçir. Məsələn, hz. Məhəmməd (s.a.s.) İslamı təbliğ edərkən öz ailəsindən və yaxınlarından başlayıb. Təbliğdə ardıcıllıq deyilərkən bir də ideya uğrunda ardıcıl olmaq, dönməzlik, sonadək mübarizə nəzərdə tutulur. Hz. Məhəmmədin (s.a.s.) şərəfli ömür yolu bunun gözəl örnəyidir.

**Quran təliminə görə, ardıcıl, çox, doğru çalışmaq da təbliğin önəmli məsələlərindən biridir.** Təbliğdə səbir, pisliklərə qarşı müqavimət gücü, fədakarlıq, yaxşılıqları təqdir də əsaslar sırasındadır. Düşünən, azad, imanlı, əxlaqlı insan yetişdirməyin tək yolu da budur.

## HƏZRƏT MƏHƏMMƏDİ (s.a.s.) BAŞQA PEYĞƏMBƏRLƏRDƏN AYIRAN ÖZƏLLİKLƏR

Biz, son peyğəmbər olan hz. Məhəmmədi (s.a.s.) başqa peyğəmbərlərdən ayıran özəlliklər üzərində də qısaca durmaq istəyirik.**Qurani-Kərimdə hz.Məhəmmədin (s.a.s.) peyğəmbər olduğu açıq bildirilmişdir:**

يَا أَيُّهَا النَّبِيُّ إِنَّا أَرْسَلْنَاكَ شَاهِداً وَمُبَشِّراً وَنَذِيراً . وَدَاعِياً إِلَى اللَّهِ بِإِذْنِهِ وَسِرَاجاً مُّنِيراً.

(Əhzab, 33/45-46)

«Ey peyğəmbər! Biz səni şahid, müjdəçi, uyarıcı, Allahın izni ilə ona dəvətedici və aydınladıcı bir işıq olaraq göndərdik».

**Qurana görə, Məhəmməd Peyğəmbərə iman Allah əmridir:**

آمِنُوا بِاللَّهِ وَرَسُولِهِ وَأَنفِقُوا مِمَّا جَعَلَكُم مُّسْتَخْلَفِينَ فِيهِ فَالَّذِينَ آمَنُوا مِنكُمْ وَأَنفَقُوا لَهُمْ أَجْرٌ كَبِيرٌ.

(Hədid, 57/7)

«Allaha və Rəsuluna iman edin. Allahın sizə verdiyi maldan Allah yolunda xərcləyin. İçinizdən iman edənlər və Allah yolunda sərf edənlər üçün böyük mükafat vardır».

**Qurana görə, hz.Məhəmmədin (s.a.s.) peyğəmbərliyinə inanmamaq küfrdür:**

وَمَن لَّمْ يُؤْمِن بِاللَّهِ وَرَسُولِهِ فَإِنَّا أَعْتَدْنَا لِلْكَافِرِينَ سَعِيراً .

(Fəth, 48/13)

«Kim Allaha və Rəsuluna iman etməsə, doğru budur ki, biz kafirlər üçün alovlu bir atəş hazırlamışıq».

**Hz.Məhəmmədin (s.a.s.) peyğəmbərliyi ümumbəşəridir.** Yəni, o, bir topluma, insan qrupuna deyil, bütün insanlığa göndərilmişdir:

وَمَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِّلنَّاسِ بَشِيراً وَنَذِيراً وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

(Səbə, 34/28)

«Ey Məhəmməd! Biz səni ancaq bütün insanlara müjdəçi və uyarıcı olaraq göndərdik. Ancaq onların çoxu bilmir».

**Hz. Məhəmmədin (s.a.s.) peyğəmbərliyinin dəlili Qurandır, onun üstün əxlaqıdır, onun möcüzələridir.** Qurandan öncəki ilahi kitablarda onun peyğəmbərliyi müjdələnmişdir:

وَإِذْ قَالَ عِيسَى ابْنُ مَرْيَمَ يَا بَنِي إِسْرَائِيلَ إِنِّي رَسُولُ اللَّهِ إِلَيْكُم مُّصَدِّقاً لِّمَا بَيْنَ يَدَيَّ مِنَ التَّوْرَاةِ وَمُبَشِّراً بِرَسُولٍ يَأْتِي مِن بَعْدِي اسْمُهُ أَحْمَدُ فَلَمَّا جَاءهُم بِالْبَيِّنَاتِ قَالُوا هَذَا سِحْرٌ مُّبِينٌ.

(Saf, 61/6)

«Məryəm oğlu İsa da belə demişdi: «Ey İsrail oğulları! Mən, məndən öncə göndərilmiş olan Tövratdakı şeyləri təsdiqedici və məndən sonra gələcək olan Əhməd adındakı peyğəmbəri də müjdələyici olaraq Allahın sizə göndərdiyi

peyğəmbəriyəm. Ancaq İsanın müjdələdiyi peyğəmbər açıq dəlillərlə gələndə də «bu bəlli bir sehrdir» demişlər».

وَإِنَّكَ لَعَلى خُلُقٍ عَظِيمٍ

(Qələm, 68/4)

«Və sən böyük bir əxlaq üzərindəsən».

**Hz.Məhəmmədi (s.a.s.) başqa peyğəmbərlərdən ayıran bir özəlliyi də onun son elçi olmasıdır:**

مَّا كَانَ مُحَمَّدٌ أَبَا أَحَدٍ مِّن رِّجَالِكُمْ وَلَكِن رَّسُولَ اللَّهِ وَخَاتَمَ النَّبِيِّينَ وَكَانَ اللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيماً

(Əhzab, 33/40)

«Məhəmməd adamlarınızdan hər hansı birinin atası deyil, ancaq Allahın rəsulu və Peyğəmbərlərin də sonuncusudur. Allah hər şeyi haqqıyla biləndir».

## ƏRƏB, FARS VƏ TÜRK ƏDƏBİYYATINDA NƏT

«Nət» termini ərəbcədir. Lüğətlərdə söz olaraq: «Bir kimsədə olan şeyləri vəsf etmək, onu tərifləməkdə mübaliğə etmək»[12], «Bir şeyi vəsf eləmək, ona aid olan sifətləri irad ilə nişan vermək»[13], «Vəsf, mədh və səna ilə birgə tərif və tövsif»[14], «Bir şeyi mədh edərək anlatmaq, vəsfləndirmək»[15] kimi izah olunmuşdur. Bir termin olaraq isə «Nət»: «Peyğəmbərimizin tərifi üzərinə söylənən şeir», «mövzusu Peyğəmbər olan qəsidənin adı», «Hz. Məhəmmədi öyən şeylər» «Divan edebiyyatında bilhassa Hz.Peygamber ve Hülefayi-Raşidin vasfında yazılan manzumelerdir».[16]

Ədəbiyyatda Hz.Peyğəmbəri (s.a.s.) mədh edən nətlər «Nəti-şərif», «Nəti-Nəbəvi», «Nəti-Peyğəmbər», «Nəti-rəsul» adlanmış, dörd xəlifə üçün yazılanlara «nəti-çahar yar» («dörd dostun tərifi»), Hz.Əli (r.a.) üçün yazılanlara isə «nəti-Əli» deyilmişdir. Bununla birgə, başqa Peyğəmbərlərə, əsri-səadət dönəmində sağ olarkən Hz.Peyğəmbərin (s.a.s.) cənnətlə müjdələdiyi on səhabəyə: Hz.Əbu Bəkir (r.a.) (öl.634), Hz.Ömər (r.a.) (öl.644), Hz.Osman (r.a.) (öl.656), Hz.Əli (r.a.) (öl.660), Hz.Əbu Ubeydə b. əl-Cərrah (r.a.) (öl.639), Hz.Əbdürrəhman b.Avf (r.a.) (öl. 651), Hz.Talha b. Ubeydullah (r.a.) (öl.656), Hz.Zubeyr b. əl-Avvam (r.a.) (öl. 656), Hz.Sad b. Əbi Vakkas (r.a.) (öl.674), Hz.Səid b. Zeyd (r.a.) (öl.671), dörd xəlifəyə, Hz.Həsən

---

[12] İbn Manzur, «Lisanül-Arab», Mısır, 1308, c. II, s. 405

[13] Mütərcim Asim Əfəndi, «Kamus Tercemesi», İstanbul, 1305, c. I, s. 331.

[14] Şemseddin Sami, «Kamusi-Türki», İstanbul, 1978, s.331.

[15] Ferit Devellioğlu, «Osmanlıca-Türkce Ansiklopedik Luqat», Ankara, 1970, s.969.

[16] «Türk Ansiklopedisi», Ankara, 1946-1961, c. 25, s. 146; «Kamusi-Türk», I, s. 1464; «Türkce-Osmanlıca Ansiklopedik Luğat», s. 969; Mehmed Salahi, «Kamusi-Osman», 1322, c. IV, s. 585; Tahirül-Mevlevi, «Edebiyet Luqati», İstanbul, 1973, s. 113.

(r.a.) və Hz.Hüseynə (r.a.), Hz.Həmzəyə (r.a.), Hz.Abbasa (r.a.), Əbu Hənifəyə (r.a.), İmam Şafiyə (r.a.), İmam Malikə (r.a.), İmam Əhmədə (r.a.), İmam Buxariyə (r.a.), İmam Müslimə (r.a.), Şeyx İbnil-Vəfaya (r.a.), Əbdülqadir Geylani (r.a.) kimi islam böyüklərinə yazılmış şeirlərə də nət deyilmişdir.

Hz.Məhəmmədin (s.a.s.) ömrünün hər anı, mübarək şəxsiyyətinin bütün yönləri şeirlərə mövzu olmuş, bütöv bir «Peyğəmbər ədəbiyyatı» yaranmışdır. Ona olan sonsuz sevgi nəticəsində «mövlud», «əsmai-nəbi» adı ilə təqdim olunmuş saysız əsərlər yazılmışdır. Qısaca onu da deyək ki, bunların arasında mövludnamələrin ayrıca yeri var. «Mövlud» ərəbcə «doğum-doğmaq», «doğum zamanı», «doğum yeri» deməkdir. Hz.İsanın (s.a.s.) doğum günü «Milad» adlandırıldığı kimi, Hz.Məhəmmədin (s.a.s.) doğum günü də «Mövlud» adlanır. Bununla birgə «Mövlud» sözü həm hz. Peyğəmbərin (s.a.s.) doğum gününün hər il qeyd edilməsini, həm bu günlə bağlı mərasimləri, həm də mərasimlərdə oxunan əsərləri bildirir.

İslam ənənəsində Ramazan və Qurban bayramlarından başqa beş mübarək gecə var: Rəqaib gecəsi (Rəcəb ayının ilk cümə gecəsi), Merac gecəsi (Rəcəb ayının 27-ci gecəsi), Bəraət gecəsi (Şaban ayının 15-ci gecəsi), Mövlud gecəsi (Rəbiül-əvvəl ayının 12-ci gecəsi), Qədr gecəsi (Ramazan ayının 27-ci gecəsi).

Mövlud xarakterli əsərlərdə nuri-Məhəmmədin yaradılışı, hz. Peyğəmbərin (s.a.s.) doğumu, doğumundan öncə və sonra baş verənlər gözəl bir üslubla anladılır.

«Nət» termininin leksik, qrammatik anlamı ilə yanaşı bir də ədəbi – bədii mənası var. «... Net insanın kendini Peygamberde araması, gerçeyi onun çevresinde dolaşaraq bulmağa çalışması, ona yaklaşmaya çalışarak yaratılışın sırrına

erilecegini idrak edişidir. Net Peygamberin şeirle yapılmak istenen bir portresidir. Her şair durduğu yerden ve görme kabiliyeti ölçüsünde Ona bakar. O büyük mükemmelliyin karşısındakı duyqularını zapt etmeye çalışır. Bütün netler adeta, tarih boyunca yapılan tek bir portrenin farklı cephelerden birer örnegi gibidir ve tek bir portre içindir. Bir portre ki, tarih ve insan devam ettikce bitmeyecektir. Bütün netler bir meşale ormanı gibi pırıldar, insanlığın üstünde ve insanlık Peygambere doğru bir işıkların altında sevincle, aşkla, güvenle yürür. Net en ileri ve en mükemmel bir sevgi abidesidir»[17].

Biz nətin quruluşunu və məzmununu diqqətlə araşdırdıqda görürük ki, nət sadəcə divan ədəbiyyatında tövhid və münacatlardan sonra yer tutan və ənənə xatirinə yazılmış şeirlər deyil. **Bizə görə, nət mədəniyyəti islam mədəniyyətinin, islami dünyagörüşün ayrılmaz tərkib hissəsidir. Nətin yazılmasında məqsəd tövhid inancını (Allahın varlığı və birliyi) öyrətmək, qorumaq və yaymaqdır. Nət islami dünyagörüşün dəyərlərinin yerləşdirildiyi bədii məkandır. Bu mədəni məkan bizim mənəvi sərhədimizdir. Nət müsəlman toplumunu bu dini-mədəni məkana bağlayan vasitələrdən biridir. Ona görə də, nət türk-islam, ərəb-islam, fars-islam ədəbiyyatının quruluş vahididir. Nət ədəbiyyatla din arasında bir körpüdür. Nət ilahi ölçülərin daşıyıcısıdır, şeirləşmiş şəklidir. Bu ilahi ölçülərin məqsədi, Allahın sevgisini qazanacaq bir toplum tərbiyə etməkdir. Nət eyni zamanda onu yazan sənətkarın dünyagörüşünün ifadəçisidir. Deməli, Azərbaycan islami-türk ədəbiyyatının**

---

[17]Sezai Karakoç, «Bir kaç söz», Abdullah Öztemiz Hacıtahiroğlu, «Hazreti-Peygambere Şiirler Antolojisi (Natlar)», İstanbul, 1966, s. 6-7.

**hədəfi ədalətli, azad, Allahın müəyyən etdiyi ölçülər içərisində yaşayan insan, toplum yetişdirmək, bu hədəfə gedən yolu və vasitələri müəyyən etməkdir. Bu baxımdan nət bu ilahi hədəfi gerçəkləşdirmək vasitə və formalarından biri kimi dəyərləndirilməlidir.**

Ədəbiyyatda nət bütün nəzm şəkillərində yazılıb. Nətdən türk dini musiqisində istifadə olunub. Ona görə də, musiqi ilə bağlı sözlüklərdə, ensiklopediyalarda nətə ayrıca tərif verilib: «ilahi usulleriyle bestelenen, ilahiden daha uzun, daha tantanalı, daha tumturaklı, daha ağır ve daha yüksek olmasına diqqet edilen»[18] ve edebiyyatımızdakı manzum natların bestelenmiş şekline verilen bir isimdir».[19]

Nətlə bağlı, ondan törəyən bir sıra başqa sözlər də var. Məsələn, «nətiyyə», «nətqu» (nət söyləyən), «nətxan» (nət oxuyan). Çox nət yazan şairlərə də «nəti» deyilmişdir. Ərəb ədəbiyyatında «nət» ancaq «mədh» sözü, fars ədəbiyyatında isə «sitayiş» kəlməsi ilə ifadə olunmuşdur. Göründüyü kimi, «nət» və onunla bağlı deyimlər türk ədəbiyyatında daha çoxdur.

## ƏRƏB ƏDƏBİYYATINDA NƏT

Bilindiyi kimi, islamadək olan ərəb ədəbiyyatında şeir, bəlağət ayrıca yer tuturdu. Ərəblər arasında şeir yazmaq, bəlağətli danışmaq hünər sayılırdı, hər il şeir yarışmaları keçirilirdi. Bu yarışmalarda bəyənilən şeirlər qızıl mürəkkəblə yazılıb Kəbənin divarına asılırdı. «Bu şeirlerin Kebe duvarına asılan yeddi şeire «mullaka-i seba» (yedi askı) adı verilir. Bu şeirler cahiliye döneminin mahsulleridir. Şairlerden yalnızca Lebid müselman olmuşdur».[20]

---

[18] Yılmaz Öztuna, «Türk Musikisi Ansiklopedisi», İstanbul, 1974, c. II, s. 64.
[19] Nuri Özcan, «XVIII asırda Osmanlılarda dini musiqi», İstanbul, 1982, c. I, s. 40.
[20] Ahmed Turan Arslan, «Asri-Saadet Arefesinde İslami Edebiyata Basamaq olan Arap Edebiyatı», İslami Edebiyat, c.I, Mayıs, 1988, s. 12-13.

Qurani-Kərim də bu mühitdə nazil oldu. Ərəb şairləri Quranın bəlağətini eşidəndə heyrətə düşdü. «Muallaka şairlerinden İmri-ul-Kaysın kız kardeşi «Hud» suresinin kırk dördüncü ayetini işitince: «Kardeşimin şiri övünme meydanında duramaz»,- deyərək İmri-ul-Kaysın kasidesini Kabe duvarından indirmiştir»[21].

Buradan ortaya çıxan ilk nəticə odur ki, İslam Peyğəmbərini öymək, onun üstünlüklərini tərənnüm etmək ənənəsinin ilk qaynağı Qurani-Kərimdir. Quranda yaradan Allah sevimli Peyğəmbəri (s.a.s.) ilə bağlı belə buyurur, onu insanlara belə təqdim edir:

وَمَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِّلْعَالَمِينَ

(Ənbiya, 21/107)

«Biz səni aləmlərə ancaq rəhmət üçün göndərdik».

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِّمَن كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الْآخِرَ وَذَكَرَ اللَّهَ كَثِيراً

(Əhzab, 33/21)

«Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!».

لَقَدْ جَاءكُمْ رَسُولٌ مِّنْ أَنفُسِكُمْ عَزِيزٌ عَلَيْهِ مَا عَنِتُّمْ حَرِيصٌ عَلَيْكُم بِالْمُؤْمِنِينَ رَؤُوفٌ رَّحِيمٌ

(Tövbə, 9/128)

«And olsun sizə içinizdən bir Peyğəmbər gəldi ki, əziyyət çəkməyiniz Onu incidir və üzür. Sizə çox bağlıdır, mömünlərə çox mərhəmətlidir, çox şəfqətlidir».

---

[21] Ahmed Turan Arslan, «Asri-Saadette Edebiyat», İslami Edebiyat, s. 12.

Uca Allah, Quran boyu çoxsaylı ayələrdə hz. Məhəmmədi (s.a.s.) ayrı-ayrı yönlərdən göstərmişdir.

Ərəb şairləri də Qurani-Kərimə uyaraq Allahın elçisi ilə bağlı bir-birindən gözəl şeirlər yazmışlar. Ancaq qaynaqların verdiyi bilgiyə görə, bu mövzuda ilk şeir hz. Məhəmməddən (s.a.s.) yeddi əsr öncə yaşamış Əsad Əbu Kərib əl-Himyerinindir. O, alimlərdən hz. Məhəmmədin (s.a.s.) gələcəyini öyrənib bu şeiri yazmışdır:

**«Şübhesiz, yaratıkları yoktan var eden Allah tarafından bir resul, bir elçi olan Ahmede şehadet ederim.**

**Ömrüm onun ömrüne yetişse, Ona verir (yardımçı olur), aynı zamanda amcaoğlu olurdum.**

**Düşmanlarına karşı kılıcla savaşır, sinesinden bütün elem ve kederi siler, ferahlatırdım».**[22]

Peyğəmbər (s.a.s.) vəfat edəndən sonra onunla bağlı çoxsaylı şeirlər yazılmış və bu şeirlər nət deyil, «mədhiyyə» adlandırılmışdır. Ərəblər ölümdən sonra yazılmış şeirlərə «resa» (ağı, mərsiyə) desələr də, Peyğəmbərlə bağlı yazılanlara «mədhiyyə» adı vermişlər. Bu mədhiyyələrdən birini və ən qədimini Əl-Aşa yazıb:

«Sevgilinin gözlerinin ağrıdığı gece, sen de gözlerini yummadınmı? Ki yılan sokmuş kimsenin uykusuz kaldığı gibi sen de uykusuz kaldın. Bu dert kadınlara duyulan aşktan degildir, ancak Sen önceden de Mehdedin (isimli kadın) sevgisini unutmuşdun… Muhammed öyle bir peygamberdir ki, sizin görmediklerinizi görür.

Ve Onun anısı bütün ülkeleri kaplar.
Onun iyilikleri aralıksızdır, kesilmez, eksilmez.
Bu gün vermesi de yarın vermesini engellemez» [23]

---

[22] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s.4
[23] Emine Yeniterzi, göstərilən qaynaq, s.4

Hz. Məhəmmədə (s.a.s.) mədhiyyə yazmış ən məşhur şairlərdən biri də Kaab Bin Züheyrdir. O, öncə Peyğəmbərə qarşı olmuş, daha sonra isə bir mədhiyyə yazaraq onun hüzuruna gəlmişdir. Bu mədhiyyə Peyğəmbərin çox xoşuna gəlmiş və o, xirqəsini şairə vermişdir. Sonrakı dönəmlərdə bu şeir «Qəsideyi-Bürdə» adı ilə tanınmışdır. Bu qəsidədə hz.Məhəmmədlə (s.a.s.) bağlı çox güclü bənzətmələr var:

**«Şübhəsiz ki, Allahın elçisi Allahın nuruyla haqq və hidayətə ulaşılan kəskin qılınclardan bir qılıncdır»**[24].

Sonrakı dönəmlərdə bu qəsidə nətin inkişafına güclü təkan verdi. Bu qəsidə ilə bağlı çoxsaylı şərh və nəzirələr yazıldı, qəsidə türk, fars, urdu, latın, alman, fransız dillərinə çevrildi.

Ərəb ədəbiyyatında nətin ustadları sırasında Hassan bin Sabit, İbn Abbas, Abdullah ibn Rəvah, Kaab bin Malik, Amr bin Sinanil-Əkva və Enceşenin adı ayrıca yer tutur.

Hz.Əlinin sərbəst ölçüdə səcli nəsrlə yazdığı mədhiy-yələrdə də Peyğəmbər (s.a.s.) sevgisi dərindən duyulur:

**«Allah Peyğəmbəri məşhur din ilə,**
**Əldə edilməsi savab sayılan elmlə,**
**Hər yeri tutan islam nuruyla,**
**Parlaq işıltılarla,**
**Yerinə yetirilməsi zəruri olan əmrlərlə göndərdi».**[25]

Ərəb ədəbiyyatının sonrakı dönəmlərində Kummeyt bin Zeyd-əl-Əsəd, Dağbel, Fərazdak-əş-Şərifür-Radiy, Mihyarəd Deyləmin yazdığı mədhiyyələrdə Peyğəmbər sevgisi bədii bir üslubla dilə gətirilmişdir. Sonrakı dönəmdə Misirdə yaşayan Məhəmməd bin-Səid əl-Busrinin yazdığı nət çox məşhur olmuşdur. Deyilənlərə görə, Busri bu qəsidəni yazanda bir

---

[24] Emine Yeniterzi, göstərilən qaynaq, s.6.
[25] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s.9.

tərəfi iflic imiş. O, yuxusunda hz. Peyğəmbəri (s.a.s.) görmüşdür. Peyğəmbər (s.a.s.) mübarək xirqəsini şairin çiyinlərinə atmış və nəticədə şair bu xəstəlikdən qurtulmuşdur. Bu hadisəyə görə, Busrinin mədhiyyəsinə «qəsideyi-Bürdə», ya da «qəsideyi-Bürə» deyilmişdir. Busrinin qəsidəsi islam dünyasında böyük ad qazanmış, ona çoxsaylı şərh, nəzirə yazılmış, tərcümə edilmişdir. «Türkcedeki meşhur tercümeleri de Ahmed Mekki, Şemseddin Sivasi, Abdurrahim Karahisari, Şeyh Esasi, Marmara müftüsü Hululi, Seyyid Ahmed Leali ve Kemal Paşazadeye aittir. Ayrıca yine hastalığı esnasında Babür Şah tarafından teberrüken manzum olaraq türkceye çevrilmiştir. Müsülmanlar arasında bu kasidenin kerametine inanılmış, cenaze defn ederken oxunması adet olmuştur».[26]

Ərəb ədəbiyyatı tarixində İbn Haccətil-Həməvinin, İbn Nəbatə əl- Mısrının mədhiyyələri də önəmli yer tutur.

## FARS ƏDƏBİYYATINDA NƏT

İslam mühitində yaranan fars ədəbiyyatında divan tərtibində tövhid, münacat, nət ayrıca yer tutmuşdur. Fars şairləri divan və məsnəvilərdə nəti «sitayiş» adı ilə vermişlər. XI yüzillik fars ədəbiyyatının ünlü şairi **Nasir Xosrovun** «Səadətnamə» adlı məsnəvisində Hz. Peyğəmbərin (s.a.s.) öygüsünə ayrıca yer ayrılmasa da, şair iki beytində Allahın elçisinə sevgisini bildirmişdir:

«Bir söz söyləmək istəyirsən, dindən danış,
Hər zaman sağlam bir ipdən tut.
Hər işdə yardımçın Tanrıdır,
Din yolunun dəlili Mustafadır» [27]

[26] İslam Ansiklopedisi, «Bürde maddesi», c. II, s. 137.
[27] Nasiri-Husrev, «Saadetname», İstanbul, 1958, s.2.

Tanınmış mütəsəvvif fars şairi hakim Sənainin divanında iki nət var. Bu nətlərdə hz.Peyğəmbər (s.a.s) incə bir üslubla öyülmüşdür.

Burada bir məsələyə də toxunmaq istəyirik. Klassik fars şairləri divan tərtibində tövhid, nət və övliya öygüsünə yer vermişlər. **Ancaq Peyğəmbərin (s.a.s.) ömrünün bir sıra dönəmlərini (tərif, möcüzə, merac, şəfaət, hicrət, savaşlar, başqa Peyğəmbərlərlə müqayisə, dörd xəlifə) sistemli şəkildə nət mövzusuna çevirən, bu yöndə ənənə yaradan Azərbaycan şairi Nizami Gəncəvidir.**

XII yüzillik fars rübai şairi Ömər Xəyyam da yaradıcılığında hz.Peyğəmbərə (s.a.s.) yer ayırmışdır. «Məntiqütteyr», «Əsrarnamə», «Pəndnamə» əsərlərinin müəllifi Fəridəddin Əttar, Peyğəmbər (s.a.s.) sevgisini belə ifadə edir: «İki cahanın ulusu, Peyğəmbərlərin sonu olan uca Peyğəmbər o birilərindən sonra gəldi. Ancaq öncə gələnlərə iftixar örnəyi oldu. O, cahana gəlincə doqquz fələk özünə merac, nəbilərlə vəlilər ona möhtac oldu. Varlığı aləmlərə rəhmət gətirdi. Bütün yer üzü ona məscid oldu. Dostları Əbu Bəkir ilə Ömər oldu. Barmağının ucu ilə ayı iki parça etdi».[28] Fəridəddin Əttar nətində dörd xəlifəyə, hz.Peyğəmbərin (s.a.s.) əmisi hz. Həmzə (r.a.) ilə hz.Abbasın (r.a.) tərifinə də yer ayırmışdır.

Fars ədəbiyyatında yazılmış nətlər sırasında Şeyx Sədi Şirazinin «Bustan»ın da olan nət ayrıca yer tutur. O, hz. Peyğəmbərin (s.a.s.) ömrünün ayrı-ayrı anlarını incə bədii üslubla canlandırmış, Peyğəmbərə olan sonsuz sevgisini dilə gətirmişdir[29].

Şeyx Sədinin «Gülistan» adlı əsərində Peyğəmbərlə (s.a.s.) bağlı yazılmış olan beytlər dillər əzbəri olmuş, gözəl

---

[28] Feridüddin Attar, «Pendname», İstanbul, 1985, s. 5.
[29] Şeyh Sadi Şirazi, «Bostan», İstanbul, 1942, s. 13-14.

xətlə lövhələrə yazılaraq divarlardan asılmışdır: «Səfaətçidir, sözü dinlənilir, hökmü tutulur, Peyğəmbərdir, comərddir, gözəl vücudludur, gülərüzlüdür, nübüvvət möhrü ilə nişanlanmışdır»[30]. «Kamalı ilə ucalığa çatdı, cəmalı ilə qaranlıqları açdı. Bütün əxlaqı gözəl oldu. Ona və alinə salavat gətiririk».[31]

Fars ədəbiyyatında Molla Caminin yazdığı nətlər də məşhurdur. Onun divanında iki qısa, bir uzun nət var.[32] Bu nətlərdə Molla Caminin Peyğəmbərə (s.a.s.) olan sevgisi, ona içdən bağlılığı açıqca duyulur. Bu nətlərdən görünür ki, Molla Cami bir peyğəmbər aşiqidir.

## TÜRK ƏDƏBİYYATINDA NƏT

Türk ədəbiyyatında böyük bir «Peyğəmbər ədəbiyyatı» var. Yusif Xas Xacib «Qutadqu Biliq» adlı əsərinin müqəddiməsində tövhid, nət, dörd xəlifənin tərifinə yer vermişdir. Buradakı nət on beş beytdir. Yusif Xas Xacib nətində Rəbb, İlahi, ümmət, rəhmət, qiyamət terminləri ilə birgə, bunların türkcə qarşılığını da işlətmişdir: Bayat, Tanrı, Yalavac. [33]

XII yüzillik ədibi Ədib Əhməd Yüqnəqin «Atabətül-Həqayiq» adlı əsərində beş beytlik bir nət var[34].

Dini, təsəvvüfi düşüncələriylə XII yüzillik türk ədəbiyyatında ayrıca yeri olan Əhməd Yəsəvi «Divani-Hikmət»də Peyğəmbəri (s.a.s.) bütün yönləri ilə anlatmışdır. O, «hikmət»lərində Peyğəmbəri insanlara tanıdır, onunla bağlı bütün məsələlərə aydınlıq gətirir. Ona görə, Peyğəmbər «on

---

[30] Şeyh Sadi Şirazi, «Gülistan», İstanbul, 1941, s. 14.
[31] Şeyh Sadi Şirazi, «Gülistan», İstanbul, 1941, s. 14.
[32] Cami, «Baharistan», İstanbul, 1985.
[33] «Kutadqu Biliq», I, Mətin, Ankara, 1979.
[34] Edib Ahmed bin Mahmud Yükneki, «Atabetül-Hakayık», İstanbul, 1951, s. 42-43.

səkkiz min aləmin şahı, dinin dirəyi, Allahın həbibi, insanların öyüncü, rəhbəridir. Peyğəmbər bu dünyada və axirətdə ancaq ümmətini düşünür».[35]

Əhməd Yəsəvinin nətləri başqa nətlərdən seçilir. Bu nətlər «hikmət» formasında yazılmışdır. Əhməd Yəsəvinin məqsədi sadəcə Peyğəmbəri (s.a.s.) öymək deyil. Onun məqsədi Peyğəmbəri az tanıyan bir topluma onu tanıtmaq, onu sevdirmək, xalqı islam düşüncəsinin içinə gətirmək, islam dəyərləri ilə bağlı bir mədəniyyət, bir düşüncə yaratmaqdır. Əhməd Yəsəvi nətlərində sıx-sıx Quran ayələrindən də yararlanmışdır. O, nətlərində toplumun bütün təbəqələrinin anlayacağı bir üslub seçmişdir. Yəsəvi dərvişləri bu hikmətlərlə yola çıxaraq islamı türk torpağına yaymışlar. «Qul Süleyman, Azim Hace, Halis, Meşreb, Hace Hamid, Kul Şerifi, Ubeydi, Kani, Derviş Ali, Şems kibi Yesevi dervişlerinin hikmetleri də zamanla «Divani-Hikmet» nüshalarına dahil olmuştur».[36]

Bizcə, Əhməd Yəsəvinin nətləri, onların dili, üslubu, poetikası, başqa nətlərlə müqayisəsi, məzmun özəllikləri ayrıca bir araşdırma mövzusudur.

Əhməd Yəsəvinin dərvişlərindən Əzim Xacə, Xalis də ustadlarının yolunu davam etdirərək Peyğəmbəri (s.a.s.) və onun soyundan gələnləri mədh etmişdir. Türk ədəbiyyatında nətin inkişafında yeri olan Heydər Tilbənin, Mövlana lütfünün, Seyid Əhməd Mirzənin, Gədainin, Hafizi-Xarəzminin, Sultan Hüseyn Mirzə Baykaranın adlarını çəkə bilərik.

Türk ədəbiyyatında Əlişir Nəvainin nətləri seçilir. O, «Xəmsə»sində olan məsnəvilərin hamısında nətə yer vermişdir. Təkcə şairin «Heyrətül-Əbrar» əsərində beş nəti var.

---

[35] Ahmed Yesevi, «Divani-Hikmetten Seçmeler», Ankara, 1983, s. 33.
[36] Ahmed Yesevi, «Divani-Hikmetten Seçmeler», Ankara, 1983, s.5.

Nəvai «Münacat», «Vəqfiyyə», «Nəzmül-Cəvahir», «Mühakəmətül-Luğateyn», «Məhbubi-Qulub» adlı nəsr əsərlərində də Peyğəmbəri (s.a.s.) səmimi sözlərlə öymüşdür. Sonrakı dönəmlərdə Cığatay ədəbiyyatında Seybani, Ubeydullah xan, Məhəmməd Saleh, Babur şah, Kamran Mirzə gözəl nətlər yazmışlar.

Türk xalq ədəbiyyatında da nətlərə ayrıca yer verilmişdir. «Daneşməndnamə»də, «Kitabi-Dədə Qorqud» dastanlarında Peyğəmbər (s.a.s.) sevgisi dərindən duyulur. Şifahi ədəbiyyatın demək olar ki, bütün janrlarında Peyğəmbər (s.a.s.) mədh edilmişdir.

**Manilərdə deyilir:**

Bir tanedir,
Bir sümbül bir tanedir,
Peygamberler içinde,
Muhammed bir tanedir.[37]

Hey hurundan hurundan,
At su içer kurundan,
Yedi yerden ay doğmuş,
Muhammedin nurundan. [38]

**Tapmaca:**

Erenler, erenler,
Dünyaya gelenler,
Dünyaya gelmeden,
Ezan sesi duyanlar.[39]

**Uşaq duası:**

---

[37] Sami Akalın, «Türk manileri», İstanbul, 1932, c. II, s. 450.
[38] Sami Akalın, göstərilən qaynaq, s. 411.
[39] Amil Çelebioğlu, Yusuf Ziya Öksüz, «Türk Bilmeceler Hazinesi», İstanbul, 1979, s.49.

Yattım Allah, kalkarım inşallah,
Kalksam da, kalkmasam da,
La ilahe illallah,
Şefaet, ya Resulullah. [40]

Türk aşıq ədəbiyyatında da nət geniş yayılmışdır. Bu aşıqlardan **Qaracaoğlan** bir dördlüyündə Peyğəmbərin (s.a.s.) «Allahın dostu» olduğunu bildirmişdir:

Evvel Allah, axır Allah,
Andan ulu gelmemişdir,
Hak Muhammedden sevgili,
Hakkın kulu gelmemişdir.[41]

**Aşıq Ömər:**
Ey Habibi ehli-isyanın Şefiyi-Mustafa,
Hürmetinle on sekiz bin alem oldu pür ziya,
Sirri-esrari-hakayık gencinin gencurusun,
Hemdemin, hemmeşrebindir çar-yarı-basafa.[42]

**Gövhəri:**
Geşt ittim bir zaman cenneti haylı,
Ta «elest» bezminde eyledim meyli,
Cemali «Ved-Duha» saçı «Vel-Leyli»,
Nuri-kibriyaya uğradım geldim.[43]

**Kuloğlu:**
Gözüm nuru fahri-cihan,
Yetiş, ya Muhammed, yetiş,
Aleme gün gibi doğan,

---

[40] Amil Çelebioğlu, «Kültürümüzde yatak duaları», Ankara, 1987, s. 99.
[41] Ahmed Yüzendağ, «Karacaoğlanda Allah sevgisi ve İslami motifler», Milli Kültür, c. I, s. 7.
[42] Sadettin Nüzhet Ergun, «Aşık Ömer, hayatı ve şiirleri», s. 129.
[43] Şükrü Elçin, «Gevheri divanı», Ankara, 1984, s. 194.

Yetiş, ya Muhammed, yetiş.[44]

**Dərdli:**
Dertli çok hikmetden irşad olmadı,
Sensiz mahşer yiri güşad olmadı,
Çok nebiye vardım imdad olmadı,
Şefaet kanısın, Mustafa didim.[45]

**Seyrani:**
Ey mürüvvet kanı şahi-risalet,
Bilmişim olduğun mahbubu Mövla,
Dilim ikrar eder kalbim şehadet,
Mefhar-i alemsin kadrin mualla.[46]

**Aşık Şenlik:**
Ol Həbibi-Fahr-i-Alem Mustafanın aşkına,
Buyurdu «levlake levlak» lütf ilə ihsanımız,
Yüz dört suhuf kelimatta külli nefsin mövti var
Otuz cüz ayetin kalbi Yasini-Kuranımız.[47]

Türk aşıq ədəbiyyatında Peyğəmbərlə (s.a.s.) bağlı yazan aşıqların və şeirlərin sayı olduqca çoxdur. Biz yalnız onlardan bir qisminin adlarını sadaladıq.

**Peyğəmbər (s.a.s.) sevgisi türk təsəvvüf ədəbiyyatında da başlıca yer tutur.** Təsəvvüf ədəbiyyatında Peyğəmbərlə (s.a.s.) bağlı yazılmış şeirlərin bir neçə özəlliyi var: bu şeirlərdə peyğəmbər sevgisi, peyğəmbər obrazı, peyğəmbər əxlaqı ana mövzulardan biridir, bu mövzu təsəvvüf təliminin

---

[44] Sadettin Nüzhet Ergun, «Kuloğlu», İstanbul, 1933, s. 43-44.
[45] «Aşık Derdli, Hayatı, Divanı», Bolu, 1928, s. 36-37.
[46] Hasan Ali Kasır, «Develili Seyrani, Hayatı, sanatı, şiirleri», İstanbul, 1984, s. 36.
[47] Ensar Aslan, «Çıldırlı Aşık Şenlik», Ankara, s. 92-93.

ayrılmaz tərkib hissəsidir, təsəvvüf şeirlərinin dili çox sadədir, təsəvvüf şairlərinin məqsədi islami dəyərləri, Peyğəmbər əxlaqını yaymaqdır, bu şeirlərin üslubunda nəsihət ruhu hakimdir, onların təlim, təbliğ yönü çox güclüdür.

Təsəvvüf şairləri içərisində Yunus Əmrə Peyğəmbərlə (s.a.s.) bağlı yazılmış şeirləri ilə seçilir. O, bir Peyğəmbər aşiqidir. Yunis Əmrə demək olar ki, Peyğəmbərlə (s.a.s.) bağlı bütün məsələləri şeirlə, incə bir üslubla anlatmışdır:

Arayı-arayı bulsam izini,
İzinin tozuna sürsəm yüzümü,
Mövlam nasip etse, görsem yüzünü,
Ya Muhammed, canım arzular seni.

Bir mubarek sefer olsa da gitsem,
Kabe yollarında kumlara batsam,
Mah cemalın bir kez düşte seyretsem,
Ya Muhammed, canım arzular seni.

… Yunus meth eyledi seni dillerde,
Sevilirsin bütün bu gönüllerde,
Arayı-arayı qurbet illerde,
Ya Muhammed, canım arzular seni.[48]

XV yüzillikdə Hacı Bayram Vəli, Qayğısız Abdal, Ağ Şəmsəddin, Şeyx Muhyiddin, Eşrefoğlu Rumi, Kamali Ümmi, Aşıq Yunus nətin gözəl nümunələrini yaradırlar. Aşıq Yunus bir ilahisində deyir:

Canım kurban olsun Senin yoluna,
Adı güzel, kendi güzel Muhammed,
Şefaet eylesen kemter kuluna,
Adı güzel, kendi güzel Muhammed. [49]

---

[48] Yunus Emre, «Divan», İstanbul, 1972, s.153.
[49] Yunus Emre, «Divan», İstanbul, 1972, s.172.

Türk təsəvvüf ədəbiyyatının Dədə Ömər Rövşəni, Haləti-Gülşəni, Üftadə, Ərşi, Qul Himmət, Seyid Seyfullah Nizamoğlu, Şəmsəddin Sivasi, Muhyi, Əziz Mahmud Xüdayı, Abdullah Nuri, Nəqşi, Sunullah Qeybi, Zakirzadə Abdullah Biçarə, Əbdülhay, Himmətzadə Abdullah, Həsən Kənzi, Şeyx Həsən Vuslat, Dərviş Əhməd, Niyazi Misri, İsa Məhvi, Mehdi, Əzbi, Əhməd Mürşidi, Zəkayi, Bursalı Kayğılı, Gəribi, Ləli, Şeyx Zati, Nasihi, Sezayi-Gülşəni, İsmayıl Haqqı Bursevi, Ərzurumlu İbrahim Haqqı, XIX yüzillikdə Hafiz Sədi, Əbdülqadir Qulami, Hafiz Ülvi, Hafiz Məhəmməd Səbatəddin, Muştaq Baba, Quddisi, Ərzurumlu Kətançızadə Mehmed Rüşdi Əfəndi kimi şairləri sevgi dolu nətlər yazmışlar.

XX yüzildə Şeyx Əli Fəqri, Şeyx Əsad Əfəndi, Kazım Baba və bir sıra başqa şairlər nət yazmaq ənənəsini davam etdirmişlər.

**Türk divan ədəbiyyatında da gözəl nət nümunələri var.** «… gerek halk, gerek divan, bütünüyle Türk edebiyyatı tövhid, münacat, nat, esmai-hüsna, Kurani-Kerim tercüme ve tefsirleri, mevlid, miraciye, ahvali-kiyamet, akaid, fikih, menasikül-hac, Kabename gibi konularda üç-beş beytten binlerce beyte kadar aruzla ve ya heceyle yazılmış, manzum dini eserler yönünden son derece zengindir»[50].

Türk divan ədəbiyyatında Şeyx Qalib, Sünbülzadə Vəhbi, Əhməd Paşa, Nəcati, Nəbi, Rizayı, Cəzmi, İsməti, Şərəf xanım nətin ölməz nümunələrini yaratmışlar.

**Şeyx Qalib:**
Senin medhinde şirket eylesem Mevlaya mazurum,
Bu babda cürmü isyana bakılmaz, ya Resulullah.[51]

---

[50] Emine Yeniterzi, «Divan Şiirinde Nat», Ankara, 1993, s. 38.
[51] «Divani-Galib Esad», Mevlana Müzesi Kitab, N 24.

(Sənin tərifində həddi aşsam, Allah qarşısında cavabdehəm, Bu məsələdə günah və üsyana baxılmaz, ey Rəsulullah)

Türk ədəbiyyatı tarixində bir sıra nət məcmuələri də var. Bu məcmuələrdə Peyğəmbərlə (s.a.s.) bağlı yazılmış şeirlər bir araya gətirilmişdir. Türk alimi Emine Yeniterzi araşdırmasında yeddi belə nət məcmuəsinin adını çəkmişdir: «Nuuti-Nebeviyye mecmuası», «Nuuti-Nebeviyye Mecmuası», «Nuuti-Nebeviyye mecmuası», «Miraciye ve Nati-Şerifler Mecmuası», «Nuuti-Nebeviyye Mecmuası», «Mecmuai-Kasaid və Nuut», «Mecmua-i-Əşar».[52]

Türk divan ədəbiyyatında Şeyx Qalibin nəti Füzulinin «Su» qəsidəsindən sonra ən məşhur nətlər sırasında yer tutur:

Sultani-Rüsül şahi-mümecceddsin efendim,
Biçarelere devleti-sermedsin efendim.
Divani-İlahide seramedsin efendim,
Menşuri-«le-amruk» le müeyyedsin efendim.
Sen Ahmedü Mahmudu Muhammedsin efendim,
Hakdan bize sultani-müeyyedsin efendim.[53]

(Sən peyğəmbərlərin sultanı, şanı böyük olan şahsan, Kimsəsizlərə arxa, ilahi divanda başçısan, öndərsən. Sən Allahın «le amrük» («şübhəsiz sən qalib olacaqsan») buyruğu ilə gücləndirilmisən. Sən Əhməd, Mahmud, Məhəmmədsən. Sən Haqdan bizə göndərilmiş güclü sultansan).

**Türk xətt və musiqi sənətində də nət geniş yayılmışdır.** Alimlər dini musiqini cami musiqisi, təkkə musiqisi və bu ikisi arasında yer tutan, hər ikisinin özəlliklərini daşıyan musiqiyə ayırmışlar.[54] Bu musiqi növlərinin şəkilləri sırasında «Sala» (Peyğəmbərə səlat və salam gətirmək), «Salati-Üm-

---

[52] Emine Yeniterzi, «Divan Şiirinde Nat», Ankara, 1993, s. 53-54.
[53]Ekrem Karadeniz, «Türk musikisinin nazariye ve esasları», Ankara, 1982.
[54] Nuri Özcan, «On sekkizinci asırda Osmanlılarda dini musiki», İstanbul, 1982, c. I, s. 16-17.

miye» (dini törənlərdə oxunur), «Nət», «İlahi» və başqalarını göstərə bilərik.

**Nətlərin ayrıca şəkillərindən biri də gözəl xətlə lövhələrə yazılmış olanlardır.** Türk mədəniyyətində Peyğəmbərə (s.a.s.) öygülər yazılmış saysız-hesabsız belə lövhə var.

## NƏTİN QURULUŞU

Qısa olsa da, nətlərin quruluşu ilə bağlı bilgi vermək istəyirik. Nətlər ən çox bu başlıqlar altında yazılmışdır: «Nəti-şərif», «Mədhi-Rəsul», «Mədhün-Nəbi», «Nətün-Nəbi», «Nətür-Rəsul», «Nəti-Peyğəmbəri». Bir sıra başlıqlarda Peyğəmbərlə (s.a.s.) bağlı olan sifətlər də göstərilmişdir: «Dər Nəti-Seyyidül-Mürsəlin və Xatəmin-Nəbiyyin Məhəmməd Mustafa», «Dər nəti-Seyyidi-kainat əleyhi əfdalüs-salavat», «Ol fəsihül-məqal və məlihül-cəmal və kərimül-hisal və ədimül-misal şahi-risalət pənah olan həbibullahın nəti munir və midhəti-binəzirləridür».

Belə tipli başlıqlarda Peyğəmbər (s.a.s.) «əfdali-məxluqat», «əsadi-mövcudat», «fəxrül-mürsəlin»,«məfxari-mövcudat», «həzrəti-cənabi-risaləti-pənah», «seyyidi-kainat», «seyyidül-mürsəlin», «sultani-ənbiya», «sənədül-əsfiya», «həbibi-xuda», «nəbiyyi-əkrəm», «məhbubi-rəbbi-aləm», «cənabi-şahi-mülki-bəqa», «şafiyi-ruzi-qiyamət» və bu xarakterli adlarla yad edilmiş, onun adı çəkilən yerdə salavat söylənilmişdir.

Bilindiyi kimi, nətlər daha çox qəsidə şəklində yazılır. Ancaq qəzəl, məsnəvi, tərkibbənd, mürəbbe, müxəmməs, müsəddəs, qitə, rübai, tuyuq, müstəzad və başqa şeir şəkillərində də nətlər yazılmışdır. Nətlərdə əruz vəzninin həzəc, rəməl, müctəs, xəfif, səri ölçülərindən istifadə olunmuşdur. Nətlər daha çox lirik ruhdadır, dili elə də çətin deyil. Nətlər müraciət üslubunda yazılır. Nətlərdə Quran

ayələrindən, hədislərdən, Peyğəmbərin (s.a.s.) ad və sifətlərindən, Quran və hədislərdə keçən adlarından, ancaq Peyğəmbər (s.a.s.) üçün olan ifadələrdən, Peyğəmbərin (s.a.s.) bədən özəlliklərindən, əxlaq ölçülərindən, möcüzələrindən və başqa bir sıra Peyğəmbərlə (s.a.s.) bağlı məsələ və anlayışlardan istifadə olunmuşdur.

Nət ümummüsəlman mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Nət yazmaq sənətkardan istedad, dini məsələlərdə dərin bilik, Peyğəmbər (s.a.s.) sevgisi tələb edir.

Biz bu əsərdə Azərbaycan ədəbiyyatında nətlə bağlı bölmə ayırmadıq. Bilindiyi kimi, Azərbaycan folkloru, aşıq ədəbiyyatı, ayrıca olaraq divan ədəbiyyatı nətlərlə zəngindir. Bu məsələni ayrıca araşdırmağı düşündüyümüzdən nətlə bağlı ümumi bilgini burada yekunlaşdırırıq.

## HZ. NİZAMİ GƏNCƏVİNİN NƏTİNİN ŞƏRHİ

Hz.Nizami Gəncəvinin «Xəmsə»sində olan hər bir əsərində nət var. «Sirlər xəzinəsi»ndə bu nətlər «Peyğəmbərlərin axırıncısı Məhəmmədə- Allah ona rəhmət etsin və onu salamlasın!-sitayiş», «Peyğəmbərin – Allah ona rəhmət etsin və onu salamlasın! Meracı haqqında», «İkinci sitayiş», «Üçüncü sitayiş», «Dördüncü sitayiş», «Beşinci sitayiş» adı ilə[55], «Xosrov və Şirin»də «Peyğəmbərlərin sonuncusunun tərifində, ona salam və salavat» adı ilə[56], «Leyli və Məcnun»da «Sonuncu Peyğəmbərin-ona salavat və salam olsun-mədhində», «Allahın Peyğəmbərinin meracı haqqında. Allahın salavat və salamı ona olsun!» adı ilə[57], «Yeddi gözəl»də «Peyğəmbərə sitayiş», «Kəramətli Peyğəmbərin meracı» adı

---

[55] Nizami Gəncəvi, «Sirlər Xəzinəsi», (filoloji tərcümə, izahlar, şərhlər və lüğət professor Rüstəm Əliyevindir), Bakı, 1981, s. 25-42.

[56] Nizami Gəncəvi, «Xosrov və Şirin», (filoloji tərcümə, izahlar, qeydlər professor Həmid Məmmədzadənindir), Bakı, 1981, s. 31-33.

[57] Nizami Gəncəvi, «Leyli və Məcnun», (filoloji tərcümə, izahlar, qeydlər professor Mübariz Əlizadənindir), Bakı, 1981, s. 22-28.

ilə[58], «İskəndərnamə»də isə «Sonuncu Peyğəmbərin tərifi», «Peyğəmbərin meracı» adı ilə verilmişdir.[59]

Göründüyü kimi, hz. Nizami Gəncəvi nətlərini «sitayiş», «tərif», «mədh» adı ilə vermiş, Peyğəmbərin (s.a.s.) meracına ayrıca yer ayırmışdır. Bu, bir yandan nət ənənəsindən qaynaqlanırsa, başqa yöndən də merac hadisəsinin islam tarixində çox önəmli yer tutması ilə bağlıdır. Nizami Gəncəvinin nətlərinin başlıqlarında görünən bir özəllik də onun Peyğəmbərə (s.a.s.) salavat gətirməsidir. Peyğəmbərin (s.a.s.) mübarək adı çəkilərkən ona salavat deyilməsi həm Quranla təsbit olunmuş buyruqdur[60], həm də ənənədir. Müsəlmanlar Peyğəmbərin (s.a.s.) şərəfli adı çəkilərkən ona salavat deyir və gündəlik beş vaxt namazlarında bu duaları oxuyurlar:

«Allahım! Məhəmmədə və Məhəmmədin ümmətinə rəhmət et, şərəfini yüksəlt. İbrahimə və İbrahimin ümmətinə rəhmət etdiyin kimi. Sözsüz, öygüyə layiq yalnız Sənsən, şan və şərəf sahibi də Sənsən».

«Allahım! Məhəmmədə və Məhəmmədin ümmətinə xeyir və bərəkət ver. İbrahimə və İbrahimin ümmətinə verdiyin kimi» .

## HƏZRƏT PEYĞƏMBƏRƏ SALAVAT QURAN BUYURUĞUDUR

Qurani-Kərim Peyğəmbərə (s.a.s.) salavat deməyi buyurur:

---

[58] Nizami Gəncəvi, «Yeddi gözəl», (filoloji tərcümə, izahlar, qeydlər professor Rüstəm Əliyevindir), Bakı, 1983, s. 18-24.
[59] Nizami Gəncəvi, «İskəndərnamə», (filoloji tərcümə, izahlar, qeydlər professor Qəzənfər Əliyevindir), Bakı, 1983, s. 29-34.
[60] Quran, «Əhzab», 33/56.

إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيماً

(Əhzab, 33/56)

«Allah və mələkləri Peyğəmbərə səlat etməkdədirlər. Ey iman edənlər! Siz də ona səlat və salam edin».

Hz. Məhəmmədə (s.a.s.) salat və salam söyləmək uca Allahın (c.c.) buyruğu olduğu kimi, bu savab əməllə bağlı hədislər də var. Abdullah ibni Amr ibni As (r.a.) rəvayət edir. «Rəsulullah (s.a.s.) belə buyurdu: «Kim mənə bir dəfə səlat və salam söyləsə, bu səbəblə uca Allah ona on misli mərhəmət edər».[61]

İbni Məsud (r.a.) rəvayət edir. «Rəsulullah (s.a.s.) belə buyurdu: «Qiyamət günündə insanların mənə ən yaxın olanları mənə ən çox səlat və salam söyləyənlərdir».[62]

Evs İbni Evs (r.a.) rəvayət edir. «Rəsulullah (s.a.s.) belə buyurdu: «Günlərinizin ən fəzilətlisi cümə günüdür. Bu səbəblə o gün mənə çox səlat və salam deyin. Sizin səlat və salamlarınız mənə çatdırılır.

Əshabi-Kiram:

- Ey Rəsulullah! Vəfat etdiyin və səndən heç bir əsər qalmadığı zaman səlat və salamlarımız sənə necə çatdırılır?

- Uca Allah peyğəmbərlərin bədənlərini çürütməyi torpağa haram etdi».[63]

Əbu Hüreyrə (r.a.) rəvayət edir. «Rəsulullah (s.a.s.) belə buyurdu: «Yanında adım anıldığı halda mənə səlat və salam söyləməyən kimsə pərişan olsun».[64]

---

[61] «Riyazüs Salihin», İstanbul, 2004, c. VI, s. 250.
[62] «Riyazüs Salihin», İstanbul, 2004, c. VI, s. 251.
[63] «Riyazüs Salihin», İstanbul, 2004, c. VI, s. 203.
[64] «Riyazüs Salihin», İstanbul, 2004, c. VI, s. 205.

Hz. Əli (r.a.) rəvayət edir. «Rəsullah (s.a.s.) belə buyurdu: «Xəsis, yanında adım anıldığı halda mənə səlat və salam söyləməyəndir».[65]

Bu hədislərdən də göründüyü kimi müsəlmanların hz. Məhəmmədə (s.a.s.) səlat və salam söyləməsinin səbəbi ilk sırada qadir Allahın (c.c.) onun adını sevərək uca tutması, ona salam verməsi, sonra mələklərin peyğəmbərə (s.a.s.) dua etmələri, bir də insanlığın onu qaranlıqdan işığa çıxarmış peyğəmbər (s.a.s.) qarşısındakı borcudur. «Efendimize salatü selam getirirken Cenabi-Hakka şöyle dua etmiş oluyoruz: «Ya Rabbi! Resuli-Ekreminin namını, şanını hem dünya, hem de ahirette yüce kıl! Onun getirdigi İslam dinini bütün cihana yay ve bu dini dünya durdukça yaşat. Ona ahirette ümmetine şefaat etme hakkı ver ve kendisine saysız sevab ihsan eyle!».[66]

Hz. Nizami islam Peyğəmbərinə (s.a.s.) salam, səlat deyilməsi ilə bağlı uca Allahın (c.c.) buyruğuna sevərək əməl etmişdir. O, nətlərinin başlığında azadlıq Peyğəmbərinə (s.a.s.) salam söyləmişdir.

## HƏZRƏT NİZAMİ GƏNCƏVİYƏ GÖRƏ ALLAHDAN ELM ÖYRƏNMƏYİN YOLU

Hz. Nizami Gəncəvi ona verilən nemətin-istedadın, Allahdan (c.c.) olduğuna inanmış və Allahın (c.c.) bu ən dəyər  verdiyi nemətin şükrünü ancaq Allahın (c.c) razı olacağı işlər görməklə ödəməyin mümkün olacağını düşünmüşdür. Hz.Nizami Allahın (c.c.) ona sirlər açmasının səbəblərini belə dəyərləndirib:

---

[65] «Riyazüs Salihin», İstanbul, 2004, c. VI, s. 210.
[66] «Riyazüs Salihin», İstanbul, 2004, c. VI, s. 217.

همی تا زو خط فرمان نیاید
به شخص هیچ پـیکر جان نیاید
نه هرک ایزدپـرست ایزد پرستد
چو خود را قبله سازد خود پرستد
ز خود برگشتن است ایزد پرستی
ندارد روز با شب هم نشستی
خدا از عابدان آن را گزیند
که در راه خدا خود را نبیند
نظامی جام وصل آنگه کنی نوش
که بر یادش کنی خود را فراموش

«… Ancaq ondan (yəni Allahdan (c.c.) fərman
xətti gəlməyincə,
Heç bir vücuda can gəlməz.
Hər bir Allaha pərəstiş edən Allahı sevən deyil,
Özünü qiblə etdiyi üçün xudpərəstdir.
Allahpərəstlik özündən üz döndərməkdir,
Gündüzlə gecənin ülfəti olmaz.
Allah ibadət edənlərdən o adamı sevir ki,
Allah yolunda özünü unutsun.
Nizami, vüsal şərabını o gecə içərsən ki,
Onun (yəni Allahın (c.c.) yadı ilə özünü
unutmuş olarsan».[67]

Hz.Nizami bu misraları «Xosrov və Şirin» əsərində «Sübuta yetirmək və tanımağa nail olmaq haqqında söz» başlığı ilə verib. O, bu bölmədə Allahı tanımağın, Allahdan

[67] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 27.

elm öyrənməyin yolunu və ölçülərini göstərib. Hz. Nizamiyə görə, bu yollar və ölçülər aşağıdakılardır:

**- könlünü təmizləmək («bütxanəni bütdən təmizlə»)** [68]

**- bütləri tapdalamaq («bütə ayaq bassan, tapdalasan, nicat taparsan»)**[69]

**- ilahi xəzinəni tapmaq üçün çox çalışmaq («bağlı tilsimi zəhmətlə tapa bilərsən»)**[70]

**- nəfsi öldürmək («nəfsin gözlərini bir-bir kor elə»)**[71]

**- sirr təsadüflə açılmaz («fələyin naxşına aldanma, o, xəyaldır»)**[72]

**- hər şeyin sahibinin və onları yaradıb hərəkət etdirənin Allah olduğunu bilmək və buna tam inanmaq («dolananı bir dolandıran var»)**[73]

**- hər şeyi Allahdan bilmək, hər şeyi Allahla bilmək, hər şeyi Allah üçün bilmək. («Onunla axtarsan, şəvədən nur taparsan, Ondan istəməsən, Aydan nur tapa bilməzsən»)**[74]

**- Allaha (c.c.) gedən yolda Peyğəmbəri (s.a.s.) özünə öndər seçmək, ona uymaq, («Dərdli beynimə dərman et, Onun dərmanını Mustafanın ayağının torpağından et»)**[75]

Hz.Nizami Gəncəvinin Allahı (c.c.) tanımaq, Allahın (c.c.) elmini öyrənmək yolları və ölçülərinin ilahi qaynaqları var. Bu qaynaqlar Quran və hədislərdir. Bu düşüncəmizi əsaslandırmaq üçün yuxarıda verdiyimiz şeir parçasını şərh edək.

---

[68] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.
[69] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.
[70] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.
[71] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.
[72] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 31.
[73] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.
[74] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.
[75] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.

(«Ancaq Ondan (Allahdan (c.c.)fərman xətti gəlməyincə, Heç bir vücuda can gəlməz»)

Nizami Gəncəvi bu şeir parçasının birinci beytində Allahın qadir sifətinə (qüdrət sahibi, hər şeyə gücü yetən, kimsəyə möhtac olmadan istədiyini yaradan) və Malikülmülk sifətinə (mülkün sahibi) işarə etmişdir. Yaradan Allah Quranda öz Qadir sifətini belə təqdim edir:

أَوَلَيْسَ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ بِقَادِرٍ عَلَى أَنْ يَخْلُقَ مِثْلَهُم بَلَى
وَهُوَ الْخَلَّاقُ الْعَلِيمُ . إِنَّمَا أَمْرُهُ إِذَا أَرَادَ شَيْئاً أَنْ يَقُولَ لَهُ كُنْ فَيَكُونُ

(Yasin, 36/81-82)

«Göyləri və yeri yaradan Allah onların bənzərini yaratmağa qadir olmazmı? Əlbəttə, olur. O, hər şeyi haqqıyla bilən yaradıcıdır. Bir şeyin olmasını istədiyi zaman Onun işi ona «ol» deməkdən ibarətdir. O da o an olar».

**Hz. Nizami birinci beytdə «hər bir vücuda can gəlməsi üçün Allahın (c.c.) fərmanı olmalıdır» - deyir. Şair bundan sonra uca Allaha (c.c.) yalandan, inanmadan ibadət edənlərlə, doğrudan iman edənləri bir-birindən ayırır. İnsan hər şeyi özündən bilirsə, «özünü qiblə edirsə», hər şeyə çıxarları ölçüsündən baxırsa, o, özünü aldadır, onunla Allah arasında qalın pərdələr var. Hz. Nizami gerçək ibadətin ölçüsü olaraq bunu göstərir: «Allahpərəstlik özündən üz döndərməkdir», «Allah (c.c.) yolunda özünü unutmaqdır». Burada «özündən üz döndərmək» nəfsin istəklərindən qurtulub, Allaha (c.c.) yönəlmək, yalnız Allaha (c.c.) itaət etmək anlamındadır. Bir sözlə, hz. Nizaminin «özündən üz döndərmək» ölçüsü Allaha (c.c.) təslimiyyət, duyğu və düşüncələri Allah (c.c.) yolunda səfərbər etmək deməkdir. Uca Allah (c.c.) bu ölçünü Qurani-Kərimdə sıx-sıx təkrarlayır:**

ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ .الَّذِينَ يُؤْمِنُونَ بِالْغَيْبِ
وَيُقِيمُونَ الصَّلاةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ .والَّذِينَ يُؤْمِنُونَ بِمَا أُنزِلَ
إِلَيْكَ وَمَا أُنزِلَ مِن قَبْلِكَ وَبِالآخِرَةِ هُمْ يُوقِنُونَ . أُوْلَـئِكَ عَلَى هُدًى مِّن
رَّبِّهِمْ وَأُوْلَـئِكَ هُمُ الْمُفْلِحُونَ

(Bəqərə, 2/1-5)

«Bu kitab, şübhə olmayan bir kitabdır. Allahdan çəkinənlər (təqva sahibləri) üçün bir rəhbərdir. Təqva sahibləri qeybə inanır, namazlarını dosdoğru qılır («özündən üz döndərmək», «Allah yolunda özünü unutmaq»), bizim onlara verdiyimiz ruzidən başqalarına da verir, sənə endirilən (kitaba), həm də səndən öncələrə (Peyğəmbərlərə) endirilənlərə (kitablara) inanırlar, heç şübhə etmədən axirətə də inanırlar. Bunlar Rəbblərindən gələn hidayət üzərindədirlər. Qurtulanlar da bunlardır».

Yuxarıda göstərilən parçada verilən ibadət anlayışı hz. Nizamiyə görə çox genişdir. Hz. Nizamiyə görə, bu anlayışa Allahın razı olduğu bütün işlər daxildir. **Hz. Nizami nəfsin istəkləri ilə Allah (c.c) sevgisinin bir arada yaşamasının mümkünsüzlüyünü bildirir. O, bu mümkünsüzlüyü bədii bir biçimdə «gündüzlə gecənin ülfəti olmaz» deyərək ifadə edir. Bu misrada «gündüz» Allah sevgisini, «gecə» isə nəfsin istəklərini təmsil edir. Hz. Nizami iki zidd anlayışın bir arada yaşamayacağını son dərəcə uğurlu bədii yolla çatdırmışdır.**

**Hz. Nizami Gəncəvi istedadlı, ağıllı, imanlı bir sənətkar olaraq yaradan Allahdan (c.c.) elm almağın ölçü və yollarını göstərərək bunun ancaq Allaha təslimiyyətlə mümkünlüyünü və başqa bir yol olmadığını bədii sözün imkanları ilə inandırıcı bir biçimdə gözəl ifadə etmişdir.**

**O, yuxarıdakı şeir parçasında zidd mənalı anlayışlarla inandığı ideyanı, ölçünü açıqlamışdır: «vücud»**

**(torpaqdan olan bədən), «can» -ruh (Allahdan olan – anlamını ancaq Allahın bildiyi nəsnə) - bunlardan biri çürüyən, torpağa qarışan, o birisi əbədi, ölməyəndir, «özünü qiblə etmək», «özündən üz döndərmək», birincisi həsəd, paxıllıq doğurur, ikincisi Allah (c.c.) və insan sevgisi yaradır, «gecə», «gündüz» - biri ölümdür, o biri həyat, «Allahı yad etmək-anmaq», «özünü unutmaq» bu isə əbədi hüzur halıdır, aralıqsız uca Allahın (c.c.) hüzurunda olmaqdır, bütün işlərində yaradan Allahın (c.c) razı olduğu ölçüləri əsas götürməkdir, kəsintisiz zikr halıdır, davamlı elmdir.**

Bundan sonra hz.Nizami Gəncəvi Allahın (c.c.) sevdiyi insanların göstəricilərini, ölçülərini verir: «Allah ibadət edən (birinci ölçü) o adamı sevir ki, Allah yolunda özünü unutsun (ikinci ölçü)».

Bu ölçünü şərh edək. Biz yuxarıda ibadətin İslamda geniş bir anlam daşıdığını demişdik. Allahın ibadətdə – bütün işlərdə istədiyi şey ixlasdır-xalis olaraq Allahın (c.c.) razılığını qazanmaq niyyətidir. Görülən işə başqa bir niyyət qarışmamalıdır. **Hz. Nizami Gəncəvi «özünü unutmaq» deyəndə bütün şəxsi çıxarlardan sıyrılaraq bir könül təmizliyi ilə Allaha (c.c.) yönəlməyi nəzərdə tutur. Bu isə Allaha (c.c.) aşiq olmaqla ola bilər. Allaha (c.c.) aşiqlik varsa, təslimiyyət də var. Təslimiyyət varsa, Allahın (c.c.) elmini öyrənməyin, bilməyin, bir sözlə Allahı (c.c.) tanımağın yolunu kəsən pərdələrin qalxmaması, bəsirət gözünün açılmaması üçün bir səbəb qalmır.**

Yuxarıda verdiyimiz şeir parçasının sonunda hz. Nizami özünə (Allahı (c.c.) tanımaq, bilmək istəyənlərin hamısına) üz tutur. O, «vüsal şərabı» içməkdən danışır. Bu məcazi ifadənin həm dini, həm də ədəbi yükü var. İslam ədəbiyyatında «vüsal» qovuşmaq anlamındadır, «şərab» isə Allah (c.c.) sevgisi yolunda aşiqi özündən keçirən içkidir. O

içildikcə sevgini, susuzluğu daha da artırır, bir yanğıya çevrilir, aşiq «özünü unudur», sevgilisi ilə baş-başa, üz-üzə qalaraq ilahi bir həzz duyğusu içində rahatlıq tapır. Yəni «qovuşmağın» yolu «şərabı» içməkdir. Biz burada «şərab» sözünü təsəvvüfi anlamdan fərqli bir biçimdə «elm» mənasında da təfsir edə bilərik. Bu anlamda Allaha (c.c.) qovuşmağın yolu onu tanıdacaq elmi öyrənməkdir.

Uca Allah (c.c.) Qurani-Kərimdə insanı yaratmaqda məqsədin insanın Allaha (c.c.) ibadət etməsi olduğunu buyurmuşdur.[76] Alimlər buradakı «ibadət» sözünü «tanımaq» kimi təfsir etmişlər. Bir şeyi tanımaq da elmlə ola bilər. Uca Allah (c.c) başqa bir ayədə ondan ən çox qorxanların alimlər olduğunu buyurmuşdur.[77] Başqa ayələrə baxaq:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا قِيلَ لَكُمْ تَفَسَّحُوا فِي الْمَجَالِسِ فَافْسَحُوا يَفْسَحِ اللَّهُ لَكُمْ وَإِذَا قِيلَ انشُزُوا فَانشُزُوا يَرْفَعِ اللَّهُ الَّذِينَ آمَنُوا مِنكُمْ وَالَّذِينَ أُوتُوا الْعِلْمَ دَرَجَاتٍ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ

(Mücadələ, 58/11)

«Ey iman gətirənlər! Sizə: «Məclislərdə (mömin qardaşlarınıza) yer verin!,-deyildiyi zaman (onlara) yer verin ki, Allah da sizə (cənnətdə) geniş yer versin. Eləcə də sizə: «Qalxın!»,-deyildikdə qalxın ki, Allah da sizdən iman gətirənlərin və (xüsusi ilə) elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah etdiyiniz əməllərdən xəbərdardır!»

يَقُولُونَ لَئِن رَّجَعْنَا إِلَى الْمَدِينَةِ لَيُخْرِجَنَّ الْأَعَزُّ مِنْهَا الْأَذَلَّ وَلِلَّهِ الْعِزَّةُ وَلِرَسُولِهِ وَلِلْمُؤْمِنِينَ وَلَكِنَّ الْمُنَافِقِينَ لَا يَعْلَمُونَ

(Münafiqin, 63/8)

«Onlar: «Əgər biz Mədinəyə qayıtsaq, ən güclülər ən zəifləri, əlbəttə, oradan çıxaracaqlar!», – deyirlər. Halbuki,

[76] «Zariyat», 51/56.
[77] «Fatır», 35/28.

şərəf-şan yalnız Allaha, onun Peyğəmbərinə və möminlərə məxsusdur, ancaq münafiqlər bilməzlər!».

وَلاَ تَنكِحُواْ الْمُشْرِكَاتِ حَتَّى يُؤْمِنَّ وَلأَمَةٌ مُّؤْمِنَةٌ خَيْرٌ مِّن مُّشْرِكَةٍ وَلَوْ أَعْجَبَتْكُمْ وَلاَ تُنكِحُواْ الْمُشِرِكِينَ حَتَّى يُؤْمِنُواْ وَلَعَبْدٌ مُّؤْمِنٌ خَيْرٌ مِّن مُّشْرِكٍ وَلَوْ أَعْجَبَكُمْ أُوْلَـئِكَ يَدْعُونَ إِلَى النَّارِ وَاللّهُ يَدْعُوَ إِلَى الْجَنَّةِ وَالْمَغْفِرَةِ بِإِذْنِهِ وَيُبَيِّنُ آيَاتِهِ لِلنَّاسِ لَعَلَّهُمْ يَتَذَكَّرُونَ

(Bəqərə, 2/221)

«Allaha şərik qərar verən (Onu inkar edən) qadınlar imana gəlməyincə onlarla evlənməyin! Əlbəttə, Allaha iman gətirmiş bir cariyə gözəlliyinə heyran olduğumuz bir müşrik qadından daha yaxşıdır. Həmçinin müşrik kişilər Allaha iman gətirməyənə qədər mömin qadınları (onlara) ərə verməyin! Əlbəttə, Allaha iman gətirən bir kölə xoşunuza gəlməsə belə, müşrik bir kişidən daha xeyirlidir. Onlar sizi cəhənnəmə çağırdıqları halda, Allah sizi Öz izni ilə cənnətə, bağışlanmağa çağırır və yaxşı düşünüb ibrət almaları üçün insanlara hökmlərini aydınlaşdırır».

Bizim burada «elm», «ibadət», «iman» qavramlarına açıqlıq gətirən ayələri seçməyimizin əsasları var. Bu anlayışların arasında sıx bir bağlılığın olması aydın gerçəklikdir. **İnsanı Allaha (c.c.) yönəldəcək elm, bu faydalı elmin nəticəsi olaraq uca Allahı (c.c.) tanımaq, bilmək, sevmək, təslim olmaq və bunların sonucu da sarsılmaz bir iman. Deməli, elmsiz tanıma, tanımasız iman yoxdur.** Bu anlamda hz. Nizaminin yorumunda «şərbət»in imana aparan elm olduğu qəbul oluna bilər. Başqa yöndən hz. Nizami bütün yaradıcılığı boyu elmə yüksək dəyər vermişdir:

«… Bu əyri cizgilər cədvəlində sən,
Özünü şərh edib, özünü öyrən!
Ol öz vicdanının sirrinə açar,
Çünki bu mərifət qəlbə nur saçar.

Elmlər elmidir demiş Peyğəmbər,
Din elmi, təbabət elmi müxtəsər.
Hərçənd sənətin çox rütbəsi var,
Həyata faydalı bir elm axtar».[78]

Doğrudur, hz. Nizami Gəncəvinin təsəvvüf düşüncəsini, təsəvvüf mədəniyyətini dərindən bildiyi, onun məzmunundan, forma özəlliklərindən sıx-sıx yararlandığı aydın görünür, ancaq o, təsəvvüf şairi deyil.

**Hz. Nizami Gəncəvi «vüsal şərbətini» «içmək» feli ilə vermişdir. Biz «şərbət» sözünü «elm» kimi yozsaq, bu yükdə anlasaq, bir məna uyğunsuzluğu yaranmırmı? Bizcə, yox. Ona görə ki, hz. Nizami burada çətinliklərlə öyrənilən elmi nəzərdə tutduğu kimi, daha çox mücadilə, sıxıntılara dözmək, nəfsi məğlub etmək yolu ilə aramsız olaraq Allahın (c.c.) hüzurunda dayanmaq səadətini əldə etmiş insanın könlünə axan, onun könlündə doğulan, göylərdən süzülərək duyğu və düşüncələrinə hopan elmi nəzərdə tutur. Artıq hüzura qovuşmuş, pərdələri götürülmüş möminin (Nizaminin) qəlbinə elm nuru axmaqdadır. O, «elm içməkdən» sərxoşdur və bu səadəti heç nəyə dəyişmək istəmir.**

Bu beytdə diqqəti çəkən sözlərdən biri də «gecə» sözüdür. Bilindiyi kimi, Allah (c.c.) aşiqləri üçün gecənin ayrıca yeri var. Onlara görə gecə ibadət, göz yaşları içində yalvarış, içdən gələn dua, elm öyrənmək vaxtıdır. Gecə oyaq qalmaq aşiqin vəfa borcudur. Gecə bir də «vüsal şərabı»nın içildiyi, elm nurunun axdığı toxunulmaz bir zaman kəsiyidir. Hz. Nizami də bu sözü təsadüfən seçməyib. Beytdə «o gecə» «vüsal şərabı» içməyin şərti kimi dəyərləndirilib («Nizami, vüsal şərabını o gecə içərsən ki»), yəni «vüsal şərabını» içmək o şərtlə olar ki, «Onun (yəni Allahın (c.c.) yadı (yad edilməsi)

---

[78] Nizami Gəncəvi, «Leyli və Məcnun», Bakı, 1981, s. 52.

ilə özünü unutmuş olarsan». Deməli, hz. Nizami Gəncəvinin təqdimində «o gecə» ibadət edilən, Allahla baş-başa qalınan, hər şeydə və hər an Allahın (c.c) düşünüldüyü, Allah (c.c) sevgisi ilə, yalvarışla göz yaşlarının sel kimi axdığı, pərdələrin açıldığı, ilahi nemətin – elmin, imanın qəlbə yerləşdiyi gecədir.

# «SİRLƏR XƏZİNƏSİ»NDƏN ÜÇÜNCÜ NƏTİN ŞƏRHİ

## ÜÇÜNCÜ NƏTİN ÖZƏLLİKLƏRİ

Həzrət Nizaminin İslamın mübarək Peyğəmbəri (s.a.s) ilə bağlı olan üçüncü nəti «Sirlər xəzinəsi» əsərindədir və otuz üç beytdir.[79] Bu nət əsərin orijinalında «Nəti-dovvom» («İkinci nət»), Azərbaycan türkcəsinə tərcümədə isə «Sitayiş» adı ilə verilmişdir.

Hz. Nizaminin şərh etdiyimiz birinci nəti daha çox hz. Peyğəmbəri (s.a.s) təqdim etmək, onun yaradılışını, peyğəmbərlik vəzifəsinin xüsusiyyətlərini, Onun başqa peyğəmbərlərdən fərqlərini, həyat və peyğəmbərlik yolunu, insan, peyğəmbər, ailə başçısı, yenilməz sərkərdə, dövlət başçısı, dost, hüquq və əxlaq sistemi yaratmış olan hz. Məhəmmədi (s.a.s) tarixi, dini qaynaqları olan kod sözlərlə, anlayışlarla tanıtmaq vəzifəsini yerinə yetirmişdir.

Hz. Nizami Peyğəmbərlə bağlı ikinci nətində isə hz. Məhəmmədi (s.a.s) tanıtmaq, sevdirmək vəzifəsini başqa bir üslubla yerinə yetirmişdir. Şairin ikinci nətində daha çox öygü prinsipi önə keçmişdir.

Uca Allaha (c.c) və Onun elçisinə sarsılmaz bir imanla bağlı olan hz. Nizaminin üçüncü nətinin də bir sıra özəllikləri var. Hər şeydən öncə üçüncü nətdə beytlərdə ifadə olunmuş mənalar, fikir və ideyalar dini, ədəbi-bədii və tarixi informasiyalar üzərində qurulmuşdur. Yəni əgər birinci nətdə beytlərin məna yükü daha çox dini məzmun və bu məzmunu ifadə edən anlayışlar üzərində qurulubsa, beytin bədii yükü ikinci sıraya keçibsə, üçüncü nətdə isə

[79] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», (filoloji tərcümə, izahlar, şərhlər və lüğət professor Rüstəm Əliyevindir), «Elm», Bakı, 1981, s. 34-36.

dini, bədii yük və bu məzmunların ifadəçisi olan sözlər, ifadələr arasında bir tarazlıq yaradılmışdır. Fikrimizi bir az da açıqlamaq üçün birinci və üçüncü nətin leksikasına, anlayışlar sisteminə baxaq:

Birinci nətin başlıca anlayışları bunlardır: **«Lövhə», «əlif», «Əhməd», «ha», «dal», «mim», «səadət məmləkəti», «kamal fərmanı», «günbəz», «saray behişti», «firuzə rəngli kərpic», «turunc», «peyğəmbər», «Mən peyğəmbər idim…», «bayraq», «peyğəmbərliyə son qoymaq», «Məhəmməd», «Ay», «Məhəmmədin möhürü», «cahanın qulağı», «iki dünya», «sahəölçən», «Məsih», «müjdə», «fəsahətli dil», «ümmi», «Adəm», «əhd», «vəfa», «dairə», «nöqtə», «təkəbbür», «ədəb», «fələk», «kəmər», «ismət», «məsum», «hərəm», «türbə», «bac vermək», «Məkkə», «dostluq», «fitnə», «ağırtaxtalı», «yüngülyerişli», «qütb», «Allahın şamı», «əzəl dərsi», «əbəd», «Günəş çeşməsi», «merac gecəsi», «ulduza bənzər at»** və başqaları.[80]

Göründüyü kimi, hz. Nizaminin birinci nətinin leksikasının başlıca sözləri dini anlayışlarla bağlıdır. Bu nətdə hər anlayış, hər kod bir dini qaynağa, məzmuna bağlıdır və bu dini, tarixi informasiyaları bilmədən hz. Nizaminin seçdiyi şifrələri açmaq mümkün deyil. **Buna uyğun olaraq birinci nətin bədii örtüyü, bədii təsvir və ifadə vasitələri də bu məzmuna tabe edilmişdir. Burada bədii örtük sadəcə bir fantaziya məhsulu deyil, birbaşa dini məzmuna bağlı olan, bu məzmunu ifadə edən bədii biçimdir.** Dini məzmundan kənarda bu sözlər doğru anlaşılmır.

İndi də üçüncü nətin leksikasına daxil olan başlıca anlayışları oxuyaq: **«pak bədən», «pak ruh», «rəhmət**

---

[80] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 25-26.

**evi», «saray», «Ay», «şah», «yol», «kətxuda», «mərhəmət», «xurma», «pay gətirmək», «şəkər», «dodaq», «ağız», «gecə kimi qara tellər», «dirilik suyu», «çərx», «sübh», «Günəş», «islanmış ətək», «yerin göbəyi», «müşk göbəyi», «türbə», «müşk saçmaq», «Süleyman», «bağ», «cənnət», «Kəbə», «gülab», «tac», «taxt», «işıq», «Allah işığının kölgəsi», «namaz», «zəlillərin torpağı», «zülfü dağılmış gecə», «göyün ətəyi», «günəşin qızıl parçası», «fələyin köynəyi», «səba yeli», «sübhün sədəfi», «ənbər qoşunu», «iki aləm», «iki cahanı özündə birləşdirən», «müqəddəs xəzinə», «sənin xəzinən», «sənin şamın», «pərvanə», «kamana bənzəyən çərx», «təbib»** və başqaları.[81]

Göründüyü kimi, üçüncü nətin leksikasında bədii yüklü sözlərin, anlayışların sayı daha çoxdur. Burada olan bədii örtük birbaşa dini, tarixi hadisələrlə bağlı deyil, bədii təsvir və ifadə vasitələrinin arxasında konkret dini, tarixi fakt yoxdur, ya da çox azdır.

Üçüncü nətdə hz. Məhəmmədin (s.a.s) insani keyfiyyətləri, bir peyğəmbər olaraq insanlığa verdiyi dəyişməz ölçülər şərh edilmişdir.

Üçüncü nətdə bədii təsvir və ifadə vasitələrinin quruluşunda dinlə bağlı sözlərin ayrıca yeri var.

Üçüncü nətdə şair hz. Məhəmmədi (s.a.s) təqdim və təhlil edərkən səma cisimlərindən, işıqdan, ətirdən, sudan bir bədii vasitə kimi çox istifadə etmişdir.

Üçüncü nətdə də hz. Nizami peyğəmbərlik anlayışının mahiyyəti, peyğəmbərlərin göndərilməsinin hikməti ilə bağlı görüşlərini açıqlamışdır. Şairin peyğəmbərlik institutu ilə

---

[81] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 34-36.

bağlı görüşlərinin başlıca prinsiplərini belə ümumiləşdirə bilərik:

Uca Allahın (c.c) peyğəmbərlər göndərməsindəki başlıca məqsəd Allahı (c.c) insanlara tanıtmaq, insanları cəhalətdən qurtarmaq, onları bu dünya və axirət səadətinə qovuşdurmaqdır.

Peyğəmbərlər günahdan qorunmuş olan, doğru yolu göstərən, insanların və millətlərin Allahın (c.c) ölçülərinə uyğun yaşamalarını təmin edəcək qaydalar müəyyənləşdirən liderlərdir. Uca Allah Qurani-Kərimdə buyurur:

وَيَقُولُ الَّذِينَ كَفَرُواْ لَوْلاَ أُنزِلَ عَلَيْهِ آيَةٌ مِّن رَّبِّهِ إِنَّمَا أَنتَ مُنذِرٌ وَلِكُلِّ قَوْمٍ هَادٍ

(ər-Rəd, 13/7)

«… Sən ancaq (insanları Allahın əzabı ilə) qorxudansan. Hər tayfanın (toplumun) doğru yol göstərən bir rəhbəri (peyğəmbəri) var!».

İnsanların təkbaşına uca Allahı (c.c) tanımaq, pis xislətlərdən təmizlənmək, haqq yolu tapmaq imkanı yoxdur. Ona görə də, insanların əlindən tutub, onların bəsirət gözünü açıb həqiqəti onlara bildirəcək güclü, Allahın (c.c) seçdiyi insanlara – peyğəmbərlərə ehtiyacı var.

**Peyğəmbərlər ruhi və nəfsi gücləri barış içində olan insanlardır.** Biz bu məsələnin üzərində ayrıca dayanmaq istəyirik. Çünki hz. Nizami üçüncü nətin birinci beytində hz. Məhəmmədin (s.a.s) ruhunun pak, bədəninin təmiz olmasından danışır. Şair hz. Məhəmmədə (s.a.s): «Ey bədəni pak candan da təmiz olan!»,- deyərək üz tutur.[82]

[82] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 34.

Bu seçilmiş insanlarla bağlı böyük islam alimi Şah Vəliyullah Dəhləvi yazır: «**… Bunlar mutedil bir mizaca sahip olurlar, hem yaratılış, hem de huy bakımından güzeldirler. Onlarda aşırı davranışlar ve istikrarsızlık olmaz. Onlar, kendilerini külliden cüziye, ruhtan surete çekecek anormal zeka durumundan, keza cuziden külliye, suretten ruha ulaşmalarını engelleyecek aptallıktan (geri zekalılık) uzaktırlar. Bunlar hak yola (sünneti-raşide) sıkı-sıkıya bağlı olurlar, ibadetlerinde örnek bir tavır sergilerler, insanlarla olan ilişkilerinde adalet ölçüsünün timsalidirler, külli tedbiri severler, her kesin yararını arzularlar, hiç bir kimseye-toplum yararı söz konusu olmadıqca - eza vermezler, qayb alemine meyl ederler, onların bu meylinin eseri sözlerinde, yüzlerinde ve tüm davranışlarında kendisini gösterir. Onların qayb aleminden desteklendikleri görülür. Başkaları için kolay-kolay açılmayan yakınlık ve huzur (sekinet) kapıları en ufak bir riyazet sonucunda onlara açılır…».**[83]

Peyğəmbərlər həqiqəti bilirlər. Onları uca Allah (c.c) seçir. Onlar insanları cəhalətin qaranlığından xilas edərək işığa qovuşdururlar:

هُوَ الَّذِي بَعَثَ فِي الْأُمِّيِّينَ رَسُولاً مِّنْهُمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَإِن كَانُوا مِن قَبْلُ لَفِي ضَلَالٍ مُّبِينٍ

(əl-Cümə, 62/2)

«(Əksəriyyəti yazıb-oxumaq bilməyən) ümmi ərəblərə özlərindən peyğəmbər göndərən Odur. (Bu peyğəmbər) əvvəllər haqq yolundan açıq-aşkar azmış olsalar da, onlara (Allahın) ayələrini oxuyar, onları (günahlardan, şirk və küfr

---

[83] Şah Vəliyyullah Dəhləvi, «Hüccetullahil-Baliğa», (türkcəyə çevirən, Mehmet Erdoğan), İstanbul, 2002, s. 315.

çirkabından) təmizləyər, onlara kitabı və hikməti (Quranı-şəriəti) öyrədər».

İnsanlar, toplumlar doğru yolu ancaq uca Allaha (c.c) itaətlə tapa bilərlər. Bu yolda insanlara öndərlik edəcək şəxslər peyğəmbərlərdir: «… Allah Teala insanlar için açık kapı (mazeret, behane) kalmasın diye, peygamberler göndermiş ve böylece onlara karşı hüccet ikamesinde bulunmuşdur. Çünki insanların büyük çoğunluğu kendi leh ve aleyhlerinde olan şeylerin bilgisini ancak aracı yoluyla alabilecek kabiliyette yaratılmışlardır. İnsanların bu konuda kabiliyetleri ya zayıftır, peygamberlerin getirmiş olduğu haberlerle güç kazanır, ya da ortada bazı mefsedetler vardır ve onlar ancak zecri (məcburi – S. H.) tedbirlerle – insanlar istemeseler dahi – ortadan kaldırılır…».[84]

Hz. Nizami də üçüncü nətdə insanların, cəmiyyətlərin peyğəmbərlərə olan ehtiyacını nət boyu dilə gətirmişdir. Bu zaman şair hz. Məhəmmədlə (s.a.s) bağlı hər bir anlayışa, fakt və hadisəyə diqqətlə yanaşmış, bu informasiyalar üzərində qurulmuş ideyanı bədii biçimdə təqdim etmişdir.

Hz. Nizami üçüncü nətdə hz. Məhəmmədi (s.a.s) insanlara tanıtmaq üçün Peyğəmbərlə bağlı şəfqət, mərhəmət, sevgi, bağışlama, cəsarət, iman anlayışlarını da bədii bir yozumla şərh etmişdir.

**Üçüncü nətin üslubunda özünü göstərən əlamətlərdən biri də müqayisə metoduna üstünlük verilməsidir.** Şair hz. Məhəmmədin (s.a.s) üstünlüyünü göstərmək üçün bu metodun imkanlarından yararlanmışdır.

**Üçüncü nət bədii təsvir və ifadə vasitələri ilə zəngindir.** Hər beytin dini, elmi, fəlsəfi, bədii yükü var. İslam

[84] «Şah Vəliyyullah Dəhləvi», göstərilən qaynaq, c. I, s. 319.

dini və hz. Peyğəmbərlə (s.a.s) bağlı bilik sahibi olmadan bu beytləri doğru şərh etmək mümkün deyil.

**Hz. Nizaminin üçüncü nətində simvollardan da çox istifadə edilmişdir.** Bu, hz. Nizami üçün bir üslub göstəricisidir və şair bu yolla bir neçə məqsədi gerçəkləşdirməyə çalışır. **Şair hər şeydən öncə simvollar vasitəsi ilə mücərrəd anlayışları əyaniləşdirir, oxucunun ideyanı asanlıqla qavramasına yol açır.** Dilüstü bir dil olan simvol «… ruhun bizimle gerçek arasındakı evrensel araçılığı ve vasitesidir. Sembol gerçek anlamda görülen bir surette görülmeyen bir hakikate işaret eder ve ruhun derinligine, şuur altındakı sahalarına kadar tesirler bırakıp bir çox fikir ve duyğuları uyandıracak kadar kuvvetlidir. Ebedi olanın dünyevi şekle sokularak açıklanmasıdır… Gerçekde nesneler dünyasına semboller dünyasından bakmak düşünceye başka bir kanal açmakta ona hakikatın ta bizlere kadar uzanan, ama gerçek akış noktası çok aşkın bir yerde bulunan dalqa boyutlarıyla, ilahi frenkanslarla karşılaşma imkanı sağlamaktadır. Genel durumuyla düşüncenin hizmetinde olan, inancın da kullanacağı bir yoldur…».[85]

Hz. Nizami də həqiqətin öyrənilməsinə yol açmaq, ideyanı obrazlarla qavramaq, hz. Məhəmməd (s.a.s) və onun dönəmi ilə ruhu bağlantı qurmaq, Peyğəmbərin gətirdiyi və insanın, toplumun sağlamlığını təmin edən dəyərləri diri saxlamaq, onları insan və toplum əxlaqına yerləşdirmək üçün üçüncü nətdə «rəhmət evi», «nöqtə», «işıq», «dirilik suyu», «saç», «türbə», «müşk», «taxt», «tac», «səba yeli» ,

[85] Sadık Kılıç, «Kuran Sembolizmi», Ankara, 1991, s. 16-17. Simvollarla bağlı daha geniş bilgi üçün baxın: Ömür Ceylan, «Tasavvufi şiir şerhleri», İstanbul, 2000; Beşir Ayvazoğlu, «Aşk estetigi, İslam sanatlarının estetigi üzerine bir deneme», İstanbul, 1993.

«sidr ağacı», «ərş» və başqa obraz və simvollardan istifadə etmişdir.

Üçüncü nətin başlıca nəticəsi odur ki, hz. Nizamiyə görə, islam Peyğəmbərinə inanmaq, Onu sevmək, Onun ardınca getmək müsəlman mədəniyyətinin ölməz dəyəridir. Bu dəyəri qorumaq, yaşatmaq, nəsillərə ötürmək isə bizim vəzifəmizdir.

# BİRİNCİ BEYTİN ŞƏRHİ: «RUHUM SƏNƏ FƏDA OLSUN, EY ALLAHIN RƏSULU!»

ای تن تو پاك تر از جان پاك
روح تو پرورده روحی فداك

*«Ey bədəni pak candan da təmiz olan!*
*Sənin ruhun «Ruhumuz Sənə fəda olsun» kəlamı ilə tərbiyələnib».*[86]

## PEYĞƏMBƏRƏ SEVGİ VƏ MÜRACİƏT MƏDƏNİYYƏTİ

Hz. Nizami üçüncü nətə mübarək İslam Peyğəmbərinə müraciətlə başlamışdır. **Şair, hz. Məhəmmədlə (s.a.s) özü və oxucu arasında ruhi bağlantı qurmaq üçün çağırış, yardım, ehtiyac, inam, ruhi-psixoloji səfərbərlik məzmununu ehtiva edən «Ey» müraciət etiketindən istifadə etmişdir.** Ümumiyyətlə, hz. Nizami heç bir nətində hz. Məhəmmədə (s.a.s) adı ilə «Ey Məhəmməd», deyə müraciət etməmişdir. Bunun da səbəbi var. Birincisi, Qurani-Kərimdə uca Allah (c.c) Peyğəmbərinə tez-tez «Ey» («Ya») müraciəti ilə üz tutmuşdur:

إِنَّ الَّذِينَ كَفَرُواْ سَوَاءٌ عَلَيْهِمْ أَأَنذَرْتَهُمْ أَمْ لَمْ تُنذِرْهُمْ لاَ يُؤْمِنُونَ

(əl-Bəqərə, 6)

«(Ey Rəsulum!) Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər!»

---

[86] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 34.

إِنَّا أَوْحَيْنَا إِلَيْكَ كَمَا أَوْحَيْنَا إِلَى نُوحٍ وَالنَّبِيِّينَ مِن بَعْدِهِ وَأَوْحَيْنَا إِلَى إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإِسْحَاقَ وَيَعْقُوبَ وَالأَسْبَاطِ وَعِيسَى وَأَيُّوبَ وَيُونُسَ وَهَارُونَ وَسُلَيْمَانَ وَآتَيْنَا دَاوُودَ زَبُوراً

(ən-Nisa, 163)

«(Ey Rəsulum!) Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik. Biz İbrahimə, İsmayıla, İshaqa, Yəquba və onun övladlarına, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy göndərdik. Biz Davuda da Zəburu verdik».

**Bütövlükdə, Quranda «Ey» («Ya») müraciət etiketindən sevgi, çağırış, xəbərdarlıq, hədə, müjdə və başqa mənaları çatdırmaq üçün** «Ey Rəsulum!», «Ey iman edənlər!», «Ey müsəlmanlar!», «Ey kitab əhli!», «Ey Adəm oğulları!», «Ey möminlər!», «Ey müşriklər!», «Ey mühacirlər!», «Ey münafiqlər!» və başqa belə çoxsaylı tərkiblərlə birgə istifadə olunmuşdur.[87]

Başqa yöndən isə Qurani-Kərimdə uca Allah (c.c) hz. Məhəmmədə (s.a.s) olan sevgisini, hörmətini bildirmək, Onun başqa peyğəmbərlərdən üstün olduğunu göstərmək üçün heç vaxt Ona adı ilə müraciət etməmişdir. Ancaq Qurani-Kərimdə başqa peyğəmbərlərə adları ilə müraciət olunur:

أَلَمْ يَأْتِهِمْ نَبَأُ الَّذِينَ مِن قَبْلِهِمْ قَوْمِ نُوحٍ وَعَادٍ وَثَمُودَ وَقَوْمِ إِبْرَاهِيمَ وِأَصْحَابِ مَدْيَنَ وَالْمُؤْتَفِكَاتِ أَتَتْهُمْ رُسُلُهُم بِالْبَيِّنَاتِ فَمَا كَانَ اللّهُ لِيَظْلِمَهُمْ وَلَـكِن كَانُواْ أَنفُسَهُمْ يَظْلِمُونَ

(ət-Tövbə, 9/70)

«Məgər onlara özlərindən əvvəlki Nuh, Ad, Səmud tayfasının, İbrahim qövmünün, Mədyən əhalisinin və Mötəfikilərin (səhərləri alt-üst olmuş Lut tayfasının) xəbəri

---

[87] ən-Nisa, 4/60; ən-Nisa, 4/135; əl-Əraf, 7/31; əl-Ənfal, 8/16; əl-Ənfal, 8/17; ət-Tövbə, 9/69; Hud, 11/89, əl-Həcc, 22/1; ən-Nur, 24/32. Belə müraciət formaları demək olar ki, Quranın bütün ayələrində var.

gəlib çatmadımı? Peyğəmbərləri onlara aşkar möcüzələr gətirmişdilər. Allah onlara zülm edən deyildi, ancaq onlar özlərinə zülm etdilər».

وَلَقَدْ آتَيْنَا مُوسَى الْكِتَابَ وَقَفَّيْنَا مِن بَعْدِهِ بِالرُّسُلِ وَآتَيْنَا عِيسَى ابْنَ مَرْيَمَ الْبَيِّنَاتِ وَأَيَّدْنَاهُ بِرُوحِ الْقُدُسِ أَفَكُلَّمَا جَاءكُمْ رَسُولٌ بِمَا لاَ تَهْوَى أَنفُسُكُمُ اسْتَكْبَرْتُمْ فَفَرِيقاً كَذَّبْتُمْ وَفَرِيقاً تَقْتُلُونَ

(əl-Bəqərə, 2/87)

«(Ey İsrail övladı!) Biz Musaya kitab (Tövrat) verdik, ondan sonra da bir-birinin ardınca peyğəmbərlər göndərdik. Məryəm oğlu İsaya aşkar möcüzələr (dəlillər) bəxş etdik və onu müqəddəs ruhla (Cəbraillə, ya da ismi-əzəmlə) gücləndirdik. Hər dəfə sizə ürəyinizə yatmayan bir şey (əmr, buyruq) gətirən peyğəmbərə təkəbbür göstərmirdinizmi? Məhz buna görə də onların bir qismini təkzib etdiniz, bir qismini isə öldürdünüz (Zəkəriyyə, ya da Yəhya kimi)».

**Uca Allah (c.c) Qurani-Kərimdə Peyğəmbərə «Ey Məhəmməd!» deyə müraciət etmir,** Ona sevgisini bildirəndə də, Onu xəbərdar edəndə də «Ey Nəbi!», «Ey Rəsul!» deyə üz tutur:

قُلْ إِن كُنتُمْ تُحِبُّونَ اللّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللّهُ غَفُورٌ رَّحِيمٌ

(Ali-İmran, 3/31)

«(Ey Rəsulum!) De: «Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, rəhmlidir!»

يَا أَيُّهَا النَّبِيُّ جَاهِدِ الْكُفَّارَ وَالْمُنَافِقِينَ وَاغْلُظْ عَلَيْهِمْ وَمَأْوَاهُمْ جَهَنَّمُ وَبِئْسَ الْمَصِيرُ

(ət-Tövbə, 9/73)

«Ey Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş! (Kafirləri qılıncla, münafiqləri isə dəlil-sübutla, sözlə məhv

et!) Onlarla sərt davran! Onların məskəni Cəhənnəmdir. Ora isə pis yerdir!».

Hz. Nizami də mübarək Quranın hz. Məhəmmədə (s.a.s) münasibətdə müəyyən etdiyi ədəb ölçüsünə əməl edərək bir yandan Peyğəmbərə sevgisini ifadə edir, başqa yöndən də bu önəmli əxlaq ölçüsünü insanlara çatdırır, İslamın ortaya qoyduğu dini-mədəni ölçünün toplumun, fərdlərin davranış normalarının tərkib hissəsinə çevrilməsini istəyir.

**Bir Peyğəmbər aşiqi olan hz. Nizami, hz. Məhəmmədi (s.a.s) tanıtmaq, tanıdaraq inandırmaq, inandıraraq sevdirmək, sevdirərək itaət etdirmək, itaət yolu ilə də Onun gətirdiyi ilahi ölçüləri cəmiyyətin əxlaqi dəyərlərinin əsasına çevirmək və bu yolla da insanlığı xilas və xoşbəxt etmək missiyasını yerinə yetirməyə çalışır. Hz. Nizamiyə görə, bu, uca Allah (c.c) qarşısında yerinə yetirilməsi zəruri olan bir borcdur. Şairə görə, hər bir müsəlman üçün hz. Məhəmmədə (s.a.s) inanmaq zəruriliyi və hz. Məhəmmədə (s.a.s) münasibət mədəniyyəti var.** Şairə görə, hz. Məhəmmədə (s.a.s) münasibət mədəniyyəti bir bütöv sistemdir və bu sistemin tərkib hissələrindən biri də Ona müraciətin məzmun və formasıdır. Hz. Məhəmmədə (s.a.s) münasibət, müraciət mədəniyyətinin ölçülərini də Uca Allah (c.c) müəyyən edib:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ
يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تُقَدِّمُوا بَيْنَ يَدَيِ اللَّهِ وَرَسُولِهِ وَاتَّقُوا اللَّهَ إِنَّ للَّهَ سَمِيعٌ عَلِيمٌ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَرْفَعُوا أَصْوَاتَكُمْ فَوْقَ صَوْتِ النَّبِيِّ وَلَا تَجْهَرُوا لَهُ بِالْقَوْلِ كَجَهْرِ بَعْضِكُمْ لِبَعْضٍ أَن تَحْبَطَ أَعْمَالُكُمْ وَأَنتُمْ لَا تَشْعُرُونَ إِنَّ الَّذِينَ يَغُضُّونَ أَصْوَاتَهُمْ عِندَ رَسُولِ اللَّهِ أُوْلَئِكَ الَّذِينَ امْتَحَنَ اللَّهُ قُلُوبَهُمْ لِلتَّقْوَى لَهُم مَّغْفِرَةٌ وَأَجْرٌ عَظِيمٌ

(əl-Hucurat, 49/1-3)

«Ey iman gətirənlər! (Sözləriniz, iş və hərəkətlərinizdə) Allahdan və Peyğəmbərindən önə keçməyin. Allahdan qorxun. Həqiqətən, Allah (hər şeyi) eşidəndir, (hər şeyi) biləndir! Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən əməlləriniz puç olar. Həqiqətən, Allahın Peyğəmbəri yanında astadan danışanlar (səslərini asta çıxardanlar) o kimsələrdir ki, Allah onların ürəklərini təqva üçün imtahana çəkmişdir (möminliyə layiq etmişdir). Onları (günahlardan) bağışlanma və böyük mükafat (cənnət) gözləyir!».

Hz. Məhəmmədə (s.a.s) münasibət mədəniyyətinin, müraciət ölçüsünün daha açıq ilahi qaynağı «Nur» surəsindədir:

لَا تَجْعَلُوا دُعَاء الرَّسُولِ بَيْنَكُمْ كَدُعَاء بَعْضِكُم بَعْضاً قَدْ يَعْلَمُ اللَّهُ الَّذِينَ يَتَسَلَّلُونَ مِنكُمْ لِوَاذاً فَلْيَحْذَرِ الَّذِينَ يُخَالِفُونَ عَنْ أَمْرِهِ أَن تُصِيبَهُمْ فِتْنَةٌ أَوْ يُصِيبَهُمْ عَذَابٌ أَلِيمٌ

(ən-Nur, 24/63)

«Peyğəmbəri çağırmağı öz aranızda bir-birinizi çağırmanızla eyni tutmayın! (Peyğəmbəri özünüz bir-birinizi çağırdığınız kimi çağırmayın. Ona «Məhəmməd, nə deyirsən?» yox, «Bəli, buyur, ey Allahın elçisi, ey Allahın peyğəmbəri!» deyə cavab verin. Ya da Peyğəmbərin duasını öz duanız kimi hesab etməyin. Onun duası sizinkilərdən fərqli olaraq, Allah dərgahında mütləq qəbul olunar). Həqiqətən, Allah sizlərdən (xütbə zamanı məsciddən) xəlvət sovuşub aradan çıxanları tanıyır. Onun (Allahın, ya da Peyğəmbərin) əmrinə qarşı çıxanlar başlarına gələcək bir bəladan, ya da düçar olacaqları şiddətli bir əzabdan həzər etsinlər!».

Hz. Məhəmmədə (s.a.s) münasibət mədəniyyətinin ilahi qaynaqlı başqa bir ölçüsü:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَدْخُلُوا بُيُوتَ النَّبِيِّ إِلَّا أَن يُؤْذَنَ لَكُمْ إِلَى طَعَامٍ
غَيْرَ نَاظِرِينَ إِنَاهُ وَلَكِنْ إِذَا دُعِيتُمْ فَادْخُلُوا فَإِذَا طَعِمْتُمْ فَانتَشِرُوا وَلَا
مُسْتَأْنِسِينَ لِحَدِيثٍ إِنَّ ذَلِكُمْ كَانَ يُؤْذِي النَّبِيَّ فَيَسْتَحْيِي مِنكُمْ وَاللَّهُ لَا
يَسْتَحْيِي مِنَ الْحَقِّ وَإِذَا سَأَلْتُمُوهُنَّ مَتَاعاً فَاسْأَلُوهُنَّ مِن وَرَاء حِجَابٍ
ذَلِكُمْ أَطْهَرُ لِقُلُوبِكُمْ وَقُلُوبِهِنَّ وَمَا كَانَ لَكُمْ أَن تُؤْذُوا رَسُولَ اللَّهِ وَلَا أَن
تَنكِحُوا أَزْوَاجَهُ مِن بَعْدِهِ أَبَداً إِنَّ ذَلِكُمْ كَانَ عِندَ اللَّهِ عَظِيماً

(əl-Əhzab, 33/53)

«Ey iman gətirənlər! Peyğəmbərin evlərinə sizə yeməyə icazə verilmədən (yeməyə dəvət olunmadan) girib onun bişməsini gözləməyin. Ancaq dəvət olunduqda gedin və (yeməyinizi) yedikdən sonra (orada) bir-birinizlə söhbətə qapılmayıb dağılın. Bu (sizin çox oturmağınız) Peyğəmbərə əziyyət verir, ancaq o, sizdən (bunu sizə deməkdən) utanırdı. Ancaq Allah doğru sözdən çəkinməz. Onlardan (Peyğəmbərin zövcələrindən) bir şey soruşduqda pərdə arxasından soruşun (evlərinə daxil olmayın). Bu həm sizin, həm də onların ürəklərinə daha çox təmizlik bəxş edər. Sizə Allahın Peyğəmbərini incitmək, özündən sonra onun zövcələri ilə evlənmək əsla yaraşmaz. Həqiqətən, bu, Allah yanında böyük günahdır!».

**Hz. Nizaminin «ey» müraciətinin yuxarıda deyilən mənalarla birgə, başqa məzmun çalarları da var. Şair bir yandan İslamın mübarək Peyğəmbərinə üz tutur, ondan «ey» deyə yardım istəyir, ona öz sevgisini bildirir. Şairin təqdimatında «ey» müraciəti bərəkətli sözün başlanğıcını, duaya girişi, istənilən ünvandan xeyir-dua almaq üçün Ona doğru atılan ilk addımı ifadə edir. Müraciətin şəkli, söz, ifadə biçimi ünvana olan münasibəti açıqca ortaya**

**qoyur. Bizim düşüncəmizdə və gözlərimiz qarşısında hz. Məhəmmədlə (s.a.s) bağlı gözəl söz demək istəyən, Onu insanlara tanıtdırmaq eşqi və vəzifəsi ilə alışıb-yanan, bu müqəddəs borcu yerinə yetirmək üçün uca Allahın (c.c) qarşısında diz çökərək «ey» deyə Ona əl açan, yalvaran, yardım, xeyir-bərəkət istəyən hz. Nizaminin nurlu şəxsiyyəti canlanır. Bu mövqeydə hz. Nizaminin «ey»i önəmli xəbərə, müjdəyə işarə edir və bizi bu bərəkətli müjdəni eşitməyə, ona inanmağa, sevməyə və itaətə hazırlayır, duyğu və düşüncələrimizdə Allaha (c.c), hz. Məhəmmədə (s.a.s) təslimiyyət ovqatı yaradır.**

Bu yönü ilə hz. Nizaminin «ey» müraciəti bir dil faktı olaraq dini, ruhi, psixoloji, ədəbi məzmun qazanır. Hz. Nizaminin «ey» müraciəti Quran və hədis qaynağından güc alaraq milli-dini ənənəmizdə hz. Məhəmmədə (s.a.s) münasibət mədəniyyətinin ayrılmaz tərkib hissəsinə çevrilir.

Uca Quran möminlərə belə təlimat verir:

إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيماً

(əl-Əhzab, 33/56)

«Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat deyirlər (xeyir-dua) verirlər. Ey iman gətirənlər! Siz də Ona salavat deyib layiqincə salamlayın! (Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Əssəlamu əleykə əyyuhənnəbi və rəhmətullahi və bərəkatuhu – deyin!)».

**Hz. Nizaminin «ey» müraciətinin ikinci ünvanı da insanlardır, bizlərik. Şair bizi ilk sırada üçüncü nətdə deyiləcəklərə hazırlayır, bizi hz. Məhəmmədə (s.a.s) və onun gətirdiyi ilahi qaynaqlı dəyərlərə hörmət etməyə, ehtiram göstərməyə dəvət edir. Şair bizim onun deyəcəklərinə qulaq asmağımızı istəyir.** Əslində, bu həm

də bir elmi metoddur. Yəni bir məsələni öyrənmək istəyənlər diqqətlə qulaq asmağı bacarmalıdırlar.

Hz. Nizami «ey» müraciətinə həm də yalvarış, itaət, inam, ehtiyac mənaları yükləmişdir. Şairə görə, insan uca Allaha (c.c) bu mənada və inanaraq yalvarsa, Allah (c.c) ona istədiyini verər.

**Bizə görə, hz. Nizaminin üçüncü nətinin birinci beytinin ideyası təslimiyyətdir.** Şair bu təslimiyyət ideyasını bədii bir biçimdə təqdim etmək üçün itaət anlayışını ifadə edən «ey» müraciətindən, «ruhumuz sənə fəda olsun» kimi hz. Məhəmmədə (s.a.s) Onun mübarək əshabının ruhi bağlılığını göstərən, Ona qovuşmaq, Onunla nəfəs almaq arzusunu dilə gətirən, Onun kimi yaşamaq yanğısını, şövqünü, mübarizəsini göstərən və heç zaman seçilmiş əshabın dilindən düşməyən və bizə görə, hz. Məhəmmədə (s.a.s) münasibət, sevgi mədəniyyətinin ən gözəl örnəyi olan bir deyimi seçmişdir.

İndi bu Haqqa, mübarək Peyğəmbərə (s.a.s) təslimiyyət ideyasının beytdəki məzmununu şərh edək.

Hz. Nizaminin üçüncü nətinin birinci beytinin təslimiyyət ideyasının ilk qaynağı, ilk qatı uca Allahla (c.c) bağlıdır. Yəni insanın bu dünya və axirət xoşbəxtliyi onun Allaha (c.c) təslimiyyətinə bağlıdır. Hz. Nizamiyə görə, insan uca Allahı (c.c) tanımalı, sevməli, inanmalı və ona təslim olmalıdır. Uca Allaha (c.c) sevginin göstəricisi də itaətdir, fədakarlıqdır, saleh əməldir.

Mübarək Quranda uca Allaha (c.c) itaəti, təslimiyyəti ifadə edən çoxsaylı buyruqlar və bu ilahi əmrləri ifadə edən anlayışlar var. «Oxu!», «Zikr et!», «Elm öyrən!», «Sev!», «Fəda et!», «Namaz qıl!», «Zəkat ver!», «Sədəqə ver!», «Oruc tut!», «Cihad et!» və başqa saymaqla qurtarmayan ilahi

əmrlərin hamısında uca Allaha (c.c) təslimiyyət ideyası, anlayışı, dəvəti, əmri var. Kim gecə-gündüz uca Allahın rizasını qazanmaq üçün oxuyar, elmi öyrənər, var-yoxunu bu yolda fəda edər, gözlərinin nurunu verər, öyrəndiyi ilə əməl edər, öyrəndiyini başqasına öyrədər? Təbii ki, uca Allaha (c.c) təslim olanlar! Kim şirin canını uca Allah (c.c) yolunda «uf!» demədən qurban verərək şəhid olar? Ancaq uca Allahın (c.c) sarsılmaz iradəsinə təslim olanlar! Kim sevdiyi malını uca Allah (c.c) yolunda ehtiyacı olanlara verər, könlünü dünya malına bağlamaz? Yalnız uca Allaha (c.c) təslim və aşiq olanlar. **Elə hz. Nizaminin yozumunda da təslimiyyət uca Allaha (c.c) aşiqliq sənətidir, əbədi olan Allahda (c.c) fani olmaq gücüdür.**

İndi dediklərimizin Qurani-Kərimdəki qaynaqlarına üz tutaq:

الَّذِينَ يُؤْمِنُونَ بِالْغَيْبِ وَيُقِيمُونَ الصَّلاةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ

(əl-Bəqərə, 2/3)

«O kəslərə ki, qeybə (Allaha, mələklərə, qiyamətə, qəza və qədərə) inanır, (lazımınca) namaz qılır və onlara verdiyimiz ruzidən (ailələrinə, qohum-qonşulara və başqa haqq sahiblərinə) sərf edirlər».

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اذْكُرُوا اللَّهَ ذِكْراً كَثِيراً

(əl-Əhzab, 33/41)

«Ey iman gətirənlər! Allahı çox zikr edin!».

الَّذِينَ آمَنُواْ وَتَطْمَئِنُّ قُلُوبُهُم بِذِكْرِ اللّهِ أَلاَ بِذِكْرِ اللّهِ تَطْمَئِنُّ الْقُلُوبُ

(ər-Rəd, 13/28)

«Onlar o kəslərdir ki, iman gətirmiş və qəlbləri Allahı zikr etməklə aram tapmışdır. Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapar!».

**Hz. Nizamiyə görə, təslimiyyətin, itaət etməyin ikinci ünvanı islamın mübarək Peyğəmbəri hz. Məhəmməddir (s.a.s). Ona itaət uca Allaha (c.c) təslimiyyət deməkdir. Hz. Məhəmməd (s.a.s) bizim üçün bir iman ölçüsüdür, bir yol göstərəndir, əlimizdən tutub qaranlıqdan işığa çıxarandır, mömin üçün «ən gözəl örnəkdir».**

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِّمَن كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الْآخِرَ وَذَكَرَ اللَّهَ كَثِيراً

(əl-Əhzab, 33/21)

«Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!».

قُلْ إِن كُنتُمْ تُحِبُّونَ اللّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللّهُ غَفُورٌ رَّحِيمٌ

(Ali-İmran, 3/31)

«(Ey Rəsulum!) De: «Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, rəhmlidir!».

مَّا أَفَاء اللَّهُ عَلَى رَسُولِهِ مِنْ أَهْلِ الْقُرَى فَلِلَّهِ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ كَيْ لَا يَكُونَ دُولَةً بَيْنَ الْأَغْنِيَاء مِنكُمْ وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

(əl-Həşr, 59/7)

«…Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir».

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَلَا تُبْطِلُوا أَعْمَالَكُمْ

(Məhəmməd, 47/33)

«Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə itaət edin və (şəkk-şübhə, riya, küfr və nifaq kimi şeylərlə) əməllərinizi puça çıxartmayın!».

وَمَن يُطِعِ اللّهَ وَالرَّسُولَ فَأُوْلَـئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللّهُ عَلَيْهِم مِّنَ النَّبِيِّينَ وَالصِّدِّيقِينَ وَالشُّهَدَاء وَالصَّالِحِينَ وَحَسُنَ أُولَـئِكَ رَفِيقاً

(ən-Nisa, 4/69)

«Allaha və Peyğəmbərə itaət edənlər (axirətdə) Allahın nemətlər verdiyi nəbilər (peyğəmbərlər), siddiqlər (tamamilə doğru danışanlar, etiqadı dürüst, peyğəmbərləri hamıdan əvvəl təsdiq edən şəxslər), şəhidlər və salehlərlə (yaxşı əməl sahibləriylə) bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!».

Bu ilahi qaynaqlar işığında hərəkət edən, uca Allaha (c.c) və Onun mübarək Peyğəmbərinə bütün varlığı ilə inanaraq təslim olan hz. Nizamiyə görə, qüdrət sahibi olan Allahdan (c.c) və azadlıq Peyğəmbəri hz. Məhəmməddən (s.a.s) başqa bir qüvvəyə itaət və təslimiyyət şirkin, Allaha (c.c) ortaq qoşmağın, Allaha (c.c) imanla hz. Məhəmmədə (s.a.s) itaəti bir-birindən ayırmağın, bu yolla da doğru yoldan azmağın qapısını açır, insanı qara şərin amansız burulğanında həlaka sürükləyir. Bu isə insan üçün bir fitrət pozulması və yaradılış missiyasını itirmək deməkdir.

## HZ. NİZAMİYƏ GÖRƏ TƏSLİMİYYƏTİN ÖLÇÜLƏRİ

Hz. Nizami beytin təslimiyyət ideyasını təqdim etmək üçün daha iki vasitədən də istifadə edib.

Şair, öncə hz. Məhəmmədin (s.a.s) yaradılış özəlliyini şərh edib. Beytin birinci misrası belədir:

***«Ey bədəni pak candan da təmiz olan!»***

Şair burada insanda hz. Məhəmmədə (s.a.s) heyrət yaradır, Onun yaradılışının fərqli olduğunu göstərir. Onun bədəninin (təninin) pak candan (ruhdan) daha təmiz olduğunu vurğulayır. Bu isə Peyğəmbərin seçilmiş olduğunu, uca Allahın (c.c) ona müstəsna keyfiyyətlər verdiyini göstərir. Hz. Nizami insanda Peyğəmbərə heyrət duyğusunu yaratmaq üçün iki vasitədən yararlanır. Şair öncə Peyğəmbərin bədəni ilə bağlı qaynağa işarə edir. Yəni burada hz. Məhəmmədin (s.a.s) bədəninin pak ruhdan təmiz olduğu fikri bir şair fantaziyasının məhsulu deyil, gerçəkliyi ifadə edir. Qaynaqlar hz. Məhəmmədin (s.a.s) şəmailini təsvir edərkən onun bədəninin çox təmiz olduğunu da göstərmişlər:

**«…Teni gül gibi, nurani ve parlak, ipekden yumşaktı. Mübarek vücudu daima temiz idi ve rayihası (ətri) ferahlık verirdi. Koku sürünsün ve ya sürünmesin teni ve teri en güzel kokulardan daha hoş bir letafette idi. Bir kimse Onunla musafaha etse (əl tutsa – S.H.) bütün gün Onun latif kokusu ile mütelezziz olurdu (həzz alırdı). Sanki güller kokusunu Ondan almıştı. Mübarek elleriyle bir çocuğun başını okşasalar, o çocuk güzel kokusuyla diger çocuklardan ayırt edilirdi. Terledigi zaman teni gül yarpakları üzerindeki şebnemleri andırırdı…».**[88]

Bundan başqa, hz. Məhəmməd (s.a.s) hər zaman təmiz geyinərdi, bədəni təmiz olardı, misvaqdan çox istifadə edərdi, saçı, saqqalı səliqəli idi, yanında ətir saxlayardı.[89]

---

[88] Osman Huri Topbaş, «Hazreti-Muhammed Mustafa (s.a.s)», İstanbul, 2005, c. I, s. 219.

[89] Hz. Məhəmmədin (s.a.s) şəmaili ilə bağlı bu qaynaqlara baxmaq olar: Tirmizi, «Şemail», s. 18-27; Müslüm, «Taharet», 42; Əbu Davud, «Tereccül», 2; İbni-Kesir, «el-Bidaye», VII, 31-33; Ali Yardım, «Peygamberimizin Şemaili», İstanbul, 1998.

Hz. Məhəmmədin (s.a.s) bədən gözəlliyi və təmizliyi divan ədəbiyyatının mövzularından birinə çevrilmişdir. Məsələn, Yunis Əmrə deyir ki, «Gül Məhəmməd təridir». Məhəmməd Füzuli isə hz. Məhəmmədin (s.a.s) fitrət gözəlliyini ifadə etmək üçün «Su» qəsidəsində «su», «gül», «nur» obrazlarından gözəl istifadə etmişdir:

… Suya versin bağiban gülzari, zəhmət çəkməsin,
Bir gül açılmaz üzün tək versə min gülzarə su.
…Arizin yadilə nəmnak olsa müjganın, nola,
Zaye olmaz gül təmənnasilə vermək xarə su.[90]

(Bağban zəhmət çəkib gülzarı (gül bağçasını) sulamasın. O, min gül bağçasını sulasa belə, sənin (hz. Məhəmmədin (s.a.s)) üzün kimi bir gül açılmaz. Yanağını anaraq kirpiklərin göz yaşı ilə islansa da, nə olar? Gül təmənnası ilə tikana su vermək hədər getməz)

Məhəmməd Füzuli «Gül» rədifli başqa bir qəsidəsində isə belə deyir:

«…Şəbnəmi-gülzari-rüxsari-Rəsulullahdır,
Nəşri-ətirlə qılır hər dəm ona işar gül.
…Səbzə üzrə gəzdirər badi-səba gül bərgini,
Sanki səbzə asimandır, kövkəbi-səyyar gül!
…Aşiq olmuş hüsnünə, ey sərvi-xoşrəftar, gül,
Çak-çak etmiş səninçün sineyi-əfkar gül»[91]

(Allahın Rəsulunun üzünün şəbnəmindən yarandığı üçün onu xatırladır. Səba yeli gül yarpağını yaşıllıqlar

---

[90] Məhəmməd Füzuli, «Fikir-sənət dünyası və türkcə divanından seçmələr», (hazırlayanlar: R.Azadə, V. Feyzullazadə) Bakı, 2005, s.187.
[91] Məhəmməd Füzuli, göstərilən qaynaq, s.190-191.

üzərində elə gəzdirir ki, sanki yaşıllıqlar göy üzüdür, gül yarpağı isə onun üzərində hərəkət edən ulduzlardır. Ey gözəl rəftarlı sevgili, gül sənin gözəlliyinə aşiq olub, yaralı qəlbini parça-parça etmişdir).

## İNSANIN FİTRƏTİ

Hz. Nizami beytin birinci misrasında hz. Məhəmmədin (s.a.s) fitrət gözəlliyinə işarə edir. Bunun üçün «bədən» (tən), «ruh» qarşılaşması yaradır. Əslində, yaradılış baxımından insan bədən və ruhdan ibarətdir. Bədən nəfsin məkanı, qaynağı olduğu kimi, ruh da ilahi qaynağa bağlıdır. Ona görə də, bədən hər zaman pis olan xüsusiyyətləri təmsil edir, ruh isə gözəl olanları. Ancaq şair beytdə bədən və ruh anlayışlarını qarşılaşdıraraq hz. Məhəmmədin (s.a.s) fitrət baxımından gözəl olduğunu və başqa insanlardan fərqini göstərmək üçün Onun bədəninin (təninin) başqalarının ruhundan təmiz olduğunu göstərir. Şairin təqdimatında, üslubunda hz. Məhəmmədə (s.a.s) heyranlıq yaradan vasitələrdən biri də «bədən», «ruh» anlayışları olur.

**Bilindiyi kimi, «bədən» (tən) və «ruh» anlayışları insan fitrəti ilə bağlıdır. İnsan fitrətinin isə dörd əsası var: təmizlik, təslimiyyət (itaət), nəfs, ədalət.** Bununla birgə, insan ağıl, qəlb və nəfs sahibidir. İnsan ağılla dərk edir, qəlblə sevir, nifrət edir, seçir, bir şeyi qəbul və rədd edir. Nəfs isə yemək, içmək, şəhvani arzuların qaynağıdır. İnsanın xəyal gücü, düşünmə qabiliyyəti ağılla bağlıdır. Qəzəb, sevgi, iradə, səxavət, xəsislik kimi duyğuların məkanı isə qəlbdir. Ağıl bilgiyə əsaslanır, şübhəçidir, səbəb axtarır, dəlil istəyir. Qəlbin sifətləri isə bunlardır: qəzəb, cürət, sevgi, qorxu, riza, vəfa, nifrət, şöhrət duyğusu, xə-

sislik, səxavət, ümid, qorxu. Nəfsin sifətləri isə bunlardır: yemək, içmək, şəhvət, acgözlük.

Hz. Nizami də insan fitrətinin özəlliklərindən yararlanaraq bədənlə ruhu müqayisə etmiş və hz. Məhəmmədin (s.a.s) bədəninin (adi insanlar üçün nəfsani istəklərin məkanı olan varlığın) başqalarının təmiz ruhundan da üstün olduğunu bildirmişdir. Bu dediyimiz cəhət beyt daxilində hz. Məhəmmədə (s.a.s) heyrət yaradan vasitələrdən biridir. Çünki bədənin ruhdan təmiz olması qeyri-adi bir şeydir.

**Burada bir məsələni də qeyd edək ki, təmizlik anlayışı ilə təslimiyyət arasında sıx bağlılıq var. Belə ki, insanın uca Allaha (c.c) təslim olmasına mane olan şey onun nəfsinin kirli olmasıdır, ruhunun günahlarla çirkaba bulaşmasıdır. İnsan nə qədər təmizdirsə, günahsızdırsa, o qədər itaət edir və ya əksinə.** Beytin ideyası da təslimiyyət olduğu üçün şair təmizlik anlayışını önə çəkib. Peyğəmbərlər də hər zaman təmiz insanların arasından seçilmişdir. Uca Allah (c.c) Peyğəmbərlər vasitəsi ilə insanları doğru yola yönəltmək istəyir. Təbiidir ki, insanlara liderlik edərək onları cəhalətdən qurtarıb işığa qovuşdurmaq missiyasını öz üzərinə götürmüş Peyğəmbərlər də soyca, xaraktercə, bir sözlə, bütün yönləri ilə ən təmiz olan insanlardır.

Uca Quran buyurur:

وَإِذَا جَاءتْهُمْ آيَةٌ قَالُواْ لَن نُّؤْمِنَ حَتَّى نُؤْتَى مِثْلَ مَا أُوتِيَ رُسُلُ اللّهِ اللّهُ أَعْلَمُ حَيْثُ يَجْعَلُ رِسَالَتَهُ سَيُصِيبُ الَّذِينَ أَجْرَمُواْ صَغَارٌ عِندَ اللّهِ وَعَذَابٌ شَدِيدٌ بِمَا كَانُواْ يَمْكُرُونَ

(əl-Ənam, 6/124)

«Onlar bir ayə gəldiyi zaman: «Allahın peyğəmbərlərinə verildiyinin (nübüvvətin, möcüzələrin) misli bizə verilməyincə biz iman gətirməyəcəyik!» - deyirlər. «Allah

peyğəmbərliyi hara (kimə) göndərəcəyini Özü daha yaxşı bilir. Günahkarlar Allahın hüzurunda etdikləri məkrlərə görə zillətə və şiddətli əzaba düçar olacaqlar!».

## ƏSHABIN PEYĞƏMBƏRƏ TƏSLİMİYYƏTİ

**Hz. Nizami üçüncü nətin birinci beytində təslimiyyət ideyasını vermək üçün ikinci vasitə olaraq Hz. Məhəmmədlə (s.a.s) onun seçilmiş əshabı arasındakı münasibətləri ən gözəl biçimdə ifadə edən «Ruhumuz sənə fəda olsun!» müraciət şəklindən istifadə etmişdir.** Seçilmiş əshab, hz. Məhəmmədə (s.a.s) olan bağlılığını, sevgisini, itaətini ona «Ruhumuz sənə fəda olsun!» deyə müraciət edərək bildirmişdir. Seçilmiş əshabın hz. Məhəmmədə (s.a.s) təslimiyyət şövqünü göstərən başqa müraciət şəkilləri də var: «Anam, atam sənə fəda olsun, ey Rəsulullah!», «Malım sənə fəda olsun, ey Rəsulullah!», «Canım sənə fəda olsun, ey Rəsulullah!». Bunlar hamısı seçilmiş əshabın hz. Məhəmmədə (s.a.s) olan sevgisinin, itaətinin, yüksək əxlaqının göstəricisidir. İndi bu müraciət şəkillərinin və seçilmiş əshabın Peyğəmbərə (s.a.s) itaətinin qaynaqlarına baxaq:

Hz. Məhəmməd (s.a.s) belə buyurur:

«Məndən sonra bir sıra insanlar gələcək ki, onların hər biri məni görə bilmək üçün əhlini və malını verməyə can atacaq!».[92]

Ənəs bin Malik (r.a) rəvayət edir:

«Rəsulullahın (s.a.s) yanına bir adam gəldi və:

- Ey Rəsulullah! Qiyamət nə zamandır?,-dedi.

Peyğəmbərimiz (s.a.s):

---

[92] Hakim, «Müstədrək», IV, s. 95.

- Qiyamət üçün nə hazırladın?,-deyə soruşdu.

- Allah və Rəsulunun sevgisini,-cavabını verdi.

Bundan sonra Allah Rəsulu (s.a.s):

- Elədirsə, sən sevdiyinlə birgə olacaqsan,-buyurdu».[93]

Hz. Məhəmməd (s.a.s) vəfat edəndə Abdullah bin Zeyd (r.a) uca Allaha (c.c) belə yalvardı:

«Ey Rəbbim! Mənim gözlərimi kor et! Mən hər şeydən çox sevdiyim Peyğəmbərdən sonra artıq dünyada bir şey görməyim!». Bu duadan sonra onun gözləri kor oldu.[94]

Əbu Hureyrə rəvayət edir:

«Əbu Bəkir (r.a) minbərə çıxdı və:

- Bilirsiniz ki, Rəsulullah (s.a.s) keçən il aranızda mənim durduğum kimi durmuşdu…,-dedi. Sonra ağladı. Sonra bu sözünü təkrar etdi və yenə ağladı. Üçüncü dəfə yenə təkrarladı və özünü saxlaya bilməyərək bir daha ağladı».[95]

Abdullah bin Mübarək belə söyləyir:

«İmam Malikin yanında idim. Bizə Allah Rəsulunun mübarək hədislərini danışırdı. Bir əqrəb gəlib onu dəfələrlə sancdı. Rəngi dəyişir, saralır, ancaq Rəsulullahın (s.a.s) hədisini danışmaqda davam edirdi…».[96]

Həzrət Bilal, hz. Məhəmməd (s.a.s) vəfat etdikdən sonra bir daha azan oxumadı. Peyğəmbər aşiqi Əhməd Yəsəvi 63 il yaşadıqdan sonra məzar kimi bir yerdə yaşadı, yer üzünə çıxmadı. İmam Nəvəvi, hz. Məhəmmədin (s.a.s) qarpızı necə yediyini bilmədiyi üçün ömründə qarpız yemədi.

---

[93] Müslüm, «Birr», 163.

[94] Kurtubi, «əl-Cami», V, s. 271.

[95] Tirmizi, «Deavat», s. 105.

[96] Münavi, «Feyzül-Kadir», III, 333; Suyuti, «Miftahul-Cennet», s. 52.

Hz. Peyğəmbərə (s.a.s) aşiq şairlərdən olan Süleyman Çələbi ona aid nətində Peyğəmbərin fitrət, yaradılış təmizliyinə, mükəmməlliyinə işarə edərək yazır:

Hak Ona verdi mükemmel eyledi,
Yaradılmıştan mufaddal eyledi.
Andan oldu her nihan ü aşikar,
Arş ü ferş ü yerde, gökte ne ki var.
Ger Muhammed olmaya idi ayan,
Olmayıserdi zemin ü asuman.
Hem vesile olduği çün ol Rasul,
Ademin Hak tevbesin kıldı kabul.
Ger Muhammed gelmeseydi aleme,
Taci-izzet ermez idi Ademe.
Nuh anınçün buldu hem garktan necat,
Dahi doğmadan göründü mucizat.
Cümle anın dostluğuna adına,
Bunca izzet kıldı Hak ecdadına.
Ceddi olduğiçün anın hem Halil,
Narı cennet kıldı ana ol Celil.
Hem dahi Musa elindeki asa,
Oldu anın izzetine ejdaha.
Ölmeyip İsa göge bulduğu yol,
Ümmetinden olmak için idi ol.
Gerçi kim bunlar dahi mürseldürür,
Lik Ahmed ekmel ü efdaldürür.
Çün temeni kıldırar Haktan bular,
Kim Muhammed ümmetinden olalar.
Sünnetin tut, ümmeti ol, ümmeti,
Ta nasib ola sana Hak rahmeti.[97]

---

[97] Emine Yeniterzi, göstərilən qaynaq, s. 167.

(«Allah Ona lütf edib mükəmməl yaratdı və başqa varlıqlar arasında fəzilətli etdi. Ərş və fərşdə, yəni yerdə və göydə gizli və aşikar nə varsa, hamısı Onun vasitəsi ilə meydana gəldi. Əgər Məhəmməd Mustafa (s.a.s) olmasaydı, bu yerlər və göylər olmayacaqdı. Uca Allah Rəsulullahın xatirinə hz. Adəmin tövbəsini qəbul etdi. Əgər Məhəmməd Mustafa (s.a.s) aləmə gəlməsəydi, Adəm əleyhissəlama izzət tacı verilməzdi. Həzrət Nuh Onun sayəsində boğulmaqdan qurtulmuşdur. O doğulmamışdan öncə də çoxlu möcüzələr baş vermişdi. Uca Allah ancaq dostluğunun xatirinə Onun əcdadına son dərəcə çox izzət vermişdir. Cəlil olan Mövla Onun babası Xəlil üçün (hz. İbrahim) atəşi gül bağçası etmişdi. Həzrət Musanın əlindəki əsa da Onun xatirinə əjdaha olmuşdu. Həzrət İsa da Onun ümmətindən ola bilmək üçün ölməyərək göylərə yüksəlmişdir. Bu adlarını çəkdiklərimiz də peyğəmbərlərdir. Ancaq həzrət Əhməd onların ən mükəmməli və ən fəzilətlisidir. Belə ki, onların hamısı Məhəmməd ümmətindən olmaq istədilər. Belə olan halda, Onun sünnəsini yerinə yetir ki, Ona ümmət ola bilsən və uca Allahın rəhməti sənə nəsib olsun!»).

İndi bu deyilənlər əsasında hz. Nizaminin beytinin mənalarını sıralayaq: Üçüncü nətin ideyası təslimiyyət və itaətdir. Təslimiyyət və itaət dedikdə şair uca Allahı (c.c) və

onun Peyğəmbərini sevməyi, hər şeyini onların yolunda fəda etməyi nəzərdə tutur. Şair insanların duyğu və düşüncəsində hz. Məhəmmədə (s.a.s) heyrət yaratmaq məqsədilə iki önəmli vasitədən istifadə edir. Şair həm hz. Məhəmmədin (s.a.s) fitrətinin təmiz və gözəl olduğunu bildirir, Onun bədəninin pak ruhdan belə, üstün, arı və duru olduğunu önə çəkir, həm də hz. Məhəmmədin (s.a.s) seçilmiş əshabının təslimiyyət, itaət, sevgi və iman vəcdini ifadə edən «ruhumuz sənə fəda olsun» müraciətindən istifadə edir.

## İKİNCİ BEYTİN ŞƏRHİ:
## RƏHMƏT EVİNİN BƏRƏKƏTİ

نقطه گه خانه رحمت توئی
خانه بر نقطه زحمت توئی

***Rəhmət evinin (dairəsinin) mərkəzi sənsən,***
***«Zəhmət» (sözünün) nöqtəsinin üstündəki***
***saray sənsən.***[98]

Hz. Nizami nətin ikinci beytində birbaşa dini qaynağı olan, peyğəmbərlik anlayışı və hz. Məhəmmədlə (s.a.s) ayrılmaz vəhdət təşkil edən «rəhmət evi» ifadəsindən istifadə etmiş, xüsusi mənalar yüklədiyi «nöqtə», «saray» sözlərini beytin mətninə yerləşdirmişdir. Biz öncə bu anlayışların məna yükünü şərh etməyə çalışaq.

## «RƏHMƏT» SÖZÜNÜN MƏNASI

Bilindiyi kimi, rəhmət anlayışı islam dinində xüsusi yer tutur. «Rəhmət» ərəb dilində «acımaq», «mərhəmət etmək» deməkdir. Rəhmət «…Hz. Peygamberin (s.a.s) «Delail»de kayd edilen iki yüz bin isminden biridir. Allahın iki türlü acıması söz konusudur. Birincisi, Rehman: Bu ümumi acımadır ki, mümin, kafir, her kesi içine alır. Bu genellikle yaşadığımız dünyada tecelli eder. İkincisi, Rehim: Ahirette ve sadece müminlerle olan acıma. Özel rahmet»[99].

«Rəhmət» sözünün başqa bir mənası «vermək», «lütf etmək»dir. Təsəvvüf əhlinə görə də, iki cür rəhmət var: «…rahmeti-imtinaniye, yani amel ve ibadet edilmeden

---

[98] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 34.
[99] Ethem Cebecioğlu, «Tasavvuf terimleri ve deyimleri sözlüyü», İstanbul, Ankara yayınları, 2005, s. 510.

evvelki Allahın ümumi rahmeti; rahmeti-vucudiye, yani takva ehline ahirette vaat edilen özel rahmet»[100].

«Rəhmət» anlayışı ilə bağlı olaraq bir sıra deyimlər də yaranmışdır. Məsələn, «rəhmət oxumaq», yəni ölən bir şəxsin arxasınca dua oxumaq. Bu deyim öygü, tərif mənasında da işlədilir. Bir misala baxaq:

«…Edenler halimi idrak, okurlar rıfkile rahmet,
Olanlar zairi-kabrim dönerler müşfik u mahzun»[101]
(Əbdülhak Hamid)

(Məni anlayanlar, halımı başa düşənlər ürək yumşaqlığı ilə rəhmət oxuyarlar. Qəbrimi ziyarət edənlər kədərli və mənə şövq (istək) duyaraq geri dönərlər)

«Rəhmət» anlayışı ilə bağlı olaraq yaranmış deyimlərdən biri də «Rəhmət oxutdurmaq»dır. Bu deyim bir şəxsin etdiyi zülm, başqasının etdiyindən ağır, çox olanda istifadə edilir.

«…Kafir ol mertebe kıydı cana,
Rahmet okuttu Hülagu Hana».[102]
(Əndərunlu Fazil)

(Kafir o qədər (o dərəcədə) can məhv etdi ki, Hülaki xana rəhmət oxutdurdu)

Dini-təsəvvüfi terminologiyada «rəhmət» qavramı ilə bağlı daha iki anlayış var:

Birincisi: Rəhmətül-imtinaniyyə- ərəb dilində qiymətli bir şeylə bağlı olaraq ehsan etmək anlamında acımaq mənasını

---

[100] Süleyman Uludağ, «Tasavvuf terimleri sözlügü», İstanbul, Kabalcı yayın evi, 2001, s. 286.
[101] Ethem Çebecioğlu, göstərilən qaynaq, s. 510.
[102] Ethem Çebecioğlu, göstərilən qaynaq, s. 511.

bildirir. Yəni qul öz qulluğunu yerinə yetirmir, ancaq Allah ona ehsan edir. Bu uca Allahın Rəhman adı ilə bağlıdır və hər şeyə aiddir.[103]

İkincisi: Rəhmətül-vücudiyyə-ərəb dilində varlıqla bağlı acımaq, rəhm etmək mənalarını bildirir. Yəni bu, uca Allahın inananlara vəd etdiyi rəhmətdir. Bu insanın uca Allahın (c.c) sevgisini, rizasını qazanmaq uğrunda apardığı ardıcıl mübarizəyə (cihada) bağlıdır.[104]

Bundan başqa, uca Allahın adlarından biri də Rəhim-dir. Yəni uca Allah (c.c) çox bağışlayan, acıyandır. Uca Allahın (c.c) Rəhim adı Qurani-Kərimdə 115 dəfə çəkilmişdir.[105]

Bilindiyi kimi, Qurani-Kərimin surələri «bəsmələ» ilə (Əuzu billahi min əş-şeytanir-rəcim, bismillahir-rəhmanir-rəhim-qovulmuş şeytandan Allaha sığınıram, Rəhman və Rəhim olan Allahın adı ilə) başlayır. Bu o deməkdir ki, «…Kul herhangi bir davranışta bulunurken, önemli bir işe teşebbus ederken önce «euzu» çekerek muhtemel olumsuz etkileri def etmekle sonra da besmeleyi okuyarak kendinin tek başına yeterli olmadığını, başarı ve gücün ancak Allahtan gele bileceyini, Allahın yer yüzünde halife kıldığı bir varlık olarak Onun mülkünde, onun adına tasarrufta bulunduğunu, asıl malik ve hakim olan Allahın koyduğu sınırlar aşarsa, emanete hiyanet etmiş olacağını «…peşinen kabul etmekte ve bundan güc almaktadır. Burada tevhid cümlesinin manası da üstü kapalı olarak mevcuttur. Zira nasıl ki, tevhid cümlesinde «la ilahe» denilerek önce bütün

---

[103] Ethem Çebecioğlu, göstərilən qaynaq, s. 511.
[104] Ethem Çebecioğlu, göstərilən qaynaq, s. 511.
[105] Allahın gözəl adları üçün baxın: Tatlısu Ali Osman, «Esmaul-Husna Şerhi», Ankara, 1963; Topaloğlu Bekir, «Esmai-Hüsna», TDV İslam Ansiklopedisi, c. XI, s. 404-418.

sahte tanrılar zihnlerden siliniyor, sonra da «illallah» ifadesiyle hakiki, tek, eşi ve benzeri bulunmayan Tanrı (Allah) kalbe ve zihne yerleştiriliyorsa, euzu besmele çekildiginde de önce kulluk ilişkisine engel olan kirli çevre temizleniyor, sonra da bu ilişkinin en uyğun anahtarı kullanılmış, doğru kapılar açılmış, sağlıklı bağ kurulmuş oluyor…».[106]

Bu mənada uca Allahın (c.c) «Rəhim» sifəti çox mərhəmətli, çox bağışlayan demək olub, daha çox axirətlə bağlıdır. Qul bu dünyada fasiləsiz olaraq uca Allah (c.c) yolunda çalışır, hər şeyi Allah (c.c) üçün, Allah (c.c) adına edir və nəticədə uca Allahın (c.c) sonsuz rəhmətini, mərhəmətini qazanır, uca Allah (c.c) qulunu bağışlayır.

İndi Qurani-Kərimdə uca Allahın (c.c) rəhim sifəti ilə bağlı olan bir neçə ayəni oxuyaq:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعاً إِنَّهُ هُوَ الْغَفُورُ

(əz-Zumər, 39/53)

«(Ey Peyğəmbər! Mənim adımdan qullarıma) de: «Ey Mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O, bağışlayandır, rəhm edəndir!».

وَإِلَـهُكُمْ إِلَهٌ وَاحِدٌ لاَّ إِلَهَ إِلاَّ هُوَ الرَّحْمَنُ

(əl-Bəqərə, 2/163)

«Sizin tanrınız bir olan Allahdır, Ondan başqa Tanrı yoxdur. O, rəhmlidir, mərhəmətlidir».

---

[106] «Kuran Yolu», Türkçe meal ve tefsir (yazanlar, Hayrettin Karaman, Mustafa Çağrıcı, İbrahim Kafi Dönmez, Sadrettin Gümüş), Ankara, 2003, s. 7.

لاَّ يُؤَاخِذُكُمُ اللّهُ بِاللَّغْوِ فِيَ أَيْمَانِكُمْ وَلَكِن يُؤَاخِذُكُم بِمَا كَسَبَتْ قُلُوبُكُمْ وَاللّهُ غَفُورٌ حَلِيمٌ

(əl-Bəqərə, 2/225)

«Allah bilmədən (səhvən) içdiyiniz andlara görə sizi cəzalandırmaz, ancaq qəlblərinizin kəsb etdiyi şeylərlə (yalandan, ya da qəsdən and içib yerinə yetirmədiyiniz andlara, pis niyyətlərə) görə sizi cəzalandıracaqdır. Allah bağışlayandır, həlimdir!».

ثُمَّ إِنَّ رَبَّكَ لِلَّذِينَ هَاجَرُواْ مِن بَعْدِ مَا فُتِنُواْ ثُمَّ جَاهَدُواْ وَصَبَرُواْ إِنَّ رَبَّكَ مِن بَعْدِهَا لَغَفُورٌ رَّحِيمٌ

(ən-Nəhl, 16/110)

«Fitnəyə məruz qaldıqdan sonra hicrət edənləri, daha sonra cihad edib (bu yolda hər cür əzab-əziyyətə) səbir edənləri isə (bütün) bunlardan sonra Rəbbin, şübhəsiz, bağışlayandır, (onlara) rəhm edəndir!».

Qurani-Kərimdə rəhmət anlayışının məna çeşidləri həddən artıq çoxdur. Rəhmət uca Allahın sifətlərindən biridir. Yuxarıda verdiyimiz ayələrdə bunu aydın gördük.

**Qurani-Kərimdə rəhmət uca Allahın (c.c) bir neməti kimi təqdim olunur:**

فَتَلَقَّى آدَمُ مِن رَّبِّهِ كَلِمَاتٍ فَتَابَ عَلَيْهِ إِنَّهُ هُوَ التَّوَّابُ

(əl-Bəqərə, 2/37)

«(Nəhayət) Adəm Rəbbindən (bəzi xüsusi) kəlmələr öyrənərək (Həvva ilə birlikdə o kəlmələr vasitəsilə) tövbə etdi. Doğrudan da, O (Allah) tövbələri qəbul edəndir, mərhəmətlidir».

**Qurani-Kərimdə rəhmət anlayışı uca Allahın ədalətini, mərhəmətini, şəfqətini, əfvini, insana sevgisini, müjdəsini ifadə edir.** Uca Allah (c.c) tez-tez qullarına rəhm edəcəyini, onları bağışlayacağını vurğulayır:

وَلِلّهِ الْمَشْرِقُ وَالْمَغْرِبُ فَأَيْنَمَا تُوَلُّواْ فَثَمَّ وَجْهُ اللّهِ إِنَّ اللّهَ وَاسِعٌ عَلِيمٌ

(əl-Bəqərə, 2/115)

«Şərq də, Qərb də Allahındır. Hansı tərəfə yönəlsəniz (üz tutsanız) Allah oradadır. Şübhəsiz, Allah (öz mərhəməti ilə) genişdir, (O, hər şeyi) biləndir!».

**«Rəhmət» anlayışının bir yönü də Peyğəmbərlə bağlıdır.** Yəni uca Allah (c.c) insanı sevir, onu cəhalətdən qurtarmaq istəyir və bu məqsədlə də insanları doğru yola yönəltmək üçün Peyğəmbər göndərir. Deməli, hz. Məhəmmədin (s.a.s) bir peyğəmbər olaraq göndərilməsi uca Allahın (c.c) rəhmətinin, mərhəmətinin göstəricisidir:

فَلَنَسْأَلَنَّ الَّذِينَ أُرْسِلَ إِلَيْهِمْ وَلَنَسْأَلَنَّ الْمُرْسَلِينَ

(əl-Əraf, 7/6)

«(Özlərinə) peyğəmbər göndərilən ümmətləri (peyğəmbərlərə tabe olub-olmadıqları barədə) sorğu-suala çəkəcək, göndərilən peyğəmbərləri də (dinimizi onlara təbliğ edib-etməmələri haqqında) sorğu-sual edəcəyik».

وَلاَ تُفْسِدُواْ فِي الأَرْضِ بَعْدَ إِصْلاَحِهَا وَادْعُوهُ خَوْفاً وَطَمَعاً إِنَّ رَحْمَتَ اللّهِ قَرِيبٌ مِّنَ الْمُحْسِنِينَ

(əl-Əraf, 7/56)

«Yer üzü (Peyğəmbərin gəlməsi sayəsində iman və ədalətlə) düzəldikdən sonra, orada fəsad törətməyin. Ona (Allaha) həm qorxu, həm də ümidlə dua edin. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə çox yaxındır!».

وَمَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِّلْعَالَمِينَ

(əl-Ənbiya, 21/107)

«Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik»

Uca Allah (c.c) Qurani-Kərimdə «Rəhmət» sifətini daha aydın şərh etmək, insanları haqq olana inandırmaq,

onları doğru yola yönəltmək məqsədi ilə insanların rəhmət anlayışını daha aydın görə bilməsi, qavraması və bu adın nuruna sığınıb, günah bataqlığından qurtularaq işığa qovuşması, insanların uca Allaha (c.c) olan ehtiyacını anlaması üçün öz «xilas sifətini» çox əyani bir biçimdə təqdim edir:

وَهُوَ الَّذِي يُرْسِلُ الرِّيَاحَ بُشْراً بَيْنَ يَدَيْ رَحْمَتِهِ حَتَّى إِذَا أَقَلَّتْ سَحَاباً ثِقَالاً سُقْنَاهُ لِبَلَدٍ مَّيِّتٍ فَأَنزَلْنَا بِهِ الْمَاء فَأَخْرَجْنَا بِهِ مِن كُلِّ الثَّمَرَاتِ كَذَلِكَ نُخْرِجُ الْموْتَى لَعَلَّكُمْ تَذَكَّرُونَ

(əl-Əraf, 7/57)

«Küləkləri Öz mərhəməti önündə (yağışdan qabaq) müjdəçi olaraq göndərən Odur. Belə ki, küləklər (yağmur yüklü) ağır buludları hərəkətə gətirdiyi (daşıdığı) zaman Biz onları (buludları) ölü (qurumuş) bir məmləkətə tərəf qovur, ora yağmur endirir və onunla hər cür meyvə yetişdiririk. Biz ölüləri də (dirildib qəbirlərdən) belə çıxaracağıq. Bəlkə, düşünüb ibrət alasınız!».

**Qurani-Kərimdə uca Allahın (c.c) «Rəhim» sifəti və rəhmət anlayışı Yaradanın insanları müjdə verərək inandırmaq siyasətinin ayrılmaz tərkib hissəsidir. Uca Allah (c.c) insanları rəhmət anlayışı ilə tərbiyə edir, onların qəlbini və əxlaqını təmizləyir, onlara sığınacaqları yeri göstərir, onları ümidlərini itirməməyə çağırır, onlara buyurur ki, günah etmisənsə, qorxma, rəhim olan Allahdan ümidini kəsmə, tövbə et, Haqqa yönəl! Bu mənada rəhmət anlayışının içərisində sönməz bir nur, sonsuz bir genişlik, insanların qəlbini fərəhləndirəcək bir ümid, insanı vəcdə gətirəcək bir ilahi müjdə var. Uca Allahın (c.c) bu mübarək «Rəhim» sifətinin içində qurtuluş, inandırma və ədalət cövhəri var. Elə buna görə də, biz bu mübarək adı «xilas ün-**

**vanı», hz. Nizaminin daha gözəl deyimi ilə «rəhmət evi» adlandırırıq. Budur, uca Allahın (c.c) «Rəhim» sifətinin mübarək müjdəsi, axirətdəki bir tükənməz, əvəzedilməz nemətə çevrilməsi.**

وَقَالُوا الْحَمْدُ لِلَّهِ الَّذِي صَدَقَنَا وَعْدَهُ وَأَوْرَثَنَا الْأَرْضَ نَتَبَوَّأُ مِنَ الْجَنَّةِ حَيْثُ نَشَاء فَنِعْمَ أَجْرُ الْعَامِلِينَ وَتَرَى الْمَلَائِكَةَ حَافِّينَ مِنْ حَوْلِ الْعَرْشِ يُسَبِّحُونَ بِحَمْدِ رَبِّهِمْ وَقُضِيَ بَيْنَهُم بِالْحَقِّ وَقِيلَ الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ

(əz-Zumər, 39/74-75)

«Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatınca onun qapıları açılacaq və (Cənnət) gözətçiləri (onlara): «Salam əleyküm! (Sizə salam olsun!) Xoş gəldiniz! Əbədi qalacağınız Cənnətə daxil olun!» - deyəcəklər. Onlar isə: «Bizə verdiyi vədini yerinə yetirmiş və bizi bu yerə varis etmiş Allaha həmd olsun! Biz Cənnətin istədiyimiz yerində sakin oluruq. (Dünyada yaxşı) əməllər edənlərin mükafatı necə də gözəldir!» - deyəcəklər.

(Ey Peyğəmbər!) Mələkləri də ərşi (hər tərəfdən) əhatə edərək Rəbbini həmd-səna ilə təqdis edən görəcəksən. Onun (bütün məxluqatın) arasında ədalətlə hökm olunacaq (möminlər Cənnətə, kafirlər Cəhənnəmə gedəcək) və (mələklərlə möminlər tərəfindən bir ağızdan): «Aləmlərin Rəbbi olan Allaha həmd olsun!» - deyiləcəkdir».

Yerləri və göyləri əhatə edən rəhmət anlayışının təcəllisinin, mələklərin və möminlərin bu mübarək adın nuruna boyanmasının, onların sevincinin, qurtuluşunun, «rəhmət evi»nə daxil olmalarının yaratdığı vəcd halının ilahi təsviri çox gözəl və inandırıcıdır. Elə deyilmi?

**Deyildiyi kimi, «rəhim» və «rəhmət» anlayışlarının hz. Məhəmmədlə (s.a.s) sıx bağlılığı var. Belə ki, hz. Mə-**

**həmmədin (s.a.s) çoxsaylı adlarından biri də «Rəhim»dir.** O, bütün möminlərin, yoxsulların, çarəsizlərin, möhtacların, yetimlərin, kimsəsizlərin ümid yeridir. Peyğəmbər onlara qarşı çox şəfqətli və mərhəmətlidir. Mübarək Quran buyurur ki, uca Allahın (c.c) elçisinin adı Rəhimdir:

لَقَدْ جَاءكُمْ رَسُولٌ مِّنْ أَنفُسِكُمْ عَزِيزٌ عَلَيْهِ مَا عَنِتُّمْ حَرِيصٌ عَلَيْكُم بِالْمُؤْمِنِينَ رَؤُوفٌ رَّحِيمٌ

(ət-Tövbə, 9/128)

«(Ey ümmətim!) Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərə şəfqətli, mərhəmətlidir!»

«Rəhim», «Rauf» adları həm uca Allahın (c.c) gözəl adlarındandır, həm də hz. Məhəmmədin (s.a.s) mübarək adları sırasında yer tutur. Bu sifətlər hz. Məhəmməddən (s.a.s) başqa heç bir Peyğəmbərə verilməmişdir. Çünki hz. Məhəmmədin (s.a.s) varlığı bütün aləmlər üçün rəhmətdir.

## DİVAN ƏDƏBİYYATINDA PEYĞƏMBƏRİN RƏHİM, RƏHMƏT, RAUF ADI

Divan ədəbiyyatında hz. Məhəmmədlə (s.a.s) bağlı yazılmış nətlərdə Onun Rəhim, Rəhmət, Rauf adları birlikdə verilmişdir. Bu üç ad hz. Məhəmmədin (s.a.s) şəfqətli, mərhəmətli olduğunu ifadə edir:

**Mehmed:**

… Rahim ü Rahmet ü Nuri-Mübindür,
Kiyametde Şefiül-Müznibindür…[107]

[107] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 194.

(Rəhimdir, Rəhmətdir, parlaq nurdur. Qiyamət günü dərdlilərin şəfaətçisidir)

**Tacizadə Cəfər Çələbi:**

… Allahdan inayete senden şefaete,
Kalmış durur işüm benüm ey Rahmeti-Rahim.[108]

(Ey Rəhmət və Rəhim olan! Mənim işim Allahın inayətinə və Sənin şəfaətinə qalıb)

**Əhmədi:**

Muhammed Alim-i İlmel – Yakindür,
Muhammed «Rahmeten Lil-Alemindür…[109]

(Məhəmməd qəti, uca Allahın verdiyi elm sahibidir. O, aləmlərə rəhmətdir)

**Əhmədi:**

Gah anun hulkına didi Hak «Azim»,
Geh «Rauf» itdi annı vü geh «Rahim».[110]

(Uca Allah onun yaradılışına gah «əzim» (çox böyük) dedi, gah da ona «Rauf» (şəfqətli), Rəhim (bağışlayan) dedi)

## HZ. NİZAMİYƏ GÖRƏ RƏHMƏT EVİ

İndi bu anlayışların izahından sonra hz. Nizaminin beytinin birinci misrasını oxuyaq:

***«Rəhmət evinin (dairəsinin) mərkəzi sənsən…»***

Şair bu misrada da üslubuna sadiq qalaraq hz. Məhəmmədi (s.a.s) şifrələrlə, kodlarla təqdim etmişdir. Hz. Nizami Peyğəmbərlə bağlı yazdığı birinci nətdə Onun missiyasını şərh edərkən «səadət məmləkəti» ifadəsindən istifadə etmişdir. Biz bu anlayışın izahını hz. Nizaminin birinci nəti ilə bağlı

---

[108] Emine Yeniterzi, göstərilən qaynaq, s. 194.
[109] Emine Yeniterzi, göstərilən qaynaq, s. 194.
[110] Emine Yeniterzi, göstərilən qaynaq, s. 194.

yazdığımız kitabda vermişik[111]. Bu nətdə isə şair birinci nətdəki anlayışa yaxın olan «rəhmət evi» qavramından istifadə etmişdir.

İlk sırada onu deməliyik ki, hz. Nizami bu misrada «ev» modelindən istifadə edib. Şairin düşüncəsində bir islam evi anlayışı var. Bu evin yaradıcısı uca Allah, başçısı isə hz. Məhəmməddir (s.a.s). Hz. Nizaminin təqdimatına görə, hz. Məhəmmədin (s.a.s) vəzifəsi uca Allahdan (c.c) aldığı buyruğa uyğun bir «rəhmət evi» qurmaqdır. Bu, Onun göndərilmə, seçilmə səbəbidir. **Əslində, belə demək mümkündürsə, uca Allahın istəyi bu dünyada və axirətdə «rəhmət evi» qurmaqdır. Qadir Allah (c.c) insanların xoşbəxt olmasını istəyir, bu məqsədlə Peyğəmbərlər, kitablar göndərir, «rəhmət evi»nin modelini verir, qanunlarını müəyyən edir.**

Qurani-Kərimdə bu dünya və axirət bir ev kimi təsvir olunub. Bu evin sakinləri var, qapısı var, salam şəkli var, suyu var, meyvəsi var, əbədi bir rahatlıq iqlimi var. Quranda cənnət uca Allahın (c.c) «tikdiyi» bir evdir, onun çoxlu qapısı var və hər kəs layiq olduğu qapıdan bu «rəhmət evi»nə daxil olur. Bu cənnət adlı evin fərqli yerləri var, hər kəs layiq olduğu yerdə oturur. İndi uca Allahın (c.c) cənnət adlı evinə daxil olaq:

وَبَشِّرِ الَّذِين آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ أَنَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا
الأَنْهَارُ كُلَّمَا رُزِقُواْ مِنْهَا مِن ثَمَرَةٍ رِّزْقاً قَالُواْ هَـذَا الَّذِي رُزِقْنَا مِن قَبْلُ
وَأُتُواْ بِهِ مُتَشَابِهاً وَلَهُمْ فِيهَا أَزْوَاجٌ مُّطَهَّرَةٌ وَهُمْ فِيهَا خَالِدُونَ

(əl-Bəqərə, 2/25)

«(Ey Peyğəmbər!) İman gətirən və yaxşı işlər görən kimsələrə müjdə ver: onlar üçün (ağacları) altından çaylar axan cənnətlər (bağlar) vardır. (O cənnətlərin) meyvələrindən bir ruzi yedikləri zaman: «Bu bizim əvvəlcə (dünya evində) yediyimiz ruzidir», - deyəcəklər. Əslində, isə bu (ruzi, meyvələr) onlara (dünyadakılara zahirən) bənzər

---

[111] Siracəddin Hacı, «Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və həzrət Məhəmməd (s.a.s)», Bakı, 2006.

olaraq verilmişdir. Onlardan ötrü orada (hər cəhətdən) pak (olan) zövcələr də var. Onlar (möminlər) orada əbədi qalacaqlar».

**Qurani-Kərimdə «rəhmət evi»nin (cənnətin) ziddi olan «əzab evi» də (cəhənnəm) təsvir olunmuşdur.** Uca Allah (c.c) bu iki evin sakinlərinin dialoqunu təşkil edərək müqayisə şəraiti yaradır və sevinc, bərəkət, şəfqət, mərhəmət, salam evinin dəyərləri ilə əzab, kədər, peşmanlıq, atəş evinin dəyərlərini bütün detalları ilə təqdim edir:

وَنَزَعْنَا مَا فِي صُدُورِهِم مِّنْ غِلٍّ تَجْرِي مِن تَحْتِهِمُ الأَنْهَارُ وَقَالُواْ الْحَمْدُ لِلّهِ الَّذِي هَدَانَا لِهَـذَا وَمَا كُنَّا لِنَهْتَدِيَ لَوْلا أَنْ هَدَانَا اللّهُ لَقَدْ جَاءتْ رُسُلُ رَبِّنَا بِالْحَقِّ وَنُودُواْ أَن تِلْكُمُ الْجَنَّةُ أُورِثْتُمُوهَا بِمَا كُنتُمْ تَعْمَلُونَ وَنَادَى أَصْحَابُ الْجَنَّةِ أَصْحَابَ النَّارِ أَن قَدْ وَجَدْنَا مَا وَعَدَنَا رَبُّنَا حَقّاً فَهَلْ وَجَدتُّم مَّا وَعَدَ رَبُّكُمْ حَقّاً قَالُواْ نَعَمْ فَأَذَّنَ مُؤَذِّنٌ بَيْنَهُمْ أَن لَّعْنَةُ اللّهِ عَلَى الظَّالِمِينَ الَّذِينَ يَصُدُّونَ عَن سَبِيلِ اللّهِ وَيَبْغُونَهَا عِوَجاً وَهُم بِالآخِرَةِ كَافِرُونَ وَبَيْنَهُمَا حِجَابٌ وَعَلَى الأَعْرَافِ رِجَالٌ يَعْرِفُونَ كُلاًّ بِسِيمَاهُمْ وَنَادَوْاْ أَصْحَابَ الْجَنَّةِ أَن سَلاَمٌ عَلَيْكُمْ لَمْ يَدْخُلُوهَا وَهُمْ يَطْمَعُونَ وَإِذَا صُرِفَتْ أَبْصَارُهُمْ تِلْقَاء أَصْحَابِ النَّارِ قَالُواْ رَبَّنَا لاَ تَجْعَلْنَا مَعَ الْقَوْمِ الظَّالِمِينَ وَنَادَى أَصْحَابُ الأَعْرَافِ رِجَالاً يَعْرِفُونَهُمْ بِسِيمَاهُمْ قَالُواْ مَا أَغْنَى عَنكُمْ جَمْعُكُمْ وَمَا كُنتُمْ تَسْتَكْبِرُونَ أَهَـؤُلاء الَّذِينَ أَقْسَمْتُمْ لاَ يَنَالُهُمُ اللّهُ بِرَحْمَةٍ ادْخُلُواْ الْجَنَّةَ لاَ خَوْفٌ عَلَيْكُمْ وَلاَ أَنتُمْ تَحْزَنُونَ وَنَادَى أَصْحَابُ النَّارِ أَصْحَابَ الْجَنَّةِ أَنْ أَفِيضُواْ عَلَيْنَا مِنَ الْمَاء أَوْ مِمَّا رَزَقَكُمُ اللّهُ قَالُواْ إِنَّ اللّهَ حَرَّمَهُمَا عَلَى الْكَافِرِينَ الَّذِينَ اتَّخَذُواْ دِينَهُمْ لَهْواً وَلَعِباً وَغَرَّتْهُمُ الْحَيَاةُ الدُّنْيَا فَالْيَوْمَ نَنسَاهُمْ كَمَا نَسُواْ لِقَاء يَوْمِهِمْ هَـذَا وَمَا كَانُواْ بِآيَاتِنَا يَجْحَدُونَ

(əl-Əraf, 7/43-51)

«Biz onların (cənnət əhlinin) ürəklərindəki kin-küdurəti çəkib çıxardarıq. Onların (qaldıqları yerin) altından çaylar axar. Onlar (Rəbbinin bu lütfünü gördükdə) deyərlər:

«Bizi bura gətirib çıxaran Allaha həmd olsun. Əgər Allah bizi doğru yola yönəltməsəydi, biz özümüzə doğru yolu tapa bilməzdik. Həqiqətən, Rəbbimizin peyğəmbərləri haqqı gətirmişlər!» Onlara: «Etdiyiniz əməllərə görə varisi olduğunuz Cənnət budur!» - deyə müraciət ediləcəkdir. Cənnət əhli cəhənnəm əhlinə müraciət edib: «Biz Rəbbimizin bizə vəd etdiyini (axirət nemətlərini) haqq olaraq gördük. Siz də Rəbbinizin sizə vəd etdiyini (cəhənnəm əzabını) gerçək olaraq gördünüzmü?»- deyə soruşacaq. Onlar: «Bəli!» - deyə cavab verəcəklər. Elə bu zaman onların (hər iki dəstənin) arasında bir carçı (İsrafil, ya da cənnətdəkilərdən biri): «Allah zalımlara lənət etsin!» - deyə səslənəcək. O kəslərə ki, insanları Allah yolundan döndərər, onu (Allah yolunu) əyri hala salmaq (əymək) istəyər və axirətdə də inkar edərlər!» Onların ikisinin (cənnət əhli ilə cəhənnəm əhlinin) arasında pərdə (səs, maneə) və Əraf (Cənnətlə Cəhənnəm arasındakı səddin yüksəklikləri) üzərində isə (savabları və günahları, xeyir və şər əməlləri bərabər olan) insanlar (kişilər) vardır ki, onlar hamını (cənnətlikləri və cəhənnəmlikləri) üzündən tanıyıb cənnət əhlinə: «Sizə salam olsun!»- deyə müraciət edərlər. Bunlar (Əraf əhli) çox istədiklərinə baxmayaraq, hələ ora (Cənnətə) daxil olmamış (ancaq Ərafda günahları təmizləndikdən sonra daxil olacaq) kimsələrdir. Onların nəzərləri cəhənnəm əhlinə çevrildiyi zaman: «Ey Rəbbimiz! Bizi zalımlarla bir etmə!»- deyərlər. Əraf əhli üzlərindən tanıdıqları adamlara müraciət edib: «sizə nə yığdığınız mal-dövlət, nə də təkəbbürünüz fayda verdi»,- deyəcək. (Və fağır, yoxsul möminləri kafirlərin böyüklərinə göstərərək:) «Allah onları Öz mərhəmətinə nail etməyəcək, deyə and içdiyiniz kəslər bunlardırmı?» - söyləyəcəklər. (O anda Allah həmin

möminlərə müraciətlə belə buyuracaq:) «Cənnətə daxil olun. Sizin heç bir qorxunuz yoxdur və siz qəm-qüssə görməyəcəksiniz!». Cəhənnəm əhli cənnət əhlinə müraciət edib: «Üstümüzə bir az su tökün, ya da Allahın verdiyi ruzilərdən bizə bir qədər ehsan edin!» - deyəcək. Onlar isə: «Doğrusu, Allah bunları kafirlərə haram buyurmuşdur!» - deyə cavab verəcəklər. O kəslər ki, dinlərini oyun-oyuncaq (əyləncə) etmiş və (fani) dünya həyatı onları aldatmışdı. Onlar bu günə qovuşacaqlarını unutduqları və ayələrimizi (bilə-bilə) inkar etdikləri kimi, Biz də onları bu gün unudarıq!»

Bizcə, bu son dərəcə ibrətli və misilsiz bir səhnədir. Ayələr bir-birinə zidd anlayışlar, ifadələr, sözlər üzərində qurulub: cənnət-cəhənnəm, cənnət əhli – cəhənnəm əhli, kin-küdurət – sevgi, doğru yol – əyri yol, haqq – batil, nemət – əzab, sizə salam olsun – Allah zalımlara lənət etsin, bu dünya – axirət, savab – günah, xeyir – şər, təvazökarlıq – təkəbbür, mömin – kafir, mərhəmət – zülm, yoxsul – varlı, halal – haram, təsdiq – inkar, ümid – qorxu.

**Uca Allah (c.c) bu ayələrdə üç ev, üç məkan təsvir edir: hz. Nizaminin ifadə etdiyi «rəhmət evi» - bu ev inananların əbədi qalacaqları evdir. «Əzab evi» - bu evin sakinləri uca Allahı (c.c) və Onun elçisini inkar edənlərin yaşadığı məkandır. Bir də bu iki evin arasında qalanların olduğu yer – bizim şərti olaraq «evsizlər»in, tərəddüd əhlinin ümid və qorxu içində qaldıqları yer adlandırdığımız ünvan.**

Uca Allah (c.c) «rəhmət evi»nin nemətlərini ilk ayələrdən başlayaraq təsvir edir, inananlara müjdə verir, bu evi bütün detalları ilə təsvir edir. Çünki insan gedəcəyi yeri

tanıyanda, qalacağı yeri biləndə qəlbi rahat olur, özünü təhlükəsiz bir məkanda hiss edir.

**Bizcə, hz. Nizaminin «rəhmət evi» anlayışının mənalarından biri budur ki, ən gözəl axirət neməti «rəhmət evi»dir, bu dinclik, əbədi rahatlıq, şəfqət, mərhəmət evinin sakini olmaqdır.**

Hz. Nizaminin «rəhmət evi» anlayışının iki yönü var: biri bu dünyada qurulan «rəhmət evi»dir. Bu dünyada özünə «rəhmət evi» tikə bilməyənlər, axirətdə də «rəhmət evi»nə daxil ola bilməzlər. Çünki, əslində, bu dünya özü bir evdir, axirət də bir ev. Bu iki ev arasındakı doğru yolu tapmaq üçün peyğəmbərə ehtiyac var. Bu da peyğəmbərlərin göndərilmə səbəblərindən biridir. Hz. Nizami bir də «rəhmət evi» anlayışı ilə axirət evini nəzərdə tutur.

**Hz. Nizamiyə görə, «rəhmət evi» insanın qəlbidir.** Əgər bu qəlb Allah sevgisi ilə dolmuşsa, onun döyüntüləri uca Allahın (c.c) yaratdığı ilahi nizamın ritmləri ilə üst-üstə düşürsə, deməli, insanın içində, duyğu və düşüncələrində «rəhmət evi» qurulmuşdur.

**Hz. Nizaminin anlayışına görə, «rəhmət evi» bir islam evidir. Yəni «rəhmət evi» dinclik, sevgi, barış yuvasıdır.**

Şairə görə, «rəhmət evi»nin qurulması uca Allahın (c.c) buyruğudur və bu yuvanın qurulmasının məqsədi insanları təhlükələrdən, bu dünyanın və axirətin əzabından qorumaqdır. **«Rəhmət evi»nin başlıca yaşayış prinsipləri iman, təmizlik və ədalətdir.**

Hz. Nizami beytin birinci misrasında deyir ki, hz. Məhəmməd (s.a.s) «rəhmət evi»nin mərkəzidir, dayaq nöqtəsidir. Burada şair «rəhmət evi»ni ilahi qanunlarla yaşayan bir dünya modeli kimi təqdim etmişdir. Yəni uca Allah (c.c)

insanları xoşbəxt etmək üçün bir ev (dünya) qurmağı qərara alır, bu evin mənəvi-əxlaqi, hüquqi, iqtisadi yaşayış prinsiplərini müəyyən edir. Bunun üçün Quran göndərir və bu ilahi ölçülərə uyğun bir evin tikilməsi üçün başçı, lider, yol göstərən – Peyğəmbər seçir. **Deməli, hz. Məhəmmədin (s.a.s) vəzifəsi Allahın (c.c) buyruqlarına uyğun «rəhmət evi» tikməkdir. Hz. Nizaminin təqdimatında bu evin, dünyanın, cəmiyyətin hüquqi sistemi var. Bu sistemə görə, «rəhmət evi»ndə yaşayanlar hüquq baxımından bərabərdirlər, bu evdə yaşayanlar azaddırlar, bu evin sakinlərinin azad yaşamaq, sevmək, işləmək, danışmaq, ailə qurmaq, övlad yetişdirmək, oxumaq, elm öyrənmək hüququ var.** Bu rəhmət evinin vətəndaşlarının iqtisadi azadlıqları var, burada insanların şəxsi mülkiyyəti var, burada haqsız rəqabət, faiz haramdır, malı dəyərindən artığına satmaq olmaz, bu evin vətəndaşlarının sosial təminatı var, insanlar arasındakı sosial ədaləti təmin etmək üçün bu «rəhmət evi»nin zəkat kimi mükəmməl iqtisadi sistemi var. Bu «rəhmət evi»nin vətəndaşları qadın və kişi olmasından asılı olmayaraq, miras hüququna malikdir. İnsanlar arasında bərabərsizlik yaradan və haqsız qazanc mənbəyi olan faiz bu «rəhmət evi»ndə haram edilmişdir. «Rəhmət evi»nin ana yasasında faizin zərərləri belə şərh edilmişdir:

الَّذِينَ يَأْكُلُونَ الرِّبَا لاَ يَقُومُونَ إِلاَّ كَمَا يَقُومُ الَّذِي يَتَخَبَّطُهُ الشَّيْطَانُ مِنَ الْمَسِّ ذَلِكَ بِأَنَّهُمْ قَالُواْ إِنَّمَا الْبَيْعُ مِثْلُ الرِّبَا وَأَحَلَّ اللّهُ الْبَيْعَ وَحَرَّمَ الرِّبَا فَمَن جَاءهُ مَوْعِظَةٌ مِّن رَّبِّهِ فَانتَهَى فَلَهُ مَا سَلَفَ وَأَمْرُهُ إِلَى اللّهِ وَمَنْ عَادَ فَأُوْلَـئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ  يَمْحَقُ اللّهُ الْرِّبَا وَيُرْبِي الصَّدَقَاتِ وَاللّهُ لاَ يُحِبُّ كُلَّ كَفَّارٍ أَثِيمٍ  إِنَّ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ وَأَقَامُواْ الصَّلاَةَ وَآتَوُاْ الزَّكَاةَ لَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ وَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ  يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ وَذَرُواْ مَا بَقِيَ مِنَ الرِّبَا إِن كُنتُم مُّؤْمِنِينَ

(əl-Bəqərə, 2/275-278)

«Sələm (müamilə, faiz) yeyənlər (qiyamət günü) qəbirlərindən ancaq Şeytan toxunmuş (cin vurmuş dəli) kimi qalxarlar. Bunların belə olmaları: «Alış-veriş də sələm kimi bir şeydir!» - dedikləri üzündəndir. Halbuki, Allah alış-verişi halal, sələm (faiz) almağı isə haram (qadağan) etmişdir. İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə (bu işə) son qoyarsa, keçmişdə aldığı (sələmlər) onundur (ona bağışlamaq). Onun işi Allaha aiddir. Ancaq (yenidən sələmçiliyə) qayıdanlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar! Allah sələmi (sələmlə qazanılan malın bərəkətini) məhv edər, sədəqələri (sədəqəsi verilmiş malın bərəkətini) isə artırar. Allah kafiri, günahkarı sevməz! İman gətirən, xeyirli işlər görən, namaz qılan, zəkat verən şəxslərin Rəbbi yanında mükafatları var. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər! Ey möminlər! Əgər doğrudan da, iman gətirmişsinizsə, Allahdan qorxub sələmdən qalan məbləğdən (faizdən) vaz keçin! (Onu borclulardan almayın!)».

Çünki faiz almaq «rəhmət evi»nin iqtisadi, hüquqi, əxlaqi nizamını pozur, insan azadlıqlarını məhdudlaşdırır, haram qazanca yol açır.

Bu «rəhmət evi»nin başçısı, qurucusu, mərkəz nöqtəsi olan hz. Məhəmməd (s.a.s) faiz alana da, onu verənə də lənət etmişdir.[112]

«Rəhmət evi»nin iqtisadi əsasları azad, halal ticarət, yardımlaşma və faizsiz borc vermək prinsipi üzərində qurulmuşdur. Faiz isə bu sistemin əsaslarını dağıtdığına görə haram buyrulmuşdur.

[112] İmam Nəvəvi, «Riyazüs-Salihin» (tərcümə və şərh edənlər: Yaşar Kandemir, İsmail Lütfi Çakan, Raşit Küçük), Erkam yayınları, İstanbul, 2004, c. VII, s. 64.

Hz. Məhəmməd (s.a.s) başqa bir mübarək hədisində «rəhmət evi»nin ölçülərini belə açıqlayır:

«Allaha heç bir şeyi ortaq qoşmayın, oğurluq etməyin, zina etməyin, haqsız yerə Allahın haram buyurduğu bir nəfsi öldürməyin, bir adamı öldürtmək üçün güc, qüdrət sahibi bir kimsənin yanına getməyin, adamları sehirləməyin, faiz yeməyin, evli və namuslu bir qadına namussuzdur deyib iftira atmayın, döyüşün qızışdığı gün hərb meydanından qaçmayın…».[113]

«Rəhmət evi»nin ölçülərinə görə, faiz malın yox olmasına səbəb olur, faiz yeyənlər Allah (c.c) və Onun Rəsuluna qarşı döyüşürlər.

«Rəhmət evi»nin qaydalarına görə yetimin malını yemək haramdır.

«Rəhmət evi»ndə qadın uca Allahın (c.c) əmanəti sayılır, onun hüquqları var və bu hüquqları pozmaq olmaz. Onu döymək, təhqir etmək, zorla ərə vermək, mirasdan məhrum etmək, oxumaq hüququnu əlindən almaq, onu al-ver predmetinə çevirmək haramdır. «Rəhmət evi»nin ölçülərinə görə, qadın zərifdir, o, anadır, o, gözəllik, sevgi qaynağıdır, o, ailənin qoruyucusudur. Rəhmət evinin sahibi uca Allah (c.c) belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ يَحِلُّ لَكُمْ أَن تَرِثُواْ النِّسَاء كَرْهاً وَلاَ تَعْضُلُوهُنَّ
لِتَذْهَبُواْ بِبَعْضِ مَا آتَيْتُمُوهُنَّ إِلاَّ أَن يَأْتِينَ بِفَاحِشَةٍ مُّبَيِّنَةٍ وَعَاشِرُوهُنَّ
بِالْمَعْرُوفِ فَإِن كَرِهْتُمُوهُنَّ فَعَسَى أَن تَكْرَهُواْ شَيْئاً وَيَجْعَلَ اللّهُ فِيهِ
خَيْراً كَثِيراً

(ən-Nisa, 4/19)

«Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir! (Qadınlar) açıq-aşkar pis bir iş görməyincə

---

[113] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. IV, s. 487.

özlərinə verdiyiniz (mehrin) bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin. Əgər onlara nifrət etsəniz (dözün) ola bilsin ki, sizdə nifrət doğuran hər hansı bir şeydə Allah (sizdən ötrü) çoxlu xeyir nəzərdə tutmuş olsun».

Hz. Məhəmməd (s.a.s) belə buyurur:

«Əshabım! Qadınlarla xoş davranmağınızı tövsiyə edirəm. Vəsiyyətimi yerinə yetirin. Çünki onlar sizin idarəçiliyinizə və himayənizə verilmişdir…».[114]

**Hz. Nizamiyə görə, «rəhmət evi»nin mənəvi-əxlaqi ölçüləri bunlardır:** şəfqət, mərhəmət, sevgi, başqalarına dəyər vermək, bağışlamağı bacarmaq, ata-ana sevgisi, yaxşılıq, Allah və peyğəmbər sevgisi, ədalət, iman, ibadət, şükür etmək, qonaqpərvərlik, yetimə, kimsəsizə yardım, cihad, səxavət, sədəqə vermək, səbir, bir-birinə dua etmək, təmizlik, düzlük, yalan danışmamaq, zülmə, haqsızlığa qarşı mübarizə etmək, bütün yaradılmışların hüququna hörmət etmək və bu kimi başqa gözəl dəyərlər.

Uca Allah (c.c) «rəhmət evi» qurmaq üçün insanların arasından seçərək missiya verdiyi hz. Məhəmmədə (s.a.s) belə buyurur:

الَّذِينَ كَفَرُواْ وَصَدُّواْ عَن سَبِيلِ اللّهِ زِدْنَاهُمْ عَذَاباً فَوْقَ الْعَذَابِ بِمَا كَانُواْ يُفْسِدُونَ

(əl-Nəhl, 16/88)

«(Kafirlərin) bəzi zümrələrinə verdiyimizə (fani dünya malına) rəğbət gözü ilə baxma (ya da gözünü dikmə, çünki bunların arxasınca küfr edənləri dəhşətli bir əzab gözləyir), onlardan (onlar iman gətirmədiklərindən) ötrü kədərlənmə (ya da onlara verdiyimiz sərvətə görə qəmgin olma, axirətdə

[114] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 325.

səni daha böyük nemətlər gözləyir), möminləri qanadın altına al (iman gətirənlərə qarşı təvazökar olub yumşaq davran və onları himayə et!)».

Hz. Məhəmməd (s.a.s) mübarək hədislərində «rəhmət evi»nin mərhəmət, şəfqət, sevgi ölçüsünü belə açıqlayır:

«Möminlər bir-birilərini sevməkdə, bir-birilərinə acımaqda və bir-birilərini qorumaqda bir vücuda bənzərlər. Vücudun bir üzvü xəstə olduğu zaman, başqa üzvlər də bu səbəblə yuxusuzluğa və qızdırmalı xəstəliyə tutulurlar».[115]

**Hz. Məhəmmədin (s.a.s) «rəhmət evi»nin ölçülərinə görə,** «Mərhəmət etməyən kimsəyə mərhəmət olunmaz»,[116] «Yaxşılığın əvəzi yalnız yaxşılıqdır»,[117] «İnsanlara mərhəmət göstərməyən kimsəyə Allah da mərhəmət etməz»,[118] «Müsəlman heç kimsəyə qarşı kin, nifrət, düşmənçilik duyğuları ilə dolu olmaz, hər kəsə qarşı ədalətlə davranar, haqsızlıqdan uzaq durar».[119]

**Hz. Məhəmmədin (s.a.s) qurduğu dünyanın - «rəhmət evi»nin ölçülərinə görə:**

«Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz, haqsızlıq etməz, onu düşmənə təslim etməz. Müsəlman qardaşının ehtiyacını ödəyən şəxsin ehtiyacını Allah ödəyər. Kim bir müsəlmanı sıxıntıdan qurtararsa, uca Allah o şəxsin qiyamət günündəki sıxıntılarından birini həll edər. Kim bir müsəlmanın eyib və qüsurunu örtərsə, uca Allah da o şəxsin eyib və qüsurunu örtər».[120]

**Bu «rəhmət evi»nin ölçülərinə görə:**

---

[115] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 180.
[116] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 182.
[117] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 183.
[118] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 185.
[119] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 185-186.
[120] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 194.

«Müsəlman müsəlmanın qardaşıdır. Ona xəyanət etməz, yalan söyləməz və yardımı tərk etməz. Müsəlmanın namusu, malı və qanı başqa müsəlmana haramdır. Təqva buradadır. Bir kimsəyə şər olaraq müsəlman qardaşını özündən aşağı görməsi yetər».[121]

**Bu «rəhmət evi»nin əxlaq ölçülərinə görə:**

«Sizdən biriniz özü üçün sevib arzu etdiyi şeyi din qardaşı üçün də sevib arzu etmədikcə gerçək anlamda iman etmiş olmaz».[122]

**Bu «rəhmət evi»nin şərtlərinə görə:**

«Din qardaşın zalım da, məzlum da olsa, ona yardım et».[123]

**Bu «rəhmət evi»nin qaydalarına görə:**

«Müsəlmanın müsəlman üzərindəki haqqı altıdır: Qarşılaşdığın zaman salam ver, səni dəvət edərsə, get, səndən nəsihət istəsə, nəsihət et, asqıranda Allaha həmd edərsə, yərhəmukallah de, xəstələnəndə onu ziyarət et, öldüyü zaman cənazəsinin arxasınca get».[124]

**Hz. Nizami «rəhmət evi»ni bir sağlam dünya kimi təqdim edir. Hamının barış içində yaşadığı bu müqəddəs məkanın adı «rəhmət evi»dir, vətəndaşı mömindir, idarəçilik prinsipləri mərhəmət və ədalətə əsaslanır.**

Hz. Nizamiyə görə, bu evin hüquqi, iqtisadi, əxlaqi əsaslarını uca Allah (c.c) müəyyən edib. Bu evi qurmağın yeganə şərti hz. Məhəmmədə (s.a.s) tabe olmaqdır. Çünki O, bu «rəhmət evi»nin «dayaq nöqtəsidir», mərkəzidir.

Hz. Nizamiyə görə, uca Allahın (c.c) hədəfi bu dünyada və axirətdə «rəhmət evi» tikməkdir. **Əslində, «rəhmət evi»**

---

[121] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 197.
[122] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 204.
[123] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 205.
[124] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 208.

**cənnətdir. Bu bir sevgi, mərhəmət evidir.** Bu evdə - bu rəhmət dünyasında hər bir vətəndaşın hüququ tanınır, hamı sevinc və kədərini bir-biri ilə paylaşır, hər kəs bir-birini bağışlamağı bacarır. Bu «rəhmət evi»ni ancaq uca Allaha (c.c) və hz. Məhəmmədə (s.a.s) inananlar qura bilər.

Şairə görə, bu «rəhmət evi»nin ana yasası Qurani-Kərimdir, evin yaradıcısı Allah (c.c), başçısı hz. Məhəmməddir (s.a.s). Bu evin vətəndaşı olmağın şərtləri isə iman, iradə, elm, təmizlik və ədalətdir.

**Bizə görə, hz. Nizaminin üçüncü nətinin ikinci beytinin ideyası xilaskarlıq, qurtuluş anlayışı ilə sıx bağlıdır. Bu mənada hz. Nizaminin «rəhmət evi» adı ilə kodlaşdırdığı müqəddəs məkan insanlıq üçün bir sığınacaqdır, təhlükəsizlik mühitidir. «Rəhmət evi» qurmaq bir ilahi əmrdir və hər birimiz bu quruculuq işində iştirak etməliyik.**

Hz. Nizami «rəhmət evi» anlayışı ilə bütövlükdə İslamın mahiyyətini, peyğəmbərlik anlayışının statusunu və bir son Peyğəmbər olaraq hz. Məhəmmədin (s.a.s) missiyasını çox dəqiq ifadə etmişdir.

Hz. Nizami bu beytin ikinci misrasında deyir:

***«Zəhmət» (sözünün) nöqtəsinin üstündəki saray sənsən».***

Bu misrada da bir neçə məna var. Hər şeydən öncə onu deməliyik ki, birinci misrada olan «rəhmət» sözü ilə ikinci misradakı «zəhmət» sözünün əski əlifba ilə yazılışı ancaq bir nöqtə ilə fərqlənir.

Şair birinci misrada nöqtə anlayışını mərkəz, bir şeyin əsası, dayaq nöqtəsi mənasında işlətmişdir. İkinci misrada isə «nöqtə» anlayışı həm durğu işarəsini bildirir, həm də daha çox poetik anlamda, beytin ideya yükünü daşıyan bir

vasitə olaraq bizcə, «yük», «çətinlik», «əzab-əziyyət» mənasındadır. Yəni «rəhmət» sözünün birinci hərfi olan «re»nin üzərinə bir nöqtə işarəsi qoyduqda «ze» oxunur. İkinci mənada isə «rəhmət» «zəhmətə» çevrilir.

**Hz. Nizami elə bir şairdir ki, o beytdə heç bir detalı bədii yükü olmadan saxlamır. Burada da şair «rəhmət», «rəhmət evi» anlayışları ilə «zəhmət» anlayışı arasındakı əlaqəni çox incə bir detalla təmin etmişdir.** Bizə görə, ikinci misranı bir neçə yöndə şərh etmək olar. Hər şeydən öncə onu deməliyik ki, şair hz. Məhəmmədin (s.a.s) uca Allahın (c.c) əmri ilə «rəhmət evi» qurmaq missiyasını izah edir. Ona görə, bu çox çətin bir vəzifədir. Şairin inancına görə, böyük işlər çətinliksiz həyata keçirilə bilməz. Yəni «zəhmətsiz rəhmət yoxdur». Hz. Məhəmməd (s.a.s) ilahi buyruğa uyğun olaraq bu ağır və şərəfli peyğəmbərlik vəzifəsini öz üzərinə götürmüşdür. Onun «rəhmət evi», «rəhmət sarayı» böyük çətinliklər hesabına tikilmişdir. Hz. Məhəmmədin (s.a.s) şərəfli, mübarək ömür yolu acılar, çətinliklər və əzab-əziyyət içində keçmişdir. Biz Onun mübarək ömrünün bir sıra zəhmət dolu anlarını yada salmaq istəyirik:

Hz. Məhəmmədin (s.a.s) ailəsi onun vəfat etdiyi anadək iki gün dalbadal arpa çörəyi ilə qarnını doyurmadı.[125]

Onun evində elə olurdu ki, iki ayda bir dəfə ocaq qalanmırdı.[126]

O, arpa çörəyi ilə qarnını doyurmadan bu dünyadan köçdü.[127]

---

[125] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 247.
[126] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 249.
[127] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 250.

Elə vaxt oldu ki, O, qarnını doyuracaq adi xurma belə tapa bilmədi.[128]

Allah Rəsulu bir çiyin örtüyü və qalın parça arasında vəfat etdi.[129]

O, bu dünyadan köçəndə zirehi otuz kilo arpa borc aldığı üçün bir yəhudinin əlində girov idi.[130]

Allah Rəsulunun yatağının üzü dəridən, içi də yumşaq xurma lifindən idi.[131]

Əbu Hüreyrə (r.a) buyurur:

«Mən Suffə əhlindən yetmiş şəxsi gördüm. Heç birinin üzərində vücudunu örtən bir paltar yox idi. Ya bir bel sarıqları, ya da boyunlarına bağladıqları bir parçaları var idi. Bunların bir qismi baldırlarının yarısına, bir qismi də topuqlarına çatırdı. Eyib yerləri görünməsin deyə, paltarlarını əlləri ilə toplayırdılar».[132]

O, yemək yemədən dalbadal bir neçə gün ac qalırdı.[133]

O, bir həsir üzərində yatırdı.[134]

Ən böyük dərdlərin Peyğəmbərlərə gəldiyi də bəllidir.[135]

**Bütövlükdə, hz. Məhəmmədin (s.a.s) ömür yolu sıxıntılarla iç-içə keçdi. Buradan çıxan nəticə odur ki, «rəhmət evi» zəhmətin üstündə qurulub. Hz. Nizami də deyir ki, «zəhmət» sözünün üstündə qurulan saray sənsən.**

---

[128] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 252.
[129] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 262.
[130] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 272.
[131]«Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 275.
[132] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 275.
[133] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 288.
[134] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 235.
[135] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 396.

Hz. Nizaminin beytinin ikinci misrasının bir başqa izahı da budur ki, hz. Məhəmməd (s.a.s) insanlığı böyük zəhmətdən xilas etdi. Əgər o olmasa idi, insanlıq cəhalət girdabı içində həlak olardı. O, zəhmət çəkdi, ömrünü şam kimi insanlıq yolunda əritdi, bir «rəhmət evi» tikdi, insanları bu evə topladı və bu yolla da onları əzabdan, atəşdən qorudu, xilas etdi. O, son anadək bütün imkanlardan istifadə edərək insanları «rəhmət evi»nə yönəltməyə çalışdı.

**Hz. Nizami ikinci misrada da xilaskarlıq, qurtuluş ideyasını inkişaf etdirmişdir. Böyük düha, istedad və iman sahibi olan şair İslamın peyğəmbərlik anlayışını, hz. Məhəmmədin (s.a.s) hədəfini, məqsədlərini kodlaşdıraraq, terminə çevirərək uca Allahın (c.c) buyruğunun gerçək mənasını «ev» anlayışı ilə ifadə etmişdir, simvollaşdırmışdır. Şair deyir: «Ey insan! Uca Allahın (c.c) buyruğunu dinlə, ona inan, hz. Məhəmmədin (s.a.s) əlindən tut, «rəhmət evi»nə gir, qurtul, xilas ol!»**

Şair bir beytdə iki dəfə «ev» anlayışından istifadə etmişdir. Bizi istidən, soyuqdan, təhlükədən, vəhşi heyvanlardan, yağışdan, qardan qoruyan, bizim eyiblərimizi örtən, bizə yuva, isti ocaq, ailə olan, ruhumuzun, bədənimizin dincəldiyi məkan olan ev İslamın xilaskarlıq missiyasını gözəl ifadə edir. Hz. Nizamiyə görə, yer üzü bir evdir, bu məkanı «rəhmət evi»nə çevirmək də bizim vəzifəmizdir. **Kim bizə bir ev tiksə, onu sevərik, elə deyilmi? Uca Allah (c.c) da İslam dini ilə bizə bir «rəhmət evi» tikmişdir. Bu «rəhmət evi»nin bənnası isə hz. Məhəmməddir (s.a.s). İndi dünya bu «rəhmət evi»nə möhtac deyilmi?**

Hz. Nizaminin beytinin ikinci misrasının bir yozumu da odur ki, hz. Məhəmmədin (s.a.s) xilaskarlıq missiyası bir fədakarlıq, eşq, aşiqlik işidir. Çünki bir şəxsi xilas etmək öz

həyatını qurban vermək deməkdir. **Hz. Məhəmmədin (s.a.s) bütün insanlığa göndərilməsinin bir hikməti də odur ki, o, ömrünü bütün insanlığa fəda etmək üçün seçilmişdir. Çünki onun tikdiyi «rəhmət evi» fərdi mənzil deyil, bütün insanların, bütün yaradılmışların yaşadığı iman məkanıdır, əbədi səadət yurdudur.**

## ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ:
## SƏN DOĞRU YOLU GÖSTƏRƏNSƏN

راهـروان عـربـــی را تـــو مـــاه
یـــاوگـیـــان عـجـمـــی را تـــو راه

***Sən ərəb yolçuları üçün Aysan,***
***Sən əcəm şahlarının şahısan.***[136]

Hz. Nizami nətin üçüncü beytində hz. Məhəmmədin (s.a.s) müəllim, mürşid, bələdçi, doğru yolu göstərən, xilaskar obrazını yaratmışdır. Bizə görə, bu beytin ideyası insanların doğru yolu tapması üçün bir elçiyə, bir başçıya, bir müəllimə ehtiyacı olması ilə bağlıdır. Şair öncəki iki beytdə uca Allaha (c.c), hz. Məhəmmədə (s.a.s) təslim olmaq, itaət etmək zəruriliyini və azadlıq Peyğəmbərinin başlıca hədəfinin «Rəhmət evi» tikmək olduğunu açıqlayandan sonra Allah elçisinin doğru yolu göstərmək missiyasını önə çəkmişdir. O, bir elçidir, Ona inanın, O, «rəhmət evi» tikmək istəyir, Onu sevin, O, sizə bu «rəhmət evi»nə aparacaq liderdir, onun arxasınca gedin.

Hz. Məhəmmədin (s.a.s) öyrədən kamil bir müəllim olduğu, insanları doğru yola yönəltdiyi Qurani-Kərimdə təsbit olunmuşdur. Uca Qurana görə, O, «son peyğəmbərdir», «aləmlərə rəhmətdir», «ən gözəl örnəkdir», «böyük əxlaq sahibidir».

Uca Quran buyurur ki, O, doğru yola çağırır.

وَإِنَّكَ لَتَدْعُوهُمْ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ

(əl-Muminun, 23/73)

«Əslində, sən onları doğru yola (islam dininə) dəvət edirsən!»

---

[136] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 34.

**Uca Qurana görə, doğru yolu tapmağın tək yolu hz. Məhəmmədin (s.a.s) arxasınca getməkdir:**

قُلْ أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ فَإِن تَوَلَّوا فَإِنَّمَا عَلَيْهِ مَا حُمِّلَ وَعَلَيْكُم مَّا حُمِّلْتُمْ وَإِن تُطِيعُوهُ تَهْتَدُوا وَمَا عَلَى الرَّسُولِ إِلَّا الْبَلَاغُ الْمُبِينُ

(ən-Nur, 24/54)

«De: «Allaha itaət edin, Peyğəmbərə itaət edin. (Çünki Peyğəmbərə itaət etmək elə Allaha itaət etməkdir). Əgər (Peyğəmbərin əmrindən) üz döndərsəniz, (bilin ki) onun vəzifəsi ancaq ona tapşırılanı, sizin də vəzifəniz ancaq sizə tapşırılanı yerinə yetirməkdir. Əgər ona itaət etsəniz, doğru yolu tapmış olarsınız. Peyğəmbərin öhdəsinə düşənsə yalnız (dini, risaləti) açıq-aşkar təbliğdir».

**Qurana görə, hz. Məhəmməd (s.a.s) məsələləri ən doğru həll edəndir:**

فَلاَ وَرَبِّكَ لاَ يُؤْمِنُونَ حَتَّىَ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لاَ يَجِدُواْ فِي أَنفُسِهِمْ حَرَجاً مِّمَّا قَضَيْتَ وَيُسَلِّمُواْ تَسْلِيماً

(ən-Nisa, 4/65)

«Ancaq xeyr! (Ey Rəsulum) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (münsif) təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə (həqiqi surətdə) iman gətirmiş olmazlar».

**Uca Qurana görə, hz. Məhəmməd (s.a.s) müəllimdir:**

بِالْبَيِّنَاتِ وَالزُّبُرِ وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ

(ən-Nəhl, 16/44)

«Biz onları (peyğəmbərliklərinin doğru olduğunu sübut edən) açıq-aşkar möcüzələr və kitablarla göndərdik. Sənə də Quran nazil etdik ki, insanlara onlara göndəriləni

(hökmləri, halal-haramı) izah edəsən və onlar da düşünüb dərk edələr».

**Quran buyurur ki, hz. Məhəmməd (s.a.s) ən gözəl örnəkdir:**

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِّمَن كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الْآخِرَ وَذَكَرَ اللَّهَ كَثِيراً

(əl-Əhzab, 33/21)

«Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!».

Hz. Məhəmməd (s.a.s) bir hədisində buyurur ki, alimlər Peyğəmbərlərin varisləridir:

«Bir kimsə elm əldə etmək arzusu ilə yola çıxarsa, Allah o şəxsə cənnətin yolunu asanlaşdırır. Şübhəsiz, mələklər onun etdiyindən xoşnud olduqları üçün elm öyrənmək istəyən kimsənin üzərinə qanadlarını gərər. Göylərdə və yerdə olanlar, hətta, suyun içindəki balıqlar belə alim şəxsə Allahdan bağışlanma istəyərlər. Alimin abidə qarşı üstünlüyü ayın başqa ulduzlara olan üstünlüyü kimidir. Şübhəsiz, alimlər peyğəmbərlərin varisləridir. Peyğəmbərlər qızıl və gümüşü miras qoymazlar, sadəcə elm miras qoyarlar. O mirası alan kimsə bol nəsib və qismət almış olur».[137]

Hz. Nizami Peyğəmbərin müəllimlik, yol göstəricilik missiyasını şərh etmək üçün beytdə bir sıra obrazlardan istifadə etmişdir. Bu obrazlardan biri Aydır. Şair öncəki nətlərdə də Ay obrazından yararlanmışdır. Ancaq bu beytdə şair Ay obrazını başqa bir ideya-bədii yükün daşıyıcısı olaraq təqdim etmişdir.

---

[137] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, 177.

Hz. Nizaminin ay obrazı ilə nəzərdə tutduğu mənanı şərh etməmişdən öncə onu deyək ki, divan ədəbiyyatında hz. Məhəmməd (s.a.s) tez-tez Aya bənzədilmişdir. Ay, Bədr, Mah, Məh, on dördgecəlik ay motivləri ilə divan şairləri hz. Məhəmmədin (s.a.s) xarakter və ilahi vəzifəsini izah etmişlər. Ay kimi nur saçan hz. Peyğəmbər cəhalət, küfr və qaranlığın qənimi olmuşdur. «Onun her türlü nöksandan uzak oluşuyla dolunaya benzetilmesi itibariyla kullanılan bu benzetme: «bedri-düca», «mahi-münir», «mahi-taban», «mahi-ümmül-Kura», «mahi-isra», «mahi-evci-istifa», «mehi-burci-risalet», «mehi-sipihri-nübüvvet», «mehi-burci-şer», «mahi-sipihri-cemal» kimi terkiplerle yer alır».[138]

**Kuddusi:**

…İhata eylemiş iken cihanı zulmeti-fetret,
Münevver eyledin bedrüd – dücasın, ya Həbibullah.[139]

(Bütün dünyanı qaranlıq zülmət bürüdüyü zaman, ey Allahın dostu, Sən parlaq ay kimi hər tərəfi işıqlandırdın)

**Güvahi:**

Risalet burcinun mahi-muqimi,
Seadet dürcinün dürri-yetimi.[140]

(Peyğəmbərlik bürcünün parlaq ayı, Səadət dəryasını tək incisisən)

Hz. Nizami də Ay obrazından bir neçə yöndə istifadə edir. Öncə şair bir dəvə karvanı təsvir edir. O dövrdə ərəb tacirləri hava çox isti olduğuna görə gecə yola çıxırdılar və bu ticarət karvanlarının bələdçisi Ay olurdu. Misranın üzdə görünən mənası budur. Ancaq şair ərəblərin ticarət karvanlarının gecə yola çıxması ilə bir neçə məna ifadə

---

[138] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 309.
[139] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 310.
[140] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 311.

etmişdir. Burada gecə, qaranlıq cəhalət mənasındadır. Şair gecə ilə işığı – Ayı qarşılaşdıraraq ərəblərin və bütün insanlığın islamadək olan halını, cəhalətini təsvir etmişdir. Özünü və Allahını tanımayan bu toplum bütlərə sitayiş edirdi, körpə qız uşaqlarını diri-diri basdırırdı, faiz yeyirdi, halal ilə haramı seçə bilmirdi. Bu parlaq Ay – hz. Məhəmməd (s.a.s) doğuldu və zülməti işıqlandırdı.

Şair hz. Məhəmmədi (s.a.s) Aya bənzətməklə peyğəmbərlik anlayışına da işarə etmişdir. Belə ki, Ayın varlığı, hərəkəti ilahi bir hökmə bağlıdır. Ay, Allahın varlığının dəlillərindən biridir.

وَجَعَلْنَا فِي الْأَرْضِ رَوَاسِيَ أَن تَمِيدَ بِهِمْ وَجَعَلْنَا فِيهَا فِجَاجاً سُبُلاً لَعَلَّهُمْ يَهْتَدُونَ وَجَعَلْنَا السَّمَاء سَقْفاً مَّحْفُوظاً وَهُمْ عَنْ آيَاتِهَا مُعْرِضُونَ وَهُوَ الَّذِي خَلَقَ اللَّيْلَ وَالنَّهَارَ وَالشَّمْسَ وَالْقَمَرَ كُلٌّ فِي فَلَكٍ يَسْبَحُونَ

(əl-Ənbiya, 21/31-33)

«Yer onları silkələməsin (atıb-tutmasın) deyə, orada möhkəm (durmuş) dağlar yaratdıq. Onlar (istədikləri yerə) rahat gedib çata bilsinlər deyə, orada geniş yollar əmələ gətirdik. Göyü (yerdən ötrü və onun üstünə düşməsin deyə) qorunub saxlanılan bir tavan etdik. Halbuki (kafirlər) ayələrimizdən (vəhdaniyyətimizi, qüdrətimizi sübut edən bu dəlillərdən) üz döndərirlər. Gecəni və gündüzü də, Günəşi və Ayı da yaradan Odur. Onların (həmçinin ulduzların) hər biri (özünəməxsus) bir göydə üzür (öz həlqəsində, öz dairəsində hərəkət edir)».

Hz. Nizamiyə görə, Ay ilahi əmrə bağlı olduğu kimi, peyğəmbərlik anlayışı və hz. Məhəmmədin (s.a.s) seçimi də ilahi iradəyə bağlıdır.

Şair ərəb yolçularını, tacirləri təsvir edərkən də bu ticarət karvanlarının hərəkətini mənalandırmışdır. Belə ki, tacirlər karvanla qiymətli yük aparırlar. Əgər bu qaranlıq

gecədə Ay, işıq, bələdçi olmasa, onlar azar, yol kəsənlərlə üzləşər və bu qiymətli sərvətlərini itirərlər.

**Şairə görə, insan da bir yolçudur. O, yol gedir. Əgər bir bələdçi - yolu yaxşı tanıyan, yəni hz. Məhəmməd (s.a.s) olmasa, insan onu gerçək mənzilə çatdıracaq yolu tapa bilməz. Bu ömür yolunda insan üçün ən dəyərli nemət, yük imandır, Allahı (c.c) tanımaqdır, Allahın (c.c) rizasını qazanmaqdır. Əgər işıqlı ay – hz. Məhəmməd (s.a.s) olmasa, bu imana qovuşmaq, uca Allahı (c.c) tanımaq mümkün deyil. Ay olmasa, karvan azar, tacir ən qiymətli sərvətini itirər, hz. Məhəmməd (s.a.s) olmasa, insanlıq Allahın (c.c) müəyyən etdiyi yolu tapa bilməz. Karvan Aysız yol kəsənə qismət olduğu kimi, insanlıq da hz. Məhəmmədsiz (s.a.s) cəhalətin amansız pəncəsində həlak olar.**

Beytdə «yol», «yol gedən», «ay» obrazları bütöv bir sistem yaradaraq ideyanı gözəl ifadə etmişdir.

**Hz. Nizami gecə, zülmət, ay, işıq qarşılaşdırması ilə ehtiyac, zərurət anlayışı yaratmışdır. Yəni gecə, qaranlıq zülmət varsa, nura ehtiyac var. Əgər cəhalət, elmsizlik varsa, hz. Məhəmmədə (s.a.s) ehtiyac var. O, insanlıq üçün bir zəruri ehtiyacdır. İnsanlıq karvanı Onun mübarək əlindən tutmalı, Onun insanın bəsirət gözünü açan sözlərinə inanmalı və doğru yolla «rəhmət evi»nə getməlidir.**

Hz. Nizami ikinci beytdə hz. Məhəmmədi (s.a.s) «rəhmət evi»nin mərkəz nöqtəsi, dayağı adlandırmışdır. Şair üçüncü beytdə Peyğəmbəri aya bənzədərək Onu qurduğu evin işığı, nuru kimi təsvir etmişdir. Artıq bu «rəhmət evi» gözümüz önündə bir işıqlı saray kimi canlanır. Elə «rəhmət evi» həm də işıqlı, nurlu ev deməkdir.

Tarixi qaynaqlardan bəlli olur ki, hz. Məhəmməd (s.a.s) Məkkədən Mədinəyə hicrət edərkən mədinəlilər Onu böyük sevinclə qarşılamış «dolunay (on dörd gecəlik ay) üzərimizə doğdu» deyərək Onu salamlamışlar.[141]

Mədinəlilər xilaskar olduğu, onları qaranlıqdan işığa çıxaracağı üçün Peyğəmbəri Aya bənzədirdilər. Bununla birlikdə, ay obrazı ərəblərin düşüncəsində önəmli yer tuturdu, gözəllik, işıq, nur, yol göstərici, xilaskar obrazını canlandırırdı.

**Hz. Nizaminin təsvirində ay obrazı hz. Məhəmmədin (s.a.s) uca Allahı (c.c) insanlara tanıtmaq vəzifəsini də ehtiva edir.** Uca Allahı (c.c) insanlara tanıtmaq bütün peyğəmbərlərin vəzifəsidir. Çünki insan qaranlıqdan, cəhalətdən Allahı (c.c) tanıyaraq xilas ola bilər. Qurani-Kərimin nazil edilməsinin, peyğəmbərlər göndərilməsinin hikməti də budur:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

الٓر كِتَابٌ أَنزَلْنَاهُ إِلَيْكَ لِتُخْرِجَ النَّاسَ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِ رَبِّهِمْ إِلَى صِرَاطِ الْعَزِيزِ الْحَمِيدِ

(İbrahim, 14/1)

«Əlif, Lam, Ra! (Ey Rəsulum! Bu Quran) elə bir Kitabdır ki, onu sənə insanları onların öz Rəbbinin izni ilə zülmətlərdən nura (küfrdən imana) – yenilməz qüvvət sahibi, (hər cür) tərifə (şükrə) layiq olan Allahın yoluna (İslam dininə) çıxartmaq üçün nazil etmişik».

**Hz. Nizaminin təfsirində ay obrazı islamı, imanı, gecə isə qaranlığı, cəhaləti, küfrü, Allaha (c.c) şərik qoşmaq kimi böyük azğınlığı təmsil edir.**

[141] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 311.

Gecənin zülmət qaranlığında ay işığı yol gedən insanlara ümid, təskinlik, arxayınçılıq verdiyi, onları qorxudan, təhlükədən uzaqlaşdırdığı kimi, hz. Məhəmməd (s.a.s) də insanların əlindən tutur, onların qəlbində dinclik yaradır, onları qoruyur. Onun gətirdiyi dəyərlər bir ay işığı kimi insanların duyğu və düşüncələrinə axır, onları cəhalət kirindən təmizləyərək nura qərq edir. İslam dini bir nur, bir işıq olduğundan ay obrazı bu dinlə bağlı bütün anlayışları, o sıradan peyğəmbərlik anlayışını və hz. Məhəmmədi (s.a.s) təmsil edir.

**Hz. Nizaminin təfsirində ay obrazı doğru yolu göstərmək anlayışını da ifadə edir.** İnsanlıq Ona – hz. Məhəmmədə (s.a.s) baxıb hansı durumda, hansı yolda olduğunu müəyyən edə bilər.

**Şairin təqdimatında ay obrazı cəhalətdən qurtuluşu, şirkin, bütpərəstliyin əsarətindən azad olmağı da ifadə edir.**

Beytdə olan maraqlı məsələlərdən biri də budur ki, şair hz. Məhəmmədi (s.a.s) «ərəb yolçuları üçün Aysan» deyərək təqdim edir. Bizcə, bunun bir neçə səbəbi var. Hər şeydən öncə karvanla gecə ay işığında yol getmək, ticarət karvanı kimi anlayışlar ərəblərlə daha çox bağlıdır. İdeyanın söz tərkibini bizi islam dininin doğulduğu məkana bağlayan söz və anlayışlardan seçmək insanı o tarixə, o məkana, o iqlimə bağlayır. Hz. Nizaminin təqdimatında bu anlayışlar ərəblərin və insanlığın hz. Məhəmmədin (s.a.s) bir elçi olaraq göndərilməsindən, İslamın din olaraq seçilməsindən öncəki halını təsvir edir, yada salır. **Bu ifadələr oxucuda islamadək olan mərhələnin adının qaranlıq, zülmət gecə olduğu fikrini yaradır. Şair, əslində, iki tarixi – islamadək və ondan sonrakı iki anlayışı – küfr və imanı bir arada təqdim edir. Misradakı yol, karvan, ay, gecə anlayışları düşüncədə**

**hərəkət anlayışı yaradır. Yəni islamadək bir cəhalət var, insanlar bu əsarətdən qurtulmaq istəyir, ilahi buyruqla Ay doğdu (bu vaxtadək səfərə çıxmaq çox təhlükəlidir, çünki işıq – ay yoxdur, yollar quldurlarla doludur) və karvan bu ayın işığında – hz. Məhəmmədin (s.a.s) nurunda yola çıxdı.**

Şairin təfsirində «sən ərəb yolçuları üçün bir aysan» fikrinin bir yozumu da budur ki, islam Məkkədə doğuldu, hz. Məhəmməd (s.a.s) bu mübarək şəhərdə yaşayanlar içərisindən seçildi. Öncə bu ay – islam dini və hz. Məhəmməd (s.a.s) bu ərəb bölgəsini nurlandırdı, sonra bu parlaq ayın işığı bütün dünyaya yayıldı. Misradakı karvan anlayışı həm də bu mənanı ifadə edir. **Doğulan, yayılan, bütün dünyanı nura boyayan işıq, yəni hz. Məhəmməd (s.a.s) - Ay elə bir səma cismidir ki, o yer üzünün bütün bölgələrindən görünür, onun işığı hamı üçündür. Hz. Məhəmməd (s.a.s) elə bir Peyğəmbərdir ki, O, bütün insanlıq üçün göndərilmişdir, Onun nuru hamıya çatır.**

Bundan başqa, ay obrazı insanların düşüncəsində önəmli yer tutduğu kimi, bədii ədəbiyyatda da ən çox istifadə olunan obrazlardan biri idi. Bu obrazın adı çəkilən kimi insanın düşüncəsində işıq, gözəllik, əminlik, sevinc duyğusu yaranır. Axı, hamı işığı sevir. İnsanlara sevdiyi, tanıdığı, inandığı, onları sevincə qərq edən obrazlarla müraciət edəndə ideya daha tez və doğru başa düşülür və yadda qalır.

Məsələn, hz. Məhəmmədin (s.a.s) «Şübhəsiz, qardaşınız batil söz söyləməz»[142] deyərək şeirlərini öydüyü, Mutə döyüşündə şəhid olan cəsur səhabə Abdullah İbn Rəvaha hz. Məhəmmədə (s.a.s) belə müraciət edir: «Dan yeri ağarıb, günəş yüksəldiyi zaman necə xoşbəxtik ki, Rəsulullah Quran oxuyaraq aramızdadır. O, bizə dəlalətdən sonra

[142] «Sahihi-Buxari», c. IV, s. 127.

hidayət nuru göstərmişdir. Könüllərimiz Ona, Onun nübüvvət və risalətinə tərəddüdsüz inanmışdır. O Nəbiyyi – Əmin hər nə ki təbliğ etdi, şübhəsiz, doğrudur…». [143]

Hz. Məhəmməd (s.a.s) Məkkədən Mədinəyə hicrət edəndə mədinəlilərin oxuduğu bu şeir dağlara, səmaya səs salmışdı:

«Dolun ay (on dörd gecəlik ay) Veda dağının arxasından çıxıb bizə doğdu. Allaha yalvaran olduqca bizə də şükür etmək borcdur. Ey bizə göndərilən Peyğəmbər, sən itaət olunan əmrlə gəldin».[144]

## KİSRAYA YAZILAN MƏKTUB

Nizami beytin ikinci misrasında hz. Məhəmmədi (s.a.s) «Əcəm şahlarının şahı» adlandırmışdır. Şair «Əcəm şahı» deyərkən indiki iranlıların babalarını nəzərdə tutmuşdur. O dövrdə «əcəm» deyilərkən qeyri-ərəblər başa düşülürdü. Hz. Nizaminin islam Peyğəmbərini «əcəm şahlarının şahı», ya da beytin farsca orijinalında «əcəm şahlarına yol göstərən» (bizcə, ikinci tərcümə daha doğrudur, çünki şair birinci misrada hz. Peyğəmbərin «ərəb yolçularına», yəni ərəblərə doğru yol göstərməsindən danışır, ikinci misrada da deyir ki, Sən əcəm şahları üçün yol göstərənsən) adlandırır. Beytin ikinci misrasında olan əcəm şahlarına yol göstərmək fikrinin də tarixi qaynağı var.

Bilindiyi kimi, hz. Məhəmməd (s.a.s) Məkkə fəthindən sonra bir sıra dövlət başçılarına onları islama dəvət məktubu göndərdi. O zaman Ərəbistanla Kisranın başçısı olduğu imperatorluq arasında ciddi əlaqələr var idi. Kisranın başçısı olduğu imperatorluq Ərəbistanın quzey, şərq, cənub

---

[143] Emine Yeniterzi, göstərilən qaynaq, s. 8.
[144] Emine Yeniterzi, göstərilən qaynaq, s. 9.

bölgələrini işğal etmişdi, onlar öz imperatorluqları ilə öyünür, ən böyük, güclü, yenilməz dövlət və hakimiyyətin onlarda olduğunu bildirirdilər. Kisranın başçısı olduğu imperatorluğun rəsmi dini atəşpərəstlik, məcusilik idi. «Miladi 458 den 528 yılına kadar tahtta kalan imparator Kuba, Mazdekin ortaya attığı dini benimsedi ve bu yeni dine girmek istemeyenlere eziyet ve işkence tatbik etmeye koyuldu».[145]

Bu dinin özünəməxsus bir sıra prinsipləri var idi. Onlar oda (atəşə) sitayiş edirdilər. Onlara görə, qadın seksual baxımdan hamıya aid idi. Onların inanc sistemi, Allah anlayışları islamın tövhid (təkallahlılıq) anlayışına uyğun deyildi.

Hz. Məhəmməd (s.a.s) Bizan imperatoruna, Misirə, Həbəşistana və başqa ölkələrə islama dəvət məktubu göndərdiyi kimi, Kisraya da eyni məzmunlu məktub yazdırdı. **Məktubun tam mətni belədir:**

«Rəhman və Rəhim olan Allahın adıyla!

Allahın Rəsulu Məhəmməddən iranlıların böyük başçısı Kisraya:

Hidayət yoluna girib ona tabe olana, Allaha, Onun qulu Rəsuluna iman edənə, Allahdan başqa tanrı olmadığına, bir tək və şəriksiz olduğuna, Məhəmmədin onun Rəsulu və qulu – köləsi olduğuna şəhadət edib bunu qəbul edənə salam olsun! Buna görə mən səni tam bir İslam dəvəti ilə (İslama) çağırıram. Çünki mən kim olursa-olsun, can daşıyan (canı olan) hər kəsə bəlli bir təhlükəni xəbər verib onları oyandırmaq və inanmayanlar üzərində Allahın sözünü gerçəkləşdirmək üçün istisnasız bütün insanlara göndərilmiş bir Allah Rəsuluyam. O halda sən İslama gir, sonda təhlükəsizlik və salamat içində olarsan! Əgər bunu etməsən,

[145] Muhammed Hamidullah, «İslam Peyğəmbəri», İstanbul, 2003, II c. s. 354.

onda, şübhəsiz, məcusilərin günahı sənin üzərində qalacaq».[146]

Hz. Məhəmmədin (s.a.s) islama dəvət məktubunu Kisraya məkkəli Abdullah bin Huzafətis – Səhmi bir imperator valisi vasitəsilə çatdırmışdı.[147]

Qaynaqlar göstərir ki, imperator məktubun oxunması başa çatmadan onu oxuyanı susdurmuş, məktubun müraciət hissəsində olan sözlərin onun imperatorluq şanına uyğun olmadığını bildirmişdir. O, İslama dəvət məktubunu parça-parça etmişdir.[148]

Bu xəbər hz. Məhəmmədə (s.a.s) çatanda O: «Allah da onun hökmranlığını parça-parça etsin», - deyə buyurmuşdur.[149]

Qaynaqlar İslama dəvət məktubu göndərilərkən imperatorun otuz səkkiz il hökmranlıq etmiş Pərviz olduğunu göstərir.[150]

İmperator bu məktubdan sonra Yəməndəki valisinə Rəsulullahın dərhal imperatorluq sarayına gətirilməsini əmr etmişdi. Yəmən valisi də hz. Məhəmmədin (s.a.s) yanına məmurlar vasitəsilə məktub göndərdi. Peyğəmbər ertəsi gün onlara cavab verəcəyini bildirdi. O, səhəri gün Onun yanına gələnlərə imperatorun oğlu tərəfindən öldürüldüyünü dəqiq vaxtı ilə söylədi.[151]

İran imperatoruna İslama dəvət məktubunu göndərməsindən sonra hz. Məhəmməd (s.a.s) dörd il yaşadı, ancaq bu zaman ərzində islam İran imperatorluğunun himayə etdiyi və onun idarəçiliyində olan bir sıra bölgələrə yayıldı.

---

[146] Muhammed Hamidullah, «İslam Peyğəmbəri», İstanbul, 2003, c. II, s. 357.
[147] Muhammed Hamidullah, göstərilən qaynaq, c. II, s. 357.
[148] Muhammed Hamidullah, göstərilən qaynaq, c. II, s. 357
[149] Muhammed Hamidullah, göstərilən qaynaq, c. II, s. 357
[150] Muhammed Hamidullah, göstərilən qaynaq, c. II, s. 357
[151] Muhammed Hamidullah, göstərilən qaynaq, c. II, s. 358

Sonra isə İslam qan tökülmədən bütün imperatorluq ərazisinə yerləşdi.

Hz. Nizaminin misrasındakı «O əcəm şahları üçün yoldur, əcəm şahlarının şahənşahıdır» fikrinin tarixi qaynağı budur.

Biz bu misranın ideya yükünü beytin birinci misrasında ifadə olunmuş məna ilə birgə şərh etməliyik. Birinci misranın, bütövlükdə, beytin ideyası hz. Məhəmmədin (s.a.s) ilahi buyruğa uyğun olaraq doğru yolu, islam yolunu, insanları qaranlıqdan işığa çıxaran yolu göstərmək missiyası ilə bağlıdır.

Misrada olan «əcəm şahları» ifadəsi də təsadüfən seçilməyib. Belə ki, əcəmlilər o dövrdə öz şahlıq səltənətləri ilə çox öyünürdülər. Əcəmlilər arasında şahlıq, dövlət, imperatorluq, taxt-tac, hakimiyyət ənənəsi var idi. Ona görə də, şair «əcəm şahları» ifadəsini xüsusi olaraq seçmişdir. **Yəni güclü ənənəsi olan əcəm şahlarının belə doğru yol göstərəni hz. Məhəmməddir (s.a.s).**

**Misranın başqa bir məna yükü əcəmlilərin tövhid anlayışına zidd olan inancları ilə bağlıdır. Şair bildirir ki, əcəmlər yanlış bir inanc sistemi içində yaşayırdılar, hz. Məhəmməd (s.a.s) onlara doğru yolu göstərdi.**

**Misranın başqa bir mənası islamın yayılması, imanın küfrün yerini tutması, hz. Məhəmmədin (s.a.s) liderliyi ilə əski səltənətlərin yıxılması fikri ilə bağlıdır.**

Hz. Nizami bu beytdə hz. Məhəmmədin (s.a.s) insanlığa doğru yolu göstərdiyini iki obrazla ifadə etmişdir. Bu obrazlardan biri işığı, nuru təmsil edən aydır. İkinci obraz isə insanlarda ümid yaradan, xilas, qurtuluş rəmzi olan yoldur. Şairə görə, hz. Məhəmməd (s.a.s) «rəhmət evi»nin qurucusu, işığı və yoludur.

# DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ: ONLAR YOLU SƏNƏ GÖRƏ TAPIRLAR

ره به تو یابند و تـــو ره ده نـــه ای
مـهتـر ده خـود تـو و در ده نـــه ای

***Sən onlara yol vermirsən, (ancaq) onlar yolu sənə görə tapırlar,***

***Sən kətxudasan, ancaq kənddə deyilsən.***[152]

Hz. Nizami bu beytdə uca Allah (c.c) Peyğəmbər, uca Allah (c.c) insan münasibətlərinə, doğru yol anlayışına, insanların doğru yolu tapmasında peyğəmbərlərin yeri kimi məsələlərə şərh vermişdir. Şair bu məsələləri bədii biçim-də təqdim etmişdir.

Biz bu məsələləri bir-bir şərh etməyə çalışaq.

## BEYTİN QURAN QAYNAĞI

Hz. Nizaminin beytdə şərh etdiyi məsələlərin ciddi qaynaqları var. Öncə onu deməliyik ki, hz. Nizami hər şeyin Allahdan (c.c) olduğuna, uca Allahın (c.c) istədiyini doğru yola yönəltdiyinə, istədiyini azdırdığına inanan şairdir. Şairin beytdə ifadə etdiyi fikrin Quranda olan qaynaqlarından biri Məkkədə nazil olmuş Qəsəs surəsinin əlli altıncı ayəsidir:

إِنَّكَ لَا تَهْدِي مَنْ أَحْبَبْتَ وَلَكِنَّ اللَّهَ يَهْدِي مَن يَشَاءُ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ

(əl-Qəsəs, 28/56)

«(Ey Rəsulum!) şübhəsiz, sən istədiyini doğru yola yönəldə bilməzsən. Ancaq Allah dilədiyini doğru yola salar. Doğru yolda olacaq kəsləri (öz əzəli elmi ilə) daha yaxşı O bilir! (Buna görə də onları haqq yola müvəffəq edir!)».

---

[152] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 34.

Təfsirçilərə görə, bu ayənin enmə (nüzul) səbəbi belədir. Hz. Peyğəmbər (s.a.s) ölmək üzərə olan əmisi Əbu Talibə islam dinini təlqin etmiş, ancaq Əbu Talib bu təklifi qəbul etməmişdir. O, «Əbdülmüttəllibin dininə», «atalarının dininə» bağlı olduğunu ifadə edərək hz. Məhəmmədin (s.a.s) təklifindən imtina etmişdir. Peyğəmbər də bundan çox üzülmüşdür.[153]

Ancaq alimlər bu ayənin mənasını konkret bir zamana, səbəbə və məkana bağlamağın doğru olmadığını da bildirmişlər.[154] «…Allah Teala peygamber ve kitab gönderdikten sonra tercihini israrla inkar yönünde kullananları zorla doğru yola iletmez. Bilakis, onları kendi irade ve tercihleriyle başbaşa bırakır, gerçeyi araştırıp tercihini o yönde kullanmaya çalışanlara yardım ederek onları doğru yola iletir…».[155]

Bu anlayışın doğru olduğunun, ayənin mənasının hər kəsi əhatə etdiyinin dəlili odur ki, bu mövqe başqa ayələrdə də ifadə edilmişdir:

خَتَمَ اللّهُ عَلَى قُلوبِهمْ وَعَلَى سَمْعِهِمْ وَعَلَى أَبْصَارِهِمْ غِشَاوَةٌ وَلَهُمْ عَذَابٌ عظِيمٌ

(əl-Bəqərə, 2/7)

«Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə var. Onları böyük əzab gözləyir!».

إِنَّ اللَّهَ لاَ يَسْتَحْيِي أَن يَضْرِبَ مَثَلاً مَّا بَعُوضَةً فَمَا فَوْقَهَا فَأَمَّا الَّذِينَ آمَنُواْ فَيَعْلَمُونَ أَنَّهُ الْحَقُّ مِن رَّبِّهِمْ وَأَمَّا الَّذِينَ كَفَرُواْ فَيَقُولُونَ مَاذَا أَرَادَ اللَّهُ بِهَذَا مَثَلاً يُضِلُّ بِهِ كَثِيراً وَيَهْدِي بِهِ كَثِيراً وَمَا يُضِلُّ بِهِ إِلاَّ الْفَاسِقِينَ

(əl-Bəqərə, 2/26)

---

[153] Muhammed Esed, «Kuran mesajı», (meal-tefsir), Ankara, 2002, s. 794.

[154] «Kuran Yolu» (türkçe meal ve tefsir) (hazırlayanlar, Hayrettin Karaman, Mustafa Çağrıcı, İbrahim Kafi Dönmez, Sadrettin Gümüş), Ankara, 2004, c. IV, s. 227.

[155] «Kuran Yolu», göstərilən qaynaq, s. 227.

«Əlbəttə, Allah (Quranda) ağcaqanadı, ya da ondan daha böyüyünü misal gətirməkdən çəkinməz. İman gətirənlər bunun öz Rəbbi tərəfindən bir həqiqət olduğunu bilirlər. Kafirlər isə: «Allah bu məsəllə nə demək istəyir?» - deyirlər. Allah bununla (bu məsəllə) bir çoxlarını zəlalətə salır, bir çoxlarını isə doğru yola yönəldir. Allah yalnız fasiqləri zəlalətə düçar edir».

الَّذِينَ يَنقُضُونَ عَهْدَ اللَّهِ مِن بَعْدِ مِيثَاقِهِ وَيَقْطَعُونَ مَا أَمَرَ اللَّهُ بِهِ أَن يُوصَلَ وَيُفْسِدُونَ فِي الأَرْضِ أُولَـئِكَ هُمُ الْخَاسِرُونَ

(əl-Bəqərə, 2/27)

«O kəslər ki, Allahla (Ona iman gətirmək və itaət etmək barəsində) əhd bağladıqdan sonra onu pozur, Allahın birləşdirilməsini buyurduğu şeyləri parçalayır (möminlərlə dostluğu, qohum-əqraba ilə əlaqələri kəsir) və yer üzündə fitnə-fəsad törədirlər. Məhz belələri (dünya və axirətdə) ziyana uğrayanlardır!».

وَمَا مُحَمَّدٌ إِلاَّ رَسُولٌ قَدْ خَلَتْ مِن قَبْلِهِ الرُّسُلُ أَفَإِن مَّاتَ أَوْ قُتِلَ انقَلَبْتُمْ عَلَى أَعْقَابِكُمْ وَمَن يَنقَلِبْ عَلَىَ عَقِبَيْهِ فَلَن يَضُرَّ اللّهَ شَيْئاً وَسَيَجْزِي اللّهُ الشَّاكِرِينَ

(Ali-İmran, 3/144)

«Məhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişlər. Əgər o, ölsə, ya da öldürülsə, siz gerimi dönəcəksiniz?».

وَمَا أَصَابَكُمْ يَوْمَ الْتَقَى الْجَمْعَانِ فَبِإِذْنِ اللّهِ وَلِيَعْلَمَ الْمُؤْمِنِينَ

(Ali-İmran, 3/166)

«(Uhud müharibəsində) iki ordunun qarşılaşdığı gündə başınıza gələn fəlakət də Allahın izni ilə oldu ki, möminləri ayırd etsin».

وَلَوْ شَاءَ اللَّهُ لَجَعَلَكُمْ أُمَّةً وَاحِدَةً وَلَكِن يُضِلُّ مَن يَشَاءُ وَيَهْدِي مَن يَشَاءُ وَلَتُسْأَلُنَّ عَمَّا كُنتُمْ تَعْمَلُونَ

(ən-Nəhl, 16/93)

«Əgər Allah istəsəydi, sizi (eyni dində olan) tək bir ümmət edərdi. (Allah) dilədiyini zəlalətə salar, dilədiyini isə doğru yola yönəldər. Sözsüz, etdiyiniz əməllərə görə sorğu-sual olunacaqsınız!».

## NİZAMİYƏ GÖRƏ DOĞRU YOL

Hz. Nizaminin anlayışına görə, insanı doğru yola yönəldən uca Allahdır (c.c). Şair bir misrada «yol» sözündən istifadə edərək islam dininin, peyğəmbərlik anlayışının və hz. Məhəmmədin (s.a.s) missiyasının mahiyyətini açıqlamışdır. **Yəni öncə uca Allah (c.c) bir insanın doğru yolda olmasına qərar verir, ilahi buyruqdan sonra insana (topluma) doğru yolun ölçülərini öyrədən kitab göndərir və insanlara bu kitabı öyrədən müəllim-peyğəmbər seçir.**

İslam dininə görə, doğru yol nemət, yəni ağıl, iman, iradə, elm verilmiş kimsələrin yoludur. Doğru yol bir ilahi lütfdür. «…Hemen –hemen bütün müfessirlere göre Allahın «qazab»ı (lafzı karşılığı «öfke»), insanın, Allahın rehberliyini bilerek redd etmek ve emirlerine aykırı davranmak suretiyle başına açtığı belalar ve felaketler ile eş anlamlıdır. Bazı müfessirler (mesela Zemahşeri), «nimet bahş ettiklerinin yoluna …» mesajını şöyle anlatmışlardır: «(Senin) qazabına uğramamış ve sapıklığa düşmemiş olanların (yoluna)». Diger bazı müfessirler de (mesela Beğari ve İbni Kesir) bu yorumu kı olumsuz tanımlamalar ehtiva etmekdedir – uyğun görmezler ve surenin (Fatihə surəsinin – S.H) son ayetini benim yukarıda çevirdiyim şekilde anlarlar.

(Yəni: «…Nemət bəxş etdiklərinin yoluna, qəzəbinə düçar olmuşların və azmışların yoluna deyil») Doğru yoldan sapan iki toplum ve insan kateqorisi konusunda ise bazi büyük İslam düşünürleri (mesela, Qazali, yahut sonrakı dönemlerde Muhammed Abduh) şu görüşü benimsemişlerdir: Allahın qazabına uğrayanlar kı kendilerini Onun rahmetinden yoksun bırakanlar demektir – olarak tanımlanan insanlar Allahın mesajından tam haberdar olan, onu anlayan, ama kabul etmeyenlerdir. «Sapkınlar» ise ya hakikatın hiç ulaşmadığı, ya da onu hakikat olarak kabul etmelerini gücleştirecek kadar deyişmiş ve bozulmuş olarak ulaştığı insanlardır…».[156]

Doğru yol anlayışı Qurani-Kərimdə ayrıca yer tutur. Biz bu anlayışı «Allahın qoyduğu yol», «İslam yolu», «həqiqət yolu», «Allahın rizasını qazandıracaq yol», «inananların yolu», «peyğəmbərlərin getdiyi yol», «cənnətə gedən yol» və başqa deyimlərlə də şərh edə bilərik.

فَإِنْ آمَنُواْ بِمِثْلِ مَا آمَنتُم بِهِ فَقَدِ اهْتَدَواْ وَّإِن تَوَلَّوْاْ فَإِنَّمَا هُمْ فِي شِقَاقٍ فَسَيَكْفِيكَهُمُ اللّهُ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ

(əl-Bəqərə, 2/137)

«(Ey möminlər!) Əgər onlar da siz inandığınız kimi (Allaha) inanırlarsa, şübhəsiz, doğru yolu taparlar. Yox, əgər (imandan) üz döndərərlərsə, (sizə qarşı) ədavət bəsləmiş olarlar. (Ey Rəsulum! Belə olduqda sən onların düşmənçiliyindən qorxma!) Allah sənə (tezliklə sənin intiqamını) onlardan (almağa) kifayət edər. O, (hər şeyi) eşidəndir, biləndir».

**Qurani-Kərimə görə, doğru yoldan azanlar, Allahın qəzəbinə düçar olanlar, Onu inkar edənlər ilahi nemətə**

[156] Muhammed Esed, göstərilən qaynaq, s. 2.

**qovuşmaq imkanlarını itirmişlər.** Çünki onların qəlbləri, qulaqları möhürlənmiş, gözlərinə pərdə çəkilmişdir.

خَتَمَ اللّهُ عَلَى قُلوبِهمْ وَعَلَى سَمْعِهِمْ وَعَلَى أَبْصَارِهِمْ غِشَاوَةٌ وَلَهُمْ عَذَابٌ عظِيمٌ

(əl-Bəqərə, 2/7)

«Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir».

İnsan Allahı tanımır, Peyğəmbəri inkar edir, ilahi kitaba inanmır və nəticədə batil inancların girdabına yuvarlanır. O, həqiqəti görə bilmir, doğru sözü eşitmək istəmir, «gözləri pərdələnir», yəni insanın yaradılış fitrəti pozulur və o, doğru olanı qavramaq, görmək, seçmək imkanını itirir. Nəticədə, o insan doğru yolu itirir və ilahi qəzəblə üzləşir.

Hz. Məhəmmədin (s.a.s) hədislərinə görə, «Doğru olanı bilən və doğru hökm verən cənnətdədir»,[157] «Doğru söyləyənlər «siddiq» adlanır»,[158] «Doğru söz xeyirə yönəldir»,[159] «Doğru sözlü olanlar bağışlanacaqdır»,[160] «Doğru yola çağırmaq savabdır»,[161] «Doğru yola dəvət edən kimsəyə ona inananların savabı qədər savab verilir. Bu onların savablarından da heç bir şey azaltmaz».[162]

**Hz. Məhəmmədin (s.a.s) hədislərində «doğru yol» istiqamət, uca Allahın (c.c) buyruqlarını yerinə yetirmək, yaraqlarından çəkinmək anlamını da daşıyır.** Bu anlayış da Quranın əmrlərinə, bu kitabda verilən ölçülərə tam uyğundur. Uca Quran buyurur:

---

[157] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VII, s. 541.
[158] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 281; c. VI, 197.
[159] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 497.
[160] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 220.
[161] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 31.
[162] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 169.

فَاسْتَقِمْ كَمَا أُمِرْتَ وَمَن تَابَ مَعَكَ وَلاَ تَطْغَوْاْ إِنَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

(Hud, 11/112)

«(Ey Rəsulum!) Sənə əmr edildiyi kimi, düz (yolda) ol. Səninlə birlikdə iman gətirənlər (tövbə edib ardınca gedənlər) də düz (yolda) olsunlar. (Allahın əmrlərini pozub) həddi aşmayın. Çünki O sizin nə etdiklərinizi görəndir!».

إِنَّ الَّذِينَ قَالُوا رَبُّنَا اللَّهُ ثُمَّ اسْتَقَامُوا تَتَنَزَّلُ عَلَيْهِمُ الْمَلَائِكَةُ أَلَّا تَخَافُوا وَلَا تَحْزَنُوا وَأَبْشِرُوا بِالْجَنَّةِ الَّتِي كُنتُمْ تُوعَدُونَ

(Fussilət, 41/30)

«Şübhəsiz, «Rəbbimiz Allahdır!» - deyən, sonra da (sözündə) düz olan kəslərə (ölüm ayağında) mələklər nazil olub (belə deyəcəklər): «Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan cənnətlə sevinin».

أَلا إِنَّ أَوْلِيَاء اللّهِ لاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ

(Yunus, 10/62)

«Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər».

**Hz. Nizami deyir ki, onlar (insanlar) doğru yolu sənə görə, sənin ölçülərinlə tapırlar, Sən bir ölçüsən.** Şair birinci nətində də hz. Məhəmmədi (s.a.s) eyni mənanı ifadə edən «qütb» sözündən istifadə edərək tanıtmışdır. Yəni insanlar bu qütbə – hz. Məhəmmədə (s.a.s) baxaraq, inanaraq doğru yolu tapırlar.

Hz. Nizami bu beytdə doğru yolu tapmağın düsturunu, ölçülərini vermişdir. Şairin anlayışına görə, doğru tapmağın bir şərti hz. Məhəmmədə (s.a.s) inanmaq, ona itaət etməkdir. Çünki doğru yolun ölçülərini, şərtlərini uca Allahın (c.c) buyruğu ilə hz. Məhəmməd (s.a.s) müəyyən etmişdir.

**Hz. Məhəmmədin (s.a.s) ölçüləri belədir:**

«Allaha inandım de, sonra da doğru ol!».[163]

Əbu Hüreyrə (r.a) rəvayət edir: «Rəsulullah (s.a.s) belə buyurdu: «İşlərinizdə orta yolu tutun, doğru olun. Bilin ki, heç biriniz əməli sayəsində qurtula bilməz. Dedilər:

- Sən də qurtulmazsan, ey Allahın elçisi?

- Bəli, mən də qurtula bilmərəm. Ancaq Allah rəhmət və kərəmi ilə məni bağışlamış olsa, o başqa!».[164]

«İnsanları doğru yola çağıran kimsəyə ona uyanların savabı kimi savab verilir. Ona tabe olanların savablarından da heç bir şey əksilməz. Başqalarını azğınlığa çağıran şəxsə də ona tabe olanların günahı kimi günah verilir. Ona tabe olanların günahlarından da heç biri əksilməz».[165]

Hz. Məhəmmədin (s.a.s) bu mübarək hədislərində doğru yolun ölçüləri ilə bağlı bir neçə prinsip irəli sürülmüşdür. Peyğəmbər ölçüsünə görə, əgər doğru yolda olmaq istəyirsənsə, öncə tövhid inancına sahib olmalısan, bütün varlığınla Allahın (c.c) birliyinə inanmalısan. Bundan sonra hər zaman bu inancına uyğun olaraq istiqamətdən (doğru yoldan) ayrılmamalısan. Bu ölçüyə görə, doğru yol, istiqamət bu dünya və axirət xoşbəxtliyidir. Bu ölçülərə görə, istiqamət, doğru yol imanın göstəricisidir.

İnsanın doğru yolu tapması, ya da doğru yoldan azması ilə bağlı hz. Nizaminin görüşləri Quranın məntiqinə uyğundur. Yəni insanın azıb doğru yoldan çıxması bir «qədər», «alın yazısı»nın nəticəsi deyil, insanın öz əməlinin nəticələridir. Şair deyir ki, onlar (insanlar) yolu (doğru yolu) Sənə görə tapırlar. Deməli, bir insan haqq Peyğəmbərinə

---

[163] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s.366.
[164] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 369.
[165] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 31.

inansa, onun gətirdiklərinə iman etsə, doğru yolu tapar və azmaz. Bu fikri bir az da şərh etmək üçün böyük islam alimi Zəməxşərinin məsələ ilə bağlı fikrinə baxaq. Zəməxşəriyə görə, insanın əlində sərbəst seçim imkanı var. «Allah tutum və davranışlarının gedişi etibarı ilə əsla imana qovuşmayacağını bildiyi insanlardan başqa, heç kimi azdırmaz, azğınlıq içində saxlamaz. Allah imana olan meylini bildiyi insanlardan başqa kimsəni doğru yola yönəltməz, doğru yolu ona göstərməz. Buna görə də, yuxarıda ayədə (İbrahim 14/4) Allaha aid edilən «azdırmaq», «azğınlıq içində saxlamaq» ifadəsi Allahın azmağa meyl göstərən insanı rəhmət və hidayətindən məhrum edərək özbaşına buraxması anlamına, doğru yola yönəltmək (hidayət) ifadəsi isə bunu qazanan, haqq edən insana uğur və dəstək verməsi anlamına gəlir. Bu baxımdan «Allah üzü üstə qalmağı haqq edənlərdən (layiq olanlardan) başqa kimsəyə yardım və dəstək verməz. …Allah bilərəkdən haqqı inkar yolunu seçib bu inkarçılığında inad göstərəcəyini bildiyi kimsəni üzüstü buraxar və … imanı seçəcəyini bildiyi kimsəyə də (bu yolda) yardım və dəstək bəxş edər. Bu durum sonucun (insanın) sərbəst seçiminə (ixtiyar), yəni (Allahın) dəstək və yardımını, yoxsa özbaşına buraxılıb, yardımından uzaq tutmasını haqq etməsinə bağlı olduğunu göstərməkdə, insanın ləyaqətini nəzərə almayan, onu heçə sayan cəbri şərhləri (yəni insandan heç nəyin asılı olmadığını irəli sürənlərin izahlarını) əsilsiz olduğunu bildirməkdədir».[166]

**Hz. Nizami insanın doğru yolu seçməsinin Allahdan (c.c) olduğuna inanır, doğru yolu seçməkdə insan iradəsinin payı olduğunu düşünür və beytdə «sən onlara**

---

[166] Muhammed Esed, göstərilən qaynaq, s. 499-500.

**yol vermirsən» deyərək bu iki əsasa işarə edir. Bununla birgə, hz. Nizami peyğəmbərlik institutunun və hz. Məhəmmədin (s.a.s) insanların doğru yolu tapmasındakı əvəzedilməz rolunu da göstərir.** Şair bu fikri misradakı «ancaq onlar yolu sənə görə tapırlar» deyərək ifadə etmişdir. Deməli, bir misrada həm doğru yol anlayışı, həm insanın doğru yolu tapmasında Allahın (c.c) iradəsinin yeri, həm doğru yolu seçməkdə insanın seçim haqqının olduğu, həm də insanların doğru yolu tapmasında hz. Məhəmmədin (s.a.s) əvəzedilməz iştirakı şərh olunmuşdur.

Şair beytin ikinci misrasında bu fikir və ideyalarını inkişaf etdirərək insanlığın doğru yolu tapmasında hz. Məhəmmədin (s.a.s) iştirakını daha obrazlı şəkildə ifadə etmişdir. Bunun üçün şair «kənd» və «kətxuda» anlayışından istifadə etmişdir. Hz. Nizami misrada «kənd» deyərkən bir məkan, insanların yaşadığı yer, daha geniş anlamda yer üzünü nəzərdə tutmuşdur. Bu «kənddə» - yer üzündə yaşayan insanların bir başçısı – «kətxudası» var. O şəxs də hz. Məhəmməddir (s.a.s). Şairin təqdimatında kənd sakinlərinin – yer üzündə yaşayan insanların doğru yolu tapması fikri çox geniş anlayışdır. Yəni buradakı «doğru yol» anlayışı sosial, iqtisadi, mənəvi-əxlaqi, dini məzmunu ifadə edir. Yəni bu kəndin – yer üzünün sakinlərinin sosial rifahı, islami anlayışlar üzərində qurulmuş əxlaqi dəyərlər içərisində yaşaması, dini anlamda Allahın (c.c) birliyinə inanması doğru yol deməkdir. Hansı toplum bu görüşə inanırsa, o doğru yolu tapmışdır. Uca Allahın (c.c) «kəndə» - yer üzünə «kətxuda» - peyğəmbər göndərməsinin hikməti də budur.

**Misradakı «sən kətxudasan, ancaq kənddə deyilsən» fikrinin mənası odur ki, sənin vəzifən doğru yolu**

**göstərməkdir. O doğru yol ki, ölçüləri uca Allah (c.c) tərəfindən müəyyən edilmişdir. Ancaq Sən bu kənddə yaşayanların əvəzinə iş görən deyilsən. Hər kəs Sənin dilindən doğru yolun ölçülərini eşitdi, indi seçim onlarındır.** Kəndin – yer üzünün kətxudaya – Peyğəmbərə ehtiyacı var. Belə olmasa idi, elçi göndərilməzdi. Ancaq peyğəmbərin vəzifəsi təbliğdir, bu təbliğdən irəli gələn məsələni isə insanlar həll etməlidirlər. Bunun əksini düşünsək, «kətxuda»nın kənddə olduğunu təsəvvür etsək, yanlış bir düşüncə içinə girmiş olarıq, hər şeyi bizim əvəzimizə «kətxudanın» - peyğəmbərin edəcəyinə inanarıq. **Bu düşüncə bir yandan bütpərəstliyin qapısını açar, başqa yöndən isə Allah (c.c) qarşısında fərdi məsuliyyəti olmayan xəstə bir cəmiyyət yaradar. Bizcə, doğru yoldan azmaq da elə budur.**

Elə bu anlayışa görə, hz. Məhəmməd (s.a.s) çox sevdiyi qızı Fatiməyə atasının Peyğəmbər olduğuna arxayın olmamağı, Allahın (c.c) buyruğu ilə üzərinə düşənləri yerinə yetirməyi, qiyamət günü uca Allah (c.c) qarşısında fərdi hesabını verəcəyini bildirmişdir. Hz. Məhəmməd (s.a.s) ondan xidmətçi istəyən qızına belə buyurmuşdur:

«Ey Fatimə! Allahdan qorx! Allahın fərzlərini yerinə yetir! Ailənin işlərini gör! Yatağına girəndə otuz üç dəfə «sübhanallah», otuz üç dəfə «əlhəmdülillah», otuz dörd dəfə «Allahu Əkbər» de! Beləcə, hamısı yüz edər. Bu sənin üçün xidmətçidən daha xeyirlidir».[167]

Hz. Nizami bu misrada uca Allahın (c.c) insanların doğru yola yönəlməsində Peyğəmbərə verdiyi səlahiyyətin ölçülərinə də işarə etmişdir. Peyğəmbərləri uca Allah (c.c)

---

[167] Osman Nuri Topbaş, «Həzrət Məhəmməd Mustafa», Erkan yayınları, İstanbul, 2005, c. II, s. 184.

seçir, onlar Allahın (c.c) təlimatı ilə hərəkət edirlər. Onlara uğur qazandıran uca Allahdır (c.c), ancaq Peyğəmbərlərin səlahiyyəti ölçüsüz deyil. Onları hər şeyə qadir olan insan kimi təqdim etmək, «kəndin» bütün məsələlərini həll edən «kətxuda» olduğunu irəli sürmək yanlışdır. Ona görə də, hz. Nizami deyir ki, Sən kətxudasan, ancaq kənddə deyilsən.

Uca Allah (c.c) Qurani-Kərimdə buyurur:

فَلَمْ تَقْتُلُوهُمْ وَلَـكِنَّ اللّهَ قَتَلَهُمْ وَمَا رَمَيْتَ إِذْ رَمَيْتَ وَلَـكِنَّ اللّهَ رَمَى وَلِيُبْلِيَ الْمُؤْمِنِينَ مِنْهُ بَلاء حَسَناً إِنَّ اللّهَ سَمِيعٌ عَلِيمٌ

(əl-Ənfal, 8/17)

«(Ey möminlər! Bədirdə) onları (kafirləri) siz öldürmədiniz, Allah öldürdü. (Ey Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri (qənimət əldə etmək və zəfər çalmaq üçün) yaxşı bir imtahandan keçirtdi. Allah (hər şeyi) eşidəndir, biləndir!».

Biz, hz. Nizaminin üçüncü nətinin dördüncü beytindən çıxan nəticələri belə ümumiləşdirə bilərik:

**Hz. Nizamiyə görə, «doğru yol» uca Allahın (c.c) rəhməti və nemətidir.** O, bu neməti Onu sevənlərə verir. Hz. Məhəmməd (s.a.s) də insanları bu qurtuluş yoluna yönəldən nemətdir. Onun əlindən tutmaqla bu rəhmət qapısını açmaq, «rəhmət evi»nə daxil olmaq olar.

**Hz. Nizamiyə görə, «doğru yol»da getmək ağıl, iradə, iman və elmlə mümkündür. Doğru yol uca Allahın (c.c) «rəhmət evi»nə aparan yoldur.**

**Hz. Nizamiyə görə, hz. Məhəmmədin (s.a.s) vəzifəsi insanları xəbərdar etməkdir. O, «doğru yolu» hamıdan daha yaxşı tanıyır və bu yolla gedənlərin başçısıdır.**

Hz. Nizamiyə görə, «doğru yola» yönəldən Allahdır (c.c), ancaq insanın da seçim imkanı var.

Hz. Nizamiyə görə, doğru yolun başçısı olan hz. Məhəmmədin (s.a.s) vəzifəsi dinin hökmlərini açıqlamaqdır, dini təhrifdən qorumaqdır, təhrifləri düzəltmək və həqiqəti insanlara öyrətməkdir.

## BEŞİNCİ BEYTİN ŞƏRHİ: SƏNİN KİMİ MƏRHƏMƏTLİLƏR AZUQƏNİ TƏK YEMƏZLƏR

چون تـو کریمان کــه تماشـــا کنند
رَستــی تنــها نــه بـه تنــها کنند

*Sənin kimi mərhəmətlilər tamaşaya gedərkən,*
***Bir nəfərin azuqəsini təklikdə yeməzlər.***[168]

Birinci beytdə hz. Məhəmmədi (s.a.s) «pak canı və pak ruhu olan», ikinci beytdə «rəhmət evinin mərkəzi», üçüncü beytdə «yol göstərən, şahların şahı», dördüncü beytdə «qütb, kətxuda» adlandıran hz. Nizami beşinci beytdə İslam Peyğəmbərinin «mərhəmətli» olduğunu önə çəkir. Şair bununla da beytlər arasında qırılmaz məna əlaqəsi qurmuş olur. **Belə ki, mərhəmətlilər təmiz olurlar, təmiz olanlar uca Allaha (c.c) təslim olurlar, uca Allaha (c.c) təslim olanlar «rəhmət evi» tikirlər, «rəhmət evi» tikənlər insanlara doğru yol göstərirlər.**

Hz. Nizami bu beytdə Peyğəmbərin mərhəmətini şərh etmək üçün islam və insanlıq tarixinin ən önəmli hadisələrindən biri olan meraca üz tutmuşdur. Biz hz. Nizaminin merac hadisəsi ilə bağlı görüşünü birinci kitabda şərh etdiyimizdən onun mahiyyətinə toxunmayacağıq.[169] Sadəcə, beytin mənasının doğru anlaşılması üçün merac hadisəsinin bir sıra məqamlarına toxunacağıq.

Bilindiyi kimi, Qurani-Kərimdə Merac hadisəsinə ayrıca yer verilmişdir:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ
سُبْحَانَ الَّذِي أَسْرَى بِعَبْدِهِ لَيْلاً مِّنَ الْمَسْجِدِ الْحَرَامِ إِلَى الْمَسْجِدِ الأَقْصَى الَّذِي بَارَكْنَا حَوْلَهُ لِنُرِيَهُ مِنْ آيَاتِنَا إِنَّهُ هُوَ السَّمِيعُ البَصِيرُ

(əl-İsra, 17/1)

---

[168] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 34.
[169] Siracəddin Hacı, göstərilən qaynaq, s. 450.

«Bəzi ayələrimizi (qüdrətimizə dəlalət edən qəribəlikləri və əcaiblikləri) göstərmək üçün bəndəsini (Peyğəmbər əleyhissəlamı) bir gecə (Məkkədəki) Məscidül-Həramdan ətrafını mübarək etdiyimiz (bərəkət verdiyimiz) Məscidül-Əqsaya (Beytül – müqəddəsə) aparan Allah pakdır, müqəddəsdir. O, doğrudan da, (hər şeyi) eşidəndir, görəndir!».

Hz. Məhəmməd (s.a.s) merac gecəsi Allahın (c.c) hüzuruna aparıldıqdan sonra:

فَكَانَ قَابَ قَوْسَيْنِ أَوْ أَدْنَى

(ən-Nəcm, 53/9)

«(Onların arasından məsafə) iki yay uzunluğunda, bəlkə ondan da yaxın oldu».

Sonra:

فَأَوْحَى إِلَى عَبْدِهِ مَا أَوْحَى

(ən-Nəcm, 53/10)

«Sonra (Cəbrail Allahın) Öz bəndəsinə (Məhəmmədə) vəhy buyurduğunu vəhy etdi».

Burada nəyin vəhy olunduğu belə şərh olunmuşdur. Uca Allah (c.c) insanlara gündə beş vaxt namaz qılmağı fərz etmişdir. **Merac gecəsi uca Allahın (c.c) insanlara verdiyi nemətin biri budur. Hz. Nizami bu neməti beytdə «azuqə» adlandırmışdır.**

Daha sonra uca Allah (c.c) hz. Məhəmmədə (s.a.s) belə buyurmuşdur:

«Peyğəmbərlərin heç biri səndən əvvəl, ümmətlərdən heç biri də Sənin ümmətindən öncə cənnətə girməyəcək».[170]

**Hz. Nizaminin «azuqə» adlandırdığı nemətin biri də bu müjdədir.**

---

[170] Müslim, «İman», s. 279.

Sonra uca Allah (c.c) hz. Məhəmmədə «Bəqərə» surəsinin son iki ayəsini və onun ümmətindən Allaha (c.c) şərik qoşmayanların böyük günahlarının bağışlanacağı müjdəsini vermişdir. **Hz. Nizaminin «azuqə» adlandırdığı bir nemət də bu müjdədir.**

Şair hz. Məhəmmədin (s.a.s) merac gecəsi gördüklərini «tamaşa etmək» ifadəsi ilə təsvir etmişdir. Peyğəmbərin gördüklərini uca Quran belə təsvir edir:

وَلَقَدْ رَآهُ نَزْلَةً أُخْرَى عِندَ سِدْرَةِ الْمُنْتَهَى عِندَهَا جَنَّةُ الْمَأْوَى إِذْ يَغْشَى
السِّدْرَةَ مَا يَغْشَى مَا زَاغَ الْبَصَرُ وَمَا طَغَى لَقَدْ رَأَى مِنْ آيَاتِ رَبِّهِ
الْكُبْرَى

(ən-Nəcm, 53/13-18)

«And olsun ki, (Məhəmməd əleyhissəlam Cəbraili öz həqiqi surətində) başqa bir dəfə də (merac vaxtı) görmüşdü. (Yeddinci göydəki) Sidrətül-müntəhanın yanında (Mələklər, şəhidlər və müttəqilər məskəni olan) Məva cənnəti onun yanındadır. O zaman Sidrəni nələr bürümüşdü, nələr! Göz nə (sağa-sola) yayındı, nə də uzağa getdi (hər şeyi olduğu kimi gördü). And olsun ki, (Peyğəmbər) öz Rəbbinin ən böyük qüdrət nişanələrindən (möcüzələrindən) bir qismini (Beytülməmuru, Sidrətül-müntəhanı, Cənnəti, Cəhənnəmi, rəfrəfi, altı yüz qanadı olan Cəbrailin həqiqi surətini) gördü».

Hz. Məhəmmədin (s.a.s) Allaha (c.c) imanı tam olduğundan bu tamaşa zamanı çaşmadı, öncə inandıqlarına əyani olaraq baxdı. Hz. Nizami merac gecəsini hz. Məhəmməd (s.a.s) və bütün insanlıq üçün bir nemət kimi dəyərləndirmişdir. **Merac gecəsi bir görmə hadisəsi olduğundan hz. Nizami bu hadisəni «tamaşa» sözü ilə ifadə etmişdir.**

Hz. Məhəmməd (s.a.s) bu görmə hadisəsi ilə bağlı mübarək hədislərində belə buyurmuşdur:

«Ondan soruşuldu:

- Ey Rəsulullah! Sidrəni əhatə edən (bürüyən) nə gördün?

- Qızıl pərvanələrin onu bürüdüyünü və hər yarpağında bir mələyin oturub, Allahı təsbih etdiyini gördüm».[171]

İbni Abbasa (r.a) görə: «Uca Allah (c.c) Musanı kəlam, İbrahimi dostluq, Məhəmməd Mustafanı da uca Allahı (c.c) keyfiyyətini bizim bilmədiyimiz bir şəkildə müşahidə etmə şərəfi ilə təltif etmişdir».[172]

Təfsirçilərə görə, merac gecəsi hz. Məhəmməd (s.a.s) uca Allahı (c.c) qəlb gözü ilə görmüşdür.[173]

İbni Abbas rəvayət edir: «Rəsulullah belə buyurdu: «Mən uca Rəbbimi gördüm».[174]

Başqa bir rəvayətdə də: «Ey Rəsulullah! Rəbbini gördünmü?», sualına:

«Bir nur gördüm!»,-cavabını vermişdir.[175]

Hz. Məhəmməd (s.a.s) belə buyurur:

«(Merac zamanı) cənnətin qapısında durub içəri baxdım. Oraya girənlərin çoxu yoxsullar idi. Varlılar da (hesab vermək üçün) məhbus idilər. Bunlardan cəhənnəmlik olanların isə atəşə atılmaları əmr edilmişdir. Cəhənnəmin qapısında da durdum. Oraya girənlərin çoxu qadınlar idi».[176]

«O gecə göyə yüksəldildim. Elə bir məqama çatdım ki, orada qələmlərin yazan zaman çıxartdıqları səsi eşidirdim».[177]

---

[171] Təbəri, XXVII, 75; Müslim, «İman», 279.
[172] Osman Nuri Topbaş, göstərilən qaynaq, s. 440.
[173] Elmalı Hamdi Yazır, «Hak Dini Kuran Dili»; Təbəri, XXVII, 63.
[174] Əhməd, I, 285; Heysəmi, I, 78.
[175] Müslim, «İman», 292.
[176] Buxari, «Riqaq», 51; Müslim, «Zühd», 93.
[177] Buxari, «Səlat», 1.

**Hz. Nizaminin bu beytində diqqəti çəkən məsələlərdən biri budur ki, şair Peyğəmbərin mərhəməti ilə merac gecəsi arasında əlaqə qurmuşdur.** Biz bunu bir neçə yöndən şərh edə bilərik. Hər şeydən öncə onu deməliyik ki, şair beytdə «mərhəmətlilər» deyir, yəni bir şəxsi – yalnız hz. Məhəmmədi (s.a.s) nəzərdə tutmur. Burada çoxluqdan söhbət gedir. Şairin şərhinə görə, «mərhəmətlilər», «tamaşaya gedənlər» zümrəsinə kimlər daxildir? Şair «mərhəmətlilər» deyəndə ilk sırada peyğəmbərləri nəzərdə tutur. Çünki hər peyğəmbərin bir meraca yüksəlmə hadisəsi var. Hər bir peyğəmbərin meracı onun dərəcəsinə uyğun olmuşdur.

Məsələn, hz. Musa (s.a.s) meracda «On əmr» almışdı.[178]

Hz. Nizaminin beytdə «tamaşaya gedən mərhəmətlilər» deyərkən nəzərdə tutduğu ikinci qisim insanlar möminlərdir. Həqiqi möminlər qəlbini təmizləmiş, Allahdan (c.c) başqa hər şeyi könlündən çıxarmış insanlar olduğu üçün o, ilahi lütflər qazana bilir. Möminin namazı onun meracı olur. Təsadüfi deyil ki, hz. Məhəmməd (s.a.s) namazı möminin meracı adlandırmışdır.[179] Çünki namaz insanı həyasızlıqdan, pislikdən qoruyar. Dərin bir səmimiyyət, təslimiyyət içində namaz qılan mömin ilahi sirlərə «tamaşa edər». Ona görə də hz. Peyğəmbər (s.a.s) namazı tərif edərkən su və nur obrazından istifadə etmişdir. Yəni namaz insanı yağmur kimi yuyar, onun könül pasını silər, ilahi həqiqətləri ona göstərər.

Cabir (r.a) rəvayət edir: «Rəsulullah (s.a.s) belə buyurdu: «Beş vaxt namazın bənzəri sizdən birinizin qapısı

---

[178] Məhəmməd Həmidullah, göstərilən qaynaq, c. I, s. 144.
[179] «Riyazüs-salihin», göstərilən qaynaq, c. V, s. 195.

önündən axıb gedən və hər gün içində beş dəfə yuyunduğu bol sulu bir çay kimidir».[180]

Əbu Hüreyrə (r.a) rəvayət edir: «Rəsulullah (s.a.s) belə buyurdu: «Bir sıra mələklər gecə vaxtı, başqa bir qrupu da gündüz vaxtı bir-birinin ardınca gəlib sizin aranızda olurlar. Onlar sabah namazı ilə ikindi namazında bir araya gəlirlər. **Gecə vaxtı aranızda qalmış olanlar Allahın (c.c) hüzuruna çıxarlar.** Uca Allah (c.c) qullarının halını çox yaxşı bildiyi halda mələklərə:

- Qullarımı hansı vəziyyətdə gördünüz? – deyə soruşar.

Mələklər:

- Onları namaz qılarkən gördük, onların yanına namaz qılarkən getmişdik».[181]

## NİZAMİYƏ GÖRƏ TAMAŞA ETMƏK ANLAYIŞI

Hz. Nizami tamaşaya gedənlərin mərhəmətlilər olduğunu bildirir. Şairin təfsirində «tamaşa etmək» görmək, baxmaq, həqiqətləri bilmək, ilahi feyz və bərəkətə nail olmaq, doğru yolu tapmaq, ilahi sirlərdən xəbərdar olmaq anlamındadır. **Şairə görə, yalnız mərhəmətli olmaq həqiqətlərə tamaşa etməyə, onu bilməyə yol açır və «tamaşanın» verdiyi nemətlərdən biri də mərhəmət duyğusudur.** Çünki uca Allaha (c.c) təslimiyyətdən doğan sevgi könül pasını yuyur, ilahi feyz, bərəkət, enerji qulun könlünə axır, onun bəsirət gözü açılır və o, ilahi sirləri görərək, doğru olanı bilərək, yaradılış mahiyyətini anlayaraq hüzura, rahatlığa qovuşur. Əslində, könül rahatlığı doğru olanı

---

[180] «Riyazüs-salihin», göstərilən qaynaq, c. V, s. 107.
[181] «Riyazüs-salihin», göstərilən qaynaq, c. V, s. 208-209.

bilməyə bağlıdır. Həqiqəti bilməmək, onu yanlış düşünmək insanı cəhalətdə saxlayır, ona əzab və narahatlıq verir. Qaranlıq içində olan insan qorxduğu, təlaş və qorxu içində olduğu üçün, qaranlıq onun «tamaşa etməsinə» maneə olduğuna görə, o, hər zaman narahatdır. Nur, yəni doğrunu tanıma, bilmə isə insanı rahatlığa qovuşdurur, ona sevinc bəxş edir, ona ümid verir. Qorxu və ümid, cəhalət və nur, korluq və tamaşa etmək, zülmət və işıq – bunlar inanmayıb, inkar edib əbədi əzaba, görməzliyə, bilməzliyə, duymazlığa düçar olanlarla, inanaraq, təsdiq edərək, bilərək, duyaraq əbədi rəhmətə qovuşanları təmsil edən iki haldır.

Hz. Nizami beytdə «tamaşa etmək» ifadəsini seçib. Çünki bir şeyə tamaşa etmək üçün insanın gözü görməli, bəsirət gözü açıq olmalıdır. Pəncərə şüşəsi kirli olsa, ətrafı, pəncərənin o biri üzündə olanları görmək mümkün olmadığı kimi, inkarçıların da könlü, gözü, qulağı möhürlənir və onlar həqiqəti, doğru olanı bilmirlər, ilahi mənzərəni görmürlər.

**Hz. Nizaminin təqdimatında «tamaşa etmək» gözəllik anlayışını da ehtiva edir. Çünki insan gözəl olana tamaşa edər. Bu anlamda «tamaşa etmək» çox sevdiyin bir şeyə baxmaq, inanaraq, sevərək, gözünü ayırmadan baxmaq deməkdir.** Bu da yalnız uca Allahın (c.c) mərhəmətlilərə nəsib etdiyi ilahi, doyulmaz bir seyrdir, mənzərədir, sirlərin kəşf olunma halıdır. Mömin heç vaxt bu haldan ayrılmaq istəməz, bu mənzərəyə tamaşa etməkdən doymaz. Uca Allaha (c.c) aşiq olanlar sevgilisinə, onun gözəlliklərinə baxmaqdan doymazlar.

**Hz. Nizaminin təqdimatında «tamaşa etmək» aşiqlik halıdır. Çünki özünü Allaha (c.c) təslim etmiş aşiqin mükafatı, qazandığı dərəcə, əldə etdiyi savab sevgilisinin gözəlliyini doyunca seyr etməkdir.** İndi baxın, şair şərh etdiyimiz beytdə hz. Məhəmmədin (s.a.s) merac gecəsini necə

anladır. O, bu gecəni «tamaşa etmək» kimi səciyyələndirir. Nurlu Peyğəmbər uca Yaradanın gözəlliklərini ən yaxın məsafədən «iki yay arasından daha yaxın» olan bir yerdən görür, gözünü ondan çəkmir. «… Araları iki yay arası qədər, ya da daha yaxın oldu»[182], «…Sonra yaxınlaşdı və aşağı endi»[183], «Allah o anda quluna vəhyini bildirdi»[184], «…gözləri ilə gördüyünü qəlbi yalan saymadı»[185], «…And olsun O, Rəbbinin ən böyük qüdrət nişanələrindən (möcüzələrindən) bir qismini gördü»[186].

Diqqətlə baxsaq, görərik ki, uca Allah (c.c) bu ayələrdə hz. Nizaminin «tamaşa etmək» anlayışının mahiyyətinə daxil etdiyi mənaları «yaxın oldu», «yaxınlaşdı», «aşağı endi», «vəhyini bildirdi», «yalan saymadı», «gördü» kimi söz və ifadələrlə bildirmişdir. **Bu sözləri bir-birinin arxasınca düzsək, «tamaşa etmək» anınadək olan addımlar, sıra alınar: yaxın oldu, yaxınlaşdı, aşağı endi, vəhyini bildirdi, yalan saymadı, gördü, yəni «tamaşa etdi».** Bu, hz. Məhəmmədin (s.a.s) uca Allaha (c.c) aşiqliq halının ən zirvə nöqtəsidir. Çünki merac hz. Məhəmmədin (s.a.s) ən çox nurlandığı, ilahi həqiqətləri ən çox bildiyi, ən böyük nemətlə şərəfləndiyi andır.

Möminlər, hz. Nizaminin «mərhəmətlilər» dediyi kimsələr də bu hala hz. Məhəmmədin (s.a.s) meracdan gətirdiyi ən böyük nemət olan namaz halı ilə qovuşa bilirlər. Axı, «namaz möminin meracıdır», yəni uca Allaha (c.c) ən yaxın olduğu, Onu ən yaxın yerdən «tamaşa etdiyi» andır, Ondan ən çox bərəkətləndiyi haldır, ibadətdir. **Görmə, «tamaşa**

---

[182] «ən-Nəcm», 53/9.
[183] «ən-Nəcm», 53/8.
[184] «ən-Nəcm», 53/106.
[185] «ən-Nəcm», 53/11.
[186] «ən-Nəcm», 53/108.

**etmə» nurla bağlı olduğu üçün namaz, merac halı mərhəmətlinin ən çox nurlandığı, ən çox bildiyi haldır.** Bu halı uca Quran belə təsbit edir. Qurana görə, namaz qılanın axirətdəki halı:

وُجُوهٌ يَوْمَئِذٍ نَّاضِرَةٌ إِلَى رَبِّهَا نَاظِرَةٌ

(əl-Qiyamə, 75/22-23)

«O gün neçə-neçə üzlər sevinib güləcək. Öz Rəbbinə baxacaqdır!».

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ الَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ

(əl-Möminin, 23/1-2)

«Həqiqətən, möminlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!) O kəslər ki, namazlarında (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) muti olub (Ona) boyun əyərlər! (Allahın qarşısında kiçilərlər!)».

Meracı, yəni namazı olanların hz. Nizaminin sözü ilə «mərhəmətlilərin» ən böyük mükafatının «tamaşa etmək», uca Allahın (c.c) gözəlliklərini seyr etmək olduğunu hz. Məhəmməd (s.a.s) mübarək hədisində belə buyurur:

«Siz bu ayı çətinlik çəkmədən gördüyünüz kimi, Rəbbinizi də açıqca görəcəksiniz. Günəş doğmadan və batmadan öncəki namazları qaçırmamaq əlinizdən gəlirsə, əsla qaçırmayıb, qılın».[187]

Meracı, namazı, yəni «tamaşa etmək» haqqı olmayanların halını isə uca Quran belə təsbit edir:

إِذَا تُتْلَى عَلَيْهِ آيَاتُنَا قَالَ أَسَاطِيرُ الْأَوَّلِينَ كَلَّا بَلْ رَانَ عَلَى قُلُوبِهِم مَّا كَانُوا يَكْسِبُونَ كَلَّا إِنَّهُمْ عَن رَّبِّهِمْ يَوْمَئِذٍ لَّمَحْجُوبُونَ

(əl-Mutəffifin, 83/13-15)

---

[187] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. V, s. 211.

«Ayələrimiz ona oxunduğu zaman: «(Bunlar) əvvəlkilərin əfsanələridir! (uydurmalarıdır)» - deyər. Xeyr (belə deyildir). Əslində, onların qəlblərini qazandıqları (günahlar) qaplamışdır. Xeyr, o gün Rəbbinin mərhəmətindən (onu görməkdən) məhrum olacaqlar!».

Hz. Nizami də mərhəmətlilərin «tamaşa etmək» haqqının olduğunu irəli sürür. Yəni mərhəmətli olmağın savabı, mükafatı ilahi gözəlliklərə tamaşa etməkdir. Uca Allahın (c.c) mərhəmətindən məhrum olanlar da meracını, tamaşa etmək imkanını itirənlərdir. Deməli, mərhəmətli olmaq halı tamaşa etmək məqamıdır.

**Hz. Nizaminin təqdimatında «tamaşa etmək» uca Allahla (c.c) ünsiyyət, rabitə, dolayı yolla xəbərləşmə halıdır.** Mərhəmətli olan hz. Məhəmməd (s.a.s) və mərhəmətlilər ilahi gözəllikləri seyr edərkən, merac anında öz istəklərini inanaraq, yalvararaq, özünü təslim edərək, bütün varlığı ilə istəyərək bir dua psixologiyası içində uca Allaha (c.c) çatdırır və Ondan cavab alırlar. Yəni diqqətlə, təslimiyyət duyğusu ilə bax, «tamaşa et» və o böyük həqiqətləri gör, ilahi sirlərdən xəbər al, sən bu duyğularla istə, O versin.

**Hz. Nizaminin təfsirində «tamaşa etmək» özünü unutma halıdır. Tamaşa elə gözəldir ki, ona baxarkən insan özünü unudur, o ilahi gözəlliyə təslim olur, tamaşaçının fani varlığı bu ilahi lütf, feyz, bərəkət tamaşasında əriyir, yox olur. Özünü unudub, yalnız Allahı (c.c) zikr edənlər də merac haqqına, tamaşa şərəfinə sahib olurlar.**

**Hz. Nizaminin şərhində «tamaşa etmək» sevgi anıdır. Bu məqamda sevən aşiq – hz. Məhəmməd (s.a.s) və mərhəmətlilər ən çox sevdiyinə qovuşurlar. Ondan uca Allaha (c.c) qul olduqlarının təsdiq cavabını alırlar.** Onlar bu təsdiq cavabının sevinci içində yaşayırlar. Sevən

sevildiyini biləndə xoşbəxt olur. Çünki sevgi həm də bir dərketmə hadisəsidir.

**Hz. Nizaminin təfsirində «tamaşa etmək» aşiqlərin heyrət halıdır. Bir şeyə heyran olmaq, ona vurulmaq, onda fani olmaq heyrətin nəticəsidir. İlahi tamaşa o qədər gözəldir ki, aşiq heyrətə düşmüşdür. O, bu ilahi tamaşadan başqa hər bir şeyi unutmuş, hər şey onun gözündə dəyərini itirmiş və aşiq özünü bu tamaşa sahibinə fəda etmişdir, «duyduq və uyduq» buyruğuna təslim olmuşdur.**

**Hz. Nizaminin şərhində «tamaşa etmək» bir kamil iman hadisəsidir.** Yalnız imanlı qullar, nəfsin istəklərindən qurtulmuş, azad olmuş insanlar ilahi gözəllikləri görmək, duymaq şərəfini qazana bilirlər.

**Hz. Nizaminin anlayışında «tamaşa etmək» bir ilahi sevgi ilə tutuşaraq yanmaqdır.** Bu Allah (c.c) sevgisi ilə yanan aşiq ancaq ilahi gözəlliklərə tamaşa etməyə can atır, yalnız bu ilahi bərəkət və feyz onu rahatlığa qovuşdurur.

## NİZAMİNİN MƏRHƏMƏT ANLAYIŞI

Şair birinci misrada «tamaşa etmək» anlayışını, yəni Peyğəmbərin və mərhəmətlilərin meracını mərhəmət anlayışı ilə bağlamışdır. Ona görə, «tamaşa etmək» ancaq mərhəmətlilərin, rəhm sahibi olanların qismətidir. Bu baxış da peyğəmbərlik anlayışı və hz. Məhəmmədin (s.a.s) peyğəmbər olaraq göndərilməsi ilə sıx bağlıdır. Çünki hz. Məhəmmədi (s.a.s) peyğəmbər göndərmək uca Allahın (c.c) insanlara olan sonsuz rəhmətinin nəticəsidir.

Uca Quran buyurur:

لَقَدْ جَاءكُمْ رَسُولٌ مِّنْ أَنفُسِكُمْ عَزِيزٌ عَلَيْهِ مَا عَنِتُّمْ حَرِيصٌ عَلَيْكُم بِالْمُؤْمِنِينَ رَؤُوفٌ رَّحِيمٌ

(ət-Tövbə, 9/128)

«(Ey ümmətim!) Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərə şəfqətli, mərhəmətlidir!».

وَمَا كَانَ اللّهُ لِيُعَذِّبَهُمْ وَأَنتَ فِيهِمْ وَمَا كَانَ اللّهُ مُعَذِّبَهُمْ وَهُمْ يَسْتَغْفِرُونَ

(ən-Ənfal, 8/33)

«Halbuki sən onların arasında ola-ola Allah (sənə hörmət əlaməti olaraq) onlara əzab verən deyildir. (Tövbə edib) bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz!».

وَمَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِّلْعَالَمِينَ

(əl-Ənbiya, 21/107)

«Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik».

Qurani-Kərim buyurur ki, ən mərhəmətli olan uca Allahdır (c.c).

إِنَّهُ كَانَ فَرِيقٌ مِّنْ عِبَادِي يَقُولُونَ رَبَّنَا آمَنَّا فَاغْفِرْ لَنَا وَارْحَمْنَا وَأَنتَ خَيْرُ الرَّاحِمِينَ

(əl-Muminun, 23/109)

«Çünki bəndələrimdən bir zümrə (möminlər) var idi ki, onlar: «Ey Rəbbimiz! Biz (Sənə) iman gətirdik. Artıq bizi bağışla, bizə rəhm et. Sən rəhm edənlərin ən yaxşısısan!»- deyirdilər».

Uca Allahın rəhməti, mərhəməti hər şeyi əhatə etmişdir:

وَاكْتُبْ لَنَا فِي هَـذِهِ الدُّنْيَا حَسَنَةً وَفِي الآخِرَةِ إِنَّا هُدْنَـا إِلَيْكَ قَالَ عَذَابِي أُصِيبُ بِهِ مَنْ أَشَاء وَرَحْمَتِي وَسِعَتْ كُلَّ شَيْءٍ فَسَأَكْتُبُهَا لِلَّذِينَ يَتَّقُونَ وَيُؤْتُونَ الزَّكَـاةَ وَالَّذِينَ هُم بِآيَاتِنَا يُؤْمِنُونَ

(əl-Əraf, 7/156)

«Bizə bu dünyada da yaxşılıq yaz. (Dünyada yaxşı əməllər, axirətdə Cənnət qismət elə). Biz (tövbə edib bağışlanmağımızı diləyərək) Sənə tərəf (hüzuruna) döndük!» (Allah) buyurdu: «İstədiyimi əzabıma düçar edərəm. Mərhəmətim hər şeyi ehtiva etmişdir. Onu Allahdan qorxub pis əməllərdən çəkinənlərə, zəkat verənlərə, ayələrimizə iman gətirənlərə yazacağam!».

Uca Allah buyurur ki, Onun mərhəmətindən ümid kəsməyin:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعاً إِنَّهُ هُوَ الْغَفُورُ

(əz-Zumər, 39/53)

«(Ey Peyğəmbər!) Mənim adımdan qullarıma de: «Ey Mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmətindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!».

İslam Peyğəmbəri bu mübarək dini təbliğ edərkən uca Allahın (c.c) Rəhim, Rauf (çox şəfqətli) olduğunu, onun mərhəmətinin hər şeyi əhatə etdiyini önə çəkmişdir.

Hz. Məhəmməd (s.a.s) buyurur: «Uca Allah (c.c) rəhmətini yüz yerə ayırdı. Bunun doxsan doqquzunu öz yanında saxladı. Bir hissəsini yer üzünə endirdi. Elə bu bir parça rəhmətə görə yaradılmışlar bir-birinə mərhəmət edir. Ana atın süd əmizdirərkən balasına zərər verməsin deyə ayağını yuxarı qaldırması belə, bu yüzdə bir rəhmətin əsəridir».[188]

**Qurani-Kərimə və hz. Məhəmmədin (s.a.s) hədis-lərinə görə, mərhəmət anlayışı sevgi ilə bağlıdır.** Uca Allahı (c.c) sevmək, insanları sevmək, yaradılan hər şeyi sevmək,

---

[188] Buxari, «Ədəb», 19; Müslim, «Tövbə», 17.

insanlara qarşı yumşaq, şəfqətlə davranmaq, uşaqlara tərbiyə vermək, onları öpmək, ailədə mehriban olmaq, yetimə, yoxsula yardım etmək, fədakar, şəfqətli, vəfalı, etibarlı olmaq, qonşuya əziyyət verməmək, halal qazanıb halal yemək, doğru danışmaq, sevinc və kədəri paylaşmaq, ağacları, çiçəyi, suyu, torpağı, təbiəti sevmək mərhəmətin göstəricisidir. Bu baxımdan hz. Məhəmməd (s.a.s) bir rəhmət, mərhəmət, şəfqət örnəyi və ölçüsüdür.

O şanı uca olan Peyğəmbər buyurur:

«İnsanlara mərhəmət etməyənə Allah da mərhəmət etməz».[189]

«Mərhəmət edənlərə Allah da mərhəmət edər, siz yer üzündəkilərə mərhəmət edin ki, göydəkilər də sizə rəhmət etsin».[190]

«Əgər qəlbinin yumşalmasını istəyirsənsə, yoxsulu doyur, yetimin başını oxşa!».[191]

Hz. Məhəmmədin (s.a.s) uşaqları öpdüyünü görən bir bədəvi buna heyrət etmiş və:

-Deməli, Siz uşaqları öpürsünüz. Ancaq biz onları heç öpmərik,-demişdir.

Peyğəmbər:

-Əgər Allah sənin qəlbindən mərhəməti çıxarmışsa, mən nə edə bilərəm!,-buyurmuşdur.[192]

İslam Peyğəmbəri mərhəməti müsəlman həyatının ən önəmli ölçülərindən biri kimi təqdim etmişdir. Hz. Məhəmməd (s.a.s) mərhəmətli olanları böyük mükafat gözlədiyini bildirmişdir:

İyaz İbni Himar (r.a) belə rəvayət edir: «Rəsulullah belə buyurdu: «Cənnətliklər üç qrupdur. Bunlar: adil və ba-

---

189 Müslim, «Fədail», 66.
190 Əbu Davud, «Ədəb», 58; Tirmizi, «Birr», 16.
191 İbn Hənbəl, 11, 263, 387.
192 «Üsve-i Hasene», Erkam yayınları, İstanbul, 2004, s. 232.

carıqlı dövlət başçısı, yaxınlarına və müsəlmanlara qarşı mərhəmətli, yumşaq ürəkli olan şəxs, ailəsi böyük olduğu halda, haram qazancdan çəkinib kimsədən bir şey istəməyən adamdır»[193].

**Hz. Nizaminin şərhində mərhəmətlilər sevənlər deməkdir. Çünki mərhəmət birbaşa sevgi ilə bağlıdır, onun meyvəsidir. Şairə görə, mərhəmətli olmağın mükafatı «tamaşa etməkdir».**

Şair beytin ikinci misrasında hz. Məhəmmədin (s.a.s), mərhəmətlilərin şəfqətini, sevgisini çox gözəl ifadə edən «azuqə» sözündən istifadə etmişdir. Biz bu «azuqə» sözünü beytin mətnində bir neçə yöndə şərh edə bilərik.

**Hər şeydən öncə «azuqə» bir maddi nemət kimi izah oluna bilər. Yəni halal azuqə qazanan insan ondan ehtiyacı olanlara da pay verər.** Maddi nemətdən – azuqədən pay vermək mərhəmətin ölçülərindən biridir.

وَيُطْعِمُونَ الطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِيناً وَيَتِيماً وَأَسِيراً

(əl-İnsan, 76/8)

«Onlar öz iştahları çəkdiyi (özləri yemək istədikləri) halda, (ya da Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər».

İslam ölçülərinə görə də mömin qazandıqlarından ehtiyacı olanlara verməlidir, mömin yeməyini inananlara yedirtməlidir: «Mömindən başqasını dost tutma, yeməyini müttəqilərdən başqasına daddırma».[194]

**Beytdəki «azuqə» sözü hz. Məhəmmədin (s.a.s) merac gecəsi gətirdiyi neməti ifadə edir. Bu ilahi nemət inananlar üçün azuqədir, onları qoruyan, doyuran, diri**

---

[193] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 550.
[194] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 557.

**saxlayan əvəzedilməz nemətdir. Uca Allah (c.c) öz sevimli elçisini yanına çağırdı, ona «tamaşa etmək» haqqı verdi və Onu azuqə ilə yola saldı. Bir insan ən əziz qonağına ən dəyərli saydığı şeyi hədiyyə verdiyi kimi, uca Allah (c.c) da elçisinə ən gözəl azuqəni verdi.** Bu nemət namazdır, Allaha (c.c) şərik qoşmaqdan başqa bütün günahların bağışlanacağı müjdəsidir və «Bəqərə» surəsinin son iki ayəsidir.

Hz. Nizaminin şərhində azuqə mərhəmətlilərin ilahi hüzura gedərkən – «tamaşa edərkən», namazda olarkən qazandıqları nurdur, nemətdir. Onlar bu haldan qazandıqları nurla insanların yoluna işıq saçırlar, onlara doğru yolu göstərirlər, onları cəhalətdən qurtarırlar. Bu nurlu insanlar başqalarını düşünürlər, onları maarifləndirməyi ilahi borc hesab edirlər.

Hz. Nizaminin «mərhəmətlilər» adlandırdığı bu mömin insanların özəlliklərindən biri də paylaşmaqdır, Allah (c.c) üçün bir-birini sevməkdir, şairin sözü ilə «bir nəfərin azuqəsini təklikdə yeməməkdir». Bu ilahi azuqəni qazanan insanların vəzifəsi bu tükənməz ruzini, neməti, nuru topluma paylamaqdır.

Bu işıq, nur, «azuqə» paylayanlar sevgi, qulluq, ixlas düşüncəsi ilə yaşayırlar, yaradılanları Yaradandan ötrü sevirlər.

**Hz. Nizaminin şərhində azuqə uca Allahın (c.c) inananlara verdiyi elmdir.** Hz. Məhəmməd (s.a.s) merac gecəsi ilahi elm aldı, Ona ən böyük həqiqətlər göstərildi. O, bu azuqəni təklikdə «yemədi», onu insanlara payladı.

**Şairə görə, mərhəmətin ölçüsü bir nəfərin azuqəsini təklikdə yeməməsidir.** Öyrəndiyini öyrətmək də bir vəzifədir.

Biz bu beytdə hz. Məhəmmədi (s.a.s) bir ümmət lideri, mərhəmətliləri də cəmiyyətin yönəldici, aparıcı, idarəedici, maarifçi təbəqəsi kimi görürük. Yəni hz. Məhəmməd (s.a.s) bir ümmət lideri olaraq uca Allahın (c.c) hüzuruna getdi və ümməti – ailəsi üçün ən dəyərli neməti, azuqəni gətirdi. Mərhəmətlilər də tamaşadan qazandıqları nuru, azuqəni, bu dünya və axirət qidasını insanlara payladılar.

Hz. Nizaminin təqdimatında «azuqə» İslam dinidir, doğru yoldur, azad yaşamaqdır, uca Allahdan başqa bir kimsəyə boyun əyməməkdir. Şair inanan, mərhəmətli, azuqə sahibi olan insanların paylaşma güc və istəyini də bədii biçimdə çox gözəl ifadə etmişdir:

***«(Onlar) bir nəfərin azuqəsini təklikdə yeməzlər».***

## ALTINCI BEYTİN ŞƏRHİ: O, BİZƏ XURMA YEDİYİ SÜFRƏDƏN PAY GƏTİRDİ

از سر خوانی که رطب خورده ای
از پی ما زله چه آورده ای

*Xurma yediyin qonaqlıq süfrəsindən*
*Bizə nə xırda-xuruş pay gətirmisən?* [195]

Hz. Nizami üçüncü nətin altıncı beytində öncəki beytdə irəli sürdüyü ideyanı inkişaf etdirib. Şair hz. Məhəmmədin (s.a.s) merac gecəsi qonaqlıq süfrəsinə dəvət edildiyini, Onun bu ilahi süfrədə ilahi nemətlərə qonaq edildiyini, Ona ilahi azuqə verildiyini bədii bir biçimdə gözəl ifadə edib. Bunun üçün şair iki vasitədən yararlanıb. Hz. Nizami bu ilahi dəvətin önəmini, əzəmətini, bu dəvət zamanı verilən nemətin dəyərini xurma obrazı ilə simvollaşdırıb.

Hz. Nizami niyə merac gecəsinin dəyərini xurma meyvəsi ilə ifadə edib?

## XURMA UCA ALLAHIN (c.c) NEMƏTİDİR

Öncə onu deyək ki, xurma uca Allahın (c.c) dəyər verdiyi, faydasını, bərəkətini vurğuladığı bir nemətdir. Hz. Məryəm ən çətin anında – doğuş sancısı çəkərkən ona xurma yemək əmr edilir:

فَنَادَاهَا مِن تَحْتِهَا أَلَّا تَحْزَنِي قَدْ جَعَلَ رَبُّكِ تَحْتَكِ سَرِيّاً وَهُزِّي إِلَيْكِ بِجِذْعِ النَّخْلَةِ تُسَاقِطْ عَلَيْكِ رُطَباً جَنِيّاً فَكُلِي وَاشْرَبِي وَقَرِّي عَيْناً فَإِمَّا تَرَيِنَّ مِنَ الْبَشَرِ أَحَداً فَقُولِي إِنِّي نَذَرْتُ لِلرَّحْمَنِ صَوْماً فَلَنْ أُكَلِّمَ الْيَوْمَ إِنسِيّاً

(Məryəm, 19/24-26)

[195] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 34.

«Dərhal (Məryəmin, ya da xurma ağacının) alt tərəfindən ona (Cəbraildən, ya da doğulmaqda olan İsadan) belə bir nida gəldi: «Kədərlənmə, Rəbbin sənin üçün (ayağının) altından bir irmaq axıtdı (ya da bətnindəki uşağı hörmət sahibi etdi. (Qurumuş) xurma ağacını özünə tərəf silkələ, üstünə təzə yetişmiş (xurma) tökülsün. (Xurmadan və sudan) ye, iç, (belə bir uşaq doğduğuna görə) gözün aydın olsun. Əgər (səndən bu uşaq barəsində soruşan) bir adam görəcək olsan, belə de: «Mən rəhman üçün oruc (sükut orucu) tutmağı nəzir eləmişəm, ona görə də bu gün heç kəslə danışmayacağam!».

عِندَ سِدْرَةِ الْمُنْتَهَى عِندَهَا جَنَّةُ الْمَأْوَى

(ən-Nəcm, 53/14-15)

«(Yeddinci göydəki) Sidrətil-müntəhanın yanında. (Mələklər, şəhidlər və müttəqilər məskəni olan) Məva cənnəti onun yanındadır».

Bu ayə ilə bağlı İslam alimlərinin irəli sürdüyü görüşlərdən biri belədir: «…Yəni sirlərlə dolu «merac» təcrübəsi sırasında Sidrətül-müntəha ifadəsində dilə gətirilən görüntünü açıqlayarkən Rağib, yarpaqlarının kölgəsinə görə, Sidr, ya da Sidra (Ərəbistanda xurma ağacı) Quranda və meracla bağlı hədislərdə cənnətin «kölgəsi»nin, yəni ruhi sükunət və əmin-amanlığının bir simvolu olaraq istifadə edildiyini söyləyir. Əl- müntəha sifəti («ən uzaq nöqtə»), Nihayədə işarə edildiyi kimi, Allahın yaradılmış varlıqların əldə edə biləcəyi bilgilərə bir məhdudiyyət qoyduğu gerçəyinin bir göstəricisi olaraq qəbul edilə bilər…».[196]

وَهُوَ الَّذِي أَنشَأَ جَنَّاتٍ مَّعْرُوشَاتٍ وَغَيْرَ مَعْرُوشَاتٍ وَالنَّخْلَ وَالزَّرْعَ

[196] Məhəmməd Əsəd, göstərilən qaynaq, s. 1081.

مُخْتَلِفاً أُكُلُهُ وَالزَّيْتُونَ وَالرُّمَّانَ مُتَشَابِهاً وَغَيْرَ مُتَشَابِهٍ كُلُواْ مِن ثَمَرِهِ
إِذَا أَثْمَرَ وَآتُواْ حَقَّهُ يَوْمَ حَصَادِهِ وَلاَ تُسْرِفُواْ إِنَّهُ لاَ يُحِبُّ الْمُسْرِفِينَ

(əl-Ənam, 6/141)

«Yer üzünə sərilmiş və sərilməmiş bağ-bağatı (bostanları və bağları), dadları müxtəlif xurmanı və taxılı, bir-birinə həm bənzəyən, həm də bənzəməyən zeytunu və narı yaradan Odur. (Onların hər biri bar verdiyi zaman barından yeyin, yığım günü haqqını (zəkatını, sədəqəsini) ödəyin, ancaq israf etməyin) Allah israf edənləri sevməz!».

Bundan başqa, Qurani-Kərimdə xurma uca Allahın (c.c) insanlara verdiyi ruzi, bərəkət, nemət, Allahın qüdrətinin əlaməti, faydalı nemət, var-dövlət, zənginliyin göstəricisi kimi təqdim olunmuşdur.[197]

Yuxarıdakı şərhdə deyildiyi kimi, xurma cənnətin kölgəsinin, yəni ruhi sükunət və əmin-amanlığın simvoludur və xurmaya verilən bu dəyər merac gecəsi ilə birgə xatırladılır.

Hz. Nizami də merac gecəsini - uca Allahın (c.c) hz. Məhəmmədə (s.a.s) «azuqə», nemət verdiyi gecəni peyğəmbərin «xurma yediyi qonaqlıq» kimi dəyərləndirmişdir.

Hz. Məhəmməd (s.a.s) də mübarək hədislərində xurmanın bərəkətini anlatmışdır:

«Allah, sizin hər biriniz ilə tərcüməçisiz danışacaq. İnsan sağ tərəfə baxacaq, axirətə göndərdiklərindən başqa bir şey görməyəcək. Soluna baxacaq, axirətə göndərdiklərindən başqa bir şey görməyəcək. Önünə baxacaq, qarşısında cəhənnəmdən başqa bir şey görməyəcək. O halda artıq bir xurmanın yarısı ilə də olsa, özünüzü cəhənnəm

---

[197] Ənam, 6/141; Nəhl, 16/67; Nisa, 4/124; İsra, 17/92; Məryəm, 19/23, Taha, 20/71; Yasin, 36/34; Nəcm, 53/14; Kaf, 50/10.

atəşindən qoruyun. Bunu da tapa bilməyən gözəl bir söz ilə özünü qorusun».[198]

«Biriniz orucunu açacağı zaman xurma ilə açsın. Çünki xurma bərəkətlidir. Əgər xurma tapa bilməsə, orucunu su ilə açsın, çünki su təmizdir».[199]

«…Sübhan allahi vəl-həmdü lillahi və la ilahə illallahü vallahü əkbər» de! Bu sözlərin hər birinə qarşılıq cənnətdə sənə bir xurma ağacı əkilər».[200]

**Göründüyü kimi, xurma hz. Məhəmmədin (s.a.s) hədislərində də ruzi, bərəkət, güc, savab, nemət kimi dəyərləndirilmişdir. Həqiqətən, xurma çox bərəkətli, dadlı, şirin, vitaminlərlə zəngin olan bir nemətdir. Bu meyvə insanı aclıqdan xilas edər, insan bədəni ondan şəfa tapar, o, gözlərə nur, dizlərə güc verər.**

Hz. Nizami də xurmanın bu özəlliklərindən faydalanaraq hz. Məhəmmədin (s.a.s) merac gecəsini anlatmışdır.

## NİZAMİNİN XURMAYA YÜKLƏDİYİ MƏNA

Beytdə xurma obrazı şairə bir sıra imkanlar yaradır. Öncə onu deyək ki, hz. Nizaminin təqdimatında xurma uca Allahla (c.c) onun elçisinin münasibətlərinin doğmalığını, yaxınlığını göstərmək imkanı verir. **Beytdə xurma uca Allahın (c.c) hz. Məhəmmədə (s.a.s) sevgisinin simvoludur. Yəni bir insan ona doğma olan bir şəxsi qonaq çağırar. Qonaq çağırmaq da hörmətin, sevginin əlamətidir. Bir insan ona doğma olan şəxsi qonaq çağırarkən ən gözəl nemətləri süfrəyə düzər. Uca Allah (c.c) da hz.**

[198] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 488.
[199] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 121.
[200] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 276.

**Məhəmmədi (s.a.s) dəvət edərkən onun yanına ayrıca elçi – mələk göndərir, ona özəl minik ayırır, onu mübarək yolla yanına gətirir (Məkkə-Qüds), onu ən şərəfli insanlar olan Peyğəmbərlərlə görüşdürür, Onu ən uca məqama yüksəldir, Ona ilahi gözəllikləri, sirləri görmək, bilmək, ən dərin elmi öyrənmək imkanı yaradır. Ona ən dəyərli nemət olan merac neməti (namaz, bağışlanma) verir. Bu nemət çox şirindir, insanların ehtiyaclarına uyğundur, onlara qidadır.**

Hz. Nizaminin təfsirinə görə, xurma yeganə meyvədir ki, uca Allahla (c.c) hz. Məhəmmədin (c.c) doğmalığını, onların münasibətinin «şirinliyini» ifadə edə bilir.

**Şairin təqdimatında xurma bir ehtiyacdır.** Yəni merac neməti insanlığı xilas etmək, onun fitrəti üzrə yaşamasını təmin etmək üçün verilmişdir. Bu qida ruhları doyurar, könüllərə nur bəxş edər. Xurma da bir bərəkətli qidadır. Şairin izahına görə, mənəvi qida ilə maddi qida arasında bağlılıq var. Yəni insan maddi qidasız (qidanın simvolu olan xurma) yaşaya bilmədiyi kimi, ruhunun qidası olan merac neməti olmadan da yaşaya bilməz. Maddi qida (xurma) olmayanda insanın ölüm təhlükəsi yarandığı kimi, mənəvi qida olmayanda da ruhi ölüm qorxusu yaranır, insanın fitrəti pozulur.

Merac neməti uca Allahın (c.c) qüdrətinin əlamətidir. Xurma da qadir Allahın (c.c) bənzərsiz nemətidir. **Xurma gücdür, merac neməti də ruhun güc qaynağıdır.**

**Hz. Nizami üçüncü nətin meracı şərh edən, doğmalıq, şirinlik, sevgi anlayışları yaradan, ifadə edən beytlərində ayrı-ayrı nemətlərlə gözəl bir səhnə yaratmışdır. Baxın, şairin beytdə açdığı süfrənin mənzərəsi belədir: tamaşa etmək, azuqə, xurma, süfrə, pay.**

Hz. Nizaminin xurma obrazı uca Allahla (c.c) hz. Məhəmmədin (s.a.s) münasibətlərinin sevgi əsasında qurulduğunu göstərdiyi kimi, Peyğəmbərlə onun ümməti arasındakı münasibətin doğmalığını da ifadə edir. Belə ki, ümmətin başçısı ilahi merac qonaqlığına dəvət olunub və o mübarək elçi bu qonaqlıqdan sevdiyi insanlara «xırda-xuruş pay» gətirib. **Pay gətirmək də sevginin əlamətidir. Deməli, uca Allah (c.c) Peyğəmbərini sevir, o mübarək insan da öz ümmətinə aşiqdir. Gerçəkdən, şairin xurma obrazı ilə kodlaşdırdığı məna çox böyükdür.**

Bu beytin ideyasının hz. Məhəmmədin xilaskarlıq missiyası ilə sıx bağlı olduğu da göz önündədir. Belə ki, bu xilas neməti – merac neməti olmasa idi, dinin dayağı olmazdı, insanlıq qurtuluş yolunu tapa bilməzdi, insanlığın işığı sönər, aləm cəhalət qaranlığına bürünərdi. O sevgi Peyğəmbəri «xurma payı» gətirməsə idi, insanlıq ölərdi.

**Hz. Nizami Peyğəmbərin gətirdiyini pay adlandırır. Pay gətirmək, hədiyyə verməklə də sevgini artırır.** Biz hz. Məhəmmədi (s.a.s) ona görə sevirik ki, O, bizə tükənməyən bir pay gətirmişdir. Bu bərəkəti qiyamətədək davam edəcək, bizə axirət azuqəsi qazandıracaq pay hz. Məhəmmədin gətirdiyi elm, din, əxlaq, nur, kitab kimi də yozula bilər. Bilmək insanı rahatlığa qovuşdurduğu kimi, xurma yemək də insanı narahatlıqdan xilas edir. Din insanı xoşbəxt etdiyi kimi, xurma yemək də insanı sevindirir. Nur insanın bəsirət gözünə işıq verdiyi kimi, xurma yemək də insanın dizinə güc, qəlbinə fərəh, gözünə aydınlıq verir.

**Biz, hz. Nizaminin bu beytinin mənasını insanlığın islamdan əvvəlki və sonrakı dövrü arasındakı fərq kimi də oxuya bilərik.** Yəni mənən, ruhən ac, əxlaq baxımdan yoxsul olan insanlıq hz. Məhəmmədin (s.a.s) gəlişi ilə «xurma»ya – merac nemətinə, İslama, yəni, azadlığa qovuşdu.

Hz. Nizami bu beytdə Peyğəmbər sevgisini ifadə etmək, ona olan ehtiyacı bildirmək, ona bağlılığını göstərmək üçün özünü himayəçisinin, atasının, doğmasının yolunu gözləyən uşaq yerinə qoyur. Şair, ərklə hz. Məhəmməddən (s.a.s) soruşur ki, bizə nə gətirmisən? O bilir ki, Peyğəmbər xurma yediyi qonaqlıqdan əliboş qayıtmaz. Çünki O, mərhəmətlidir, O, ümmətini düşünür, şairin öncəki beytdə dediyi kimi, «mərhəmətlilər bir neçə nəfərin azuqəsini təklikdə yeməzlər».

**Bizcə, hz. Nizaminin merac nemətini maddi nemətlər vasitəsi ilə, azuqə, süfrə, yemək, pay, xurma, qonaqlıq anlayışları ilə şərh etməsinin ən başlıca səbəbi odur ki, şairin anlayışında merac neməti bir əvəzedilməz qidadır. Bu saydığımız maddi nemətlər insanın yaşamasının şərti olduğu kimi, merac neməti də ruhun, əxlaqın əvəzedilməz qidasıdır. Azuqə, süfrə, yemək, pay, xurma maddi sevinc qaynağıdır, bərəkətdir. Merac neməti də insanlığın xeyir-bərəkət, nur içində yaşaması üçün şərtdir. Azuqə, süfrə, yemək, pay, xurma, qonaqlıq sevginin, doğmalığın, şirinliyin əlamətləridir. Merac neməti də ilahi sevginin, uca Allahın (c.c) insanı nə qədər sevdiyinin göstəricisidir. Azuqə, süfrə, yemək, pay, xurma, qonaqlıq olmayan yerdə sevgi də yoxdur, bu yoxsulluq məkanında savaş, nifrət, zülmət, paxıllıq, kin-kudurət var. Merac neməti olmayan cəmiyyət də ölümə məhkumdur, merac neməti olmayan cəmiyyət ruhən ölüdür, orada cəhalət hakimdir, orada ədalət yoxdur.**

Hz. Nizaminin şərhində xurmanın dadı ilə merac nemətinin dadı arasında da oxşarlıq var. Xurmanın şirinliyi, dadı, qidalı olması insan nəfsinə ləzzət verdiyi kimi, merac neməti də ruha dinclik, rahatlıq verir. Merac neməti olan namaz və bağışlanma müjdəsi insanın könlünü fərəhləndirir. Hədəfi uca Allahın (c.c) rizasını qazanmaq olan bir insanın

bağışlanacağı müjdəsini eşitməsi necə də gözəl, ruha sevinc bəxş edən bir xəbərdir.

Burada bir məsələyə də toxunaq. Hz. Məhəmməd (s.a.s) bir sıra hədislərində imanı, namazı bir dad kimi tərif etmişdir. O uca Peyğəmbər buyurur:

«Üç özəllik vardır. Bunlar kimdə olsa, o, imanın dadını bilər: Allah və Rəsulunu hər kəsdən çox sevmək. Sevdiyini Allah üçün sevmək, Allah küfr bataqlığından qurtardıqdan sonra yenidən küfrə dönməyi atəşə atılmaq kimi çirkin və təhlükəli görmək».[201]

«Allahım, imanı bizə sevdir. Qəlblərimizi imanla süslə. Küfrü, günahı, üsyanı bizə çirkin göstər. Bizi doğrunu tapanlardan et».[202]

Merac nemətinin biri də «Bəqərə» surəsinin son ayəsində verilən müjdədir:

لاَ يُكَلِّفُ اللّهُ نَفْساً إِلاَّ وُسْعَهَا لَهَا مَا كَسَبَتْ وَعَلَيْهَا مَا اكْتَسَبَتْ رَبَّنَا لاَ تُؤَاخِذْنَا إِن نَّسِينَا أَوْ أَخْطَأْنَا رَبَّنَا وَلاَ تَحْمِلْ عَلَيْنَا إِصْراً كَمَا حَمَلْتَهُ عَلَى الَّذِينَ مِن قَبْلِنَا رَبَّنَا وَلاَ تُحَمِّلْنَا مَا لاَ طَاقَةَ لَنَا بِهِ وَاعْفُ عَنَّا وَاغْفِرْ لَنَا وَارْحَمْنَا أَنتَ مَوْلاَنَا فَانصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ

(əl-Bəqərə, 2/286)

«Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər). Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir. (Möminlər deyirlər): «Ey Rəbbimiz, (bəzi tapşırıqlarını) unutduqda, ya da yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyə bizi mükəlləf etmə! Bizi əfv edib bağışla, bizə rəhm et!

[201] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 578.
[202] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 581.

Sən bizim ixtiyar sahibimizsən (mövlamızsan). Kafirlərə qələbə çalmaqda bizə kömək et!».

Göründüyü kimi, bu ayədə də bağışlanma müjdəsi var və uca Allah (c.c) insanın gücü ilə məsuliyyəti arasında tarazlıq yaratmışdır. Bu isə ilahi ədalətin açıq göstəricisidir.

Şair bu merac nemətini də bir şirinlik, ümid, güc simvolu olan xurma obrazı ilə əlaqələndirmişdir.

Hz. Nizaminin merac nemətləri ilə xurma arasında bağlılıq yaratması, xurmanı dini, bədii fikrin simvoluna çevirməsi onun geniş xəyal dünyasının ölçüsünü, şair istedadının dərəcəsini, imanının gücünü göstərən bir dəlildir.

# YEDDİNCİ BEYTİN ŞƏRHİ: SƏNİN DODAQLARININ TƏRAVƏTİNDƏN HAMIYA XURMA NƏSİB OLSUN

لب بگشاتا همه شکر خورند
ز آب دهانت رطب تر خورند

*Ağzını aç ki, hamıya şəkər nəsib olsun,*

*Sənin dodaqlarının təravətindən hamıya xurma nəsib olsun.*[203]

Hz. Nizami bu beytdə İslam Peyğəmbərinin merac gecəsindən qayıtdıqdan sonrakı halını təsvir etmişdir. Şair merac nemətinin şirinliyini, insanlar üçün bərəkətini şərh etmək üçün bir sıra vasitələrdən yararlanmışdır. O, merac nemətlərinin xurma şirinliyinə şəkər dadı da qatmış, bu nemətləri və onları gətirən mübarək Peyğəmbərin ətrini təravət (təzəlik, dad) sözü ilə ifadə etmişdir.

Şair beytin birinci misrasında hz. Məhəmmədi (s.a.s) sevənlərin Ona olan eşqini göstərmək üçün bir gözəl səhnə yaradır. Artıq hz. Məhəmməd (s.a.s) meracdan qayıtmışdır. Səhabələr Onun hansı müjdə və xəbərlə gəldiyini həsrətlə gözləyirlər. Onu dinləmək, rahatlığa qovuşmaq istəyirlər. **Şair bu münasibəti, həsrət və ehtiyacı ifadə etmək üçün misranın başlanğıcında «ağzını aç, danış» müraciət ifadəsindən istifadə etmişdir.** Bu ifadə bir neçə mənanı ehtiva edir: həsrət, ehtiyac, nemət, şərh.

Bizcə, hz. Nizami bu anlayışları beytin məzmun və formasına yerləşdirməklə bir neçə məsələni izah etmişdir.

**Hər şeydən öncə şair insanların hz. Məhəmmədə (s.a.s) olan ehtiyacını göstərmişdir.** Yəni danış, ey sevgili Peyğəmbər, bizim Sənin sözünə ehtiyacımız var. Sən olmasaydın, bu mübarək müjdəni, bu bərəkətli merac nemətini kim gətirə bilərdi? Bizim maddi və mənəvi ruziyə ehtiyacımız var. Danış, ey mübarək Peyğəmbər, ruhumuza qida ver, bizi müjdənlə sevindir, danış, könlümüz rahatlıq tapsın.

---

[203] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 34.

**Şair bu ifadələrlə əshabın hz. Məhəmmədə (s.a.s) olan inamını dilə gətirmişdir.** Danış, ağzını aç, ey mübarək insan, biz Sənə inanırıq. Sən «tamaşa etməyə» getdin, ilahi nemətləri gördün, bizim buna şübhəmiz yoxdur. İnsan sevdiyi, inandığı, ehtiyacı olduğu bir sözün danışılmasını həyəcanla gözləyər, onu söyləyənə «danış», «ağzını aç» deyər.

Hz. Nizami bu ifadələrlə merac nemətinin şərh olunma ehtiyacını bildirmişdir. Yəni ey Məhəmməd (s.a.s), İslamı bizə, bütün insanlığa öyrət.

**Şair demək istəyir ki, merac neməti, hz. Məhəmməd (s.a.s), bütövlükdə İslam dini insanlığın ehtiyacıdır, qidasıdır, axirət azuqəsidir. Hz. Nizami deyir ki, Sən danış, hamıya, yəni bütün insanlığa şəkər nəsib olsun, fitrəti pozulmuş insanlığın ağzı dada gəlsin, insanlıq bu islam nemətini dadsın-öyrənsin, ona inansın və xilas olsun. İnsanlığın hz. Məhəmmədə (s.a.s), merac nemətinə olan ehtiyacının şəkər, xurma obrazları ilə ifadə edilməsinin bir səbəbi də budur ki, xurma güclü, enerjili bir qidadır.** Məsələn, hz. Məhəmmədin (s.a.s) dönəmində yeni doğulmuş uşağı Onun yanına gətirərdilər. Peyğəmbər yeni doğulmuş, zəif uşağın dodağına xurma şirəsi sürtərdi. Müasir tibb elmi də yeni doğulmuş uşağın ən çox xurma kimi şirin, qidalı maddələrə ehtiyacı olduğunu sübut etmişdir.

Merac neməti də insanlıq üçün bir xurmadır, onu gücləndirən, mənəvi, ruhi xəstəliklərdən qoruyan nemətdir.

## XURMA HƏYAT AĞACIDIR

Hz. Nizaminin merac nemətini xurmaya, şəkərə bənzətməsinin səbəblərini daha dərindən anlamaq üçün xurmanın başqa keyfiyyətlərinə də baxaq.

İncildə xurma həyat ağacı adlandırılmışdır. Yəni xurma ağacı insanlara bərəkət, ruzi verir.

**Xurma ağacı insana bənzəyir. Bu ağacın insan bədəninə oxşayan düz gövdəsi var. Xurma ağacının baş hissəsi var. Əgər ağacın baş hissəsi zədələnsə, ağac quruyur.**

**Xurma ağacının insan kimi suya çox ehtiyacı var. Bu ağaca tez-tez su verilməsə, məhsul vermir.**

**Xurma ağacı çox bərəkətlidir. Onun meyvəsi çörəyi, əti, demək olar ki, bütün qidaları əvəz edir, insanlar xurma satışından çox gəlir əldə edirlər. Xurma ağacının budaqlarından binaların üstünün örtülməsi, hətta, yorğan, göşək kimi istifadə edilmişdir. Onun gövdəsindən yanacaq və tikinti materialı kimi istifadə olunur. İnsanlar xurma ağacının kölgəsində dincəlirlər. Xurma ağacının göz oxşayan görkəmi var.**

**Xurma meyvəsi min bir dərdin dərmanıdır. Onun elə bir növü var ki, insanları xəstəlik və sehrdən qoruyur. Xurma meyvəsindən istifadə edilməklə çoxlu gözəl yeməklər hazırlanır.**

Hz. Məhəmmədin (s.a.s) dönəmində xurma ərəblərin maddi həyatının ayrılmaz, önəmli bir hissəsi idi. İslam peyğəmbəri xurmanı çox sevər, xurmasız evdə bərəkətin olmayacağını buyurardı.

**Hz. Məhəmmədin (s.a.s) mübarək səhabələri xurma yeyər, xurmanı sədəqə verər, döyüşə gedəndə özləri ilə xurma götürərdilər. Xurma onların ən sevimli, ən bərəkətli qidası idi. Onlar hz. Məhəmmədin (s.a.s) buyruğu ilə oruc iftarını da xurma ilə açırdılar.**

## XURMA MÜSƏLMAN KİMİDİR

Xurma ilə bağlı bir neçə hədis oxuyaq:

Sad bin Əbi Vaqqas (r.a): «Rəsulullah: «Kim hər gün sabah acqarına yeddi Acvə xurması yeyərsə, o gün ona nə zəhər, nə də sehr zərər verər»,-buyurdu».[204]

İbni Ömər (r.a): «Hz. Peyğəmbərin (s.a.s) yanında idik. Bu zaman təzə xurma gətirildi: «Ağaclardan bir ağac var ki, müsəlman kimidir»,-dedi. Mən: «O, xurmadır»,-demək istədim. Gördüm ki, ora yığışanların ən kiçiyi mənəm. Buna görə də susdum. Hz. Peyğəmbər (s.a.s): «O, xurmadır»,-buyurdu».[205]

Səhl bin Sad (r.a) belə buyurur: «Əbu Üseyd əs-Səidi gəldi, Rəsulullahı (s.a.s) toya dəvət etdi. Gəlin olan xanımı da o zaman ona xidmət etdi. Rəsulullaha (s.a.s) içmək üçün nə verdiyini bilirsənmi? Gecə mis bir qab içərisində bir az xurma isladıb şərbət düzəltmişdi».[206]

Ənəs (r.a) belə buyurur: «…Mədinəyə gələndə Ümmü Süleymi yenə doğuş sancısı tutdu və bir oğlan uşağı doğdu. Anam (Ümmü Süleym) mənə:

- Ənəs, bu uşağı sən sabah erkən Rəsulullahın yanına götürməmişdən öncə bir kimsə onu əmizdirməsin,-dedi.

Sabah erkən mən uşağı alıb Rəsulullahın (s.a.s) yanına apardım. Rəsulullahın əlində bir dağlama aləti var idi. Məni görəndə:

- Hər halda Ümmü Süleym doğdu,-buyurdu.

- Bəli,-dedim.

O, tez əlindəki dağlama alətini bir kənara qoydu. Mən də uşağı ona verdim. Rəsulullah (s.a.s) Mədinəyə xas olan

---

[204] Sahihi-Buhari, Muhtasarı Tecridi – Sarih (çeviri, tehric ve notlar Abdullah Feyzi Kocaer), Konya, 2004, s. 580.

[205] Sahihi-Buhari, Muhtasarı Tecridi – Sarih (çeviri, tehric ve notlar Abdullah Feyzi Kocaer), Konya, 2004, s. 44.

[206] Sahihi-Buhari, Muhtasarı Tecridi – Sarih (çeviri, tehric ve notlar Abdullah Feyzi Kocaer), Konya, 2004, s. 586.

Acvə xurmasından bir dənə istədi. Onu ağzında yaxşıca çeynədi, sonra da uşağın ağzına qoydu. Uşaq xurmanı yalamağa başladı. Bunu görən Rəsulullah (s.a.s):

- Mədinəlilərin xurma sevgisinə baxın!,-buyurdu.

Uşağın üzünü sığalladı və ona Abdullah adını qoydu».[207]

Ənəs buyurur: «Rəsulullah (s.a.s) axşam namazından öncə bir neçə təzə xurma ilə orucunu açardı. Təzə xurma tapa bilməsə, quru bir xurma ilə iftar edərdi. Quru xurma da tapmasa, bir neçə qudum su içərək iftar edərdi».[208]

Xurmanın özəlliyindən biri də budur ki, insan bir-iki xurma yeməklə bütün günü başqa qidaya ehtiyac duymadan dolana bilər, yəni az xurmada çox bərəkət var. Merac neməti də belədir. Bu ilahi nemətlə insan bu dünyada və axirətdə xoşbəxt ola bilər. Merac neməti insanın ruhi sağlamlığını təmin edən, ona doğru yaşamaq gücü və imkanı verən bir nemətdir.

Xurma müsəlmanların qidasının, maddi həyatının əsası olduğu kimi, merac nemətləri də bir cəmiyyətin sağlam yaşamasının təməlidir.

Əgər biz meracla bağlı ayələrdə buyurulmuş ölçüləri sıralasaq, belə bir mənzərə görünər:

- Bəqərə surəsinin son ayələri
- Allaha (c.c) şərik qoşmayan bütün insanların bağışlanması
- Namaz
- Allaha (c.c) şərik qoşmamaq
- Ata-anaya hörmət və itaət

---

[207] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 261.
[208] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. V, s. 510.

- Qohum-əqrabaya, kasıba, qürbətdə olanlara yardım etmək
- İsrafa yol verməmək
- Övladlarını öldürməmək
- Zinaya yaxınlaşmamaq
- Nahaq yerə heç kimi öldürməmək
- Yetimlərə yaxşı baxmaq
- Söz verəndə yerinə yetirmək
- Yer üzündə təkəbbürlə gəzməmək
- Doğru olana əməl etmək
- Kor-koranə heç kimi yamsılamamaq

Hz. Nizami də beytdə maddi nemət olan xurmanın yuxarıda sadaladığımız keyfiyyətlərini nəzərə alaraq merac nemətinin bərəkətini onunla izah etmişdir.

Şairin şərhində hz. Məhəmmədə (s.a.s) müraciətlə deyilmiş «ağzını aç» müraciəti merac nemətini, İslamı bizə izah et, öyrət anlamındadır. Bu müraciət həm də Peyğəmbərin təbliğ vəzifəsinə işarə edir.

Hz. Nizami bu beytdə hz. Məhəmmədin (s.a.s) bütün insanlığa göndərilmiş bir Peyğəmbər olduğunu da önə çəkir, Merac nemətinin bütün insanların ruzisi olduğunu bəyan edir. **Şair «hamıya şəkər nəsib olsun» deyərək «hamı» sözü ilə bütün insanlığı, «şəkər» sözü ilə də merac nemətini nəzərdə tutur.**

**Şair ikinci misrada da yeniliyi, təzə xəbəri, merac hadisəsinin yaratdığı mənəvi-siyasi iqlimi, müjdəni də «Onun dodaqlarının (ağız suyunun) təravəti» deyərək ifadə etmişdir.**

Merac islam tarixində yeni bir mərhələ yaratdı. Uca Allah (c.c) hz. Məhəmmədi (s.a.s), müsəlmanları merac nemәti ilə gücləndirdi, onlara yeni dövrün vəzifəsini verdi,

bu vəzifənin yerinə yetirilməsinin yollarını göstərdi. Sıxıntı içində yaşayan Peyğəmbər və müsəlmanlar merac müjdəsi ilə çıxış yolu tapdılar.

Hz. Nizami xurma ilə merac neməti arasında əlaqə yaradaraq bu fikri belə izah edir. Şair belə bir mənzərəni yaradır. Aclıq, sıxıntı var. Bu ac olan insanlar aclıqdan əziyyət çəkirlər. Xurma gətirildi (merac neməti gətirildi) süfrədə oturanlar ondan yedilər, özlərinə gəldilər, gözlərinin nuru, dizlərinin gücü artdı. Onlar yaşamaq, mübarizə aparmaq üçün güc qazandılar. Hz. Məhəmmədin (s.a.s) gətirdiyi xurmadan (merac nemətindən) hamıya pay düşdü, hamının ağzı şirin oldu.

Xurma bərəkətdir. Hz. Məhəmməd də (s.a.s) müsəlmanı xurma ağacına bənzədib. Bərəkətli müsəlmanın borcu da bütün insanlar üçün bir bərəkətli xurma kimi olmaqdır, uca Allahın (c.c) merac nemətini hamıya paylamaqdır. Hz. Nizaminin bu beytinin bərəkəti də bununla bağlıdır.

## SƏKKİZİNCİ BEYTİN ŞƏRHİ: SƏNƏ OLAN EŞQİN ATƏŞİ BİZİM ÜÇÜN DİRİLİK SUYUDUR

ای شب گیسوی تو روز نجات
آتش سودای تو آب حیات

***Sənin gecə (kimi qara) tellərin (bizim üçün) nicat günüdür.***

***Sənə olan eşqin atəşi bizim üçün dirilik suyudur.***[209]

Hz. Nizami bu beytdə hz. Məhəmmədin (s.a.s) insanlıq üçün dəyərini, insanların Ona olan ehtiyacını şərh etmişdir. Şair Peyğəmbərə olan ehtiyacı anlatmaq üçün bir sıra vasitədən istifadə etmişdir. Əgər məsələyə fəlsəfi baxımdan yanaşsaq, ehtiyac anlayışının bir şeyin yoxluğu ilə varlığı arasındakı münasibətləri ehtiva etdiyini görərik. Yəni ehtiyac iki bir-birinə zidd anlayışla izah oluna bilər. Zəruri bir şeyin yoxluğu ona ehtiyac yaradır. Su yoxdursa, su, sağlamlıq yoxdursa, dərman, iman yoxdursa, iman ehtiyacı yaranır.

Hz. Nizami də insanlığın hz. Məhəmmədə (s.a.s) olan ehtiyacını bədii biçimdə ifadə etmək üçün beytdə zidd anlayışlardan istifadə etmişdir. Şair beytin birinci misrasında hz. Məhəmmədin (s.a.s) saçlarını gecənin qaranlığına bənzətmişdir. Bu təsadüfi deyil. Çünki şair ikinci misrada da hz. Məhəmmədə (s.a.s) olan sevgidən danışır. Burada qara saçla sevgi arasında əlaqə qurulmuşdur. Belə ki, divan ədəbiyyatında qara, qıvrım saç gözəllik anlayışını ifadə edir. Deməli, hz. Məhəmməd (s.a.s) gözəldir, insanlar ona heyrandır və bu eşqin atəşi Onu sevənlər üçün dirilik suyudur.

---

[209] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 34.

Hz. Məhəmmədin (s.a.s) gecə kimi qara saçlarının insanlar üçün nicat günü olmasını necə anlamalıyıq? Bizcə, bunun açması belədir: hz. Məhəmməd (s.a.s) gözəldir, onun gecə kimi qara saçları ona ayrıca bir yaraşıq verir, bu gözəllik onu insanlara sevdirir, bu sevgi insanları hz. Məhəmmədə (s.a.s) bağlayır, bu bağlılıq bir aşiqliyə çevrilir və bu peyğəmbər sevgisi insana nicat verir, onun əbədi səadətinə yol açır.

## DİVAN ƏDƏBİYYATINDA PEYĞƏMBƏRİN SAÇI

Dedik ki, hz. Məhəmmədin (s.a.s) saçı divan ədəbiyyatının geniş yer verdiyi bir mövzudur. Divan ədəbiyyatında qara saç gözəllikdir, onun forması, rəngi, qoxusu gözəl təşbehlərlə ifadə edilmişdir. Hz. Məhəmmədin (s.a.s) saçının qıvrım, qara olduğu şəmail kitablarında yazılmışdır. Divan ədəbiyyatında da gözəl saç deyiləndə qıvrım və qara saç nəzərdə tutulmuşdur. Divan ədəbiyyatında hz. Məhəmmədin (s.a.s) saçı ənbər-şəmim, ənbər-ətir, ənbər-saçan, morgül, çim kimi təşbehlərlə təsvir edilmişdir. Divan şairləri hz. Yusifin (s.a.s) gözəllikdə hz. Məhəmmədin (s.a.s) kölgəsində qaldığını vurğulayaraq Onun saçını təsvir etməkdə aciz olduqlarını vurğulamışlar. Onun saçı güldür, reyhandır, sünbüli-firdövsdir, ənbərdir, müşkdür. «Bütün çiçek ve koku maddeleri ile hz. Peygamberin saçı arasındakı münasibet birinci derecede kokuya dayanır. Ayrıca bazıları şekil, bazıları da renk yönüyle saçla ilgilidir. Cenabi-Hakk sünbülü Peygamberin saçlarına bir misal olsun diye yaratmışdır. Ancak hz. Peygamberin cenaet gülü olan yanakları gibi sünbül da ebediyyen tazeligini korur, solmaz. En parlak inciler Onun dişlerinin üftadesi, sabah rüzgarı ise sünbül saçlarının aşüfterisidir. İlık ve latif bir rüzgar olan

saba hz. Peygamberin saçının kokusunu anbere, güle, reyhana taşır, dolayısıyla bunların güzel kokularının kaynağı yüce Peygamberin saçlarıdır. Hz. Peygamberin gönüllere ferahlık verən anber kokulu kakülü üzerine misk saçılmış cennet sünbülüne benzer».[210]

**Divan ədəbiyyatında Onun saçı cim, dal, lam hərfinə bənzədilmişdir.**

**Rövşəni:**

Sad aynun, mim ağzun, dal zülfün göreli,
Ya nəbi, gitmez dilümden bir nefes zikri – «samed»[211].

(Sad hərfi Sənin gözün, mim hərfi ağzın, dal hərfi zülfün olduğunu görəndən bəri bir an olsun belə «səməd» adı dilimdən düşməz. Sad, mim, dal hərfləri yanaşı yazılanda Səməd sözü oxunur)

**Nətlərdə hz. Məhəmmədin (s.a.s) saçı ən çox lam hərfinə bənzədilmişdir.** Şairlər hz. Məhəmmədin (s.a.s) boyunu əlifə, saçını lama, ağzını da mim hərfinə bənzədərək Qurani-Kərimdə gizli hərflərə (əlif, lam, mim) işarə etmişlər. Bu rəmz – mənası gizli hərflər altı surənin başlanğıcında yer tutur.

**Karamanı Nizami:**

Kaddünle zülf ü ağzuna eyler işareti,
Kuranda her ne yirde «elif lam u mim» ola.[212]

(Quranda «əlif, lam, mim» olan yerlər Sənin boyunu, saçını, ağzını xatırladır)

Çünki saçı iki yerə ayrılır, üzün iki tərəfinə yayılır. Bununla da saç lam hərfinə oxşayır. Xatırladaq ki, hz. Məhəmməd (s.a.s) də saçını bir qədər uzatmış və onu iki

---

[210] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 210.
[211] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 212.
[212] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 212.

yerə ayırmışdır. Bundan başqa, hz. Nizami də Onun saçının rəngini gecənin qaranlığına bənzətmişdir. Ərəb dilində də gecə («leyl») sözü də iki lam hərfi ilə yazılır. Bu yolla da həm hərf, həm də hərflərlə gecə ilə saçı arasında əlaqə yaradılır. Ancaq bu gecə adi bir gecə deyil. Qurani-Kərimdə bir surə adıdır, bir ayədir, uca Allahın (c.c) Allah Rəsuluna görə and içdiyi gecədir, «Vəh-leyl»dir:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

وَاللَّيْلِ إِذَا يَغْشَى

(əl-Leyl, 92/1)

«And olsun (aləmi zülmətə) bürüməkdə olan gecəyə. And olsun işıqlanmaqda olan gündüzə».

Təfsirçilər bu ayəni «Vəd-duha» ayəsi ilə birgə şərh etmişlər. Biri zülmətə, bir nura işarədir. Hz. Nizami də beytdə deyir ki, Sənin gecə kimi qara saçların bizim üçün nicat günüdür. Gün, gündüz isə nurun, işığın rəmzidir. **Bizcə, bu beytin ideyası hz. Məhəmmədin (s.a.s) xilaskarlıq missiyası ilə bağlıdır.** Şair onun bu göndəriliş hədəfini tam açıqlamaq üçün beytin mətninə zidd anlayışları yerləşdirmişdir. Çünki hər zidd əksi ilə anlaşılar. İnsanlığın hz. Məhəmmədədək (s.a.s) olan dövrü və ondan sonrakı mərhələ. Şair bu xilaskarlıq, Peyğəmbərə ehtiyac ideyasını işıq, nur (gün, gündüz) anlayışları ilə vermişdir. Çünki insanlığın ən çox ehtiyacı olan şey işıqdır. İnsanlığın bir qəflət, ölü, bir də oyanış, dirilik halı var. Divan şairləri ehtiyacı, xilaskarlığı ifadə etmək üçün bu anlayışları çox zaman bir arada ifadə etmişlər.

**Kamal Paşazadə:**

Kuran içinde «leyl ü duha» andugı Huda,

Yani ki ruy u muyuna ider senün kasem.[213]

(Uca Allah (c.c) Quranda gecə və gündüzü andığı zaman Sənin üz və saçına and içmişdir)

**Hz. Nizaminin bu beytdə hz. Məhəmmədin (s.a.s) saçının rəngini önə çəkməsinin bir səbəbi də «Vəl-leyl» ayəsinin dolayısı ilə merac gecəsinə aid edilməsidir.** «Kurandakı kasem ayetleri hz. Peygamberin Allah yanındakı deyerini bildiren, şanını yücelten ayetlerdir. «Vel-leyl»de bu itibarla şairane bir tedai ile Merac gecesine afedilir. O kutlu gecede hz. Muhammed arada heç bir vasita olmaksızın doğrudan Cenabi-Hakdan vahiy almışdır. Peygamberimiz bu vahyın sırlarına muhafiz olurken «Vel-leyl» ayeti de Onun şanının ta arşa kadar ulaşmasına bir şahit olmuştur».[214]

**Hz. Nizami öncəki beytlərdə merac gecəsindəki tamaşadan, bu gecənin azuqəsindən, bu gecənin bərəkətinin xurma kimi dəyərli olmasından danışır, sonra da «Vəl-leyl» ayəsinə işarə edərək bir növ bu gecədə hz. Məhəmmədin (s.a.s) insanlığı xilas edəcək elmi, ideyaları, neməti gətirdiyini vurğulayır,** Onun gecə kimi qara saçı bizim nicatımızdır deyir.

**Ayni:**

«Ved-düha», «Vel-leyl» ruy u zülfüni tefsir ider,
Ruz u şeb ey mihr ü meh Sima Habibi-Kibriya.[215]

(«Vəd-duha» və «Vəl-leyl» ayələri gecə-gündüz Sənin üz və zülfünü təfsir edər, ey ayüzlü böyük dost!)

---

[213] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 135.

[214] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 136.
[215] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 211.

Uca Allahın (c.c) duhaya-günəşin parlayıb ən işıqlı olduğu vaxta and içməsi də divan ədəbiyyatında həqiqət günəşinin hz. Məhəmmədin (s.a.s) üfüqündən doğaraq Onun aləmlərə rəhmət olması ilə bağlıdır. O doğuldu, Onun nuru küfrü yox etdi. Onun günəş kimi parlayan üzü «vəd-duha», saçı isə «vəl-leyl»dir.

**Divan şairlərinə görə, bütün ətirli güllər öz ətrini hz. Məhəmmədin (s.a.s) saçından almışdır. Onun saçı ətir saçan cənnət sünbülünə bənzəyər:**

**Haşimi:**

Kakül-i anber-şemimün hoş-safayi dil-guşa,
Sünbüli-firdevse benzer kim saçılmışdur zübat.[216]

(Ənbər ətirli, xoş səfalı, ürəkoxşayan saçın cənnət sünbülünə bənzər)

Bir sıra şeirlərdə hz. Məhəmmədin (s.a.s) saçının qıvrım olması mənalandırılmışdır. Məsələn, Onun qıvrım saçı «səbir ölkəsi yağmalanan Rəsulullah aşiqlərinin ağlını zəncirə vurar», «Onun saçının halqasına eşq ahuları bağlıdır», «Onun qıvrım saçının düyünü bütün kainatı nizama salır»:

**Cəm Sultan:**

Alem nizam bulmaz idi intizami-nazm,
Akd itmeseydi turrası çini Muhammedün.[217]

(Əgər hz. Məhəmmədin (s.a.s) qıvrım saçının düyünü olmasaydı aləmdə nizam olmazdı)

**Bir sıra nətlərdə hz. Məhəmmədin (s.a.s) saçı aşiqlərin, Leyli və Məcnunun evidir, sığınacaq yeridir.**

**Nəccarzadə Riza:**

Gönül Kaysi-mahabbet hanesidir, ya Resulullah,

---

[216] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 211.
[217] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 213.

Saçın Leylasının kaşanesidir, ya Resulullah.[218]

(Könlün Qeysin məhəbbət evidir. Saçın Məcnunun Leylasının yuvasıdır, ey Rəsulullah)

**Başqa nətlərdə hz. Məhəmmədin (s.a.s) saçı Kəbənin qara örtüyünə bənzədilmişdir. Onun saçı Kəbə örtüyü kim iki yana ayrılmışdır.**

**Nazim:**

Kisve vü sengi-siyahi-Kabeden ey Nuri-Hakk,
Arızında ol iki gisu vü halindür senin.[219]

(Ey Haqqın nuru, sənin üzünə tökülmüş saçın Kəbənin qara daşının üzərinə örtülmüş örtükdür)

**Bir sıra nətlərdə hz. Məhəmmədin (s.a.s) saçı məcazi mənada Allahın (c.c) kölgəsi kimi təsvir edilmişdir. Başqa nətlərdə isə Onun saçı «qara nur» kimi verilmişdir.**

**Nətlərdə hz. Məhəmmədin (s.a.s) saçı Qurani-Kərimin nazil olduğu Qədir gecəsinə, hz. Məhəmmədin (s.a.s) peyğəmbərliyinin bildirildiyi Bərat gecəsinə bənzədilmişdir.**

**Nəsimi:**

Sureti-envarunun her zerresi şems ü kamer,
Turrai-anber feşanun Leyletül-kadr ü Berat.[220]

(Nur saçan üzünün hər zərrəsi günəş və aydır, ənbər ətirli saçın Qədir və Bərat gecəsidir)

Nətlərdə bildirilir ki, Qədir gecəsi hz. Peyğəmbərin (s.a.s) saçına bir qara quldur, Onun saçı Qədir, üzündəki xal

---

[218] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 213.
[219] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 214.
[220] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 214.

Merac gecəsidir, Onun yanağı peyğəmbərlik bağında bir gül, saçları da sünbüldür.

**Hz. Nizami Peyğəmbərin saçının gecə kimi qara olmasını Merac gecəsinin nemətlərinin şərh edildiyi bir mətn daxilində təsvir etmişdir. Merac hadisəsi bir gecə qaranlığında baş vermişdir, ancaq bu gecənin bərəkəti o qədər çoxdur ki, qiyamətədək tükənməyəcək. Bu gecənin bərəkəti və merac nemətinin verildiyi hz. Məhəmməd (s.a.s) insanlığın xilasgarıdır.**

## NİZAMİYƏ GÖRƏ DİRİLİK SUYU

Hz. Nizami beytin ikinci misrasında insanlıq üçün başqa bir ölçü vermişdir. Şairə görə, insan uca Allahı (c.c) tanımaq, onu sevmək, uca Allahın (c.c) vəd etdiyi, müjdələdiyi nemətlərə qovuşmaq istəyirsə, o, hz. Məhəmmədə (s.a.s) aşiq olmalıdır, onu sevməlidir, Onun eşqinin atəşi aşiqi yandırmalı, təmizləməlidir. Peyğəmbər aşiqi canını Ona fəda etməlidir. Şairə görə, hz. Məhəmmədi (s.a.s) sevmədən uca Allahı tanımaq, doğru yola qovuşmaq, rəhmət evinə girmək, tamaşa etmək, merac azuqəsindən dadmaq olmaz. Şair bu beytdə də iki zidd anlayışdan (atəş, su) bacarıqla yararlanmışdır. Adi halda su atəşi söndürər, yox edər, ancaq hz. Nizaminin təfsirində Peyğəmbər sevgisinin atəşi sevənlərə dirilik suyu verir.

**Hz. Nizaminin ilahi nemәti, azuqəni, tamaşa haqqını qazanmaq üçün irəli sürdüyü Peyğəmbər sevgisi ölçüsünü uca Allah (c.c) müəyyən etmişdir:**

Uca Qurana görə, Peyğəmbərə qarşı çıxmağın sonu Cəhənnəmdir:

لاَّ خَيْرَ فِي كَثِيرٍ مِّن نَّجْوَاهُمْ إِلاَّ مَنْ أَمَرَ بِصَدَقَةٍ أَوْ مَعْرُوفٍ أَوْ إِصْلاَحٍ بَيْنَ النَّاسِ وَمَن يَفْعَلْ ذَلِكَ ابْتَغَاء مَرْضَاتِ اللّهِ فَسَوْفَ نُؤْتِيهِ أَجْراً عَظِيماً

(ən-Nisa, 4/114)

«Hər kəs özünə doğru yol aşkar olandan sonra Peyğəmbərdən üz döndərib möminlərdən qeyrisinin yoluna uyarsa, onu istədiyi (özünün bildiyi) yola yönəldər və cəhənnəmə vasil edərik. Ora necə də pis yerdir».

**Qurana görə, Peyğəmbərə düşmən olan yolu azmışdır:**

وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى اللَّهُ وَرَسُولُهُ أَمْراً أَن يَكُونَ لَهُمُ الْخِيَرَةُ مِنْ أَمْرِهِمْ وَمَن يَعْصِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ ضَلَّ ضَلَالاً مُّبِيناً

(əl-Əhzab, 33/36)

«Allah və Peyğəmbəri bir işi hökm etdiyi zaman heç bir mömin kişiyə və qadına öz işlərində başqa yol seçmək (öz ixtiyarı ilə ayrı cür hərəkət etmək) yaraşmaz. Allah və Onun Peyğəmbərinə asi olan kəs, şübhəsiz, (haqq yoldan) açıq-aydın azmışdır».

Uca Allah (c.c) Qurani-Kərimdə hz. Məhəmmədə (s.a.s) itaəti əmr edir:

مَّنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللّهَ وَمَن تَوَلَّى فَمَا أَرْسَلْنَاكَ عَلَيْهِمْ حَفِيظاً

(ən-Nisa, 4/80)

«Peyğəmbərə itaət edən kimsə, şübhəsiz, Allaha itaət etmiş olur. Kim üz döndərərsə, (qoy döndərsin)! Biz ki səni onların üzərində gözətçi olaraq göndərməmişik».

Hz. Nizami Peyğəmbər sevgisinin çoxluğunu, ona tam təslimiyyəti «atəş» sözü ilə ifadə etmişdir. Bu, elə bir sevgidir ki, aşiqin könlündə Peyğəmbər sevgisindən başqa hər şeyi yandırar.

Şair bu sevginin nəticəsini də «dirilik suyu» anlayışı ilə ifadə etmişdir. Peyğəmbəri  hər şeydən: atadan, anadan, maldan çox sevin, Onun buyurduqlarına əməl edin, Onun yolunda hər cür çətinliyə hazır olun, sonda da cənnəti qazanın, dirilik suyundan için.

Hz. Nizaminin beytdə istifadə etdiyi dirilik suyu anlayışı divan ədəbiyyatında çox işlədilmişdir.

**Dirilik suyu – abi-həyat təsəvvüfdə uca Allahın (c.c) əl-Hayy adının gerçəklərini ifadə edir. Bu adın həqiqətlərini bilən, onu yaşayan insan dirilik suyunu içmiş sayılır.** Bu insan uca Allahın (c.c) «Hayy» (əbədi olaraq diri) adı kimi yaşayır, diri olur, başqa canlılar da onun vasitəsi ilə dirilik qazanırlar. Farsca həyat suyu demək olan abi-həyat bir ölümsüzlük, dirilik qaynağıdır. Divan ədəbiyyatında abi-həyatla yanaşı «abi-zendəqani», «abi-cavidani», «dirilik suyu», «bəngi-su», «həyat-qaynağı», «aynül-həyat», «məhrül-həyat», «abi-Xızır», «abi--İskəndər» kimi anlayışlar da işlədilmişdir.

**Qurani-Kərimdə də dirilik suyuna işarə var.** İsrail oğullarının peyğəmbəri hz. Musa (s.a.s) bir gün gənc dostu ilə birlikdə səfərə çıxır. Onların məqsədi yolda həzrət Xızır ilə görüşməkdir. Görüş yeri də «iki dənizin birləşdiyi» yerdir. Hz. Musa (s.a.s) bu yeri tanıya bilmək üçün özü ilə balıq götürür. Bu balığın dirilib dənizə atılması görüş yerini bildirən bir işarə olacaq. Ancaq hz. Musanın (s.a.s) gənc dostu dəniz sahilinə çatdıqları qayanın yanında balığın canlanaraq dənizə tullandığını ona xəbər verməyi unudur. Yolda yemək üçün əyləşəndə o, vəziyyəti olduğu kimi danışır. Bundan sonra hz. Musa (s.a.s) yenidən o yerə qayıdır və axtardığı insanın orada olduğunu görür. Uca Allahın (c.c) «rəhmət», «gizli elm» verdiyi bu qulun Xızır olduğu ayrı-ayrı hədislərdə bildirilmişdir.[221]

Duzlu balığın dirilməsinin səbəbini İmam Buxari belə açıqlamışdır: «…Bu hadise göre, Hızırla buluşacaqları kayanın dibinde bir ayn (kaynak) var idi ki, buna hayat kaynağı (aynül-hayat, abi-hayat) deyilirdi. O suyun temas

[221] «Tasavvuf terimleri ve deyimleri sözlügü» (haz. Ethem Cebecioğlu), İstanbul, 2005, s. 28-29.

edib de diriltmediyi hiç bir şey yoktu. Tuzlu balığa işte bu sudan sıçramıştır».[222]

**Abi-həyat Zülqərneyn hadisəsində də var.** Nuhun (s.a.s) nəvəsi, yunanların soyundan olan İskəndər Zülqərneyn əbədi həyat verən, qeyri-adi güc bəxş edən abi-həyatın olduğunu eşidir. O, bu suyu axtarmağa başlayır. Rəvayətə görə, Allah bunu Samın soyundan birinə qismət edəcək. Zülqərneyn xalasının oğlu olub, Xızır kimi tanınan İlyas ilə əsgərlərin müşayəti ilə səfərə çıxır. Abi-həyat da qaranlıq, zülmət ölkəsindədir. Yolda fırtına olur, Zülqərneyn və Xızır əsgərlərdən ayrı düşür. Bir müddət sonra qaranlıqlar ölkəsinə gəlirlər. Zülqərneyn sağa, Xızır sola gedərək yollarını müəyyən etməyə çalışırlar. Xeyli vaxtdan sonra Xızır ilahi bir səs eşidir və bir nur görür. Bu nur onu özünə çəkir. O, bu nurun ardınca gedir və dirilik suyunu tapır. O, bu sudan içir, yuyunur, əbədi həyata qovuşur, qeyri-adi güc qazanır. Sonra onlar qarşılaşırlar. Zülqərneyn vəziyyəti öyrənir və bilir ki, dirilik suyunu axtarsa da, tapa bilməz, o, taleyi ilə barışır, bir az sonra ölür.[223]

Divan ədəbiyyatında dirilik suyu mənasında olan «abi-həyavan», «abi-inayət» ifadələri də işlədilmişdir ki, bunlar da doğru yolda olan insanın qəlbində ilahi nurun parıldaması mənasındadır, bu bir ilahi rəhmətdir. Dirilik suyu mənasında olan «çeşmeyi-heyvan» («həyat çeşməsi») «çeşmeye-zendeqani» də Allahı (c.c) tanımağın qaynağı kimi şərh edilmişdir.

---

[222] «Tasavvuf terimleri ve deyimleri sözlügü» (haz. Ethem Cebecioğlu), İstanbul, 2005, s. 29.

[223] «Tasavvuf terimleri ve deyimleri sözlügü» (haz. Ethem Cebecioğlu), İstanbul, 2005, s. 29.

**Bu deyimlər ilahi rəhməti, ilahi nuru, ilahi sevgini təmsil edir. Dirilik suyu bir can suyudur. O, həyat bəxş edir, onun bir damlası belə, insanı ölümsüzləşdirir, bu su çox durudur, dadlıdır, parlaqdır, bu su uca Allah (c.c) və Peyğəmbər aşiqlərinin dodağındakı sudur, bu su sevgilinin sözüdür, söhbətidir, bu su Allah (c.c) dostlarının sözü, öyüdü, nəsihətidir, bu su sevgi bulağıdır, Allah (c.c), Peyğəmbər sevgisi ilə alışıb-yananlar ondan içər və ilahi rahatlığa qovuşarlar, bu eşq suyunu içənlər ölməzlər.**

İndi bu anlayışlar işığında hz. Nizaminin misrasını bir də oxuyaq:

***Sənə olan eşqin atəşi bizim üçün dirilik suyudur.***

**Hər şeydən öncə şair bu deyimlə beytlər arasında məntiqi, bədii bağlılıq qurmuşdur. «Rəhmət evinin mərkəzi», «ay», «şah», «yol göstərən», «mərhəmətli», «tamaşaya gedən», «ilahi qonaqlığa çağırılan», «nicat günü olan» hz. Məhəmməd (s.a.s) hz. Nizaminin gözündə həm də dirilik suyudur.**

Hz. Nizamiyə görə, Peyğəmbər insanlıq üçün rəhmətdir, o, insanların azuqəsidir, o, insanlar üçün bir şirin, dadlı, qidalı, bərəkətli xurmadır.

**Şairə görə, hz. Məhəmməd (s.a.s) insanlıq üçün dirilik suyudur,** ondan içən dirilər, yəni könlü pisliklərdən təmizlənər, qəlbi nurlanar, bəsirət gözü açılar, o, uca Allahı (c.c) tanıyar və əbədi cənnəti, tükənməyən ilahi rəhməti qazanar.

**Hz. Nizamiyə görə, İslam dini insanlıq üçün bir dirilik suyudur.** Uca Allahın (c.c) hz. Məhəmmədin (s.a.s) elçiliyi ilə insanlığa göndərdiyi bu din insanlıq üçün bir ehtiyacdır, onlar bu dinlə aydınlığa, rəhmətə qovuşar.

**Şairə görə, mübarək merac gecəsinin nemətləri insanlıq üçün bir dirilik suyudur.** Bu nemətləri dadanın ömrü bərəkətlənər, namaz onun gözünün nuru, ruhunun ləzzəti, bağışlanma müjdəsi qəlbinin sevinc qaynağı olar.

**Şairə görə, bu dirilik suyuna qovuşmağın tək yolu hz. Məhəmmədi (s.a.s) aşiqliq səviyyəsində, yanaraq, inanaraq, özünü ona fəda edərək sevməkdir.**

Hz. Nizami insanlığın hz. Məhəmmədə (s.a.s) olan ehtiyacını xurma və dirilik suyu ilə ifadə etmişdir. Şair deyir ki, Sənin eşqinin atəşi bizi yandırmalıdır. Xurmada da yandırıcılıq keyfiyyəti var. Ona görə də, xurmanı su, süd kimi qidalarla içmək tövsiyə olunur. Xurma istilik, enerji verən bir qidadır. **Deməli, aşiq hz. Məhəmmədin (s.a.s) sevgisi ilə xurma yemiş adam kimi alışıb yanmalıdır ki, dirilik suyuna, islam nemətinə, merac azuqəsinə qovuşa bilsin. Xurma yemiş adamın suya ehtiyacı yarandığı kimi, hz. Məhəmmədə (s.a.s) aşiq olan da ilahi vüsala, dirilik suyuna, merac nemətinə qovuşmaq ehtiyacı hiss edər, bu nemətlərə can atar, onları tapar, onlardan dadar və rahatlığa qovuşar.**

## DOQQUZUNCU BEYTİN ŞƏRHİ: AĞIL SƏNƏ MƏFTUN OLMUŞDUR

عقل شده شیفتهٔ روی تو
سلسلهٔ شیفتگان موی تو

***Ağıl sənin surətinin məftunu olmuşdur***
***Bu məftunların silsiləsi Sənin saçının tüklərinin sayı qədərdir.***[224]

Hz. Nizami bu beytdə öncəki beytdə irəli sürdüyü hz. Məhəmmədə (s.a.s) olan ehtiyac ideyasını, əbədi xilasa qovuşmaq ölçüsünü yeni vasitələrlə açıqlamışdır. Şair bu beytdə hz. Məhəmmədi (s.a.s) sevən aşiq obrazı yaratmışdır. Beytdə üzü çox gözəl olan hz. Məhəmməd (s.a.s) var, bir də Onun parlaq, nurlu üzünə aşiq olaraq ağlını itirmiş aşiq.

Hz. Məhəmmədin (s.a.s) üzünün çox parlaq, nurlu olduğu hədislərdə ifadə edilmişdir.

Bir dəfə Rəsulullahdan danışan bir nəfər «hz. Peyğəmbərin üzü qılınc kimi parlardı» demişdi. Həzrət Əbu Ümarə Bəra İbni Azib bu bənzətməni bəyənməmiş və «hz. Peyğəmbərin mübarək üzü ay kimi parlayardı demişdir».[225]

## DİVAN VƏ TƏSƏVVÜF ƏDƏBİYYATINDA SEVGİLİNİN ÜZÜ

Təbii ki, hz. Nizami ağlın məftun olduğu surət deyəndə təkcə Peyğəmbərin üzünün nurlu olmasını nəzərdə tutmur. İslam dininə bağlı olan divan ədəbiyyatında surət (üz) anlayışı dərin mənalar ifadə edİr. Bir söz olaraq surət «biçim», «şəkil», «kamil insan» mənasındadır. Uca Allah (c.c) insanı öz surətində yaratdığına görə, kamil insan Haqqın surətidir. Çünki bütün ad və sifətləri ilə ən mükəmməl biçimdə onda təcəlli etmişdir. Elə buna görə də uca Allah (c.c) insanı yer üzündə özünün xəlifəsi, vəkili təyin etmişdir. Təsəvvüfdə kamil insana «sahibi-surət», «sahibi-əhd» adı verilmişdir.[226] Kamil insan ilahi adların həqiqətlərini gerçəkləşdirdiyi üçün ona ilahinin surəti deyilmişdir.

---

[224] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 34.
[225] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 353.
[226] «Tasavvuf terimleri sözlügü» (haz. Süleyman Uludağ), İstanbul, s. 319.

Təsəvvüf ədəbiyyatında olan «surəti-haqq» anlayışına görə, hz. Məhəmməd (s.a.s) uca Allahın (c.c) təklik və birlik həqiqətini özündə gerçəkləşdirdiyi üçün O, haqqın surətidir, yəni haqqın surəti deyiləndə hz. Məhəmməd (s.a.s) nəzərdə tutulur.

Təsəvvüf ədəbiyyatında «surəti-Məhəmmədiyyə» anlayışı da var. Bu anlayışa görə, uca Allah (c.c) onu əl-Bədi və əl-Qadir adlarının nurlarından yaratmışdır. Böyük təsəvvüf alimi Əbdül-Qadir Geylaniyə görə, uca Allah (c.c) hz. Adəmin surətini «Məhəmmədi surətin» bir nüsxəsi olaraq yaratmışdır. Hz. Adəm cənnətdən çıxarılanda ruhlar aləmindən ayrıldığı üçün ona aid surətin həyatı da sona çatmışdır. Cənnətdə olarkən Allahın (c.c) bildirməsi olmadan hz. Adəm heç bir şeyi özü düşünə bilmirdi. O, dünyaya endiriləndə uca Allahdan (c.c) aldığı bu vicdanı həssaslığı duymaq imanı yox oldu. Çünki cənnətdə biçimlənmiş həyat Onun nəfsiylə, dünyadakı həyat isə ruh ilə idi. Dünya əhlinə görə, bu, Allah (c.c) əbədi həyatla diriltmədikcə ölü sayılır. Ona baxmaq, Onunla Onun zatına baxmaqla mümkündür. Bu da Allahın ad və sifətləri ilə gerçəkləşər. Bu yolla da insan dünyada olarkən cənnətdə olanların vəsfini qazanar. Yəni cənnətdəki kimi Allah (c.c) ona vicdanı duyuşla bildirmədikcə bir şey bilməz, düşünməz.[227]

Divan ədəbiyyatında hz. Məhəmmədin (s.a.s) üzü ayrı-ayrı yönlərdən dəyərləndirilmişdir. Üz insan gözəlliyinin açıq göründüyü bir yer olduğundan Peyğəmbərin nurlu siması şeirlərin mövzusuna çevrilmişdir. Divan şeirində hz. Məhəmmədin (s.a.s) ən gözəl insan olduğu ifadə edilir. Onun üzü «camal», «hüsn» sözləri ilə təriflənir. «…Allahın son elçisi olan hz. Peygamber tebliğ ettiği dinle yer üzünü küfür karanlığından kurtarmış, hidayet güneşi Onun risaletiyle doğmuştur. Bu muazzam mananın fatihi olmakla bizzat kendisi bir iman güneşi olarak kabul edilirken bu muhteva Onun fiziki unsurlarından yüzü üzerinde en yoğun şekilde işlenir. Bu sebeple natlarda yüzü güneş, ay, mum, nur ve Kurani-Kerimdeki güneşe kasem edilen ayetlere benzetilir ve melih, münir, pak ve şerif gibi sifatlarla ele alınır. Bu arada

[227] «Tasavvuf terimleri sözlügü» (haz. Süleyman Uludağ), İstanbul, s. 585.

Onun yalnızca «melihül-vech», yani yüzü güzel olan deyil, aynı zamanda ahlaken de «kalbi safa» uzre olan en temiz ve en yüce insan olduğu, bu yüzden de seçkinliyini bildiren Murtaza, Mücteba, Mustafa isimleriyle anıldığı belirtilir. Onun eşsiz güzelliyini görenlerin bakışları öyle bir feyz alır ki, toprağı altın eder. Ay ve güneş Onun yüzünden feyzyab oldukları için gece-gündüz ravzasına mücevher saçmaları tabiidir. Hz. Peygamberin böylesine güzel, aydınlık ve nurlu yüzü için ele alınan benzetmeler birer ışık kaynağı olan güneş, ay mum, nur gibi unsurlarla ilgilidir».[228]

**Divan şairlərinə görə, hz. Məhəmmədin (s.a.s) gözəlliyi gözəllik simvolu olan hz. Yusifi kölgədə qoymuşdur.**

**Zati:**

…Yusufu gerçi görenler ellerini kesdiler,
Gün yüzün gördi senün şakk oldı bedrün ayesi.[229]

(Yusifi görənlər əllərini kəsdilər, sənin gün üzünü görən Ay ikiyə parçalandı)

**Divan şairlərinə görə, Onun qaşı bir hilaldır, təmiz üzü bir iman günəşidir, üzü iki gecə (ikiyə ayrılmış saçı nəzərdə tutulur) arasındakı İslam gündüzüdür.[230]**

**Divan şeirində hz. Məhəmmədin (s.a.s) üzü qaranlıq gecələri nura qərq edən on dörd gecəlik aya bənzədilmişdir.**

**Nazim:**

Deruni-tirede nuri-cemalin eylesin işrak,
Ki mahi-talatın bedri-dücadır, ya Resulullah.[231]

(Gecənin qaranlığında nurlu üzün parlasın, sənin ay üzün on dörd gecəlik aydır, ey Rəsulullah)

**Divan şeirində Günəş işığına ziya, Ay işığına isə nur deyilmişdir.** Şeirlərdə hz. Məhəmmədin (s.a.s) parlaq üzü ay işığına bənzədilərkən günəşin ziyasının bu nurun parlaqlığı qarşısında zəif göründüyü ifadə edilmişdir:

**Əziz:**

Pür-nur kıldı ol talati –münir,
Buldı kesad revnaki-bazari-sübh-dem.[232]

---

[228] Emine Yeniterzi, göstərilən qaynaq, s. 227.
[229] Emine Yeniterzi, göstərilən qaynaq, s. 228.
[230] Emine Yeniterzi, göstərilən qaynaq, s. 227.
[231] Emine Yeniterzi, göstərilən qaynaq, s. 228.

(O parlaq üz hər yeri nura qərq etdi. Günəş sübh bazarını kasad gördü)

**Divan şairlərinə görə, hz. Məhəmmədin (s.a.s) üzü uca Allahın (c.c) nuru ilə işıqlanmışdır.** Kainatdakı hər şey hz. Məhəmmədin (s.a.s) nurundan yaranmışdır. Günəş, Ay, ulduzlar işığını Onun parlaq üzündən almışdır, Onun mübarək bədəni nurların qaynağıdır, üzü nur aləmidir.

**Divan şairləri hz. Məhəmmədin (s.a.s) parlaq üzünü şama bənzətmişlər.** Ancaq Onun üzü elə bir şama bənzəyir ki, Günəş öz ziyasını Ondan almışdır və bu şam işığı uca Allahın (c.c) nurunu təmsil edir:

**Füzuli:**

Şəmi-ruyin afitabi-aləmaradır sənin
Nuri-Haqq xurşidi-rüxsarında peydadır sənin.[233]

(Sənin şam kimi üzün aləmi bəzəyən günəşdir. Sənin günəş üzündə Haqqın nuru var)

**Divan şairlərinə görə, merac gecəsi hz. Peyğəmbərin (s.a.s) üzünün nuru uca Allaha (c.c) yaxınlıq məclisini işıqlandırmış, Cəbrail bu işığın dövrəsində pərvanə kimi dolanmışdır.**

Divan şeirində hz. Məhəmmədin (s.a.s) üzü rəhmət ayəsinə bənzədilmişdir. Aləmlərə rəhmət olaraq göndəri-lən Peyğəmbər İslam dininə inananlara bu dünya səadətini, şəfaəti ilə də axirət xoşbəxtliyini bəxş etmişdir. Onun üzü rəhmət ayəsidir, yəni iki dünya səadətini özündə cəmləşdirmişdir, onun üzü ancaq rəhmət ayələri yazılmış bir səhifədir.

**Tacizadə Cəfər Çələbi:**

Ey mushafi-cemali kamu rahmet ayetı
Hatm oldu sende iki cihanun seadeti.[234]

(Sənin səhifə olan gözəl üzün hamı üçün rəhmət ayəsidir. İki dünyanın səadəti səndə xətm olundu)

**Divan şairləri hz. Peyğəmbərin (s.a.s) üzünü «Fatihə» və «İxlas» surəsinə bənzətmişlər.** Bu surələr Quranın və başqa səmavi kitabların mahiyyətini özündə ehtiva etdiklərindən

---

[232] Emine Yeniterzi, göstərilən qaynaq, s. 229.

[233] Emine Yeniterzi, göstərilən qaynaq, s. 229.
[234] Emine Yeniterzi, göstərilən qaynaq, s. 230.

və hz. Məhəmmədin (s.a.s) üzünün nuru da uca Allahdan (c.c) olduğundan bu ikisi arasında bənzərlik yaradılmışdır.[235]

**Divan ədəbiyyatında hz. Peyğəmbərin (s.a.s) üzü «Vəş-Şəms» və «Nur» surələrinə bənzədilmişdir.**

**Qivami:**

Ey yüzün şanında nazil «Sureyi-Vəş-Şəms ü Nur»,
İki alem şuleyi-nurundan almışdır sürur.[236]

(«Vəş-Şəmş» və «Nur» surələri Sənin üzünün şanına nazil olmuşdur. İki aləm nurunun şöləsindən sevinmişdir)

**Divan ədəbiyyatında hz. Peyğəmbərin (s.a.s) üzü Kəbəyə, qibləyə bənzədilmişdir.**

**Nəccarzadə Riza:**

Yüzündür kiblegahi-kalbi-arif, ya Resulullah,
Sözündür kufli-ebvabi-maarif, ya Resulullah.[237]

(Üzün arif könüllərin qibləsidir, ey Rəsulullah, sözün maarif qapılarının açarıdır, ey Rəsulullah)

Divan ədəbiyyatında hz. Məhəmmədin (s.a.s) üzü rəhmət qapısı kimi təsvir edilmişdir. Divan şairlərinə görə, Onun üzü uca Allahın (c.c) güzgüsüdür, birlik aynasıdır. Yəni «…Allahın ilmi-zatiyyede gizli bir hazine iken bilinmeyi istedigi ve bu yüzden halkı yarattığı,bütün varlıqların bu aleme Cenabi-Hakkın birliyini göre bilmek içın geldigi bildirilir. Bundan anlaşılan şudur ki, Allah kendi birligini seyr etmek üçün hz. Muhammedi, Onun nurundan da bütün varlıkları yaratmışdır. İlk yaratılan cevher, yani Allahın ilk tecellisi hz. Peygamberin nurudur. Bu nur surette ilk insan olan hz. Ademden başlayarak diger peygamberlerce taşınmış, nihayet, hz. Muhammedin alnında tezahür etmiştir…».[238]

**İffet Bursevi:**

Kıldı envari-cebinünden tecelli zati-Hak,
Aleme miratı-vahdetdür cemali – Mustafa.[239]

(Haqqın zatının təcəllisi nurlu alnında təcəlli etdi. Mustafanın camalı aləmin vəhdət güzgüsüdür)

---

[235] Emine Yeniterzi, göstərilən qaynaq, s. 231.
[236] Emine Yeniterzi, göstərilən qaynaq, s. 227.
[237] Emine Yeniterzi, göstərilən qaynaq, s. 232.
[238] Emine Yeniterzi, göstərilən qaynaq, s. 233.
[239] Emine Yeniterzi, göstərilən qaynaq, s. 233.

**Divan ədəbiyyatında hz. Məhəmmədin (s.a.s) üzü gülə, gülşənə də bənzədilmişdir.** Bunun ən gözəl nümunəsini də **Füzuli** yaratmışdır:

Suya versin bağban gülzarı zəhmət çəkməsin,
Bir gül açılmaz üzün tək versə min gülzarə su.[240]

## NİZAMİYƏ GÖRƏ MƏFTUNLUQ ANLAYIŞI

Hz. Nizami səkkizinci beytdə uca Allahı (c.c) tanımaq elminin ölçüsünü, yolunu göstərərək bunun hz. Məhəmmədi (s.a.s) bütün varlığı ilə sevmək olduğunu, Onun sevgisinin insanlıq üçün dirilik suyu sayıldığını şərh etmişdir. Şairə görə, bu dünyada və axirətdə xoşbəxt olmağın yolu hz. Məhəmmədi (s.a.s) sevməkdir.

Hz. Nizami doqquzuncu beytdə də bu ideyanı başqa detallarla vermişdir. Şairə görə, insan üçün ən dəyərli nemətlərdən biri olan ağıl Onun uca Allahın (c.c) nuru olan üzünün məftunudur. Məftunluq çox sevmək, inanmaq, heyrətə düşmək anlayışları ilə bağlıdır. Şairin burada məftun olanların sırasında ağılı ayrıca göstərməsinin də səbəbi var. **Belə ki, ağıl nemətinin vəzifəsi insanın davranışlarına nəzarət etmək, yaxşını pisdən ayırmaqdır. Şair hz. Məhəmmədin (s.a.s) gözəlliyinin dərəcəsini ifadə etmək üçün hər şeyə nəzarət edən ağılın belə, bu gözəllik qarşısında özünü itirdiyini, məftun olduğunu bildirmişdir. Xalq dilində də bir şeyin həddən artıq gözəl olduğunu bildirmək üçün «ağlını əlindən almaq», «ağlı başından çıxmaq», «ağlını itirmək» kimi deyimlərdən istifadə olunur.**

Şair ağılın hz. Məhəmmədin (s.a.s) nurlu üzünə məftun olduğunu deməklə iki məsələnin önəmini vurğulamışdır, bizə ölçü vermişdir. Həqiqətən, o nurlu Peyğəmbərin üzü çox gözəldir, bu nur Allahdandır (c.c) və hz. Məhəmmədi (s.a.s) sevmək «ağlını itirmək» dərəcəsində olmalıdır ki, bu heyranlıq, bu məftunluq insana doğru yolu göstərsin.

Hz. Nizami, hz. Məhəmmədi (s.a.s) sevənlərin çoxluğunu ifadə etmək üçün iki vasitədən istifadə etmişdir. **Şair öncə bu məqsədlə «silsilə» sözündən yararlanmışdır.**

[240] Emine Yeniterzi, göstərilən qaynaq, s. 234.

**«Silsilə» sözü ardıcıllıq, çoxluq, sıraya düzülmək, bir-birinə bağlılıq mənalarını ifadə edir. Şair deyir ki, Sənin nurlu üzün elə gözəldir ki, Sənin aşiqlərin bu parlaq üzü görmək üçün sıraya düzülmüşlər, Sənin sevgin onları bir-birinə bağlamışdır, onları bir ümmətə çevirmişdir, onları bir-birinə qardaş olmuşlar. Bu silsilədə qarışıqlıq deyil, nizam var. Çünki hz. Məhəmməd (s.a.s) sevgisi insanı və toplumu nizama salır, fərdin və cəmiyyətin ruhu ilə varlığı arasında tarazlıq yaradır, Onun sevgisi insanı, cəmiyyəti nizamlayacaq ölçülər verir.** Sevgi də bütün ölçülərin qaynağıdır, hz. Məhəmməd (s.a.s) də bir ölçü peyğəmbəridir. Onun sevgisi qarışıqlıq və xaosdan qurtulmaq vasitəsidir. İslam deyir ki, möminlər bir-birilərinin qardaşıdırlar. Bu qardaşlıq da uca Allah (c.c) və hz. Məhəmməd (s.a.s) sevgisi üzərində qurula bilər.

Şair daha sonra hz. Məhəmmədə (s.a.s) aşiq olanların sayının çox olduğunu ifadə etmək üçün bu aşiqlərin sayının hz. Məhəmmədin (s.a.s) saçının tüklərinin sayı qədər olduğunu bildirmişdir. Gerçəkdən, saçın tüklərini saymaq mümkün deyil. Şairə görə, sevgilini sevənlərin sayı Onun gözəlliyinin dərəcəsindən asılıdır. **Şairin təqdimatında ağlın məftun olması, aşiqlərin silsilə yaratması, onların sayının Peyğəmbərin saçının tükləri qədər olması hz. Məhəmmədin (s.a.s) gözəlliyini təsvir etmək, Ona aşiq olmağın bir qurtuluş vasitəsi olduğunu anlatmaq üçündür.**

## ONUNCU BEYTİN ŞƏRHİ:
## SÜBH SƏNİN GÜNƏŞ ÜZÜNÜN
## BİR TƏBƏSSÜMÜDÜR

**چـــرخ ز طـوق كمـــرت بنـــده اى**
**صـــبح ز خـورشيد رخت خنده اى**

***Çərx Sənin kəmərinin ilgəyinin bir qulcuğazıdır,***
***Sübh Sənin Günəşə (bənzər) surətinin bir təbəssümüdür.***[241]

Hz. Nizami bu beytdə hz. Məhəmmədi (s.a.s) tanıdarkən gözəl obrazlardan istifadə etmişdir. Şair üçüncü nətin ikinci beytində yer üzünü bir «rəhmət evinə» bənzətmiş və hz. Məhəmmədi (s.a.s) də bu mübarək evin mərkəzi kimi göstərmişdi. Bu beytdə isə şair çərx obrazı ilə göyləri nəzərdə tutmuşdur. Təbəqə-təbəqə olan sonsuz göy üzü və bu göy üzündə olan səma cisimləri hz. Məhəmmədin (s.a.s) kəmərinə bağlıdır. **Burada kəmər hakimiyyət, güc, səlahiyyət, imkan mənalarında işlədilmişdir. Şair misrada bir sultan obrazı yaratmışdır. Onun hakimiyyət və səlahiyyəti çox böyükdür, yeri və göyü əhatə edir.**

## DİVAN ƏDƏBİYYATINDA
## HZ. MƏHƏMMƏDİN (s.a.s) SULTAN OBRAZI

Divan ədəbiyyatında hz. Məhəmmədin (s.a.s) sultanlığı, hakimiyyəti adi sultanlardan fərqli bir biçimdə təqdim olunmuşdur. **Onun taxtı məkansızlıq aləmidir, Onun əsgərləri peyğəmbərlər və mələklərdir, onun vətəndaşları bütün canlılardır, Onun ölkəsi yeri və göyləri əhatə edir, O, çox şəfqətli, ədalətli hökmdardır, Onun səltənətini uca Allah (c.c) müəyyən etmişdir, Onu uca Allah (c.c)**

[241] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 34.

**sultan seçmişdir, Onun sultanlığı qiyamətədək davam edəcək. O, iki cahanın, peyğəmbərlərin, risalətin sultanıdır. O, şəfqətin, mərhəmətin, ədalətin sultanıdır.**

**Zati:**

Serveri-ruyi-zeminsin şahi-eflaki-berin,
Miri-cündi-enbiya sultani-mülki-mucicat.[242]

(Sən yer üzünün başçısı, fələklər mülkünün şahısan, möcüzələr mülkünün sultanı, peyğəmbərlərin böyüyüsən)

**Yəhya bəy:**

Mülki-dünya padşahı ahiret sultanısın,
On sekkiz bin alemin bir şahi-ali-şanısın.[243]

(Sən dünya mülkünün padşahı, axirətin sultanısan, on səkkiz min aləmin şanı uca olan şahısan)

## YERİN VƏ GÖYÜN MƏHVƏRİ HZ. MƏHƏMMƏDDİR (s.a.s)

Hz. Nizami də bu mənanı ifadə etmək üçün göyün, göydə olanların bir qul kimi hz. Məhəmmədə (s.a.s) itaət etdiyini bildirmişdir. Bu «qullar» Onun kəmərinin ilgəyinə bağlıdır, Onun istəyinə uyğun hərəkət edirlər.

**Hz. Nizaminin bu misrası hz. Məhəmmədlə (s.a.s) bağlı bir neçə mənanı ifadə edir.**

**Şairə görə, hz. Məhəmməd (s.a.s) bir son peyğəmbər olaraq bütün insanlığa göndərilmişdir.** O, bir qövmün, bir millətin deyil, bütün insanlığın peyğəmbəridir.

**Hz. Nizamiyə görə, hz. Məhəmməd (s.a.s) insanların və cinlərin peyğəmbəridir.** Onun hökmü yerdəkilərə və göydəkilərə aiddir.

---

[242] Emine Yeniterzi, göstərilən qaynaq, s. 320.
[243] Emine Yeniterzi, göstərilən qaynaq, s. 320.

**Şairə görə, uca Allah (c.c) yeri və göyü Onun xatirinə yaratmışdır.** Şair bu misrada göyün və göydəkilərin hz. Məhəmmədə (s.a.s) olan sevgisini anlatmışdır. Onlar hz. Məhəmmədi (s.a.s) sevdiklərindən Ona itaət edirlər.

**Bu misranın bir mənası da odur ki, yerdəkilər və göydəkilər hz. Məhəmmədə (s.a.s) tabe olmasalar, Onun ölçülərini qəbul etməsələr, kainatın nizamı pozular. Yerin və göyün məhvəri hz. Məhəmməddir (s.a.s).** Əgər O olmasa, Onun gətirdiyi ilahi dəyərlərə itaət edilməsə, ilahi sistem dağılar.

## ŞAİRİN NUR MƏNZƏRƏSİ

Hz. Nizami beytin ikinci misrasında bir nur seli yaratmışdır. **Şair «sübh», «Günəşə bənzəyən üz», «təbəssüm» sözləri ilə parlaq bir mənzərə təsvir etmişdir.** Şairin təsvir etdiyi bu nur mənzərəsi Quranın nazil edilməsinin və hz. Məhəmmədin (s.a.s) peyğəmbər seçilməsinin başlıca hədəfini təsvir edir. Hz. Nizami deyir ki, Sən elçi olaraq seçildin, aləm nura boyandı, insanlar qaranlıqdan qurtuldu, insanları boğan cəhalət zülməti yox oldu.

Misrada «sübh» sözü Qurani-Kərimin və hz. Məhəmmədin (s.a.s) gətirdiyi nurun, elmin, mərhəmətin, ədalətin rəmzidir. «Sübh» anlayışında təmizlik, gözəllik mənaları da ehtiva olunub. Uca Quran və mübarək elçi insanlığa bir nur, bir rəhmət olaraq bəxş edilmişdir.

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ
الَر كِتَابٌ أنزَلْنَاهُ إِلَيْكَ لِتُخْرِجَ النَّاسَ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِ رَبِّهِمْ إِلَى صِرَاطِ الْعَزِيزِ الْحَمِيدِ

(İbrahim, 14/1)

«Əlif, Lam, Ra! (Ey Rəsulum! Bu Quran) elə bir Kitabdır ki, onu sənə insanları onların öz Rəbbinin izni ilə zülmətlərdən nura (küfrdən imana) – yenilməz qüvvət sahibi, (hər cür) tərifə (şükrə) layiq olan Allahın yoluna (İslam dininə) çıxartmaq üçün nazil etmişik».

**Hz. Nizamiyə görə, insanlar qaranlıqdan, zülmətdən qurtulub sübhə qovuşanda sevindikləri kimi, hz. Məhəmmədin (s.a.s) varlığı da onlara sevinc bəxş etdi.**

«Sübh» qaranlığın sona çatıb, aydınlığın başladığını bildirən vaxt olduğu kimi, hz. Məhəmmədin (s.a.s) varlığı da zülmətin, küfrün yox olub, işığın, imanın könüllərə yerləşməsi deməkdir.

Şair bütün nətlərində Quranı, hz. Məhəmmədi (s.a.s) təqdim edərkən işıq obrazından istifadə etmişdir. O, bu beytdə də peyğəmbərin üzünü doğan Günəşə, açılan sübh çağına bənzədərək İslamın, imanın insanlıq üçün önəmini anlatmışdır.

## ON BİRİNCİ BEYTİN ŞƏRHİ: BU ALƏMİN İSLANMIŞ ƏTƏYİ SƏNİN SAYƏNDƏ QURUDU

عالم تردامـن خـشك از تـــو يـافـت
نـاف زمين نـافهٔ مشك از تو يافت

***Bu aləmin islanmış ətəyi Sənin sayəndə qurudu,***
***Yerin göbəyi müşk göbəyini Səndən aldı.***[244]

Hz. Nizami bu beytdə hz. Məhəmmədin xilaskarlıq missiyasını şərh etmək üçün gözəl, dərin mənalarla yüklü olan obrazlı ifadələrdən istifadə etmişdir. **Şair «aləmin islanmış ətəyi» deyərkən günahları nəzərdə tutmuşdur. «İslanmış ətək» ifadəsi yerlə sürünən, toz-torpağa bulaşmış, çirklənmiş, insanın normal hərəkətinə mane olan ətək deməkdir. İslanmış ətək insanın normal hərəkətinə mane olduğu kimi, günahlar da fərdin, cəmiyyətin inkişafına mane olur, doğru yolun önünü kəsir.**

Uca Allah (c.c) Qurani-Kərimdə günah anlayışının ma hiyyətini açıqlamışdır. **Qüdrət sahibi olan Allahın (c.c) buyruğuna görə, Allaha (c.c) şərik qoşmaq ən böyük günah dır.**

وَإِذْ قَالَ لُقْمَانُ لِابْنِهِ وَهُوَ يَعِظُهُ يَا بُنَيَّ لَا تُشْرِكْ بِاللَّهِ إِنَّ الشِّرْكَ لَظُلْمٌ عَظِيمٌ

(Loğman, 31/13)

«(Ey Rəsulum!) Yadında olsun ki, bir zaman Loğman öz oğluna nəsihət edərək belə demişdi: «Oğlum! Allaha şərik qoşma. Doğrudan da, Allaha şərik qoşmaq böyük zülmdür! (Ağır günahdır!)».

وَجَعَلُواْ لِلّهِ مِمِّا ذَرَأَ مِنَ الْحَرْثِ وَالأَنْعَامِ نَصِيباً فَقَالُواْ هَـذَا لِلّهِ بِزَعْمِهِمْ وَهَـذَا لِشُرَكَآئِنَا فَمَا كَانَ لِشُرَكَآئِهِمْ فَلاَ يَصِلُ إِلَى اللّهِ وَمَا كَانَ لِلّهِ فَهُوَ يَصِلُ إِلَى شُرَكَآئِهِمْ سَاء مَا يَحْكُمُونَ

(əl-Ənam, 6/136)

---

[244] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 34.

«(Müşriklər) Allah üçün Onun yaratdığı əkindən və davardan pay ayırıb öz (batil) inanclarına görə: «Bu, Allahın və bu da (Allaha) şərik qoşduğunuz bütlərin!» - dedilər. Onların bütləri üçün ayrılmış hissə Allaha çatmaz, Allah üçün ayrılmış hissə isə bütlərə çatardı. Onların verdikləri hökm necə də pisdir!».

**İslam Peyğəmbəri də Allaha (c.c) şərik qoşmağın ən böyük günah olduğunu buyurmuşdur.**

«Allah Rəsulu belə dedi:

- Ən böyük günahı sizə xəbər verimmi?

Biz:

- Bəli, ey Rəsulullah, - dedik.

Allah Rəsulu:

- Allaha şərik qoşmaq, ata-anaya itaətsizlik etməkdir,- dedi.

O, belə buyurduqdan sonra dirsəkləndiyi yerdən qalxdı və oturdu. «Yaxşı düşünün, bir də yalan söyləmək, yalandan şahidlik etməkdir» - buyurdu. O, bu son cümləni ardıcıl təkrarladı. Biz daha çox üzülməsini arzu etmədiyimiz üçün «kaş susaydı» deyə düşündük».[245]

**Qurani-Kərimə görə, «insanın ətəyini isladan» günahlardan biri zinadır.**

قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا مِنْ أَبْصَارِهِمْ وَيَحْفَظُوا فُرُوجَهُمْ ذَلِكَ أَزْكَى لَهُمْ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا يَصْنَعُونَ

(ən-Nur, 24/30)

«(Ey Rəsulum) Mömin kişilərə de ki, gözlərini haram edilmiş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar), ayıb yerlərini (zinadan) qorusunlar (ya da örtülü saxlasınlar). Bu onlar üçün (ədəb-ərkan, təmizlik baxımından) daha yaxşıdır. Şübhəsiz, Allah onların nə etdiklərindən xəbərdardır!».

---

[245] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 525.

**Hz. Məhəmməd (s.a.s) böyük günahları sadalayaraq buyurur:**

«Allaha heç bir şeyi ortaq etməyin, oğurluq etməyin, zina etməyin, haqsız yerə Allahın haram etdiyi bir nəfsi öldürməyin, bir adamı öldürmək üçün güc-qüdrət sahibi bir kimsənin yanına getməyin, sehrlə məşğul olmayın, faiz yeməyin, evli və namuslu bir qadına namussuzdur deyə, iftira etməyin, döyüşün qızışdığı gün hərb meydanından qaçmayın».[246]

**Hz. Nizami «aləmin islanmış ətəyi» deyərkən günahların insanın yaradılış fitrətini pozduğunu nəzərdə tutmuşdur. Bu anlayışa görə, günah insanın qəlbini narahatlıq içində saxlayar, onun qəlbinin bəsirət gözünü bağlayar, günahlar çoxaldıqca qəlb həssaslığını itirər.**

Hz. Məhəmməd (s.a.s) buyurur: «Mömin bir günah etdiyi zaman qəlbində qara bir nöqtə meydana gəlir. Əgər o, günahdan tez əl çəkib tövbə edərsə, qəlbi əski parlaqlığına qovuşar. Günah işlərini davam etdirərsə, qara nöqtələr getdikcə çoxalar və qəlbinin hər yerinə yayılar. Bu qara nöqtələr uca Allahın «xeyr, xeyr onların etdiyi günahlar qəlblərini paslandırıb kor etmişdir» deyə bildirdiyi pasdır».[247]

**İslam dininə görə, böyük günahlardan biri də ata-anaya baxmamaqdır.**

وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَاناً إِمَّا يَبْلُغَنَّ عِندَكَ الْكِبَرَ أَحَدُهُمَا أَوْ كِلاَهُمَا فَلاَ تَقُل لَّهُمَا أُفٍّ وَلاَ تَنْهَرْهُمَا وَقُل لَّهُمَا قَوْلاً كَرِيماً وَاخْفِضْ لَهُمَا جَنَاحَ الذُّلِّ مِنَ الرَّحْمَةِ وَقُل رَّبِّ ارْحَمْهُمَا كَمَا رَبَّيَانِي صَغِيراً

(əl-İsra, 17/23-24)

[246] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. IV, s. 487.
[247] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 478.

«Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri, ya da hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: «uf!» belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış! Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb: «Ey Rəbbim! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, sən də onlara rəhm et!», - de».

Hz. Məhəmmədin (s.a.s) ölçülərinə görə, kim günahından tövbə etsə, uca Allah onu bağışlayar, günahda israr etmək doğru deyil, hər bir insanın günah etməsi mümkündür, insan günah edəndə Allahı (c.c) xatırlayaraq ondan uzaqlaşmalıdır.

Günahlar qəlbi narahat edir, insanın ailəsini unutması da günahdır, duada günah şeyləri istəmək olmaz, günah başqalarının bilməsini istəmədiyin şeydir, günahları anlatmaq da günahdır, günahkar insan göz yaşları içində uca Allahdan (c.c) bağışlanmasını istəməlidir, günah edən insan tövbəsini gecikdirməməlidir, günahı ancaq Allah (c.c) bağışlaya bilər, günah çoxalsa, insan həlak olar, dəstəmaz almaq günahları yuyar, günah edən uca Allahdan (c.c) bağışlanmasını istəməlidir, günahlar qəlbi qaraldar, namaz qılan kimsənin günahı bağışlanar, günahlar bəla və müsibət gətirər, xəstəliklər günahlara əvəz olar, bağışlanılmayan günahlar da var, uca Allah (c.c) günahdan qaçanlarla bərabərdir, dua və ibadətlər günahın dərmanıdır, Allaha (c.c) inanaraq oruc tutmaq günahların bağışlanmasına yol açar, uca Allahı (c.c) zikr etmək günahları əridər, camaatla namaz qılmaq günahların bağışlanmasına yol açar, insan günahlarının bağışlanmasına inanaraq tövbə etməlidir, günah işlərdə bir kimsəyə yardım etmək olmaz, günahlardan çəkinən kimsənin kiçik günahları bağışlanar.

## GÜNAH ÖLÇÜSÜZLÜYÜN NƏTİCƏSİDİR

**Hz. Nizamiyə görə, hz. Məhəmməd (s.a.s) insanlığı «aləmin ətəyini isladan» günahlardan təmizləmişdir, islam Peyğəmbərinin gətirdiyi ilahi ölçülər insanları, cəmiyyəti günahlardan qorumaq üçündür.**

**Hz. Nizamiyə görə, günahlar ilahi ölçünün pozulmasıdır, «ətəyin islanması» (çirkə bulaşması) onun ölçüsünün pozulması, normadan artıq olması demək olduğu kimi, (paltarın ətəyi çox uzun olanda ətəyi yerlə sürünər və çirkə bulaşar) insan da ilahi buyruqları (əmr və yasaqları), ölçüləri pozanda günahkar olur, qəlbi çirklənir. Ətəyi uzun paltar, yəni ölçüsü pozulmuş paltar bulaşdığı çirki evə daşıdığı, başqalarına bulaşdırdığı kimi, günahlarla qəlbi qaralmış insanlar da cəmiyyətin əxlaqını pozar, yer üzü fitnə-fəsad yuvasına çevirər.**

Hz. Nizami misrada deyir ki, Sən aləmin ətəyini, yəni bütün insanlığı günahdan qorudun, Sən bütün aləmlərə göndərilmiş bir peyğəmbərsən, Sənin gətirdiyin ölçülər bütün aləmə aiddir.

Hz. Nizamiyə görə, hz. Məhəmməd (s.a.s) bir ölçü Peyğəmbəridir. Uca Allahın (c.c) əmr və yasaqlarını ehtiva edən bu Peyğəmbər ölçüləri insanlığı günah bataqlığından çıxarmaq, «aləmin islanmış ətəyini qurutmaq», insanları günahlardan qorumaq, onları doğru yola yönəltmək üçündür.

**Hz. Nizamiyə görə, günah ölçüsüzlüyün nəticəsi olduğu kimi, günahdan qorunmağın yolu da Peyğəmbərin gətirdiyi ilahi elmi öyrənməklə, ilahi ölçüləri qəbul etməklə mümkündür.**

İslam Peyğəmbəri də günahlardan qorunmaq üçün ilahi qaynaqları, ölçüləri, sərhədləri pozmamağın şərt olduğunu buyurmuşdur:

«Halal olan şeylər bəlli, haram olan şeylər bəllidir. Bu ikisinin arasında xalqın bir çoxunun halal, yoxsa haram olduğunu bilmədiyi şübhəli məsələlər var. Şübhəli məsələlərdən çəkinənlər dinini və namusunu qorumuş olar. Şübhəli məsələlərdən çəkinməyənlər isə get-gedə harama bulaşar. Sürüsünü başqasına aid bir ərazinin ətrafında otaran çoban kimi, onun bu əraziyə girmək təhlükəsi var.

**Diqqət edin! Hər padşahın girilməsi yasaq bir ərazisi var. Unutmayın ki, Allahın yasaq ərazisi də haram etdiyi şeylərdir.**

Bunu yaxşı bilin ki, insan vücudunda kiçik bir ət parçası var. Əgər bu ət parçası yaxşı olarsa, bütün vücudu sağlam olar. Əgər o pozularsa, bütün vücud pozular. Bu ət parçası qəlbdir».[248]

Hz. Nizamiyə görə, hz. Məhəmmədin (s.a.s) vəzifəsi insanlığı uca Allaha (c.c) şərik qoşmaq, haqsız yerə adam öldürmək, ata-anaya hörmətsizlik etmək, yalan danışmaq kimi günahlardan təmizləmək, onların qəlbini iman nuru ilə yuyaraq haqqa yönəltməkdir.

**Şair doqquzuncu beytin birinci misrasında iki mərhələ təsvir etmişdir.** İnsanlığın «ətəyinin islandığı» və hz. Məhəmmədin (s.a.s) peyğəmbər seçilməsi ilə «aləmin islanmış ətəyi»nin quruması, günahlardan təmizlənməsi mərhələsi.

[248] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 470.

## KƏBƏ YERİN GÖBƏYİDİR

Hz. Nizami beytin ikinci misrasının ideyasını da bu iki mərhələ üzərində qurmuşdur. O, ikinci misrada deyir:

***...Yerin göbəyi müşk göbəyini Səndən aldı.***

**Burada şair «yerin göbəyi» deyərkən Kəbəni nəzərdə tutmuşdur.** Şair Allahın (c.c) evi olan Kəbənin hz. Məhəmmədədək (s.a.s) olan halı ilə Ondan sonrakı vəziyyətini ifadə etmişdir.

Hz. Nizamiyə görə, insan vücudunun mərkəzi onun qəlbi olduğu kimi, yerin mərkəzi də Kəbədir. Qəlbin sağlamlığı bütün bədənin sağlamlığı demək olduğu kimi, Kəbənin bir iman evi olması da bütün aləmin «rəhmət evi»nə çevrilməsi deməkdir. Şairə görə, hz. Məhəmmədədək (s.a.s) Kəbə bir bütpərəstlik məkanına çevrilmişdi. İslam Peyğəmbəri gəldi və bu mübarək evin gerçək mahiyyətini, dəyərini özünə qaytardı.

Bu fikrin izahı üçün Kəbə ilə bağlı bir sıra məlumatları oxuyaq. Bilindiyi kimi, Qurani-Kərimdə uca Allah (c.c) Kəbəyə ayrıca yer vermişdir.

إِنَّ أَوَّلَ بَيْتٍ وُضِعَ لِلنَّاسِ لَلَّذِي بِبَكَّةَ مُبَارَكاً وَهُدًى لِّلْعَالَمِينَ فِيهِ آيَاتٌ بَيِّنَاتٌ مَّقَامُ إِبْرَاهِيمَ وَمَن دَخَلَهُ كَانَ آمِناً وَلِلّهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلاً وَمَن كَفَرَ فَإِنَّ الله غَنِيٌّ عَنِ الْعَالَمِينَ

(Ali-İmran, 3/96-97)

«Həqiqətən, insanlar üçün ilk bina olunan ev (məbəd) Məkkədəki evdir ki, o, şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır. Orada aydın nişanələr – İbrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır (təhlükədən kənardır). (Yemək, azuqə, sağlamlıq, minik baxımından) yoluna qüvvəsi çatan hər bir

kəsin həccə gedib o evi (Kəbəni) ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyildir!».

**Qurani-Kərimə görə, Kəbə uca Allahın (c.c) yer üzündəki rəhmət, bərəkət və nur qaynağıdır.**

Kəbənin tikilməsi ilə bağlı olan rəvayətlərə görə, hz. Adəm (s.a.s) ilə Həvva cənnətdən çıxarıldıqdan sonra yer üzündə Ərəfatda görüşürlər. Onlar Kəbənin olduğu yerə gəlirlər. Hz. Adəm (s.a.s) Həvva ilə qovuşmasına şükür edir. O, şükür borcunu yerinə yetirmək üçün cənnətdə olarkən ətrafında təvaf edərək ibadət etdiyi nurdan olan sütunun ona verilməsini istəyir. Bu nurdan olan sütun orada təcəlli edir və hz. Adəmlə (s.a.s) hz. Həvva onun ətrafında təvaf edərək Allaha (c.c) ibadət edirlər.

**Hz. Şitin (s.a.s) zamanında bu nur sütun yox olur,** onun yerində qara bir daş qalır. Hz. Şit (s.a.s) bu nur sütunun yerinə daşdan dördkünc bir bina tikir və o qara daş bu binanın bir küncünə yerləşdirilir.

**Nuh tufanı zamanı bu bina uzun bir müddət qum altında qalır.** Hz. İbrahim (s.a.s) uca Allahın (c.c) əmri ilə Kəbənin olduğu yerə gedir, oğlu İsmayılı (s.a.s) anası ilə birlikdə ora yerləşdirir. O, oğlu ilə birlikdə uca Allahın (c.c) əmri ilə Kəbənin olduğu yeri qazır. Hz. Şitin (s.a.s) tikdiyi binanın bünövrəsini tapır və onun üzərində Kəbəni tikir. O, Kəbəni tikəndən sonra belə dua edir:

وَإِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّ اجْعَلْ هَـذَا بَلَداً آمِناً وَارْزُقْ أَهْلَهُ مِنَ الثَّمَرَاتِ
مَنْ آمَنَ مِنْهُم بِاللّهِ وَالْيَوْمِ الآخِرِ قَالَ وَمَن كَفَر فَأُمَتِّعُهُ قَلِيلاً ثُمَّ
أَضْطَرُّهُ إِلَى عَذَابِ النَّارِ وَبِئْسَ الْمَصِيرُ

(əl-Bəqərə, 2/126)

«Yadına sal ki, İbrahim: «Ey Rəbbim, buranı bəladan asudə (uzaq) bir şəhər et, əhalisinin Allaha və axirət gününə inananlarına cürbəcür meyvələrdən ruzi ver!,- deyə dua etdikdə, O (Allah): «Kafir olanlara da bir qədər (ömürləri boyu) ruzi verərəm, ancaq sonra da cəhənnəm əzabına düçar edərəm. Ancaq ora (Cəhənnəm) nə fəna bir yerdir!» - deyə buyurdu».

**Kəbə on bir dəfə yenidən tikilmişdir. Lüğətlərdə «kub şəklində şey (nəsnə)» olaraq izah edilən Kəbənin adı Quranda iki dəfə çəkilmişdir. Başqa ayələrdə isə «Beyt», «Beytullah» «əl-Beytülatiq», «əl-Beytül-həram», «əl-Beytül-məhərrəm», «əl-Məscidül-həram» kimi müxtəlif adlarla yad edilmişdir.** Hz. Məhəmməd (s.a.s) yer üzündə tikilən ilk məscidin Məscidi-Həram olduğunu bildirmişdir.[249]

Hz. İbrahimdən sonra tövhid inancı zəifləmiş, Məkkədə bütpərəstlik yayılmış, müşriklər Kəbənin içini və ətrafını bütlərlə doldurmuşdular. Bundan başqa müşriklər Kəbəni çılpaq təvaf edirdilər, onlar Kəbənin içinə şəkillər çəkmişdilər.

Hz. Məhəmməd (s.a.s) Məkkəni fəth edəndə gördüyü ilk iş Kəbəni bütlərdən təmizləmək oldu. Uca Peyğəmbər Allahın (c.c) evinin həqiqi dəyərini özünə qaytardı. O, insanlara bu müqəddəs məkanın səmimi qəlblə, uca Allaha (c.c) inanaraq, ruhən təmizlənərək, haramlardan imtina edərək, təslimiyyətlə ziyarət edilməsinin zəruri olduğunu bildirdi, bu ziyarətin forma və məzmununu göstərdi.

**Kəbə doğru yolun, istiqamətin, uca Allahın (c.c) varlıq və birliyinin rəmzidir. Kəbə rəhmət, bərəkət məkanıdır.** Uca Allahın (c.c) birliyi inancını yayan Peyğəmbərlər ilk sırada Kəbəni bu inancın ziddi olan əlamətlərdən təmizləmişlər və bu iş uca Allahın buyruğu ilə olmuşdur:

---

[249] Buxari, «Ənbiya», 10.

وَإِذْ جَعَلْنَا الْبَيْتَ مَثَابَةً لِّلنَّاسِ وَأَمْناً وَاتَّخِذُواْ مِن مَّقَامِ إِبْرَاهِيمَ مُصَلًّى وَعَهِدْنَا إِلَى إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ أَن طَهِّرَا بَيْتِيَ لِلطَّائِفِينَ وَالْعَاكِفِينَ وَالرُّكَّعِ السُّجُودِ

(əl-Bəqərə, 2/125)

«(Ey Rəsulum!) Yadına sal ki, Biz evi (Kəbəni) insanlar üçün savab (ziyarətgah) və əmin-amanlıq yeri etdik. (Ey möminlər! Sizə də:) «İbrahimin durduğu yeri (özünüzə) namazgah edin!» - (dedik). İbrahimə və İsmayıla da: «Evimi (Kəbəni) təvaf edənlər, orada qalıb həmişə ibadətdə olanlar, rüku və səcdə ilə namaz qılanlar üçün (bütlərdən) təmizləyin!» - deyə tövsiyə etdik».

**Hz. Nizami insanlığın hz. Məhəmməddən (s.a.s) öncəki halı ilə Kəbənin peyğəmbərdən öncəki durumu arasında əlaqə yaratmışdır. Buradan çıxan ilk nəticə budur ki, insanlığın qurtuluşu Allahın tək olduğu inancına bağlıdır. Bu birliyin rəmzi olan Kəbə bütlərlə dolanda «aləmin ətəyi islanır», şirkə, günaha qapı açılır. Kəbə bir mərkəzdir, bura sağlam olanda, təyinata uyğun fəaliyyət göstərəndə yer üzü də sağlam olur.**

**Şair Kəbəni «yerin göbəyi» adlandırır, bu mərkəzin hz. Məhəmməddən (s.a.s) öncəki halını ətrini itirmiş məkan kimi dəyərləndirir.** Şair birinci misrada Peyğəmbərin missiyasının insanları günahdan təmizləmək, yumaq olduğunu ifadə edir, ikinci misrada da bu anlayışı «müşk» sözü ilə verir. **Ətir də təmizlik, gözəllik əlamətidir. Deməli, harada Allahın (c.c) birliyi inancı insanların könlünə yerləşirsə, ora gözəl və təmiz olur.**

**Şair Kəbəni «müşk göbəyi» adlandırır.** Bilindiyi kimi, müşk xüsusi bir ətir növüdür. Bu ətir ceyranın göbə-

yindən alınır və uzun müddət öz təravətini itirmir. Şair deyir ki, Kəbə hz. Məhəmmədin (s.a.s) peyğəmbərliyi ilə bir «müşk göbəyinə» çevrildi, pis qoxulardan, yəni şirk əlamətlərindən təmizləndi. Şair bu müşkün ətrinin öz təravətini itirməyəcəyini ifadə etmək üçün Kəbənin sadəcə ətirləndiyini deyil, bu mübarək məkanın müşkün qaynağına, mərkəzinə, mədəninə çevrildiyini bildirir. **Bu misrada iki dəfə «göbək» («naf») sözü işlədilmişdir. Burada «göbək» sözü həm mərkəz, həm də müşk qaynağı anlamındadır.**

**Şair Allahın (c.c) birliyi inancını «müşk ətri» ilə ifadə etmişdir.** Hz. Məhəmməd (s.a.s) də ətri çox sevmişdir, insanlar da ətirdən çox xoşlanırlar. **Deməli, yer üzünün müşklə ətirlənməsi, ədalət məkanına çevrilməsi üçün yeganə dərman Allahın (c.c) birliyi inancını könüllərə yerləşdirməkdir.** Bu inanc bir solmayan çiçəkdir, gözəllik yaradan müşkdür. Bu inanca sahib olmağın yolu da hz. Məhəmmədin (s.a.s) ətrindən faydalanmaqdır. Çünki Kəbə də müşk ətrini hz. Məhəmməddən (s.a.s) almışdır.

## ON İKİNCİ BEYTİN ŞƏRHİ: SƏNİN TORPAĞININ TƏSİRİNDƏN ƏRƏB TORPAĞI MÜŞK SAÇIR

از اثــر خـاك تـــو مـشـگـين غبار
پـيـكـر آن بــوم شـده مـشـك بــار

***Sənin torpağının (türbənin) təsirindən (ərəb) torpağı müşk saçır,***

***Odur ki, o ölkənin hüdudu müşk ətri yağdırır.***[250]

Hz. Nizami birinci nətində də hz. Məhəmmədin (s.a.s) türbəsinin fəzilət və bərəkətini şərh etmişdir. Şair birinci nətdə deyir ki, Onun türbəsinə baxanların cinayəti bağışlanırdı. Burada şair cinayət deyəndə günahları nəzərdə tutmuş və bildirmək istəmişdir ki, hz. Məhəmmədin (s.a.s) türbəsinin olduğu yer elə bir məkandır ki, orada ürəkdən, inanaraq tövbə edən şəxsin günahları bağışlanar, bu mübarək məkan insanı səmimi olaraq ürəkdən tövbə etməyə yönəldər.

Bu beytdə isə şair hz. Məhəmmədin (s.a.s) türbəsinin (torpağının) müşk saçdığını bildirir. Bu beyt öncəki beytdə irəli sürülmüş ideyanın davamıdır. Şair öncəki beytdə deyir ki, Kəbə yerin göbəyidir, bu mərkəz Sənin bərəkətinlə müşk məkanına çevrildi, bu məkan ətrini səndən aldı.

**Hz. Nizamiyə görə, ərəb torpağının bərəkəti hz. Məhəmmədlə (s.a.s) bağlıdır.** Bu torpaq hz. Məhəmmədin (s.a.s) bərəkəti ilə ətirlənmişdir, yəni tövhid inancına, imana sahib olmuşdur. Bu bərəkət sonsuzadək davam edəcək, müşk saçacaq.

Şairə görə, hz. Məhəmmədin (s.a.s), Onun torpağının, Onun təbliğ etdiyi ideyaların bərəkəti, ətri o qədər çoxdur ki, bütün ölkəni əhatə etmişdir və dünyaya yayılmışdır.

[250] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.

## ON ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ: SƏNİN TORPAĞIN SÜLEYMAN YELİNDƏN YAXŞIDIR

خاك تـــو از باد سليمـــان بهست
روضه چگويم كه ز رضـوان بهست

*Sənin torpağın Süleymanın yelindən yaxşıdır,*
*Bağ demirəm, cənnətdən də yaxşıdır.*[251]

Hz. Nizami on üçüncü beytdə hz. Məhəmmədin (s.a.s) torpağını Süleyman Peyğəmbərin yeli ilə müqayisə etmişdir. **Burada bir şeyi vurğulayaq ki, hz. Nizami «hz. Məhəmmədin torpağı» anlayışını tez-tez işlədir. Bu onunla bağlıdır ki, torpaq çox bərəkətli bir nemətdir, varlığın əsaslarından biridir, torpaqsız həyat yoxdur, bütün nemətlər torpaqda bitir. Bu baxımdan hz. Məhəmmədin (s.a.s) varlığı ilə torpağın bərəkəti arasında bir bağlılıq, bir uyğunluq var. Torpaq həyat üçün nədirsə, hz. Məhəmməd (s.a.s) də insanlıq üçün odur.**

Şair bu beytdə hz. Məhəmmədin (s.a.s) torpağını Süleymanın (s.a.s) yeli ilə müqayisə edir. Bilindiyi kimi, Süleyman peyğəmbərin adı Qurani-Kərimdə tez-tez yad edilir.

**Qurani-Kərimdə Süleymanın (s.a.s) səltənətindən xəbər verilir.**

وَاتَّبَعُواْ مَا تَتْلُواْ الشَّيَاطِينُ عَلَى مُلْكِ سُلَيْمَانَ وَمَا كَفَرَ سُلَيْمَانُ وَلَـكِنَّ الشَّيْاطِينَ كَفَرُواْ يُعَلِّمُونَ النَّاسَ السِّحْرَ وَمَا أُنزِلَ عَلَى الْمَلَكَيْنِ بِبَابِلَ هَارُوتَ وَمَارُوتَ وَمَا يُعَلِّمَانِ مِنْ أَحَدٍ حَتَّى يَقُولاَ إِنَّمَا نَحْنُ فِتْنَةٌ فَلاَ تَكْفُرْ فَيَتَعَلَّمُونَ مِنْهُمَا مَا يُفَرِّقُونَ بِهِ بَيْنَ الْمَرْءِ وَزَوْجِهِ وَمَا هُم بِضَآرِّينَ بِهِ مِنْ أَحَدٍ إِلاَّ بِإِذْنِ اللّهِ وَيَتَعَلَّمُونَ مَا يَضُرُّهُمْ وَلاَ يَنفَعُهُمْ

[251] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.

وَلَقَدْ عَلِمُواْ لَمَنِ اشْتَرَاهُ مَا لَهُ فِي الآخِرَةِ مِنْ خَلاَقٍ وَلَبِئْسَ مَا شَرَوْاْ بِهِ أَنفُسَهُمْ لَوْ كَانُواْ يَعْلَمُونَ

(əl-Bəqərə, 2/102)

«(Yəhudilər) Süleymanın səltənətinə (şahlığına) dair şeytanların oxuduqlarına (sehr kitablara) uydular. Süleyman (bu kitablara uymadığı üçün) kafir olmadı…».

**Qurani-Kərimdə uca Allah (c.c) Süleymana (s.a.s) vəhy göndərdiyini buyurur:**

إِنَّا أَوْحَيْنَا إِلَيْكَ كَمَا أَوْحَيْنَا إِلَى نُوحٍ وَالنَّبِيِّينَ مِن بَعْدِهِ وَأَوْحَيْنَا إِلَى إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإِسْحَاقَ وَيَعْقُوبَ وَالأَسْبَاطِ وَعِيسَى وَأَيُّوبَ وَيُونُسَ وَهَارُونَ وَسُلَيْمَانَ وَآتَيْنَا دَاوُودَ زَبُوراً

(ən-Nisa, 4/163)

«(Ey Rəsulum!) Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy göndərdik. Biz Davuda da Zəburu verdik».

**Uca Allah (c.c) Qurani-Kərimdə Şama doğru əsən güclü küləyin ixtiyarını Süleymana verdiyini buyurur:**

وَلِسُلَيْمَانَ الرِّيحَ عَاصِفَةً تَجْرِي بِأَمْرِهِ إِلَى الْأَرْضِ الَّتِي بَارَكْنَا فِيهَا وَكُنَّا بِكُلِّ شَيْءٍ عَالِمِينَ

(əl-Ənbiya, 21/81)

«Əmr ilə bərəkət verdiyimiz yerə (Şama) doğru şiddətlə əsən küləyi də Süleymana Biz ram etdik. Biz hər şeyi bilənik!».

**Uca Allah (c.c) Qurani-Kərimdə Süleymana elm verildiyini buyurur:**

وَوَرِثَ سُلَيْمَانُ دَاوُودَ وَقَالَ يَا أَيُّهَا النَّاسُ عُلِّمْنَا مَنطِقَ الطَّيْرِ وَأُوتِينَا مِن كُلِّ شَيْءٍ إِنَّ هَذَا لَهُوَ الْفَضْلُ الْمُبِينُ

(ən-Nəml, 27/15)

«Biz Davuda və Süleymana elm (insanlar arasında mübahisəli məsələləri həll edib ədalətli hökm çıxarmaq, qulların dilini bilmək) verdik. Onlar dedilər: «Bizi öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha həmd olsun!» Süleyman Davuda (peyğəmbərlikdə, elmdə və mülkdə) varis oldu və dedi: «Ey insanlar! Bizə quş dili öyrədildi və (peyğəmbərlərə, padşahlara nəsib olan) hər şeydən verildi. Bu, həqiqətən, açıq-aşkar bir lütfdür!».

**Uca Allah (c.c) Qurani-Kərimdə Süleyman peyğəmbərə küləyin ixtiyarının verilməsini və bu imkanın göstəricilərini daha geniş şəkildə belə açıqlayır:**

وَلِسُلَيْمَانَ الرِّيحَ غُدُوُّهَا شَهْرٌ وَرَوَاحُهَا شَهْرٌ وَأَسَلْنَا لَهُ عَيْنَ الْقِطْرِ وَمِنَ الْجِنِّ مَن يَعْمَلُ بَيْنَ يَدَيْهِ بِإِذْنِ رَبِّهِ وَمَن يَزِغْ مِنْهُمْ عَنْ أَمْرِنَا نُذِقْهُ مِنْ عَذَابِ السَّعِيرِ يَعْمَلُونَ لَهُ مَا يَشَاءُ مِن مَّحَارِيبَ وَتَمَاثِيلَ وَجِفَانٍ كَالْجَوَابِ وَقُدُورٍ رَّاسِيَاتٍ اعْمَلُوا آلَ دَاوُودَ شُكْراً وَقَلِيلٌ مِّنْ عِبَادِيَ الشَّكُورُ

(Səbə, 34/12-13)

«Süleymana da küləyi ram etdik. O (külək) səhərdən günortaya qədər bir aylıq yol, günortadan axşama qədər də bir aylıq yol gedirdi (bir gündə iki aylıq məsafəni qət edirdi). Onun üçün mis mədənini sel kimi əridib axıtdıq (Davud dəmiri əlində yumşaldıb istədiyini düzəltdiyi kimi), Süleyman da misdən istədiyini düzəldirdi. Cinlərin bir qismi Rəbbinin izni ilə onun yanında işləyirdi. Onlardan hər kəs (Süleymana itaət etməyib) əmrimizdən çıxırdısa, ona cəhənnəm odunun əzabından daddırırdıq. Onun (Süleyman) üçün nə istərsə – məbədlər (uca qəsrlər), heykəllər, (min nəfərdən ibarət qonağın və qoşunun birlikdə oturub yeyə biləcəyi) böyük hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən iri qazanlar

düzəldirdilər. Siz, ey Davud ailəsi! (Allaha) şükranlıqla itaət edin! (Bu nemətə şükür edin!) Bəndələrimdən (nemətlərimə) şükür edəni azdır!».

**Uca Allah (c.c) Qurani-Kərimdə hz. Süleymanı (s.a.s) «gözəl bəndə» adlandırmışdır:**

وَوَهَبْنَا لِدَاوُودَ سُلَيْمَانَ نِعْمَ الْعَبْدُ إِنَّهُ أَوَّابٌ إِذْ عُرِضَ عَلَيْهِ بِالْعَشِيِّ الصَّافِنَاتُ الْجِيَادُ فَقَالَ إِنِّي أَحْبَبْتُ حُبَّ الْخَيْرِ عَن ذِكْرِ رَبِّي حَتَّى تَوَارَتْ بِالْحِجَابِ

(Sad, 38/30-32)

«Biz Davuda Süleymanı bəxş etdik. Nə gözəl bəndə! O, daim Allaha sığınan bir kimsə idi. (Onun rizasını qazanmaq diləyərdi. (Bir gün) axşamüstü ona cins (bir ayağını dırnağı üstündə qoyub, üç ayağı üstündə duran), çılpaq atlar göstərdiyi zaman O dedi: «Mən gözəlliyi (bu atları) Rəbbimin zikrindən (Tövratdan) dolayı sevirəm (çünki Allahın dinini qüvvətləndirmək üçün bir cihad vasitəsi kimi onların tərifi Tövratda var). Nəhayət (o atlar Süleymanın gözündən) qeyb olub gizləndi».

**Uca Allah (c.c) Qurani-Kərimdə hz. Süleymana mülk verdiyini buyurur:**

قَالَ رَبِّ اغْفِرْ لِي وَهَبْ لِي مُلْكاً لَّا يَنبَغِي لِأَحَدٍ مِّنْ بَعْدِي إِنَّكَ أَنتَ الْوَهَّابُ فَسَخَّرْنَا لَهُ الرِّيحَ تَجْرِي بِأَمْرِهِ رُخَاء حَيْثُ أَصَابَ وَالشَّيَاطِينَ كُلَّ بَنَّاء وَغَوَّاصٍ وَآخَرِينَ مُقَرَّنِينَ فِي الْأَصْفَادِ هَذَا عَطَاؤُنَا فَامْنُنْ أَوْ أَمْسِكْ بِغَيْرِ حِسَابٍ

(Sad, 38/35-39)

«(Süleyman dua edib) dedi: «Ey Rəbbim! Məni bağışla və mənə elə bir mülk (səltənət) ver ki, məndən sonra (eləsinə) heç kəs nail ola bilməsin. Həqiqətən, sən böyük ehsan (kərəm) sahibisən! (Allah Süleymanın duasını qəbul buyurdu. Ona həm peyğəmbərlik, həm də padşahlıq əta etdi). Biz küləyi ona ram etdik. Külək onun əmri ilə istədiyi

yerə rahatca gedirdi. (Biz) şeytanlardan olan hər bir bənnanı və qəvvası, eləcə də başqalarını (başqa şeytanları) zəncirlənmiş halda (onun ixtiyarına verdik). (Və ona belə buyurduq:) «Bu, Bizim ehsanımızdır, (ondan kimə istəsən) ver, yaxud (saxlayıb) vermə! O, saysız-hesabsızdır (Səndən bu nemətlər barəsində haqq-hesab tələb olunmayacaq)».

**Uca Allah (c.c) Qurani-Kərimdə hz. Süleymanın ölümünü təsvir etmişdir:**

فَلَمَّا قَضَيْنَا عَلَيْهِ الْمَوْتَ مَا دَلَّهُمْ عَلَى مَوْتِهِ إِلَّا دَابَّةُ الْأَرْضِ تَأْكُلُ مِنسَأَتَهُ فَلَمَّا خَرَّ تَبَيَّنَتِ الْجِنُّ أَن لَّوْ كَانُوا يَعْلَمُونَ الْغَيْبَ مَا لَبِثُوا فِي الْعَذَابِ الْمُهِينِ

(Səbə, 34/14)

«Sonra (Süleymanın) ölümünü hökm etdiyimiz zaman onun öldüyünü onlara (cinlərə) ancaq (Süleymanın) əsasını yeyən bir ağac qurdu xəbər verdi. (Süleyman əlini dayayıb durduğu əsa sınandan sonra) o (ölmüş vəziyyətdə) yerə yıxıldıqda cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər, alçaldıcı əzab (məşəqqətli iş) içində qalmazdılar».

**Uca Allah (c.c) Qurani-Kərimdə hz. Süleymanın (s.a.s) axirətdəki yerini də göstərmişdir:**

وَإِنَّ لَهُ عِندَنَا لَزُلْفَى وَحُسْنَ مَآبٍ

(Sad, 38/40)

«Həqiqətən, o, (qiyamət günü) dərgahımıza yaxın olacaq və onun qayıdıb gələcəyi yer də gözəl olacaqdır (ya da onun üçün dünyada çoxlu nemət, axirətdə isə gözəl sığınacaq – cənnət vardır)».

## HƏDİSLƏRDƏ HZ. SÜLEYMAN (s.a.s)

Əbu Hüreyrə (r.a) rəvayət edir: «Rəsulullah (s.a.s) belə buyurdu: «Bir vaxtlar iki qadın yanlarında uşaqları ilə

gedərkən bir qurd gəlib onlardan birinin uşağını qapdı. Qadınlardan biri yoldaşına:

- Qurd sənin uşağını apardı,-dedi.

O da:

- Xeyr, sənin uşağını apardı,-dedi.

Qadınlar mübahisələrini həll etmək üçün Davudun (s.a.s) yanına gəldilər. O da yaşlı qadını haqlı sayaraq uşağı ona verdi. Qadınlar oradan ayrıldıqdan sonra hz. Davudun oğlu Süleymanın (s.a.s) yanına gedərək məsələni ona da danışdılar. Hz. Süleyman:

- Mənə bıçaq gətirin, uşağı ikiyə bölərək aranızda paylaşdıracağam. O zaman gənc qadın dedi:

- Allah sənə rəhmət etsin, elə etmə! Uşaq onundur.

Hz. Süleyman da uşağın gənc qadına aid olduğunu bildirdi».[252]

Hz. Süleymanla (s.a.s) bağlı deyilənlər zaman keçdikcə bir əfsanəyə çevrilmiş, onunla bağlı fərqli yozumlar ortaya çıxmışdır. Məsələn, yəhudilər hz. Süleymanın (s.a.s) sehrbaz olduğuna inanır, mülkü, səltənəti sehrlə əldə etdiyini irəli sürür, küləyi, heyvanları, cinləri sehrlə idarə etdiyini iddia edirdilər. Yəhudilər hz. Süleymanı (s.a.s) bir peyğəmbər deyil, bir hökmdar kimi qəbul edirdilər.

Ancaq islam alimləri hz. Süleymanın (s.a.s) gerçək bir peyğəmbər olduğunu və Qurani-Kərimdə ona verilən qeyri-adi imkanların uca Allahın (c.c) lütfü ilə bəxş edildiyini, bu imkanların dərin mənaları ifadə etdiyini açıqlamışlar: «Bunun içindir ki, Kuran bunların efsan evi mahiyetlerini doğrulamak, ya da yalanlamak yönünde konu dışı bir deyerlendirme ortaya koymadan onları, insanın sahip olabilecegi her türlü gücün ve ihtişamın nihai kaynağının Allah olduğu,

---

[252] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VII, s. 483.

bazan mucizevi sınırlara varsa bile, beşeri hüner ve dehanın ulaşa bildigi tüm başarıların Allahın üstün yaratma gücünün tezahüründen ibaret olduğu fikrini etkileyici bir biçimde ortaya koymak için bir fon, bir üslup ve ifade aracı olarak kullanmaktadır».[253]

Başqa təfsirçilər də bu deyilənlərə yaxın fikirlər irəli sürmüşlər: «Bize göre bu ayetlerde deginilen olayın mahiyetinden ziyade Kuranın vermek istedigi mesaj önemlidir. O mesaj da şudur: «Hz. Süleyman gibi Allahın «O ne iyi kuldu» diye övdüyü (30-cu ayet), kendi yanında kesin bir yakınlık derecesine sahip olduğunu bildirdigi (40-cı ayet) büyük bir peygamber ve çok güclü bir hükümdar bile bazı sıkıntılarla ve ya hatalarla imtihan edile bilir ve edilmiştir. Şu halde Allah katındakı manevi mertebesi ve dünyadan gücü ne olursa – olsun her insan Allahın yardımına, himayesine, affına ve keremine muhtaçtır, hiç kimse maddi gücüne hatta manevi mertebesine güvenerek kendisini Allahtan bağımsız hiss etmemeli, bu anlama gele bilecek bir tutum içine girmemelidir. Burada ayrıca şu hususlara da işaret edilmiştir: 1. İnsanın gönlü Allah ile birlikte olduğu, sorumluluğunu hiss ettigi sürece mal sevgisi kötü deyildir, böyle insanlara degerli mallar dünya mutluluğu verdiyi gibi onu veren Allahı daha çok anıp şükretmesine de vesile olacaktır. 2. Bir kimsenin hz. Süleyman gibi yer yüzünde hakkı, iyilik ve adaleti hakim kılma niyyetiyle varlığını ve gücünü Allah yoluna adaması, mal ve iktidar sevgisinin kendisine Allahı unutturmasına izin vermemesi, hatalarını görüp hemen tövbe ve istigfarla tamin etmesi, adalete riayet etmesi ve nefsinin zararlı isteklerine karşı dirençli olması

---

[253] Muhammed Esed, «Kuran Mesajı», (meal-tefsir), İstanbul, 2002, s. 661.

şartıyla en yüksek seviyede siyasi güc ve iktidar istemesinde bir sakınca yoktur.

Hz. Süleymanın «Benden sonra hiç kimsenin ulaşamayacağı bir hükümranlık (mülk) ver bana» şeklinde çevirdigimiz duasıyla Allahtan siyasi iktidar degil, bir peygamber olarak yalnız kendisine mahsus olmak üzere mucize gerçekleştirme gücü istedigi de belirtilir. Nitekim arkasından ona verilen mucizevi gücler anlatılmaktadır…».[254]

## DİVAN ŞEİRİNDƏ HZ. SÜLEYMAN (s.a.s)

Divan şeirində hz. Süleyman (s.a.s) Peyğəmbər, sultan, insanlar və cinlər üzərində hakimiyyəti olan insan kimi təsvir edilmişdir. Divan şeirində göstərilir ki, onun hakimiyyəti barmağındakı üzükdən güc alır, Onun taxtını külək daşıyır. Hz. Süleymanın (s.a.s) qarışqa ilə olan əhvalatı da divan şeirində təsvir edilir. Bu qeyri-adi əlamətlərlə təsvir edilən hz. Süleyman, hz. Məhəmmədlə (s.a.s) müqayisə edilir və son peyğəmbərin çox üstün olduğu göstərilir. Deyilir ki, hz. Süleymanın (s.a.s) üzüyündə hz. Məhəmmədin adı nəqş edildiyinə görə o, insan və cinlərə hakim olmuşdur.

**Əhməd Rəmzi Ağürək:**

İsminle münakkaşdı meger mühri-Süleyman,
Hükmü yürüdü ins ile divan arasında.[255]

(Süleymanın möhründə Sənin adın nəqş edildiyinə görə, Onun hökmü insanlarla cinlərə hakim oldu)

Hz. Süleymanın (s.a.s) barmağındakı xatəmin (üzüyün) son mənasından yararlanan şairlər hz. Məhəmmədin (s.a.s) son peyğəmbər olduğunu vurğulamışlar. Bu hz.Məhəmmədin

---

[254] «Kuran yolu», (türkçe meal ve tefsir), Ankara, 2004, c. IV, s. 509-510.
[255] Emine Yeniterzi, göstərilən qaynaq, s. 335.

(s.a.s) üstünlüyüdür, O, on səkkiz min aləmin sultanıdır, Onun qapısında saysız-hesabsız Süleymanlar bir qarışqa kimi hərəkət edirlər. «…Yüzügünde hz. Muhammedin adı nakş olmasaydı, tahtının havada seyredemeyecegi anlatılırken, Mirac gecesi hz. Peygambere kürsinin taht olduğu dile getirilir. Ya da Cebrail (a.s) yüce Peygamberin Fetih ayetleri yazılı sancağını taşırken hz. Süleymanın rüzgarla ordusunun ve tahtının sözünün bile edilemeyecegi gibi ifadelerle Resulullahın hem alemlerin, hem de peygamber sultanı olduğu ve üstünlünlüğü vurğulanır».[256]

**Hz. Süleymanla (s.a.s) bağlı olan rəvayətlərdən biri də budur ki, onun əmri ilə külək gül-çiçəkli çəmən və bağların üzərindən keçərək ətir saçarmış.**

## HZ. MƏHƏMMƏD (s.a.s) BƏRƏKƏTLİ TORPAQ KİMİDİR

Hz. Nizami adı, mülkü, imkanları dillərdə dastan olan hz. Süleymanı (s.a.s) hz. Məhəmmədlə (s.a.s) müqayisə etmişdir. Hz. Süleymanın (s.a.s) bu imkanları Onun hz. Məhəmmədlə (s.a.s) müqayisəsinə imkan yaratmışdır.

Şairin uca Allahın (c.c), hz. Süleymana (s.a.s) verdiyi imkanlardan Onun küləyə hökm etməsini seçməsinin də səbəbi var. Belə ki, hz. Nizami yuxarıdakı beytlərdə hz. Məhəmmədin (s.a.s) Kəbəni «müşk göbəyi»nə çevirməsindən, «Onun torpağının müşk saçmasından», «Onun ölkəsinin müşk ətri yağdırmasından» danışır. Beytlərdə gül-çiçək ətri ilə müşk ətri bir-birinə qarışır.

**Şairə görə, bu ətrin, müşkün qaynağı hz. Məhəmməddir, çiçəklər, bağlar ətrini ondan almışdır. Hz. Süleymanın (s.a.s) idarə etdiyi külək də ətir saçır, yer üzünə gül**

---

[256] Emine Yeniterzi, göstərilən qaynaq, s. 335.

**ətri yayır, ancaq hz. Məhəmmədin (s.a.s) torpağı hz. Süleymanın küləyindən daha yaxşıdır. Çünki ətir saçan gül-çiçək bərəkətli torpaqda bitir, ətrini, qidasını torpaqdan alır. Torpaq olmasa, çiçək də olmaz və o külək də ətir saça bilməz. Deməli, torpaq hər şeyin qaynağı olduğu kimi, hz. Məhəmməd də (s.a.s) insanlıq üçün bərəkətli torpaqdır, bütün yaxşılıqların, gözəl, ətirli çiçəklərin qaynağıdır.** Burada hz. Məhəmmədin (s.a.s) torpağı həm də onun dinini, bu dinin gözəlliklərini, ətrini təmsil edir. Şair deyir ki, əgər hz. Məhəmmədin (s.a.s) bərəkətli torpağında yetişən güllərin ətri bütün dünyaya yayılsa, dünya gözəl cənnətə çevrilər.

## CƏNNƏT BAĞI

Şair beytin ikinci misrasında hz. Məhəmmədin (s.a.s) torpağını cənnət bağı ilə müqayisə etmişdir. Bilindiyi kimi, cənnət bağı Qurani-Kərimdə geniş təsvir edilmişdir:

جَنَّاتِ عَدْنٍ مُّفَتَّحَةً لَّهُمُ الْأَبْوَابُ مُتَّكِئِينَ فِيهَا يَدْعُونَ فِيهَا بِفَاكِهَةٍ كَثِيرَةٍ وَشَرَابٍ

(Sad, 38/50-51)

«Qapıları onlar üçün (taybatay) açılmış Ədn cənnətləri! Onlar orada (taxtlara) söykənib cürbəcür meyvələr və içkilər (cənnət içkiləri) istəyəcəklər».

أُوْلَئِكَ لَهُمْ جَنَّاتُ عَدْنٍ تَجْرِي مِن تَحْتِهِمُ الْأَنْهَارُ يُحَلَّوْنَ فِيهَا مِنْ أَسَاوِرَ مِن ذَهَبٍ وَيَلْبَسُونَ ثِيَاباً خُضْراً مِّن سُندُسٍ وَإِسْتَبْرَقٍ مُّتَّكِئِينَ فِيهَا عَلَى الْأَرَائِكِ نِعْمَ الثَّوَابُ وَحَسُنَتْ مُرْتَفَقاً

(əl-Kəhf, 18/31)

«Onları (ağacları) altından çaylar axan Ədn cənnətləri gözləyir. Onlar orada taxtlara söykənərək qızıl bilərziklərlə bəzənəcək (altun qolbaqlar taxacaq), nazik və qalın ipəkdən

(taftadan və qumaşdan) yaşıl paltarlar geyəcəklər. O, nə gözəl mükafat, o (cənnət) necə də gözəl məkandır!».

**Uca Allahın (c.c) elçisi cənnətdə möminlərin paltarına cənnət ətri səpən küləyin əsəcəyini xəbər vermişdir:**

«Cənnətdə cənnətliklərin hər həftə getdikləri bir bazar var. Orada üzlərinə və paltarlarına cənnət qoxuları səpən bir quzey küləyi əsər və bu yolla da onların gözəllikləri daha da artar. Onlar əvvəlkindən daha gözəl və yaraşıqlı olaraq həyat yoldaşlarının yanınca döndükləri zaman ailələri onlara:

- Vallah, gözəlliyinizə gözəllik artırılmışdır, deyərlər.

Onlar da:

- Vallah, yanınızdan ayrılandan bəri siz daha da gözəl olmusunuz, - deyərlər».[257]

**Birinci misrada hz. Nizami hz. Məhəmmədin (s.a.s) torpağının hz. Süleymanın (s.a.s) küləyindən yaxşı olduğunu bildirir. Çünki küləyin özünün ətri yoxdur, külək ancaq torpağın yetişdirdiyi çiçəyin ətrini yayır, çiçəkdəki ətrin və küləyin yaydığı ətrin qaynağı torpaqdır.**

Şair demək istəyir ki, hz. Süleymanın (s.a.s) möcüzələri, mülkü Onun ölümü ilə sona çatmışdır. Hz. Məhəmmədin (s.a.s) uca Allahdan (c.c) vəhylə aldığı ilahi dəyərlər isə qiyamətədək öz gözəlliyini, qiymətini, ətrini saxlayacaq.

Şairə görə, İslam dini bütün gözəlliklərin, səadətin qaynağıdır, bu din və Onun peyğəmbəri insanlıq üçün şəfadır, onların gerçək azadlığının təminatçısıdır.

**Hz. Nizaminin şərhinə görə, torpaqda da, küləkdə də, ətirdə də təmizlik və təmizləmək keyfiyyəti var. Bütün peyğəmbərlərin ilahi vəzifəsi də insanları şirkdən, küfrdən, bütpərəstlikdən, şöhrət, sərvət və şəhvət**

---

[257] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VII, s. 628.

**cəhalətindən təmizləyərək azad etməkdir, onları tək olan Allaha (c.c) qulluğa yönəltməkdir. Ancaq torpağın təmizləmək keyfiyyəti küləklə müqayisədə daha güclüdür.** Buna görə də, insanları Allahın (c.c) varlıq və birliyinə inandırmaq baxımından heç bir peyğəmbəri hz. Məhəmmədlə (s.a.s) müqayisə etmək olmaz. O, bərəkətli bir torpaqdır, bütün gözəlliklərin qaynağı odur. Onun torpağı cənnət bağından da üstündür.

Yuxarıda dediyimiz kimi bağların ən gözəli cənnət bağıdır. **Ancaq şair hz. Məhəmmədin (s.a.s) torpağını bu bağdan da üstün tutur. Çünki cənnət bağı artıq xilas olmuş, uca Allahın (c.c) rizasını qazanmış insanların dincəldiyi, heç bir pisliyin olmadığı bir məkandır. Hz. Məhəmmədin (s.a.s) torpağı isə bu dünya ilə bağlı bir anlayışdır. Bu torpaq insanlara şəfalı güllər bitirir, onları təmizləyir, onları Allaha (c.c) qulluğa yönəldir.** Bu torpaq olmasa, peyğəmbərin ölçülərinin «ətri» yayılmasa, insanlıq cəhalət girdabında boğular və cənnət bağını qazana bilməz. Cənnət bağının isə belə bir keyfiyyəti yoxdur, bu bağ uca Allahın (c.c) razı qaldığı insanlara olan mükafatıdır.

## ON DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ: ALLAHIN BÖYÜKLÜYÜNÜ ALQIŞLAMAQ ÜÇÜN KƏBƏ SƏNƏ SƏCCADƏ OLDU

كعبه كه سجاده تكبير تست
تشنه جلاب تباشير تست

*Allahın böyüklüyünü alqışlamaq üçün sənə səccadə olan Kəbə*

*Sənin gülaba (bənzər) tabaşirinə təşnədir.*[258]

Hz. Nizami bu beytdə insanlığın hz. Məhəmmədə (s.a.s) olan ehtiyacını şərh etmişdir. Şair peyğəmbərə ehtiyac anlayışını ifadə və izah etmək üçün bir sıra vasitələrdən yararlanmışdır. Bu vasitələrdən biri «Kəbənin uca Allahın (c.c) böyüklüyünü alqışlamaq üçün hz. Məhəmmədə (s.a.s) səccadə olması» fikrinin beytin mətninə daxil edilməsidir. Bizcə, hz. Nizami bununla iki məna ifadə etmişdir. Bunlardan biri hz. Məhəmməd (s.a.s) doğularkən baş verən hadisələrdir. Şair insanlığın hz. Məhəmmədə (s.a.s) olan ehtiyacını anlatmaq üçün Allahın (c.c) evi, müsəlmanların qibləsi, istiqaməti, həcc ziyarətində təvaf etdikləri məkan olan Kəbənin Peyğəmbər doğularkən əyilməsi, bir növ hz. Məhəmmədə (s.a.s) səcdə etməsi hadisəsini önə çəkmişdir.

Bilindiyi kimi, hz. Məhəmməd (s.a.s) dünyaya gələrkən və uşaq olarkən bir sıra qeyri-adi hadisələr baş vermişdi. O doğularkən anasının doğum sancısı olmamışdır, o sünnətli doğulmuşdur, onu mələklər yumuşdu, mələklər iki çiyni arasına peyğəmbərlik möhürü vurmuşdular, süd anasının zəif heyvanı sürətlə yeriməyə başlamışdı, süd anasının

[258] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.

dəvəsi bol süd vermişdi, o, süd anasının bir döşünü əmmişdi, süd anasının qoyun və keçiləri, evi bərəkətlənmişdi, mələklər onun sinəsini yarıb ürəyini yumuşdular.[259]

Başqa rəvayətlərə görə, hz. Məhəmməd (s.a.s) doğularkən İranda Kisranın sarayı sarsılmış, on dörd sütunu yıxılmışdı, bir sıra kilsələr uçmuş, bütlər dağılmışdı, Savə gölü qurumuş, atəşpərəstlərin ocaqları sönmüş, Kəbə başını yerə əymiş (səcdə etmiş), hətta hz. Məhəmmədin (s.a.s) evini təvaf etmişdir.

Divan şeiri demək olar ki, bu fakt və rəvayətlərin hamısını qeydə almışdır.

**Necati:**

Cihana geldi bülend itdi dinün eyvanın,
Revak u takın kisraların idür pamal.[260]

(O dünyaya gəldi, dinin eyvanını (binasını) ucaltdı, Kisranın sütun və tağlarını yerlə-yeksan etdi)

**Əhmədi:**

Anı çün kim getürdi Hak vücuda,
Seraser bütler indiler sücuda.[261]

(Onu Haqq yaradanda bütün bütlər Ona səcdə etdilər)

**Rizayi:**

O hurşidi-risalet toğdı çün kim bürci-izzetden,
Çekildi Savenün mahv oldı hep abi-firavanı.[262]

(Elə ki, o peyğəmbərlik günəşi izzət bürcündən doğuldu, Savə gölünün bol suyu qurudu)

**Füzuli:**

Möcizi bir bəhri-bipayan imiş aləmdə kim,
Yetmiş andan min-min atəşxaneyi-küffarə su.[263]

---

[259] Muhammed Hamidullah, «İslam Peyğəmbəri», İstanbul, 2003, s. 40.
[260] Emine Yeniterzi, göstərilən qaynaq, s. 286.
[261] Emine Yeniterzi, göstərilən qaynaq, s. 286.
[262] Emine Yeniterzi, göstərilən qaynaq, s. 286.

(O, aləmdə bir sonsuz dərya olmuş və onun suyu kafirlərin atəşxanalarını söndürmüşdür)

**Haşimi:**

Kaabe kapuna yüzin sürdi Safa vü Merve hem,

Cuşa geldi ma-i Zemzem ab-i-Ceyhun u Furat.[264]

(Kəbə, Səfa və Mərvə sənin qapına üzünü sürtdü, Zəmzəm, Ceyhan və Firat suyu cuşa gəldi)

İkincisi, hz. Nizami beytdə Kəbənin hz. Məhəmməddən (s.a.s) öncəki halına işarə etmiş, onun bütpərəstlik məkanına çevrildiyini göstərmişdir. **Şairə görə, Kəbənin yaradılış fitrəti, vəzifəsi pozulanda insanlığın da fitrəti pozulur. Kəbə bu sıxıntıdan qurtarmaq üçün hz. Məhəmmədi (s.a.s) həsrətlə gözləyir, onun gəlişinə sevinir, onun doğuluşunu insanlara müjdə vermək üçün səcdə edir.** Hz. Nizaminin Allahın (c.c) evinin sevincini ifadə etmək üçün «onun səcdə etməsi» anlayışını önə çəkməsi də təsadüfi deyil. Şair, hz. Məhəmmədə (s.a.s) olan imanın və təslimiyyətin tam səmimi olduğunu bildirmək üçün bu ifadəni seçmişdir. Belə ki, namazda insanın səcdə halı var və bu hal möminin uca Allaha (c.c) təslimiyyətinin ən son həddi və şəklidir. Bu hal iman, təslimiyyət, Allahdan (c.c) başqa hər şeyi unutmaq halıdır. Yalnız bu şərtlə insan uca Allaha (c.c) yaxınlaşmaq imkanı qazanır.

Uca Allah (c.c) Qurani-Kərimdə buyurur:

كَلَّا لَا تُطِعْهُ وَاسْجُدْ وَاقْتَرِبْ

(əl-Ələq, 96/19)

«Yox, yox! Sən (ey Peyğəmbər!) ona uyma! Sən ancaq (Rəbbinə) səcdə et və (Ona) yaxınlaş!».

Bu ayədə səcdə, yəni tam təslimiyyət, inanaraq, iman edərək, sevərək, dünyəvi hər şeydən qoparaq Allaha (c.c)

---

[263] Emine Yeniterzi, göstərilən qaynaq, s. 287.

[264] Emine Yeniterzi, göstərilən qaynaq, s. 287.

boyun əymək qadir Allaha (c.c) yaxınlığın, Onun razılığını qazanmağın şərti kimi irəli sürülmüşdür. Hz. Nizamiyə görə, Kəbə uca Allahın (c.c) əmri ilə hz. Məhəmmədə iman etdi, ona səcdə etdi. Yəni hakim Allah (c.c) insanlara buyurdu ki, Ona yaxın olmaq istəyirsinizsə, hz. Məhəmmədə (s.a.s) tabe olun. Əgər uca Allahın (c.c) rəmzi evi (təbii ki, Allahın evi olmaz) hz. Məhəmmədə səcdə edirsə, bu sizin üçün bir örnəkdir.

**Hz. Nizaminin şərhinə görə, səcdə etmək sevginin əlamətidir.** Kəbə hz. Məhəmmədə (s.a.s) səcdə yeri oldusa, deməli, uca Allah (c.c) onu sevdi.

**Hz. Nizamiyə görə, səcdə etmək sevincin, bir şəxsin gəlişinin, bir xeyir işin baş verməsinin əlamətidir.**

**Şairə görə, səcdə etmək alqışlamaqdır, hörmətdir. Qədim dövrdə bir insana hörmət əlaməti olaraq onun qarşısında səcdə edir, onu alqışlayırdılar.**

**Hz. Nizaminin şərhinə görə, hz. Məhəmməd (s.a.s) seçildi, Kəbəni bütlərdən təmizlədi, onu və insanlığı öz fitrətinə qovuşdurdu.**

Şair beytin birinci misrasında başqa bir hadisəni də nəzərdə tutmuşdur. Bilindiyi kimi, hz. Məhəmmədə (s.a.s) peyğəmbərlik veriləndə Kəbə müşriklərin əlində idi. Peyğəmbər Məkkəni tərk etməyə məcbur oldu. On illik mühacirət dövründən sonra hz. Məhəmməd (s.a.s) bir fateh olaraq Məkkəyə döndü və Kəbəni uca Allaha (c.c) ibadət məkanına çevirdi.

Şair, Kəbənin, insanlığın hz. Məhəmmədə (s.a.s) olan ehtiyacının dərəcəsini ifadə etmək üçün seçdiyi sözlərdən biri də «təşnə» sözüdür. «Təşnə olmaq» çox susamaq, susuzluqdan yanmaq, bütün varlığı ilə istəmək, çox sevmək, «onsuz yaşaya bilməmək» mənalarını ehtiva edir. Şair deyir

ki, Kəbə Sənin gülaba (gül suyuna) bənzər tabaşirinə təşnədir.

Hz. Nizami son Peyğəmbərə olan ehtiyacı ifadə etmək üçün «tabaşir» sözündən istifadə etmişdir. **«Tabaşir» qədim təbabətdə yanğını söndürmək üçün istifadə edilmiş bir maddədir. Şair hz. Məhəmmədin (s.a.s) dişlərini məlhəm olan tabaşirə bənzətmişdir. Şair demək istəyir ki, ey Məhəmməd (s.a.s), Kəbə Sənin gəlişini gözləyir, Sənin tabaşir kimi olan, gül ətirli dişlərindən və dodaqlarından çıxan sözləri (ətirli sözlər) Sənin sevginlə alışıb-yanan Kəbə və insanlıq üçün bir dərmandır.**

Şairə görə, batil, yalan, çirkli sözlər Kəbəni cəhalət girdabında saxlayır. Onun dərmanı hz. Məhəmmədin (s.a.s) gül suyuna bənzəyən sözlərdir. Şair cəhalətə bürünmüş Kəbəni bir xəstəyə bənzədir, bu xəstəliyin atəşi içində yanan, dodaqları quruyan xəstənin dərmanı hz. Məhəmməddir (s.a.s).

Hz. Nizamiyə görə, hz. Məhəmmədin (s.a.s) ölçüləri ilə yaşamayan cəmiyyət xəstədir, cahildir və bərəkətsizdir. Bu xəstə cəmiyyətin yeganə dərmanı da hz. Məhəmmədin (s.a.s) insanlığa gətirdiyi ilahi ölçülərdir, uca Allahın (c.c) buyruqlarıdır. Bu anlamda hz. Nizamiyə görə, hz. Məhəmməd (s.a.s) cəmiyyətin mənəvi, ruhi, əxlaqi sağlamlığı üçün bir məlhəmdir.

## ON BEŞİNCİ BEYTİN ŞƏRHİ: SƏNİN TAXTIN YER, TACIN GÖYDÜR

تاج تـــو و تخت تــو دارد جهـــان
تخـت زمـيـن آمـد و تـاج آسمـان

***Cahan sənin tac və taxtındır,***
***Sənin taxtın yer və tacın göydür.***[265]

Hz. Nizami bu beytdə hz. Məhəmmədi (s.a.s) sonsuz bir məkan içərisində təsvir etmişdir. Hz. Nizamiyə görə, O, bir sultandır, dünya Onun taxt və tacıdır. Burada bir neçə məna var.

Hər şeydən öncə şair hz. Məhəmmədin (s.a.s) bütün insanlara, bütün aləmlərə peyğəmbər olaraq göndərildiyinə işarə etmişdir.

وَمَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِّلْعَالَمِينَ

(əl-Ənbiya, 21/107)

«Səni də (ey Rəsulum!) aləmlərə (bütün insanlara və cinlərə) ancaq bir rəhmət olaraq göndərdik. (Sən təkcə insanlara deyil, eyni zamanda cinlərə də peyğəmbər göndərilmisən. Bütün aləmlər əhli, o cümlədən göydəki mələklər, yerdəki insanlar və cinlər sənin vücudunla şərəfə nail olurlar. Sənin sayəndə günahkarlara möhlət verilmiş, hətta, səni inkar edənlərin belə cəzası qiyamətə qədər təxirə salınmışdır. Möminlər isə sənə iman gətirməklə dünyada böyük savab qazanıb axirətdə yüksək dərəcələrə, əbədi səadətə nail olacaqlar)».

**Şair, hz. Məhəmmədin (s.a.s) taxt və tacının cahan olduğunu deməklə onu adi padşahlardan ayırmışdır. Hz. Nizamiyə görə, Onun hakimiyyətinin mənbəyi uca Allahdır (c.c), Onu xalq seçmir. Yer üzündə hakimiyyəti bütün cahanı əhatə edən bir padşah yoxdur. Hz. Mə-**

---

[265] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.

**həmmədi (s.a.s) uca Allah (c.c) seçdiyinə görə, Onun hakimiyyəti bütün yer üzünü əhatə etmişdir.**

Bütün padşahların hakimiyyəti onların ölümü ilə başa çatır. Hz. Məhəmmədin (s.a.s) hakimiyyəti isə qiyamətədək davam edəcək.

O, elə bir sultandır ki, hakimiyyəti göyləri də əhatə edir. Bir padşahın hakimiyyətinin gücü onun əlində olan ərazinin ölçüsü ilə müəyyən edilir. Hz. Nizaminin təqdimatında İslam Peyğəmbəri yer adlı bir məkanda əyləşmişdir, Onun tacı da sonsuz göylərdir.

Şair, hz. Məhəmmədin (s.a.s) hakimiyyətinin gücünü göstərmək üçün son dərəcə gözəl obrazlardan istifadə etmişdir. «Cahan», «tac», «taxt», «yer», «göy» anlayışları bir beytdə bir araya gələrək hz. Məhəmmədin (s.a.s) əzəmətini ortaya qoymuşdur.

Uca Allah (c.c) seçdiyi Peyğəmbərə elə bir imkan vermişdir ki, ilahi buyruqları təbliğ etmək, insanları ona inandırmaq mümkün olsun. Yeri bir taxt olaraq Ona verən də, göyü bir tac olaraq Onun başına qoyan da uca Allahdır (c.c). Hz. Nizaminin təsvirində hz. Məhəmmədin (s.a.s) hakimiyyəti insanda heyrət hissi yaradır. Heyrət yaratmaq da inandırmağın ən təsirli yoludur.

## ON ALTINCI BEYTİN ŞƏRHİ:
## SƏN ALLAHIN (c.c) İŞIĞININ KÖLGƏSİSƏN

سایه نداری تو که نور مهی
رو تو که خود سایه نور اللهی

***Sənin kölgən yoxdur, çünki sən böyük işıqsan***
***(Bircə bu) kifayətdir ki, Allah işığının kölgəsisən.***[266]

Hz. Nizami bu beytdə hz. Məhəmmədi (s.a.s) bir nur içində təsvir etmişdir. Şairə görə, O, bir nurdur, insanların könlünə, düşüncəsinə işıq saçan bir nur. O, zülmətin, cəhalətin düşməni, qənimi olan bir parlaq nurdur. Şair bir nur Peyğəmbər obrazı təsvir etmək üçün hz. Məhəmmədlə (s.a.s) bağlı möcüzələrin birindən istifadə etmişdir. Qaynaqlarda hz. Məhəmmədin (s.a.s) belə bir möcüzəsinin olması ilə bağlı dəqiq bilgi yoxdur. Ancaq divan şairləri hz. Məhəmmədin (s.a.s) kölgəsinin olmamasını onun möcüzələrindən biri kimi təsvir etmişlər. Hz. Məhəmmədin (s.a.s) kölgəsinin təsəvvüfi izahı da verilmişdir: «… «Ehadiyyet», yani birlik, teklik makamının sahibi olan yüce Peygamberde kesretten (çoxluqan) hiç bir iz bulunmaması için gölgesinin de mevcut olmadığı söylenmişdir…».[267]

**İffet Bursevi:**

Eyledi kaddın misali-sayeden vareste Hak,
Vahdete isbati-hüccetdir cemali-Mustafa.[268]

(Haqq Sənin qəddini kölgədən məhrum etdi, Mustafanın gözəl üzü Allahın birliyinə dəlildir)

Hz. Məhəmmədin (s.a.s) kölgəsinin yoxluğu Onun heç kimə bənzəmədiyinin əlaməti kimi təqdim edilmişdir. Divan şairlərinə görə, O, bir nurdur və nurun da kölgəsi olmaz.

---

[266] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.
[267] Emine Yeniterzi, göstərilən qaynaq, s. 300.
[268] Emine Yeniterzi, göstərilən qaynaq, s. 300.

**Şeyxi:**

Çün oldı zahiri vü batini nur,
Acebmi cismi olsa, sayeden dur.[269]

(Zahiri və batini nur olduğundan Onun cisminin kölgəsinin olmaması qəribə deyil)

**Fəzli:**

Başdan ayağa nur idi bahir,
Nola olmazsa sayesi zahir.
Saye zülmetden oldı çünki bedid
Nurdan saye eyleme ümmid.[270]

(Başdan ayağa açıq, parlaq bir nur idi, Onun kölgəsinin olmamasında bir qəribəlik yoxdur. Çünki kölgə zülmətdən yaranar, sən nurun kölgəsinin olacağına ümid etmə)

Divan şairlərinə görə, «… Cenabi-Hak nurdan yaratdığı Habibinin gölgesini güneşe ve aya taksim etmiş, onlar da bu nurdan feyz almışlar, ya da eger yüce Peygamberin gölgesi olsaydı, güneş işık yerinə gölgeyi tercih ederdi, ya da güneş Onun yüceliyini idrak etmiş, gölgesini yere düşürmemişdir kibi tevillerle güneş-gölge münasibetine yer verilmiştir. Öte yandan hz. Peygamberin gölgesi yere düşseydi, torpağın her bir zerresi güneş gibi işık saçar, güneş de bu toprağı gözüne sürme eylerdi tarzındakı ifadelerle Peygamberin gölgesinin güneşten daha parlak bir nur olduğu için görülmediyi dile getirilmiştir».[271]

---

[269] Emine Yeniterzi, göstərilən qaynaq, s. 300.
[270] Emine Yeniterzi, göstərilən qaynaq, s. 301.
[271] Emine Yeniterzi, göstərilən qaynaq, s. 301.

## DİVAN ŞAİRLƏRİNƏ GÖRƏ PEYĞƏMBƏRİN KÖLGƏSİ

**Divan şairlərinə görə, hz. Məhəmmədin (s.a.s) kölgəsi «himmət gözünün aynasıdır», «qeybi görən gözlərin sürməsidir», «bu kölgə görülsə, mələklər onu saçlarına boyamaq üçün yağmalayacaqlar», «onun kölgəsi olmayan boyu cənnət sərvəridir», «onun uca Allah (c.c) yanında mövqeyi uca olduğundan kölgəsi yerə düşmür», «onun kölgəsi yerə düşməyən bir hümadır», «O fani dünyaya etibar etmədiyinə görə kölgəsini belə yerə düşürməmişdir», «onun başı üzərində həmişə bir bulud olmuşdur, bu onun kölgəsidir», «Onun göy üzünə uzanan kölgəsini ərş başına tac etmişdir», «Onun şəfaət haqqı ilə günahkarları himayəsinə alması kölgəsinin qiyamət gününə saxlanması deməkdir», «Peyğəmbər bütün kainatın əsli olan nuru ilə varlıq aləmlərini, kölgəsi ilə də yoxluq aləmlərini nurlandırmışdır, iki aləm Onun nurundan feyz almışdır».**

**Nəbi:**

Zati-paki vücuda virdi nur,
Ademi itdi sayesi mamur.

Yani zat- i Muhammediden hem,
Behredar oldılar vücud u adem.[272]

(Pak zatı vücuda (varlığa) nur verdi, kölgəsi Adəmi nurlandırdı. Məhəmmədin nurundan (ilk nur, ilk yaradılan nur) varlıq və yoxluq aləmi bəhrələndi)

Hz. Məhəmmədin (s.a.s) kölgəsinin olmaması «Onun uca Allahın (c.c) kölgəsi olması ilə bağlıdır». O, yer üzünü

[272] Emine Yeniterzi, göstərilən qaynaq, s. 302.

nurlandırmaq üçün göndərilmişdir, «kölgəsinin qaranlığı Onun nurlu varlığına yaxınlaşa bilməz».

**Nevizadə Atayi:**

Zülmeti-kevni eyledi zail,
Nice yaklaşsun ana zulmeti-zıle.[273]

(Cahanın kölgəsini yox etdi. Zülmətin kölgəsi ona necə yaxınlaşsın)

**Divan şeirinə görə, hz. Məhəmmədin (s.a.s) kölgəsi olmasa da, insanlıq və bütün varlıq Onun kölgəsində yaşayır.**

## NİZAMİYƏ GÖRƏ O, BÖYÜK NURDUR

Hz. Nizami deyir ki, hz. Məhəmmədin (s.a.s) kölgəsi yoxdur. Şair bunun səbəbini Peyğəmbərin «böyük işıq» olması ilə bağlayır. Şairin təqdimatında «böyük işıq» hz. Məhəmmədin nuru, ilk yaradılan nur, ilk yaradılan varlıq mənasındadır. Yəni uca Allahın (c.c) yaratdığı ilk varlıq hz. Məhəmmədin (s.a.s) nurudur. Uca Allah (c.c) Onun nurundan sonra Lövhi-Məhfuzu, Qələmi, Cənnəti, Cəhənnəmi, göyləri, yer üzünü və insanları yaratmışdır. Onun varlığı nurdan yaradılmış, O, özü böyük işıq olduğundan bütün kainat da Onun nurundan yaradılmışdır.

Onun mübarək adlarından biri də Nurdur. Hz. Nizami Ona «böyük nur», yəni ilkin və ən çox enerjisi, işıqlandırma imkanı olan nur deyir. Divan ədəbiyyatında da hz. Məhəmməd (s.a.s) «Nuri-Aləm», «Nuri-Asfiya», «Nuri-Ayni-Asfiya», «Nuri-Azam», «Nuri-Çeşmi-Aləmiyan» (aləmlərin gözünün nuru), «Nuri-çeşmi-ənbiya» («peyğəmbərlərin gö-

[273] Emine Yeniterzi, göstərilən qaynaq, s. 302.

zünün nuru»), «Nuri-deraxşan» («parlaq nur»), «Nuri-Əkrəm» («böyük nur»), «Nuri-əzəl», «Nuri güzin» («seçilmiş nur»), «Nuri-Hak» («Haqqın Nuru»), «Nuri-Xuda» («Allahın nuru»), «Nuri-Hüviyyət», «Nuri-Qədimi-Zati-Mövla» («Allahın zatının nuru»), «Nuri-Məhz», «Nuri-Mehri-Sübhi» «Ma ehva», «Nuri-Məhəmmədi», «Nuri-Mübin» («parlaq nur»), «Nuri-nəzərgahi-xuda» («Allahın nəzərgahının nuru»), «Nuri-Nəbəviyyə» («Peyğəmbərlik nuru»), «Nuri-pak» («pak nur»), «Nuri-Rəhmət», «Nuri-Şərəfpərvər» («şərəfli nur»), «Nuri-Tövhid» («Allahın varlıq və birliyinin nuru») deyilmişdir.

Hz. Nizami «kölgə» və «nur» kimi əksmənalı sözlərdən yararlanaraq hz. Məhəmmədin (s.a.s) göndəriliş səbəbini açıqlamışdır. Şair deyir ki, aləm qaranlıq içində idi, Sən gəldin və aləmi nura qərq etdin.

Hz. Nizami Peyğəmbərin kölgəsinin olmadığını deməklə onu başqalarından ayırır, Onu yaradılmışlardan üstün tutur.

**Şairin təqdimatında «böyük nur» hz. Məhəmməd (s.a.s) vasitəsi ilə insanlığa verilmiş ilahi qaynaqlı elmi, İslam dinini təmsil edir.**

Hz. Nizami deyir ki, Onun üzü uca **Allahın nurunun** (c.c) kölgəsidir.

Qurani-Kərimdə «Allahın nuru» anlayışından çox istifadə edilmişdir.

اللَّهُ نُورُ السَّمَاوَاتِ وَالْأَرْضِ مَثَلُ نُورِهِ كَمِشْكَاةٍ فِيهَا مِصْبَاحٌ الْمِصْبَاحُ فِي زُجَاجَةٍ الزُّجَاجَةُ كَأَنَّهَا كَوْكَبٌ دُرِّيٌّ يُوقَدُ مِن شَجَرَةٍ مُّبَارَكَةٍ زَيْتُونِةٍ لَّا شَرْقِيَّةٍ وَلَا غَرْبِيَّةٍ يَكَادُ زَيْتُهَا يُضِيءُ وَلَوْ لَمْ تَمْسَسْهُ نَارٌ نُّورٌ عَلَى نُورٍ يَهْدِي اللَّهُ لِنُورِهِ مَن يَشَاءُ وَيَضْرِبُ اللَّهُ الْأَمْثَالَ لِلنَّاسِ وَاللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ فِي بُيُوتٍ أَذِنَ اللَّهُ أَن تُرْفَعَ وَيُذْكَرَ فِيهَا اسْمُهُ يُسَبِّحُ لَهُ فِيهَا بِالْغُدُوِّ وَالْآصَالِ

(ən-Nur, 24/35-36)

«Allah göylərin və yerin nurudur (Kainatı yaradıb ona nur verən, yer və göy əhlinə haqq yolu göstərən xaliqdir). Onun (Peyğəmbərin və möminlərin qəlbində olan) nuru, içərisində çıraq olan bir qəndilə (taxçaya, oyuğa) bənzər. O çıraq bir şüşənin içindədir. O şüşə isə sanki inciyə bənzər (parlaq) bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə (Aləmin ortasında) olan mübarək bir zeytun ağacından yandırılır. (Şərqdə deyildir ki, günəş batdıqda, qərbdə də deyildir ki, günəş doğduqda qaranlıqda qalsın). Onun (zeytun ağacının) yağı özünə od toxunmasa da, sanki (haradasa) işıq saçır. **O, nur üstündə nurdur.** Allah dilədiyini öz nuruna qovuşdurur (istədiyinə öz nurunu bəxş edib cənnət yolu olan İslam dininə yönəldir). Allah (həqiqəti anlaya bilsinlər deyə) insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir! (Həmin taxça və çıraq) Allahın tikilib ucaldılmasına və Öz adının zikr edilməsinə izin verdiyi o evlərdədir (o məscidlərdədir) ki, orada səhər-axşam Onu təqdis edib şəninə təriflər deyərlər».

**Qurani-Kərimə görə, Allahın (c.c) nuru İslam dinidir.**

يُرِيدُونَ لِيُطْفِؤُوا نُورَ اللَّهِ بِأَفْوَاهِهِمْ وَاللَّهُ مُتِمُّ نُورِهِ وَلَوْ كَرِهَ الْكَافِرُونَ

(əl-Saff, 61/8)

«Onlar Allahın nurunu (İslam dinini) öz ağızları (öz iftiraları və şər sözləri) ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, öz nurunu (dinini) tamamlayacaqdır».

Hz. Nizami deyir ki, hz. Məhəmmədin (s.a.s) üzü Allahın (c.c) nurunun kölgəsidir. **Şairin təfsirində hz. Məhəmmədin (s.a.s), uca Allahın (c.c) kölgəsi olması bir neçə mənanı ehtiva edir. Kölgə nəyin kölgəsidirsə, ondan ayrı ola bilməz.**

**Yəni hz. Məhəmməd (s.a.s) uca Allahın (c.c) nurunun kölgəsidir, bu nurdan yaradılıb. O, uca Allahın (c.c) buyruğu ilə seçilib. Onun təbliğ etdiyi dəyərlər uca Allahın (c.c) buyruqlarıdır. Kölgə bağlı olduğu varlıqdan ayrı olmadığı kimi, hz. Məhəmməd də (s.a.s) hər zaman Allahın (c.c) iradəsi ilə danışdı, hərəkət etdi, insanları doğru yola yönəltdi. O, uca Allahın (c.c) nurunun daşıyıcısı və ötürücüsüdür.**

Hz. Nizaminin təqdimatında «Sən Allahın kölgəsisən» anlayışı o deməkdir ki, hz. Məhəmməd (s.a.s) Allahın (c.c) yer üzündəki ən inanılmış nümayəndəsidir, yer üzünə təyin etdiyi sultandır, uca Allah (c.c) yer üzünün idarəçiliyini Ona tapşırmışdır.

Qədim zamanlarda sultanlara Allahın (c.c) yer üzündəki kölgəsi deyirdilər. Şair də bu anlayışa uyğun olaraq hz. Məhəmmədi (s.a.s) uca Allahın (c.c) yer üzündəki elçisi olduğunu söyləyir. **Misrada «Allahın kölgəsi» Allahın (c.c) elçisi anlamındadır. O, ümmətin qurucusudur, başçısıdır. Bu mübarək elçinin insanlara payladığı da uca Allahın (c.c) nurudur.**

Hz. Nizaminin bu beytdə Peyğəmbəri uca Allahın (c.c) yer üzünə təyin etdiyi sultan kimi təqdim etməsi öncəki beytlərin məzmununa da uyğundur. Şair öncəki beytlərdə deyirdi ki, Onun taxtı yer kürəsi, tacı isə göy üzüdür.

Hz. Məhəmmədin (s.a.s) uca Allahın (c.c) nurunun kölgəsi olması həm də o deməkdir ki, O, Allahın (c.c) himayəsindədir, Allahın (c.c) verdiyi bu hakimiyyət qiyamətədək davam edəcək, bu ilahi qaynaqlı elm, irfan, iman nuru sönməyəcək.

## ON YEDDİNCİ BEYTİN ŞƏRHİ: SƏNİN MÜSƏLMANLIĞININ ƏLAMƏTİ DÖRD BAYRAĞINDIR

چار علم رکن مسلمانیت
پنج دعا نوبت سلطانیت

***Sənin müsəlmanlığının rüknü – dörd bayrağındır,***
***Beş (vaxt) namaz isə sənin sultanlığının beş növbəsidir.***[274]

Hz.Nizami bu beytdə öncəki beytlərdə irəli sürdüyü ideyalarla sıx bağlılıq quraraq hz. Məhəmmədi (s.a.s) bir ümmət, bir dövlət başçısı kimi təqdim etmişdir. Şairin şərhinə görə, hz. Məhəmməd (s.a.s) uca Allahın (c.c) seçdiyi bir sultandır, Onun hakimiyyəti və dövləti var, cahan onun taxt və tacıdır. Onun taxtı yer, tacı göydür, Onun dövləti sərhədsizdir, yeri və göyü əhatə edir. Onun dövləti İslam ideologiyası əsasında qurulmuşdur.

Bir dövlətin, bir hakimiyyətin göstəricilərindən biri də bayraqdır. Şair hz. Məhəmmədin (s.a.s) ədalət və sevgi üzərində qurulmuş dövlətinin əsaslarını dörd bayraq kimi xarakterizə etmişdir.

Bilindiyi kimi, İslam dini beş əsas üzərində qurulmuşdur: Allahın varlığı, birliyi, hz. Məhəmmədin (s.a.s) Allahın elçisi olması, namaz, oruc, zəkat və həcc. **Şair beytdə müsəlmanlığın dörd rüknü deyərkən İslamın bu əsaslarını nəzərdə tutmuşdur. Ancaq şair birinci misrada İslam dininin beş əsasından dördünə işarə etmişdir. İslam dininin namaz əsasına isə beytin ikinci misrasında ayrıca yer vermişdir.**

---

274 Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.

Hər şeydən öncə onu deyək ki, şairin İslam dininin hər bir əsasını ayrıca bir bayraq kimi təqdim etməsinin səbəbi odur ki, bu əsaslar bir-biri ilə sıx bağlı olduğu kimi, həm də müstəqil bir əsasdır. Allahın (c.c) varlıq və birliyinə iman gətirmək, hz. Məhəmmədin (s.a.s) peyğəmbərliyini qəbul etmək əsasların əsasıdır, bir insanın müsəlman olmasının başlıca şərtidir.

**Hz. Nizamiyə görə, iman etməyin, ümmət olmanın, hz. Məhəmmədin (s.a.s) sultan olduğu ölkənin vətəndaşı olmağın birinci şərti Allahın (c.c) birliyini, hz. Məhəm-mədin (s.a.s) Onun elçisi olduğunu qəbul etməkdir.**

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

قُلْ هُوَ اللَّهُ أَحَدٌ  اللَّهُ الصَّمَدُ  لَمْ يَلِدْ وَلَمْ يُولَدْ  وَلَمْ يَكُن لَّهُ كُفُواً أَحَدٌ

(İxlas, 112/1-4)

«(Ey Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: «(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur). Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır. O əzəlidir, əbədidir!) O, nə doğmuş, nə də doğulmuşdur! (Allah özünə heç bir övlad götürməmişdir!) Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!».

فِي قُلُوبِهِم مَّرَضٌ فَزَادَهُمُ اللّهُ مَرَضاً وَلَهُم عَذَابٌ أَلِيمٌ بِمَا كَانُوا يَكْذِبُونَ  وَإِذَا قِيلَ لَهُمْ لاَ تُفْسِدُواْ فِي الأَرْضِ قَالُواْ إِنَّمَا نَحْنُ مُصْلِحُونَ أَلا إِنَّهُمْ هُمُ الْمُفْسِدُونَ وَلَـكِن لاَّ يَشْعُرُونَ

(əl-Bəqərə, 2/10-12)

«Ey iman gətirənlər! Sizə elə bir ticarət (qazanc yolu) göstərimmi ki, o sizi şiddətli əzabdan xilas etsin? (O qazanc yolu budur:) Allaha və Onun Peyğəmbərinə iman gətirər, Allah yolunda malınız və canınızla vuruşarsınız. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir! (Əgər belə etsəniz) O sizin

günahlarınızı bağışlayar və sizi (ağacları) altından çaylar axan cənnətlərə və Ədn cənnətlərindəki gözəl saraylara daxil edər. Bu, böyük qurtuluşdur (uğurdur)».

مَّا أَفَاء اللَّهُ عَلَى رَسُولِهِ مِنْ أَهْلِ الْقُرَى فَلِلَّهِ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ كَيْ لَا يَكُونَ دُولَةً بَيْنَ الْأَغْنِيَاء مِنكُمْ وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

(əl-Həşr, 59/7)

«… Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi qadağan edirsə, ondan əl çəkin…».

قُلْ إِن كُنتُمْ تُحِبُّونَ اللّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللّهُ غَفُورٌ رَّحِيمٌ

(Ali-İmran, 3/31)

«(Ey Rəsulum!) De: «Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, rəhmlidir!».

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِّمَن كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الْآخِرَ وَذَكَرَ اللَّهَ كَثِيراً

(əl-Əhzab, 33/21)

«Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!».

لَا تَجْعَلُوا دُعَاء الرَّسُولِ بَيْنَكُمْ كَدُعَاء بَعْضِكُم بَعْضاً قَدْ يَعْلَمُ اللَّهُ الَّذِينَ يَتَسَلَّلُونَ مِنكُمْ لِوَاذاً فَلْيَحْذَرِ الَّذِينَ يُخَالِفُونَ عَنْ أَمْرِهِ أَن تُصِيبَهُمْ فِتْنَةٌ أَوْ يُصِيبَهُمْ عَذَابٌ أَلِيمٌ

(ən-Nur, 24/63)

«…Onun (Allahın, ya Peyğəmbərin) əmrinə qarşı çıxanlar başlarına gələcək bir bəladan, ya da düçar olacaqları şiddətli bir əzabdan həzər etsinlər!».

مَّنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللّهَ وَمَن تَوَلَّى فَمَا أَرْسَلْنَاكَ عَلَيْهِمْ حَفِيظاً

(ən-Nisa, 4/80)

«Peyğəmbərə itaət edən kimsə, şübhəsiz, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin)! Biz ki səni onların üzərində gözətçi olaraq göndərməmişik».

## NİZAMİYƏ GÖRƏ CƏMİYYƏTİN XOŞBƏXTLİYİNİN ƏSASLARI

**Hz. Nizami, sultanı hz. Məhəmməd (s.a.s) olan İslam ölkəsini bir «rəhmət evi», «rəhmət ölkəsi», «şəfqət yurdu» kimi təsvir etmişdir.** Şairə görə, bu ölkənin öz mədəni dəyərləri, öz bayrağı, öz inanc sistemi var. Hz. Məhəmmədin (s.a.s) bayrağının altında durmağın birinci şərti də Allaha (c.c) və Onun elçisinə iman etməkdir.

**Hz. Nizamiyə görə, insanın özü ilə, başqa insanlarla, uca Allahla (c.c) razı olaraq yaşamasının şərti Allahın (c.c) təkliyinə inanmaqdır. Bu təməl prinsip Onun qurduğu «rəhmət evi»nin, «rəhmət ölkəsi»nin ideologiyasıdır, ana yasasıdır.**

Şair deyir ki, Sənin müsəlmanlığının əsası (rüknü) insanlığın xoşbəxt yaşamasının təminatıdır. Şairə görə, bu «rəhmət evi»nin vətəndaşlarını Allahın (c.c) təkliyi düşüncəsinə inandıracaq, onları bu düşüncənin bərəkəti içində yaşadacaq örnək şəxsiyyət də hz. Məhəmməddir (s.a.s). O, sultandır, Onun vəzifəsi vətəndaşları Allahın (c.c) birliyinə inandırmaqdır, onları qorumaqdır. O, Allahın (c.c) seçdiyi sultandır, Onun buyruğundan çıxmaq olmaz. Onun sultanlığını – elçiliyini qəbul etmədən, ona uymadan, onu

sevmədən, bütün varlığını bu mübarək sultana vermədən uca Allahın (c.c) rizasını qazanmaq olmaz.

Uca Allahın (c.c) mübarək elçisi buyurur:

«... Kim mənim sünnəmdən (həyat ölçülərimdən) üz çevirərsə, məndən deyildir».[275]

«Dinin əldən çıxması sünnənin tərk edilməsi ilə başlayar. Xalat lif-lif qopub parçalandığı kimi, din də sünnənin bir-bir tərkiylə ortadan qalxar».[276]

**Hz. Nizamiyə görə, doğru, insanları xoşbəxt edəcək, yalandan uzaq, sevgi, şəfqət və ədalət təməli üzərində qurulacaq bir cəmiyyət istəyiriksə, onun əsası Allahın (c.c) birliyinə və hz. Məhəmmədin (s.a.s) elçiliyinə inanmaqdır. Belə bir barış ölkəsinin, «rəhmət evi»nin, ədalət üzərində qurulmuş səltənətin vətəndaşları Allahın (c.c) dostlarıdır, Onun yerdəki vəkilləridir.**

أَلا إِنَّ أَوْلِيَاء اللّهِ لاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ الَّذِينَ آمَنُواْ وَكَانُواْ يَتَّقُونَ لَهُمُ الْبُشْرَى فِي الْحَياةِ الدُّنْيَا وَفِي الآخِرَةِ لاَ تَبْدِيلَ لِكَلِمَاتِ اللّهِ ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

(Yunus, 10/62-64)

«Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər. O kəslər ki, iman gətirmiş və pis əməllərdən çəkinmişlər onlara dünyada da, axirətdə də müjdə var. Allahın sözləri (verdiyi vədlər) heç vaxt dəyişməz. Bu, böyük qurtuluşdur (uğurdur)!».

Nizamiyə görə, uca Allah (c.c), hz. Məhəmmədi (s.a.s) yer üzünə «rəhmət evi» qurmaq üçün göndərmişdir. Belə bir evi tikmək, belə bir cəmiyyəti yaratmaq üçün əsas şərt Allahın (c.c) birliyinə inanmaqdır. Bu inanc inananlar cəmiyyətinin istiqamətidir, onlara doğru yolu göstərən

---

[275] Buxari, «Nikah», 1; Müslim, «Nikah», 5.
[276] Darimü, «Müqəddimə», 16.

nurdur. Allahın (c.c) təkliyi (tövhid) inancı pozulsa, bu iman nuru sönər, aləm zülmətə qərq olar, insanlar doğru yolu itirər, azar və həlak olar. Şairə görə, bu mübarək və doğru yolun bələdçisi də hz. Məhəmməddir (s.a.s).

Hz. Nizamiyə görə, insan Allahın (c.c) birliyinə inanmalı və doğru yoldan ayrılmamalıdır. Yəni sadəcə uca Allaha (c.c) inandım deməklə iş bitmir. İnsan istiqamətdən ayrılmamalıdır, tövhid inancına uyğun əməllərdən ayrılmamalıdır. **Şair «müsəlmanlığın dörd əsası (rüknü)» deyərkən də tövhid inancı ilə istiqamət, doğru yol, əməl arasındakı bağlılığa işarə etmişdir.**

Uca Allah (c.c) buyurur:

إِنَّ الَّذِينَ قَالُوا رَبُّنَا اللَّهُ ثُمَّ اسْتَقَامُوا فَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ
أُوْلَئِكَ أَصْحَابُ الْجَنَّةِ خَالِدِينَ فِيهَا جَزَاء بِمَا كَانُوا يَعْمَلُونَ

(əl-Əhqaf, 46/13-14)

«Şübhəsiz: «Rəbbimiz Allahdır!» - deyənlərin, sonra da (sözünün üstündə) möhkəm duranların (qiyamət günü) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməyəcəklər! Belələri cənnətlikdir, onlar (dünyada) etdikləri (yaxşı) əməllərin əvəzi olaraq orada əbədi qalacaqlar!».

Hz. Məhəmməd (s.a.s) bir hədisində buyurur:

«Allaha inandım de, sonra da doğru ol!».[277]

Bu, hz. Nizaminin «Sənin (hz. Məhəmmədin (s.a.s) müsəlmanlığın» dediyi İslamın ölçüsüdür: «Allaha inandım de və doğru ol!». Yəni şairə görə, doğru yol (istimamət) tövhid inancına əsaslanmalıdır. Bu inanc yoxdursa, doğru yol da yoxdur. İnsanın, cəmiyyətin həyatını doğru yola yönəldən, onlara istiqamət verən Allahın (c.c) birliyinə inanmaqdır. Uca Allah (c.c) ayədə, hz. Məhəmməd (s.a.s)

---

[277] Müslim, «İman», 62; Tirmizi, «Zühd», 61; İbni Macə, «Fitən», 12.

hədisində öncə «Allaha inandım de …», buyurur. Ancaq «… Tevhid inancına sahib olan her kes, dürüst bir hayata sahiptir» de denilemez. Çünki istikamet, tövhidin zaruri neticesi degil, aksine tevhid, istikametin vazgeçilmez ön şartıdır».[278]

Hz. Nizaminin tövhid inancı ilə birlikdə İslamın başqa əsaslarını – dörd bayrağını – da təqdim etməsinin səbəblərindən biri də budur. **Şairə görə, İslam dini bütöv bir sistemdir, onun bir-birinə bağlı əsasları var. Bu əsaslara əməl etməyəndə isə tövhid inancının çökmə təhlükəsi yaranır.** Sən Allaha (c.c) inanacaqsan, bu inancını qorumaq üçün islamın başqa əsaslarından ayrılmayacaqsan, qəlbin və dilin eyni sözü deyəcək.

Hz. Məhəmməd (s.a.s) buyurur: «Qəlbi doğru olmadıqca qulun imanı doğru olmaz. Dili doğru olmadıqca da qəlbi doğru olmaz».[279]

## ORUC BAYRAĞI

İslamın əsaslarından – hz. Nizaminin ifadəsi ilə bayraqlarından biri də oruc tutmaqdır. Oruc tutmaq uca Allahın buyruğudur:

أَيَّاماً مَّعْدُودَاتٍ فَمَن كَانَ مِنكُم مَّرِيضاً أَوْ عَلَى سَفَرٍ فَعِدَّةٌ مِّنْ أَيَّامٍ أُخَرَ وَعَلَى الَّذِينَ يُطِيقُونَهُ فِدْيَةٌ طَعَامُ مِسْكِينٍ فَمَن تَطَوَّعَ خَيْراً فَهُوَ خَيْرٌ لَّهُ وَأَن تَصُومُواْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ

(əl-Bəqərə, 2/184)

«Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib buyrulduğu kimi, sizə də vacib buyruldu ki, (bunun vasitəsilə pis əməllərdən) çəkinəsiniz! (Oruc

[278] «Riyazüs-Salihin», c. I, s. 366.
[279] Əhməd bin Hənbəl, «Müsnəd», III, s. 198.

tutmaq) sayı müəyyən olan günlərdir. (Bu günlərdə) sizdən xəstə, ya da səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə (hər günün əvəzində) bir yoxsulu doyuracaq fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə (həm oruc tutub, həm də fidyə verərsə), bu onun üçün daha yaxşı olar. Biləsiniz, oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!».

Ramazan ayında müqəddəs Qurani-Kərim nazil olmağa başlamış, hz. Məhəmmədə (s.a.s) peyğəmbərlik verilmişdir.

شَهْرُ رَمَضَانَ الَّذِيَ أُنزِلَ فِيهِ الْقُرْآنُ هُدًى لِّلنَّاسِ وَبَيِّنَاتٍ مِّنَ الْهُدَى
وَالْفُرْقَانِ فَمَن شَهِدَ مِنكُمُ الشَّهْرَ فَلْيَصُمْهُ وَمَن كَانَ مَرِيضاً أَوْ عَلَى
سَفَرٍ فَعِدَّةٌ مِّنْ أَيَّامٍ أُخَرَ يُرِيدُ اللّهُ بِكُمُ الْيُسْرَ وَلاَ يُرِيدُ بِكُمُ الْعُسْرَ
وَلِتُكْمِلُواْ الْعِدَّةَ وَلِتُكَبِّرُواْ اللّهَ عَلَى مَا هَدَاكُمْ وَلَعَلَّكُمْ تَشْكُرُونَ

(əl-Bəqərə, 2/185)

«Ramazan ayı insanlara doğru yol göstərən, doğru yolu və haqqı batildən ayırmağı açıq-aşkar dəlillərlə bəyan edən Quranın nazil olduğu aydır. Sizdən hər kim o aya yetişsə (Ramazan hilalını görsə), oruc tutsun. Xəstələnənlər, ya da səfərdə olanlar isə (tutmadıqları günlərin sayı qədər) başqa günlərdə tutsunlar».

Oruc tutmaq insan adlı bir dünyanın və fərdlərin yaşadığı cəmiyyətin daxili rahatlığını təmin edən bir ilahi buyruqdur. Oruc tutmaq insanı şərdən qoruyur, oruc tutmaq qulun təslimiyyətini təsdiq edər, oruc insanı şükrə yönəldər, oruc tutmaq Allah (c.c) üçündür, orucun mükafatını uca Allah (c.c) verəcək, oruc qalxandır, oruclunun ağzının qoxusu müşkdən daha ətirlidir, oruclu iftar açanda, Allahına qovuşanda sevinər, oruc tutmaq uca Allahın (c.c) rizasını qazanmaq üçün tutulan ibadətdir, Allah (c.c) rizası üçün bir gün oruc tutan kimsəni uca Allah (c.c) yetmiş il cəhənnəm

atəşindən uzaq tutar, oruc tutanın keçmiş günahları bağışlanar, Ramazan ayında rəhmət qapıları açılar.

**Ramazan ayında hər anın, saatın, günün bərəkəti artar, insan, cəmiyyət, ölkə rahatlığa qovuşar, insanlar arasında ünsiyyət çoxalar, şəfqət və mərhəmət duyğuları güclənər. Ramazan insanı uca Allahı (c.c) tanımağa yönəldər, insanlar yoxsullara fitrə verib onları sevindirər, qohumlar ziyarət edilər. Bu mübarək ayda insanlar sevinc və kədəri paylaşarlar, vətən, din, namus uğrunda şəhid olan insanlar yad edilər.**

**Ramazan insanlarla qaynayıb-qarışma, sosiallaşma ayıdır. Bu mübarək ayda uşaqlara hədiyyə alınar, yoxsullar, yetimlər, qocalar, xəstələr sevindirilər. Ramazan ayı özünütərbiyə dövrüdür. Oruclu insan əlini, dilini, gözünü haramdan qoruyar, pis söz danışmaz, bir kimsənin qəlbini qırmaz.**

Bir ölkənin dincliyi, rahatlığı üçün bu mənəvi-əxlaqi iqlim zəruri deyilmi? Elə buna görə də, hz. Nizami oruc tutmağı hz. Məhəmmədin (c.c) sultan olduğu ölkənin bayraqlarından – əsaslarından biri kimi təqdim etmişdir.

## ZƏKAT BAYRAĞI

Hz. Məhəmmədin (s.a.s) sultanı olduğu ölkənin dəyərlərindən biri də zəkat verməkdir. Zəkat cəmiyyətdə iqtisadi ədaləti təmin edən, insanlar arasında sevgini artıran əsaslardan biridir. Zəkat vermək bir ilahi buyruqdur:

وَأَقِيمُواْ الصَّلاَةَ وَآتُواْ الزَّكَاةَ وَارْكَعُواْ مَعَ الرَّاكِعِينَ

(əl-Bəqərə, 2/43)

«(Müsəlmanların namazı kimi) namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin».

وَمَا أُمِرُوا إِلَّا لِيَعْبُدُوا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ حُنَفَاء وَيُقِيمُوا الصَّلَاةَ وَيُؤْتُوا الزَّكَاةَ وَذَلِكَ دِينُ الْقَيِّمَةِ

(əl-Bəyyinə, 98/5)

«Halbuki onlara əmr edilmişdi ki, Allaha – dini yalnız Ona xas edərək, batildən haqqa (islama) dönərək – ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru – düzgün din budur!».

**«Zəkat» kəlmə olaraq «təmizlik», «layiq olmaq», «arındırmaq», «bolluq», «bərəkət» deməkdir. Zəkat maddi olan ibadətdir. Zəkat, cəmiyyətdə iqtisadi ədaləti təmin edən, yoxsulun qəlbində sevgi, varlının könlündə mərhəmət duyğusu yaradan çox təsirli bir vasitədir.**

وَفِي أَمْوَالِهِمْ حَقٌّ لِّلسَّائِلِ وَالْمَحْرُومِ

(əz-Zariyat, 51/19)

«(Zənginlərin) mallarında dilənçinin və (abırına qısılıb dilənməyən) yoxsulun haqqı (payı) var idi».

**İslam sosial həmrəyliyi təşviq edən bir dindir. Zəkat da bu hədəfi gerçəkləşdirmək üçün ən önəmli maddi ibadətlərdən biridir. Zəkat prinsipləri bəlli olan dini vergidir. Zəkatı inkar edən kafir sayılır. Zəkat dövlətlə milləti bir-birinə bağlayır.**

## HƏCC BAYRAĞI

Hz. Məhəmmədin (s.a.s) sultanı olduğu rəhmət ölkəsinin vətəndaşları üçün fərz olan ibadətlərdən, əsaslardan – «bayraq»lardan biri də həcc ziyarətidir.

فِيهِ آيَاتٌ بَيِّنَاتٌ مَّقَامُ إِبْرَاهِيمَ وَمَن دَخَلَهُ كَانَ آمِناً وَلِلّهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلاً وَمَن كَفَرَ فَإِنَّ الله غَنِيٌّ عَنِ الْعَالَمِينَ

(Ali-İmran, 3/97)

«Orada aydın nişanələr – İbrahimin məqamı var. Ora daxil olan şəxs əmin-amanlıqdadır (təhlükədən kənardır).

(Yemək, azuqə, sağlamlıq, minik baxımından) yoluna qüvvəsi çatan hər kəsin həccə gedib o evi (Kəbəni) ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyildir!».

Həcc ziyarəti bədəni və maddi bir ibadətdir. İmkanı olanlara fərzdir. Həcc ziyarəti insanları günahlardan təmizləyər. «Cihadın ən üstün qəbul olunanı həccdir», həcc ziyarəti qadınlar üçün ən böyük cihaddır, həcc ziyarətini inkar edənlər kafir sayılırlar.

Hz. Məhəmməd (s.a.s) buyurur:

«Pis söz söyləmədən və böyük günah etmədən həcc edən kimsə anasından doğulduğu kimi günahsız olaraq (evinə) dönər».[280]

«Ümrə ibadəti daha sonrakı bir ümrəyə qədər ediləcək günahlara əvəzdir. Qəbul olunan həccin qarşılığı isə ancaq cənnətdir».[281]

## NAMAZ BAYRAĞI

Hz. Nizami İslam dininin əsaslarından biri olan namazla bağlı görüşlərini isə ayrıca qeyd etmişdir. Şair deyir ki, gündə beş dəfə qılınan namaz sənin sultanlığının beş növbətidir. **Beş növbət anlayışı hakimiyyət və sultanlıqla bağlı bir ifadədir. Qədim dövrlərdə sultanların saraylarının qarşısında qoyulmuş təbilin beş dəfə döyülməsi sultanlıq rəmzi sayılmışdır. Şair deyir ki, Sən Allahın (c.c) kölgəsisən, yəni sultansan, Sənin sultanlığının rəmzi də gündə beş dəfə qılınan namazdır.**

---

[280] Buxari, «Həcc», 4; Müslim, «Həcc», 438.
[281] Buxari, «Ümrə», 1; Müslim, «Həcc», 437.

Bilindiyi kimi, İslam dinində namazın ayrıca yeri var. Uca Allah (c.c) bu ibadətin yerinə yetirilməsini təkidlə tələb etmişdir:

اتْلُ مَا أُوحِيَ إِلَيْكَ مِنَ الْكِتَابِ وَأَقِمِ الصَّلَاةَ إِنَّ الصَّلَاةَ تَنْهَى عَنِ الْفَحْشَاءِ وَالْمُنكَرِ وَلَذِكْرُ اللَّهِ أَكْبَرُ وَاللَّهُ يَعْلَمُ مَا تَصْنَعُونَ

(əl-Ənkəbut, 29/45)

«(Ey Rəsulum!) Qurandan sənə vəhy olunanı oxu və (vaxtlı-vaxtında) namaz qıl. Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək (Allahın cəlalını və əzəmətini həmişə, hər yerdə yada salmaq), şübhəsiz, (savab baxımından bütün başqa ibadətlərdən) daha böyükdür. Allah nə etdiklərinizi (bütün yaxşı və pis əməllərinizi) bilir!».

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ الَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ

(əl-Muminun, 23/1-2)

«Həqiqətən, möminlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!) O kəslər ki, namazlarında (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) müti olub (Ona) boyun əyərlər!(Allahın qarşısında kiçilərlər!)».

## HƏDİSLƏRDƏ NAMAZ

Hz. Məhəmməd (s.a.s) hədislərində namaza ayrıca önəm vermişdir. **Hz. Məhəmmədə (s.a.s) görə, namaz insanı ruhən təmizləyən, onu çirkin əməllərdən qoruyan ən təsirli dərmandır.** «Beş vaxt namazın bənzəri sizdən birinizin qapısı önündən axıb gedən və hər gün içində beş dəfə yuyunduğunuz bol sulu bir çay kimidir».[282]

[282] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. V, s. 197.

**İslam Peyğəmbəri namazı təmizləmək keyfiyyətinə görə, suya bənzətmişdir, su və namaz arasında bağlılıq yaratmışdır.**

**Hz. Nizamiyə görə, sayıq bir növbətçi sultanın sarayını etibarlı qoruduğu kimi, Allahdan (c.c) başqa hər şeyi unudaraq qılınan namaz da insanı ədəbsizlikdən, çirkinlikdən, günahlardan qoruyar. Sarayın növbəsini çəkməyi unutmaq Sultan üçün böyük təhlükə yaratdığı kimi, namazı unutmaq da insanı günahlara yönəldir.**

Hz. Məhəmmədə (s.a.s) görə, namaz kiçik günahları yuyar:

«Bir müsəlman, fərz namazın vaxtı gələndə gözəl abdəst alar, diqqətlə və rükunu da tam edərək namazını qılarsa, böyük günah etmədikcə bu namaz öncəki günahlarına əvəz olar. Bu hər zaman belədir».[283]

**Sultanın sarayının növbəsi ardıcıl və diqqətlə yerinə yetirilməlidir. Bu hz. Nizaminin fikridir. Hz. Məhəmməd (s.a.s) də buyurur ki, namaz davamlı qılınmalıdır, onun bütün şərtləri yerinə yetirilməlidir.**

**Sultanın sarayı ən çox səhərlər, sübh tezdən və axşamın qaranlığında təhlükəyə məruz qalar. Növbətçi bu vaxtlara xüsusi diqqət yetirməlidir. Hz. Məhəmməd (s.a.s) də sübh namazına ayrıca önəm vermişdir. Çünki insanlar ya tənbəllikdən, ya da iman zəifliyindən sübh namazını qəza edirlər.**

Hz. Məhəmməd (s.a.s) buyurur:

«İki sərinlik namazını, sabah və ikindini qılan kimsə cənnətə girər».[284]

«Günəş doğmadan və batmadan öncə namaz qılan bir kimsə cəhənnəmə girməyəcək».[285]

---

[283] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. V, s. 202.
[284] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. V, s. 204.

«Sabah namazını qılan kimsə Allahın himayəsindədir. Diqqət et, ey Adəm oğlu! Allah birbaşa himayəsində olan bir mövzuda səni sorğuya çəkməsin».[286]

«Bir sıra mələklər gecə, başqa bir dəstə də gündüz vaxtı bir-birinin ardınca gəlib, sizin aranızda olurlar. Onlar sabah namazı ilə ikindi namazında bir araya gəlirlər. Gecə aranızda qalmış olanlar Allahın hüzuruna çıxarlar. Uca Allah qullarının halını çox yaxşı bildiyi halda, mələklərə:

- Qullarımı hansı halda gördünüz?,- deyə soruşar.

Mələklər:

- Onları namaz qılarkən qoyub gəldik. Onların yanına namaz qılarkən getmişdik, - deyərlər».[287]

**Sultanın və onun sarayının təhlükəsizliyini təmin edən növbətçinin, keşikçinin, qoruyucunun mükafatı, dərəcəsi böyük olduğu kimi, dinin qoruyucusu olan namazın da mükafatı böyükdür.**

Hz. Məhəmməd (s.a.s) bütöv aya baxaraq belə buyurmuşdur:

«Siz bu ayı çətinlik çəkmədən gördüyünüz kimi, Rəbbinizi də açıqca görəcəksiniz. Günəş doğmadan və batmadan öncəki namazları qaçırmamaq əlinizdən gəlirsə, əsla qaçırmayıb qılın».[288]

**Sultanın sarayının qorunması ilə bağlı işlər vaxtında yerinə yetirilməlidir. Növbətçi vaxtında yerində olmalı və hər şeyə nəzarət etməlidir.** Hz. Məhəmməd (s.a.s) buyurur ki, ən fəzilətli, bərəkətli əməllərdən biri vaxtında qılınan namazdır.

İbni-Məsud (r.a) rəvayət edir: «Rəsulullaha (s.a.s):

---

[285] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. V, s. 207.
[286] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. V, s. 208-209.
[287] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. V, s. 211.
[288] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. V, s. 212.

- Hansı əməllər daha fəzilətlidir?, - deyə soruşdum.

- Vaxtında qılınan namaz, - buyurdu.

- Sonra hansı?, - dedim.

- Ana-ataya yaxşılıq etmək, - cavabını verdi.

- Daha sonra hansıdır?, - deyə soruşdum.

- Allah yolunda cihad etməkdir, - buyurdu».[289]

**Sultanın və Onun sarayının qorunmasını tərk edən növbətçi, qoruyucu Sultana xəyanət edər. Hz. Məhəmmədin (s.a.s) hədislərinə görə, namazı tərk edənə küfr, şirk qapısı açılar.**

«Gerçəkdən insanla şirk və küfr arasında namazı tərk etmək var».[290]

«Bizimlə onlar arasındakı ayırıcı təməl ünsür namazdır. Namazı tərk edən kimsə küfrə düşər».[291]

**Sultanın və Onun sarayının təhlükəsizliyini təmin edən qoruyucu öz vəzifəsini yerinə yetirməsə, Onun cəzası ağır olar. Hz. Məhəmmədə (s.a.s) görə, qulun qiyamət günü ilk hesaba çəkiləcəyi ibadət namazdır:**

«Qiyamət günündə qulun hesaba çəkiləcəyi ilk əməli onun namazıdır. Əgər namazı düzgün olarsa, işi yaxşı gedər və qazanclı olar. Namazı düzgün olmasa, qeyb edər və zərərli çıxar…».[292]

**Sultanı və Onun sarayını qoruyucular səf bağlayaraq, sıraya düzələrək qoruyarlar. Ən etibarlı qoruma sistemi budur. Namazın gözəli də bir sıraya düzülərək, eyni şeyi düşünərək qılınanıdır. Uca Allah (c.c) Onun önündə səf bağlayan mələklərə and içir:**

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

---

[289] Buxari, «Cihad», 1; «Ədəb», 1; «Tövhid», 48.
[290] Müslim, «İman», 134.
[291] Tirmizi, «İman», 9.
[292] Əbu Davud, «Səlat», 149.

وَالصَّافَّاتِ صَفًّا

(əs-Saffat, 37/1)

«And olsun (Rəbbinə ibadət üçün səmada) səf-səf duranlara (mələklərə)…».

Hz. Məhəmməd (s.a.s) buyurur:

«Sıranı düz saxlayın. İrəli-geri durmayın. Sonra qəlbləriniz də bir-birindən fərqli olar. Ağlı başında və elmli olanlarınız mənim arxamda, onlardan sonra gələnlər daha arxada dursunlar».[293]

Hz. Məhəmmədin (s.a.s) dəyərləndirməsinə görə, «namaz Peyğəmbərin gözünün nurudur», «namaz dinin dirəyidir», «namaz möminin meracıdır», «namaz cənnətin açarıdır». İslamın nurlu Peyğəmbəri hədislərinin birində Onun elçi olaraq göndərilməsinin səbəblərini açıqlayarkən bu səbəblər sırasında namazın da adını çəkmişdir:

«Mən, insanlara Allahdan başqa ilah olmadığına, Məhəmmədin Allahın Rəsulu olduğuna şəhadət edib, namazı doğru qılıb, zəkatı haqqı ilə verincəyədək savaşmaqla əmr olundum. Bunları etdikləri zaman qanlarını və mallarını məndən qorumuş olurlar. İslamın zəruri etdiyi haqlar bunun xaricindədir. Onların qəlblərində gizlədikləri şeylərin hesabı da Allaha aiddir».[294]

Hz. Nizami beytin ikinci misrasında namazı İslamın əsasları sırasından ayıraraq xüsusi qeyd etmişdir. **Şair deyir:**

***Beş vaxt namaz isə Sənin sultanlığının beş növbəsidir.***

Hz. Nizamiyə görə, hz. Məhəmmədin (s.a.s) sultan olduğu ölkə ədalətlə idarə olunur. Bu ədaləti təmin edən

---

[293] Müslim, «Səlat», 122.
[294] Buxari, «İman», 17, 28; «Səlat», 28.

əsaslar da İslamın əsas prinsipləridir. Şairə görə, namaz bir sıra xüsusiyyətlərinə görə başqa əsaslardan seçilir. **Hz. Nizamiyə görə, namaz qoruyucudur. Elə buna görə də şair namazı sultanlığın sarayının növbətçisinə, qoruyucusuna bənzətmişdir.**

Bu o deməkdir ki, şairə görə, insan şəxsiyyətinin və cəmiyyətin qoruyucusu namazdır.

**Şairə görə, növbətçi, qoruyucu olmaq ən etibarlı, ən inanılmış olmaq deməkdir. Namaz da qoruyuculuq keyfiyyətinə görə, ən etibarlı ibadətdir.**

**Hz. Nizamiyə görə, namaz növbətçidir, yəni insanın və cəmiyyətin dincliyi, rahatlığı, əmin-amanlığı ondan asılıdır.**

Hz. Nizamiyə görə, namaz Sultanın sarayının qoruyucusudur. Sultanın və sarayın qoruyucusu hər zaman sayıq olmalıdır. Çünki qorumaq, növbətçi olmaq sayıqlıq deməkdir. Şairə görə, namaz da insanı hər zaman sayıq saxlayar, onu qəflətdən xilas edər. Növbətçi hər zaman qoruduğunu düşünər, onu unutmaz. Namaz da insanın hər zaman uca Allahı (c.c) xatırlama halıdır.

**Hz. Nizamiyə görə, namaz bütün ibadətləri özündə birləşdirir, ibadətlərin ən böyüyü namazdır. Namaz dinin, insanın, cəmiyyətin qoruyucusudur.**

Şairə görə, hz. Məhəmmədin (s.a.s) sultanlığı Allahın varlığı və birliyi, namaz, oruc, zəkat və həcc əsasları üzərində qurulmuş bir ədalət ölkəsidir. Yalnız bu əsaslar insanın və cəmiyyətin yaradılış fitrətini qoruyub saxlayar, bu dünya və axirət xoşbəxtliyini təmin edər.

## ON SƏKKİZİNCİ BEYTİN ŞƏRHİ: ALLAHIN ƏZİZLƏRİNİN GÖZLƏRİ SƏNİNLƏ İŞIQLANIB

خاك ذليلان شده گلشن بـه تـــو
چشم غريبان شده روشن بـه تو

*Zəlillərin torpağı səninlə gülşənə çevrilib*
*(Allahın) əzizlərinin gözləri səninlə işıqlanıb.*[295]

Hz. Nizami bu beytdə bir neçə məsələyə toxunmuşdur. Şair beytin birinci misrasında iki halı, iki mərhələni təsvir edib. Bu mərhələ və halın birincisi hz. Məhəmmədin (s.a.s) peyğəmbərliyindən öncəki dövrdür. Şair bu cəhalət, qaranlıq mərhələ və məkanını «zəlillərin torpağı» anlayışı ilə ifadə edib.

«Zəlil» sözü fars dilində rəzil, alçaq, şərəfsiz mənalarında işlədilir. Şair deyir ki, hz. Məhəmmədin (s.a.s) peyğəmbərliyinədək onun doğulduğu torpaq rəzil, alçaq, şərəfsiz insanların torpağı idi. Bütpərəstlik girdabında boğulan bu torpaq, yurd, vətən bərəkətini itirmişdi. Şairə görə, bütpərəstlik cəhaləti torpağın fitrətini pozmuşdu, nemət yetişdirmək üçün yaradılan torpaq qısırlaşmışdı, yararsız bir varlığa çevrilmişdi. Şairə görə, bütpərəstlik insan fitrətini pozur, onu yaradılış qayəsindən uzaqlaşdırır və bu xeyirsiz, mahiyyəti pozulmuş insanların əxlaq və davranışları təbiətə də, torpağa da, suya da təsir edir.

Şair bütövlükdə beytin, ayrıca misranın ideyasını zidd anlayışlarla vermişdir. **Hz. Nizami misrada İslam peyğəmbərini bir bərəkət, güc, şəfa, dərman kimi təqdim etmişdir. Şairə görə, Onun gəlişini təbiət də hiss etdi, torpaq da duydu, canlı – cansız hər şey sevindi. Onun gəlişi ilə torpaq bərəkətləndi, torpağın pozulmuş fitrəti**

[295] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.

**sağaldı, torpaq gözəl nemətlər yetişdirməyə başladı, zəlillər torpağı gülşənə çevrildi, peyğəmbərin bərəkəti ilə torpaq çiçək açdı, laləzar oldu.**

**Hz. Nizamiyə görə, hz. Məhəmmədin (s.a.s) misssiyası insanlığın və bütün aləmin pozulmuş fitrətini özünə qaytarmaqdır.** «Sən aləmlərə rəhmət olaraq göndərildin» ayəsinin bir mənası da budur. Fitrəti pozulmuş torpaq gül-çiçək, nemət yetişdirmək imkanını itirdiyi kimi, fitrəti pozulmuş insanda  ədalətli, mərhəmətli, ağıllı, cəsur və faydalı olmaq imkan və gücünü itirmişdir.

Şairə görə, fitrətin pozulmasının səbəbi uca Allahı (c.c) və Peyğəmbəri tanımamaqdır. Zəlillərin torpağı hz. Məhəmmədin (s.a.s) gəlişi ilə gülşənə çevrildiyi kimi, fitrəti pozulmuş insan və cəmiyyət də yaradan Allahı (c.c), Onun sevimli elçisini tanıyaraq, bilərək, sevərək, bərəkətlənər, sağalar, şəfa tapar. **Şairə görə, hz. Məhəmməd (s.a.s) torpağa çiçək yetişdirmək imkanı verən bir gücdür. Onun özü və sözü cəhalət qaranlığında inləyən könüllər üçün nurdur, xəstə düşüncələrə dərmandır.**

Şair deyir ki, uca Allahın (c.c) və Onun elçisinin sevgisini könlünüzə, düşüncənizə yerləşdirin ki, diliniz, əxlaqınız, əməliniz çiçək açsın, aləmə ətir yaysın. Şairə görə, Allah (c.c) və Peyğəmbər sevgisi yerləşməyən könül rəzillərin torpağı kimidir, bu sevgidən məhrum olan insan və toplum gücsüzdür, bərəkətsizdir, faydasızdır. Torpağın gücü nemət yetişdirməyindədir, insanın gücü ədalətindədir. Torpağa və insana bu bərəkəti, gücü verən də Allah (c.c) və Peyğəmbər sevgisidir.

**Hz. Nizamiyə görə, İslam peyğəmbəri bir sağlam toxumdur. O, elə bir toxumdur ki, zəlillərin torpağında belə bitir, bu torpağı gülşənə çevirir. Torpağın sağlam**

**toxuma ehtiyacı olduğu kimi, insanlığın da hz. Məhəmmədə (s.a.s) ehtiyacı var.**

## ALLAHIN ƏZİZLƏRİ

Hz. Nizami insanların, Allaha (c.c) inananların, «Allahın əzizlərinin» hz. Məhəmmədə (s.a.s) olan ehtiyac və sevgisini ifadə etmək üçün gözəl bir yol seçmişdir. Şair deyir ki, ey Məhəmməd (s.a.s) Allahın (c.c) əzizlərinin gözləri Səninlə işıqlandı.

Biz bu düşüncəni şərh etmək üçün öncə «Allahın əzizləri» anlayışının məzmununa baxaq. **Qurani-Kərimə görə, uca Allahın (c.c) əzizləri tövbə edənlərdir.**

إِلاَّ الَّذِينَ تَابُواْ وَأَصْلَحُواْ وَاعْتَصَمُواْ بِاللّهِ وَأَخْلَصُواْ دِينَهُمْ لِلّهِ فَأُوْلَـئِكَ مَعَ الْمُؤْمِنِينَ وَسَوْفَ يُؤْتِ اللّهُ الْمُؤْمِنِينَ أَجْراً عَظِيماً

(ən-Nisa, 4/146)

«Tövbə edənlər, özlərini ilah edib düzəldənlər, Allahdan möhkəm yapışanlar və Allah qarşısında dinini (etiqadını) təmizləyənlər müstəsnadır. Çünki onlar möminlərlə bərabərdirlər. Möminlərə isə Allah böyük mükafat verəcəkdir!».

**Qurana görə, Allahın (c.c) dostları, əzizləri iman edənlərdir.**

أَلا إِنَّ أَوْلِيَاء اللّهِ لاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ الَّذِينَ آمَنُواْ وَكَانُواْ يَتَّقُونَ

(Yunus, 10/62-63)

«Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər. O kəslər ki, iman gətirmiş və pis əməllərdən çəkinmişlər».

**Qurana görə, Allahın (c.c) əzizləri Ondan qorxanlardır.**

وَمِنْ حَيْثُ خَرَجْتَ فَوَلِّ وَجْهَكَ شَطْرَ الْمَسْجِدِ الْحَرَامِ وَحَيْثُ مَا كُنتُمْ فَوَلُّواْ وُجُوهَكُمْ شَطْرَهُ لِئَلاَّ يَكُونَ لِلنَّاسِ عَلَيْكُمْ حُجَّةٌ إِلاَّ الَّذِينَ ظَلَمُواْ مِنْهُمْ فَلاَ تَخْشَوْهُمْ وَاخْشَوْنِي وَلأُتِمَّ نِعْمَتِي عَلَيْكُمْ وَلَعَلَّكُمْ تَهْتَدُونَ

(əl-Bəqərə, 2/150)

«(Ey Rəsulum!) Haradan (səfərə) çıxsan, (namaz vaxtı) üzünü Məscidül-hərama tərəf çevir! (Ey müsəlmanlar!) Harada olsanız, üzünüzü o tərəfə döndərin ki, (özlərinə) zülm edənlərdən başqaları sizə irad tutmasınlar. Siz onlardan deyil, Məndən qorxun. Mən də sizə olan nemətimi tamamlayım (artırım) ki, siz haqq yolu tapasınız».

**Qurana görə, uca Allahın (c.c) əzizləri Ona təslim olanlardır.**

قُلْ إِنَّ صَلاَتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلّهِ رَبِّ الْعَالَمِينَ لاَ شَرِيكَ لَهُ وَبِذَلِكَ أُمِرْتُ وَأَنَاْ أَوَّلُ الْمُسْلِمِينَ

(əl-Ənam, 6/162-163)

«De: «Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyrulmuşdur və mən ilk müsəlmanam!».

**Qurana görə, uca Allah (c.c) əzizlərinə nur vermişdir, onların könlünü iman nuru ilə işıqlandırmışdır, onlara elm vermişdir, onları müjdələmişdir:**

لَا يَسْتَوِي أَصْحَابُ النَّارِ وَأَصْحَابُ الْجَنَّةِ أَصْحَابُ الْجَنَّةِ هُمُ الْفَائِزُونَ

(əl-Həşr, 59/20)

«Cəhənnəm əhli ilə cənnət əhli eyni ola bilməz. Cənnət əhli nicat tapıb (əbədi) səadətə qovuşanlardır!».

## PEYĞƏMBƏR SEVGİSİ OLAN KÖNÜL ÇİÇƏK AÇAR

Hz. Nizami deyir ki, Allahın əzizlərinin gözü islam peyğəmbəri ilə işıqlanıb. «Gözü işıqlanmaq», «gözünə işıq gəlmək» deyimləri bir neçə mənanı ifadə edir.

İnsan ac olar, gücdən düşər, buna uyğun olaraq da gözünün nuru azalar. İnsan qida qəbul edər, dizinə güc, gözünə nur gələr. Şair «gözünə işıq gəlmək» ifadəsini seçməklə deyir ki, insanlar iman çatışmazlığı nəticəsində zəiflədilər, gücdən düşdülər. Hz. Məhəmməd (s.a.s) gəldi və onlara güc verdi, İslam Peyğəmbəri inananların güc qaynağıdır, qidasıdır.

**İnsan çox sevdiyi bir şeyin həsrətini çəkər, həsrətdən gözünün kökü saralar, gözünün nuru sönər. Allahın (c.c) əzizləri hz. Məhəmmədi (s.a.s) çox sevdilər, illərlə onun həsrətini çəkdilər. Hz. Məhəmməd (s.a.s) gəldi, həsrətə son qoyuldu, həsrət dolu gözlər nurlandı.**

**Hz. Nizaminin təqdimatında «gözlərə işıq gəlmək» sevinci ifadə edir.** İnsan sevdiyini görəndə «gözümə işıq gəldi» deyər. «Allahın əzizləri», hz. Məhəmmədi (s.a.s) gördülər, sevindilər və gözlərinə işıq gəldi.

**Hz. Nizaminin təfsirində «gözlərə işıq gəlmək» ümidi ifadə edir.** «Allahın əzizləri» darda qaldılar, çətinə düşdülər. Hz. Məhəmməd (s.a.s) gəldi və onlara ümid verdi.

**Hz. Nizaminin şərhində «gözlərin sevinclə işıqlanması» gücü ifadə edir**. Hz. Məhəmmədin (s.a.s) gəlişi «Allahın əzizlərini» gücləndirdi, onların gözünün nuru artdı.

**Hz. Nizaminin şərhində «gözlərin sevinclə işıqlanması» cəhalətin, qaranlığın məğlub olması kimi dəyərləndirilmişdir**. Hz. Məhəmməd (s.a.s) adlı bir parlaq nur gəldi və qaranlıq məğlub oldu.

**Hz. Nizaminin şərhində «gözlərin sevinclə işıqlanması» himayə, arxa, dayaq mənalarını ifadə edir.** Hz.

Məhəmməd (s.a.s) gəldi və «Allahın əzizlərinin» pənahı, dayağı, güvənc yeri oldu.

**Hz. Nizaminin təfsirində «gözlərin sevinclə işıqlanması» «Allahın əzizləri»nin qorxudan qurtulması anlamındadır.** Qorxu insanın gücünü, gözünün nurunu azaldar. Hz. Məhəmməd (s.a.s) gəldi və onu sevənləri qorxudan xilas etdi. Hz. Nizami deyir ki, hz. Məhəmməd (s.a.s) olan yerdə qorxu yoxdur.

Şairə görə, hz. Məhəmməd (s.a.s) «Allahın əzizləri» üçün güc qaynağıdır, sevincdir, ümiddir, arxadır, dayaqdır, himayəçidir. Onun sevgisi hansı könülə düşsə, o, çiçək açacaq, gülşənə çevriləcək.

## ON DOQQUZUNCU BEYTİN ŞƏRHİ: SƏNİN QƏDƏMLƏRİN GÖYÜN BAŞINA ÖZ ƏTƏYİNİ DARTDI

تا قدمـت در شــب گيسـوفشـــان
بـر سـر گـردون شــده دامن كشان

*Sənin qədəmlərin zülfü dağılmış gecədə,*
*Göyün başına öz ətəyini dartandan bəri.*[296]

Hz. Nizami on doqquzuncu beytdə hz. Məhəmmədin (s.a.s) merac gecəsi uca Allahın (c.c) hüzuruna getməsini təsvir etmişdir. Şair bu beytdə merac gecəsinin önəmini, hz. Məhəmmədin uca Allah (c.c) yanında dəyərini anlatmaq üçün bir neçə bədii vasitədən istifadə etmişdir.

Şair merac gecəsini başqa gecələrdən ayırmış, onu gözəl bədii naxışlarla təsvir etmişdir. Şairin təsvirinə görə, uca Allah (c.c) öz əziz qonağını – mübarək elçisini yanına dəvət etdikdən sonra bütün yaradılmışlara, o sıradan göylərə göstəriş vermiş və bütün səma cisimləri hz. Məhəmmədin (s.a.s) gəlişinə hazırlaşmışdır. **Göylər (göyün qatları) bu ilahi təlimata uyğun olaraq gözəl bəzənmiş, o mübarək elçisini salamlamaq üçün ən gözəl paltarını geyinmişdir. Bu gecənin (merac gecəsinin) zülfü pərişandır, o, həsrətlə hz. Məhəmmədin (s.a.s) gəlişini gözləyir.**

Deməliyik ki, divan ədəbiyyatında «pərişan zülf» bir gözəllik əlaməti kimi təqdim edilmişdir.

**Füzuli:**

Könlüm açılır zülfü-pərişanını görgəc,
Nitqim tutulur qönçeyi – xəndanını görgəc.[297]

(Sənin pərişan zülfünü görəndə könlüm açılır, qönçə ağzını görəndə dilim tutulur).

---

[296] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.
[297] Məhəmməd Füzuli, «Türkcə divan», s. 150.

«Qara saç», «qıvrım saç», «pərişan zülf» divan ədəbiyyatında bir gözəllik ölçüsüdür. Divan ədəbiyyatında «zülf» deyilərkən sevgilinin iki gözəl, ağ, al yanağına tökülmüş qara, qıvrım saç nəzərdə tutulmuşdur. Gözəlin ağ, al yanağına tökülmüş gecə kimi qara saçlar ona ürəkləri çəkən bir gözəllik verir. Belə zərif, incə təsvir divan ədəbiyyatının gözəllik anlayışına bağlıdır. «Allah gözəldir və gözəli sevər» prinsipinin ölçülərinə uyğundur. Burada məqsəd gözəlliyi təsvir etməklə insanda gözəl duyğular yaratmaq və onları bu yolla tərbiyə etməkdir.

Təsəvvüf ədəbiyyatında isə zülf heç kimin çata bilmədiyi bir gizli aləmdir. Bu ədəbiyyatda haqqın zatı və əsası qara saçla simvollaşdırılmışdır.

**Nəfi:**

Dila hər muyu bir əjdər görünür ol zülfün,
Nice bin ejderi bir tahayyül ne bela.[298]

(Ey könül, o zülfün hər tükü bir əjdaha kimi görünür. Minlərlə əjdahanı bir yerdə təsəvvür etmək bir bəladır. Yəni zülf bir qovuşulması mümkün olmayan aləmdir. Haqqın zatını da bir kimsə bilməz)

Təsəvvüf ədəbiyyatında qıvrım saç, bir ilahi musiqi, imkan mərtəbəsidir. Uzun saç sayı bilinməyən varlıqlardır, çoxluqdur, gözəl təcəllidir.

**Nicati:**

Şevki-ruhsarında dil zülfi-dutadan korumaz,
Arzuyi-genc edenler ejderhadan korkmaz.[299]

---

[298] «Tasavvuf terimleri ve deyimleri sözlüyü» (hazırlayan, Ethem Cebecioğlu), İstanbul, 2005, s. 737.
[299] «Tasavvuf terimleri ve deyimleri sözlüyü» (hazırlayan, Ethem Cebecioğlu), İstanbul, 2005, s. 737.

(Gözəl üzünü görmək şövqü ilə könül qıvrım saçından qorxmaz. Xəzinə əldə etməyi arzulayanlar əjdahadan qorxmaz)

**Niyazi Misri:**

Sevdayi-zülfün kimün takılsa gerdanına,
Mansur gibi akibet yolunda berdar olur.[300]

(Zülfünün sevdası kimin varlığına düşsə, Mənsur kimi (Həllac Mənsur nəzərdə tutulur) ideal yolunda asılar)

**Hz. Nizami misrada gözəl bir mənzərə yaratmışdır. Merac zamanı hz. Məhəmmədin (s.a.s) uca Allahın (c.c) hüzuruna gəldiyini bilən gecə zülfünü üzünə dağıtmışdır, gecə uca Allahın (c.c) sevimli, əziz qonağını qarşılamaq üçün gözəl bəzənmişdir. Bu gecədə ayın işığı bütün göyü nurlandırmış, gecənin qara zülfü də bu ay kimi işıqlı üzün (səmanın) yanaqlarına tökülmüşdür.**

Şairin təsvirində meracın gözəlliyi, hz. Məhəmmədin (s.a.s) gözəlliyi, sonsuz səmanın gözəlliyi bir-birinə qovuşmuşdur, seyrindən doyulmayan bir ilahi mənzərə yaranmışdır. Uca Allahın (c.c) qonağı çox möhtərəmdir, merac gecəsində veriləcək müjdə elə önəmlidir ki, ilahi buyruqla göylər bu mübarək gəlişə, bu nurlu müjdənin verilməsinə xüsusi hazırlaşmışdır.

Bir insan sevimli qonağını qarşılamaq üçün hazırlıq görər, evini təmizləyər, ən gözəl paltarını geyinər, bəzənər, adamlarını yollara düzər, qonağını alqışlamaq üçün ən gözəl sözləri seçər. Uca Allah da (c.c) ilahi buyruqla merac gecəsi hz. Məhəmmədə (s.a.s) xüsusi mələk göndərmiş, Ona xüsusi səfər yolu seçmiş, Ona özəl minik ayırmış, Onu öncəki

---

[300] «Tasavvuf terimleri ve deyimleri sözlüyü» (hazırlayan, Ethem Cebecioğlu), İstanbul, 2005, s. 737.

peyğəmbərlərlə görüşdürmüş, gecəyə, səmaya Onun şərəfinə uyğun bəzənmək əmri vermişdir.

**Hz. Nizaminin təsvirində hz. Məhəmməd (s.a.s) də bu gecəyə xüsusi hazırlaşmışdır. O, ən gözəl, uzun paltarını geyinmişdir. Şair hz. Məhəmmədin (s.a.s) göylərə doğru addım atmasını «ətəyini dartmaq» kimi təsvir etmişdir. Yəni O, rahat yerimək üçün uzun paltarının ətəyini bir az yuxarı çəkdi. Göylər onun addım səsini duydu və bəzəndi.**

Deməliyik ki, divan ədəbiyyatında hz. Məhəmmədin (s.a.s) qədəmi xüsusi təsvir edilmişdir. Onun ayağının tozu, yolunun tozu, qədəminin tozu, Onun ayağının izinin haqq yolu olması divan ədəbiyyatında ayrıca yer tutmuşdur. Bu yolun tozu sürmə kimi gözə çəkilsə, insanın gözü nurlanar, göz xəstəliyi sağalar. Onun yolunun torpağı insanları Allah (c.c) yoluna yönəldən bir cövhərdir. Hz. Mövlana deyir ki, Onun ayağının torpağı bir dərmandır: «Mən yaşadıqca Quranın qulu, köləsiyəm. Mən Məhəmməd Mustafanın yolunun torpağıyam».[301]

Yəni hz. Məhəmmədin (s.a.s) ayağının torpağı insanı Haqq yoluna yönəldir və insan bu yolun tozu olmasa, heçliyini anlamasa, doğru olanı tapıb, haqqa qovuşa bilməz. «Bu yüzden natlarda hz. Peygamberin ayağının torpağı son derece geniş bir yer tutar ve zengin hayallere konu olur. Hz. Süleymanın bütün mülkü verilse bile Onun ayağının tozunun zerresine bedel olmayacağı, Mirac gecesi ilahi vuslata nail olan yüce Peygambere göklerin ayak toprağı olduğu ifade edilir. Ay ve güneş gökyüzünün sepetinde birer gül olur ve gece-gündüz gökler bu gülleri Onun haki-payine

[301] Emine Yeniterzi, göstərilən qaynaq, s. 277.

(ayak toprağına) saçarlar. Onun dergahının tozuyla aydınlanan gönül güneş ışığına bakmaz bile...».[302]

**Şeyx Qalib:**

Ervah kı tuhfe-i Hudadır,
Hak-i rehi- şah-ı Enbiyadır.[303]

(Uca Allahın (c.c) töhfəsi olan ruhlar peyğəmbərlərin şahının yolunun torpağıdır)

**Divan şeirinə görə, hz. Məhəmmədin (s.a.s) ayağının torpağı göz üçün sürmədir, bəzəkdir, dərmandır, tutiyədir.**

**Neşati:**

Gubar-i reh-güzeri tutiya gibi mergub,
Kelam-i feyz-eseri tende can gibi şirin.[304]

(Gəzdiyi yerlərin tozu tutiyə kimi dərman (faydalı), sözünün bərəkəti bədəndə ruh kimi şirindir).

**Onun ayağının tozunu korlar gözünə çəksə, gözü açılar, o, həqiqəti görər:**

**Zati:**

Ger kuhl idine gerd-i rehün çeşmine ama
Ayniyle ola alemi-esrarı müşahid.[305]

(Əgər kor bir adam sənin yolunun tozunu gözünə sürtsə, aləmin sirlərini gözü ilə görə bilər)

«Onun yolunun tozu Arab ve Acemlerin gözünü açan islamiyyet nurudur. Haki-payinin degerini bilerek ihlas ile yüzüne süren, gözüne sürme ediren niyaz ehli sultanlık rütbesine erişir. Saba ruzgarı Peygamberin kapısının torpağını zerreler halinde gül bahçesine taşır ki, bu sürme ile nergesin gözü açılsın. Güneş her gün Onun toprağına yüz sürmeye gelir, zira Onun ayağının tozu güneşin gözlerine

---

[302] Emine Yeniterzi, göstərilən qaynaq, s. 277.
[303] Emine Yeniterzi, göstərilən qaynaq, s. 277.
[304] Emine Yeniterzi, göstərilən qaynaq, s. 277.
[305] Emine Yeniterzi, göstərilən qaynaq, s. 277.

sürmedir. Ruhların gözüne sürme olan bu toz Mirac gecesi arşın ve meleklerin de gözüne sürme olmuştur. Bu da normaldır, çünkü hz. Muhammed alemlerin Rabbinin müstesna sevgilisidir.

Bu yüzden de melekler ellerinde olsa, Onun kapısının toprağını «kuhli-mücevher» kibi gözlerine çekerler».[306]

**Divan şeirine görə, hz. Məhəmmədin (s.a.s) ayağının torpağı Merac gecəsi böyük ərşin başına bir şərəf tacı olmuşdur.** Onun yolunun torpağı mələklərin başında bir iftixar tacıdır. Səba küləyi başına belə bir tac qoymaq üçün Peyğəmbərin ayağının torpağını yerdən qaldırır.

Onun ayağının tozu elə bir kimyadır, iksiridir, bərəkətdir ki, maddələrin mahiyyətini dəyişir. Bu iksir ariflərin könlünü uca Allahın (c.c) bərəkətli feyzlərinin təcəlli etdiyi məkana çevirir. Onun ayağının torpağı bir müşkdür, ənbərdir.

Onun ayağının tozuna üzünü sürtmək üçün böyük ozan **Yunus Əmrə** illərlə uca Allaha (c.c) yalvarmışdır:

Arayı-arayı bulsam izini,
İzinin tozuna sürsem yüzümü,
Hak nesib eylese görsem yüzünü,
Ya Muhammed, canım arzular seni.[307]

Hz. Nizami deyir ki, Sən qədəmini göyün başına qoydun («ətəyini dartdın») və sənin mübarək ayağının bərəkəti ilə göy dəyişdi. Şair «baş» və «ayaq» antonimlərindən istifadə edərək hz. Məhəmmədin (s.a.s) ayağının göyün başının şərəfi olduğunu ifadə etmişdir. Bu mübarək ayaq göyün başına ayaq qoydu və göylər dəyişdi. Necə dəyişdi? Şair bunu növbəti beytdə şərh etmişdir.

---

306 Emine Yeniterzi, göstərilən qaynaq, s. 278.
307 Yunis Əmrə, «Divan», s. 105.

## İYİRMİNCİ BEYTİN ŞƏRHİ: ONUN (GÖYÜN) ƏTƏYİ SƏNİN SAYƏNDƏ QIZIL VƏ CƏVAHİRLƏ DOLDU

**پر زر و دُر گشتـــه ز تـــــو دامنـــش**
**خشتـك زر ســــوزه پيـر اهنـتش**

***Onun (göyün) ətəyi sənin sayəndə qızıl və cəvahirlə doldu,***

***(Günəşin) qızıl parçası isə (fələyin) köynəyinin qoltuqaltısı (oldu).***[308]

Hz. Nizami öncəki beytdə şərh etdiyi ideyanı açıqlamaqda davam edir. Şair deyir ki, ey Məhəmməd (s.a.s), sən göylərə qədəm qoydun və göylərin ətəyi qızılla, cəvahirlə doldu.

Şair bu beytin birinci misrasında bir neçə məna ifadə etmişdir. **Hər şeydən öncə şair göyün ətəyinin qızıl və cəvahirlə dolduğunu deyərkən göylərin hz. Məhəmmədin (s.a.s) gəlişindən sevindiyini ifadə etmişdir. Şairin təfsirinə görə, göyün ətəyinin qızıl və gümüşlə dolması səmanın ulduzlarla bəzənməsi deməkdir.**

Hz. Məhəmməd (s.a.s) göylərə qədəm qoydu və bütün səma işıqlandı, onun yoluna işıq saçdı, göylər bütün gözəlliyini göstərdi. Göyün ətəyinin qızıl və cəvahirlə dolması həm hz. Məhəmmədin (s.a.s), həm də merac gecəsinin bərəkətini ifadə edir.

**Onun gəlişi ilə göylər gecə elə nurlandı ki, günəş göyün köynəyinin qoltuqaltısı oldu, yəni kölgədə qaldı, utandı və gizləndi.**

---

308 Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.

## İYİRMİ BİRİNCİ BEYTİN ŞƏRHİ: SƏBA YELİ SƏNİN MÜŞK VƏ ƏNBƏR ƏTRİNİ YAYDI

**دُر صـدفِ صبح بـــه دست صفا**
**غـالیـهٔ بـوی تـو سـاید صـبا**

***Səba (yeli) təmiz əllərilə sübhün sədəfinə***
***Sənin müşk və ənbər tərkibli ətrini doldurdu.***[309]

Hz. Nizami bu beytdə də hz. Məhəmmədin (s.a.s) merac gecəsində olan səfərinin bərəkətini şərh etmişdir. Şairə görə, hz. Məhəmməd (s.a.s) göylərə qədəm qoydu, göylər nura boyandı. O, merac gecəsi uca Allahın (c.c) hüzuruna getdi və müjdə aldı. Şair hz. Məhəmmədin (s.a.s) merac gecəsində aldığı müjdəni müşk və ənbər ətri ilə müqayisə etmişdir. Hz. Məhəmməd (s.a.s) göyə ayaq basdığına görə bütün səma müşk ətri ilə dolmuş və merac müjdəsi də bir ənbər ətri kimi aləmə yayılmışdır. Şair bu mənanı ifadə etmək üçün səba yelindən istifadə etmişdir.

## SƏBA YELİ

«Səba» sözü ərəb dilində fel kimi aşiq olmaq, meyl etmək, həsrət çəkmək mənalarını, isim kimi isə səba küləyi, səhər yeli, insana fərəh verən təmiz külək anlayışını ifadə edir. Bu külək güllərin, ayrı-ayrı çiçəklərin açılmasına yardım edir. Təsəvvüfi mənada səba yeli insanın ruhuna şərqdən əsən, insanın könlündə bərəkət yaradan küləkdir. Bərəkətli səba yeli hz. Məhəmmədin (s.a.s) ümməti üçün bir müjdəsidir.

**Karamanlı Nizami:**
Saba zülfün kokusundan muattar kıldı afaqı,
Cemalin nüshasın gördü yele verdi gül evrakı.[310]

---

[309] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.

(Səba zülfün ətri ilə hər yeri ətirlə doldurdu
Sənin gözəl üzünü görən gül yarpağını yelə verdi)

**Fasih:**

Çemenler sebz ü hurremdir hevalar dil-safadır hep,
Bu dem badi-sabadan alınan buyi-safadır hep.[311]

(Çəmənlər yaşıldır, şaddır, havalar ürək oxşayır, bu an səba küləyindən ancaq səfalı ətir yayılır)

**Hz. Nizami deyir ki, bərəkətli səba yeli təmiz əlləri ilə sübhün sədəfinə sənin müşk və ənbər tərkibli ətrini doldurdu. Şair demək istəyir ki, merac gecəsi çox bərəkətli oldu, uca Allah (c.c) hz. Məhəmmədə (s.a.s) ümmətinə beş vaxt namaz, Allaha (c.c) şərik qoşmaqdan başqa bütün günahların bağışlanması və insanın gücü çatmayacağı yükü ona yükləməyəcəyi müjdəsini verdi.**

Səhər açıldı və müjdəçi olan səba yeli bu merac nemətinin ətrini hər yerə yaydı. Merac gecəsində hz. Məhəmmədin (s.a.s) ətri daha da artdı, nuru daha da çoxaldı. Bu gecədən sonra islam dini və müsəlmanlar yeni bir mərhələyə qoydu.

Hz. Nizami öncəki beytlərdə merac gecəsini «xurma» obrazı ilə simvollaşdırmışdı. Bu beytdə isə şair merac gecəsinin bərəkətini müşk və ənbər ətri ilə ifadə etmişdir.

---

[310] «Tasavvuf terimleri ve deyimleri sözlüyü» (hazırlayan, Ethem Cebecioğlu), İstanbul, 2005, s. 528.
[311] «Tasavvuf terimleri ve deyimleri sözlüyü» (hazırlayan, Ethem Cebecioğlu), İstanbul, 2005, s. 528.

## İYİRMİ İKİNCİ BEYTİN ŞƏRHİ: ƏNBƏR QOŞUNU BAYRAQ SANCDI

لا جـرم آنـجا كــــه صبــا تـاخـتـه
لــشـگـر عـنبـر علـم انـداخـتــه

***Odur ki, səba (yelinin) yürüş etdiyi hər yerdə***
***Ənbər qoşunu bayraq sancdı.***[312]

Hz. Nizami bu beytdə hz. Məhəmmədin (s.a.s) merac gecəsindən sonrakı vəziyyəti təsvir etmişdir. Şair bu halı təsvir etmək üçün ideyanın məzmununa uyğun obrazlardan istifadə etmişdir.

Bilindiyi kimi, merac gecəsinin səhəri hz. Məhəmməd (s.a.s) bu hadisəni danışdı və çoxları ona inanmadı. Bu xəbər sürətlə hər yerə yayıldı və hamı bu hadisədən danışmağa başladı. Şair bu mənanı ifadə etmək üçün səba yelini bir qoşuna bənzətmişdir. Bu elə bir qoşundur ki, onun qarşısını almaq mümkün deyil. Bu qoşun hara gedirsə, oranı işğal edir.

Həqiqətən, səba yeli ilə qoşun arasında bir uyğunluq var. Belə ki, səba yelinin, onun yaydığı ətrin, merac gecəsinin qarşısını almaq mümkün deyil.

Şair demək istəyir ki, merac gecəsindən sonra islam dini sürətlə yayılmağa başladı, onun ətri aləmi bürüdü, islamın əhatə dairəsi genişləndi, müsəlmanlar yeni güc qaynağı əldə etdilər.

**Şair bu gücü, merac gecəsinin bərəkətini «ənbər qoşunu» ifadəsi ilə təsvir etmişdir. Merac gecəsindən sonra insanlar islamın ətrini bütün gözəlliyi ilə hiss etdilər. Bu gözəllik, bu ətir könüllərə bayraq sancdı.** Şair merac gecəsindən sonrakı mərhələnin gərginliyini, mübarizəni,

---

312 Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.

islamın qarşısıalınmaz bir gücə çevrildiyini «yürüş», «ənbər qoşunu», «bayraq sancmaq» ifadələri ilə gözəl ifadə etmişdir.

## İYİRMİ ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ: BU ƏNBƏR ƏTRİNİ İKİ ALƏMƏ DƏYİŞSƏN, UCUZ VERMİŞ OLARSAN

بوی کز آن عنبر لرزان دهی
گر به دو عالم دهی ارزان دهی

***Sənin saçdığın bu titrək ənbər ətrini,***
***Hər iki aləmə dəyişsən ucuz vermiş olarsan.***[313]

Şair bu beytdə hz. Məhəmmədin (s.a.s) və merac gecəsinin bərəkətini bir başqa biçimdə təqdim etmişdir. Şair üç beytdə hz. Məhəmmədin (s.a.s) merac gecəsinin müşk və ənbərlə ətirləndiyini ifadə etmişdir. Ancaq burada təkrar yoxdur.

Hz. Nizami öncə hz. Məhəmmədin (s.a.s) merac gecəsində yeni bir ruh, yeni bir güc qazandığını, Onun müşk və ənbərlə ətirlənməsi kimi təsvir etmişdir. Səba yeli Onun ətrini sübhün sədəfinə doldurmuşdur.

Sonra hz. Məhəmmədin (s.a.s) ənbər ətri bütün aləmə yayılmışdır. Daha sonra şair deyir ki, ey Məhəmməd, merac gecəsi elə ətirlənmisən ki, bu ətri iki dünyaya belə dəyişmək olmaz. Çünki merac gecəsi uca Allahın (c.c), hz. Məhəmmədə (s.a.s) verdiyi nemət insanlara bu dünyanın və axirətin mənasını anladan bir ölçüdür. Merac gecəsinin nemətinin dəyərini bilmədən bu dünya və axirət səadətini qazanmaq mümkün deyil.

Şair bu neməti əvəzi olmayan sərvət, ətri azalmayan bir ənbər kimi təqdim etmişdir. Şairə görə, hz. Məhəmməd (s.a.s) merac gecəsi insanlıq üçün bir nur, bir müşk

---

[313] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.

qaynağına çevrilmişdir. O, daimi, tükənməyən bir ətir qaynağıdır.

Şairə görə, hz. Məhəmməd (s.a.s), merac gecəsi və bütövlükdə islam insanlıq üçün ətri azalmayan ənbərdir.

## İYİRMİ DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ: ƏRŞ SƏNİN EYVANINDA BİR KÜRSÜ QOYANDIR

سدره ز آرایش صدرت زهیست
عرش در ایوان تو کرسی نهیست

***Sidr (ağacı) sənin cılıqqanın bəzəyi önündə bir haşiyədir,***
***Ərş sənin eyvanında bir kürsü qoyandır.***[314]

Hz. Nizami bu beytin mənasını, ideyasını şərh etmək üçün bir neçə obrazdan istifadə etmişdir. Bu obrazlardan biri sidr ağacıdır. Öncə bu ağacın islam dinindəki yerini açıqlayaq.

## SİDR AĞACI

Qurani-Kərimin «Səbə» surəsində uca Allah (c.c) buyurur:

فَأَعْرَضُوا فَأَرْسَلْنَا عَلَيْهِمْ سَيْلَ الْعَرِمِ وَبَدَّلْنَاهُم بِجَنَّتَيْهِمْ جَنَّتَيْنِ ذَوَاتَى أُكُلٍ خَمْطٍ وَأَثْلٍ وَشَيْءٍ مِّن سِدْرٍ قَلِيلٍ ذَلِكَ جَزَيْنَاهُم بِمَا كَفَرُوا وَهَلْ نُجَازِي إِلَّا الْكَفُورَ

(Səbə, 34/16-17)

«Ancaq onlar (itaətimizdən) üz döndərdilər, Biz də üstlərinə Ərim (bəndinin) selini göndərdik. (Bunun nəticəsində yurdlarını su basdı). Onların iki (gözəl) bağçasını (tikanlı) acı meyvəli, (içərisində) yulğun ağacları və bir az da sidr ağacı olan iki bağçaya çevirdik. Onları nankorluqlarına görə belə cəzalandırdıq. Biz heç nankordan başqasına cəzamı verərik?!».

---

[314] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.

وَلَقَدْ رَآهُ نَزْلَةً أُخْرَى عِندَ سِدْرَةِ الْمُنْتَهَى عِندَهَا جَنَّةُ الْمَأْوَى إِذْ يَغْشَى السِّدْرَةَ مَا يَغْشَى

(Nəcm, 53/13-16)

«And olsun ki, (Məhəmməd əleyhissəlam Cəbraili öz həqiqi surətində) başqa bir dəfə də (merac vaxtı) görmüşdü. (Yeddinci göydəki / Sidrətül-müntəhanın yanında) Mələklər, şəhidlər və müttəqilər məskəni olan) Məva cənnəti onun yanındadır. O zaman Sidrəni nələr bürümüşdü, nələr! (Ya da: O zaman Sidrəni bürüyən bürümüşdü)».

**Təfsirçilər Sidrə ağacı və bununla bağlı olan Sidrətül-müntəha anlayışı haqqında bir sıra şərhlər vermişlər. Bu şərhləri oxuyaq.**

Süleyman Atəşə görə, Sidrə ağacı Ərəbistanın gilası deyilən Nəbk ağacıdır. Sidrətül-müntəha son sidrə, yəni son ağac deməkdir. **İbn Məsuddan rəvayət edilən bir hədisə görə,** Sidrətül-müntəha yeddinci göydədir. Yerdən çıxan şeylər ora çatır, oradan alınıb aşağı aparılır.

**Mücahidin rəvayətinə görə,** Sidrənin budaqları **inci, yaqut və Zəbərcəddəndir.** Məhəmməd (s.a.s) onu görmüş və Rəbbini də qəlbi ilə görmüşdür.

**İbni Zeydin rəvayətinə görə,** Peyğəmbərə (s.a.s): «Ey Rəsulullah, Sidrənin nə ilə əhatə edildiyini gördün?», - deyilmiş, **«Onu qızıl bir pərvanə əhatə edirdi, yarpaqlarının hər birində Allahı təsbih edən bir mələk gördüm»**, - demişdir».

**Süleyman Atəşə görə,** «...Bu rivayetlerin hiç biri güvenilir, sağlam rivayetler degildir. Ve ayetin tefsiri hakkında degil, isra olayı ile ilgili olarak anlatılmıştır. İsra suresinde işaret edilen isra olayı bu surenin inişinden çok sonra vuku bulmuştur. Çünki bu sure ilk Mekke surelerindendir ve burada Cebrailin Peygambere ilk görünüşleri anlatılmaktadır. Vahyin başlangıc devirlerine ait olayları, çok zaman

sonrakı olaylarla karıştırmak doğru degildir. Demek ki, Sidretül-münteha hakkındakı bu rivayetler tutarlı degildir».[315]

Alimə görə, Peyğəmbər (s.a.s) Cəbraili Sidre deyilən bir ağacın yanında görmüşdür. Ona görə, Sidrə ilk vəhyin endiyi yerdə olan bir ağacdır. Bu ağac Peyğəmbərin ilk vəhy günlərində tənhalığa çəkildiyi bölgədə olan başqa ağaclardan biri, bəlkə də ən böyüyüdür. Onun tənhalığa çəkildiyi Hira dağının çıxışında indi də ağaclar var. O zaman bu ağaclar daha çox idi. Ola bilər ki, Peyğəmbər (s.a.s) belə bir ağacın yanında bu ruhani səhnəni görmüşdür. O zaman Sidrə (bu ağac) nura bürünmüşdü. Sidrənin yanında «cənnətül-məva» (yanında durmağa layiq olan bağça) olması və ruhani şeylərlə əhatə edilməsi hz. Peyğəmbərin özünə bağlı bir görüşdür. Bunun mahiyyətini, mütləq məkanını, ağacın yüksəklik və genişliyini təsbit etməyimiz mümkün deyil.

Alimə görə, hz. Musanın ilk vəhy alması ilə hz. Məhəmmədin (s.a.s) ilk vəhy alması arasında bir oxşarlıq var. Hz. Musaya (s.a.s) uca Allah (c.c) bir ağacdan nur olaraq təcəlli etmiş: «Ey Musa, mən aləmlərin Rəbbi Allaham…», - demişdir. Hz. Məhəmmədə (s.a.s) də Allahın ruhu Cəbrail bir ağacın yanında (Sidrətül-müntəhada) görünərək müraciət edir, Allahın sözlərini vəhy edir. Alimə görə, Sidrətül-müntəha ilə bağlı çoxlu, müxtəlif rəvayətlər olsa da, bu ağac Hira yanındakı bir ağacdır və Peyğəmbər (s.a.s) ilk dəfə onun yanında Cəbraili görmüşdür. «O ağacın yanında durulacaq cennet var» ayesinden iki mana anlaşıla bilir: Ya Peygamber (s.a.s) Cebraili gördügü zaman orada cennet de kendisine gösterilmiştir, yahut da ağacın bulunduğu yerde bir bahçe

---

[315] Süleyman Ateş, «Yüce Kuranın çağdaş tefsiri», c. IX, İstanbul, s. 110.

oluşturacak derecede başka ağaclar da vardır. Fakat birinci ihtimal tercihe şayandır…».[316]

**Böyük islam alimi Fəxrəddin Razi yazır:** «…Cenabi-Hak «Sidratül-Müntehanın yanında …» buyurmuştur. Meşher olan görüşe göre, Sidra üzerinde sidr (sedir) ağacının meyvesine benzeyen meyveler bulunduğu halde, yedinci kat gökte olan bir ağactır. Bunun semanın altıncı katında olduğu da ileri sürülmüştür. Bir haberde hz. Peygamberin (s.a.s) : «O ağacın meyveleri Hecer mevkiinin küp gibi olan meyveleri gibidir. Yaprakları ise fil kulakları gibidir» buyurduğu varid olmuştur. Sidretül-Münteha tabirinin «en ileri derecede duyulan hayret ve şaşkınlık» manasına geldigi ve «es-sederet» kelimesinden olduğu da ireli sürülmüştür. «Es-Sederetu» kelimesi de, tıpkı tebeke kelimesinin rakib kelimesinden muştak olması gibidir. Bu ifade akıl, daha fazlasının olmayacağı bir biçimde hayret ettiği zaman kullanılır. Halbuki, hz. Peygamber (s.a.s) şaşmamış, kayb olmamış (kendinden geçmemiş) ve gördüğünü iyice görmüştür».[317]

**Alimə görə, Sidr bir ağacdır. Bu ağacı bürüyən də quşlar kimi olan mələklər də ola bilər, Allahın nuru da.** «… Allahın nurları… Bu açıktır. Zira hz. Peygamber (s.a.s) oraya (Sidreye) varınca Cenabi-Hak (hz. Musa hadisesinde olduğu gibi), dağa tecelli ettigi gibi, oraya tecelli etmiş derken onun nurları zuhur etdi… Ancak ne var ki, Sidre o dağdan daha güclü ve daha kararlı. Dolayısıyla, o dağ unufak, paramparça olurken bu ağac hareket dahi etmemiş,

---

[316] Süleyman Ateş, «Yüce Kuranın çağdaş tefsiri», c. IX, İstanbul, s. 111.
[317] Fəxrəddin Razi, «Tefsiri-Kebir» (Mefatihul-Gayb), İstanbul, 2002, c. XX, səh. 502.

Musa da bayılıp yere düşerken Muhammed (s.a.s) sarsılmamış dahi…».[318]

Böyük islam alimi Sidrə və Sidrətül-Müntəha ilə bağlı yazır: «Sidretül-Münteha» bir sıra ağacın en sonundakı ağaca atfen kullanılır. Nitekim Allame Alusi «Ruhul-Meani» adlı eserinde bu hususu şöyle açıklar: «Tüm ilimler orada son bulur ve ötede bulunan her şeyi Allah bilir».

İbni Cerir de aynı açıklamayı hemen hemen kabul eder. İbni Esir ise «En nihaye fi Garibil - Hadis» adlı eserinde şöyle bir açıklama yapar: «Bu hususu anlamak, yani maddi dünyanın son sınırındakı «Sidre»nin keyfiyyetini bile bilmek çok güçtür». Mahiyyeti ne olursa-olsun Allah Teala insanların lisanındakı «Sidre» kelimesini seçip kulanmıştır». Cennetül-Meva ise lugatte barınılacaq, oturulacak yer anlamına gelir. Hasan Basriye göre, bu Cennet müminlerin gireceyi cenettir. O, bu ayetten yola çıkarak cennetin gökte olacağını söyler. Katede ise bu cenneti şehid ruhların gideceği cennet olarak kabul eder. Yani ahirette verileceği vad edilen cennet değildir. Nitekim İbn Abbas da aynı kanaattedir. O ayrıca şöyle der: «Ahirette vad edilen cennet gökte degil, bu dünyada olacaktır».[319]

**Görkəmli islam alimi Məhəmməd Əsəd bu məsələ ilə bağlı yazır:**

«… Sidratül-Münteha ifadesinde dile getirilen görüntüyü açıklarken Rağib yapraklarının gölgesinden dolayı sidr ve ya Sidranın (Arabistanda hurma ağacı) Kuranda ve mirac ile ilgili hadislerde cennetin «gölgesi»nin, yani ruhi sükunet ve esenliginin bir sembolu olarak kullanıldığını söyler. «El-

[318] Fəxrəddin Razi, «Tefsiri-Kebir» (Mefatihul-Gayb), İstanbul, 2002, c. XX, səh. 505.

[319] Mevdudi, «Tefhimül-Kuran» (Kuranın anlamı ve tefsiri), İstanbul, 1997, c. VI, s. 19.

munteha» sıfatı («en uzak nokta»), Nihayede işaret edildiği gibi, Allahın yaratılmış varlıkların ulaşa bileceği bilgilere bir sınır koyduğu gerçeğinin bir göstergesi olarak alına bilir. Bu da özellikle ne kadar kapsayıcı ve nüfuzedici olsa da, insan bilgisinin bile – cennete (bir sonrakı ayette zikr edilen «vaad edilen bahçe») – Yaratıcının yalnız kendisine sakladığı nihai gerçekliğin künhüne asla ulaşmayacağını gösterir».[320]

**Böyük islam alimi Zəməxşəriyə görə, sidrə ağacının bir şeylə bürünməsi heç bir təsvirin çəkə bilməyəcəyi və heç bir ifadənin ifadə edə bilməyəcəyi anlamında olub, bir cənnət simvoludur və onun üstünlüyünü, ehtişamını göstərir.**[321]

**Sidr və sidrətül –müntəha anlayışı təsəvvüf düşüncəsi və ədəbiyyatında da önəmli yer tutur.** Təsəvvüf böyükləri də sidrənin cənnətdə bir ağac olduğunu irəli sürmüşlər. Onlara görə, yaradılmışların Allaha (c.c) doğru gedərkən çata biləcəkləri son nöqtə sidr ağacınadək olan məsafədir, yəni sidrətül-müntəhadır. Bundan sonrakı mərhələ yalnız uca Allaha (c.c) aiddir. Sidrədən sonraya çatmaq mümkün deyil. Çünki yaradılmışlar burada məhv olmuş, toz halına çevrilmiş, silinmişdir. Sidrətül-müntəha yoxluğa bitişikdir. Sidrədən sonra üçün məxluqun bir vücudu yoxdur. Təsəvvüfdə sidr ağacına iman da deyilmişdir.

Təsəvvüfün böyük şairi **Yunis Əmrə** bu məqamı, bu dərəcəni belə dəyərləndirir:

Sidretül-müntehadan
Andan içerü giren

[320] Muhammed Esed, «Kuran mesajı» (meal-tefsir), Ankara, 2002, s. 1081.
[321] Muhammed Esed, «Kuran mesajı» (meal-tefsir), Ankara, 2002, s. 1081.

Hiç nişan egdimedi
Menzili nur içinde.[322]

**Hz. Nizami iyirmi dördüncü beytin birinci misrasında deyir ki, sidr (ağacı) sənin cılıqqanın bəzəyi önündə bir haşiyədir. Bu misrada şair bir neçə məna ifadə etmişdir. Hər şeydən öncə şair sidr ağacını hz. Məhəmmədin (s.a.s) merac gecəsi baş verən ilahi dəvətini şərh edərkən xatırlatmışdır. Şair demək istəyir ki, bu gecə hz. Məhəmmədin (s.a.s) ən çox nurlandığı gecədir, O, bu mübarək gecədə elm və müjdə almışdır, müşk və ənbər qaynağına çevrilmişdir.**

Şairə görə, sidr ağacı və sidrətül-müntəha kamil insanların yüksələ biləcəyi ən son nöqtədir. Hətta, mələklər belə, bu nöqtədən, bu ağacdan o yana keçə bilməzlər. **Ancaq hz. Məhəmməd (s.a.s), uca Allahın (c.c) yanında elə bir dəyərə sahibdir ki, O, sidrətül – müntəha sərhəddini keçə bilmişdir.**

Təfsirlərdən də göründüyü kimi, sidr ağacı həm də çox gözəldir. Bu ağacın budaqları «inci, yaqut və zəbərcəddəndir, onu qızıl bir pərvanə əhatə etmişdir, yarpaqlarının hər birində Allahı (c.c) təsbih edən bir mələk var».

Hz. Nizami deyir ki, hz. Məhəmməd (s.a.s) daha gözəldir. Sidr ağacı Onun köynəyinin haşiyəsinə bənzəyir.

Deməli, hz. Nizami sidr ağacından həm hz. Məhəmmədin (s.a.s) gözəlliyini, həm Onun uca Allah (c.c) yanındakı dəyərini, həm də merac gecəsinin nurunu şərh etmək üçün istifadə etmişdir.

---

[322] «Tasavvuf terimleri ve deyimleri sözlüyü» (hazırlayan, Ethem Cebecioğlu), İstanbul, 2005, s. 573.

Şair, beytin ikinci misrasında ərş anlayışından istifadə etmişdir. Ərş Quran və hədislərdə ilahi hökmranlıq və taxt mənasında işlədilən bir termindir. Ərşin lüğəvi mənası «yüksəklik, yüksək yer, yüksək şey» deməkdir. Ərş məcazi mənada hakimiyyət, şan, şərəf və taxt anlayışlarını da ehtiva edir.

Müqəddəs kitabda ərş «… kralın tahtı, hükümranlıq, Allahın tahtı olmak üzere üç manada kullanılmıştır. Davud ve Süleyman peygamberlerin tahtı ile Firavunun tahtına arş adı verilirken kelimenin birinci anlamına, ilahi saltanatın eski zamandan beri kurulmuş olur ebediyen devam edeceyi bu saltanatın hak ve adalet temellerine dayandığı belirtilirken de ikinci anlamına işaret edilmişdir. Üçüncü anlamdakı arş ise Allahın ezelden beri üzerinde oturduğu bir taht olup evrenin en yüksek noktasındadır. Kerubilerin başları üzerindeki gök kubbede bulunan bu taht pembe – mavi karışımı gök yakutu rengindedir. Altından billur gibi berrak bir hayat irmağı akar. Kalın bulutlarla örtülü bulunan tahtın çevresinde arslana, danaya kuşa ve insana benzeyen özel yaratılışlı dört canlı mevcuttur. Secdeye kapanan melekler ve bütün gökler ordusu bu tahtın etrafını kuşatmışdır».[323]

## QURANDA ƏRŞ ANLAYIŞI

Qurani-Kərimdə ərş anlayışı bir neçə mənada işlədilmişdir. Qurani-Kərimdə ərş uca Allaha (c.c) aid edilmişdir. **On səkkiz ayədə uca Allahın (c.c) «ərşin sahibi» olduğu bildirilmişdir.**

فَإِن تَوَلَّوْاْ فَقُلْ حَسْبِيَ اللّهُ لا إِلَـهَ إِلاَّ هُوَ عَلَيْهِ تَوَكَّلْتُ وَهُوَ رَبُّ الْعَرْشِ الْعَظِيمِ

(ət-Tövbə, 9/129)

[323] Türkiye Diyanet Vakfı, «İslam Ansiklopedisi», İstanbul, 1991, c. III, s. 406.

«(Ey Peyğəmbərim!) Əgər onlar (sənə gətirməkdən, əmrlərinə itaət etməkdən) üz döndərsələr, de: «Mənə təkcə Allah yetər. Ondan başqa heç bir Tanrı yoxdur. Ona təvəkkül etdim mən. O, böyük ərşin Rəbbidir (sahibidir)».

سُبْحَانَ رَبِّ السَّمَاوَاتِ وَالْأَرْضِ رَبِّ الْعَرْشِ عَمَّا يَصِفُونَ

(əz-Zuxruf, 43/82)

«Göylərin və yerin Rəbbi, ərşin Rəbbi (müşriklərin) Ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır!».

**Qurani-Kərimə görə, uca Allahın (c.c) ərşi su üzərindədir.**

وَهُوَ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ فِي سِتَّةِ أَيَّامٍ وَكَانَ عَرْشُهُ عَلَى الْمَاء لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ عَمَلاً وَلَئِن قُلْتَ إِنَّكُم مَّبْعُوثُونَ مِن بَعْدِ الْمَوْتِ لَيَقُولَنَّ الَّذِينَ كَفَرُواْ إِنْ هَـذَا إِلاَّ سِحْرٌ مُّبِينٌ

(Hud, 11/7)

«Ərşi su üzərində ikən hansınızın daha gözəl əməl (itaət) sahibi olacağını sınayıb bilmək üçün göyləri və yeri altı gündə yaradan Odur…».

**Qurana görə, ərş çox böyük və şərəflidir.**

فَتَعَالَى اللَّهُ الْمَلِكُ الْحَقُّ لَا إِلَهَ إِلَّا هُوَ رَبُّ الْعَرْشِ الْكَرِيمِ

(əl-Muminun, 23/116)

«Həqiqi hakim olan Allah (hər şeydən) ucadır. Ondan başqa heç bir Tanrı yoxdur. O, kərim (uca, qiymətli) olan ərşin Rəbbidir! (Allahın rəhməti, xeyir-bərəkəti, peyğəmbərlərə gələn vəhy ərşdən nazil olduğu üçün o kərimdir)».

**Qurana görə, ərşi mələklər daşıyır.** Qiyamət günü ərşi daşıyan mələklərin sayı səkkiz olacaq. Mələklər ərşi əhatə etmişlər və onlar uca Allahı (c.c) öyərək ona itaət edirlər.

وَتَرَى الْمَلَائِكَةَ حَافِّينَ مِنْ حَوْلِ الْعَرْشِ يُسَبِّحُونَ بِحَمْدِ رَبِّهِمْ وَقُضِيَ بَيْنَهُم بِالْحَقِّ وَقِيلَ الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ

(əz-Zumər, 39/75)

«(Ey Peyğəmbər!) mələkləri də ərşi (hər tərəfdən) əhatə edərək Rəbbini həmd-səna ilə təqdis edən görəcəksən. Onların (bütün məxluqatın) arasında ədalətlə hökm olunacaq (möminlər Cənnətə, kafirlər Cəhənnəmə gedəcək) və (mələklərlə möminlər tərəfindən bir ağızdan): «Aləmlərin Rəbbi olan Allaha həmd olsun!» - deyəcəkdir!».

الَّذِينَ يَحْمِلُونَ الْعَرْشَ وَمَنْ حَوْلَهُ يُسَبِّحُونَ بِحَمْدِ رَبِّهِمْ وَيُؤْمِنُونَ بِهِ وَيَسْتَغْفِرُونَ لِلَّذِينَ آمَنُوا رَبَّنَا وَسِعْتَ كُلَّ شَيْءٍ رَّحْمَةً وَعِلْماً فَاغْفِرْ لِلَّذِينَ تَابُوا وَاتَّبَعُوا سَبِيلَكَ وَقِهِمْ عَذَابَ الْجَحِيمِ

(əl-Mumin, 40/7)

«Ərşi daşıyanlar və onun ətrafında olanlar (mələklər) öz Rəbbini həmd-səna ilə təqdis edir, Ona (qəlbən) inanır və möminlərin bağışlanmasını diləyərək belə deyirlər: «Ey Rəbbimiz! Sənin rəhmin və elmin hər şeyi ehtiva etmişdir. Artıq tövbə edib Sənin yoluna gedənləri bağışla, onları cəhənnəm əzabından qoru!».

**Qurana görə, uca Allah (c.c) ərşə hökm etmişdir.**

إِنَّ رَبَّكُمُ اللّهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ يُدَبِّرُ الأَمْرَ مَا مِن شَفِيعٍ إِلاَّ مِن بَعْدِ إِذْنِهِ ذَلِكُمُ اللّهُ رَبُّكُمْ فَاعْبُدُوهُ أَفَلاَ تَذَكَّرُونَ

(Yunus, 10/3)

«Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan, hər işi yoluna qoyan (sahmana salan) Allahdır. Onun izni olmadan heç bir şəfaət edən ola bilməz. Bu, Rəbbiniz olan Allahdır. Ona ibadət edin. Məgər öyüd-nəsihət qəbul etməyəcəksiniz?».

**Qurani-Kərimdə ərş, hz. Yusifin və Səbə məlikəsi Belkisin taxtı mənasında işlədilmişdir.**

إِنِّي وَجَدتُّ امْرَأَةً تَمْلِكُهُمْ وَأُوتِيَتْ مِن كُلِّ شَيْءٍ وَلَهَا عَرْشٌ عَظِيمٌ

(ən-Nəml, 27/23)

«Mən onlara (Səba əhlinə) padşahlıq edən bir qadın gördüm. Ona (dünyada şahlara lazım olan) hər şey verilmişdir. Onun çox böyük bir (əzəmətli) bir taxtı vardır».

## HƏDİSLƏRDƏ ƏRŞ ANLAYIŞI

Hədislərdə üç növ ərşdən danışılmışdır. Bu ərşlərdən biri uca Allaha (c.c) aiddir. **Bu ərş göylər və yer üzü yaradılmamışdan öncə su üzərində dayanmışdır, göyün yeddinci qatında firdövs (Adn) cənnətinin üstündə olmuşdur və uca Allah (c.c) ərşin fövqündədir. Onun altı, üstü,**

**sağı, solu, ağırlığı, kölgəsi, sütunları var. O göy üzərində qübbə şəklində durmuşdur, böyük və şərəfli bir varlıqdır. Ərşin sütunları üzərində tövhid kəlməsi yazılmışdır, onun sağında hz. Məhəmmədə (s.a.s) aid «məqami-Mahmud» var. Bu ərşi mələklər daşıyır, Allahı zikr edən mələklər onun ətrafında dolanırlar, şəhidlərin ruhları bu ərşin altında dolaşır. Qiyamət günü insanların hesaba çəkilməsi üçün hz. Peyğəmbər ərşin altında səcdəyə qapanaraq şəfaət istəyəcəkdir.**[324]

Cəbrailə aid olan ərşdən isə hz. Məhəmməd (s.a.s) danışmışdır. O, Cəbraili göylə yer arasında bir ərş (taxtı) üzərində oturarkən gördüyünü bildirmişdir.[325]

Hədislərdə şeytanın dəniz üzərində bir ərşi olduğu bildirilmişdir, onun çevrəsini ilanlar əhatə etmişdir və şeytan öz köməkçilərinə əmri buradan verir.[326]

«Ərş» termini təsəvvüfdə də önəmli yer tutur. Mütəsəvviflərə görə, ərş ilk və ən geniş varlıq mərtəbəsidir, kamil insanın qəlbidir. Onlara görə, ərş bir varlıq mərtəbəsidir, nəsnələr aləminin başlanğıcıdır, ərşdən sonra kürsü gəlir. Mütəsəvvüflərə görə, ərş uca Allahın (c.c) təcəlli edəcəyi bir yerdir. «… Genel olarak Allahtan başka bütün varlıklara Allahın arşı (arşullah) denildigi kibi, özel olarak Allah isminin mazharı olan insana da bu isim verilir. Sufiler Allahın yerlere ve göklere sığmayıb, mümin kulunun kalbine sığdığını ifade eden bir hadisi-kudsi nakl ederler. İnsani-kamilin kalbi yer ve gökten daha geniştir. Öyleyse, Allah arşa istiva ettigi gibi mümin kulunun kalbine de istiva eder, yani orada isim ve sıfatlarıyla tecelli eder. Bu durumda «kalb Allahın arşı, gönül çalabın tahtı» haline geldiginden bütün ilahi isimlerin mazharı olan insani-kamile «el-arşülmahdud denir».[327]

---

[324] Buxari, «Tövhid», 21; «Cihad», 4; Tirmizi, «Təfsir», 6, 58, 68.
[325] Buxari, «Təfsir», 65/5; Müslim, «İman», 257.
[326] Müslim, «Münafiqun», 66, 67; «Fitən», 87; Tirmizi, «Fitən», 63.
[327] Türkiye Diyanet Vakfı «İslam Ansiklopedisi», İstanbul, c. III, s. 410.

Təsəvvüf ədəbiyyatında ərşə «ərşül-hüviyyət», «ərşül-həyat», «ərşür-ruh», «ərşül-ama», «ərşül-fəsl vəl - kaza», «ərşül-Quran» da deyilir.[328]

**Hz. Nizami deyir ki, ərş sənin eyvanında oturmağın üçün kürsü qoyan bir nökərdir. Ərş çox böyükdür, O, hakimiyyət rəmzidir, onu mələklər çiyinlərində daşıyırlar. Ancaq hz. Məhəmmədin (s.a.s) gücü, hakimiyyəti elə böyükdür ki, ərş onun nökəridir, merac gecəsi ərş onu qarşılayır, ona kürsü daşıyır.**

Hz. Nizaminin təqdimatında sidr ağacı və ərş həm merac gecəsinin dəyərini, həm də hz. Məhəmmədin (s.a.s), uca Allah (c.c) yanındakı mövqeyini gözəl ifadə etmişdir. Merac göylərə səyahət olduğundan, göydə yerləşən sidr ağacı və ərş bu merac gecəsinin bərəkətinə, ideyasına uyğun seçilmişdir.

[328] «Tasavvuf terimleri ve deyimleri sözlüyü», göstərilən qaynaq, s. 61.

## İYİRMİ BEŞİNCİ BEYTİN ŞƏRHİ: SƏNİN RUHUNUN BACASI SÜBH ÇAĞI PARLAYIR

روزن حاجت چو بـود صبح تـاب
ذره بـــود عـرش در آن آفتـــاب

***Sənin ruhunun bacası sübh çağı parladığı üçün,***
***Ərş həmin günəş qarşısında bir zərrəyə bənzəyir.***[329]

Hz. Nizami bu beytdə hz. Məhəmmədi (s.a.s) tanıtmaq üçün gözəl obrazlardan istifadə etmişdir. Şair beytdə nur, işıq yaradan obrazlar seçmişdir. Beytin leksikasına daxil edilmiş «ruh», «pəncərə» («baca»), «sübh çağı», «parlamaq», «ərş», «günəş», «zərrə» anlayışlarının hamısı birbaşa və dolayısı ilə nurla, işıqla bağlıdır.

Ruh, insanın işıqlı yönünü təmsil edir. Bir sıra alimlərə görə, ruh bədəndən öncə yaradılmışdır. Ruh hərəkətin, diriliyin səbəbidir. Ruh olmasa, bədən ölüdür. Bu anlamda Qurani-Kərimin adlarından biri «ər-Ruh»dur.

**Ruh həyatın təməlidir, həyat gücüdür. Ruh idrakın təməlidir.** Allahdan (c.c) olan ruh ölümlə maddi bədəndən ayrılır. Ruhi-əzəm isə ərəbcə ən böyük ruh deməkdir. Onun mahiyyətini Allahdan (c.c) başqa bir kimsə bilməz.

Ruhi-əzəmə «əvvəlinci ağıl», «Məhəmməd həqiqəti», «Allahın gözəl adlarının həqiqəti» deyilmişdir. Bu ruh ən böyük xəlifədir.

**«Pəncərə» sözü də nurla, işıqla bağlıdır. Pəncərəsi olan ev işıqlı ev deməkdir. Biz pəncərədən baxıb, aləmi görə bilirik. Pəncərədən evə işıq düşür.**

Sübh çağı günün ilk, ən gözəl, ən təmiz, insanın bədəninə və ruhuna qida verən, günəşin çıxdığı ərəfədir.

**«Ruhun parlaması» misrada ruhun ilk olması anlamındadır.**

---

[329] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.

**Ərş də şərh etdiyimiz kimi nurlu bir varlıqdır. Günəş də nur qaynağıdır, günəşin nuru yaradılmışlara can verir. Zərrə də nurun bir parçasıdır.**

Hz. Nizami bu beytdə hz. Məhəmmədin (s.a.s) ruhunun ilk yaradılmış varlıq olduğunu ifadə etmişdir. Beytdəki «ruh», «pəncərə», «sübh çağı», «parlamaq», «ərş», «zərrə» sözləri «ilk yaradılmış ruh» ideyasını ifadə etmək üçün seçilmişdir. Hz. Nizamiyə görə, uca Allahın (c.c) ilk yaratdığı varlıq hz. Məhəmmədin (s.a.s) nurudur. Başqa varlıqlar Onun nurundan yaradılmışdır.

Divan şairlərinə görə «... Cenabi-Hakkın ilk yarattığı cevherin Nuri-Muhammedi olduğu ve bu nura akli-mucerred, akli-kül, cevheri-evvel, levhi-mahfuz, ruhi-izafi gibi isimlerin verilmesi konu edilir. Allahın nuri-Muhammediden sırasıyla meleklerin, peygamberlerin, velilerin, ariflerin, abidlerin, müminlerin, kafirlerin, cinlerin, şeytanların, hayvanların, bitkilerin ve tabiatların ruhlarını yarattığı, aradan iki bin sene geçtikten sonra da cisimler alemi olarak yine aynı cevherden arş-ı azan, kürsi, cennet, cehennem, yedi kat gökler ve anasır-ı erbaanın yaratıldığı telakkısı yer alır».[330]

**Deməli, divan şeirinə görə, hz. Məhəmmədin (s.a.s) ruhu ilk yaradılan cövhərdir, ruhlar və cisimlər aləminin qaynağı da bu pak ruhdur.**

**Yunus Əmrə:**

Erenlerden etek tutan,
Menzil olub Hakka yiten,
Muhammed nurına batan,
Ol dünyaya kalmayandır.[331]

**Nəbi:**

«Evvel ma halakallah» ki senün nurundur,
Seni idrak idecek kimdür ya Nur-i Cevad.[332]

---

[330] Ali Nihad Tarlan, «Şeyhi divanını tedkik», s. 224.
[331] «Tasavvuf terimleri ve deyimleri sözlüyü», göstərilən qaynaq, s. 488.
[332] Emine Yeniterzi, göstərilən qaynaq, s. 149.

(«Allahın ilk yaratdığı mənim nurumdur» hədisi sənin nurundur. Səni (Sənin nurunu) idrak edəcək bir kimsə yoxdur).

Bundan başqa, təsəvvüfdə «nuri-nübüvvət» («peyğəmbərlik nuru»), «ən nurul-əzamul-ala» («ən ülvi, ən böyük nur»), «nurul-ənvar» («parlaq nur»), «ən-nurul-Qəyyum» («varlığın səbəbi olan nur»), «nurul-kulub» («qəlblərin nuru», «doğrunu yalandan ayıran nur»), «ən-nurul-mukaddəs» («müqəddəs nur», «bütün nöqsanı sifətlərdən uzaq olan nur»), «nurun-nəhar» («gündüzün nuru») kimi anlayışlar da var.[333]

**Hz. Nizami islam peyğəmbərinin ruhunun ilk yaradılmış varlıq olduğunu ifadə etmək üçün seçdiyi ən gözəl obrazlardan biri «sübh çağı»dır. Sübh çağı həm ilk olmağı, həm təmizliyi, həm də bərəkəti ifadə edir. Şairə görə, hz. Məhəmməd (s.a.s) bir «rəhmət evi»dir, bu evin parlaq bir pəncərəsi var, bu ləkəsiz pəncərədən bir ilk ruh parladı və bütün aləm bu nura boyandı.**

Bu ilk ruhun nuru, işığı, enerjisi yaradılmışlar üçün bir günəş oldu, hər şey bu parlaq nurdan işıq aldı, güc aldı, ondan törədi, insanlıq bu nurla işıqlanaraq qaranlıqdan, cəhalətdən qurtuldu.

**Şairə görə, ərş nurlu bir varlıqdır, ancaq bu varlıq da hz. Məhəmmədin (s.a.s) nurundan sonra yaradılmışdır və nurunu bu ilk nurdan almışdır. Ona görə də hz. Məhəmmədin (s.a.s) nuru günəş, ərşin nuru isə bir zərrədir.**

Şair hz. Məhəmmədin (s.a.s) nurunun ilk olduğunu, onun bərəkətini ifadə etmək üçün Onun nurunu Ərşin nuru ilə müqayisə etmişdir.

---

[333] «Tasavvuf terimleri ve deyimleri sözlüyü», göstərilən qaynaq, s.489.

# İYİRMİ ALTINCI BEYTİN ŞƏRHİ: SƏNİN NURUN YER ÜZÜNƏ NECƏ DÜŞƏ BİLƏRDİ?

گرنه ز صبح آینه بیرون فتاد
نور تو بر خاك زمین چون فتاد

*Əgər o sübhdən güzgü xaric olmasaydı,*
*Sənin işığın yer üzünə necə düşə bilərdi?* [334]

Şair iyirmi altıncı beytdə də «ilk nur» ideyasını şərh etmişdir. Şair bu beytdə deyir ki, əzəl sübhü-ilk yaradılan ruh bir güzgü oldu, sənin gözəl üzünün nurunu göstərdi, sənin nurunun bərəkəti bu güzgü vasitəsi ilə yerə təsir etdi, onu işıqlandırdı.

**Şair bu beytdə nur, işıq anlayışlarını ifadə etmək üçün öncəki beytdə istifadə etdiyi obrazlara birini də artırmışdır. Hz. Nizaminin istifadə etdiyi güzgü obrazı da nur və ruh anlayışı ilə bağlıdır. Çünki nur və işıqda göstərmək, ayırıb-seçmək, doğrunu yalandan fərqləndirmək keyfiyyəti var. Güzgü də göstərir, tanıdır və fərqləndirir. Şairə görə, ilk nur yaradıldı, yeri işıqlandırdı və haqq batildən seçildi.**

Uca Allah (c.c) zat aləmində gizli bir xəzinə idi. O, tanınmasını istədi. Bunun üçün hz. Peyğəmbərin (s.a.s) nurunu və sonra da bu nurdan bütün varlıqları yaratdı. Buna görə də bu ilk nur, ilahi sifətləri əks etdirən bir güzgü oldu.

Buna görə də, divan şeirində hz. Məhəmməd (s.a.s) «ayna», «ayineyi-dan», «ayineyi-camal», «ayineyi-mənzur», «ayineyi-hubb», «ayineyi vədad», «ayineyi-Rahmani», «ayineyi-qüdrət», «manzuri-Hak», «ayineyi-vəhdəti-ilahi», «ayineyi-didari-təcəlli», «ayineyi-ehsani-əzəl», «mirati-Xuda» kimi təqdim edilmişdir.

**Şəmsi:**

Seni mirat edindi zatına Allah Azimüş-Şan,

[334] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 35.

Gören senden görünen hazretüz-zat, ya Resulallah.[335]

(Şanı böyük olan uca Allah (c.c) səni zatına güzgü etdi. Sən bir güzgüsən və bu güzgüdən uca Allahın (c.c) zatı görünür)

Hz. Nizami bu beytdə bir sonsuz xəyal gücünə sahib olduğunu göstərmişdir. **Şairin təsvirinə görə, gecə sona çatır, sübh açılır, bu sübh bir böyük güzgüdür, bu güzgüdən günəş, ilk nur boylanır və yer üzü bu günəşin işığına qərq olur. Şair demək istəyir ki, ilk nur – hz. Məhəmmədin (s.a.s) nuru olmasa idi, yer üzü qaranlıq içində qalardı.**

---

[335] Emine Yeniterzi, göstərilən qaynaq, s. 311.

## İYİRMİ YEDDİNCİ BEYTİN ŞƏRHİ: SƏN İKİ CAHANSAN

ای دو جهان زیـر زمـین از چـه ای
گـنـج نه ای خـاك نشين از چه ای

***Ey iki cahanı (özündə birləşdirən) nə üçün torpaq altındasan?***

***Sən ki (adi) xəzinə deyilsən, nə üçün torpaqlar içində gizlənmisən?*** [336]

Hz. Nizami bu beytin ideyasını iki anlayış üzərində qurmuşdur: iki dünya və xəzinə. Şairə görə, hz. Məhəmməd (s.a.s) iki dünyadır, iki dünyanı özündə birləşdirmişdir.

İki dünya anlayışı Qurani-Kərimdə və hədislərdə önəmli yer tutur. İslam dininə görə, bu dünya və axirət dünyası bir-birinə bağlıdır. Bu dünya müvəqqəti, fani olsa da, onu doğru anlamadan, bu dünyada uca Allahın ölçülərinə uyğun yaşamadan axirəti qazanmaq mümkün deyil. Uca Allah (c.c) bu iki dünyanı müqayisə etmişdir:

إِنَّمَا مَثَلُ الْحَيَاةِ الدُّنْيَا كَمَاء أَنزَلْنَاهُ مِنَ السَّمَاءِ فَاخْتَلَطَ بِهِ نَبَاتُ الأَرْضِ مِمَّا يَأْكُلُ النَّاسُ وَالأَنْعَامُ حَتَّىَ إِذَا أَخَذَتِ الأَرْضُ زُخْرُفَهَا وَازَّيَّنَتْ وَظَنَّ أَهْلُهَا أَنَّهُمْ قَادِرُونَ عَلَيْهَا أَتَاهَا أَمْرُنَا لَيْلاً أَوْ نَهَاراً فَجَعَلْنَاهَا حَصِيداً كَأَن لَّمْ تَغْنَ بِالأَمْسِ كَذَلِكَ نُفَصِّلُ الآيَاتِ لِقَوْمٍ يَتَفَكَّرُونَ

(Yunus, 10/24)

«Həqiqətən, (nemətləri, cah-cəlalı ilə fəxr etdiyiniz) dünya həyatı göydən endirdiyimiz yağmura bənzər ki, onunla yer üzündə insanların və heyvanların yeyəcəyi bitkilər yetişib (əlvan çiçəklər və müxtəlif meyvələrlə) bir-birinə qarışar. Nəhayət, yer üzü bəzəklənib süsləndiyi və sakinləri də (onun məhsulunu, meyvəsini) yığmağa qadir olduqlarını zənn

[336] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 36.

etdikləri vaxt gecə, ya da gündüz əmrimiz (bəlamız) gələr və Biz onu, dünən üzərində bol məhsul olmamış kimi (yolunub) biçilmiş bir hala gətirərik. Biz ayələrimizi düşünən bir ümmət üçün belə ətraflı izah edirik!».

وَمَا هَذِهِ الْحَيَاةُ الدُّنْيَا إِلَّا لَهْوٌ وَلَعِبٌ وَإِنَّ الدَّارَ الْآخِرَةَ لَهِيَ الْحَيَوَانُ لَوْ كَانُوا يَعْلَمُونَ

(ən-Ənkəbut, 29/64)

«Bu dünya həyatı oyun-oyuncaqdan, əyləncədən başqa bir şey deyildir. Axirət yurdu isə, şübhəsiz, əbədi həyatdır. Kaş biləydilər! (Əgər bilsəydilər, axirəti dünyaya dəyişməzdilər)».

**Hz. Nizaminin islam Peyğəmbərinə «iki dünya» deməsinin bir neçə mənası var. Şairə görə, hz. Məhəmməd (s.a.s) bu dünyada və axirətdə insanlığın başçısıdır.**

**Hz. Nizamiyə görə, bu dünyada və axirətdə xoşbəxt yaşamağın ölçülərini hz. Məhəmməd (s.a.s) müəyyən etmişdir. Şairə görə, hz. Məhəmmədə (s.a.s) inanmadan, onun gətirdiklərinə iman etmədən bu dünya və axirət xoşbəxtliyini qazanmaq olmaz.**

Hz. Nizami insanlığın hz. Məhəmmədə (s.a.s) olan ehtiyacını bildirmək üçün «Ey» müraciətindən istifadə etmişdir. Şair deyir ki, ey iki cahan, sən niyə torpaq altındasan? Yəni insanlığın sənə ehtiyacı var, gəl, onlara doğru yolu göstər.

**Hz. Nizamiyə görə, hz. Məhəmməd (s.a.s) xəzinədir, ancaq o, adi xəzinə deyil. Bu misrada «xəzinə» anlayışını bir neçə yöndən dəyərləndirmək olar.**

**Şairə görə, hz. Məhəmməd (s.a.s) xəzinədir, yəni elm qaynağıdır.** O, insanlığı bu dünyada və axirətdə xoşbəxt edəcək elm gətirmişdir. Xəzinə anlayışında bir tükən-

məzlik mənası da olduğundan hz. Məhəmmədin (s.a.s) elmi tükənməzdir.

**Şairə görə, uca Allahın (c.c) hz. Məhəmmədə verdiyi ən böyük xəzinə Qurani-Kərimdir.**

**Şairə görə, uca Allah (c.c) Ona xəzinə vermişdir, bu xəzinə peyğəmbərlikdir.** Hz. Məhəmməd (s.a.s) bir hədisində yer üzünün xəzinələrinin açarlarının ona verildiyini bildirmişdir:

«İçinizdə Kövsər hovuzuna ilk çatan mən olacağam və sizin Allah yolundakı xidmətlərinizə şahidlik edəcəyəm. Vallah, bu anda hovuzum gözümün önündədir. Yer üzü xəzinələrinin açarları (ya da yer üzünün açarları) mənə verildi…».[337]

**Hz. Nizamiyə görə, hz. Məhəmməd (s.a.s) bir xəzinədir, yəni onun əxlaqı bir insanlıq ölçüsüdür.**

**Şairə görə, hz. Məhəmmədin (s.a.s) özü bir xəzinədir, O, insanlığın tükənməyən sərvətidir. O, bütün gözəllikləri özündə birləşdirmişdir.**

---

[337] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VII, s. 550.

## İYİRMİ SƏKKİZİNCİ BEYTİN ŞƏRHİ: SƏN PAK XƏZİNƏSƏN

تا تــو به خـاك اندری ای گنـج پـاك
شـرط بـــود گنـج سپـردن بـه خاك

***Ey müqəddəs (pak) xəzinə, nə qədər ki sən torpaq altındasan,***

***Bütün xəzinələri torpağa tapşırmalıyıq.***[338]

Hz. Nizami bu beytdə hz. Məhəmmədin (s.a.s) dəyərini başqa bir yöndən anlatmışdır. Şairə görə, O, müqəddəs, pak xəzinədir. Misrada «pak xəzinə» bu mənada işlədilmişdir. **Şairə görə, hz. Məhəmməd (s.a.s) toxunulmazdır, Onun təbliğ etdiyi dəyərlər insanlıq üçün tükənməyən xəzinədir.**

Şairə görə, hz. Məhəmməd (s.a.s) adlı bir xəzinə olan yerdə başqa xəzinələrin dəyəri yoxdur və bütün xəzinələr torpağa tapşırılmalıdır.

**Şair, var-dövlət, sərvət, maddi imkanlar mənasında olan xəzinələri hz. Məhəmməd (s.a.s) adlı azadlıq, elm, din, əxlaq xəzinəsi ilə müqayisə etmiş və onların dəyərsiz olduğunu ifadə etmək üçün «torpağa tapşırmaq» birləşməsindən yararlanmışdır.**

---

[338] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 36.

# İYİRMİ DOQQUZUNCU BEYTİN ŞƏRHİ: SƏNİN KÖLGƏN YOXDUR

گنج ترا فقر تو ویرانه بس

شمع ترا ظل تو پروانه بس

***Sənin xəzinən üçün yoxsulluq və viranə bəsdir,***

***Sənin şamın üçün sənin pərvanə olan kölgən bəsdir.***[339]

Hz. Nizami bu beytdə hz. Məhəmmədin (s.a.s) dəyərini anlatmaq üçün bir neçə anlayışdan istifadə etmişdir. Qədim zamanlarda xəzinələri xarabalıqlarda, viranə olan yerlərdə gizlədərdilər. Şair deyir ki, hz. Məhəmməd (s.a.s) adlı xəzinənin gizləndiyi yer onun yoxsulluğudur.

Burada bir məsələyə də toxunaq. Şair, hz. Məhəmmədi (s.a.s) «pak xəzinə», «torpaq altında olan xəzinə», «adi olmayan xəzinə» adlandırır. Biz bunun səbəblərini açıqladıq. **Ancaq bu dəyərləndirmələr bir də onunla bağlıdır ki, peyğəmbərin bədəni çürüməz. Hz. Nizaminin işarə etdiyi bu gerçəklik bir hədisdə ifadə edilmişdir:**

«Uca Allah peyğəmbərlərin bədənlərini çürütməyi torpağa haram etdi».[340]

Hz. Nizamiyə görə, islam peyğəmbərinin xəzinəsi onun yoxsulluğunda gizlənmişdir. Hz. Məhəmməd (s.a.s) özündən sonra var-dövlət deyil, elm miras qoyub getmişdir, Onun varisləri alimlərdir:

«... Şübhəsiz, alimlər peyğəmbərlərin varisləridir. Peyğəmbərlər qızıl və gümüş miras qoymazlar. Sadəcə, elmi miras qoyarlar. O mirası alan kimsə bol nəsib və qismət almış olur».[341]

---

[339] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 36.
[340] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. V, s. 383.
[341] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 177.

**Hz. Məhəmmədə (s.a.s) görə, dünyanın dəyəri var-dövlətdə deyil.** Gerçək xoşbəxtlik uca Allahı (s.a.s) tanımağa bağlıdır. Əsl xəzinə elmdir.

«Dünya və onun içində olan şeylər dəyərsizdir. Sadəcə Allahı zikr etmək və ona yaxınlaşdıran şeylərlə, elm öyrədən alim və öyrənmək istəyən tələbə istisnadır».[342]

**Hz. Məhəmməd (s.a.s) dünyanın var-dövlətinə, sərvətinə, qızıl-gümüşünə baş əymədi, gerçək hədəfindən yayınmadı, bu dünya neməti ilə bağlı ilahi təlimatı yerinə yetirdi.** Uca Allah (c.c) Qurani-Kərimdə buyurur:

زُيِّنَ لِلنَّاسِ حُبُّ الشَّهَوَاتِ مِنَ النِّسَاءِ وَالْبَنِينَ وَالْقَنَاطِيرِ الْمُقَنطَرَةِ مِنَ الذَّهَبِ وَالْفِضَّةِ وَالْخَيْلِ الْمُسَوَّمَةِ وَالأَنْعَامِ وَالْحَرْثِ ذَلِكَ مَتَاعُ الْحَيَاةِ الدُّنْيَا وَاللّهُ عِندَهُ حُسْنُ الْمَآبِ

(Ali-İmran, 3/14)

«Qadınlar, uşaqlar, qızıl-gümüş yığanları, yaxşı cins atlar, mal-qara və əkin yerləri insanlara gözəl göstərilmişdir. (Ancaq bütün) bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır».

**Hz. Məhəmmədə görə, insanın dəyəri uca Allahın (c.c) sevgisini qazanmasına bağlıdır.** Bu sevgini qazanmağın yollarından biri də insanın ehtiyacından artığını istəməməsidir. Heç bir şey Allah (c.c) sevgisini əvəz etməməlidir.

Onun sadə bir həyat yaşaması, yoxsul olması ilə bağlı deyildi. Hz. Məhəmməd (s.a.s) hər cür maddi imkanlara sahib olsa da, yenə də sadə həyatı üstun tuturdu.

Təbii ki, hz. Məhəmməd (s.a.s) yoxsul yaşamağı təbliğ etmirdi. O, yoxsul olub, başqalarına əl açmağı əsla istə-

---

[342] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 172.

məmişdir. Ona görə, əlində olan maddi imkanı Allahın (c.c) razı olacağı işlərə xərcləyən, ailəsinin zəruri ehtiyaclarını halal qazancı ilə təmin edən müsəlman bir Allah (c.c) dostudur. Ona görə, yoxsulluq insana hər şeyi unutdurar, var-dövlət də insanı azdırar.

## XƏZİNƏ QAZANMAĞIN YOLU HEÇLİYİNİ DƏRK ETMƏKDİR

Hz. Nizamiyə görə, hz. Məhəmməd (s.a.s) könlündən dünya sevgisini çıxartdı, bir olan Allaha (c.c) aşiq oldu, bir könül zənginliyi qazandı, insanlıq üçün tükənməyən xəzinəyə çevrildi. Şair iki zidd anlayış (yoxsulluq və xəzinə) vasitəsi ilə bir həyat, bir xoşbəxtlik düsturu vermişdir. Bu ölçü belədir. **Ey insan, əbədi olan bir xəzinə (yəni uca Allahın (c.c) razılığını qazanmaq) istəyirsənsə, könlünü dünya sevgisindən azad etməlisən. İki sevgi (Allah və mal sevgisi) bir arada yaşaya bilməz.**

**Hz. Nizamiyə görə, insan öz heçliyini, faniliyini anlamasa, «xəzinə» qazana bilməz, həyatı doğru qavramaz, uca Allahı (c.c) tanımaz.**

Şairə görə, gerçək xəzinə Allahı (c.c) tanımaqdır. Hz. Məhəmməd (s.a.s) könlünü bir viranəyə çevirdi, yəni onu nəfsin istəklərindən təmizlədi, nəticədə, əbədi olan xəzinəni qazandı.

Hz. Nizami nətin iyirmi doqquzuncu beytinin ikinci misrasında «şam», «pərvanə», «kölgə» obrazlarından istifadə etmişdir. Şair, hz. Məhəmmədi (s.a.s) bir şama, bir işığa bənzətmişdir. Şairə görə, O, bir işıqdır. Onun kölgəsi yoxdur. Şair bir şam olan hz. Məhəmmədin (s.a.s) kölgəsinin olmamasını Peyğəmbərə aid bir möcüzə ilə ifadə etmişdir. Hz. Nizami deyir ki, Onun kölgəsi bir pərvanə kimi şam

olan hz. Məhəmmədin (s.a.s) başına dolanmış, ona aşiq olmuş, sevgisi yolunda özünü fəda etmiş və sonda şamın - hz. Məhəmmədin (s.a.s) sevgisi ilə yanıb yox olmuşdur.

Dedik ki, şair bu beytin ideyasını ifadə etmək üçün hz. Məhəmmədin (s.a.s) bir möcüzəsinə işarə etmişdir. Hz. Məhəmmədin (s.a.s) kölgəsinin olmaması ilə bağlı dəqiq bilgilər olmasa da, divan şairləri bu məsələyə ayrıca diqqət yetirmişlər. Şairlərə görə, bu, hz. Məhəmmədin (s.a.s) möcüzələrindən biridir.

Təsəvvüf yoluna bağlı olanlar isə hz. Məhəmmədin (s.a.s) kölgəsinin olmamasını «əbədiyyət» («birlik») anlayışına bağlamışlar. Onlara görə «… «ebediyyet», yani birlik, teklik makamının sahibi olan yüce Peygamberde kesretten (çoxluq) hiç bir iz bulunmaması için gölgesi de mevcut olmamıştır».[343]

**İffət Bursevi:**

Eyledi kaddin misal-i sayeden vareste Hak,
Vahdete isbat-ı hüccetdir cemal-i Mustafa.[344]

(Uca Allah sənin boyunu kölgədən məhrum etdi. Mustafanın gözəl üzü birliyin (təkliyin) sübutuna dəlildir).

Bir sıra divan şairləri Onun kölgəsinin yoxluğunu hamıdan üstün, bənzərsiz, tək olması kimi dəyərləndirmişdir. Divan şairlərinə görə, hz. Məhəmməd (s.a.s) bir nurdur. (Hz. Nizami bu fikri «şam» obrazı ilə ifadə etmişdir). Onun kölgəsi də nurdur, ya da nurun kölgəsi olmaz.

**Şeyxi:**

Çün oldı zahiri vü batını nur,
Aceb mi cismi olsa, sayeden dur.[345]

---

[343] Emine Yeniterzi, göstərilən qaynaq, s. 300.
[344] Emine Yeniterzi, göstərilən qaynaq, s. 300.
[345] Emine Yeniterzi, göstərilən qaynaq, s. 301.

(Onun zahiri və daxili nur oldu. Onun cisminin kölgədən uzaq olması qəribə deyil)

**Fazil:**
Başdan ayağa nur idi bahir,
Nola olmazsa sayesi zahir.
Saye zülmetden oldı çünki bedid,
Nurdan saye eyleme ümmid.[346]

(O, başdan ayağa nur idi. Onun kölgəsinin olmaması qəribə deyil. Kölgə zülmətdən yaranar (görünər). Nurun kölgəsinin olmasına ümid eləmə)

Divan şairlərinə görə, «… Cenabi-Hak nurdan yarattığı Habibinin gölgesini güneşe ve aya taksim etmiş, onlar da bu nurdan feyz almışlar. Eger yüce Peygamberin gölgesi olsaydı, güneş ışık yerinə gölgeyi tercih ederdi. Ya da güneş Onun yüceliğini idrak etmiş, gölgesini yere düşürmemiştir gibi tevillerle güneş-gölge münasibetine yer verilmiştir. Öte yandan hz. Peygamberin gölgesi yere düşseydi, torpağın her bir zerresi güneş gibi ışık saçar, güneş de bu toprağı gözüne sürme eylerdi tarzındakı ifadelerle Peygamberin gölgesinin güneşten daha parlak bir nur olduğu için görülmediyi dile getirilmiştir». [347]

**Esrar Dədəyə görə, hz. Peyğəmbərin nurlu kölgəsi hikmət gözünün aynasıdır, qeybi görən gözlərin sürməsidir.** Əgər bu kölgə görülsə, mələklər onu saçlarına sürtmək üçün oğurlayardılar.[348]

**Osman Növrəsə görə, hz. Məhəmmədin (s.a.s) kölgəsi olmayan boyu bir cənnət sərvidir.**

---

346 Emine Yeniterzi, göstərilən qaynaq, s. 301.
347 Emine Yeniterzi, göstərilən qaynaq, s. 301.
348 Emine Yeniterzi, göstərilən qaynaq, s. 301.

**Yəhya bəyə görə, Onun Allah (c.c) yanında mövqeyi çox ucadır, Onun kölgəsi yerə düşməz.**

**Qafzadə Faizi və Riyaziyə görə, hz. Məhəmməd (s.a.s) kölgəsi yerə düşməyən bir hümadır.**

**Tağızadə Cəfər Çələbiyə görə, O, fani dünyaya etibar etmədi, elə buna görə də kölgəsinin belə yerə düşməsinə imkan vermədi.**[349]

Divan şairlərinə görə, hz. Məhəmmədin (s.a.s) başı üzərində hər zaman bir bulud olmuşdur. Bu onun kölgəsinin yerdən qaldırılıb göy üzündə bir buluda çevrilməsi deməkdir. Onun göy üzündə olan kölgəsini ərş başına tac etmişdir, göy üzündəki kürsü onunla dəyər qazanmışdır. O, günahkarları şəfaəti ilə məhşərdə himayə edəcək. Elə buna görə də kölgəsini qiyamət gününə saxlamışdır.[350]

**Nadiri:**

Acizan-i mahşer üzre zıllını teksir içün,
Sakladı dar-i fenada sayeni Perverdigar.[351]

(Günahkarları qiyamət günü himayə etmək üçün uca Allah (c.c), Sənin bu dünyada kölgənin olmasını istəmədi).

**Böyük türk şairi Nəbiyə görə, uca Allah (c.c) bütün kainatı hz. Məhəmmədin (s.a.s) nurundan yaratmışdır, yoxluq aləmini də onun kölgəsi ilə bərəkətləndirmişdir, iki aləm onun nurundan feyz alır.**

**Nəbi:**

Zat-ı paki vücuda virdi nur,
Ademi itdi sayesi mamur.
Yani zat-i Muhammediden hem,
Behredar oldılar vücud u adem.[352]

---

[349] Emine Yeniterzi, göstərilən qaynaq, s. 301.
[350] Emine Yeniterzi, göstərilən qaynaq, s. 301.
[351] Emine Yeniterzi, göstərilən qaynaq, s. 302.
[352] Emine Yeniterzi, göstərilən qaynaq, s. 302.

(Onun pak varlığı vücuda nur verdi. Onun kölgəsi axirəti bərəkətləndirdi. Yəni bu dünya və axirət Onun zatından feyz aldı)

**Divan şairlərinə görə, hz. Məhəmmədin (s.a.s) kölgəsi yoxdur, çünki O, uca Allahın (c.c) kölgəsidir.** Onun elçi seçilməsi ilə yer üzü cəhalət və qaranlıqdan qurtulmuşdur, kölgənin qaranlığı Onun nuruna yaxınlaşa bilməz.

**Ətayi:**

Zülmet-i kevni eyledi zail,
Nice yaklaşsun anna zulmet-ı zill.[353]

(O, zülmət dünyasını yox etdi. Zülmətin qaranlığı Ona necə yaxınlaşsın)

**Hz. Nizami deyir ki, sən şamsan, sənin kölgən yoxdur, kölgən şamının nuruna aşiq olaraq yanmışdır.** Şair, hz. Məhəmmədin (s.a.s) heç kimə bənzəmədiyini, yaradılan hər şeydən üstün olduğunu ifadə etmək üçün seçdiyi «Sənin bədənin ruhdan da pakdır», «Sən rəhmət evinin mərkəz nöqtəsisən», «Sən aysan», «Sən şahların şahısan», «Sən uca Allahı tamaşaya getmiş mərhəmətlisən», «Sən bizə uca Allahdan pay gətirmisən», «Sən təravətlisən», «Sənin telin gecə kimi qaradır», «Sənin eşqin dirilik suyudur», «Aşiqlərinin sayı tellərinin sayı qədərdir», «Sübh Sənin günəşə bənzəyən üzünün təbəssümüdür», «Çərx Sənin kəmərinin qulcuğazıdır», «Aləmin islanmış ətəyi Sənin sayəndə qurudu», «Yerin göbəyi müşk göbəyini Səndən aldı», «Sənin türbənin təsirindən ərəb torpağı müşk saçır», «Sənin torpağın Süleymanın yelindən yaxşıdır», «Sənin torpağın Cənnətdən də yaxşıdır», «Allahın böyüklüyünü alqışlamaq üçün Kəbə Sənə səcdə etmişdir», «Cahan Sənin taxt və tacındır», «taxtın yer, tacın göydür»,

[353] Emine Yeniterzi, göstərilən qaynaq, s. 302.

«Sən Allahın işığının kölgəsisən», «Namaz Sənin sultanlığının növbətçisidir», «Allahın əzizlərinin gözləri Səninlə işıqlanıb», «Zəlillərin torpağı Səninlə gülşənə çevrilib», «Göyün ətəyi Sənin sayəndə qızılla dolub», «Sən müşk və ənbər ətirlisən», «Sidr ağacı Sənin köynəyində bir haşiyədir», «Ərş Sənin nökərindir», «Sən günəşsən», «Ərş Sənin nurun qarşısında bir zərrədir», «Sən iki cahanı özündə birləşdirirsən», «Sən pak xəzinəsən» kimi obrazlı ifadələrə «Onun kölgəsi bir pərvanə kimi nurunda yanıb yox oldu» kimi gözəl bir poetik anlayış da artırmışdır.

Bu beytdə də şair bir neçə ölçü müəyyən etmişdir. **Hz. Nizamiyə görə, Peyğəmbər bir şamdır, yəni insanlıq doğru yolu Onun vasitəsi ilə tanıya bilər.**

**Hz. Nizamiyə görə, hz. Məhəmməd (s.a.s) bir nurdur, yəni insanlıq onun vasitəsi ilə uca Allahı (c.c) tanıya bilər.**

**Hz. Nizamiyə görə, insan islam, iman nuru ilə işıqlanmaq istəyirsə, kölgəsinin Onun şamına aşiq olub özünü yandırdığı kimi, uca Allahın (c.c) razılığını qazanmaq istəyən insan da hz. Məhəmmədə (s.a.s) aşiq olmalıdır, onun sevgisinə bütün varlığını fəda etməlidir.**

Nizaminin təfsirində kölgə cəhalətdir. Şairə görə, əgər insan göstərilən ölçülərə əməl etsə, kölgədən, qaranlıqdan, cəhalətdən qurtular, nura, aydınlığa qovuşar.

## OTUZUNCU BEYTİN ŞƏRHİ: KAMANA BƏNZƏR ÇƏRX SƏNİN AHININ HƏDƏFİDİR

**چرخ مقوس هدف آه تست**
**چنبر دلوش رسن چاه تست**

***Kamana bənzər çərx sənin ahının hədəfidir,***

***Onun (çərxin) dolçasının çənbəri sənin quyunun ipidir.***[354]

Hz. Nizami bu beytdə hz. Məhəmmədin (s.a.s), uca Allah (c.c) yanındakı dəyərini, Onun üstünlüyünü gözəl bədii obrazlarla şərh etmişdir. Şair öncə sonsuz bir məkan təsvir etmişdir. **Onun xəyal dünyasında göy bir kamana bənzəyir və bu sonsuz səma hz. Məhəmmədin (s.a.s) «ahının», yəni duasının hədəfidir. Şairə görə, hz. Məhəmməd (s.a.s) elə dəyərli bir insandır ki, Onun duaları kamana bənzəyən göyün ən son nöqtəsinə (əgər belə demək olarsa) çatır. Yəni Onun duası qəbul olunur, uca Allah (c.c) Onun dualarını qəbul edir. Duaların qəbul olunması isə sevginin göstəricisidir.**

Bilindiyi kimi, İslam dinində duanın ayrıca yeri var. Uca Allah (c.c) Qurani-Kərimdə dua oxumağı əmr edir. Yəni dua oxumaq bir Allah (c.c) buyruğudur.

وَقَالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ إِنَّ الَّذِينَ يَسْتَكْبِرُونَ عَنْ عِبَادَتِي سَيَدْخُلُونَ جَهَنَّمَ دَاخِرِينَ

(əl-Mumin, 40/60)

«Rəbbiniz buyurdu: «Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar cəhənnəmə zəlil olaraq girəcəklər!».

ادْعُواْ رَبَّكُمْ تَضَرُّعاً وَخُفْيَةً إِنَّهُ لاَ يُحِبُّ الْمُعْتَدِينَ

(əl-Əraf, 7/55)

---

[354] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 36.

«Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin. Şübhəsiz, O, həddi aşanları (qışqıraraq dua edənləri) sevməz!».

وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ أُجِيبُ دَعْوَةَ الدَّاعِ إِذَا دَعَانِ فَلْيَسْتَجِيبُواْ لِي وَلْيُؤْمِنُواْ بِي لَعَلَّهُمْ يَرْشُدُونَ

(əl-Bəqərə, 2/186)

«(Ey Rəsulum!) bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən (onlara) yaxınam. Dua edib məni çağıranın duasını qəbul edərəm. Gərək onlar da mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər. Bununla da, ola bilsin ki, doğru yola yetişsinlər».

**Dua qulun uca Allahı (c.c) tanımasıdır, Ona itaət etməsidir, Onun sonsuz qüdrəti qarşısında acizliyini anlamasıdır.** Hz. Məhəmmədə (s.a.s) görə, dua ibadətin canıdır.[355]

Uca Allah (c.c) buyurur:

قُلْ مَا يَعْبَأُ بِكُمْ رَبِّي لَوْلَا دُعَاؤُكُمْ فَقَدْ كَذَّبْتُمْ فَسَوْفَ يَكُونُ لِزَاماً

(Furkan, 25/77)

«Duanız olmasa, Rəbbiniz sizə nə dəyər versin».

**Dua, uca Allahın (c.c) verdiyi nemətlərə görə Ona şükür etməkdir.** İslam peyğəmbərinə görə, dua ibadətdir.[356]

Hz. Məhəmməd (s.a.s) səmimi, inanaraq dua etməyi duanın qəbul olunmasının şərti saymışdır. Mübarək Peyğəmbərin bir sıra dualarını oxuyaq:

«Allahım! Səndən hidayət, təqva, iffət və könül zənginliyi istəyirəm».[357]

---

[355] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 332.
[356] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 334.
[357] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 338.

«Allahım, məni bağışla, mənə mərhəmət et, rizanı qazandıracaq işlər gördür, mənə halal və xeyirli ruzi ver!».[358]

«Ey qəlbləri yönləndirən Allahım! Qəlblərimizi Sənə itaətə yönəlt!».[359]

«Dözülməyəcək dərddən, insanı həlak edəcək talesizlikdən, başa gələcək fənalıqdan, düşməni sevindirəcək fəlakətdən Allaha sığınırıq!».[360]

«Allahım! Bütün işlərimin başı olan dinimlə bağlı məni xətaya düşməkdən qoru! Yaşadığım bu dünyadakı işlərimin yolunda getməsini təmin et! Dönəcəyim axirətimi qazanmağıma yardım et! Həyatım boyunca daha çox xeyir işlər görməyimə imkan ver! Hər cür pislikdən qurtulmağımı təmin edəcək bir ölüm nəsib et!».[361]

«Allahım! Acizlikdən, tənbəllikdən, qorxaqlıqdan, qocalıb ələ, ovuca düşməkdən və yoxsulluqdan sənə sığınıram. Qəbir əzabından sənə sığınıram. Həyat və ölüm fitnəsindən Sənə sığınıram».[362]

«Allahım! Günahlarımı, bilmədən etdiklərimi, həddimi aşaraq yol verdiyim qüsurlarımı, məndən daha yaxşı bildiyin bütün günahlarımı bağışla! Allahım! Ciddi və zarafatla etdiklərimi, yanlışlıqla və bilərək etdiyim günahlarımı bağışla! Bütün bu qüsurların məndə olduğunu etiraf edirəm. Allahım! İndiyədək etdiyim, bundan sonra edəcəyim, gizlədiyim və açıqladığım, həddi aşaraq etdiyim və məndən daha yaxşı bildiyin günahlarımı bağışla! Önə keçirən də

---

358 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 340.
359 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 342.
360 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 344.
361 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 347.
362 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 347.

Sənsən, arxada saxlayan da Sənsən. Sənin gücün hər şeyə çatar!».[363]

**Hz. Nizami deyir ki, hz. Məhəmmədin (s.a.s) duasının hədəfi, çatdığı ünvan sonsuz göylərdir.** Yəni Onun dualarını uca Allah (c.c) qəbul edir. Şair, hz. Məhəmmədin (s.a.s) dualarının ən son nöqtəyə çatdığını ifadə etmək üçün kaman obrazından istifadə etmişdir. Kamana qoyulub atılmış ox uzun məsafə qət edər, sürətlə gedər və hədəfinə çatar. Burada oxun sürətli hərəkəti Peyğəmbərin dualarının tez qəbul olunmasına işarədir.

Hz. Nizami islam peyğəmbərinin dualarının qəbul edildiyini ifadə etmək üçün «hədəf» sözündən yararlanmışdır. Şair demək istəyir ki, Onun duaları hədəfdən yayınmaz, qəbul olunar.

وَمَا أَرْسَلْنَا مِن رَّسُولٍ إِلاَّ لِيُطَاعَ بِإِذْنِ اللّهِ وَلَوْ أَنَّهُمْ إِذ ظَّلَمُواْ أَنفُسَهُمْ
جَآؤُوكَ فَاسْتَغْفَرُواْ اللّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُواْ اللّهَ تَوَّاباً رَّحِيماً

(ən-Nisa, 4/64)

«Biz hər bir peyğəmbəri, ancaq ona Allahın iznilə itaət olunsun deyə, göndərdik. Onlar (münafiqlər) özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər».

## DOLÇA BÜRCÜ

Şair beytin ikinci misrasında hz. Məhəmmədin (s.a.s) məqamının ali, uca Allah (c.c) yanında dəyərinin çox

[363] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 348.

olduğunu göstərmək üçün Dolça bürcünün imkanlarından istifadə etmişdir.

**Bilindiyi kimi, Dolça bürcü güney bürclərinə daxildir, çünki ekvatorun cənubunda yerləşir. Dolça sabit olan bürclərdən sayılır. Bu bürcün mövsümlərin dəyişməsi ilə bağlılığı yoxdur. Bu bürclə bağlı çoxsaylı əfsanələr var. Qədim xəritələrdə və atlaslarda Dolça bürcü əlində içərisindən şırıltı ilə su axan kuzə tutmuş adam şəklində təsvir edilirdi. Bu rəmz ilin fəsillərinin əlamətlərini əks etdirirdi. Günəş bu bürcə bahar yağışları başlandığı, dağlarda qar əridiyi vaxt, daşqın mövsümündə daxil olurdu. Dolçanın rəmzi sayılan su hər şeyin başlanğıcı və sonu hesab edilirdi. Bir sıra miflərdə Dolça bürcünü ümumdünya tufanı ilə bağlayırlar.**

Dolça böyük və mürəkkəb bürcdür. Cənub yarımkürəsində yerləşir, göydə 980 kvadrat dərəcəlik sahəni tutur. Dolça bürcünə doxsan ulduz daxildir. Onları gözlə görmək mümkündür. Onların arasında çox parlaq ulduz yoxdur. Bu bürcə daxil olan ən parlaq ulduz «hökmdarlar səadəti» adlanır.

**Hz. Nizami də, Dolça bürcünün su ilə bağlılığından istifadə edərək bildirir ki, dolçadan su axır, ancaq dolça şırıltı ilə axan suyunu hz. Məhəmmədin (s.a.s) quyusundan çəkir. Səmada yerləşən bir bürc hz. Məhəmmədə (s.a.s) möhtacdır. Onun saf, faydalı su ilə dolu olan quyusu olmasa, dolça bürcünün suyu olmaz.**

Burada şairin xəyal gücü, elmi səviyyəsi, obrazlı düşüncəsi bütün imkanları ilə üzə çıxmışdır. Bir anlıq düşünün ki, Dolça bürcü uca göylərdən ip sallayıb hz. Məhəmmədin (s.a.s) quyusundan su çəkir. Səma və quyu leksik baxımdan bir-birinə zidd anlayışlardır. Ancaq səmada olan

Dolça hz. Məhəmmədin (s.a.s) quyusunun suyuna möhtacdır.

Hz. Nizamiyə görə, uca göylər belə, mübarək Peyğəmbərin nurundan yaradılmışdır və Ona ehtiyacı var. Dolça Onun quyusundan su çəkir və ehtiyacı olanlara paylayır, bu su ilə təbiətə, yaradılmışlara can verir.

**Şairə görə, hz. Məhəmməd (s.a.s) varlıq üçün sudur. Su olmasa, həyat olmaz, hz. Məhəmməd (s.a.s) olmasaydı, varlıq yaradılmazdı.**

Hz. Nizamiyə görə, hz. Məhəmməd (s.a.s) yerin və göyün ehtiyacıdır. Səmada yerləşən bürclər və bu bürclərə daxil olan ulduzlar nurunu Ondan alır.

## OTUZ BİRİNCİ BEYTİN ŞƏRHİ: GECƏ VƏ GÜNDÜZ SƏNİN YOLUNU GÖZLƏYİR

ایندو طرف گرد سپید و سیـــــاه
راه تــو را پیـك ز پـیکـــان راه

***Bu iki ağ və qara tərəfli (gündüz və gecə)***
***Sənin yolunu (gözləyən) qasidlərdən biridir.***[364]

Hz. Nizami bu beytdə islam peyğəmbərinə olan ehtiyacı bədii biçimdə şərh etmişdir. Şair bu fikri ifadə etmək üçün gecə və gündüz obrazından istifadə etmişdir. Şair gecə və gündüzü bir qasidə bənzətmişdir.

Bilindiyi kimi, qasid xəbər verən, müjdələyən deməkdir. **Şair, hz. Məhəmmədə (s.a.s) olan ehtiyacı ifadə etmək üçün gecə və gündüzü qasid adlandırmışdır. Yəni bütün kainat onun gəlişini həsrətlə gözləyir, gözlər Onun gələcəyi yollara dikilib. Gecə və gündüz də hz. Məhəmmədin (s.a.s) gəlişini insanlara çatdırmaq üçün aralarında yarışırlar.**

Şairin qasid olaraq gecə və gündüzü seçməsinin səbəbi odur ki, uca Allahın (c.c) hökmü ilə gecə və gündüz ardıcıl, fasiləsiz olaraq bir-birini əvəz edir və bu ilahi qanun qiyamətədək pozulmayacaq. Gecə və gündüzün bir-birini əvəz etməsində uca Allahın (c.c) qüdrətinin əlaməti var:

إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ وَاخْتِلاَفِ اللَّيْلِ وَالنَّهَارِ وَالْفُلْكِ الَّتِي تَجْرِي فِي الْبَحْرِ بِمَا يَنفَعُ النَّاسَ وَمَا أَنزَلَ اللّهُ مِنَ السَّمَاءِ مِن مَّاء فَأَحْيَا بِهِ الأرْضَ بَعْدَ مَوْتِهَا وَبَثَّ فِيهَا مِن كُلِّ دَآبَّةٍ وَتَصْرِيفِ الرِّيَاحِ وَالسَّحَابِ الْمُسَخِّرِ بَيْنَ السَّمَاء وَالأَرْضِ لآيَاتٍ لِّقَوْمٍ يَعْقِلُونَ

(əl-Bəqərə, 2/164)

«Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün

---

[364] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 36.

mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfinə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində (Allahın hikmət və qüdrətinə dəlalət edən) əlamətlər vardır».

Deməli, şairə görə, hz. Məhəmməd (s.a.s) elə önəmli bir insandır ki, Onun gələcəyi yolu hər an qasidlər gözləyir. **Gecə və gündüz üçün hz. Məhəmmədin (s.a.s) gəlişini xəbər vermək bir şərəfdir, bir ilahi vəzifədir. Gecə və gündüz növbələşərək hz. Məhəmmədin (s.a.s) gələcəyi yolda dayanırlar.**

Hz. Nizamiyə görə, gecə və gündüz hz. Məhəmmədin (s.a.s) yolunu gözləyən, Onun gəlişini müjdələmək istəyən qasidlərdən yalnız biridir. Əslində, bütün yaradılmışlar Onun yolunu gözləyən qasiddir.

Hz. Nizaminin peyğəmbərin yolunu gözləyən qasidlərin sırasından gecə və gündüzü ayrıca vurğulamasının bir səbəbi də odur ki, şair yaradılmış hər şeyin Onun gəlişinə inandığını, bu gəlişin zəruri olduğunu və bu gəlişin hər an (gecə və gündüz) ola biləcəyini düşünür.

## OTUZ İKİNCİ BEYTİN ŞƏRHİ: AĞLIN ŞƏFASI SƏNSƏN

عقل شفاجوی و طبیبش توئی
ماه سفر ساز و غریبش توئی

***Əql özünə şəfa axtarır, Onun təbibi sənsən,***
***(Həmişə) səfərdə olan Ayın möcüzəsi sənsən.***[365]

Hz. Nizami bu beytdə hz. Məhəmmədə (s.a.s) olan ehtiyacı ifadə etmək üçün bir neçə obrazdan istifadə etmişdir. Şair deyir ki, ağıl xəstədir və o, özünə şəfa axtarır.

Bilindiyi kimi, ağıl uca Allahın (c.c) insana verdiyi bir misilsiz nemətdir. Uca Allah (c.c) Qurani-Kərimdə ağıl sahiblərinə müraciət edir:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الْقِصَاصُ فِي الْقَتْلَى الْحُرُّ بِالْحُرِّ وَالْعَبْدُ بِالْعَبْدِ وَالأُنثَى بِالأُنثَى فَمَنْ عُفِيَ لَهُ مِنْ أَخِيهِ شَيْءٌ فَاتِّبَاعٌ بِالْمَعْرُوفِ وَأَدَاء إِلَيْهِ بِإِحْسَانٍ ذَلِكَ تَخْفِيفٌ مِّن رَّبِّكُمْ وَرَحْمَةٌ فَمَنِ اعْتَدَى بَعْدَ ذَلِكَ فَلَهُ عَذَابٌ أَلِيمٌ

(əl-Bəqərə, 2/178)

«Ey ağıl sahibləri, bu qisas (qisas hökmü) sizin üçün həyat deməkdir. Ola bilsin ki, (bununla) pis əməldən (qətldən) çəkinəsiniz».

**Qurana görə, ağıl nemətdir:**

يُؤتِي الْحِكْمَةَ مَن يَشَاءُ وَمَن يُؤْتَ الْحِكْمَةَ فَقَدْ أُوتِيَ خَيْراً كَثِيراً وَمَا يَذَّكَّرُ إِلاَّ أُوْلُواْ الأَلْبَابِ

(əl-Bəqərə, 2/269)

«Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu ancaq ağıl sahibləri düşünüb dərk edərlər!».

---

[365] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 36.

**Qurana görə, yalnız ağlı olanlar uca Allahı (c.c) tanıyar, nəsihətə qulaq asar, ibrət götürər:**

وَسَخَّرَ لَكُمُ اللَّيْلَ وَالنَّهَارَ وَالشَّمْسَ وَالْقَمَرَ وَالنُّجُومُ مُسَخَّرَاتٌ بِأَمْرِهِ إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَعْقِلُونَ

(ən-Nəhl, 16/12)

«O, gecəni və gündüzü, Günəşi və Ayı sizə ram etdi (sizin xidmətinizə verdi). Ulduzlar da Onun əmrinə boyun əymişdir. Doğrudan da, bunda ağılla düşünənlər üçün ibrətlər var!».

**Qurana görə, ağıl insana verilmiş bir nurdur, doğrunu əyridən seçən cövhərdir. Ancaq hz. Nizami deyir ki, ağıl xəstədir və özünə şəfa axtarır. Burada şair ağıl xəstədir deyərkən ağlın hər şeyi dərk etmək imkanı olmadığını nəzərdə tutur.** Şairə görə, insan yalnız ağıldan ibarət deyil, Onun ruhu, duyğusu var. Ağılla duyğu birləşəndə, qavrayışla hiss bir araya gələndə insan daha kamil olur. Şair ağıl xəstədir deyərkən ağılın imkanlarının məhdudluğunu önə çəkir, ona görə, hər şeyi yalnız (təkcə) ağlın mühakiməsi ilə həll etmək insanı yanlış nəticələrə gətirib çıxara bilər.

Hz. Nizami ağlın xəstə olduğunu deyərkən insanların Peyğəmbərə olan ehtiyacını vurğulamaq istəyir. Yəni insan nə qədər ağıllı olsa da, onun Allahı (c.c) doğru tanıması üçün Peyğəmbərə, yol göstərənə ehtiyacı var.

**Hz. Nizamiyə görə, hz. Məhəmməd (s.a.s) təbibdir.** Şairə görə, hz. Məhəmmədin (s.a.s) missiyası fitrəti pozulmuş insanları doğru yola yönəltmək, ağlın imkanlarını insanın uca Allahı (c.c) tanımasına sərf etməkdir.

Hz. Nizamiyə görə, hz. Məhəmməd (s.a.s) təbibdir, O, insanın ağlına və ruhuna şəfa verir. Şairə görə, insanlıq Peyğəmbərsiz uca Allahı (c.c) doğru tanıya bilməz.

Hz. Nizami beytin ikinci misrasında birinci misra ilə tarazlıq yaratmışdır. Şair «özünə şəfa axtaran ağılla», «həmişə səfərdə olan Ay» arasında uyğunluq görərək ağlın təbibinin və Ayın möcüzəsinin olduğunu ifadə etmişdir.

**Şairə görə, ağıl özünə şəfa axtarır və onun təbibi hz. Məhəmməddir (s.a.s). Ay da bir səyyah kimi hər zaman səfərdədir, gecə-gündüz hərəkət edir. Ay hər zaman hərəkət edərək ən möcüzəli varlığı axtarır, bu möcüzəli varlıq da hz. Məhəmməddir (s.a.s).**

Burada şair iki məsələni nəzərdə tutmuşdur. Bu məsələlərdən biri hz. Məhəmmədin (s.a.s) barmağının işarəsi ilə Ayı ikiyə bölməsidir. Bu, peyğəmbərin möcüzələrindən biridir. Şairin işarə etdiyi başqa bir məsələ də hz. Məhəmmədin (s.a.s) varlığının başqa yaradılmışlardan üstün olmasıdır.

## OTUZ ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ: SƏNİ GÖZLƏYƏNLƏRİN GECƏSİNİ GÜNDÜZƏ ÇEVİR

خیز و شب منتظران روز کن
طبع نظامی طرب افروز کن

***Dur, gözləməkdən (gözü qaralanların) gecəsini gündüzə çevir,***

***Nizami təbinin isə şənliyini artır!***[366]

Biz hz. Nizaminin üçüncü nətini şərh etməyə başlayarkən bildirdik ki, şair bu sitayişi hz. Məhəmmədə (s.a.s) müraciət şəklində yazmışdır. Şair nəti «ey» müraciəti ilə başlayaraq İslam peyğəmbərinə üz tutmuşdur. Sitayişin sonunda isə hz. Nizami «dur» («qalx») deyərək hz. Məhəmmədin (s.a.s) yenidən zühur etməsini, fitrəti pozulmuş dünyanı nizama salmasını istəyir.

Şair, hz. Məhəmmədə (s.a.s) müraciət üslubunu seçməklə bir sıra məsələni önə çəkmişdir. O, öncə bu yolla insanlığın hz. Məhəmmədə (s.a.s) olan ehtiyacını ifadə etmişdir. İslam peyğəmbərinə ehtiyac ideyası onun varlığı və yoxluğunun müqayisəsi üzərində qurulmuşdur. Şairə görə, hz. Məhəmməddən (s.a.s) sonra dünyanın nizamı pozulmuşdur, o gəlməli və hər şeyi öz yerinə qoymalıdır.

Şair nətin son beytlərində də müraciət üslubunu davam etdirərək məzarda yatan hz. Məhəmmədi (s.a.s) yardıma çağırır. Şair, ona «pak xəzinə» deyə üz tutur, bütün yaradılmışların Onun yolunu gözlədiyini bildirir.

Hz. Nizami üçüncü nətdə müraciət üslubunu seçməklə yaradılmışların hz. Məhəmmədə (s.a.s) olan sevgisini ifadə

---

[366] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 36.

etmişdir. Şair, hz. Məhəmmədə (s.a.s) olan ehtiyac və sevgini bu anlayışlara uyğun ifadələrlə bildirmişdir. Sevən sevdiyinə necə müraciət edər? İnsan ehtiyacını necə dilə gətirər? Hz. Nizaminin seçdiyi «ey», «pak bədənli», «mərhəmətli», «aləmin günahlarla islanmış ətəyini sən qurutdun», «sən müşk və ənbərsən», «sən iki cahanı özündə birləşdirirsən», «sən pak xəzinəsən», «dolça sənin quyundan su çəkir», «gecə və gündüz sənin yolunu gözləyən qasiddir», «sən təbibsən», «sən Ayın möcüzəsisən» kimi bir-birindən gözəl, ehtiyac və sevgini ifadə edən bədii sözlər ideyanı bütün incəliyi ilə açmışdır.

**Şair üçüncü nətdə müraciət üslubunu seçməklə yaradılmışların hz. Məhəmmədə (s.a.s) olan həsrətini ifadə etmişdir.** Şairə görə, göydəki Ay, Günəş və ulduzlar Ondan ötrü darıxır, hər zaman onu axtarır, gecə və gündüz Onun gəlişini müjdələmək üçün fasiləsiz olaraq növbədə durur. Şairin seçərək beytlərə yerləşdirdiyi «yol», «yol gözləmək», «qasid», «müjdə», «axtarmaq», «səfərdə olmaq», «gecə-gündüz yol gözləmək», «intizar», «gözləməkdən gözü qaralmaq» kimi söz və ifadələr həsrət anlayışını dəqiq və bədii bir biçimdə gözəl ifadə edir.

Hz. Nizami üçüncü nətin son beytində də yaradılmışların hz. Məhəmmədə (s.a.s) olan ehtiyac, sevgi və həsrətini bədii dillə gözəl ifadə etmişdir. Şairin seçdiyi söz və ifadələr bunu aydın göstərir. Şair, öncəki beytlərdə məzarda yatan «pak xəzinə»yə müraciət etdikdən sonra bu beytlərlə məna və üslub birliyi yaradaraq son beyti «dur» («qalx, «xiz») müraciəti ilə başlayır. Şair bilərəkdən felin əmr şəklini seçmişdir.

**Şairin hz. Məhəmmədə (s.a.s) müraciətlə dediyi «qalx» sözü «gəl» mənasındadır. Şair məzarda yatan pey-**

**ğəmbərə müraciət etdiyi üçün «qalx» felini seçmişdir. Yəni, ey Məhəmməd, hər kəs və hər şey Səni sevir, yaradılmışların Sənə ehtiyacı var, Sənə həsrətik, qalx və gəl, bizi bu həsrətdən qurtar.**

Misrada «qalx» sözü hz. Məhəmmədə (s.a.s) olan ehtiyacı ifadə edir. Şair deyir ki, Sənin gəlməməyin mümkün deyil, çünki Sənin gəlişin zərurətdir. Şair bu zəruriliyi ifadə etmək üçün təkid, israr mənalı «qalx» felindən istifadə edir.

Misrada «qalx» feli hz. Məhəmmədin (s.a.s) gəlişinin insanlığın qurtuluşunun tək çıxış yolu olduğunu ifadə edir. Qalx və gəl, Sənin gəlişindən başqa çıxış yolumuz yoxdur, Sənin alternativin yoxdur.

Misrada «qalx» feli hz. Məhəmmədə (s.a.s) olan sevgini ifadə edir. Şair deyir ki, bizim sevgimizin ünvanı Sənsən, qalx, gəl, bizi sevindir, bizə rahatlıq gətir.

Misrada «qalx» feli hz. Məhəmmədə (s.a.s) olan həsrəti ifadə edir. Şair deyir ki, Sənin həsrətin bizi üzdü, varlığımızı əlimizdən aldı. Burada «qalx» feli ayrılığa dözə bilməməyi, səbirsizliyi ifadə edir. Ey Məhəmməd, qalx, gəl, daha səbrimiz qalmadı.

Misrada «qalx» feli «tez gəl», «tez ol» mənasındadır. Sevginin, həsrətin, ehtiyacın göstəricilərindən biri də səbirsizlik, bir an içində sevdiyinə qovuşmaq istəyi deyilmi? Bu istəyi «tez ol, gəl!» müraciəti dəqiq ifadə etmirmi?

Hz. Nizami bu sonuncu beytdə hz. Məhəmmədə (s.a.s) olan sevgi, ehtiyac və həsrəti bu anlayışları bütün gücü ilə ifadə edən sözlər seçmişdir. Şair bu yolla həm öncəki beytlərdə Peyğəmbərlə bağlı demiş olduğu sözləri tamamlamış, həm də nəti çox tezliklə hz. Məhəmmədə (s.a.s) qovuşmaq istəyi ilə bitirmişdir. Misradakı belə sözlərdən biri də «intizarda olanlar»

(«həsrətlə gözləyənlər», «gözləməkdən gözləri qaralanlar, saralanlar») ifadəsidir.

Şairə görə, Onu həsrətlə gözləyənlər qaranlıq içindədir. Misradakı «intizarla gözləyənlərin gecəsi» ifadəsi hz. Məhəmməddən (s.a.s) sonrakı mərhələni bildirir. Şairə görə, hz. Məhəmməddən (s.a.s) sonra dünya qaranlığa qərq olmuşdur. O gəlsə, dünya nurlanar, Onu həsrətlə gözləyənlər işığa çıxar.

Şair beytin ikinci misrasında ilham qaynağının hz. Məhəmməd (s.a.s) olduğunu bildirir. **Hz. Nizami qəmlidir, Onu intizarla gözləyənlərin sırasındadır. Şairin hz. Məhəmmədin (s.a.s) gəlişi ilə ilhamının sevinəcəyini bildirməsinin səbəbi odur ki, bir şair üçün ən önəmli məsələ onun ilhamıdır. Şairin ilhamı da hz. Məhəmməddən (s.a.s) güc alır, coşur, sevinir.**

Hz. Nizami deyir ki, onun ən gözəl şeirləri hz. Məhəmmədlə (s.a.s) bağlı yazılmışdır. Hz. Nizami deyir ki, gəl, qalx, ey Məhəmməd, ilhamım səndən güc alsın, şadlansın, yeni, sevinc dolu şeirlər yazım.

# «SİRLƏR XƏZİNƏSİ»NDƏN DÖRDÜNCÜ NƏTİN ŞƏRHİ

## DÖRDÜNCÜ NƏTİN BAŞLICA ÖZƏLLİKLƏRİ

Hz. Nizaminin «Sirlər xəzinəsi»nə daxil olan dördüncü nəti üçüncü nətdə irəli sürülmüş ideyalarla sıx bağlıdır. Bu nətin ideyası hz. Məhəmmədin (s.a.s) sağlığında olan «səadət əsri» ilə Ondan sonrakı dövrün müqayisəsi üzərində qurulmuşdur.

Şair bu müqayisə nəticəsində bildirir ki, hz. Məhəmməddən (s.a.s) sonra əsrlər keçmiş, dünyanın nizamı pozulmuş, aləm qaranlığa qərq olmuşdur.

Dördüncü nətdə hz. Nizami zidd anlayışlardan çox istifadə etmişdir: «Günəş - kölgə», «gecə - gündüz», «köhnə –təzə», «varlıq - yoxluq», «cisim - ruh», «yatmaq – ayıq olmaq», «bu dünya - axirət».

Şair bu nətdə hər beytin məzmunu və bədii biçimi ilə hz. Məhəmmədə (s.a.s) olan ehtiyacı ifadə edir. Şairin seçdiyi obrazlar bu ideyanın şərhinə bağlıdır.

Hz. Nizami bu beytdə tarixi, dini şəxsiyyətlərin adından istifadə etmişdir.

Dördüncü nət ideya və məzmun baxımından öncə yazılmış nətlərlə sıx bağlıdır. Nətin beytləri bir-birini tamamlayır.

## BİRİNCİ BEYTİN ŞƏRHİ:
## SƏN GÜNƏŞSƏN

ای مدنــــی برقع و مکــــی نـقاب
سـايــه نـشين چـنـد بـــود آفـتـاب

*Ey Mədinə örtüklü, Məkkə niqablı Günəş,*
*Nə qədər kölgə altında oturacaqsan?* [367]

Hz. Nizami dördüncü nətin birinci beytini hz. Məhəmmədə (s.a.s) müraciətlə başlamışdır. Şair islam peyğəmbərinə müraciət edərkən Məkkə və Mədinə şəhərini ayrıca qeyd etmişdir.

## MƏKKƏ VƏ MƏDİNƏ

Bilindiyi kimi, bu iki şəhər islam tarixində önəmli yer tutur. Hz. Nizami öncəki nətində Məkkə şəhərini «yer üzünün göbəyi» adlandırmışdır. Məkkə uca dağlarla əhatə olunmuş, ticarət karvanlarının keçdiyi bir şəhər idi. «… Her ne ise Mekkenin önemi o kadar böyüktü ki, onun çöllük vaziyyetine rağmen, Roma ve Bizans, İran ve Habeş imparatorları, zaman-zaman bu şehri kendi ülkelerine katmak için teşebbüslerde bulunmuşlar. Mekke islamdan evvelki zamanlarda taşıdığı adıyla Ummul-Kura (Şehirler anası) asla bir yabançı hakimiyet altına düşmemiştir… Gelişiyle mekkelilerin üzerinde islamın yaptığı şey, esasen onların sahip olduğu vasfları düzeltip mükemmelleştirmek ve fiilen yaşanıp gerçekleştirmek üzere onlara yeni bir ideal vermek olmuştur ki bütün bunları yaparken İslam, bu ahalinin kusur ve noksanlarını, onların sefih hayatını yeni baştan tanzime tabı tutmuştur».[368]

---

[367] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 36.
[368] Muhammed Hamidulla, «İslam Peygamberi», İstanbul, 2003, s. 25-26.

Mədinə şəhəri də islam tarixində önəmli yer tutur. «… Medine arazisi son derece geniş düzlüklere sahip bir vadidir. Deve sırtında Kuzeyden Güneye ve aynı şekilde Doğudan Batıya bir yolçuluk bir gün çeker. Bu vadinin etrafı dağlarla çevrilidir. Vaktiyle volkanlardan fışkıran lavlar bu düzlügün bir kısmını örtmüş vaziyettedir. İklim tatlıdır, toprak bereketlidir. Kuyu suları, bilhassa Aynuz-Zerkaa suyu pek serindir ve boldur… Ovadan elde edilen hurma mahsulünün evsafı yüksek, cinsleri çok çeşitli ve hasat edilen miktar pek büyüktür. Hicretin ilk asrında Medineden Suriyeye buğday ihrac edilirdi. Burada yağmur Mekkeden daha çok ve sık yağar. Mekkenin güney doğusunda uzanan Taifin Vac vadisine kadar uzanıp giden yataklarda yağmur suları Medine üzerinden geçip Kızıl Denize doğru akar…».[369]

Mədinə hz. Məhəmmədə (s.a.s), mühacirlərə qucaq açan, onları qoruyan, islam dininin inkişafına ciddi yardım edən, Peyğəmbər məscidinin və hz. Məhəmmədin (s.a.s) məzarının olduğu şəhərdir.

Şair, hz. Məhəmmədə (s.a.s) «Mədinə örtüklü», «Məkkə niqablı» günəş deyərkən islam Peyğəmbərinin Məkkədə doğulub Mədinədə batmasını nəzərdə tutmuşdur. Şairə görə, O, bir günəşdir, ancaq niqab onun üzünü örtmüşdür. Şair Onun yoxluğunu ifadə etmək üçün «örtük», «niqab», «kölgə» sözündən istifadə etmişdir.

**Şair, hz. Məhəmmədin (s.a.s) varlığına ehtiyac olduğunu ifadə etmək üçün Onu Günəşə bənzətmişdir. Şair demək istəyir ki, hz. Məhəmməd (s.a.s) bu dünyadan köçəndən sonra dünyanın günəşi sönmüşdür, aləm qaranlığa qərq olmuşdur, bu günəş kölgədə qalmışdır. Onun üzünü niqab örtmüşdür.**

---

[369] Muhammed Hamidullah, göstərilən qaynaq, s. 187.

Hz. Məhəmmədin (s.a.s) günəşə bənzədilməsi divan ədəbiyyatında ən çox istifadə olunan bədii təsvir vasitələrindən biridir. Divan şairlərinə görə, hz. Məhəmməd (s.a.s) bir nurdur, O, bu parlaq nuru ilə iki dünyanı işıqlandırır. O, «…Cismani varlığı ve peygamberliğile de yeryüzünün cehalet ve günahlarla kaplanan ufuklarını karanlıktan kurtaran bir hidayet güneşi olmuştur. Bu bakımdan natlarda «afitab-i feyz», «hurşid-i her dü kevn», «hurşid – i rahşan-i hidayet», «hurşid-i subh-i din», «mihri-i eflake-i nübüvvet», «mihr-i –evc –i nübüvvet», «mihr-i hüda», «mihr-i pür-nur – alem-i eşbah», «neyyir-i azam», «neyyir-i maşrık-i ezel», «şems-i taban-i risalet», «şems-i kadım» şeklinde ifadelerle ele alınır».[370]

**Şəmsi:**

Güneş, ay, bunca yıldızlar delil-i nur-i vechindir,
Ezelden afitab-i du cihansın, ya Resulullah.[371]

(Günəş, ay, bu qədər ulduz Sənin nurunun dəlilidir. Sən əzəldən iki cahanın günəşisən)

**Cezmi:**

Ey afitabi-sipihr-i nübüvvet ihsanun,
Hemişe pertevi-rahmet-nisar-i dünyadur.
O mihr-i evc-i – nübüvvet sabah-i haşre degin,
Ziya-yi rahmeti alemlere hüveydadur.[372]

(Sənin peyğəmbərlik günəşinin nuru bu dünyanı və qiyamət günü axirəti işıqlandıracaq. Aləmlərə rəhmət olacaq)

**Füzuli:**

Çıxdı bir gün kı ziyasında tamami-rusül,

---

370 Emine Yeniterzi, göstərilən qaynaq, s. 314.
371 Emine Yeniterzi, göstərilən qaynaq, s. 315.
372 Emine Yeniterzi, göstərilən qaynaq, s. 315.

Oldı məhv eylə ki Xurşid şüasında Süha.[373]

(O, elə bir günəşdir ki, o çıxanda bütün peyğəmbərlər bu günəşin şüasında bir Süha ulduzu kimi yox oldular)

Şair insanlığın hz. Məhəmmədə (s.a.s) olan ehtiyacını daha açıq bir şəkildə ifadə etmək üçün beytin ikinci misrasında Ona sual verir. Onun kölgədə çox oturduğunu bildirir.

**Bu beytin və bütövlükdə nətin diqqətəlayiq cəhətlərindən biri də budur ki, şair hz. Məhəmmədin (s.a.s) yoxluğundan danışarkən Onun ölümündən danışmır, ölümü, yoxluğu ifadə edən qəbir sözündən istifadə etmir. Bu anlayışların yerinə «örtük», «niqab», «kölgə» kimi sözlərdən yararlanır.** Sanki hz. Məhəmməd (s.a.s) bir ağacın kölgəsi altında oturub dincəlir, o, şairin çağırışını eşidəcək və gələcək.

---

[373] Emine Yeniterzi, göstərilən qaynaq, s. 316.

## İKİNCİ BEYTİN ŞƏRHİ:
## BİZƏ NUR VƏ ƏTİR VER

گر مهی از مهر تــو مـوئـــــی بیـار
ور گلـــــی از بـاغ تـو بـوئـــی بیــار

***Sən aysansa, öz Günəşindən (işığından) bir az (bizə) saç,***

***Əgər gülsənsə, öz bağından (bizə) ətir ver!***[374]

Hz. Nizami nətin ikinci beytində hz. Məhəmmədə (s.a.s) üz tutur. Şairin sual üslubunu seçməsinin səbəbi hz. Məhəmmədin (s.a.s) Günəş, Ay, gül olmasına şübhəsi olması ilə bağlı deyil.

Şairin bu üslubu seçməsinin iki səbəbi var. Hər şeydən öncə bu bir üslub göstəricisidir və şeirin bədiiliyini təmin etmək üçündür. Bu sual üslubu şeirin təsirliliyini artırır, oxucunun diqqətini səfərbər edir, oxucunu məsələnin mahiyyətinə yönəldir.

**Başqa yöndən isə şair hz. Məhəmmədin (s.a.s) yoxluğunu dilinə gətirmək istəmir, Onun dönəcəyinə, aləmi nizama salacağına inanır.**

**Beytdəki ay, günəş, gül diriliyin rəmzidir. Gül canlı olsa, ətir saçar, solsa, ətrini itirər. Şair, hz. Məhəmməddən (s.a.s) nur və ətir istəyir, onu sönməyən bir nur, ətri azalmayan bir gül hesab edir.**

Şair bir beytdə ümid yaradan sözləri – günəş, ay, bağ, işıq, ətir sözlərini bir araya gətirir. Hz. Nizami peyğəmbərsiz dünyanı qaranlıq və ətirsiz bir aləm sayır, bu zülmətdən qurtulmağın yolunun hz. Məhəmmədə (s.a.s) itaət olduğunu bildirir.

---

[374] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 36.

## ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ:
## FƏRYADIMIZ SƏNİN ÜÇÜNDÜR

منتظران را به لب آمد نفس
ای ز تو فریاد به فریادرس

***Gözü yoldakılar (səni gözləməkdən) cana gəldilər,***
***Fəryadımız sənin üçündür, dadımıza çat.***[375]

Şair bu beytdə nətin ideyasına uyğun sözlər seçmişdir. Aləmin hz. Məhəmmədi (s.a.s) həsrətlə gözlədiyini ifadə etmək üçün birinci misrada bu məzmuna uyğun iki sözdən istifadə etmişdir: «gözü yolda qalanlar» («entezaran»), «cana gəlmək». Şair deyir ki, hz. Məhəmmədi (s.a.s) sevənlərin gözü yolda qalmışdır, Onlar bu ayrılığa dözə bilmirlər.

Hz. Nizami beytin ikinci misrasında peyğəmbəri köməyə çağırır, insanların darda qaldığını, fəryad etdiyini, hz. Məhəmmədin (s.a.s) yardımına ehtiyacı olduğunu bildirir.

Misradakı «gözləməkdən cana gəlmək» ifadəsi iki məna bildirir. Şair bu ifadə ilə həm hz. Məhəmmədi (s.a.s) gözləyənlərin səbirsiz olduqlarını, artıq dözə bilmədiklərini nəzərə çatdırır, həm də hz. Məhəmməddən (s.a.s) sonrakı dönəmin çox ağır olduğunu göstərir.

Beytin ikinci misrasında da eyni ideyanı ifadə etmək üçün «fəryad», «dada çatmaq» kimi sözlərdən istifadə edilmişdir. Çünki darda qalan, çətin vəziyyətdə olan insan fəryad edər, inandığı şəxsi yardıma çağırar.

Hz. Nizami deyir ki, biz hz. Məhəmməddən (s.a.s) sonra ağır vəziyyətə düşmüşük və bizə yardım edəcək yeganə şəxs də peyğəmbərdir.

---

[375] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

## DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ:
## ATINI ƏCƏMƏ ÇAP

سوی عجم ران منشین در عــرب
زردهٔ روز اینـــك و شبدیز شــب

*(Atını) Əcəmə (tərəf) çap, Ərəbistanda oturma!*

***Budur gündüzün qızıl köhləni, gecənin qıratı səni (gözləyir).***[376]

Şair bu beytdə də hz. Məhəmmədin (s.a.s) gəlişinin zəruri olduğunu ifadə etmək üçün yeni obrazlardan istifadə etmişdir. Bu obrazlardan biri atdır. **Şair peyğəmbərin gəlişinin zəruriliyini və bu gəlişin tez, təcili olmasını bildirmək üçün deyir ki, ey peyğəmbər, ata min və Əcəmə doğru çap. Misradakı «at» obrazı və «çapmaq» feli öncəki beytdəki «cana gəlmək», «fəryad», «dada çatmaq» anlayışlarını əvəz edir.**

**İkinci beytdə at obrazı sürəti, həsrəti, arzunu, istəyi, ehtiyacı ifadə edir. At obrazı bu anlayışların ifadə etdiyi mənanı açıq şəkildə ortaya qoyur.**

Qurani-Kərimdə də at öyülərkən bu keyfiyyətləri önə çəkilmişdir:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ
وَالْعَادِيَاتِ ضَبْحاً فَالْمُورِيَاتِ قَدْحاً فَالْمُغِيرَاتِ صُبْحاً فَأَثَرْنَ بِهِ نَقْعاً
فَوَسَطْنَ بِهِ جَمْعاً إِنَّ الْإِنسَانَ لِرَبِّهِ لَكَنُودٌ

(əl-Adiyat, 100/1-6)

«And olsun (cihad zamanı) tövşüyə-tövşüyə qaçan atlara. And olsun (dırnaqları ilə daşdan) qığılcım qoparan atlara. And olsun sübh çağı hücum edən atlara. And olsun o

---

[376] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

vaxt (ya da o yerdə) toz-duman qoparan atlara. Sonra da onunla (tozanaqla) dəstəyə (düşmən dəstəsinə) təpinən atlara ki, insan öz Rəbbinə qarşı çox nankordur».

Şair, hz. Məhəmmədin  (s.a.s) gəlişinin zəruri və tez olmasını ifadə etmək üçün bilərəkdən əmr, istək üslubunu seçib. Şair deyir ki, ey Məhəmməd (s.a.s), Ərəbistanda oturma, gündüz və gecə qızıl köhləni, qıratı bizə tərəf çap. Beytdəki «at», «çapmaq», «oturma», «qızıl köhlən», «gecənin qıratı» kimi obraz və sözlər peyğəmbərin gəlişinin zəruriliyini, insanların ona olan həsrətini, istək və sevgisini gözəl ifadə etmişdir.

## BEŞİNCİ BEYTİN ŞƏRHİ:
## BU CAHANI TƏZƏLƏ

ملك برآراى و جهان تازه كن
هر دو جهانرا پر از آوازه كن

***(Bu köhnə) mülkü (dünyanı) yenidən bəzə, cahanı elə təzələ***

***Ki, bu (əməlin) səsi hər iki cahanı tutsun.***[377]

Hz. Nizami bu beytdə hz. Məhəmmədin (s.a.s) dövrü ilə Ondan sonrakı mərhələnin fərqini göstərmək və peyğəmbərin gəlişinin zəruriliyini anlatmaq üçün zidd anlayışlardan istifadə etmişdir. Birinci misranın mətninə daxil edilmiş sözlərə və bu sözlərin məna tutumuna baxaq: «köhnə mülk», «yenidən bəzəmək», «cahanı təzələmək».

Şair «köhnə mülk, dünya» deyərkən həm dünyanın köhnə, qədim olduğunu, həm də hz. Məhəmməddən (s.a.s) sonra dünyanın nizamının pozulduğunu nəzərdə tutmuşdur. Şairə görə, dünya hz. Məhəmməddən (s.a.s) sonra uca Allahın (c.c) müəyyən etdiyi, buyurduğu prinsiplərdən uzaqlaşmış, «köhnəlmiş» və təravətini, təzəliyini, ətrini itirmişdir.

Şairə görə, dünyanın yenidən gözəlləşməsi, islami dəyərlərlə idarə olunması üçün hz. Məhəmmədin (s.a.s) gəlişi zəruridir. Hz. Nizamiyə görə, bu elə bir vəzifədir ki, onu ancaq hz. Məhəmməd (s.a.s) yerinə yetirə bilər. Bu nizamı pozulmuş dünyanı qaydaya salmaq işi elə önəmlidir ki, bu vəzifənin yerinə yetirilməsinin nəticəsi bu dünya və axirətdə qiymətləndiriləcək.

Hz. Nizami beytdə bu dünya və axirət anlayışını birgə, vəhdətdə təqdim etmişdir. Şairə görə, bu dünya bir imtahan

---

[377] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

yeridir və bu dünyada yerinə yetirilən hər bir doğru əməl hər iki dünyada da dəyərləndiriləcək. Bu dünyanı doğru dəyərləndirilməyən, savab işlər görməyən axirəti də qazana bilməz.

**Şair ikinci misrada «bu əməlin səsi hər iki cahanı tutsun» deyərkən bir neçə məsələni nəzərdə tutmuşdur. Hər şeydən öncə yuxarıda da deyildiyi kimi, şair bu dünya ilə axirətin bağlılığını ifadə etmişdir. Daha sonra şair yaşadığı dövrdə dünyanın nizamının pozulduğunu, vəziyyətin çox ağır olduğunu bildirmişdir. Yəni şairə görə, elə bir vəziyyət yaranmışdır ki, dünyanı yenidən «bəzəmək», «təzələmək» vəzifəsi bir zərurətə çevrilmişdir.**

Nəhayət, şair bu yolla hz. Məhəmmədin (s.a.s) gəlişinin zəruriliyini əsaslandırmışdır. Şairə görə, səsi hər iki dünyanı tutacaq (hər iki dünyada böyük savab qazandıracaq) köhnə dünyanı yenidən «təzələmək», «bəzəmək» vəzifəsini ancaq hz. Məhəmməd (s.a.s) yerinə yetirə bilər.

## ALTINCI BEYTİN ŞƏRHİ: XÜTBƏNİ SƏN OXU

سکه تو زن تا امرا کم زنند
خطبه تو کن تا خطبا دم زنند

***Sikkəni sən vur ki, hakimlər az sikkə vursunlar,***
***Xütbəni sən oxu ki, xətiblər nəfəs alsınlar.***[378]

Hz. Nizami bu beytdə islam peyğəmbərinin başqalarından, o sıradan hökmdar və xətiblərdən üstün olduğu ideyasını bədii biçimdə təqdim etmişdir. Şairin cəmiyyətin ayrı-ayrı təbəqələri arasından hökmdarları və xətibləri (gözəl danışanları) ayrıca qeyd etməsinin də beytin ideyası ilə sıx bağlılığı var.

Bilindiyi kimi, pul kəsmək hökmranlığın, dövlət sahibi olmağın ən önəmli əlamətlərindən biridir. Ancaq şairə görə, onun dövründə yaşayan hökmdarların elə bir hökmü qalmayıb, onların hökmünün və kəsdiyi pulun bir dəyəri yoxdur. Şair öncəki beytlərdə cəmiyyətin «köhnəldiyini», təravətini itirdiyini yazmışdı. **Şairə görə, siyasi hakimiyyət elə bir gücdür ki, bu güc və imkan cəmiyyətin əxlaqını poza da bilər, düzəldə də.**

Hz. Nizaminin beytdə hökmdarlıq anlayışı ilə xütbə (gözəl söz anlatmaq) anlayışını bir arada işlətməsinin bir sıra hikmətləri var.

**Hər şeydən öncə bu hökmdarların və gözəl söz söyləyənlərin cəmiyyətdə tutduğu yerlə bağlıdır. Şairə görə, artıq hökmdarlar gözdən düşmüşdür, onların nüfuzu yoxdur, xalq ədalətli bir hökmdar axtarır. Bu hökmdar hz. Məhəmmədir (s.a.s).**

---

[378] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

**Şairə görə, doğru söz, sözlə əməl birliyi cəmiyyətin əxlaqına təsir göstərir. Ancaq artıq hz. Məhəmmədən (s.a.s) sonra xütbə oxuyanların sözünün təsiri qalmamışdır. Şair deyir ki, xütbəni sən oxu, yəni doğru sözü danışan və bu yolla da insanlara təsir edən, onları tərbiyə edən Sənsən.**

Hz. Nizami deyir ki, xütbəni sən oxu, yəni hz. Məhəmməd (s.a.s) həm doğru danışır, həm də danışdığını gözəl söyləyir. Bilindiyi kimi, hz. Məhəmməd (s.a.s) iyirmi üç illik risalət dövründə ilahi sözü gözəl, təsirli bir üslubla söyləyərək insanları uca Allahın (c.c) yoluna dəvət etdi. İnsanları gözəl bir üslubla, doğru sözlə uca Allahın (c.c) yoluna dəvət etmək də bir ilahi buyruqdur.

«Xitabət» ərəbcə bir insana, ya da bir topluma söz söyləmək deməkdir. Gözəl danışan da «xətib» adlandırılır. «…Bir topluluğu ve ya radyo, televizyon gibi yayın vasitalarından faydalanılarak kitlelerin karşısında onlara bir maksadı anlatmak, bir ülküyü aşılamak, faydalı bir bilgi, bir ögüt vermək topluluğu bir fikre inandırmak, bazı fevkalade hallerde heyecanlandırmak ve duyğulandırmak için yapılan konuşma sanatının adı xütbedir. Bu tarz söylenmiş sözlere hitabe, ve ya natın bu şekilde konuşanlara da hatip denilir».[379]

Xitabət «topluluğa söz söyleme sanatıdır» [380], «sühulet ve fesahatle iradi – nutk etmek hassesidir» [381], «düşüncenin resm edilmesidir»[382], «sağ duyunun dile gelmesidir»[383], «doğru bir duyğunun gerçek anlatımıdır»[384].

---

379 Türk-Ansiklopedisi, «Hitabet» maddesi, c. XIX, s. 301.
380 Kadrı Hüseyn Kazım, «Büyük Türk Luğatı», c. II, s. 630.
381 Kadrı Hüseyn Kazım, «Büyük Türk Luğatı», c. II, s. 630.
382 Oğuzkan Ferhan, «Egitim üzerine», s. 65.
383 Oğuzkan Ferhan, «Egitim üzerine», s. 66.
384 Corsos Fermand, «Güzel Konuşma Sanatı» (tercüme eden, Erdoğan Mete, Naim Yamaner), s. 26.

**Uca Allah (c.c) buyurur ki, ey Məhəmməd (s.a.s) ilahi kəlamı, islamı gözəl bir üslubla anlat:**

فَذَكِّرْ إِنَّمَا أَنتَ مُذَكِّرٌ لَّسْتَ عَلَيْهِم بِمُصَيْطِرٍ

(əl-Ğaşiyə, 88/21-22)

«(Ey Peyğəmbər! Mənim bəndələrimə) öyüd-nəsihət ver. Sən ancaq öyüd-nəsihət verənsən! Sən onların üzərində hakim deyilsən!»

إِنَّا أَرْسَلْنَاكَ شَاهِداً وَمُبَشِّراً وَنَذِيراً لِتُؤْمِنُوا بِاللَّهِ وَرَسُولِهِ وَتُعَزِّرُوهُ وَتُوَقِّرُوهُ وَتُسَبِّحُوهُ بُكْرَةً وَأَصِيلاً

(əl-Fəth, 48/8-9)

«(Ey Rəsulum!) Həqiqətən, Biz səni (bəşər övladına) bir şahid, bir müjdəçi və (Allahın əzabı ilə) qorxudan bir peyğəmbər olaraq göndərdik. (Biz onu göndərdik ki, siz insanlar) Allaha və Onun Rəsuluna iman gətirəsiniz. Ona (Allaha, yaxud Peyğəmbərə) yardım edəsiniz, onu böyük sayıb ehtiramını saxlayasınız və (Allahı) səhər-axşam təqdis edib şəninə təriflər deyəsiniz!»

ادْعُ إِلِى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ وَجَادِلْهُم بِالَّتِي هِيَ أَحْسَنُ إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِمَن ضَلَّ عَن سَبِيلِهِ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ

(ən-Nəhl, 16/125)

«(Ey Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (islama) dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə uyğun şəkildə) mücadilə et. Həqiqətən, sənin Rəbbin yolundan azanları (ən yaxşı) bilən, doğru yolda olanları da (ən yaxşı) tanıyandır!».

Hz. Məhəmməd (s.a.s) hədislərində doğru sözə və gözəl danışmağa ayrıca yer ayırmışdır.

«Heç şübhə yoxdur ki, sözdə sehirləyən, təsir edən bir qüdrət vardır».[385]

Hz. Məhəmməd (s.a.s) çoxsaylı gözəl xütbələr söyləmişdir. Bu mübarək xütbələrdən birini dinləyək:

Cabir (r.a) belə deyir: «Rəsulullah (s.a.s) xütbə söylədiyi zaman gözləri qızarır, səsi yüksəlir. «Düşmən sabah və axşam üzərinizə hücum edəcək, özünüzü qoruyun», - deyə ordusunu xəbərdar edən komandir kimi qəzəbi artar və şəhadət barmağı ilə orta barmağını bir araya gətirərək:

«Mənimlə qiyamətin arası bu iki barmağın arası qədər yaxın olduğu zaman mən peyğəmbər olaraq göndərildim», - deyərdi. Sonra da sözlərinə belə davam edərdi:

«Bundan sonra söyləyəcəyim budur ki, sözün ən xeyirlisi Allahın kitabıdır. Yolların ən xeyirlisi Məhəmmədin (s.a.s) yoludur. İşlərin ən pisi sonradan ortaya çıxarılmış olan bidətlərdir. Hər bidət dəlalətdir, azğınlıqdır».

Sonra da belə buyurdu:

«Mən hər möminə öz nəfsindən daha yaxınam, daha üstünəm. Bir kimsə ölərkən mal qoyub gedərsə, o mal öz yaxınlarına aiddir, yetimlərə baxmaq da mənim vəzifəmdir».[386]

Hz. Nizami xütbəni sən oxu deyərkən hz. Məhəmmədin (s.a.s) gözəl danışığını nəzərdə tutmuşdur. Şair demək istəyir ki, indi oxunan xütbələr insanlara təsir etmir, çünki xətiblər yalan danışırlar. Onların danışdıqları yalanlar da insanların əxlaqını pozur. İndi hökmü ilə sözü bir olan ədalətli hakim, doğru və gözəl danışan xətibə ehtiyac var. Bu iki məsələni özündə birləşdirən insan hz. Məhəmməddir (s.a.s). Şairə görə, ədalətli hökmlər və doğru, gözəl söz insanlara təsir edər, onları doğru yola yönəldər.

---

[385] Ahmet Lütfi Kazancı, «Peygamber Efendimizin hitabeti», İstanbul, 1980, s. 16.
[386] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 14.

## YEDDİNCİ BEYTİN ŞƏRHİ:
## SƏNİN TORPAĞIN ÖLKƏYƏ ƏTİR SAÇDI

**خاک تو بوئی به ولایت سپرد**
**باد نفاق آمد و آن بوی برد**

***Sənin torpağın ölkəyə (xilafətə) ətir saçdı,***
***Lakin fitnə küləyi gəlib o ətri apardı.***[387]

Hz. Nizami bu beytdə iki dövrü müqayisə etmişdir. Şairə görə, hz. Məhəmmədin (s.a.s) dövründə ölkədə ədalət bərqərar oldu, insanlar əmin-amanlıq içində yaşadılar. Şair hz. Məhəmmədin (s.a.s) ədalətini, Onun dövrünün sosial-siyasi, mənəvi-əxlaqi iqlimini, bu dövrün bərəkətini «ətir saçmaq» ifadəsi ilə açıqlamışdır. Misradakı «ətir saçmaq» ifadəsi islam dininin nurunu, imandan qaynaqlanan ədaləti, azadlığı, doğruluğu, insan sevgisini ehtiva edir.

Şair hz. Məhəmməddən (s.a.s) sonrakı dövrü xarakterizə etmək üçün isə «fitnə küləyi» ifadəsindən istifadə etmişdir. Şair fitnə küləyi deyərkən ədalətsizliyi, haqsızlığı, qanunsuzluğu, özbaşınalığı, insan haqlarının tapdanmasını nəzərdə tutmuşdur.

Şairə görə, «fitnə küləyi» islamın ruhunu pozmuşdur. Yenidən islamın ətrini özünə qaytarmaq, fitnələrə son qoymaq üçün bir adil lidere ehtiyac var. Bu lider də hz. Məhəmməddir (s.a.s).

---

[387] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

## SƏKKİZİNCİ BEYTİN ŞƏRHİ: ASUDƏLƏRİ HÖKMRANLIQ TAXTINDAN DÜŞÜR

**باز کش ایـــن مسند از آســود گان**
**غسل ده این منبـر از آلــود گــان**

***(Hökmranlıq) taxtından asudələri (rahatlananları düşür),***
***Minbəri (günahkar ruhanilərin) çirkindən yu.*[388]**

Hz. Nizami bu beytdə öncəki beytdə irəli sürdüyü ideyanı daha dərindən açıqlamışdır. **Şairə görə, «fitnə küləyi» əsdirərək islamın ətrini pozan iki başlıca qüvvə var. Bunlardan biri hökmdarlıq taxtında oturan hakimlər, rəhbərlərdir. Şair onları «asudələr» adlandırmışdır.** Yəni onlar məsuliyyətdən azaddırlar, özlərini heç kimin qarşısında cavabdeh saymırlar, insanların və xalqın qayğısına qalmırlar, öz mənafelərini düşünürlər. Ona görə də ölkə dağılır, insanlar ədalətsiz hökmdarların şəxsi mənafelərinin qurbanı olurlar.

Şairə görə, bu ədalətsiz hökmdarlar («asudələr») islam cəmiyyətinin ən önəmli problemidir. Şair, hz. Məhəmmədi (s.a.s) köməyə çağırır, bildirir ki, bu «asudələri» taxtdan ancaq peyğəmbər endirə bilər.

**Şairə görə, cəmiyyətin əxlaqını pozan ikinci qüvvə «günahkar ruhanilər»dir. Hökmdarlar taxtı ələ keçirdikləri kimi «günahkar ruhanilər» də minbəri ələ keçirmişlər. Onlar din adına xalqa yalan danışırlar, dini öz şəxsi mənfəətlərinin alətinə çevirmişlər.**

Onlar «fitnə küləyi» əsdirənlərdir, onların günahı üzündən islamın ətri yox olmuşdur. Şair bu «günahkar ruhanilər» haqqında çox qəzəblə danışır, onların minbəri çirkləndirdiyini söyləyir. Hz. Nizami peyğəmbərə müraciətlə deyir ki, ey Məhəmməd, gəl və minbəri bu günahkar ruhanilərin çirkindən yu.

---

[388] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

# DOQQUZUNCU BEYTİN ŞƏRHİ: ONLAR EVDƏ YAŞAYAN CİNLƏRDİR

خانه غولند بپردازشان
در غله دان عدم اندازشان

***Onlar evdə yaşayan cinlərdir,***
***Hamısını yoxluq zirzəmisinə at.***[389]

Hz. Nizami bu beytdə taxtı ələ keçirən «asudələri», minbəri çirkləndirən ruhaniləri çox orijinal bir bənzətmə ilə təqdim etmişdir. Şairə görə, onlar «evdə yaşayan cinlər»dir.

Öncə cinlərin varlığı ilə bağlı Quranda deyilənlərə baxaq:

وَجَعَلُواْ لِلّهِ شُرَكَاء الْجِنَّ وَخَلَقَهُمْ وَخَرَقُواْ لَهُ بَنِينَ وَبَنَاتٍ بِغَيْرِ عِلْمٍ سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يَصِفُونَ

(əl-Ənam, 6/100)

«Cinləri (Allah) yaratdığı halda, (kafirlər və cahillər) onları Allaha şərik qoşdular, (nəyə inandıqlarını, nə danışdıqlarını) bilmədən (özlərindən) Onun üçün oğullar və qızlar uydurub düzəltdilər. Allah isə onların Ona aid etdikləri sifətlərdən uzaqdır (pakdır) və yüksəkdə durur».

Qurana görə, cin həm də mənfi (şeytani) varlıqdır.

وَكَذَلِكَ جَعَلْنَا لِكُلِّ نِبِيٍّ عَدُوّاً شَيَاطِينَ الإِنسِ وَالْجِنِّ يُوحِي بَعْضُهُمْ إِلَى بَعْضٍ زُخْرُفَ الْقَوْلِ غُرُوراً وَلَوْ شَاء رَبُّكَ مَا فَعَلُوهُ فَذَرْهُمْ وَمَا يَفْتَرُونَ

(əl-Ənam, 6/112)

«Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq. Onlar (biri digərini) aldatmaq məqsədilə bir-birinə təmtəraqlı (zahirən gözəl, daxilən çirkin) sözlər təqdim edərlər. Əgər Rəbbin istəsəydi,

---

[389] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

onlar bunu etməzdilər. Onları uydurduqları yalanlarla birlikdə boşla getsinlər!».

**Hz. Nizami «cin» sözünün ifadə etdiyi «örtmək», «örtünmək», «gizli qalmaq» mənalarından da istifadə etmişdir. Şair hökmdarlara, hakimiyyətindən öz xeyri üçün istifadə edib cəmiyyətdə ədalətsizlik toxumu səpən hakimlərə və minbəri günahkarlıq çirkinə bulaşdıran ruhanilərə «cin» deyərkən «cin» sözünün mənfi çalarını nəzərdə tutmuşdur.**

Əski inanışlara görə «... cinlerin dedilik, Sara gibi hastalıklara sebeb olduklarına, büyücülerin cinleri kullanarak insanlara korkunc rüyalar gösterdiklerine, insanlara ve hayvanlara zarar verdiklerine inanırlardı».[390]

Qurana görə, cinlər də insanlar kimi Allaha (c.c) qulluq etmək üçün yaradılmışdır. Uca Allah (c.c) onları atəşdən yaratmışdır. Cinlərə də peyğəmbər göndərilmiş, onların bir qismi iman etmiş, bir qismi də kafir olmuşdur.

Hz. Məhəmməd (s.a.s) insanlara olduğu kimi, cinlərə də ilahi əmrləri təbliğ etmişdir. Cinlər insanlardan daha üstün bir gücə sahibdir. Onlar qısa zamanda uzun məsafələri qət edə bilir, insanlar onları görə bilmir, ancaq onlar insanları görə bilirlər, onlar insanların bilmədikləri bəzi şeyləri bilirlər. «… Fakat qaybı onlar da bilmezler. Gökten meleklerin konuşmalarından gizlice haber almak isterlerse de buna imkan verilmez. Evlenip çoğalırlar. İblis de cinlerdendir ve insanların yanı sıra cinlerden de yardımçıları vardır…».[391]

Qurana görə, «cin şeytanları» adlandırılan, mənfi qüvvə sayılan cinlər də var.

---

[390] «İslam Ansiklopedisi» (TDV), İstanbul, 1993, c. VIII, s. 5.
[391] «İslam Ansiklopedisi» (TDV), İstanbul, 1993, c. VIII, s. 8.

Hz. Məhəmmədin (s.a.s) hədislərinə görə, hər insanın yanında bir cin var, onlar möminlərə vəsvəsə verməyə çalışırlar, ancaq Quran oxunan zaman təsirlərini itirirlər.[392]

**Bu bilgilərdən sonra misranın mənasını belə açıqlaya bilərik. Şair deyir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər evdə yaşayan cinlərdir. Burada «ev» anlayışı dünya məzmununu ifadə edir. Şair deyir ki, hz. Məhəmməddən (s.a.s) sonra dünyanı cin kimi ədalətsiz hökmdarlar və günahkar ruhanilər tutmuşlar. Bu iki qüvvə cəmiyyətin əxlaqını pozmuş, insanları yolundan çıxarmış, ədalət, din və iman kimi dəyərlər zədələnmişdir.** Şair öncəki beytlə əlaqə quraraq hakimlərin, söz sahiblərinin və ruhanilərin cəmiyyətdə önəmli yer tutduğunu, cəmiyyətin mənəvi-əxlaqi, sosial-siyasi sağlamlığının, ya da xəstəliyinin bu üç qüvvədən birbaşa asılı olduğunu irəli sürmüşdür. Bu üç qüvvə sağlamdırsa, cəmiyyət də sağlamdır. Onlar azmış, yolundan çıxmışdırlarsa, cəmiyyət də çürüməyə məhkumdur.

**Şair deyir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər evlərdə yaşayan cinlərdir. Yəni onlar çoxdurlar, onlar «ev»in-dünyanın hər şeyinə sahibdirlər.**

Şair deyir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər evlərdə yaşayan cinlərdir. **Yəni onlar gözəgörünməz, çox təhlükəli, çox güclüdürlər. Onların qorxusu insanların duyğu və düşüncələrinə yerləşmişdir. İnsanların onlarla mübarizə aparmaq imkanı yoxdur. Çünki bu ədalətsiz hökmdarlar və günahkar ruhanilər insanları cəhalətdə saxlayırlar.** Şairə görə, bu iki qüvvənin yeri bu işıqlı dünya deyil, «yoxluq zirzəmisi»dir. Onlar bu dünyaya,

---

[392] «İslam Ansiklopedisi» (TDV), İstanbul, 1993, c. VIII, s. 9.

evə hakim olmaqla hər yeri qaranlığa bürümüşlər. Onların evdə hakim qüvvəyə çevrilmələrinin səbəbi də insanların cəhalətidir.

Şair beytdə ədalətsiz hökmdarları və günahkar ruhaniləri evdə yaşayan cinlərə bənzətməklə yaşadığı dövrün ağır vəziyyətini təsvir etmiş və hz. Məhəmmədin (s.a.s) gəlişinin zəruri olduğunu əsaslandırmışdır. Yəni onlar elə təhlükəli bir qüvvədir və dünyanı elə xaraba qoymuşlar ki, onlarla ancaq islam peyğəmbəri bacara bilər, bu pozulmuş dünyanı ancaq o nizama sala bilər. O, gəlməli, evdə yaşayan cinləri qovmalı, onları yoxluq zirzəmisinə - qaranlığa atmalı və dünyanı nura boyamalıdır.

Bu müqəddəs evi cinlərdən xilas etməyin yolu islamın nuruna, elminə, peyğəmbərinə sahib çıxmaqdır, uca Allaha (c.c) olan sarsılmaz imandır. Elə cinlər də Quran oxunanda təsirlərini itirirlər, bu mübarək kitabı inanaraq oxuyanlardan uzaq qaçırlar. **Şairə görə, insanlar iman nuruna sahib olsalar, ədalətsiz hökmdarların və günahkar ruhanilərin hakimiyyətinə son qoyular.**

## ONUNCU BEYTİN ŞƏRHİ:
## ONLARIN RUZİLƏRİNİ AZALT

کـــم کن اجری که زیادت خورنــــد
خـاص کـن اقطاع کــه غـارتـگرنـد

*Onların ruzilərini azalt, çünki onlar qarınquludurlar,*
*Onların bölümlərini (iqtalarını) al, çünki qarət-kardırlar.*[393]

Hz. Nizami bu beytdə ədalətsiz hökmdarları və günahkar ruhaniləri tənqid edir. Onların xalqın xeyrinə bir iş görmədiklərini bildirir. Şair ədalətsiz hökmdarların və günahkar ruhanilərin xalqın çiynində bir ağır yükə çevrildiyini ifadə etmək üçün onların iki mənfi keyfiyyətini önə çəkmişdir. **Şair bildirir ki, onlar qarınqulu və qarət-kardırlar. Şairin təqdimatında çox yemək, qarınqulu olmaq bir neçə mənanı ehtiva edir.**

**Şair deyir ki, onlar qarınquludurlar, yəni tənbəldirlər. Xalqın xeyrinə heç bir iş görmürlər. Onların işi yatmaq, yemək, faydasız işlərlə məşğul olmaqdır. Tənbəl adam müftəxor olar, özü işləməz, başqalarını istismar edər, insanların əməyinə qiymət verməz.**

Tənbəlin işi qeybət etmək, faydasız işlərlə məşğul olmaqdır. Tənbəl vaxt oğrusudur, o, özünün və başqalarının vaxtını israf edər. Məsələn, bir iş üçün hökmdara, ya da onun adamlarına müraciət edən insan saatlarla, günlərlə onları gözləməyə məcbur olar.

Tənbəl insan süründürməçidir. O, bir məsələni həll etmək üçün insanları aylarla, illərlə get-gələ salar. Əgər

---

393 Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

şairin dediyi kimi , ölkənin hökmdarı və ruhaniləri tənbəldirsə, deməli, o ölkənin insanları əzab içində yaşayırlar.

**Hz. Nizami deyir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər qarınquludurlar, yəni onlar haram yeyirlər. Qarınqulu adam haram yeməyə məcburdur.** Onlar layiq olmadıqları vəzifəni ələ keçirmişlər və hakimiyyətdən şəxsi mənafeləri üçün istifadə edirlər. Əgər ölkənin hökmdarı, onun adamları və ruhanilər haram yeyirlərsə, deməli, o ölkənin siyasi, sosial, mənəvi-əxlaqi fitrəti pozulmuşdur.

**Hz. Nizami deyir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər qarınquludurlar, yəni onlar qanunsuz işlər görürlər. Ölkədəki hakim qüvvə qanunsuz işlər görürsə, deməli, o ölkədə insanların hüquqları pozulur, deməli, o ölkədə insan kimi yaşamaq, özünü uca Allahın (c.c) yaratdığı varlıq kimi hiss etmək mümkün deyil.**

**Şair deyir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər qarınquludurlar, yəni onlar ədalətsizdirlər. Hansı ölkədə ədalət yoxdursa, o ölkədə zülm var. Deməli, bu ədalətsiz ölkədə heç kəs öz haqqını əldə edə bilmir, heç bir məsələ doğru həllini tapa bilmir. Deməli, bu ölkədə insan istismar olunur.**

Hz. Nizami deyir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər qarınquludurlar, yəni xalqa zülm edirlər, onlar xalqı cəhalət içində saxlayırlar, bu ölkədə insan kimi yaşamaq, inkişaf etmək üçün heç bir şərait yoxdur. Elmi, biliyi, ləyaqəti, haqqı olmayanlar xalqı idarə edir. Ona görə də, ölkə zülm və haqsızlıq girdabında boğulur.

Şair deyir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər qarınquludurlar, yəni onlar dindən uzaqlaşmışlar. Dinə görə, çox yemək, bunun üçün başqalarının əməyini

istismar etmək doğru yaşayış biçimi deyil və insan fitrətinin pozulmasının, insanın ruhi aclığının əlamətidir.

Şairə görə, cəmiyyəti idarə edən bu iki qüvvə uca Allahı (c.c) unutmuş, axirəti yaddan çıxarmış, dünya malına tamah salmış və din təhrif olunmuşdur. Bunun nəticəsində də toplumun mənəvi-əxlaqi dayaqlarından biri sarsılmışdır. **Şairin təfsirində «qarınqulu olmaq» axirət inancını itirərək bu dünyaya bağlanmaqdır. Əgər ruhanilər qarınqulududurlarsa, deməli, cəmiyyətdə xeyir-bərəkət yoxdur, hər şey tərsinə çevrilmişdir və bu ölkədə dünya malı uğrunda amansız bir didişmə var.**

Şair deyir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər qarınquludurlar, yəni onlar ağılsız və cahildirlər. Çünki qarınqulu olmaq ağılsızlığın əlamətidir və tamahkarlıqdır. Onlar elə cahildirlər ki, çox yeməyin ziyanlı olduğunu və yemək ədəbini belə bilmirlər.

Dinimizin yemək ədəbinə görə insan az yeməlidir. İslam peyğəmbəri buyurur: «Heç bir insan mədəsindən daha təhlükəli bir qab doldurmamışdır. Ancaq insana onu ayaq üstə saxlayacaq bir neçə loxma yetər. Əgər mütləq çox yeməlidirsə, mədəsinin üçdə birini yeməyə, üçdə birini içməyə, üçdə birini də nəfəs almağa ayırmalıdır».[394]

Yemək və içməkdəki ölçü insanın çalışmasını təmin edəcək qədər yeməkdir. Çox yeyən insanlar – qarınqulular yüksək ideal sahibi ola bilməzlər. Onlar halalla haramın sərhədini itirərlər.

Az yeməyin faydaları ilə bağlı böyük islam alimi İmam Qazali bunları söyləyir:

- İnsan ac olanda qəlbə və beyinə çox qan axmır. Ona görə də insanın düşünmə gücü artır, anlama və duyma

[394] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 291.

qabiliyyəti güclənir. Toxluq tənbəllik yaradır, qəlbin həssaslığını azaldır.

- Az yemək və aclıq qəlbi yumşaldır, vicdani rahatlığı təmin edir. Allahı anmadan zövq duymaq, təsirlənmək, davamlı zikr etmək ancaq bu yolla mümkündür.

- İnsan ac olanda Rəbbinə daha ürəkdən, Ona olan ehtiyacını daha dərindən hiss edərək yönəlir. İnsan az yeyəndə uca Allaha (c.c) qul olduğunu, acizliyini anlayır, təkəbbür və özünəvurğunluqdan uzaqlaşır, Allahın (c.c) qüdrətini, ucalığını, rəhmət və mərhəmətini dərk edir.

- Ac olan insan ehtiyac içində yaşayanların, kasıbların, yoxsulların halını başa düşür. Qarınqulu adam isə acları anlamaz. Deməli, az yeyənlər uca Allahın nemətlərinin dəyərini bilir, Onun əzab və imtahanını unutmur. Bir toplum onlara verilən bol nemətlərlə, başqa bir toplum da qıtlıqla imtahan olunar.

- İnsanı hər cür pisliyə sövq edən nəfsdir. Nəfsə hakimiyyət az yemək və aclıqla təmin olunar. İnsanın uca Allahın (c.c) buyruqlarına qarşı üsyan etməsinin səbəbi güc və şəhvətdir. Bunların qaynağı da yeməkdir. Az yemək şəhvəti və gücü azaldar.

- Az yemək və aclıq çox yatmağa maneə olar. Çox yeyənlər çox yatarlar. Çox yatmaq isə qəlbi qaraldar, zehnin fəaliyyətini azaldar, insanı tənbəlliyə yönəldər. Çox yatanlar Allaha olan qulluq borclarını layiqincə yerinə yetirə bilməzlər. Alimlərimizə görə, çox yatmaq bütün fəlakətlərin səbəbidir.

- Az yeyən adam ibadətlərini davamlı olaraq yerinə yetirər, onun könlü ayıq olar. Az yemək vaxt itkisinin qarşısını alar. Əli əl-Cürcanidən niyə davamlı olaraq şorba içdiyini soruşdular. O, bu sualın cavabında bildirdi: «Mən

quru loxmanı çeynəyib udanadək yetmiş dəfə Allahı anıram. Buna görə də qırx ildir çörək çeynəmirəm»

- Az yemək və ac qalmaq bədənin sağlam qalmasına, bir sıra xəstəliklərin yox olmasına səbəb olur. Çünki bir sıra xəstəliklərin səbəbi çox yeməkdir. Çox yemək mədə, bağırsaq, qəlb, damar xəstəliklərinə yol açır, fizioloji, bioloji, ruhi, psixoloji narahatlıqlara səbəb olur.

- Az yeyənlər və arıqlığa dözənlər mədəni yaşayışlarını daha asan təmin edirlər. Çünki onlar aza qane olmağa öyrəşmişlər.

- Kasıb və yoxsullara, yetim və kimsəsizlərə baxmaq, onların ehtiyaclarını təmin etmək, başqa insanlara faydalı olmaq dinimizin ən önəmli buyruq və tövsiyələri arasında yer tutur.

Az yeyib başqalarına yardım edənlər bu dünya və axirət xoşbəxtliyinə qovuşarlar. Bir yoxsulu, bir yetimi, bir kimsəsizi sevindirməyin ləzzətini duymaq ən böyük xoşbəxtlikdir.[395]

Bu ölçülər işığında hz. Nizaminin qarınqulu adlandırdığı ədalətsiz hökmdarların və günahkar ruhanilərin ölkədə yaratdıqları zülmü aydın görmək mümkündür. Hökmdar və ruhanilər qarınqiludursa, deməli, onlar özlərindən başqa bir kimsəni düşünmürlər.

**Hz. Nizami ədalətsiz hökmdarları və günahkar ruhaniləri qarınqulu adlandırır, yəni onlar israfçıdırlar. Onlar hər şeydən ehtiyaclarından artıq götürürlər, uca Allahın (c.c) verdiyi nemətlərdən təyinat və məqsədlərinə uyğun istifadə etmirlər. Nəticədə, ölkədə yoxsulluq, səfalət, qıtlıq yaranır, xalq çətin vəziyyətdə yaşayır.**

---

[395] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 292-293.

**Şair deyir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər qarınquludur, yəni onlar şöhrət və şəhvət düşgünləridir, onlar acgözlüklə özləri üçün sərvət toplayırlar. Onların yeganə məqsədi mənsəb və şöhrət sahibi olmaq, haram yolla sərvətlərini artırmaqdır. Onlar dünya malına hərisdirlər.**

Şair deyir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər qarınquludurlar, yəni onlar özlərindən çox razıdırlar. Onlar təkəbbürlü və lovğadırlar, onların gözündə başqa insanların dəyəri yoxdur.

Hz. Nizami deyir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər qarınquludurlar, yəni onlar çalışqan deyillər, onlar ölkəni, xalqı düşünmürlər, onların tənbəlliyi ölkəni xarabaya çevirmiş, yoxsulluq, səfalət və aclıq insanları əldən salmışdır.

Hz. Nizami deyir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər qarınquludurlar, yəni onlar yalançı, acgöz, tamahkar, rüşvətxor və qarətkardırlar. Çünki qarınqulu hökmdarlar və günahkar ruhanilər öz cinayətlərini, fəaliyyətsizliklərini gizləmək üçün yalan danışmağa məcburdurlar.

Şair beytdə yaşadığı dövrün siyasi, sosial, mədəni-əxlaqi vəziyyətini təsvir etmək, beytin başlıca ideyasını – hz. Məhəmmədin (s.a.s) gəlişinin zəruriliyini əsaslandırmaq üçün uyğun anlayışlar seçmişdir. Məsələn, şair beytin birinci misrasında ədalətsiz hökmdarlara və günahkar ruhanilərə qarınqulu demiş, ikinci misrada isə onları qarətkar adlandırmışdır. Aydındır ki, qarınqulu olmaqla qarətkar olmaq arasında sıx bağlılıq var, yəni qarınqulu olan qarətkar, soyğunçu, talançı, rüşvətxor, tənbəl, tamahkar, cahil olmağa məhkumdur. Hz. Nizaminin təqdimatında qarınquluiuq siyasi, sosial,

mənəvi-əxlaqi anlayışdır, bir ölkənin, bir cəmiyyətin çökməsinin səbəbidir.

Şairin təqdimatında qarınquluIuq ədalətsiz hökmdarların və günahkar ruhanilərin həyat tərzidir. Şairə görə, eyş-işrət içində yaşayan bu iki təbəqə amansız cəhalətin qaynağına çevrilmişdir.

Şair beytin ideyasını daha sistemli biçimdə ifadə etmək üçün «ruzi», «pay» («iqta») sözlərindən də istifadə etmişdir. Şairə görə, ədalətsiz hökmdarlar və günahkar ruhanilər uca Allaha (c.c) şükür etməyən təbəqənin nümayəndələridir. Çünki «ruzi», «pay», «nemət» uca Allahın (c.c) bir şəxsə, bir millətə lütfünün göstəricisidir. Böyük islam alimi Əbül-Əla Mövdudi yazır: «… Şükrün belirtisi ihlasla Allahın lütf ettigi nimetlerin kadrini bilmek ve bunu dil ile ikrar edip davranışlarla sergilemektir. Bu da üç şeyi ifade eder: Birincisi, şükür eden kimse kendisine nimet verenin lütfunu iyice degerlendirmeli ve şükürde başkasını Ona ortak kabul etmemelidir. İkincisi, kendisine nimet veren varlığa sevgi ve bağlılık duymalı ve bu tür duyğuları Onun duşmanlarına karşı beslememelidir. Üçüncüsü, kendisine nimet verene itaat etmeli ve Onun istegine aykırı hareketlerde bulunmamalıdır».[396]

Uca Allah (c.c) şükür eden qullarına belə buyurur:

مَّا يَفْعَلُ اللّهُ بِعَذَابِكُمْ إِن شَكَرْتُمْ وَآمَنتُمْ وَكَانَ اللّهُ شَاكِراً عَلِيماً

(ən-Nisa, 4/147)

«Əgər siz şükür etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab versin ki, Allah şükrə qiymət verəndir, (hər şeyi) biləndir»

[396] Əbul-Ala Mevdudi, «Tefhimul - Kuran» («Kuranın anlamı ve tefsiri»), İstanbul, 2005, c. I, s. 422.

Ərəb dilində «şakir» kəlməsi Allah (c.c) nəzərdə tutulanda uca Allahın (c.c) qulunun xidmətlərini qəbul etdiyi anlamına gəlir. Qullar nəzərdə tutulduqda isə qulun verdiyi nemətlər əvəzində Allaha (c.c) şükür etdiyi anlamına gəlir. Allah qullarının Onun yolunda etdiyi xidmətlərin mahiyyətini çox yaxşı bilir və hamısına haqqı olan əvəzi verir, hətta onların haqq etdiyindən daha çox verir. Onun qullarına qarşı münasibəti insanların başqa insanlara olan baxışından fərqlidir. İnsanlar başqa bir insanın etdiyi yaxşılığın (xidmətin) qədrini bilməzlər, onun etdiyi xətanı böyüdərlər. Uca Allah isə rəhməti ilə Onun yolunda çalışan qullarının əməllərini səxavətlə təqdir edər, onların qüsurlarını bağışlayar, onları əfv edər.[397]

Bu şükür etməyən ədalətsiz hökmdarlar, günahkar ruhanilər haram yolla əldə etdikləri qazancları öz nəfslərinin ehtiyaclarını təmin etmək üçün xərcləyirlər. Şairə görə, bu harın təbəqənin azğınlığının qarşısını almağın yolu onların «ruzilərini», «paylarını» azaltmaqdır. Bunu da ancaq hz. Məhəmməd (s.a.s) edə bilər.

**Bu beytdə «ruzi», «pay» («iqta») anlayışları sadəcə qidanı, sərvəti, mal-dövləti təmsil etmir. Şair həm də ədalətsiz hökmdarların və günahkar ruhanilərin hakimiyyətini, onların cəmiyyətin mənəvi-əxlaqi tərbiyəsindəki rolunu nəzərdə tutur.** Şairə görə, ədalətsiz hökmdarların və günahkar ruhanilərin zülmündən qurtarmağın yeganə yolu hz. Məhəmmədə (s.a.s) göndərilmiş ilahi ölçülərin cəmiyyətin əxlaqına, düşüncə və davranışlarına yerləşməsidir.

---

[397] Əbul-Ala Mevdudi, «Tefhimul - Kuran» («Kuranın anlamı ve tefsiri»), İstanbul, 2005, c. I, s. 423.

## ON BİRİNCİ BEYTİN ŞƏRHİ:
## GƏL BİZƏ CAN OL

ما همه جسميم بيا جان تو باش
ما همه موريم سليمان تو باش

*Biz hamımız cismik, gəl bizə can ol,*
*Biz hamımız qarışqayıq, gəl bizə Süleyman ol.*[398]

Bu beyt dördüncü nətin ümumi məzmunu ilə sıx bağlıdır. Şair bu beytdə hz. Məhəmmədin (s.a.s) insan, toplum, insanlıq, bütün yaradılmışlar üçün bir əvəzedilməz nemət, bir zəruri ehtiyac olduğu ideyasını bədii biçimdə vermişdir. Şairə görə, hz. Məhəmməd (s.a.s) olmadan yaradılmışların bir dəyəri yoxdur. Onsuz bütün varlıq ruhu olmayan ölü cisimdir.

Hz. Nizami beytin hər iki misrasında «biz hamımız» birləşməsindən istifadə etmişdir. Bu ifadə hz. Məhəmmədin (s.a.s), uca Allahın Onun vasitəsi ilə göndərdiyi dinin bütün insanlığa aidliyini, islam dəyərlərinin qəbul edilməsinin insanlıq üçün tək çıxış yolu olduğunu əsaslandırmışdır. Şairə görə, insanın ruhsuz yaşaması mümkün olmadığı kimi, cəmiyyət və insanlıq da hz. Məhəmmədin (s.a.s) təqdim etdiyi, buyurduğu dəyərlərsiz yaşaya bilməz.

Əgər öncəki beytlə əlaqə qursaq, bu beytin başqa bir mənası da ortaya çıxar. Şair öncəki beytdə ədalətsiz hökmdarların və günahkar ruhanilərin hakim olduğu cəmiyyətin faciəsindən danışmışdı. **Şair bir sonrakı beytdə demək istəyir ki, ədalətsiz hökmdarların, günahkar ruhanilərin idarə etdiyi cəmiyyət ruhsuz bədən kimidir. Bu mühitdə yaşayan insanlar ruhsuz bədən kimi iylənir, çürüyür, bütün haqsızlıqlara bəraət qazandırır, pisliklərə qarşı**

---

[398] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

**müqavimət gücünü itirir.** Belə bir ölü cəmiyyətin dirilməsi uca Allaha (c.c) və Onun şanlı peyğəmbərinə itaətlə mümkün ola bilər. Yəni islam dini və bu dinin peyğəmbəri insanlıq üçün ruhdur.

Şair beytdə müraciət üslubu seçmişdir. Müraciət üslubu, intonasiyası, bu üsluba uyğun sözlər («gəl», «ol») hz. Məhəmmədin (s.a.s) gəlişinin zəruriliyini əsaslandırmaq üçün geniş imkanlar açmışdır. **Müraciət varsa, ehtiyac və zərurət də var.** Beytin leksik vahidləri («cism», «can», «gəl», «ol», «qarışqa», «Süleyman») elə seçilmişdir ki, hz. Məhəmmədin (s.a.s) gəlişinin zəruriliyi ideyası həm fikir, həm də bədii biçim baxımından tam ifadə olunmuşdur. Şair deyir ki, biz hamımız səni istəyirik, sənə möhtacıq, ey uca Allahın (c.c) şərəfli peyğəmbəri, gəl, bizi bu cəhalətdən qurtar, gəl, bizi ədalətsiz hökmdarların, günahkar ruhanilərin çirkli caynağından xilas et.

Beytdəki «gəl», «ol» felləri xahiş, yalvarış, təkid, ehtiyac, çətinlik mənalarını ehtiva edir. Əmr şəklində verilmiş bu fellər «tələs», «tez ol», «bir an gecikmədən gəl», «artıq dözmək imkanımız, səbir etmək gücümüz yoxdur» kimi ehtiyac və zərurət anlayışlarını bütün gücü ilə ortaya qoyur.

Şair beytin ikinci misrasında hz. Süleyman (s.a.s) peyğəmbərin adını çəkmiş, Onun qarışqa ilə olan əhvalatını yada salmışdır.

Bilindiyi kimi, hz. Süleymana (s.a.s) Qurani-Kərimdə ayrıca yer verilmiş, Onunla bağlı bir sıra əhvalatlar dillərdə dastan olmuşdur.

**Uca Allah (c.c) Quranda buyurur:**

وَدَاوُودَ وَسُلَيْمَانَ إِذْ يَحْكُمَانِ فِي الْحَرْثِ إِذْ نَفَشَتْ فِيهِ غَنَمُ الْقَوْمِ وَكُنَّا لِحُكْمِهِمْ شَاهِدِينَ فَفَهَّمْنَاهَا سُلَيْمَانَ وَكُلّاً آتَيْنَا حُكْماً وَعِلْماً وَسَخَّرْنَا مَعَ دَاوُودَ الْجِبَالَ يُسَبِّحْنَ وَالطَّيْرَ وَكُنَّا فَاعِلِينَ وَعَلَّمْنَاهُ صَنْعَةَ لَبُوسٍ لَّكُمْ

لِتُحْصِنَكُم مِّن بَأْسِكُمْ فَهَلْ أَنتُمْ شَاكِرُونَ  وَلِسُلَيْمَانَ الرِّيحَ عَاصِفَةً تَجْرِي بِأَمْرِهِ إِلَى الْأَرْضِ الَّتِي بَارَكْنَا فِيهَا وَكُنَّا بِكُلِّ شَيْءٍ عَالِمِينَ

(əl-Ənbiya, 21/78-81)

«(Ey Rəsulum!) Davudu və Süleymanı da (yad et)! O zaman onlar bir tayfanın qoyunlarının girib xarab etdiyi bir əkin sahəsi haqqında hökm verdilər və Biz də onların hökmünə şahid idik. Biz onu (məsələnin hökmünü) dərhal Süleymana anlatdıq. Onların hər birinə hökm (hikmət, peyğəmbərlik) və elm (şəriəti dərindən bilmək) verdik. Biz dağları və quşları Davudla birlikdə (Allahı) təqdis edib tərifləsinlər deyə ona ram etdik. Bunları (sizə təəccüblü görünsə də, lövhi-məhfuzdakı əzəli hökmümüzlə) Biz etmişik. Biz (Davuda) sizi (düşmənlə) vuruşda qorumaq üçün zireh (toxumaq) sənətini öyrətdik. (Ey Məkkə əhli! Rəbbinizin bu nemətinə) artıq şəkk edərsinizmi? Əmrlə bərəkət verdiyimiz yerə (Şama) doğru şiddətlə əsən küləyi də Süleymana biz ram etdik! Biz hər şeyi bilənik!»

Uca Quranın bir sıra ayələrində hz. Süleyman (s.a.s) elmli, ədalətli şah, ağıllı hökmdar kimi təqdim edilmişdir:

وَوَرِثَ سُلَيْمَانُ دَاوُودَ وَقَالَ يَا أَيُّهَا النَّاسُ عُلِّمْنَا مَنطِقَ الطَّيْرِ وَأُوتِينَا مِن كُلِّ شَيْءٍ إِنَّ هَذَا لَهُوَ الْفَضْلُ الْمُبِينُ

(ən-Nəml, 27/16)

«Süleyman (peyğəmbərlikdə, elmdə və mülkdə) Davuda varis oldu və dedi: «Ey insanlar! Bizə quş dili öyrədildi və (peyğəmbərlərə, padşahlara nəsib olan) hər şeydən verildi. Bu, həqiqətən, açıq-aşkar bir lütfdür!»

**Hz. Nizaminin nətin on birinci beytində işarə etdiyi hz. Süleyman (s.a.s) və qarışqa əhvalatına da Quranda ayrıca yer verilmişdir:**

حَتَّى إِذَا أَتَوْا عَلَى وَادِي النَّمْلِ قَالَتْ نَمْلَةٌ يَا أَيُّهَا النَّمْلُ ادْخُلُوا مَسَاكِنَكُمْ لَا يَحْطِمَنَّكُمْ سُلَيْمَانُ وَجُنُودُهُ وَهُمْ لَا يَشْعُرُونَ فَتَبَسَّمَ ضَاحِكاً مِّن قَوْلِهَا وَقَالَ رَبِّ أَوْزِعْنِي أَنْ أَشْكُرَ نِعْمَتَكَ الَّتِي أَنْعَمْتَ عَلَيَّ وَعَلَى وَالِدَيَّ وَأَنْ أَعْمَلَ صَالِحاً تَرْضَاهُ وَأَدْخِلْنِي بِرَحْمَتِكَ فِي عِبَادِكَ الصَّالِحِينَ

(ən-Nəml, 27/18-19)

«(Bir gün) Süleymanın cinlərdən, insanlardan və quşlardan ibarət qoşunu toplandı. Onlar cərgə-cərgə düzülüb (nizamla) gedirdilər. Nəhayət, onlar (Taifdəki, ya da Şamdakı) qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa (qarışqaların padşahı) dedi: «Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və ordusu özləri də bilmədən sizi (ayaqları altında) basıb əzməsinlər!». Süleyman qarışqanın bu sözündən gülümsəyib dedi: «Ey Rəbbim! Mənim özümə və ata-anama ehsan buyurduğun nemətə şükür etmək, Sənin razı qalacağın yaxşı iş görmək üçün ilham (qüvvət) ver! Məni öz mərhəmətinlə saleh bəndələrinin zümrəsinə daxil et!»[399]

Qurani-Kərimdə uca Allahın (c.c), hz. Süleymana (s.a.s) böyük nemətlər verdiyi, onu başqalarından üstün etdiyi, Onun da bu nemətlərdən yararlanaraq peyğəmbərlik və hökmdarlıq vəzifələrini ədalətlə yerinə yetirdiyini açıq bir üslubla ifadə edilir.

**Təfsirçilərə görə**, «…Bize kuş dili ögretildi» mealindeki cümle hz. Süleymanın ilahi bir mucize olarak kuşların dilini öğrendiyini ifade eder. Süleyman kuşların yalnız sesleri ve ya hareketleriyle ifade ettikleri duyğu ve egilimlerini anlamakla kalmıyor, o duyğuları idare eden ilahi yasaları da biliyordu. Böylece onların öterek Allah Tealayı tesbih ve tazim ettiklerini

---

[399] Qurani-Kərimin bu ayələrində hz. Süleymanla bağlı bilgi verilmişdir: «əl-Bəqərə», 2/102; «ən-Nisa», 4/163; «əl-Ənam», 6/84, «əl-Ənbiya», 21/78-82; «ən-Nəml», 27/1-5; 16-18, 30, 36, 44; «Səbə», 34/12-21; «Sad», 38/30-40.

anladığı gibi, onları idaresi altına alarak has teşkilatıyla ordusunda hizmette de kullanıyordu».[400]

**Təfsir alimlərinə görə,** «… Bize her şeyden gerektigi kadar verildi» cümlesi verilen nimetlerin çokluğunu, yani sahip olduğu ilim, hikmet, peygamberlik ve malı: cinler, insanlar, kuşlar, rüzgarlar, evcil ve yabani hayvanlara hükm edebilmeyi, göklerde yer arasında kendisine ihtiyac duyulan her şeyi ifade eder…».[401]

Hz. Nizami beytdə uca Allahın (c.c), hz. Süleymana (s.a.s) böyük nemətlər verdiyinə işarə etməklə yanaşı Onun qarışqa ilə olan münasibətinə ayrıca diqqət yetirmişdir. Təfsir alimlərinə görə «…Karınca vadisi Şam bölgesinde ve ya Taifte, yahut Yemende karıncası çok olan bir yerin adı olduğu bildirilmektedir. Bununla birlikte, böyle muayyen bir mekan olmayıp çok sayıda karıncanın bulunduğu herhangi bir yer de ola bilir. Ayet, toplu halde yaşadığı bilinen karıncaların aynı zamanda bir topluluk düzeni içinde hareket ettiklerini de ifade eder. Süleyman üç sınıftan oluşan ordusunu düzenli bir şekilde yönetirken Karınca vadisi denilen yere gelmiş ve burayı geçerken de karıncaların başkanının onlara verdiyi emri işitmiş, anlamış ve neşelenerek gülümsemiş, bütün bu nimetlerden dolayı Rabbine şükür ve niyazını arz etmişdir».[402]

Hz. Süleyman (s.a.s) ilə qarışqanın misalı sonralar dillərdə dastan olmuş, fərqli biçimlərdə və ayrı-ayrı məqsədlərlə təqdim edilmişdir. Məsələn, «Süleyman şah və qarışqa» nağılında deyilir.

**Süleyman şah və qarışqa**

---

[400] Elmalılı Hamdi Yazır, «Hak Dini Kuran Dili», Tefsir, c. V, s. 3665-3666.
[401] Şevkani, c. IV, s. 125.
[402] «Kuran Yolu», (Türkçe meal ve tefsir), c. IV, Ankara, 2004, s. 191.

Bir gün Süleyman şah qoşunu ilə yoldan keçirdi. Gördü ki, yolun üstündə bir qarışqa durub. Süleyman şah elə bildi ki, qarışqanın ondan bir diləyi var. Şah qarışqadan soruşdu:

- A qarışqa, burda niyə durubsan? Olmaya məndən bir diləyin var?

Qarışqa dedi:

- Dünyaya gəlib-gedən Süleymanları saymaq üçün burda durmuşam.

Süleyman şah dedi:

- Dünyaya neçə Süleyman gəlib, gedib?

Qarışqa dedi:

- Sənlə yetmiş Süleyman.

Süleyman soruşdu:

- Bunu nə bilirsən?

Qarışqa dedi:

- Ağılla, bacarıqla, qənaətimlə.

Süleyman dedi:

- Ağıllı olduğunu nədən bilim?

Qarışqa dedi:

- Başımın yekəliyindən.

Süleyman şah soruşdu:

- Bacarıqlı olduğunu nədən bilim?

Qarışqa dedi:

- Əl-ayağımın çevikliyindən.

Süleyman şah soruşdu:

- Qənaətini nədən bilim?

Qarışqa dedi:

- Belimin nazikliyindən.

Süleyman dedi:

- Sən necə qənaət eləyə bilərsən?

Qarışqa dedi:

- Mən bir buğda ilə yeddi il dolana bilərəm.

Süleyman şah dedi:

- Qarışqa, sənin bu sözlərini sınayacağam. Dediklərin doğru çıxdı, nə istəsən sənə verəcəyəm, yalan çıxdı, səni öldürəcəyəm.

Qarışqa dedi:

- Mənim sözlərim doğrudur. Sınaya bilərsən.

Süleyman şah qarışqanı götürdü, şəhərə gəldilər. Süleyman şah qarışqanı bir şüşənin içinə qoydurdu, yanına da bir buğda saldırdı. Şüşənin ağzını bərk-bərk müşəmmələtdi, sonra göydən asdırdı.

Nağıllarda vaxt tez gələr. Süleyman şahın başı kefə qarışdı, günlər gəlib keçdi. Birdən şah yadına saldı ki, qarışqanı şüşəyə saldığı vaxtdan yeddi il keçib. Adamlarına dedi:

- Qarışqanı buraya gətirin.

Qarışqanı şahın hüzuruna gətirdilər. Süleyman şah şüşənin ağzını açdırdı. Gördü qarışqa o gördüyü kimidi, sağ-salamatdı. Buğdanın da hələ üçdə biri durur. Süleyman şah ondan soruşdu:

- A qarışqa, bu buğdanın üçdə birini niyə yeməyibsən?

Qarışqa dedi:

- Süleyman şah bir əhlikef adamdı. Qorxdum ki, yeddi ildən sonra da yadına düşməyəm, acından öləm. Ona görə də, buğdanın üçdə birini saxladım.

Süleyman şah dedi:

- Qarışqa, bu sözün doğru çıxdı. İndi bacarığını sınayacağam. Bir xırman taxılı nə vaxta yuvana daşıya bilərsən?

Qarışqa dedi:

- Mənə toxunan olmasa bir gündə.

Süleyman şah qarışqanı bir xırman taxılın üstünə buraxdı, əmr verdi ki, ona toxunan olmasın. Qarışqa taxılı yuvasına daşımağa başladı. O gün keçdi. Səhəri gün Süleyman şah gəldi, gördü bir dənə də taxıl qalmayıb, dedi:

- Qarışqa, bu sözün də doğru çıxdı. İndi sənin ağlını sınayacağam. Get hazırlaş, sabah qoşunumla sənə qonaq gələcəyəm.

Qarışqa yuvasına getdi. Qarışqaların hamısını çağırdı. Süleyman şah üçün hər nə lazım idi, hazır elədilər. Sabah açılan kimi Süleyman şah atını minib qarışqaya qonaq gəldi. Qarışqa Süleyman şahı qarşıladı. Şah atdan düşdü. Qarışqa yoldaşlarına dedi:

- Atları tövlələrə çəkin.

Qarışqalar atları tövlələrə çəkdilər. Bu qarışqa özü də Süleyman şahla qoşununu evə apardı. Qonaqlar xalı üstündə oturdular.

Qarışqa dedi:

- Xörək gətirin.

Qarışqalar gümüş, qızıl sinilərdə buğlana-buğlana yağlı plov gətirib qonaqların qabaqlarına qoydular. Qonaqlar ləzzətli aşdan yeyib doydular.

Süleyman şah dedi:

- Qarışqa, yaxşı qonaqlıq verdin. Səndən razı oldum. Dur bir sənin cahi-cəlalına tamaşa eləyək.

Qarışqa dedi:

- Onda sən ixtiyar üzüyünü mənə ver. Burdan qayıdanacan məndə qalsın. Bura mənim mülkümdü. Sənin burda hökm eləməyə ixtiyarın yoxdu.

Süleyman şah dedi:

- Verərəm, bu şərtlə ki, gərək itirməyəsən. Burdan çıxanda yenə özümə qaytarasan.

Qarışqa dedi:

- Ver, qorxma, mən əmanət saxlamaqda qoçağam.

Süleyman şah üzüyünü qarışqaya verdi. Qarışqa üzüyü alıb getdi, yenə tez geri qayıdıb dedi:

- İndi dur gedək, mənim cahi-cəlalımı gör.

Süleyman şah durub qarışqa ilə getdi. Gördü burda buğda bir yanda tığlanıb, arpa bir yanda, darı bir yanda, düyü bir yanda. Hər yana baxırsan anbar-anbar taxıldı. Atların qabağında arpa dağ kimi qalanıb. Qarışqalar yerə tökülən taxılı dənə-dənə götürüb anbarlara daşıyırlar. Süleyman şah qarışqa ilə birlikdə başqa bir dama girdi. Gördü bu dam da ağzına kimi yaraqla doludu. Hər yandan nizə, ox asılıb. Qılınclar baş-başa çatılıb. Qalxanlar üst-üstə qalaq-qalaq yığılıb.

Süleyman şah burdan keçib başqa bir dama girdi. Gördü bu dam ləl-cəvahiratla doludu. Ordan da keçib axırıncı dama girdi. Gördü bu dam da üzüklə doludu. Süleyman şah baxıb-baxıb dedi:

- Qarışqa, sənə Süleyman ixtiyarı, dövlət nə lazım, özün elə bir Süleymansan. Ver mənim ixtiyar üzüyümü gedim.

Qarışqa dedi:

- Hara gedirsən? Əhdinə vəfa elə. Bir üzük nədi ki, onu dilə gətirirsən. Axtar bu üzüklərin içindən öz üzüyünü tap götür.

Süleyman şah əyildi ki, üzüyünü tapsın, götürsün, baxdı ki, bütün üzüklərin qaşında Süleyman yazılıb, hamısı da bir-birinə oxşayır. Dedi:

- Qarışqa, bu üzüklərin hamısı Süleyman adınadı. Bunları hardan yığıbsan?

Qarışqa dedi:

- A Süleyman şah, sən bircə özünü görürsən. Mən isə bunları Süleymanların yer-yurdundan yığmışam.

Süleyman şah qarışqaya dedi:

- Görünür, yaşın çoxdu?

Qarışqa dedi:

- Dünyaya görə hələ cavanam.

Süleyman şah dedi:

- Qarışqa, sənin dostun kim, düşmənin kimdi?

Qarşıqa dedi:

- Mənim dostum torpaq, düşmənim sözündə doğru olmayanlardı.

Süleyman şah dedi:

- Qarışqa, mən sözümdə doğruyam. De görüm, sözlərinin doğruluğuna görə məndən nə istəyirsən?

Qarışqa dedi:

- Səndən heç nə istəmirəm, bircə bizim nəsildən xərac alma.

Süleyman şah dedi:

- Bundan sonra sizin nəslə xərac yoxdu. Mənim ixtiyar üzüyümü tap, ver gedim.

Qarışqa Süleyman şahın ixtiyar üzüyünü tapdı, özünə verdi. Süleyman şah atlandı, qarışqa ilə xudahafizləşib qoşunu ilə çıxıb getdi.

## NİZAMİYƏ GÖRƏ ƏDALƏTLİ CƏMİYYƏTİN ÖLÇÜLƏRİ

**«Süleyman şah və qarışqa» nağılında bir neçə ciddi məsələyə toxunulmuşdur. Öncə, bu nağılın ideyasının Qurani-Kərimdə hz. Süleymanla (s.a.s) bağlı anladılan ayələrlə sıx bağlı olduğu göz önündədir. Hz. Süleymanla (s.a.s) qarışqanın münasibətində verilən birinci ideya odur**

**ki, uca Allahın (c.c) insana verdiyi ən böyük nemət ağıldır. İnsan və konkret olaraq hökmdar bu nemətdən doğru yararlanmalıdır, onun hesabını verəcəyi düşüncəsində olmalıdır. Nağılın bizə verdiyi ideyaya görə, hökmdar bacarıqlı olmalıdır. O, ölkəni ədalətlə idarə etməli, bilik, ağıl və bacarığını ölkənin və insanın inkişafına yönəltməlidir.**

**Nağılın verdiyi ideyaya görə**, hökmdarlar və bütün insanlar qənaətcil olmalıdırlar. İsrafçılıq islam düşüncəsinə, müsəlman insanın xarakterinə və islamın ədalətli dövlət anlayışına uyğun deyil. Hökmdarlar və insanlar bütün şərtləri nəzərə alıb qənaətlə yaşamalı və uca Allahın (c.c) verdiyi nemətlərdən ona şükür edərək ehtiyaca uyğun istifadə etməlidirlər. Çünki qənaətin ölçüsü ehtiyacdır. Qənaət, kasıbçılıq problemini həll etməyin ən gözəl və doğru yoludur.

**Nağılın bizə verdiyi ideyanın biri də budur ki, hökmdarlar və bütün insanlar səbirli olmalıdırlar.** Onlar bütün işləri vaxtında (yəni səbirlə) və ilahi buyruqlara uyğun yerinə yetirməklə uğur qazana bilərlər.

**Nağılın bizə verdiyi ideyaya görə, ədalətli idarəçiliyin əsaslarından biri sınamaqdır.** Hökmdar idarəçilik verdiyi insanları müxtəlif sınaqlardan keçirməlidir.

**Nağılın bizə verdiyi ideyaya görə, hökmdar ölkənin, vətəndaşların təhlükəsizliyi üçün ehtiyat ərzaq, silah və başqa zəruri şeylər toplamalıdır.**

Nağıl hökmdar əxlaqı ilə bağlı ölçülər də müəyyən etmişdir. Bu ölçüyə görə, hökmdar ədalətli, doğruçu, vətəndaşlarının səsinə qulaq asan, bütün işlərini məsləhətlə həll edən, başqalarının rəyinə hörmət edən bir şəxs olmalıdır. Nağılın ideyasına görə, hökmdarın düşməni «sözünə doğru olmayanlardır».

Əgər Qurani-Kərimdə hz. Süleymanla (s.a.s) bağlı olan ayələrdə buyurulmuş ideyaları, hz. Süleymanla (s.a.s) bağlı ayrı-ayrı nağıl və rəvayətlərdə irəli sürülmüş ideyaları hz. Nizaminin beytinin hədəfi ilə tutuşdursaq, tam bir uyğunluq görərik. Nəyə görə hz. Nizami bu beytdə hz. Süleymanın (s.a.s) adını çəkmiş, onun qarışqa ilə olan əhvalatına toxunmuşdur? **Bu bir neçə səbəblə bağlıdır. Hər şeydən öncə onu deməliyik ki, hz. Nizaminin nəti bütöv bir sistemdir, beytlər bir-biri ilə sıx bağlıdır. Şair öncəki beytlərdə pozulmuş, ölkəni xaraba qoymuş, vətəndaşını zülm altında saxlayan hökmdarları tənqid edir, onları öz mənfəətlərini düşünməkdə, ölkəni çapıb-talamaqda ittiham edir, onlara «evdə yaşayan cinlər», «qarınqulu» deyir, onları «qarətkar» adlandırır.**

Şair hz. Məhəmmədi (s.a.s) bir ehtiyac, bir zərurət kimi köməyə çağırır, Onun gəlişini murdar hökmdarlardan qurtuluş yolu kimi təqdim edir. Belə bir anda şair «evdə yaşayan cin», «qarınqulu», «qarətkar» adlandırdığı hökmdarlara alternativ olan ədalətli hz. Süleymanı (s.a.s) yada salır.

Şair deyir ki, ey Məhəmməd (s.a.s) biz qarışqayıq, gəl, bizə Süleyman ol. **Yəni hz. Süleyman (s.a.s) ədalətli, ağıllı, ölkəsini ilahi buyruqlara uyğun idarə edən bir hökmdar olduğu üçün qarışqanın dilini belə anladı, onu başa düşdü. İndiki hökmdarlar insanı anlamırlar. Ey Məhəmməd (s.a.s), gəl və bizi anla, dinlə, ölkəni Süleyman kimi idarə et. Şairin təqdimatında hz. Süleymanın (s.a.s) adı və idarəçiliyi bir ölçüdür. O, bu ölçü ilə zamanının hökmdarlarına qiymət verir.**

Hz. Nizamiyə görə, hz. Süleyman (s.a.s) qarışqanın dilini anladığı kimi, hz. Məhəmməd də (s.a.s) ümmətinin dilini anlayır, onu başa düşür, ona dəyər verir.

Hz. Süleyman (s.a.s) həm də bir hökmdardır. Şair onun bu yönündən də yararlanır. Bir peyğəmbər, bir hökmdar olan hz. Süleymanın idarəçilik anlayış və ölçülərini şair nümunə olaraq göstərir.

Şairin təqdimatında qarışqa bir nizamı, bir sistemi təmsil edir. Əxlaqa əsaslanan dövlət də qarışqa kimi nizam içində çalışmalı, hər kəs üzərinə düşən işi yerinə yetirməlidir.

Hz. Nizamiyə görə, «evdə yaşayan cinlər» - ədalətsiz hökmdarlar və «günahkar ruhanilər» cəmiyyəti, insanları ruhsuz cismə, Süleymansız qarışqaya çevirmişlər. Bu ölmüş, ruhsuz cismi diriltmək, hz. Süleyman (s.a.s) mülkünün ədalətini bərpa etmək üçün hz. Məhəmmədin (s.a.s) gəlişi bir zərurətdir.

Şairə görə, O, bizim üçün bir dirilik qaynağı olan ruhdur. Şair deyir ki, biz hamımız cismik, gəl bizə can ol (ruh ol).

Hz. Nizami beytdə hz. Məhəmmədin (s.a.s) zəruriliyini anlatmaq üçün ruh anlayışından istifadə etmişdir. Şairə görə, ruh candır, nəfəsdir, gücdür, qəflət içində olan insanı, ölmüş, çürümüş toplumu yenidən dirildəcək – quracaq əvəzedilməz qidadır. Hz. Nizaminin təqdimatında, beyt içində ruh həm də maddiyyatçı anlayışın, mənfəətpərəst düşüncəsinin əksidir. Belə ki, şair bu beytin ideya, söz, anlayış seçimini öncəki beytlərin əksi kimi düşünmüşdür.

Baxın, öncəki beytlərdə «evdə yaşayan cinlər», «günahkar ruhanilər», «qarınqulu», «qarətkar», «yoxluq zirzəmisi» anlayışları var. Bu sözlərin hamısı özündən başqa bir kimsəni düşünməyən hökmdarların əlamətlərini bizə tanıdır. Onların başçısı olduğu cəmiyyətdə ədalətsizlik və nizamsızlıq var. Şair bu beytdə isə ədalətsiz hökmdarların

ziddi olan hz. Süleymanı (s.a.s) xatırlayır, qarışıqlıq yerinə «qarışqa nizamı» təklif edir, bu sistemi quracaq güc olaraq hz. Məhəmmədi (s.a.s) göstərir. Ölmüş, çürümüş cəmiyyətin əksi olan, yoxluq anlayışının ziddi sayılan «ruh» - dirilik qavramını beytin mətninə daxil edir.

Şairə görə, hz. Məhəmməd (s.a.s) ölmüş canlara dirilik bəxş edən bir ruhdur. Şairə görə, ruh bədənin ziddidir, insanın mənəvi cövhəridir, onu insan edən, onu başqalarından ayıran, seçən nemətdir.

Bilindiyi kimi, «ruh» anlayışı Qurani-Kərimdə başlıca olaraq üç mənada işlədilmişdir. **Qurana görə, «ruh» Cəbrail anlamındadır:**

وَلَقَدْ آتَيْنَا مُوسَى الْكِتَابَ وَقَفَّيْنَا مِن بَعْدِهِ بِالرُّسُلِ وَآتَيْنَا عِيسَى ابْنَ مَرْيَمَ الْبَيِّنَاتِ وَأَيَّدْنَاهُ بِرُوحِ الْقُدُسِ أَفَكُلَّمَا جَاءكُمْ رَسُولٌ بِمَا لاَ تَهْوَى أَنفُسُكُمُ اسْتَكْبَرْتُمْ فَفَرِيقاً كَذَّبْتُمْ وَفَرِيقاً تَقْتُلُونَ

(əl-Bəqərə, 2/87)

«(Ey İsrail övladı!) Biz Musaya kitab («Tövrat») verdik, ondan sonra da bir-birinin ardınca peyğəmbərlər göndərdik. Məryəm oğlu İsaya aşkar möcüzələr (dəlillər) bəxş etdik və onu müqəddəs ruhla (Cəbraillə və ya ismi-əzəmlə) qüvvətləndirdik. Hər dəfə siz ürəyinizə yatmayan bir şey (əmr, buyruq) gətirən peyğəmbərə təkəbbür göstərmirdinizmi? Məhz buna görə də onların bir qismini təkzib etdiniz, bir qismini isə öldürdünüz (Zəkəriyyə və ya Yəhya kimi)».[403]

**Qurana görə, «ruh» vəhy anlamındadır:**

رَفِيعُ الدَّرَجَاتِ ذُو الْعَرْشِ يُلْقِي الرُّوحَ مِنْ أَمْرِهِ عَلَى مَن يَشَاءُ مِنْ عِبَادِهِ لِيُنذِرَ يَوْمَ التَّلَاقِ

[403] Geniş bilgi üçün baxın: «Məryəm», 19/17; «Şüəra», 26/193; «Məaric», 70/4; «Qədr», 97/4.

(əl-Mumin, 40/15)

«Dərəcələri yüksəldən (mələklərin, peyğəmbərlərin, övliyaların və möminlərin mərtəbələrini ucaldan, ya da hər şeydən uca), ərşin sahibi Allah öz əmrindən olan vəhyi bəndələrindən istədiyinə nazil edir ki, (o, insanları) görüş günü (yer və göy əhlinin, ibadət edənlə ibadət olunanın, zalımla məzlumun bir-biri ilə görüşəcəyi, ruhla bədənin qovuşacağı qiyamət günü ilə qorxutsun)».[404]

**Qurana görə, «ruh» canlılara həyat verən gücdür, insanın cövhəri və əsasıdır:**

وَالَّتِي أَحْصَنَتْ فَرْجَهَا فَنَفَخْنَا فِيهَا مِن رُّوحِنَا وَجَعَلْنَاهَا وَابْنَهَا آيَةً لِّلْعَالَمِينَ

(əl-Ənbiya, 21/91)

«(Ey Rəsulum!) İsmətini (bəkarətini) qoruyanı da (Məryəmi də yad et!). Biz Öz ruhumuzdan (Özümüzün yaratdığımız ruhdan Cəbrail vasitəsilə) ona üfürdük, onu və oğlunu (atasız doğulmuş İsanı) aləmlər (mələklər, bütün insanlar və cinlər) üçün bir möcüzə etdik».[405]

**Hz. Nizami ruhu bədəndən ayrı, ondan üstün bir varlıq kimi açıqlamış, hz. Məhəmmədi (s.a.s) ruha bənzədərək onsuz, onun gətirdiyi ilahi buyruqlarsız cəmiyyətin ölü, cansız varlıq olduğunu göstərmişdir.**

**Şairə görə, «ruh» insanın, cəmiyyətin kimliyini, xarakterini müəyyən edir.** Ruhu olan varlıq əxlaqi və hüquqi məsuliyyət daşıyır. İnsanın biliyi, iradəsi, yaddaşı, seçmək azadlığı birbaşa ruhla bağlıdır, bədəni yönəldən, onu idarə edən ruhdur. İnsanın fiziki baxımdan ondan üstün olan varlıqlardan daha güclü olmasının səbəbi də onun ruhunun olmasıdır. Ruhun gücü ilə insan ağlından istifadə edir,

---

[404] Geniş bilgi üçün baxın: «Nəhl», 16/2; «Şura», 42/52.

[405] Geniş bilgi üçün baxın: «İsra»; 17/85, «Təhrim», 66/12; «Nisa», 4/1, 171.

düşünür, seçir, qərar qəbul edir. Ruh bədəni tərk edən kimi insan ölür.

Şairin düşüncəsinə görə, islam peyğəmbəri cəmiyyətin varlığındakı ruhdur. O pak ruh, o cəmiyyəti idarə edən, onu yaşadan ilahi ölçülər bədəni – toplumu tərk etdiyindən insanlıq çürümüşdür. Şairə görə, bu ölmüş cismin dirilişi o pak ruhun – mübarək hz. Məhəmmədin (s.a.s) qayıdışına bağlıdır. Şair Ona üz tutur, insanlığın ədalət, azadlıq, mərhəmət, sevgi ehtiyacını dilə gətirir:

***«Biz hamımız cismik, gəl, bizə can ol».***

Bizə görə, bu, hz. Nizaminin insanlığa verdiyi bir ölçüdür. Yəni bir cəmiyyətin azadlıq, sevgi, barış içində yaşaması, fitrətinə uyğun çalışması hz. Məhəmmədin (s.a.s) gətirdiyi ilahi ölçülərə bağlıdır. Bu ölçülərdən imtina ruhun bədəni tərk etməsi - yəni ölüm deməkdir.

## ON İKİNCİ BEYTİN ŞƏRHİ: DİNİN (ALTINDAN) YARĞAN AÇIRLAR

از طرفی رخنه دین میکنند
وز دگر اطراف کمین میکنند

***Bir tərəfdən dinin (altından) yarğan açırlar***
***(Yəni dində qarışıqlıq salırlar)***
***Digər tərəfdən pusqu qururlar.***[406]

Hz. Nizami bu beytdə də cəmiyyətin əxlaqını pozan, yalnız öz mənfəətlərini düşünən hökmdarlarla, «minbərləri günaha batıran» ruhaniləri bir yerdə təqdim etmişdir. Şair onların pis əməllərini göstərmək üçün «dinə rəxnə (qarışıqlıq) salmaq», «pusqu qurmaq» kimi anlayışlardan istifadə etmişdir.

Bizə görə, hz. Nizami bu anlayışları seçməklə ədalətsiz hökmdarların və günahkar ruhanilərin əsl hədəflərini dəqiq göstərmişdir. **Belə ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər insanları istədikləri kimi, öz çıxarlarına uyğun idarə etmək, ölkəni çapıb-talamaq istəyirlər. Bu hədəfi gerçəkləşdirmək üçün isə öncə insanları iradəsiz köləyə çevirmək lazım idi. O dövrün hakim düşüncəsi islam dini olduğundan ədalətsiz hökmdarlar və günahkar ruhanilər öncə «dinə rəxnə (qarışıqlıq) saldılar», «dinin altından yarğan açdılar», yəni insanların gerçək islam anlayışını dəyişdirdilər, islam sarayının altından yarğan açaraq onu uçurdular.**

İnsanın bir məsələ, o sıradan dinlə bağlı düşüncəsi yanlış olanda onun məsələ ilə bağlı münasibəti də yanlış olur. Nəticədə, yanlış düşüncəli insanın fitrəti pozulur, o ya fanatikə, ya da din düşməninə çevrilir. Öz gerçək dəyərlərini itirmiş insan isə artıq kölədir, onu idarə etmək, onu soyub-

---

[406] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

talamaq, onun ölkəsini xaraba qoymaq asandır. Dinə qarışıqlıq salan ədalətsiz hökmdarların və günahkar ruhanilərin əsl məqsədi də elə budur.

Şair ədalətsiz hökmdarların və günahkar ruhanilərin dinə qarışıqlıq salmaq cəhdini önə çəkmişdir. **Bu onunla bağlıdır ki, insanı və cəmiyyəti köləlikdən qoruyan ən önəmli dəyərlər dinə və milli düşüncəyə bağlıdır. Sağlam din düşüncəsinə və gerçək milli dəyərlərə bağlı olan insanı köləyə çevirmək olmaz.**

Şair dinə qarışıqlıq salmaq deyəndə daha nələri nəzərdə tutur və ədalətsiz hökmdarlar, günahkar ruhanilər bunu necə etmişlər? Cəmiyyəti idarə edən ədalətsiz hökmdarlar din sarayını uçurtmaq üçün öncə onun altını qazdılar, yəni insanların sağlam din düşüncəsini pozdular. Onlar öncə saxtakar, yalançı, elmsiz din xadimləri yetişdirdilər, onları önə çəkdilər, vəzifə, rüşvət verdilər, onlara geniş imkanlar yaratdılar. Bu «günahkar ruhani»lər məscidlərdə, məclislərdə xalqa təhrif olunmuş din təqdim etdilər, həm namaz qıldılar, həm də rüşvət aldılar. Bu yolla da din insanların gözündən düşdü. İnsanlara gerçək din öyrədilmədi, nəticədə cəhalət baş qaldırdı.

**Dinə rəxnə (qarışıqlıq) salmaq o deməkdir ki, ədalətsiz hökmdarlar və günahkar ruhanilər dinin əsaslarını, ehkamlarını dəyişdirdilər, dində olmayan şeyləri din adına yazdılar və danışdılar. Bu iki təbəqə yalançı məzhəblər, təriqətlər yaratdılar, dini ayrı-ayrı qruplar arasında savaş meydanına çevirdilər. Onlar cəhalətin, xurafatın yolunu açdılar, insan və cəmiyyətin sağlam Allah (c.c) inancını pozdular. Onların təşviqi ilə cadugərlər, sehrbazlar cəmiyyətin əxlaqını yönəldən qüvvəyə çevirildilər. Nəticədə, dini və milli kimliyini unutmuş, cəhalət və xurafatın caynağında can verən bir kütlə – kütlə cəmiyyət yarandı. Dinə**

**rəxnə salmağın, din sarayının altından yarğan açmağın acı nəticəsi budur.**

Şair beytin birinci misrası ilə ikinci misrası arasında ideya, məna və forma baxımından gözəl əlaqə yaratmışdır. Belə ki, birinci misrada ədalətsiz hökmdarların və günahkar ruhanilərin altından yarğan açaraq uçurtduqları din sarayı, bu sarayın uçuqları altında qalmış insanlar göz önündə canlandırılmış (yəni insanların, cəmiyyətin sağlam din düşüncəsi pozulmuş və o köləyə çevrilmişdir), insanların ədalətsiz hökmdarların və günahkar ruhanilərin qurduğu tələyə, pusquya düşdüyü təsvir edilmiş, ikinci misrada isə bu iki təbəqənin pusqu qurmasından xəbər verilmişdir.

**Şairin təqdimatında ədalətsiz hökmdarlar və günahkar ruhanilər zalım ovçu kimi təsvir edilmişdir. Min fəsad törədərək dinə qarışıqlıq salanlar insanları tələyə salmış, onları köləyə çevirmiş, onların hərəkət etmək və düşünmək imkanlarını əlindən almış, sonra da pusqudan çıxaraq onları parçalamışlar.**

Şairə görə, uçurulmuş din sarayının altında qalaraq bağıran, tələyə düşərək can verən insanları bu dardan, bu ölüm pəncəsindən xilas edə biləcək yeganə şəxs islamın nurlu peyğəmbəri hz. Məhəmməddir (s.a.s).

Şair bu beytdə hz. Məhəmmədin (s.a.s) gəlişinin zəruriliyi ideyasını fikir və poetik biçim baxımından gözəl təqdim etmiş, uyğun sözlər seçmiş və canlı bir səhnə yaratmışdır. Şairin təsvirində ədalətsiz hökmdarlar, günahkar ruhanilər əllərində külüng din sarayının altından yarğan açırlar, bu saray uçur, insanlar binanın altında can verirlər, pusquda duran bu iki təbəqənin adamları tələyə yaxınlaşıb onları yemək istəyirlər. Belə bir anda o dara düşmüş insanlar və şair, hz. Məhəmmədi (s.a.s) yardıma çağırır.

## ON ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ: ORDUNUN MƏRKƏZİ SƏNSƏN

شحنه توئی قافله تنها چراست
قلب تو داری علم آنجا چراست

*Şihnə (Şəhnə) sənsən, bəs karvan niyə başsızdır?*
*(Ordunun) mərkəzi sənsən, bəs nə üçün bayraq oradadır?*[407]

Hz. Nizami bu beytdə də islam peyğəmbərinə müraciət üslubunu seçmişdir. Bu üslub şairə ideyasını şərh etmək üçün iki imkan yaratmışdır. Şair bir yandan bu üslubla hz. Məhəmmədin (s.a.s) yoxluğunu ifadə etmiş, başqa yöndən isə Ona olan ehtiyacı dilə gətirmişdir. Şair hz. Məhəmmədin (s.a.s) yoxluğunu və Ona olan ehtiyacı ifadə edərkən müraciət üslubunu daha da gücləndirmək məqsədilə sual əvəzliklərindən (çera? – niyə? nə üçün?) yararlanmışdır. **Beytin mətnində sual əvəzlikləri yoxluq və ehtiyac anlayışlarını gözəl ifadə etmişdir. Şair bu sual əvəzlikləri ilə gücləndirdiyi müraciətdə suallarına cavab axtarır, heyrətini bildirir, qorxusunu, həsrətini təqdim edir.**

Hz. Nizami bu beytdə hz. Məhəmmədə (s.a.s) olan ehtiyacı ifadə etmək məqsədilə misralardakı sözləri diqqətlə seçmişdir. O, «şihnə» - başçı, «karvan», «ordu», «mərkəz», «bayraq» kimi sözləri beytin mətninə yerləşdirərək ideyaya uyğun forma seçmişdir. Bu anlayışların, sözlərin sadəcə yan-yana düzülməsi rəhbər, lider, ümmətə, millətə yol göstərən insan düşüncəsi yaradır. **O, öndərdir, O, karvanın başçısıdır, O, ordunun sərkərdəsidir, Onun bayrağı var. Hz. Nizamiyə görə,** ölkə, şəhər o vaxt əmin-

[407] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

amanlıq içində yaşayar ki, hz. Məhəmməd (s.a.s) bu ölkənin başçısı olsun, karvan o zaman təhlükəsiz mənzilinə çatar ki, hz. Məhəmməd (s.a.s) karvan başçısı olsun, ordu o zaman yenilməz olur ki, onun sərkərdəsi hz. Məhəmməd (s.a.s) olsun, ordunun bayrağı onun əlində dalğalansın.

**Şair bu əzəmətli mənzərənin əksi olan bir səhnə yaradır. Yəni ölkə, dövlət var, ancaq ədalətli başçı hz. Məhəmməd (s.a.s) yoxdur, karvan var, ancaq doğru yol göstərəcək hz. Məhəmməd (s.a.s) yoxdur, ordu var, ancaq bu ordunu zəfərə aparacaq sərkərdə hz. Məhəmməd yoxdur.**

Şairə görə, ədalətsiz hökmdarların və günahkar ruhanilərin, «evə girmiş cinlərin» ölkəni qarət etmələrinin səbəbi də hz. Məhəmmədin (s.a.s) yoxluğudur.

Hz. Nizamiyə görə, hz. Məhəmmədin (s.a.s) başçı, onun ölçülərinin hakim olmadığı bir cəmiyyət başsız karvandır, bu karvan təhlükəsizliyini, yolunu, hədəfini itirmişdir, bu karvan quldurların («evə girmiş cinlərin», «ədalətsiz hökmdarların», «günahkar ruhanilərin») yemi olmağa məhkumdur.

Hz. Nizamiyə görə, hz. Məhəmmədin (s.a.s) başçı, onun ölçülərinin, nizamının hakim olmadığı cəmiyyət sərkərdəsi olmayan ordudur. Bu ordu dağılmağa, məğlubiyyətə məhkumdur.

Karvanı qarət edilmiş, ölkəsi xaraba qalmış, ordusu dağılmış bir ölkədə yaşayan şair islam peyğəmbərinə üz tutur, ondan yardım istəyir.

## ON DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ: ƏLİNİ VURUŞ MEYDANINA, ÖMƏRİ ŞEYTAN QARŞISINA GÖNDƏR

یا علیـــــی در صف میدان فرســـت
یـا عـمـری در ره شـیـطــان فـرست

*Ya bir Əlini vuruş meydanına yolla,*
*Ya bir Öməri şeytanın qabağına yolla.*[408]

Şair bu beytdə bir sıra önəmli məsələyə toxunmuşdur. Hər şeydən öncə şair hz. Məhəmmədin (s.a.s) gəlişinin zəruriliyi ideyasını şərh etmişdir. Şair bu ideyanı ifadə etmək üçün öncə yaşadığı dövrün çətinliyini, ədalətsiz hökmdarların və günahkar ruhanilərin ölkəni xaraba qoyduğunu, insanların əxlaqını pozduğunu göstərmişdir. O, bu vəziyyəti göstərmək, anlatmaq üçün beytin mətninə «şeytan» və «döyüş meydanı» anlayışlarını daxil etmişdir. Şair demək istəyir ki, ey Məhəmməd (s.a.s), indi vəziyyət sizin zamanınızdakı qədər çətindir. Siz islam düşmənlərinə və şeytanlara qarşı mübarizə apardınız və qalib gəldiniz. İndi də ölkəni düşmənlər və şeytanlar ələ keçirib. Şair beytdə ədalətsiz hökmdarları və günahkar ruhaniləri «şeytan» adlandırır.

Bilindiyi kimi, Qurani-Kərimdə şeytanın insanın və insanlığın düşməni olduğu açıq və dəfələrlə bəyan edilmişdir:

لَّعَنَهُ اللّهُ وَقَالَ لَأَتَّخِذَنَّ مِنْ عِبَادِكَ نَصِيباً مَّفْرُوضاً وَلأُضِلَّنَّهُمْ وَلأُمَنِّيَنَّهُمْ وَلآمُرَنَّهُمْ فَلَيُبَتِّكُنَّ آذَانَ الأَنْعَامِ وَلآمُرَنَّهُمْ فَلَيُغَيِّرُنَّ خَلْقَ اللّهِ وَمَن يَتَّخِذِ الشَّيْطَانَ وَلِيّاً مِّن دُونِ اللّهِ فَقَدْ خَسِرَ خُسْرَاناً مُّبِيناً يَعِدُهُمْ وَيُمَنِّيهِمْ وَمَا يَعِدُهُمُ الشَّيْطَانُ إِلاَّ غُرُوراً أُوْلَـئِكَ مَأْوَاهُمْ جَهَنَّمُ وَلاَ يَجِدُونَ عَنْهَا مَحِيصاً

(ən-Nisa, 4/118-121)

---
[408] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

«Allah ona (şeytana) lənət etdi (rəhmətindən kənar edib dərgahından qovdu). O isə dedi: «Əlbəttə, mən Sənin bəndələrindən müəyyən bir qismini ələ alacağam. Onları hökmən (doğru yoldan) sapdıracaq, (puç) xülyalara salacaq, heyvanlarının qulaqlarını kəsməyi və Allahın yaratdıqlarını dəyişdirməyi əmr edəcəyəm: Allahı atıb şeytanı özünə dost tutan şəxs, əlbəttə, açıq-aşkar ziyana uğramışdır. (Şeytan) onlara (müşriklərə) vədlər verir, ürəklərində arzular oyadır. Ancaq Şeytan onlara yalnız yalan vədlər verir. Onların (Şeytana uyanların) yeri Cəhənnəmdir.Oradan xilas olmağa çarə (qaçıb qurtarmağa bir yer) tapmazlar».

Şair ədalətsiz hökmdarları və günahkar ruhaniləri «islam düşmənləri», «şeytan» adlandıraraq vəziyyətin çox ağır olduğunu bildirmiş və islam peyğəmbərini yardıma çağırmışdır. Şair vəziyyətin ağır, düşmənlərin güclü, şeytanların hiyləgər olduğunu və onlarla mübarizə aparmağın çətinliyini ifadə edərək hz. Məhəmmədin (s.a.s) gəlişinin zəruriliyini əsaslandırmaq üçün iki islam böyüyünün – peyğəmbərin iki sevimli əshabının – hz. Əlinin (r.a) və hz. Ömərin (r.a) adını yada salmışdır.

Şair peyğəmbərin hz. Əlini düşmənlə döyüşə göndərməsini istəyir. Şairin hz. Əlinin adını çəkməsinin səbəbi odur ki, O, peyğəmbərin əhli-beytindəndir, bir Allah (c.c) və peyğəmbər aşiqidir, yenilməz qəhrəmandır. Hz. Əlinin döyüş bacarığı, iradəsi, düşmənləri məğlub etməsi hədislərdə özünə yer tutmuş, dillərdə dastan olmuşdur.

**Hədislərdə hz. Məhəmməd (s.a.s), hz. Əlini Harunla müqayisə etmişdir:**

Sad b. Vakkas (r.a) rəvayət edir: «Rasulullah (s.a.s) Tebuk Seferine çıktı ve yerine vekil olarak Aliyi bıraktı, o da: «Cocuk ve kadınların içerisinde geriye beni mi bırakı-

yorsun?», -dedi. Rasulullah (s.a.s): «Senin benim yanımda Musanın yerine Harunun mevkisi gibi olmandan razı degil misin? Ancak bir fark var, o da benden sonra bir peygamberin olmayacağı», - buyurdu».[409]

**Hədislərdə hz. Əlinin (r.a) bir yenilməz sərkərdə olduğu və islam peyğəmbərinin ona çox inandığı, onu çox sevdiyi açıqca göstərilmişdir:**

Səhl b. Sad əs-Səidi (r.a) rəvayət edir: «Hz. Peygamber (s.a.s) Hayber savaşının olduğu gün:

«Sancağı Allahın onun eliyle fetih nasip eyleyecegi bir kimseye verecegim», - deye buyurdu. Orduda bulunan herkes sancağın kendisine verilmesini ümit etmeye başladılar. Arkasından sabahleyin her biri bayrağın kendisine verilmesini ümit ederek geldiler. Rasulullah (s.a.s):

«- Ali nerede?», - buyurdu, kendisine: «Gözlerinden rahatsızdır», - denildi. Emr buyurdu ve Ali çağrıldı, gözlerine tükürdü, bunun üzerine adeta hiç rahatsız degilmiş gibi hemen iyi oldu. Ali: «Onlarla bizim gibi müslüman olana kadar savaşacak mıyız?», - dedi. Rasulullah (s.a.s): «Onların meydanlarına inene kadar acele etme, indikten sonra kendilerini İslama davet et, kendilerine gereken şeyleri onlara bildir. Allaha yemin olsun ki, senin sebebinle bir kimsenin hidayete erdirilmesi senin için kızıl develerden daha hayırlıdır», - buyurdu».[410]

Hz. Nizami həm hz. Əlinin (r.a) islam peyğəmbərinə yaxınlığını, peyğəmbərin onu çox sevdiyini, həm də hz. Əlinin savaş dühasını, sərkərdəlik bacarığını əsas götürərək Onun adını beytə daxil etmişdir.

---

[409] «Müttefekun aleyh hadisler», (Buhari ve Müslimin ittifak ettigi hadisler), Konya, 2004, s. 650.
[410] «Müttefekun aleyh hadisler», göstərilən qaynaq, s. 650.

Şairin beytə daxil etdiyi ikinci ad hz. Ömərdir (r.a). Bu da təsadüfi deyil. Çünki hz. Ömər (r.a) islam peyğəmbərinin çox sevdiyi, yüksək idarəçilik bacarığı olan, ədaləti və sərtliyi ilə seçilən, islam düşmənlərinin çox qorxduğu bir şəxsiyyətdir. Hz. Məhəmməd (s.a.s) onu çox sevmişdir:

Amr b. el-As (r.a) rəvayət edir: «Hz. Peygamber (s.a.s) kendisini Zatu Selasile Gazvesinde ordunun başında göndermişdir. Amr b. el-As (r.a) şöyle devam eder: «Gazveden sonra kendisinin yanına geldim ve: «Sence insanların hangisi daha sevimlidir?», - dedim. «Aişe», - buyurdu. «Erkeklerden?», - dedim. «Babası», - buyurdu. «Sonra kim?», - dedim. «Ömer b. Hattab», - buyurdu ve bir kısım kimseleri saydı».[411]

**Hz. Məhəmməd (s.a.s) yuxusunda hz. Öməri (r.a) görmüşdür:**

Abdullah b. Ömər rəvayət edir: «Rasulullahı (s.a.s): «Ben uykuda iken bana bir bardak süt getirildi, iliklerime kadar kana-kana içtim, sonra geri kalanını Ömer b. el-Hattaba verdim», - buyurduğunu işittim. Oradakiler: «Ey Allahın Rasulü rüyayı neye yordun?», - dediler. «İlme yordum», - buyurdu».[412]

**Hz. Məhəmməd (s.a.s) cənnətdə hz. Ömərin (r.a) köşkünün olduğunu buyurmuşdur:**

«Cabir (r.a) buyurur: «Hz. Peygamber (s.a.s): «Cennete girdim, bir de baktım içeride bir konak ve ya köşk gördüm: «Bu kimindir?», - dedim. «Ömer b. Hattabın», - dediler. İçine girmek istedim, ama bu sırada senin ailene karşı kıskanclığını hatırladım», - buyurdu. Bunun üzerine

---

[411] «Müttefekun aleyh hadisler», göstərilən qaynaq, s. 643.
[412] «Müttefekun aleyh hadisler», göstərilən qaynaq, s. 646.

Ömer ağladı ve: «Ey Allahın Rasulü, hiç sana karşı kıskanclık yapılır mı ki?», - dedi».[413]

**Hz. Məhəmməd (s.a.s) şeytanın hz. Ömərdən (r.a) qorxduğunu buyurub:**

Sad b. Vaqqas (r.a) rəvayət edir: «Ömer b. Hattab Rasulullahın (s.a.s) yanına girmek için izin istedi. Bu sırada Rasulullahın (s.a.s) yanında Kureyşli kadınlar vardı ve Kendisiyle konuşuyorlardı. Konuşurken de seslerini alabildigince yükseltiyorlar, çox şeyler istiyorlardı. Ömer izin istediginde hemen kalkıp perde gerisine koştular. Rasulullah (s.a.s) Ömere izin verdi. Ömer girerken Rasulullah (s.a.s) gülüyordu. Ömer: «Ey Allahın Rasulü Allah ömrünü güldürsün (acaba neye gülersin?)», - dedi. Rasulullah (s.a.s) de: «Şu yanımdakı kadınlara hayret ettim. Senin sesini duyunca hemen perde gerisine koştular», - buyurdu. Ömer: «Ey Allahın Rasulü, onların sakınmalarına sen daha layıksın», - dedi ve şöyle devam etdi: «Ey kendilerinin düşmanı kadınlar! Rasulullahden (s.a.s) sakınmıyorsunuz da benden mi sakınıyorsunuz?» Onlar da: «Evet, sen Rasulullahdan (s.a.s) daha sert ve keskinsin», - dediler. Rasulullah (s.a.s): «Canım elinde olan Allaha yemin olsun ki, şeytan bir caddede seninle karşılaşsa, mutlaka Senin girdigin caddeden başka bir caddeye geçer», - buyurdu».[414]

Şair dördüncü nətin ruhuna uyğun olaraq hz. Məhəmmədin (s.a.s) gəlişinin zəruriliyini əsaslandırmaq üçün iki islam böyüyünün adını çəkmiş, yaşadığı çağın islamın açıq və gizli düşmənlərinin əsirinə çevrildiyini ifadə etmiş, yalnız peyğəmbər dühasının işığında, onun başçılığı ilə və islamın böyük qəhrəmanlarının fədakarlığı nəticəsində bu ağır əsarətdən qurtulmağın mümkünlüyünü bildirmişdir.

[413] «Müttefekun aleyh hadisler», göstərilən qaynaq, s. 646.
[414] «Müttefekun aleyh hadisler», göstərilən qaynaq, s. 646-647.

# ON BEŞİNCİ BEYTİN ŞƏRHİ: GECƏ ZÜLFÜNÜ YƏMƏN AYININ BAŞINA SAL

شب به سر ماه یمانی درآر
سر چو مه از برد یمانی برآر

***Öz gecə zülfünü Yəmən ayının başına sal,***
***Öz aya bənzər başını Yəmən cübbəsindən çıxar.***[415]

Şair bu beytdə dördüncü nətin ideyasını ifadə etmək üçün bir neçə bədii vasitədən və tarixi faktdan istifadə etmişdir. Beyt bir-birinə zidd olan anlayışlar üzərində qurulmuşdur. Beytin mətninə daxil olan söz seçimi də dördüncü nətin ideya və məzmununa uyğundur. «Gecə», «hz. Məhəmmədin gecəyə bənzəyən saçı», «işıqlı Yəmən ayı», «Aya bənzər üz», «qara Yəmən cübbəsi». İşıqla qaranlıq münasibətində təqdim olunan ideya hz. Məhəmmədin (s.a.s) gəlişinin zəruriliyini gözəl ifadə edir. Şair gözəl bir tablo yaradır: Qapqara, zülmət bir qaranlıq və bu qaranlıq gecədə parlayan işıqlı Ay. Şairin düşüncəsinə görə, onun yaşadığı dövr bir qaranlıq  - cəhalət içində can verir. Yalnız hz. Məhəmmədin (s.a.s) - o parlaq ayın işığı insanlığı xilas edə bilər.

Hz. Nizami beytdə peyğəmbərin saçını gecəyə bənzətmişdir. Divan ədəbiyyatında saç gözəllik əlaməti kimi çox tərif edilmişdir. **Nətlərdə isə hz. Peyğəmbərin (s.a.s) saçı «ənbər», «ənbər ətirli», «ətir saçan», «morgül», «çin», «gül saç», «reyhan saç», «qıvrım saç», «cim-saç», «dal-saç», «lam-saç» kimi çoxsaylı epitetlərlə anılmışdır.**

**Şairlərə görə, islam peyğəmbərinin saçı «sevgi yuvasıdır», onun saçı «Kəbənin qara örtüsüdür», «saçı uca Allahın (c.c) kölgəsidir», «onun saçı Qurani-Kərimin nazil olmağa başladığı mübarək Qədr gecəsidir», «peyğəm-**

---

[415] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

**bərliyinin bildirildiyi Bərat gecəsidir», «onun saçı sureyi-Vəl-Leyl»dir.**

Hz. Nizami Peyğəmbərin mübarək üzünü, alnını Yəmən ayına bənzətmişdir. Nətlərdə hz. Məhəmmədin (s.a.s) alnı, üzü günəşə, aya, İsra gecəsinin ayına, hilala bənzədilərək onun insanlıq üçün bir nur qaynağı olduğu ifadə edilmişdir.

Divan şairlərinə görə, uca Allahın (c.c) ilk yaratdığı nur hz. Məhəmmədin (s.a.s) nurudur. Uca Allah (c.c) bu nurdan bütün aləmin nurunu yaratmışdır. **Divan şeirinə görə, onun üzü «güldür», «gülşəndir», «Allahın güzgüsüdür», «vəhdət güzgüsüdür», «kün fəkan»dır, «onun üzü rəhmət qapısıdır», «onun üzü qiblədir, qibləgahdır», «onun üzü Kəbədir», «onun üzü «Vəd-Duxa» surəsidir», «Nur surəsidir», «Vəş-Şəms» surəsidir», «onun üzü Fatihədir», «rəhmət ayəsidir», «üzü şamdır», «üzü» aləmlərin nurudur», «üzü aydır», «üzü günəşdir, gündüzdür, sönməyən bir nurdur».**

Divan şeirinə görə, kainatdakı hər şey hz. Məhəmmədin (s.a.s) nurundan yarandığı kimi, günəş, ay və ulduzlar da nurunu ondan almışdır. O, aləmlərə bir doğru yolu göstərən nur olaraq göndərilmişdir.

Şair beytdə iki dəfə qədim Yəmənin adını çəkmişdir. Şair birinci misrada hz. Məhəmmədin (s.a.s) üzünü «Yəmən ayı»na bənzətmiş, ikinci misrada isə peyğəmbərin geyindiyi «Yəmən cübbəsinə» işarə etmişdir.

Hz. Nizaminin Yəmən ölkəsinin adını misrada iki dəfə çəkməsi təsadüfi deyil. Hər şeydən öncə, Yəmən siyasi, iqtisadi, mədəni önəminə görə, islam coğrafiyasının önəmli bir parçasıdır. Yəmənin islamlaşmasından sonra islam dini güc qazanmış, yeni coğrafiyalara yayılmaq imkanı əldə etmişdir.

## HƏDİSLƏRDƏ YƏMƏN ÖLKƏSİ VƏ YƏMƏNLİLƏR:

Hz. Məhəmməd (s.a.s) buyurur: «Allahım, yəmənlilərin qiblələrini bizə yönəlt!».

İslam peyğəmbəri yəmənlilərin islam nuru ilə bərəkətlənməsi üçün dua etmişdir. Zeyd b. Sabit (r.a) rəvayət edir:

«Rasulullah (s.a.s) Yemen tarafına baktı ve şöyle buyurdu: «Allahım! Onların kalplerini Bize yönelt, bizim tüm ölçeklerimizi bereketli kıl».[416]

**Hz. Məhəmməd (s.a.s) buyurur: «... İman Yəmənlidir».**

Əbu Hureyrə (r.a) rəvayət edir: «Hz. Peygamber (s.a.s) buyurdu: «Size yemenliler gelmişdir. Kendileri çok ince yürekli, çok yumşak kalplidirler. İman Yemenlidir. Hikmet de Yemenlidir. Kibir ve kendini beğenme deve sahiplerindedir. Tevazu ve vekar ise koyunla uğraşanlardadır».[417]

**Hz. Məhəmməd (s.a.s): «...Əmanət yəmənlilərdədir»**

Əbu Hureyrə (r.a) rəvayət edir: «Rasulullah (s.a.s) bele buyurdu: «Devlet başkanlığı Kureyşte, kadılık ensarda, müezzinlik habeşlilerde, emanette Ezddedir, yani yemenlilerdedir».[418]

**Hz. Məhəmməd (s.a.s): «Ezd qəbiləsi (yəmənlilər) yer üzündə Allahın aslanlarıdır... »**

Enes (r.a) rəvayət edir: «Rasulullah bele buyurdu: «Ezd kabilesi yer yüzünde Allahın aslanlarıdır. İnsanlar

---

[416] «Süneni-Tirmizi tercümesi» (hazırlayan, Abdullah Parlıyan), Konya, 2004, c. III, s. 320.
[417] «Müttefekun aleyh hadisler», göstərilən qaynaq, s. 34.
[418] «Süneni-Tirmizi tercemesi», göstərilən qaynaq, s. 321.

onları küçük düşürmeye çalışsalar bile Allah onları yükseltecektir. İnsanların üzerine öyle bir zaman gelecek ki: «Keşke babam ezdli olsaydı, keşke annem ezdli olsaydı diyecek».[419]

Hz. Məhəmməd (s.a.s) öncədən Yəmənin fəth olunacağını, bir islam ölkəsinə çevriləcəyini bildirmişdir.[420]

**Hz. Nizami beytdə «Yəmən cübbəsi»nin də adını çəkir. Bilindiyi kimi, hz. Məhəmməd (s.a.s) geyimdə səliqəyə, təmizliyə və ölçüyə ayrıca önəm vermişdir. Şair bu beytdə hz. Məhəmmədi (s.a.s) xütbəyə hazırlıq anında təsvir etdiyindən «Yəmən cübbəsi»nə işarə etmişdir. Qaynaqlara görə, islam peyğəmbəri xitabət üçün ayrıca bir paltar geyinməmişdir. Ancaq İbn Sad rəvayət edir ki, hz. Məhəmmədin (s.a.s) iki parçadan ibarət bir paltarı var idi. Onun xirqəsi Yəmən, alt qismə geydiyi izarı Oman malı idi. İslam peyğəmbəri bu paltarı cümə günü və bayramlarda geyinərdi.[421]**

Hz. Məhəmməd (s.a.s) cümə namazı qılmağa gələn müsəlmanların imkan daxilində ayrıca bir paltarının olmasını da təşviq etmişdir: «Bula bilen bir kimse iş elbisesinden haric olmak üzere Cüma günü için bir elbise tahsie etse, ne zararı olar».[422]

Hz. Nizami islam peyğəmbərinin üzünü, mübarək alnını «Yəmən ayı»na bənzətmişdir. **Yəmən ölkəsinin səması üzərində parlayan bütöv Ay çox gözəl göründüyündən, gecələr yolçulara yol göstərdiyindən, insanların qəlbindəki qaranlığı, cəhaləti yox edib, onların könlündə ümid, inam,**

[419] «Süneni-Tirmizi tercemesi», göstərilən qaynaq, s. 321.
[420] «Süneni-Tirmizi tercemesi», göstərilən qaynaq, s. 363.
[421] Ahmet Lütfi Kazançı, «Peygamber efendimizin hitabeti», Marifet yayınları, İstanbul, 1980, s. 44.
[422] Əbu Davud, «el-Cüma», 13/1078, c. I, 378.

**iman nuru yaratdığından şair də ilahi nuru insanlara çatdırmaq missiyası ilə göndərilmiş hz. Məhəmmədin (s.a.s) üzünü, alnını, bütün varlığını par-par yanan, aləmə nur saçan «Yəmən ayı»na bənzətmişdir.**

Dediyimiz kimi, şair beytin mətninə yerləşdirdiyi obrazları diqqətlə, nətin ideyasına uyğun seçmişdir. **Belə ki, bu beytdə ifadə edilmiş, kodlaşdırılmış, Nizami ideyalarını belə sıralamaq olar:**

**Hər şeydən öncə şair islam peyğəmbərini bir hazırlıq anında təsvir etmişdir. Şair deyir ki, ey Məhəmməd (s.a.s), qalx, gecə kimi qara saçını Yəmən ayı kimi parlaq üzünə tök, onları dara, gözəl, bayram və cümə günlərində geyindiyin Yəmən cübbəni geyin. Yəni şairin misralarında islam peyğəmbəri cümə xütbəsi oxumağa hazırlaşan, sonra cümə namazı qıldıracaq bir mübarək anın ərəfəsində təsvir edilmişdir.**

**Şair deyir ki, ey Məhəmməd (s.a.s), bizi cümə gününün, cümə xütbəsinin, cümə namazının bərəkəti ilə bərəkətləndir. Sən dünyanı, insanları mübarək xütbələrinlə, insan qəlbindəki cəhalət torunu söküb atacaq ilahi qaynaqlı sözlərinlə doğru yola yönəltdin. İndi bizim dövrümüz cəhalət girdabına düşmüşdür, insanlar Sənin ölçülərindən uzaqlaşmış, əxlaqi dəyərlər pozulmuş, insanların qəlbindən ilahi nur çəkilmiş, onun yerinə cəhalətin qaranlığı yerləşmişdir. «Qarınqulu siyasətçilər» və «günahkar dindarlar» ölkənin nizamını pozmuşlar. İndi Sənin mübarək sözünə, xütbənə ehtiyacımız var, gəl və bizi bu cəhalətdən qurtar.**

**Sənin yaşadığın mübarək səadət əsrində insanlar «qara saçlı», «Yəmən ayı» kimi parlaq üzlü, «Yəmən cübbəli» gözəl peyğəmbəri həsrət və heyrətlə gözlədikləri**

kimi, biz də səni gözləyirik. Gəl, xütbə oxu, bizim gözümüzü aç, qəlbimizə nur ver, ilahi həqiqətləri bizə anlat və bizi xilas et.

Hz. Nizaminin şərhində peyğəmbər xütbəsi ilahi nurun ən çox yayıldığı bir anın, ilahi kəlamın bütün gücü ilə ifadə olunduğu bir sözün, fikir və ideyanın adıdır. Şair demək istəyir ki, yəmənlilər Sənin mübarək sözlərinə inandılar, bütləri qırdılar, Sənin ardınca getdilər. İndi bizim cəmiyyəti də bütlər və bütpərəstlər bürümüşlər. Sənin xütbənə, yəni ilahi qaynaqlı sözünə ehtiyac var.

Şair demək istəyir ki, cümə günü müsəlmanların bir araya gəldiyi gündür. İndi – şairin yaşadığı zamanda müsəlmanlar arasında zülm və cəhalətin təsiri ilə birlik duyğu və düşüncəsi pozulmuş, sevginin yerini kin, nifrət, ədavət tutmuşdur. Gəl, ey nurlu Peyğəmbər, bir xütbə oxu və bizi birləşdir, bizə güc ver, bizim əlimizdən tut, bizi cümə namazındakı sıraya düz.

Hz. Nizami bu beytdə islam peyğəmbərinin hər zaman zəruriliyi ideyasını, Onun insanlıq üçün bir ehtiyac olduğu fikrini, Onun mübarək sözünün tükənməyən gücünü və Onun gətirdiyi ilahi ölçülərdən, dəyərlərdən kənar heç bir insanın, heç bir cəmiyyətin xoşbəxt olmayacağı anlayışını gözəl bir bədii biçimdə ifadə etmişdir.

# ON ALTINCI BEYTİN ŞƏRHİ: VURUŞ ÜÇÜN KƏMƏRİNİ BAĞLA

با دو سه در بند کمر بند باش
کم زن این کم زدهً چند باش

***Bu iki-üç qapıbağlayanla (vuruş üçün) kəmərini bağla,***
***Bu bir neçə alçağı daha da alçalt (məhv et).***[423]

Hz. Nizami bu beytdə öncəki beytlərdə «evdə yaşayan cinlər», «günahkar ruhanilər», «qarınqulu», «qarətkar», «özünü düşünən hökmdarlar» deyə adlandırdığı, insanların əxlaqını pozan, zülmkar idarəçilərə «qapıbağlayanlar» adını qoymuşdur. Burada şair «iki-üç qapıbağlayan» deməklə, əslində, insanlara zülm edən təbəqələrə işarə etmişdir. Şair beytin ikinci misrasında onlara «alçaldılmışlar» deyə müraciət etmişdir.

## NİZAMİYƏ GÖRƏ, «QAPIBAĞLAYANLAR»IN TƏFSİRİ

**Hz. Nizaminin şərhinə görə, zülm bir ədalətsizlikdir və zülm olan yerdə haqq və ədalətin qapısı bağanmışdır. Qapının bağlanması anlayışı cəhalətlə eyni mənadadır. Qapısı bağlanmış məkan informasiyasız, yanlış məlumatlarla dolu bir məkandır. Qapısı bağlanmış məkan aləmdən, uca Allahdan (c.c) uzaq düşmüş, təhrif olunmuş gerçəklərlə yaşayan, özünü, onu yaradanı tanımayan, fitrəti pozulmuş, xəstə insan toplumunun yaşadığı məkandır.**

---

[423] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

**Qapısı bağlanmış məkan iylənmiş, xarab olmuş, ətrafa çirkab yayan bir məkandır, bu məkan bir qaranlıq içindədir, bu qorxunc məkanda yaşayan insanların doğrunu eşitmək, bilmək, öyrənmək, həqiqəti görmək imkanı yoxdur, çünki qapılar bağlıdır, işıq yoxdur, içəri qaranlıqdır. Qapısı bağlı məkan ölüm məkanıdır.**

**Qapının bağlanması anlayışında bir qorxu, sıxıntı, darıxma, tıncıxma, təlaş, həyəcan mənası var. Zülmkarların zülmü nəticəsində qapısı bağlı bir məkanda yaşayan insanların bir xilaskara ehtiyacı var.** Şair hz. Məhəmmədin (s.a.s) gəlişinin zəruriliyini əsaslandırmaq, Onun xilaskarlıq missiyasını ifadə etmək üçün bir qapısı bağlı məkan təsvir etmişdir.

**Qapısı bağlı məkan azadlığın, insan haqq və hürriyyətinin olmadığı məkandır. Bu bağlı məkanda insanın özünü, Allahını (c.c) tanımaq imkanı yoxdur.**

**Qapısı bağlı məkanda işığa, günəşə ehtiyac var. Bu parlaq işıq və günəş hz. Məhəmməddir (s.a.s).**

Qapını bağlayanlar zalımlardır, ancaq öz faydasını düşünən hökmdarlardır. Zalım hökmdarlar qapıları bağlayaraq, yəni insanları doğru bilgi almaq, həqiqəti öyrənmək imkanından məhrum edərək, onları bir hüquqsuz köləyə çevirib, idarə edirlər. Bu zalım hökmdarların ən çox qorxduğu azadlıqdır, işıqdır, doğru bilgidir. Onlar dünyadan təcrid olunmuş bir mühit, rejim yaradaraq, elmin çırağını söndürərək, həqiqətləri təhrif edərək, cəmiyyətdə qorxu hissi aşılayaraq, insan hüquqlarını heçə sayaraq belə bir qaranlıq mühit yaratmışlar.

Şair bu «qapıbağlayanlar»la mübarizənin asan olmayacağını düşünür. Ona görə də islam Peyğəmbərini döyüşə

hazırlaşmağa çağırır. Deyir ki, kəmərini bağla, ey Allahın (c.c) elçisi!

**Hz. Nizaminin təqdimatında islam Peyğəmbəri bağlı qapıları açan, qaranlıq dünyaya, yəni haqq və hürriyyətin olmadığı məkana işıq saçan bir mübarək varlıqdır. Şairə görə, bu qapı bağlayan zalımlarla ancaq hz. Məhəmməd (s.a.s) mübarizə apara bilər. Ancaq Onun sözü, ancaq Onun gücü bu bağlı qapıları aça bilər, ancaq Onun işığı bu qapısı bağlı qaranlıq evi nurlandıra bilər, ancaq onun gücü bu qaranlıq dünyada boğulan insanları xilas edə bilər.**

Hz. Nizami bu beytdə, əslində, cəhalətlə elmin, qaranlıqla işığın mübarizəsini təsvir etmişdir. Şairin zalım hökmdarları təsvir edərkən onları «qapıbağlayan» adlandırması da uğurlu bir poetik ifadədir. Bu anlayış xalq dilinə və düşüncəsinə uyğundur. Belə ki, xalq dilində qapı bağlamaq mənfi çalarda işlənir, «bağlı qapı», «qapın bağlansın» kimi ifadələr mənfi emosiya yaradır. Bunun əksinə olaraq, «Allah qapını açsın», «qapın bağlanmasın» kimi ifadələr də bir dua, alqış kimi qavranılır.

**Şair sanki bir döyüş səhnəsi təsvir edir. Bir yanda qapıları bağlanmış qaranlıq bir mühit, bu ölü mühiti yaradan zalım «qapıbağlayanlar», o biri yanda işığı, xeyiri, azadlığı, bərəkəti təmsil edən hz. Məhəmməd (s.a.s).** Şair bu mübarizədə hz. Məhəmmədin (s.a.s) qalib gələcəyinə əmindir. Bunu beytin ikinci misrasına yerləşdirilmiş sözlər də təsdiq edir. Şair ikinci misrada deyir ki, ey Məhəmməd (s.a.s), bu alçaldılmışları daha da alçalt, onları məhv et.

Şairə görə, insanlara zülm edənlər, onların haqlarını tapdalayanlar, onların qapısını bağlayanlar, onları qaranlıq –

cəhalət içərisində saxlayanlar uca Allahın (c.c) alçaltdığı insanlardır. Burada şair «qapıbağlayanlara» alçaldılmış deyərkən onların etdikləri zülmə görə bu dünyada və axirətdə bədbəxt olacaqlarını nəzərdə tutmuşdur.

**Uca Allah (c.c) Qurani-Kərimdə bu qapıbağlayanlara belə xəbərdarlıq edir:**

إِنَّ الَّذِينَ كَفَرُواْ وَظَلَمُواْ لَمْ يَكُنِ اللّهُ لِيَغْفِرَ لَهُمْ وَلاَ لِيَهْدِيَهُمْ طَرِيقاً إِلاَّ طَرِيقَ جَهَنَّمَ خَالِدِينَ فِيهَا أَبَداً وَكَانَ ذَلِكَ عَلَى اللّهِ يَسِيراً

(ən-Nisa, 4/168-169)

«Kafirləri və zülmkarları, şübhəsiz ki, Allah bağışlayan və onlara (cəhənnəm yolundan başqa) bir yol göstərən deyildir! Əbədi, həmişəlik qalacaqları cəhənnəm yolundan başqa. Bu isə Allah üçün çox asandır!».

إِنَّ اللَّهَ لَعَنَ الْكَافِرِينَ وَأَعَدَّ لَهُمْ سَعِيراً خَالِدِينَ فِيهَا أَبَداً لَّا يَجِدُونَ وَلِيّاً وَلَا نَصِيراً

(əl-Əhzab, 33/64-65)

«Şübhəsiz ki, Allah kafirlərə lənət eləmiş və onlar üçün yanar od hazırlamışdır. Onlar orada əbədi qalacaq, (özlərinə) nə bir hami, nə də bir mədətkar tapa biləcəklər».

إِلَّا بَلَاغاً مِّنَ اللَّهِ وَرِسَالَاتِهِ وَمَن يَعْصِ اللَّهَ وَرَسُولَهُ فَإِنَّ لَهُ نَارَ جَهَنَّمَ خَالِدِينَ فِيهَا أَبَداً

(əl-Cinn, 72/23)

«(Mənim əlimdən) Allah dərgahından olanı və Onun göndərdiklərini (Quran və dini hökmləri) təbliğ etməkdən başqa (heç bir şey gəlməz). Allaha və Onun peyğəmbərinə asi olanları cəhənnəm odu gözləyir, Onlar orda həmişəlik qalacaqlar!».

**Şair deyir ki, ey Məhəmməd (s.a.s), bu alçaldılmış insanları (zalımları) daha da alçalt, yəni onları bu**

**dünyada pərişan et, onları bu dünyada, insanların gözü qarşısında məğlub et, onların özləri haqqında çeşidli yollarla yaratdıqları məğlubedilməzlik fikrini dağıt, onların batil inancını yox et, bütlərini qır, onların bağladıqları qapıları aç, onların qaranlığa qərq etdiyi evlərin şamını yandır, insanları bu əzabdan, qaranlıqdan qurtar, onların haqlarını özünə qaytar.**

Şairə görə, insanların hz. Məhəmmədə (s.a.s) olan ehtiyacı və islam peyğəmbərinin xilaskarlıq missiyası da bununla bağlıdır.

## ON YEDDİNCİ BEYTİN ŞƏRHİ: YUXUDA KEÇİRDİYİN BEŞ YÜZ YETMİŞ İL BƏSDİR

پانصد و هفتاد بس ایام خواب
روز بلندست به مجلس شناب

***Yuxuda keçirdiyin beş yüz yetmiş il bəsdir,***
***Günəş çox yüksəklərə qalxmışdır, məclisə tələs.***[424]

Hz. Nizami bu beytdə bir neçə önəmli məsələyə toxunmuşdur. Şair hz. Məhəmmədə (s.a.s) olan əbədi ehtiyac ideyasını dəqiq və poetik bir biçimdə təqdim etmişdir. O, mübarək peyğəmbərə olan bu əbədi ehtiyacı ifadə etmək üçün onun ölümündən keçən dövrü «yuxu əyyamı» adlandırmışdır. Yəni Sənin gətirdiyin ilahi qaynaqlı ideyalar ölməzdir, hər zaman insanlıq üçün bir doğru və azad yaşamaq ölçüsüdür.

Şair bu beytdə hz. Məhəmmədə (s.a.s) müraciət üslubunu seçmişdir. O, ehtiyac içərisində yaşayan insanların adından peyğəmbərə müraciət edir. Onu yuxudan oyatmaq istəyir. Şair insanların hz. Məhəmmədə (s.a.s) olan sevgisini, ehtiyac və həsrətini birinci misradakı «yatdığın bəsdir» ifadəsi ilə bildirmişdir. Yəni, ey Məhəmməd (s.a.s), biz Səni çox sevirik, Sənə çox ehtiyacımız var, artıq gözləmək imkanımız yoxdur, yuxudan qalx və gəl.

**Şair ikinci misrada hz. Məhəmmədə (s.a.s) olan həsrəti, sevgini, ehtiyacı ifadə etmək üçün** «Günəş çox yüksəklərə qalxmışdır» ifadəsindən yararlanmışdır. Yəni

[424] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 37.

artıq gecə keçmiş, Günəş çıxmış, günorta olmuş, ancaq hz. Məhəmməd (s.a.s) hələ də yuxudadır.

**Şairin insanların hz. Məhəmmədə (s.a.s) olan sevgisini, həsrət və ehtiyacını ifadə etmək üçün** beytin mətninə daxil etdiyi sözlərdən biri də «məclis» sözüdür. Məclis insanların toplandığı yerdir. Şair belə bir səhnə yaradır: hz. Məhəmmədi (s.a.s) sevənlər, ona inananlar, onu həsrətlə gözləyənlər bir məclisə toplaşmışlar və peyğəmbəri gözləyirlər, ancaq o, məclisə gecikir.

**Şairin insanların islam Peyğəmbərinə olan sevgisini, həsrət və ehtiyacını ifadə etmək üçün** beytin mətninə daxil etdiyi sözlərdən biri də «tələs»dir. «Tələs» istəyində sevgi, darıxma, ehtiyac, həsrət, qovuşmaq arzusu, ümid və inam var. Bununla birgə, şair «tələs» sözü ilə yaşadığı dövrün acınacaqlı durumunu da, insanların bu qapısı bağlı qaranlıq mühitdən qurtulmaq istəyini də, insanların «qapıbağlayanlar»ın caynağından xilas olmaq ehtiyacını da ifadə etmişdir. Yəni, ey Məhəmməd (s.a.s), tələs və bizi bu cəhalət və zülm girdabından xilas et.

**Şairin insanların hz. Məhəmmədə (s.a.s) olan sevgisini, həsrət və ehtiyacını ifadə etmək üçün beytin mətninə daxil etdiyi ən uğurlu vasitələrdən biri də hz. Məhəmmədin (s.a.s) ölümündən keçən dövrün dəqiq bir rəqəmlə ifadə edilməsidir. Çünki insan sevdiyi bir şəxsin tarixini dəqiq bilər, onunla bağlı bütün faktları, hadisələri, rəqəmləri yadda saxlayar.** Şair bu vasitə ilə həm özünün və insanların hz. Məhəmmədə (s.a.s) olan sevgisini ifadə etmiş, həm də insanların mübarək peyğəmbərə olan həsrətini, illər, əsrlər boyu yorulmadan, bezmədən onu gözlədiklərini bildirmişdir. Şairə görə, insanların peyğəmbər sevgisi heç köhnəlmədi. O, heç unudulmadı,

əksinə, aradakı zaman məsafəsi artdıqca sevgi və ehtiyac da çoxaldı.

**Nizaminin insanların islam Peyğəmbərinə olan sevgisini, həsrət və ehtiyacını ifadə etmək üçün** seçdiyi vasitələrdən, sözlərdən biri də «vuruş»dur, daha dəqiq desək, «kəmərini bağla» ifadəsidir. İnsanlar Onu düşmənlə, «qapıbağlayanlar»la, onları cəhalət girdabında boğanlarla döyüşə, bu döyüşdə başçı olmağa çağırır. Bu da insanların Ona olan etibarının, inamının göstəricisidir. Çünki insanlar etibar etdikləri şəxsiyyətlərin arxasınca gedərlər.

Hz. Nizami bu beytdə insanlığın hz. Məhəmmədə (s.a.s) olan ehtiyacını incə, dəqiq, bənzərsiz vasitələrlə təqdim etmişdir.

# ON SƏKKİZİNCİ BEYTİN ŞƏRHİ: DUR VƏ İSRAFİLƏ BUYUR

**خیز و بفرمای سرافیل را**
**باد دمیدن دو سه قندیل را**

***Dur və İsrafilə buyur***
***Ki bu iki-üç qəndili küləyə tutsun.***[425]

Biz bu beytin ideyasını, dini-bədii yükünü doğru şərh etmək üçün öncə bir sıra anlayışları izah edək. Hər şeydən öncə şair beytdə İsrafilin adını çəkmişdir. Bilindiyi kimi, İsrafil dörd böyük mələkdən biridir. Onun vəzifəsi qiyamət günü sura üfürməkdir. Qaynaqlarda bu kəlmənin mənşəyi ilə bağlı dəqiq bir bilgi yoxdur. Bəzi rəvayətlərə görə, ərəbcə, ya da ibranicə bir sözdür və təxminən «Allahın qulu», ya da «Rəhmanın qulu» deməkdir.[426]

## İSRAFİL ADLI MƏLƏK VƏ QİYAMƏT GÜNÜ

Bir sıra rəvayətlərə görə, İsrafil, hz. Məhəmmədi (s.a.s) Cəbraildən daha öncə onu peyğəmbərliyə hazırlamışdır.[427]

Şair beytdə İsrafilin adını çəkərkən qiyamət gününə işarə etmişdir. Qurani-Kərimdə İsrafilin adı birbaşa çəkilməsə də, qiyamət günü ilə bağlı ayələrin sayı çoxdur. Qiyamətin qopacağını bildirən ayələr kainatda böyük dəyişiklik olacağını, yaradılan hər şeyin məhv olacağını və bu dəhşətli hadisənin sura ilk üfürülməsi ilə başlayacağını, ikinci üfürülmədə isə hər kəsin dirildilib məhşərə getməyə hazırlanacağını bildirir.

---

425 Nizami Gəncəvi, göstərilən qaynaq, s. 38.

426 Türkiye Diyanet Vakfı «İslam Ansiklopedisi», İstanbul, 2001, c. 23, s. 180; Buhari, «Tefsir», 2/6; «Kamus Tercümesi», III, s. 615.

427 Türkiye Diyanet Vakfı «İslam Ansiklopedisi», İstanbul, 2001, c. 23, s. 181.

وَيَوْمَ يُنفَخُ فِي الصُّورِ فَفَزِعَ مَن فِي السَّمَاوَاتِ وَمَن فِي الْأَرْضِ إِلَّا مَن شَاءَ اللَّهُ وَكُلٌّ أَتَوْهُ دَاخِرِينَ

(ən-Nəml, 27/87)

«Sur çalınacağı gün Allahın istədiklərindən (məhrəm mələklərdən, ya da Allahın yanında həmişə diri olan şəhidlərdən) başqa, göylərdə və yerdə olanlar (bütün məxluqat) dəhşətli bir qorxuya düşər və onların hamısı Onun hüzuruna müti (zəlil) vəziyyətdə gələr».

وَنُفِخَ فِي الصُّورِ فَصَعِقَ مَن فِي السَّمَاوَاتِ وَمَن فِي الْأَرْضِ إِلَّا مَن شَاءَ اللَّهُ ثُمَّ نُفِخَ فِيهِ أُخْرَى فَإِذَا هُم قِيَامٌ يَنظُرُونَ

(əz-Zumər, 39/68)

«Sur (birinci dəfə) çalınacaq, Allahın göylərdə və yerdə olan istədiyi kimsələrdən (Cəbrail, Mikail, Əzrail və İsrafildən, ya da ərşi daşıyan mələklərdən və ya müsəlman şəhidlərdən) başqa, dərhal hamı yıxılıb öləcək. Sonra bir daha çalınan kimi onlar (qəbirlərindən) qalxıb (Allahın əmrinə) müntəzir olacaqlar!»

وَاسْتَمِعْ يَوْمَ يُنَادِ الْمُنَادِ مِن مَّكَانٍ قَرِيبٍ يَوْمَ يَسْمَعُونَ الصَّيْحَةَ بِالْحَقِّ ذَلِكَ يَوْمُ الْخُرُوجِ إِنَّا نَحْنُ نُحْيِي وَنُمِيتُ وَإِلَيْنَا الْمَصِيرُ

(Qaf, 50/41-43)

«(Ey Peyğəmbər!) Carçının yaxın bir yerdən car çəkəcəyi gün (deyilən sözü, surun səsini) dinlə! (O gün İsrafil uca səslə: «Ey köhnəlmiş sümüklər, ey bir-birindən ayrılmış oynaqlar, ey əprimiş ətlər, ey dağılmış saçlar! Allah sizə haqq-hesab gününə gəlmək üçün yenidən birləşməyi buyurur!» - deyəcək və suru ikinci dəfə üfürəcəkdir). O gün (bütün yaranmışlar) dəhşətli (tükürpərdici) səsi doğrudan-doğruya eşidəcəklər. O gün (qəbirlərdən) çıxma günüdür! Şübhəsiz ki, dirildən də, öldürən də Bizik. (Axır) dönüş də Bizim hüzurumuzadır!»

İslam alimləri qiyamət günü sura üfürəcək mələyin İsrafil olması ilə bağlı bir fikirdədirlər. Bundan başqa, İsrafil adlı mələk «mələküs-sur», «sahibus-sur», «sahibül-karn» adları ilə də təqdim edilmişdir.[428]

Bir sıra rəvayətlərə görə, İsrafil uca Allahın (c.c) «üfür!» əmrini gözləyir. O, bu vəzifəsini yerinə yetirərkən sağında Cəbrail, solunda Mikail olacaq. Hədis şərhçilərinə görə, İsrafil adlı mələyin lövhi-məhfuzla bağlı vəzifələri də var. Hz. İbrahimi (s.a.s) ziyarət edib bir övladının olacağını müjdələyən, Lut peyğəmbərə insan şəklində görünüb, qövmünün cəzalandırılacağını bildirən, ərşi daşıyan mələklərdən biri də İsrafildir.[429]

Hədislərdə də islam Peyğəmbəri İsrafilin sura üfürməsi ilə qiyamətin qopacağını bildirmişdir:

Əbu Səid əl-Hudri (r.a) rəvayət edir: «Rasulullah (s.a.s) bele buyurdu: «Sur sahibi boruyu ağzına koymuş ne zaman üflemekle emr olunarsa, hemen üfleyeceyi anın iznini bekleyip durmakta iken ben nasıl sevine bilirim?»[430]

Hz. Məhəmməd (s.a.s) bir hədisində surun nə olduğuna da münasibət bildirmişdir.

Abdullah b. Amr b. As (r.a) rəvayət edir: «Bir bedevi Peygambere gelerek sur nedir diye soruşdu. Rasulullah (s.a.s) da: «Kendisiyle kiyametin haber verileceyi yülenmek suretiyle ses çıkaran bir alettir», - buyurdu».[431]

Hz. Nizami beytdə İsrafil adlı mələyin adını çəkməklə Qiyamət gününə də işarə etmişdir. Qurani-Kərimdə

---

[428] Türkiye Diyanet Vakfı «İslam Ansiklopedisi», İstanbul, 2001, c. 23, s. 181.

[429] Türkiye Diyanet Vakfı «İslam Ansiklopedisi», İstanbul, 2001, c. 23, s. 181; Müslim, «Salatül-Müsafirin», 200; İbn Macə, «İqamə», 180; Elmalılı Hamdi Yazır, c. IV, s. 2800; c. VI, s. 4536; c. VIII, s. 5326.

[430] «Riyazüs-Salihin», (tərcümə, şərh edənlər: Yaşar Kandemir, İsmail Lütfi Çakan, Raşit Küçük), Erkam yayınları, İstanbul, 2004, c. III, c. 66.

[431] «Süneni-Tirmizi tercümesi», göstərilən qaynaq, c. 2, s. 276.

qiyamətin qopacağı gün fərqli bir üslubda insanı dəhşətə salan söz və ifadələrlə təsvir edilmişdir:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

إِذَا الشَّمْسُ كُوِّرَتْ . وَإِذَا النُّجُومُ انكَدَرَتْ . وَإِذَا الْجِبَالُ سُيِّرَتْ وَإِذَا الْعِشَارُ عُطِّلَتْ وَإِذَا الْوُحُوشُ حُشِرَتْ وَإِذَا الْبِحَارُ سُجِّرَتْ وَإِذَا النُّفُوسُ زُوِّجَتْ وَإِذَا الْمَوْؤُودَةُ سُئِلَتْ بِأَيِّ ذَنبٍ قُتِلَتْ وَإِذَا الصُّحُفُ نُشِرَتْ وَإِذَا السَّمَاء كُشِطَتْ وَإِذَا الْجَحِيمُ سُعِّرَتْ وَإِذَا الْجَنَّةُ أُزْلِفَتْ عَلِمَتْ نَفْسٌ مَّا أَحْضَرَتْ

(ət-Təkvir, 81/1-14)

«Günəş (əmmamə kimi) sarınıb bükülləcəyi (sönəcəyi) zaman. Ulduzlar (göydən qopub yağış dənələri kimi yerə) səpələnəcəyi zaman. Dağlar yerindən qopardılacağı (toz kimi havada uçacağı) zaman. (Bədəvi ərəblərin çox əziz tutduğu) boğaz dəvələr başlı-başına buraxılacağı zaman. Vəhşi heyvanlar (bir-birindən qisas almaq üçün) bir yerə toplanacağı zaman. Dənizlər od tutub yanacağı (və ya dolub daşacağı) zaman. Ruhlar (bədənlərə) qovuşacağı zaman. Diri-diri torpağa gömülən körpə qızdan: «Axı o hansı günaha görə öldürüldü?» - deyə soruşulacağı zaman. Əməl dəftərləri açılacağı zaman. Göy (yerindən) qopardılacağı (ya da bükülləcəyi) zaman. Cəhənnəm alovlandırılacağı zaman. Hər kəs (dünyada bugünkü günə özü üçün yaxşı, pis) nə hazır etdiyini biləcəkdir!»

Qurani-Kərimdə qiyamətin daha bir müdhiş mənzərəsi:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

هَلْ أَتَاكَ حَدِيثُ الْغَاشِيَةِ وُجُوهٌ يَوْمَئِذٍ خَاشِعَةٌ عَامِلَةٌ نَّاصِبَةٌ تَصْلَى نَاراً حَامِيَةً تُسْقَى مِنْ عَيْنٍ آنِيَةٍ لَّيْسَ لَهُمْ طَعَامٌ إِلَّا مِن ضَرِيعٍ لَا يُسْمِنُ وَلَا يُغْنِي مِن جُوعٍ

(əl-Ğaşiyə, 88/1-7)

«(Ey Peyğəmbər! Dəhşəti aləmi) bürüyəcək qiyamətin xəbəri sənə gəlib çatdımı? (O gün) bir çox üzlər zəlil görkəm alacaq. (Cəhənnəmin pillələrini çıxıb-düşməklə boş yerə) zəhmət çəkib yorulacaq. Yanar oda girəcəkdir. Və onlara qaynar bulaqdan (su) içirdiləcəkdir. Onların yeməyi (zəhərdən də acı) zəridən başqa bir şey olmayacaq. (O yemək onlara) nə qüvvət verər, nə də aclıqdan qurtarar».

Uca Allah (c.c) qiyaməti belə təqdim edir:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

إِذَا زُلْزِلَتِ الْأَرْضُ زِلْزَالَهَا وَأَخْرَجَتِ الْأَرْضُ أَثْقَالَهَا

(əl-Zilzal, 99/1-2)

«Yer özünəməxsus bir şiddətlə lərzəyə gəlib titrəyəcəyi zaman. Yer öz ağır yüklərini çıxardıb atacağı zaman…».

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

الْقَارِعَةُ مَا الْقَارِعَةُ وَمَا أَدْرَاكَ مَا الْقَارِعَةُ يَوْمَ يَكُونُ النَّاسُ كَالْفَرَاشِ الْمَبْثُوثِ وَتَكُونُ الْجِبَالُ كَالْعِهْنِ الْمَنفُوشِ

(əl-Qariə, 101/1-5)

«Ürəkləri dəhşətə salan qiyamət! Nədir qiyamət?! Sən nə bilirsən (haradan bilirsən) ki, nədir qiyamət?! O gün insanlar kəpənək kimi ətrafa səpələnəcək (çəyirtkə kimi bir-birinə qatışacaq) Dağlar isə didilmiş yun kimi olacaq!»

İndi beytlə bağlı bu zəruri informasiya qaynaqları əsasında şairin ifadə etmək istədiyi ideya və fikirləri şərh edək. **Öncə onu deyək ki, dördüncü nəti iki hissəyə ayırmaq olar. İsrafil adlı mələyin adının çəkilməsinədək olan beytlər və sonrakı beytlər. Hz. Nizami birinci bölmədə dövrünün bütün eybəcərliklərini bədii vasitələrlə göstərmiş və islam peyğəmbərinin gəlişinin zəruriliyini əsaslandırmışdır. İsrafil adlı mələyin adının çəkilməsindən sonra isə şair zalımlar dünyasının dağıldığını təsvir etmiş, bunu istəmiş**

**və hz. Məhəmmədin (s.a.s) başçılığı ilə, onun ölçüləri ilə bir cəmiyyətin qurulacağını istəmişdir.**

İsrafil adlı mələyin adının çəkilməsindən sonrakı beytlərin məzmun və üslubu dəyişmiş, şair, sanki artıq dağılmış, zalımları cəhənnəm atəşinə atılmış dünyadan sonrakı mərhələni təsvir etmişdir. İndi bu düşüncəni əsaslandıracaq əlamətlərə baxaq.

Şair ikinci hissədə artıq zalımlardan, «qapıbağlayanlar»dan, «evlərə doluşmuş cinlərdən» danışmır, onlar artıq məhv olmuşlar, artıq mübarək islam Peyğəmbəri gəlmişdir. İkinci hissədə bu ideya və məzmuna uyğun söz və ifadələr seçilmişdir. **İkinci hissəyə daxil olan beytlərin söz tərkibinə baxmaq dediklərimizi açıq göstərir: «Ey Məhəmməd, əlini qaldır», «ey Məhəmməd, hamıya əl tut», «ancaq haqq sənin xoşuna gəlir», «heç kimin səndən bir tələbi yoxdur», «qayğı gözü ilə baxsan, çətin işləri həll edərsən», «barmağınla bir dairə cız», «hər şey sənə bəxş olunsun», «sənin işinə heç kim qarışa bilməz», «sən pərdəni üzündən götürsən, hər iki cahan xirqəsini əynindən çıxarar», «Nizami Sənin xəbərini arayır», «Sən ənbər ətri saçırsan», «Nizamiyə vəfadarlıq ətri bağışla».**

Deməli, hz. Nizaminin bu beytdə qiyaməti xatırlatması bir neçə məsələ ilə bağlıdır. Hər şeydən öncə şair qiyaməti xatırlatmaqla öncəki beytlərlə əlaqə qurmuş, yaşadığı dövrün çox çətin olduğunu, zalımların zülmünün dərəcəsini göstərmişdir. Yəni bu dövrdə elə bir zülm var ki, şair qiyamətin olmasını istəyir. Şair bu qaranlıq, qapalı, qapısı bağlı mühit yaratmış zalımların cəhənnəm əhli olacağını düşünür və onların cəhənnəm atəşində yanmasını istəyir. **Şairin təsvirində qiyamət şər mühitinin sonu, yeni, ilahi ölçülərlə yaşayacaq bir cəmiyyətin başlanğıc, doğuluş**

**tarixidir. Şairin təsvirində qiyamət onun görmək istəmədiyi və görmək, yaşamaq istədiyi cəmiyyəti, əxlaqi ölçüləri bir-birindən ayıran, onlar arasına sərhəd çəkən bir hadisədir, bir andır.**

Qiyamətdən öncəki dünyada zalımlar və məhkumlar, inananlar və kafirlər, uca Allaha (c.c) könül verənlər və şeytana uyanlar, əxlaqlılar və əxlaqsızlar bir arada yaşayırlar. Ancaq qiyamətdən sonrakı dünya hər şeyin bilindiyi, insanların dəyərlərə, inanclara görə seçildiyi, ilahi ədalətin öz yerini tutduğu bir dünyadır. Bu iki bir-birinə zidd sistemi, əxlaqı və düşüncəni ayıracaq hadisə və gün qiyamətdir. Bəs bu ilahi ədalətin hakim olacağı, insanların azad, qorxusuz, uca Allahın (c.c) buyruqlarına uyğun yaşayacağı cəmiyyəti kim qura bilər? Şairə görə, o mübarək insanın adı hz. Məhəmməddir (s.a.s).

Şairin təsvirində qiyamət o mənadadır ki, bu zalımlar, «qapıbağlayanlar» dünyasına son verəcək bir imkan, güc və şərait yoxdur. Onları ancaq qiyamət adlı müdhiş bir hadisə məhv edə bilər.

Nizaminin təsvirində qiyamət şairin ilahi ədalətə inancının göstəricisidir. Şair inanır ki, qiyamət var, axirət var, ilahi ədalət var və o, mütləq bərqərar olacaq. Şair ilahi qanunlarla yaşayan bir cəmiyyətin bu dünyada da qurulmasını istəyir, bu cəmiyyətin qurulması uğrunda mübarizə aparır. Çünki bu hər bir müsəlmanın uca Allah (c.c) tərəfindən müəyyənləşdirilmiş borcu və vəzifəsidir.

Haqq, ədalət, azadlıq və uca Allahın (c.c) rizasını qazanmaq uğrunda mücadilə etməyən bir insanın müsəlmanlığına kim inanar? Bu anlayış hz. Nizaminin insan sevgisinin açıq ifadəsidir. Şairin zülmə nifrəti, ilahi ədalətə sevgisi elə güclüdür ki, o, qiyamətin qopmasını, şərin yuvasının

dağılmasını istəyir. Şairə görə, ədalətli cəmiyyət ancaq ilahi qanunlarla, ölçülərlə və hz. Məhəmmədin (s.a.s) başçılığı ilə qurula bilər. Bu şairin idealı, düşüncəsi və hədəfidir.

Beytin birinci misrasında daha bir maraqlı məsələ var. Şair deyir ki, ey Məhəmməd (s.a.s), İsrafilə buyruq ver və qiyamət başlasın. Dini anlayış baxımından hz. Məhəmmədin (s.a.s) belə bir səlahiyyəti, yetkisi varmı? Dini baxımdan yoxdur, çünki İsrafil bir mələkdir və başqa mələklər kimi o da ancaq uca Allahın (c.c) buyruqlarını yerinə yetirir.

وَقَالُوا اتَّخَذَ الرَّحْمَنُ وَلَداً سُبْحَانَهُ بَلْ عِبَادٌ مُّكْرَمُونَ لَا يَسْبِقُونَهُ بِالْقَوْلِ وَهُم بِأَمْرِهِ يَعْمَلُونَ

(əl-Ənbiya, 21/26-27)

«(Kafirlər:) «Rəhman (mələklərdən özünə) övlad götürdü!»,- dedilər. O, pakdır, müqəddəsdir! (Belə şeylərdən tamamilə uzaqdır!) Xeyr, (mələklər Onun övladı deyil, xəlq etdiyi) möhtərəm qullardır. (Mələklər) Ondan qabaq söz danışmaz, yalnız Onun əmri ilə iş görərlər».

Ancaq hz. Nizaminin islam Peyğəmbərinə İsrafilə buyruq verməsi ilə bağlı dediyi sözün də öz mənası var. **Hər şeydən öncə onu deməliyik ki, divan ədəbiyyatında, o sıradan nətlərdə peyğəmbərin mələklərdən daha üstün bir varlıq olduğu ifadə edilmişdir. Hz. Nizami də bu ənənəyə uyğun olaraq islam peyğəmbərinin gücünü, dəyərini, şərəf və izzətini ifadə etmək üçün bu vasitədən istifadə etmişdir.**

Daha sonra məsələnin bu biçimdə qoyuluşu hz. Nizaminin islam Peyğəmbərinə sevgisinin, aşiqliyinin bədii bir biçimdə ifadəsidir.

Şair, əslində, islam Peyğəmbərinin uca Allaha (c.c) bu zülmə son qoyulması ilə bağlı dua etməsini istəyir, Onun

duasının qəbul olunacağına inanır. İsrafil adlı mələk birbaşa qiyamətlə bağlı olduğundan bir vasitəçi olaraq onun adı beytin mətninə daxil olur.

**Şair, hz. Məhəmmədin (s.a.s) İsrafilə buyruq verməsi anlayışı ilə yaşadığı dövrdəki zülmün şiddətini göstərmək istəyir. Yəni qiyamətin olması, nə vaxt olacağı, bunun gerçəkləşdirilməsi yalnız uca Allaha (c.c) aid bir məsələdir. Sadəcə olaraq, zülm elə şiddətlidir ki, şair tez bir zamanda qiyamətin olmasını istəyir və bunun üçün də peyğəmbərin dua etməsini istəyir.**

Şair yaşadığı dövrün zülmünün dərəcəsini göstərmək üçün yuxarıda dediyimiz vasitədən başqa, bir də təkid, israr, yalvarış üslubunu seçir. Şair deyir: «qalx» («xiz»), «buyur» («befərmay»), yəni zülm ərşə dirəndi, ey Məhəmməd (s.a.s), qalx və qiyamətin qopması üçün uca Allaha (c.c) dua et! Bizcə, zülmün son həddini göstərmək üçün şair ən təsirli vasitələrdən birini seçmişdir.

**Hz. Nizaminin düşüncəsində islam Peyğəmbəri bir xilaskardır. Bir şəxsin xilaskarlığı da Onun yenilməzliyi, məğlubedilməz güc sahibi olması, insanların gözündə yaradılmışların ən əzəmətli olması ilə bağlıdır.** Bu beytdə şair islam Peyğəmbərini bütün əzəməti ilə təsvir etmişdir. O, elə bir iqtidar sahibidir ki, yaradılmış hər şeyin sonu demək olan qiyamətin qopması ilə bağlı İsrafil adlı mələyə buyruq verə bilər. Bizcə, bu da hz. Məhəmmədin (s.a.s) xilaskarlıq missiyasına uyğun seçilmiş bir gözəl vasitədir, peyğəmbər aşiqi Nizaminin sevdiyinə layiq bədii sözüdür.

Bu fikir bir də onunla təsdiq olunur ki, şair bütün nət boyu islam Peyğəmbərinin xilaskarlıq missiyasından danışır. **Nət boyu xilaskar islam Peyğəmbərinin Nizami qələmindəki təsviri belədir: «O xilaskar Mədinə örtüklüdür, o,**

**Məkkə niqablıdır, o, günəşdir (işığı hamıya və hər şeyə çatır, o yaradılmışlara can verir –xilaskar da belə deyilmi?),** o, aydır – gecənin qaranlığında yol göstərir – xilaskar da belə deyilmi? O, güldür, ətri insana rahatlıq verir, gözəlliyi insanın içini sevgi və gözəlliklə doldurur – xilaskar da belə deyilmi? Hamı onu görəndə sevinmirmi? Ümidi artıb, qorxusu azalmırmı, varlığında, gözlərində işıq doğulmurmu?

**O, xilaskardır, onun atı gündüzün qızıl köhləni, gecənin Qıratıdır – xilaskara aid əşyalar da qeyri-adi deyilmi?**

O, xilaskardır – dadımıza çatır, xilaskarın işi bu deyilmi? O, xilaskardır, dünyanı dəyişdirir, ilahi ölçülərə uyğun yeni bir cəmiyyət yaradır.

**O, xilaskardır – Onun səsi hər iki cahanı tutur. O, xilaskardır – Onun sözü can dərmanıdır, Onun sözü insanlar üçün ümiddir, işıqdır, cəhalətdən qurtuluş vasitəsidir.**

O, xilaskardır – Onun torpağı ölkələrə ətir saçır. O, xilaskardır – azğınları, ancaq özünü düşünənləri, xalqa zülm edən hökmdarları taxtından ancaq o sala bilər, xalqı günahkar ruhanilərin şərindən O qurtara bilər.

O, xilaskardır – insanları evlərə dolmuş cinlərdən ancaq O qurtara bilər, bu evlərə dolmuş cinləri yoxluq zirzəmisinə ancaq o ata bilər.

O, xilaskardır – ölkənin sərvətini qarınquluların, qarətkarların əlindən ancaq o ala bilər.

**O, xilaskardır – o ümmətin ruhudur, onsuz həyat yoxdur. O, xilaskardır – karvanın başçısı odur, azadlıq bayrağı Onun əlindədir. O, xilaskardır – yenilməz ordunun başçısı odur.**

O, xilaskardır – yer üzünü alçaqlardan təmizləyəcək güc yalnız ondadır. O, xilaskardır – İsrafil adlı mələyə buyruq vermək gücündədir.

Nətin sonrakı beytlərində də hz. Nizami islam Peyğəmbərinin xilaskarlıq missiyasını müxtəlif vasitələrlə təsvir etmişdir. Biz o beytləri şərh edərkən şairin peyğəmbərin xilaskarlıq missiyası anlayışına yenə də yer ayıracağıq.

Şair, bu beytdə də təkid, israr üslubundan istifadə etmişdir. O, bunun üçün «dur», «buyur» sözlərindən yararlanaraq yaşadığı cəmiyyətin ehtiyacını ifadə etmişdir.

Hz. Nizami beytin ikinci misrasında qiyamət anlayışına və yaşadığı dövrün zülmünə görə qiyamətin qopmasını istəməsinə daha açıq rəngdə ifadə örtüyü seçmişdir. Şair deyir ki, ey Məhəmməd (s.a.s) dur və İsrafilə buyur ki, bu iki-üç qəndili küləyə tutsun. Burada şair nəyə işarə etmişdir?

Hər şeydən öncə şair «iki-üç qəndil» deyərkən Günəşi, Ayı və ulduzları nəzərdə tutmuşdur. Misradakı «qəndil» sözü də bunu açıqca göstərir. Çünki qəndil işıq anlayışını ifadə edir. «İki-üç qəndil»in söndürülməsi isə qiyamətin əlamətidir. Bu, Qurani-Kərimdə açıq ifadə edilmişdir:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

إِذَا الشَّمْسُ كُوِّرَتْ وَإِذَا النُّجُومُ انكَدَرَتْ وَإِذَا الْجِبَالُ سُيِّرَتْ

(ət-Təkvir, 81/1-3)

«Günəş (əmmamə kimi) sarınıb büküləcəyi (sönəcəyi) zaman. Ulduzlar (göydən qopub yağış dənələri kimi yerə) səpələnəcəyi zaman. Dağlar yerindən qopardılacağı (toz kimi havada uçacağı) zaman …».

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

إِذَا السَّمَاءُ انفَطَرَتْ وَإِذَا الْكَوَاكِبُ انتَثَرَتْ وَإِذَا الْبِحَارُ فُجِّرَتْ

(əl-İnfitar, 82/1-3)

«Göy parçalanacağı zaman. Ulduzlar dağılıb səpələnəcəyi zaman. Dənizlər (qaynayıb bir-birinə) qarışacağı zaman...».

Qurani-Kərimdə qiyamət günü Günəşin, Ayın və ulduzların sönəcəyi açıqca bildirilmiş, şair də bu həqiqəti «iki-üç qəndili» üfürüb söndürmək kimi ifadə etmişdir. **Şairin bu təsbiti Qurani-Kərimdə qiyamətlə bağlı ayələrin adları ilə, bu adlarda kodlaşmış mənalarla da uyğundur. Məsələn, «ət-Təkvir» -sönmə, sarınma, «əl-İnfitar» - parçalanma, «əl-İnşiqaq» - yarılma, «əl-Ğaşiyə» - bürüyən, «əl-Qariə» - ürəkləri dəhşətə salan qiyamət, «əz-Zilzal» - zəlzələ.**

Yəni qiyamətlə bağlı bu ayələrin adında həyatın sonu, həyat əlaməti olan Günəş, Ay və ulduzların sönəcəyi, üfürülüb söndürüləcəyi fikri ifadə olunmuşdur. Məsələn, «təkvir» (sönmə, sarınma) böyük islam alimi Əbul-Əla Mövdudiyə görə, misilsiz bir anlayışın ifadəsidir. **Ərəbcə «təkvir» sarınma, sönmə, bükülmə anlamlarına gəlir. Alimə görə, bu anlayış başdakı sarığın sarılması şəklində ifadə edilir. Çünki sarıq açıq ikən dağılır. Bu münasibətlə «təkvir» Günəş şüalarının yayılmasına bənzədilmişdir. Yəni Günəş şüaları sarıq kimi dağılmış və ətrafa yayılmışdır. Qiyamət günündə də sarıq kimi toplanacaq və o zaman Günəş sönəcək. Yəni Günəş sistemi dağılacaq və ulduzlar sönəcək.**[432]

Hz. Nizami qiyamət anlayışından yararlanaraq həm dövrün zülmünü anlatmış, həm yeni bir cəmiyyətin qurulması zərurətini ifadə etmiş, həm də hz. Məhəmmədin (s.a.s) xilaskarlıq missiyasını şərh etmişdir.

---

[432] Əbul-Əla Mevdudi, «Tefhimul-Kuran», İstanbul, 1997, c. VII, s. 48-49.

## ON DOQQUZUNCU BEYTİN ŞƏRHİ:
## SİRLƏR PƏRDƏSİNİN ARDINDA OTUR

خلوتـــــــــى پرده اسرار شـــــو
مـــــا همـــه خفتيم تـــو بيدار شو

*Sirlər pərdəsinin ardında otur,*
*Biz hamımız yatmışıq, sən isə ayıq ol.*[433]

Hz. Nizami bu beyti də ideya baxımından dördüncü nətin (sitayişin) məzmunu - hz. Məhəmmədin gəlişinin zəruriliyi ideyası ilə bağlıdır. Şair bu ideyanı, bu məzmunu bədii biçimdə təqdim etmək üçün ehtiyac və zəruriliyi əsaslandıran sevgi və həsrət yüklü poetik vasitələr seçmişdir. Bu beytdə də şair bir sıra belə vasitədən yararlanmışdır. Şair öncəki beytlərdə hz. Məhəmmədi (s.a.s) yardıma, döyüşə çağırır. Bu beytdə isə artıq gəlməkdə olan bir peyğəmbər təsvir olunur.

**Şair hz. Məhəmmədə (s.a.s) olan sevgini ifadə etmək üçün Ona gizli gəlməyi, sirlər pərdəsinin arxasında oturmağı, üzə çıxmamağı tövsiyə edir, daha doğrusu, israr edir («şəv» - «ol» deyir).** Niyə? Burada şairin bir neçə məqsədi var. Öncə onu deyək ki, şair islam Peyğəmbərinin gəlişinin zəruriliyini əsaslandırmaq üçün bütün nət boyu yaşadığı dövrün zülm girdabında boğulduğunu göstərən bədii vasitələrdən istifadə etmişdir. **Şair yaşadığı çağın eybəcərliyini göstərmək üçün öncəki beytlərdə: «fəryadımız sənin üçündür», «dadımıza çat», «atını Əcəmə tərəf çap», «Ərəbistanda oturma», «gecənin Qıratı səni gözləyir», «bu köhnə dünyanı təzələ», «fitnə**

433 Nizami Gəncəvi, göstərilən qaynaq, s. 38.

**küləyi gəlib o ətri apardı», «rahatlananları hökmranlıq taxtından düşür», «minbəri günahkar ruhanilərin çirkindən yu», «hökmdarlar və günahkar ruhanilər evdə yaşayan cinlərdir», «onları yoxluq zirzəmisinə at», «onların ruzilərini azalt», «onlar qarınquludurlar», «onlar qarətkardırlar», «onlar dinin altında yarğan açdılar», «onlar pusqu qururlar», «Əlini döyüş meydanına göndər», «Öməri şeytanın qarşısına yolla», «onlar qapıbağlayanlardır», «onlar alçaldılmışlardır», «məhşər gününün başlaması üçün İsrafilə buyruq ver» kimi dövrün zülmünü və zalımlarını təqdim edən son dərəcə dəqiq, bədii, yaddaqalan söz və ifadələr seçmişdir.** Şair bu yolla da islam peyğəmbərinin gəlişinin zəruriliyi ideyasını əsaslandırmışdır.

Şair bu beytdə də ideyaya uyğun yeni bir bədii vasitə seçmişdir. Şair beytdə dövrün zülmünü, zalımların çox təhlükəli olduğunu göstərmək üçün deyir ki, ey Məhəmməd (s.a.s), gizli gəl, gəlişini bir kimsə bilməsin, «sirlər pərdəsinin» arxasında otur, yəni yaxşı qorun, işini ehtiyatlı tut, təhlükəsizliyini təmin etməyin yolu da işlərini gizli görməkdir, sirr saxlamaqdır.

Burada şairin seçdiyi ən uğurlu, ən dəqiq, ən təzə ifadə «sirlər pərdəsi»dir. Çünki bu ifadə həm dövrün zülmünü, həm zalımların amansızlığını, həm də şairin və insanların mübarək Peyğəmbərə olan sevgisini, onu itirmək qorxusunu (sevgi artdıqca qorxu da artır, sevən sevdiyini itirməkdən qorxar) gözəl ifadə edir.

Şair deyir ki, ey sevgimiz, ehtiyacımız, xilaskarımız, həsrətimiz olan Peyğəmbər, sirlər pərdəsinin arxasında özünü gizlə, yoxsa bu zalımlar səni görər və öldürər, islamın nuru sönər və biz başsız, ümidsiz qalarıq.

**«Sirlər pərdəsi» anlayışı ilə şair demək istəyir ki, ey nurlu Peyğəmbər, gəlişinin, gəlişinin vaxtını, niyyət və məqsədini, gələcəyin yolu, qalacağın yeri, görəcəyin işləri, təhlükəsizliyinə bağlı heç bir məsələni bir kimsəyə söyləmə. Bu ən doğru yoldur. Zalımlarla mübarizədə uğur qazanmağın, özünü qorumağın tək yolu budur.**

Zülmü, təhlükəni, eyni zamanda sevgi və aşiqliyi bir arada anladan «sirlər pərdəsi» ifadəsinə şairin yerləşdirdiyi məna budur.

Hz. Nizaminin islam Peyğəmbərinə olan sevgini, həsrət və ehtiyacı ifadə etmək üçün beytin mətninə yerləşdirdiyi sözlərdən biri də «oyaq ol» («ayıq ol») ifadəsidir. Şair bu sözü əmr, istək, təkid formasında işlətmişdir («bidar şəv»). Bu da bir neçə məna ilə bağlıdır.

Şair hər şeydən öncə «oyaq ol» ifadəsi ilə diqqəti dövrün zülmünə, zalım padşahlarına yönəltmişdir. Yəni indi vəziyyət çox ağırdır, bu zalım idarəçilər öz mənafelərini qorumaq üçün islam Peyğəmbərini belə, öldürməyə hazırdırlar. Ona görə də, hz. Məhəmməd (s.a.s) ayıq olmalıdır. Şair bunu təkid formasında ifadə edir. Bu isə bir yandan öncəki beytlərlə forma və məzmun əlaqəsi qurmağa xidmət edir (öncəki beytlərdə təkid biçimində deyilmiş «döyüşə yolla», «başına sal», «çıxar», «kəmərini bağla», «məhv et», «məclisə tələs», «buyur», «otur», «ol» sözlərlə əlaqə yaradılır). Başqa yöndən isə daha iki məqsədin ifadə vasitəsinə çevrilir. Həm islam Peyğəmbərinə sevgini, həm də ehtiyacı ifadə edir. Çünki buradakı təkid üslubu peyğəmbərə əmr etmək anlamında deyil, əksinə, onun başına bir iş gəlmək qorxusu ilə, təhlükənin miqyasının böyüklüyünü göstərmək üçün seçilmişdir. Bir də şair yaşadığı dövrün fitrəti pozulmuş bir cəmiyyət olduğunu, insanların peyğəmbərə olan ehtiyacının ölçüsünü bu təkidli, israrlı çağırış üslubu ilə ifadə etmişdir.

Şair «oyaq ol» («ayıq ol», yəni «ehtiyatlı ol») ifadəsini «biz hamımız yatmışıq» ifadəsi ilə birgə işlətmişdir. Burada

da şair bir neçə mənanı ifadə etmişdir. Ümumi nətin və bu beytin məzmunundan belə anlaşılır ki, şair «biz hamımız yatmışıq» deyərkən indi biz hamımız qəflət yuxusundayıq, cəmiyyətimiz öz gerçək dəyərlərini itirmişdir, insanlar uca Allah (c.c) və peyğəmbərin buyruqlarından uzaqlaşmış və nəticədə «qapıbağlayanlar»ın yaratdığı qaranlıq mühitdə, özündən xəbərsiz yaşayan toplum formalaşmışdır. Bu yozuma uyğun olaraq şair demək istəyir ki, ey Məhəmməd (s.a.s), gəl və bizi qəflət yuxusundan oyat, bizi özümüzə, öz dəyərlərimizə qaytar.

Şairin «biz hamımız yatmışıq» qəlibinə yerləşdirdiyi başqa bir məna isə odur ki, bizim həyatımız üçün yaranacaq təhlükənin elə bir önəmi yoxdur, ey Məhəmməd (s.a.s), ancaq sən özünü qoru, oyaq ol, çünki önəmli olan sənin mübarək həyatındır.

Bu beytdə, eləcə də bütün nətdə diqqəti çəkən ən önəmli məsələlərdən biri də odur ki, şair nət boyu hz. Məhəmməddən (s.a.s) əbədiyyətə qovuşmuş bir mübarək varlıq kimi deyil, diri olan, hökm və iqtidar sahibi, canlı, ətir saçan, buyuran, səhabələrini döyüşə yollayan, bizi xilas edən bir lider kimi danışır. Şairin «Biz hamımız yatmışıq, sən ayıq ol» dəyərləndirməsi bir də bu mənada anlaşılmalıdır.

Şair beytdə «biz hamımız yatmışıq, sən oyaq ol» deyərkən bir də onu nəzərdə tutur ki, islam Peyğəmbəri bizim hamimizdir, bizim qoruyucumuzdur, ümmətin sığınacaq yeridir. Hamı yatsa da o, oyaqdır. Bizcə, bu deyim hz. Məhəmmədin (s.a.s) ümmətinə olan sevgisini, şəfqət və mərhəmətini gözəl ifadə edir.

## İYİRMİNCİ BEYTİN ŞƏRHİ: ƏLİNİ QALDIR VƏ HAMIYA ƏL TUT

ز آفت این خانه آفت پذیر
دست برآور همه را دست گیر

***Bu afətə məruz qalmış günbəzin afətindən,***
***Əlini qaldır və hamıya əl tut.***[434]

Biz öncəki beytlərin şərhində bildirmişdik ki, şair dördüncü nəti iki hissəyə ayırmışdır. İsrafil adlı mələyin sura üfürməsi ilə qiyamətin başlanacağını ifadə edən beytədək şair daha çox yaşadığı dövrün zülmünü anlatmış və islam Peyğəmbərinin gəlişinin zəruriliyini əsaslandırmışdır. Bundan sonrakı beytlərdə isə şair hz. Məhəmmədin (s.a.s) xilaskarlıq missiyasının özəlliklərini və onun quracağı cəmiyyətin dəyərlərini şərh etmişdir.

Bu beytin birinci misrasında şair afətə məruz qalmış günbəzin təhlükəsindən danışır. Misranın mətnində iki anlayış diqqəti cəlb edir. Şair birinci misrada afətə məruz qalmış günbəz təsvir edir. Şair günbəz obrazı ilə bir neçə məsələyə işarə etmişdir. Hər şeydən öncə günbəz şairin təqdimatında yer kürəsidir. Burada şair yer kürəsini bir günbəz kimi təsvir etməklə hz. Məhəmmədin (s.a.s) peyğəmbərlik missiyasında – xilaskarlıq vəzifəsini önə çəkmişdir. Yəni hz. Məhəmməd (s.a.s) peyğəmbərlərin sonuncusudur və O, bir millətə deyil, bütün insanlığa göndərilmişdir. Bütün yer üzünü islam nuru ilə işığa qərq etmək onun vəzifəsidir.

مَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِّلْعَالَمِينَ

(əl-Ənbiya, 21/107)

«Səni də (ey Rəsulum!) aləmlərə (bütün insanlara və cinlərə) ancaq bir rəhmət olaraq göndərdik (sən təkcə

---

[434] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 38.

insanlara deyil, eyni zamanda cinlərə də peyğəmbər göndərilmisən. Bütün aləmlər əhli, o cümlədən göydəki mələklər, yerdəki insanlar və cinlər sənin vücudunda şərəfə nail olurlar. Sənin sayəndə günahkarlara möhlət verilmiş, hətta, səni inkar edənlərin belə cəzası qiyamətə qədər təxirə salınmışdır. Möminlər isə sənə iman gətirməklə dünyada böyük savab qazanıb axirətdə yüksək dərəcələrə, əbədi səadətə nail olacaqlar)».

Şairə görə, yer kürəsində (günbəzdə) qurulmuş cəmiyyətlər ilahi ölçülərdən uzaqlaşmış, insanlar uca Allahın (c.c) onlara verdiyi fitrətdən uzaqlaşmış və nəticədə yer üzündə ilahi nizam pozulmuşdur. Bu pozulmuş nizamı yenidən bərpa edəcək, ilahi ölçülərə uyğun cəmiyyət quracaq tək insan da hz. Məhəmməddir (s.a.s).

Şair deyir ki, bu günbəz, yəni yer kürəsi, yəni uca Allahın (c.c) insanların rahat yaşaması üçün yaratdığı məkan afətə məruz qalmışdır. Afətə məruz qalmaq nə deməkdir? Yəni bu günbəz – yer kürəsi zülm, haqsızlıq, ədalətsizlik, əxlaqsızlıq, yalan, rüşvət, saxtakarlıq, elmsizlik afəti ilə bir cəhənnəmə çevrilmişdir. İndi insanları bu cəhənnəm əzabından qurtaracaq tək insan hz. Məhəmməddir (s.a.s).

Şair «bu günbəz afətə məruz qalmışdır» deməklə həm də öncəki beytlərlə əlaqə qurmuşdur. Yəni artıq qiyamət baş vermiş və insanlar böyük bir bəlaya düçar olmuşlar. Bu ağır günün əzabından onları qurtaracaq xilaskar isə hz. Məhəmməddir (s.a.s).

Şair beytin ikinci misrasında hz. Məhəmmədə (s.a.s) olan sevgini, inamı, ehtiyacı, Onun xilaskarlıq missiyasını, eləcə də yaşadığı dövrün zülm və əzabını anlatmaq üçün iki gözəl vasitədən istifadə etmişdir. **Şair ikinci misrada deyir ki, ey Məhəmməd (s.a.s), «əlini qaldır» və «hamıya əl tut».**

**Misrada «əlini qaldır» ifadəsi o deməkdir ki, artıq zülmə son qoyacaq bir insan var. O, «əlini qaldıracaq», yəni zülmə, zalıma, ədalətsizliyə cəhalət və qaranlığa yox deyəcək, O, «qapıbağlayanlar»ın qapısını bağlayacaq. «Əl qaldırıb» zülmə yox demək xilaskarın vəzifəsidir.**

Şair daha sonra deyir ki, ey Məhəmməd, «hamıya əl tut». Misradakı «hamı» sözü bütün insanlığa aiddir. Yəni islam Peyğəmbəri bütün insanlığın xilaskarıdır, hamıya əl tutmaq onun vəzifəsidir. Misradakı «əl tutmaq» ifadəsi həm islam Peyğəmbərinin uca Allah (c.c) tərəfindən müəyyənləşdirilmiş vəzifəsini, həm Onun gücünü, həm Ona olan ehtiyacı, həm Ona olan sevgini, həm də Onun xilaskarlıq missiyasını gözəl ifadə edir.

«Əl tutmaq» anlayışı çətinliyi, ehtiyacı ifadə etməklə birgə, əl tutanın güclü, xeyirxah, mərhəmətli olduğunu da göstərir. Bu islam Peyğəmbərinin gözəl əxlaqının ölçüsüdür.

لَقَدْ جَاءكُمْ رَسُولٌ مِّنْ أَنفُسِكُمْ عَزِيزٌ عَلَيْهِ مَا عَنِتُّمْ حَرِيصٌ عَلَيْكُم بِالْمُؤْمِنِينَ رَؤُوفٌ رَّحِيمٌ

(ət-Tövbə, 9/128)

«(Ey ümmətim!) Sizə özünüzdən bir peyğəmbər gəldi ki, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərə şəfqətli, mərhəmətlidir!»

وَإِنَّكَ لَعَلى خُلُقٍ عَظِيمٍ

(əl-Qələm, 68/4)

«Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən»

Misrada «əl tutmaq» anlayışı doğru yolu göstərmək anlamında da işlədilmişdir. Yəni biz zülmün, cəhalətin, qaranlığın təsiri ilə yolumuzu azmışıq, gəl və bizə doğru yolu göstər, əlimizdən tut, bizi bu zülm bataqlığından xilas et.

Beytin ideyasının, yəni hz. Məhəmmədin (s.a.s) xilaskarlıq missiyasının əyaniliyini təmin edən səhnə təsvir edilmişdir. Ağır bir fəlakət, afət nəticəsində günbəz (ev, insanların yaşadığı geniş məkan) uçmuş və insanlar onun altında qalmışlar, onlar yardım istəyirlər. Belə bir vəziyyətdə hz. Məhəmməd (s.a.s) bir xilaskar kimi əlini uzadıb, onları bu uçmuş günbəzin qalıqları altından çıxarır.

## İYİRMİ BİRİNCİ BEYTİN ŞƏRHİ:
## SƏN ANCAQ DOĞRU OLANI SEVİRSƏN

هر چه رضای تـــو بجز راست نیست
با تـو کســی را سر وا خواست نیست

***Sənin xoşuna gələn haqdan (doğruluqdan) başqa bir şey deyil,***

***Heç kimin səndən bir tələbi yoxdur.***[435]

Hz. Nizami bu beytdə islam dininin, hz. Məhəmmədin (s.a.s) əxlaq ölçülərindən birinə – doğruluğa, doğru sözə ayrıca yer vermişdir. Bunun səbəbi odur ki, şair öncəki beytlərdə tənqid etdiyi, dağılmasını istədiyi və bunun üçün peyğəmbəri köməyə çağırdığı zülm cəmiyyətinin əsas xüsusiyyətləri içərisində yalanı ayrıca qeyd etmişdir. Yəni şairə görə, «qapıbağlayanlar»ın idarəçiliyinin əsasında yalan durur, onlar xalqı aldadırlar, onların cəmiyyətində hər şey yalan və saxtakarlıq donuna bürünüb. Yalan isə bir əxlaqsızlıq, inamsızlıq, ədalətsizlikdir. Yalan uca Allahı (c.c) unutmaqdır.

Ona görə də, şairin təqdimatında yalan bu zülm cəmiyyətin dağılma səbəbi kimi göstərilmişdir. Şairə görə, bu yalan üzərində qurulmuş zülm cəmiyyəti yalanın ziddi olan doğruluqla, doğru sözlə, doğru əxlaqla sağala bilər, yalan xəstəliyinin dərmanı doğru sözdür.

Şairə görə, hz. Məhəmməd (s.a.s) bir xilaskardır və xilaskar şəxsin əxlaq ölçülərindən biri də doğruluqdur. Beytdə şair doğruluğu həm hz. Məhəmmədin (s.a.s) əxlaq ölçüsü,

[435] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 38.

həm zülm cəmiyyətindən qurtuluş yolu, həm də qurulacaq yeni ədalət cəmiyyətinin əsası kimi təqdim etmişdir.

Bilindiyi kimi, doğruluq islam əxlaqının əsaslarından biridir. Quranda buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ وَكُونُواْ مَعَ الصَّادِقِينَ

(ət-Tövbə, 9/119)

«Ey iman gətirənlər! Allahdan qorxun və (imanında, sözündə, işində) doğru olanlarla olun».

إِنَّ الْمُسْلِمِينَ وَالْمُسْلِمَاتِ وَالْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ وَالْقَانِتِينَ وَالْقَانِتَاتِ وَالصَّادِقِينَ وَالصَّادِقَاتِ وَالصَّابِرِينَ وَالصَّابِرَاتِ وَالْخَاشِعِينَ وَالْخَاشِعَاتِ وَالْمُتَصَدِّقِينَ وَالْمُتَصَدِّقَاتِ وَالصَّائِمِينَ وَالصَّائِمَاتِ وَالْحَافِظِينَ فُرُوجَهُمْ وَالْحَافِظَاتِ وَالذَّاكِرِينَ اللَّهَ كَثِيراً وَالذَّاكِرَاتِ أَعَدَّ اللَّهُ لَهُم مَّغْفِرَةً وَأَجْراً عَظِيماً

(əl-Əhzab, 33/35)

«Həqiqətən, Allah məhz müsəlman kişilər və qadınlar, mömin kişilər və qadınlar, (Allaha) müti kişilər və qadınlar, doğru danışan kişilər və qadınlar, səbirli kişilər və qadınlar, təvazökar (yalnız Allah qarşısında kiçilən) kişilər və qadınlar, sədəqə verən, oruc tutan kişilər və qadınlar, eyib (övrət) yerlərini (zinadan) qoruyub saxlayan kişilər və qadınlar, Allahı çox zikr edən kişilər və qadınlar üçün (axirətdə) bağışlanma və böyük bir mükafat (cənnət) hazırlamışdır».

طَاعَةٌ وَقَوْلٌ مَّعْرُوفٌ فَإِذَا عَزَمَ الْأَمْرُ فَلَوْ صَدَقُوا اللَّهَ لَكَانَ خَيْراً لَّهُمْ

(Məhəmməd, 47/21)

«İtaət etmək və gözəl bir söz demək (sənin əmrini dinməz-söyləməz yerinə yetirmək, iş qətiləşdiyi onlara cihad vacib olduğu) zaman Allaha (verdikləri vədə) sadiq olsaydılar, sözsüz ki, onlar üçün daha yaxşı olardı!».

İslam Peyğəmbərinə görə, sözdə və işdə doğruluq insanı xeyrə, yaxşılığa yönəldir. Belə insan uca Allah (c.c) yanında sadiq insan olaraq qeyd edilir. Yalan isə insanı yoldan çıxarar. Doğru sözlü insanlarla birgə olmaq insanın qəlbində təqva (Allah qorxusu) duyğusu yaradır.[436]

İslam Peyğəmbərinə görə, insan şübhəli şeylərdən (o sıradan şübhəli sözdən) uzaq durmalıdır. İnsan könlünə yatmayan şeylərə yaxınlaşmamalıdır. Doğru sözdə səmimilik var, xalis olmayan əməlləri Allah (c.c) qəbul etməz. Yalan bərəkəti azaldar və yox edər.[437]

Uca Allah (c.c) Qurani-Kərimdə doğru olmağı buyurur:

فَاسْتَقِمْ كَمَا أُمِرْتَ وَمَن تَابَ مَعَكَ وَلاَ تَطْغَوْاْ إِنَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

(Hud, 11/112)

«(Ey Rəsulum!) Sənə əmr edildiyi kimi, düz (yolda) ol. Səninlə birlikdə iman gətirənlər (tövbə edib ardınca gedənlər) də düz (yolda) olsunlar. (Allahın əmrlərini pozub) həddi aşmayın, çünki O, sizin nə etdiklərinizi görəndir!».

Uca Allah (c.c) Qurani-Kərimdə doğru danışanların, doğru yolda olanların, istiqamətdən ayrılmayanların böyük mükafat alacaqlarını vəd edir:

سورة فصلت إِنَّ الَّذِينَ قَالُوا رَبُّنَا اللَّهُ ثُمَّ اسْتَقَامُوا تَتَنَزَّلُ عَلَيْهِمُ الْمَلَائِكَةُ أَلَّا تَخَافُوا وَلَا تَحْزَنُوا وَأَبْشِرُوا بِالْجَنَّةِ الَّتِي كُنتُمْ تُوعَدُونَ نَحْنُ أَوْلِيَاؤُكُمْ فِي الْحَيَاةِ الدُّنْيَا وَفِي الْآخِرَةِ وَلَكُمْ فِيهَا مَا تَشْتَهِي أَنفُسُكُمْ وَلَكُمْ فِيهَا مَا تَدَّعُونَ

(Fussilət, 41/30-31)

«Şübhəsiz: «Rəbbimiz Allahdır!» - deyən, sonra da (sözündə) düz olan kəslərə (ölüm ayağında) mələklər nazil

---

436 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 279-293.

437 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 279-293.

olub (belə deyəcəklər): «Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! Bu dünyada da, axirətdə də sizin dostlarınızıq. Orada (cənnətdə) sizin üçün nəfsinizin çəkdiyi, istədiyiniz hər şey var».

İslam Peyğəmbərinə görə, islam dini uca Allahın (c.c) təkliyi və doğruluq üzərində qurulmuşdur. Doğruluq imanın göstəricisidir, bu dünya və axirət xoşbəxtliyinin açarıdır. İslam peyğəmbərinə görə, uca Allahın (c.c) rizasını qazanmağın tək yolu da doğruluqdur. Doğru ola bilmək, doğru yaşaya bilmək üçün də orta yolu tutmaq şərtdir.[438]

Hz. Nizami beytdə həm zülm cəmiyyətinin yıxılma, dağılma səbəbini göstərmiş, həm də yeni cəmiyyətin əsaslarını açıqlamışdır. Şairə görə, islam Peyğəmbərinin quracağı cəmiyyət doğruluq, ədalət, azadlıq prinsipləri üzərində qurulacaq. Şairə görə, heç kimin islam Peyğəmbərindən başqa bir tələbi yoxdur, insanlar ədalətli bir cəmiyyəti də ancaq hz. Məhəmmədin (s.a.s) qura biləcəyinə inanırlar.

---

[438] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 364-371.

## ÇƏTİN İŞLƏRİ HƏLL EDƏRSƏN

گر نظر از راه عنایت کنی
جمله مهمان کفایت کنی

***Əgər sən qayğı gözü ilə baxsan,***
***Bütün müşkül işləri həll edərsən.***[439]

Hz. Nizami nətin qaydalarına uyğun olaraq müraciət üslubunu davam etdirir. Şair öncəki beytlə bağlılıq quraraq insanların ədalətli cəmiyyət qurmaq arzusunu dilə gətirir. Şair incə bir üslubla islam Peyğəmbərini belə bir cəmiyyətin qurulmasına dəvət edir. Şair deyir ki, ey Məhəmməd (s.a.s), hər şey sənin bizə və məsələlərə qayğı və inayət gözü ilə baxmağından asılıdır. Əgər sən belə etsən, bütün çətin işlər həll olunar.

Şair bu fikrini ifadə edərkən «inayət» sözündən istifadə etmişdir. «İnayət»in lüğətdə xeyirxahlıq, iltifat, meyl, niyyət, çalışma kimi mənaları göstərilmişdir.[440] Deməli, buradan çıxış edərək deyə bilərik ki, şairə görə, yeni bir cəmiyyət qurmaq üçün ilk sırada istək və niyyət olmalıdır. Yəni hz. Nizami bu beytdə uca Allahın (c.c) rizasını qazanmaq, şərə, zülmə qarşı mübarizə aparmaq, yeni ədalətli bir cəmiyyət qurmaq, bütün çətin işləri həll etmək üçün başlıca prinsiplərdən biri olan niyyətin önəmini açıqlamışdır.

**İlk olaraq onu deyək ki, niyyət bir müsəlmanın həyat ölçüsüdür. İslam peyğəmbəri belə buyurur: «Görülən işlər niyyətlərə görə dəyərləndirilir. Hər kəs etdiyi işin qarşılığını niyyətinə görə alır. Kimin niyyəti Allaha və Rəsuluna qovuşmaq, onlara hicrət etməksə, əlinə keçəcək savab da Allaha və Rəsuluna hicrət savabıdır. Kim də əldə edəcəyi bir dünya malı, ya da**

---

[439] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 38.
[440] «Farsca-Azərbaycanca lüğət», Tehran, 1999, c. II, s. 130.

**evlənəcəyi bir qadına qovuşmaq üçün yola çıxmışsa, onun hicrəti də hicrət etdiyi şeyə görə dəyərlənir».**[441]

Niyyətin tərkib hissələrindən biri səmimiyyətdir, yəni bir şeyin doğruluğuna ürəkdən inanmaqdır. Bu mənada sağlam niyyət imanın bir parçasıdır. İslam peyğəmbəri buyurur: «Dil bir şeyə niyyət edərkən qəlb bu düşüncəyə bağlanmasa, niyyət məqbul olmaz».[442]

Doğru işlərə səmimi niyyət etmiş müsəlman uca Allahın (c.c) onu hər zaman gördüyünə, ona hər zaman nəzarət etdiyinə inanır. Uca Quran bu nöqtəyə işarə edərək belə buyurur:

لاَّ يَتَّخِذِ الْمُؤْمِنُونَ الْكَافِرِينَ أَوْلِيَاء مِن دُوْنِ الْمُؤْمِنِينَ وَمَن يَفْعَلْ ذَلِكَ فَلَيْسَ مِنَ اللّهِ فِي شَيْءٍ إِلاَّ أَن تَتَّقُواْ مِنْهُمْ تُقَاةً وَيُحَذِّرُكُمُ اللّهُ نَفْسَهُ وَإِلَى اللّهِ الْمَصِيرُ

(Ali-İmran, 33/28)

«(Ey Rəsulum!) De: «Ürəklərinizdəkini gizli də saxlasanız, aşkara da çıxartsanız (fərqi yoxdur), Allah onu bilir. Çünki O, göylərdə və yerdə nə varsa (hamısını) bilir. Allah hər şeyə qadirdir».

Uca Allah (c.c) insanlara niyyətlərinə görə dəyər verir və onları niyyətinə uyğun olaraq yönləndirir.

مَن كَانَ يُرِيدُ حَرْثَ الْآخِرَةِ نَزِدْ لَهُ فِي حَرْثِهِ وَمَن كَانَ يُرِيدُ حَرْثَ الدُّنْيَا نُؤتِهِ مِنْهَا وَمَا لَهُ فِي الْآخِرَةِ مِن نَّصِيبٍ

(əş-Şura, 42/20)

«Biz axirət qazancını (savabını) istəyənin qazancını artırar, dünya mənfəəti istəyənə də ondan verərik. Onun axirətdə heç bir payı yoxdur».

**İnsanın niyyəti onun hədəfi ilə sıx bağlıdır. Əgər insan böyük işlər görmək istəyirsə, uca Allahın (c.c)**

---

441 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 91.
442 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 91.

**rizasını qazanmaq istəyirsə, bu istəyə uyğun hədəf seçməlidir.** Bir müsəlmanın ən böyük hədəfi uca Allahın (c.c) rizasını qazanmaqdır. Hədəf doğru seçildikdən sonra ona uyğun niyyət edilməli və uca hədəfi gerçəkləşdirəcək iradə, çalışma, səbir, dözüm göstərməlidir.

Niyyət, sağlam bir hədəf seçmiş müsəlmanın özünü bütün varlığı, duyğusu, düşüncəsi, vaxtı, əməyi və iradəsi ilə uca Allaha (c.c) həsr etməsi, sevdiyi hədəfinə bağlanmasıdır.

Niyyət bir fədakarlıq, aşiqlik, sevgi hadisəsidir. Sağlam niyyət axirət inancının bir parçasıdır.

Niyyət etmiş insan üçün ən dəyərli şey vaxtdır, uca Allahın (c.c) verdiyi vaxtı doğru işlərə sərf etməkdir.

Hz. Nizami, əslində, bu beytdə zülm cəmiyyətindən, «qapıbağlayanlar»ın yaratdığı qaranlıq mühitdən qurtulmağın yolunu göstərmişdir. **Şairə görə, bu zülm cəmiyyətində yaşayan insanlar öncə belə bir cəmiyyətdə yaşamaq istəmədiklərini ifadə etməli, bu istəyə uyğun hərəkət etməli və yeni ədalətli bir cəmiyyətin qurulmasına niyyət edərək onun uğrunda mübarizə aparmalıdırlar.**

Beytin birinci misrasındakı «qayğı, niyyət gözü ilə bax» sözləri hansı mənanı ifadə edir? Hər şeydən öncə şair yaşadığı dövrün çətinliyini ifadə etmiş, bizim sənin qayğına ehtiyacımız var demişdir. Şair deyir ki, ey Məhəmməd (s.a.s), sən xilaskarsan, sən bizə yardım etməyi, bu zülm cəmiyyətini dəyişdirməyi niyyət etsən, hər şey dəyişəcək. Hər şey sənə bağlıdır, başqa çıxış yolu yoxdur. Gəl, bizə qayğı göstər, yəni bizə doğru yolu göstər, bizi bu zülmətdən qurtar, bizə mübarizə aparmağı öyrət.

İnsanlara qayğı göstərmək, onların çətinliklərini həll etmək, insanları zülmün pəncəsindən qurtarmaq xilaskarın özəllikləridir.

## İYİRMİ ÜÇÜNCÜ BEYTİN ŞƏRHİ: ƏL BARMAĞINLA BİR DAİRƏ CIZ

دایره بنمـــــای بـــــه انـگشـت دست
تا بـه تـو بـخـشـیـده شود هر چه هست

***Əl barmağınla bir dairə cız,***
***Ki, hər nə varsa, sənə bəxş olunsun.***[443]

Hz. Nizami bu beytdə bir sıra önəmli məsələyə toxunmuşdur. Şair bu beytdə peyğəmbərliyi xilaskarlıq kimi dəyərləndirərək zülm cəmiyyətində yaşayan insanların istəklərini ifadə etmişdir.

**Şair deyir ki, ey Məhəmməd (s.a.s), barmağınla bir dairə cız. Yəni yeni bir cəmiyyət yarat. Misradakı «dairə» sözü bir məkan, bir cəmiyyət, bir dövlət anlamındadır. Şair deyir ki, ey xilaskar, elə bir məkan, dövlət, cəmiyyət yarat ki, orada zülm olmasın, orada «qapıbağlayanlar», cəhalət və ədalətsizlik olmasın. Şairin təfsirində islam Peyğəmbərinin cızacağı bu dairə bir islam məkanıdır, uca Allahın (c.c) buyruqları ilə idarə olunan, möminlərin yaşadığı müqəddəs bir yerdir.**

Şairin yozumunda «dairə» anlayışı yeni dəyərlər sistemidir. Ədalətsizlik, zülm və cəhalətdən qurtulmuş yeni məkanın öz dəyərləri var və bu dəyərlər bu yurdu başqalarından ayırır. Bu «dairənin» - müqəddəs məkanın dəyərləri aşağıdakı prinsiplərə əsaslanır: Uca Allahın (c.c) varlığı və birliyi, ədalət, azadlıq, doğruluq, əhdə vəfa, sevgi, barış, fədakarlıq, haqq uğrunda cihad və başqaları.

Burada «dairə» islami dəyərlərin sərhəddini ifadə edir. Şair demək istəyir ki, öncəki cəmiyyətin zülm girdabına düşməsinin səbəbi belə bir dairənin, yəni siyasi, əxlaqi, dini

---

[443] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 38.

dəyərlər sisteminin olmaması, ya da insanların öncədən müəyyənləşdirilmiş islami dairədən çıxması idi.

Milləti, ümməti qoruyan, onun özünə aid «dairəsidir», yəni dəyərlər sistemidir. Bu dəyərlər pozulanda, qoruyucu dairə dağılanda zülm başlayır, «qapıbağlayanlar» meydana çıxır, əsarətin yolu açılır, işıqlar sönür və dairə qaranlığa, cəhalətə qərq olur.

Hz. Nizaminin təqdimində «dairə» dini baxımdan tövhid, yəni uca Allahın (c.c) birliyi, təkliyi inancına işarədir. Şairə görə, dairəni, yəni insanı, toplumu şərdən, azğınlıqdan qoruyan məkanın - mədəni, dini sistemin mərkəz nöqtəsi uca Allahın (c.c) birliyinə inanmaqdır.

Şairin dövründə zülm cəmiyyətinin ortaya çıxmasının başlıca səbəbi də uca Allahın (c.c) birliyi inancının zəifləməsidir. Bu inanc zəifləyəndə bütün mədəni, dini sistem zəifləyir, fəsadlar ortaya çıxır və cəhalətin önü açılır. Ona görə də şair deyir ki, ey Məhəmməd (s.a.s), gəl, bir dairə cız, ümmətinin tövhid inancını yarat, onları bir araya – bir dairəyə yerləşdir, onlar üçün qoruyucu sistem yarat. Bu da hz. Məhəmmədin (s.a.s) xilaskarlıq vəzifəsinin bir yönüdür.

Şairə görə, bu dairə ancaq hz. Məhəmmədin (s.a.s) əli ilə çəkilə bilər. Yəni insanlar Onun əli, Onun pərgarı ilə çəkilmiş dairənin vasitəsi ilə, Onun gətirdikləri dəyərlərlə xoşbəxt ola bilərlər. Bu dairənin mərkəz, dayaq nöqtəsi odur. Deməli, hz. Nizamiyə görə, dairə adlı islami qoruyucu sistemin birinci dəyəri uca Allahın (c.c) varlığına, təkliyinə inanmaq, ancaq Ona qulluq etmək, ikincisi isə hz. Məhəmmədin (s.a.s) peyğəmbərliyinə iman etməkdir. Bu zülm cəmiyyətindən qurtulmaq üçün şairin irəli sürdüyü, zəruri saydığı ölçüdür.

Hz. Nizamiyə görə, bu dairə, yəni islami dəyərlər sisteminə bağlı olan ev, cəmiyyət qurularsa, bu məkanda yaşayan insanlar arasında birlik, sevgi, mərhəmət bağı yaranar, insanlar rahat yaşayar. Yəni başlıca vəzifənin biri də bu dairənin içində yaşayaraq, uca Allaha (s.a.s) iman edən, peyğəmbərini sevən insanlar yetişdirməkdir. Bu müqəddəs vəzifənin başında isə hz. Məhəmməd (s.a.s) dura bilər. Şairə görə, bu da islam Peyğəmbərinin xilaskarlıq vəzifəsinin başqa bir yönüdür.

Şair misrada «ey Məhəmməd (s.a.s), əlinlə bir dairə cız» deyərkən Onun şəfaət haqqına da işarə etmişdir. Yəni biz günahkarıq, dəyərlərimizdən uzaqlaşdıq, nəticədə, cəhalət girdabına yuvarlandıq. Biz günahkar qullar yalnız sənin şəfaətinlə xilas ola bilərik. Bir dairə cız, yəni şəfaət haqqından yararlan və biz günahkar qulların bağışlanması üçün uca Allaha (c.c) müraciət et.

Bilindiyi kimi, nətlərdə hz. Məhəmmədin (s.a.s) şəfaət haqqının olması ideyası geniş yer tutur: «… Bu bakımdan natlarda hz. Peygamberin «Şefiül-Müznibin» (hüznlülərin şəfaətçisi – S.H) oluşu, ümmetinin günahkarlarına şefaat edeceyi, diger peygamberlerin «nefsim» diyerek yalnızca kendilerini düşüneceyi o çetin hesab gününde Onun «ümmetim» diyerek kendine iman edenleri koruyacağı, Livai-Hamd ve Makami-Mahmud denilen şefaat yetkisinin sadece Ona ait olduğu ve bütün insanların şefaat için baş vuracağı yegane merci oluşu dile getirilir».[444]

Beytdə hz. Nizami islam Peyğəmbərinin xilaskarlıq missiyasının bir yönü olaraq Onun şəfaət haqqını önə çəkmişdir. Ümumiyyətlə, islam Peyğəmbərinin şəfaət haqqı Onu çox gücləndirir, ümməti Onun ətrafında daha sıx

[444] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 303.

birləşməyə yönəldən vasitəyə çevrilir. Təbii ki, peyğəmbərin şəfaəti uca Allahın (c.c) razılığı ilə ola bilər. Hz. Məhəmməd (s.a.s) bir hədisində buna açıq işarət etmişdir:

«Hər peyğəmbərin özünə xas və qəbul olunacaq bir duası var. Onunla Allaha dua etmişdir. Ancaq mən duamı axirətdə ümmətimə şəfaət etmək üçün saxlayıram».[445]

Şair beytdə deyir ki, ey Məhəmməd (s.a.s), bir dairə cız, yəni bizi başına topla, başqa sığınacaq yerimiz yoxdur və bizim bağışlanmağımızı istə. Çünki o gün- məhşər günü çox ağır bir gündür. O gün insan oğlu bir şəfaətçi arayacaq, sonda hz. Məhəmmədin (s.a.s) yanına gələcək. O uca islam Peyğəmbəri də şəfaət üçün qüdrət sahibi Allahdan (c.c) icazə istəyəcək və mübarək ayədə vəd olunanlar gerçəkləşəcək.

وَلَسَوْفَ يُعْطِيكَ رَبُّكَ فَتَرْضَى

(əz-Zuha, 93/5)

«Həqiqətən, Rəbbin sənə (qiyamət günü ən uca şəfaət məqamı, Cənnətdə tükənməz nemətlər) bəxş edəcək və sən (Ondan) razı olacaqsan!».

İslam Peyğəmbərinin şəfaət haqqı ilə bağlı düşüncə divan şeirində də geniş yer tutur:

**Necati:**

Şefaatün demidür geldi, ya Resulullah,
İnayet eyle ki gelmez inayetüne zeval.[446]

(Ey Allahın elçisi, şəfaətin anı gəldi. Bizə meyl et, bizə dua et, bizim üçün şəfaət istə. Sənin şəfaətinə zaval yoxdur)

**Füzuli:**

Darüş-şəfai-həşrdə bimari – məsiyyət,
Şəhdi-şəfaətindən umar şərbəti-şəfa.[447]

---

[445] «Sahihi-Buhari», göstərilən qaynaq, c. XII, s. 332.
[446] Necati, «Divan», s. 20

(Həşr günü şəfa məkanında (dairədə) günahkar xəstə şəfaətinin balından hazırlanmış şəfa şərbəti umar). (Qeyd: Füzuli islam Peyğəmbərinin şəfaətini dərdlərə dərman olan bala bənzətmişdir)

**Füzuli:**

Ol qədər zövqi-şəfaət cövhəri – zatında var,
Kim gelür ərzi –manidə bir ehsan sana.[448]

(Zatının cövhərində o qədər şəfaət istəyi var ki, şəfaət etmək sənə bir ehsan kimi görünür)

**İslam Peyğəmbərinin şəfaət haqqı onun xilaskarlıq vəzifəsinin, mərhəmətinin, ümmətə olan sevgisinin göstəricisidir. Hz. Nizaminin şərhində də dairənin cızılması islam Peyğəmbərinin qiyamət günü öz ümmətinin ətrafına bir dairə çəkərək, onları cəhənnəm atəşindən qoruması anlamında da verilmişdir.**

Şair dairə cızmaq anlayışı ilə islam Peyğəmbərinin öz ümmətinin bağışlanması üçün o uca Allaha (c.c) dua etməsi, onları qoruması, onlar üçün təhlükəsizlik məkanı yaratması kimi mənaları da ifadə etmişdir.

Şair beytin ikinci misrasında islam Peyğəmbərinin duasının qəbul olunacağına inancını dilə gətirir, «hər nə varsa, sənə bəxş olunsun» deyir. Yəni islam Peyğəmbəri uca Allahdan (c.c) nə istəyərsə, nə üçün dua edərsə, qəbul olunar. Şair bu yolla uca Allahın (c.c) yanında islam Peyğəmbərinin dəyərini göstərmişdir. Bu da islam peyğəmbərinin xilaskarlıq missiyasının şairin təqdimində başqa bir yönüdür.

---

[447] Füzuli, «Divan», s. 61.
[448] Füzuli, «Divan», s. 130.

# İYİRMİ DÖRDÜNCÜ BEYTİN ŞƏRHİ: SƏNİN İŞİNƏ HEÇ KİM QARIŞA BİLMƏZ

با تـــــو تصرف کـــــه کند وقت کـار

از پـــــی آمـرزش مـشتــــــی غبـــار

***İş zamanı sənin işinə kim dəxalət edə bilər,***
***Bir ovuc torpağın (torpaqdan yaranmışların) bağışlanması üçün?***[449]

Bu beyt mənasına görə bütün nətin, o sıradan öncəki beytin məzmunu ilə sıx bağlıdır. Şair bu beytdə öncə ümmətin hz. Məhəmmədə (s.a.s) olan ehtiyacını ifadə etmişdir. Bu ehtiyacı ifadə etmək üçün isə şair bir neçə vasitədən yararlanmışdır. Şair öncə belə bir mənzərə təsvir etmişdir: zülm cəmiyyətində yaşayan insanlar öz günahlarını etiraf etmişlər. Onların günahları çox ağırdır. Onlar zülmə qarşı mübarizə aparmamış, islami dəyərlər məkanından çıxmış və günahlara batmışlar. Çünki zülmə qarşı mübarizə aparmaq imanlı müsəlmanın borcudur. Əgər bir insan, bir ümmət getdiyi yolun yanlış olduğunu anlayırsa, günahlarını etiraf edirsə, onda ehtiyac duyğu və anlayışı yaranır. Bu anda şair ümmətin ehtiyacını təmin edəcək ünvanı göstərir. Bu mübarək ünvan hz. Məhəmməddir (s.a.s).

Şair islam Peyğəmbərinin əzəmətini göstərmək üçün deyir ki, sənin işinə heç kim qarışa bilməz. Yəni bizim bağışlanmamız üçün uca Allaha (c.c) dua etmək, ondan şəfaət istəmək ancaq Sənə aid olan bir məsələdir. Bizim günahlarımız o qədər çoxdur ki, yalnız Sənin duaların, Sənin şəfaətin bizi xilas edə bilər.

Hz. Nizami beytin ikinci misrasında insanın bir ovuc torpaqdan yaradıldığını önə çəkmişdir. Bunun səbəbi odur ki, şair bir yandan insanın yaradılış özəlliyini anlatmış, başqa yöndən isə insanın zəif bir varlıq olduğunu, günahlara meyl etdiyini vurğulamaq istəmişdir. Yəni hz. Nizami bağışlanmaq üçün müraciət edir və bunun əsaslarını göstərmək istəyir.

Bu əsasın bağlı olduğu qaynaq da Qurani-Kərimdir:

وَلَقَدْ خَلَقْنَا الإِنسَانَ مِن صَلْصَالٍ مِّنْ حَمَإٍ مَّسْنُونٍ

---

449 Nizami Gəncəvi, göstərilən qaynaq, s. 38.

(əl-Hicr, 15/26)[450]

«Biz insanı quru (toxunduqda saxsı kimi səs çıxaran) və qoxumuş (ya da tədriclə dəyişib başqa şəklə düşmüş) qara palçıqdan yaratdıq!»

Bununla birgə, Qurani-Kərim insanın nankor, aciz bir yaradılış olduğunu da buyurur:

وَإِذَا مَسَّكُمُ الْضُّرُّ فِي الْبَحْرِ ضَلَّ مَن تَدْعُونَ إِلاَّ إِيَّاهُ فَلَمَّا نَجَّاكُمْ إِلَى الْبَرِّ أَعْرَضْتُمْ وَكَانَ الإِنْسَانُ كَفُوراً

(əl-İsra, 17/67)

«Sizə dənizdə bir çətinlik (batmaq təhlükəsi) üz verdiyi zaman (Allahdan) qeyri ibadət etdiyiniz bütlər qeyb olar. Ancaq O, sizi xilas edib quruya çıxartdıqda (itaətindən) üz döndərirsiniz. İnsan nankordur!».

Şair bu beytdə islam Peyğəmbərinin xilaskarlıq missiyasını, Onun böyüklüyünü ifadə etmək üçün hz. Məhəmmədin (s.a.s) bağışlamaq və günahkar qulların bağışlanması üçün uca Allaha (c.c) müraciət etmək imkanını önə çəkmişdir. Şairə görə, islam Peyğəmbəri mərhəmətli, şəfqətli və bağışlayandır. O, böyükdür, böyüyə yaraşan da bağışlamaqdır.

**Şairin beytdə istifadə etdiyi «onun işinə heç kim qarışa bilməz» ifadəsi həm islam Peyğəmbərinin əzəmətini göstərir, həm də Onun gördüyü işləri başqa heç kim edə bilməz mənasını verir. Beytdə önə çəkilən heç kimin görə bilməyəcəyi işləri görmək anlayışı və bağışlamaq bacarığı islam Peyğəmbərinin xilaskarlıq missiyasının daha bir yönüdür.**

[450] İnsanın yaradılışı üçün bax: «Əraf», 7/11-12; «Hicr», 15/26, 28, 29; «Sad», 38/71-74; «Zümər», 39/66; «Mömin», 40/67; «Rəhman», 55/14; «Nuh», 71/14-18; «İnsan», 76/1-2.

# İYİRMİ BEŞİNCİ BEYTİN ŞƏRHİ: SƏNİ GÖRSƏ, HƏR İKİ CAHAN XİRQƏSİNİ ƏYNİNDƏN ÇIXARAR

**از تـــــو یکـــی پرده برانداختــن**
**وز دو جــهــان خــرقــه درانـداختـن**

***Sən (bir an) pərdəni (üzündən) götürsən,***
***Hər iki cahan öz xirqəsini əynindən çıxarar.***[451]

Şair bu beytdə islam Peyğəmbərinə olan sevgi, ehtiyac və həsrəti başqa bir biçimdə təqdim etmişdir. Öncə şair islam Peyğəmbərindən bu dünyada olmayan bir insan kimi danışmır, onun sanki bir pərdə arxasında oturduğunu deyir, Onun yoxluğunu incə bir sözlə ifadə edir. Misrada «pərdə» sözü ayrılığı, yoxluğu yada salır.

Şair beytin ikinci misrasında islam Peyğəmbərinə olan ehtiyac, həsrəti və sevgini ifadə etmək üçün gözəl bir bənzətmə yaratmışdır. **Şairə görə, O, elə bir peyğəmbərdir ki, ona nəinki bu dünyada yaşayanların, o dünyada olanların da ehtiyacı var. Bu dünyada yaşayanlar «qapıbağlayanlar»ın yaratdığı zülmətdən, zülm girdabından qurtarmaq istəyirlər. O dünyada yaşayanlar da günahkar olduqlarını bilirlər və ancaq islam Peyğəmbərinin şəfaəti ilə xilas olacaqlarına inanırlar.**

Bundan başqa, şair islam Peyğəmbərinə olan sevgini ifadə etmək üçün «xirqəni əynindən çıxarmaq» ifadəsindən istifadə etmişdir. «Xirqəni əynindən çıxarmaq» sevincin, heyrətin, aşiqlikdən özünü unutmağın nəticəsidir. İnsan bir şeyə aşiq olanda özünü unudar, hərəkətlərinə nəzarəti itirər, hər şeydə və hər yerdə ancaq sevgilisini görər.

---

[451] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 38.

Şair deyir ki, bu dünya və o dünya islam Peyğəmbərinə elə möhtac və aşiqdir ki, onu görsə, sevincindən əynindəki xirqəsini çıxarar, çılpaq qalar, ancaq bundan xəbəri olmaz. Çünki illər boyu axtardığı, həsrətində olduğu xilaskarını tapar, ona qovuşar, bu dünyanın və o dünyanın əzabından qurtulacağına inanar. Bizcə, şair yaradılmışların islam peyğəmbərinə ehtiyacını, iki dünyanın ona aşiq olduğunu çox gözəl ifadə etmişdir.

Əslində, ehtiyac və aşiqlik arasında da ciddi əlaqə var. İnsan ehtiyacı olana, onu bir çətinlikdən qurtaracağına inandığı insana aşiq olar, onu görəndə özünü unudar. Şairin təqdimində iki dünyanın möhtac olduğu, yolunu həsrətlə gözlədiyi, aşiq olduğu xilaskar insan hz. Məhəmməddir (s.a.s).

## İYİRMİ ALTINCI BEYTİN ŞƏRHİ: NİZAMİNİN BEYNİ SƏNİN ƏTRİNLƏ CANLANIR

**مغز نظامـــــى كــه خـبـر جـوى تست**
**زنده دل از غـالـيـــهٔ بـــوى تـسـت**

***Sənin xəbərini arayan Nizaminin beyni,***
***Sənin saçdığın ənbər ətri ilə canlanır.***[452]

Şair bu beytdə islam Peyğəmbəri ilə bağlı öz sevgisini, həsrət və ehtiyacını ifadə etmişdir. O, hz. Məhəmmədə (s.a.s) olan bağlılığını ifadə etmək üçün birinci misrada «aramaq», «axtarmaq» felindən istifadə etmişdir. Şair hər yerdə Onu axtarır, hamıdan onu soruşur, onun gəlişini həsrətlə gözləyir. Onu axtarışa sövq edən də içindəki peyğəmbər sevgisidir.

«Aramaq», «axtarmaq» felində bir fasiləsizlik, bir an belə o mübarək insanı unutmamaq mənaları da var. O, yorulmadan sevdiyi peyğəmbəri axtarır, ona qovuşmağa can atır.

«Aramaq», «axtarmaq» felində hərəkət mənası var. Yəni şair sadəcə bir yerdə oturaraq Onu gözləmir, əksinə, hər zaman və hər yerdə Onu axtarır.

Daha sonra şair deyir ki, Nizaminin beyni də Onu axtarır. Peyğəmbər sevgisi şairin varlığına elə yerləşmişdir ki, onun beyni, fikir və düşüncəsi ancaq hz. Məhəmmədə (s.a.s) bağlıdır, şairin düşüncəsinin qidası ancaq Odur.

Şair deyir ki, onun düşüncəsi ancaq Peyğəmbər sevgisi ilə diri olur, doğru və ədalətli olanı seçə bilir, gerçək olanı görə bilir. Şair deyir ki, islam Peyğəmbəri aləmə ənbər ətri saçır. Bu ətir insanların duyğu və düşüncələrini təzələyir, insanda xoş duyğular oyadır və Nizaminin beyni də bu ətirlə canlanır.

---

[452]Nizami Gəncəvi, göstərilən qaynaq, s. 38.

**Bu beytdə şair islam Peyğəmbərinin gəlişinə inamını da ifadə etmişdir. Belə ki, şair bütün gücü ilə Onu axtarır və duyğuları onun ətrini hiss edir, canlanır, şairin tezliklə sevdiyi peyğəmbərə qovuşacağı ümidini yaradır. Artıq peyğəmbər gəlir, onun ətri duyulur, şairin varlığı canlanır, tezliklə peyğəmbərə qovuşmaq ümidi onu sevincə qərq edir.**

## İYİRMİ YEDDİNCİ BEYTİN ŞƏRHİ: SÜLEYMAN MÜLKÜNÜ BU FƏQİRƏ BAĞIŞLA

از نفش بوى وفائى ببخش
ملك فريدون به گدائى ببخش

***Öz nəfəsindən ona vəfadarlıq ətri bağışla,***
***Süleyman mülkünü bu fəqirə bağışla.***[453]

Hz. Nizami dördüncü nətin (sitayiş) sonuncu beytinin ideyasını, məzmununu vəfa anlayışı üzərində qurmuşdur. Öncəki beytdə islam Peyğəmbərinin ənbər ətri saçdığını, bu ətrin şairin duyğusuna, düşüncəsinə canlılıq bəxş etdiyini ifadə edən Nizami bu beytdə peyğəmbərdən «vəfa ətri» istəyir. Şairə görə, vəfa anlayışı islama bağlı əxlaqın, hz. Məhəmmədin (s.a.s) insanlararası münasibətdə, insanla uca Allah (c.c) arasında münasibətin qurulmasında çox önəm verdiyi prinsiplərdən biridir.

Uca Kitabımız Qurani-Kərimdə vəfa anlayışı bir neçə səviyyədə izah olunmuşdur. Quran, hər şeydən öncə uca Allahla (c.c) insan arasındakı vəfadan danışır. Qurana görə, insan yaradılarkən «ələst bəzmində» (sözvermə, vəfalı olacağına and içmə məclisində) uca Allaha (c.c), onun buyruqlarına, Onu yaradana vəfalı olacağına söz vermişdir.

وَلاَ تَقْرَبُواْ مَالَ الْيَتِيمِ إِلاَّ بِالَّتِي هِيَ أَحْسَنُ حَتَّى يَبْلُغَ أَشُدَّهُ وَأَوْفُواْ الْكَيْلَ وَالْمِيزَانَ بِالْقِسْطِ لاَ نُكَلِّفُ نَفْساً إِلاَّ وُسْعَهَا وَإِذَا قُلْتُمْ فَاعْدِلُواْ وَلَوْ كَانَ ذَا قُرْبَى وَبِعَهْدِ اللّهِ أَوْفُواْ ذَلِكُمْ وَصَّاكُم بِهِ لَعَلَّكُمْ تَذَكَّرُونَ

(əl-Ənam, 6/152)

«…Allah qarşısındakı əhdi (dini vəzifələrinizi, andlarınızı) yerinə yetirin. (Allah) bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb öyüd-nəsihət qəbul edəsiniz».

---

[453] Nizami Gəncəvi, göstərilən qaynaq, s. 38.

لِيَجْزِيَ اللَّهُ الصَّادِقِينَ بِصِدْقِهِمْ وَيُعَذِّبَ الْمُنَافِقِينَ إِن شَاء أَوْ يَتُوبَ عَلَيْهِمْ إِنَّ اللَّهَ كَانَ غَفُوراً رَّحِيماً

(əl-Əhzab, 33/24)

«Möminlər içərisində elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (verdikləri sözü) əsla dəyişməzlər ki, Allah (bununla) doğruları doğruluqlarına görə mükafatlandırsın, münafiqlərə də istəsə əzab versin, ya da onların tövbələrini qəbul buyursun. Həqiqətən, Allah (bəndələrini) bağışlayandır, rəhm edəndir!»

**Təfsirçilər «Allahın əhdi» anlayışını üç yöndə izah etmişlər: «Allahın əhdi» insanın uca Allahla (c.c) bağladığı sağlam anlaşmadır, «Allahın əhdi» bir şəxsin uca Allah (c.c) adına bir başqası ilə bağladığı sözləşmədir, müqavilədir, «Allahın əhdi» insan doğular-doğulmaz ortaya çıxan təbii əlaqələrdir. Bunlardan ilk ikisi niyyətə və seçimə bağlıdır. Üçüncüsü isə əxlaqi məcburiyyətdir.** İnsanın bu üçüncü bağı seçməsində onun hər hansı bir rolu yoxdur, ancaq o bu sözü yerinə yetirmək məcburiyyətindədir. Çünki uca Allah (c.c) insana qeyri-adi fiziki və zehni imkanlar vermiş, ona yer üzünü yaratmış, ona bol ruzi və maddi qaynaqlar vermişdir. Bunlar da uca Allahın (c.c) insan üzərində haqlarını yaradır. İnsanın Allahla və toplumla olan bu «Əhd»inin hər hansı bir kitabda yazılı olmadığı doğrudur, ancaq əhdə vəfa göstərməsinə borclu olan bədəninin hər bir zərrəsinə bu «əhd» yerləşdirilmişdir.[454]

Uca Allah (c.c) Adəmi (s.a.s) yaradarkən Onun son günədək gələcək olan övladlarını ortaya çıxarmış və onların Rəbbi olduğuna hamısını şahid tutmuşdur, onlardan söz almışdır.

---

[454] Əbul-Ala Mevdudi, göstərilən qaynaq, c. I, s. 614.

وَإِذْ أَخَذَ رَبُّكَ مِن بَنِي آدَمَ مِن ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلَى أَنفُسِهِمْ أَلَسْتَ بِرَبِّكُمْ قَالُواْ بَلَى شَهِدْنَا أَن تَقُولُواْ يَوْمَ الْقِيَامَةِ إِنَّا كُنَّا عَنْ هَذَا غَافِلِينَ أَوْ تَقُولُواْ إِنَّمَا أَشْرَكَ آبَاؤُنَا مِن قَبْلُ وَكُنَّا ذُرِّيَّةً مِّن بَعْدِهِمْ أَفَتُهْلِكُنَا بِمَا فَعَلَ الْمُبْطِلُونَ

(əl-Əraf, 7/172-173)

«(Ey Peyğəmbərim!) Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxardıb onları özlərinə (bir-birinə) şahid tutaraq: «Mən sizin Rəbbiniz deyiləmmi?» - soruşmuş, onlar da: «Bəli, Rəbbimizsən!» - deyə cavab vermişdilər. (Belə bir şahidliyin səbəbi) qiyamət günü: «Biz bundan qafil idik», «ya da «Atalarımız daha əvvəl (Allaha) şərik qoşmuşdular, biz də (onlardan sonra gələn bir nəsil idik) onların izi ilə getdik! Məgər bizi batilə uyanların (haqq yolundan azanların) törətdikləri əməllərə görə məhv edəcəksən?» - deməməniz üçündür».

Təsəvvüfdə bu «ələst məclisi», «bəzmi-ələst», «söz vermə», «əhd bağlama» anlayışlarının geniş izahı edilmişdir. Bu məclisin nə vaxt olması ilə bağlı alimlər arasında fikir birliyi yoxdur. Ancaq bir ortaq fikir var: uca Allah (c.c) bütün insanları Onun birliyinə aid dəlil və həqiqətləri sağlam ağılla təsbit edə biləcək qabiliyyətdə yaratmışdır. Bu vəfa məclisi də insanların fitri olaraq tövhid inancını anlayacaq, qəbul edəcək bir biçimdə yaradıldığını göstərir.

Təsəvvüfə görə, bu məclis ruhların bədən qəlibinə yerləşməsindən öncə olmuş, bütün insanların haqq yolundakı rəhbəri, başçısı olan hz. Peyğəmbər nuruyla bu məclisi işıqlandırmışdır. Surətdə ilk insan hz. Adəmdir (s.a.s), ancaq uca Allahın (c.c) ilk yaratdığı hz. Məhəmmədin (s.a.s) nuru və ruhudur. Ona görə də, hz. Məhəmməd (s.a.s) əzəl məclisinin ilk sırasında yer tutmuşdur. O, uca Allaha (c.c) verdiyi sözü

yerinə yetirmişdir və buna görə də, hz. Məhəmməd (s.a.s) insanlıq üçün bir vəfa örnəyidir.

O, gəncliyində «Əmin» adı ilə tanınmış, insanların inandığı, sevdiyi bir insan olmuşdur. Əhdə vəfa Onu ucaltmış, insanların etibar etdiyi bir insana çevirmişdir: «Hz. Peygamberin dürüstlügünü, doğru sözlülügünü ve güvenilir şahsiyetini anlatan bu ismin natlardan tesbit edebildigimiz örneklerinde Onun Nur, Sirac gibi isimleri ile birlikde kullanıldığını gördük. Hem Nuri-Muhammedinin ezelde kainatın yaratılışındakı feyizli kaynağı olması, hem de hz. Peygamberin kiyamete kadar hidayetiyle alemleri küfür karanlığından kurtarması yönüyle ele alınan bu isimlerin yüce peygamberin dürüst, doğru, saf ve tertemiz şahsiyetiyle bir ilgi içinde bulunduğunu düşüne biliriz».[455]

## NİZAMİYƏ GÖRƏ «VƏFA ƏTRİNİN» ŞƏRHİ

**Hz. Nizami niyə islam Peyğəmbərindən «vəfa ətri» istəyir? Biz bunu bir neçə yöndə şərh etmək istəyirik. Hər şeydən öncə vəfa anlayışı öncəki beytlərin məzmunu ilə bağlıdır.** Belə ki, öncəki beytlərdə şair zülm cəmiyyətinin ortaya çıxmasının səbəblərini göstərib. Belə cəmiyyətlərin ortaya çıxmasının səbəblərindən biri də vəfasızlıqdır. Yəni insanlar uca Allaha (c.c) verdiyi sözü unudanda, bir-biri ilə bağladığı əhdi pozanda fitrətdən uzaqlaşma baş verir, cəmiyyətdəki, insanlar arasındakı inam mühiti dağılır, yalançı və saxtakarlar ortaya çıxır, «qapıbağlayanlar» idarəçiliyi ələ keçirir. Vəfasızlıq, yalan insanların əxlaqını pozur və cəhalətin önü açılır.

---

455 Emine Yeniterzi, göstərilən qaynaq, s. 111.

Şairə görə, bu qaranlıqdan qurtuluşun yolu insanlar arasında vəfa, inam, etibar duyğusunu yaratmaqdır. Bu isə uca Allahın (c.c) birliyinə olan imanla mümkündür. Çünki, vəfalı olmaq imanın ən açıq əlamətidir. Bu vəfa, inam, etibar mühitini yaradacaq insan isə hz. Məhəmməddir (s.a.s). Axı o, xilaskardır. Xilaskarın özəlliklərindən biri də vəfalı olmaqdır. Şairə görə, vəfa anlayışı hz. Məhəmmədin (s.a.s) quracağı yeni ədalətli cəmiyyətin əxlaqi əsaslarından biridir.

**Şair islam Peyğəmbərindən ona görə «vəfa ətri» istəyir ki, bütün yaradıcılıq uğurlarını islama, uca Allaha (c.c), Onun mübarək peyğəmbərinə vəfalı olmaqda görür. Şair deyir ki, ey Məhəmməd (s.a.s), mənim hər zaman bu uca dəyərlərə bağlı qalmağım üçün dua et.**

Şair üçün vəfa anlayışı elə önəmlidir ki, onu ətir sözü ilə birgə işlətmişdir. Ətir insanlarda xoş bir duyğu yaratdığı kimi, vəfalı olmaq da insanlarda əminlik duyğusu yaradır, onları qorxudan azad edir, vəfalı insanlar bir-birinə inam, etibar, ümid ətri bəxş edir. Nəticədə, vəfa ətri ilə dolmuş, hamının rahat olacağı bir cəmiyyət yaranır.

Şairə görə, «vəfa ətri» islam cəmiyyətinin əsaslarından biridir. Möminin sözündən, işindən, baxışından, gülüşündən «vəfa ətri» saçılır.

Şairə görə, «vəfa ətri» bir nemətdir və bu nemətin qaynağı uca Allahın (c.c) birliyinə inanmaqdır.

Şairə görə, ən böyük vəfa örnəyi islam Peyğəmbəridir. Onunla bağlı bir neçə örnəyi oxuyaq:

«Həbəş hökmdarının elçiləri Rəsulullahın (s.a.s) yanına gəlmişdilər. O, elçilərlə şəxsən özü maraqlanmış, onlara xidmət göstərmişdir. Bunun səbəbi soruşulanda buyurmuşdur: «Bunlar Həbəşistana köç etmiş olan əshabıma yer göstərmiş,

onları qonaq etmişlər. İndi mən də onlara xidmət etmək istəyirəm».[456]

İslam Peyğəmbərinin əmisi Əbu Talibin xanımı Fatimə Xatuna olan münasibəti onun vəfakarlığının açıq nümunələrindən biridir. Bu xanım müsəlman olaraq Mədinəyə hicrət etmişdi. O vəfat edəndə hz. Məhəmməd (s.a.s): «Anam öldü», - demiş, köynəyini kəfən olaraq vermiş, öz əli ilə onu qəbrə endirmişdir. Bunun səbəbini soruşanlara isə belə buyurmuşdur: «Əbu Talibdən sonra bu qadın qədər mənə yaxşılıq edən bir kimsə yoxdur. Axirətdə cənnət paltarlarından geyinməsi üçün köynəyimi ona kəfən olaraq verdim. Qəbrə isinməsi üçün özüm qəbrə uzandım. O, mənim anamdır. Öz uşaqları ac olduğu, bikef olduğu halda o, öncə mənim qarnımı doyurur, saçımı darayardı».[457]

**Vəfalı olmaq insan fitrətinə uyğundur və bir Allah (c.c) buyruğudur. Vəfasızlıq isə inkardır, fitnəkarlıq əlamətidir. Müsəlman verdiyi sözə əməl etməlidir, o, şərəfli insandır və dünya nemətinə görə əhdindən dönməz. Bir insan vəfalı olmasa, ona «dönük» deyərlər, onun insanlar yanında etibarı qalmaz. İnsanın mömin olub-olmaması onun vəfası ilə ölçülür.**

Hz. Nizami də islam Peyğəmbərindən «vəfadarlıq ətri» istəyir. Yəni şair bütün ömrü boyu uca Allaha (c.c), Onun mübarək kitabına, Onun şanlı elçisinə vəfalı olması üçün peyğəmbərdən dua istəyir. Şair inanır ki, uca Allahın (c.c) Ona verdiyi elm, ağıl neməti, sirlər üzərindən pərdəni götürməsi, onu seçilmiş qullarından etməsi uca Allaha (c.c) olan vəfa duyğusu ilə bağlıdır.

[456] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. IV, s. 86-98.
[457] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. IV, s. 86-98.

Şair uca Allah (c.c) qarşısında öz acizliyini etiraf edir, özünə «fəqir» deyir. O, uca Allaha (c.c) bütün varlığı ilə təslim olur, o böyük Yaradandan yardım istəyir. Şair deyir ki, ey Məhəmməd (s.a.s), mənə «vəfadarlıq ətri» bağışla və Süleyman mülkünü mənə ver.

## UCA ALLAH (c.c) NİZAMİNİN DUASINI QƏBUL ETMİŞDİR

Hz. Nizaminin Süleyman mülkünü istəməsinin səbəbi nədir? Bunu şairin dünya malı istəməsi kimi dəyərləndirmək olarmı? Bu, əsla, belə deyil. Şairin «Süleyman mülkü»nü istəməsini biz belə şərh edə bilərik: Bu hər şeydən öncə şairin öz hədəfini, proqramını açıqlamasıdır. Çünki «Süleyman mülkü» deyilərkən bu dünya və onun nemətləri başa düşülür. Hz. Süleymanın (s.a.s) sultan olması, insanlar və cinlər üzərində hakimiyyəti, bu hakimiyyət və qüdrətin barmağındakı üzükdən qaynaqlanması, taxtını küləyin daşıması, qarışqa ilə bağlı hadisə dillərdə dastan olmuşdur. **Şair yer üzündə – Süleyman mülkündə ilahi qanunların hakim olmasını, ədalətli, azad bir cəmiyyətin qurulmasını istəyir. O istəyir ki, şeiri, sənəti, ağlı, düşüncəsi ilə bu ideala xidmət etsin, «Süleyman mülkü»nü mömin insanların yaşadığı məkana çevirsin. Şair düşünür ki, uca Allahın (c.c) rizasını qazanmaq uğrunda mübarizə aparan, imanlı insanları ancaq doğru sözlə, ilahi qanunlara bağlı ideyalarla yetişdirmək olar. Şair istəyir ki, uca Allah (c.c) onun sözünün «Süleyman mülkünü» tutmasına yardım etsin.**

Şair öncə islam Peyğəmbərindən «vəfakarlıq ətri» istəyir. Çünki şeirinin, ideyalarının «Süleyman mülkünə» hakim olması, bütün yer üzünə yayılması üçün uca Allaha (c.c), Onun peyğəmbərinə vəfalı olmaq əsas şərtdir.

Şair «vəfakarlıq ətrini» də, Süleyman mülkünü də islam Peyğəmbərindən istəyir. Bu nətin ümumi məzmunu ilə birbaşa bağlıdır. Yəni islam Peyğəmbəri şairin düşüncəsində uca Allahın (c.c) ən əziz elçisidir, islam Peyğəmbəri bir xilaskardır, başçı və səlahiyyət sahibidir.

**Şairə görə, yer üzündə – «Süleyman mülkü»ndə ədaləti ancaq uca Allaha (c.c) vəfalı olmaq duyğu və düşüncəsi ilə bərqərar etmək olar. Şair uca Allaha (c.c), onun peyğəmbərinə vəfalı olacağına and içir, söz verir, şeirinin «Süleyman mülkü»ndə ədaləti, azadlığı bərqərar etmək, imanlı insan tərbiyə etmək üçün yazıldığını bildirir, o, uca Allahın (c.c) adını bütün dünyaya yaymaq istəyir. Onun sevgisini insanların qəlbinə yerləşdirməyə çalışır.**

Şair istəyir ki, uca Allah (c.c) ona elə bir istedad versin ki, şeiri, sözü, ideyaları bütün dünyanı tutsun. Onun sözləri yer üzündə ədalətin zəfər çalmasına, ilahi buyruqlarla idarə olunan bir cəmiyyətin qurulmasına xidmət etsin. Bizcə, uca Allah (c.c) hz. Nizaminin bu duasını qəbul etmişdir.

***D U A***

***Ey qüdrət, hökm və hikmət sahibi olan Allahım! Sənin şanına, mübarək elçin hz. Məhəmmədin (s.a.s.) şərəfinə, uca Allaha imanla bağlı olan hz.Nizaminin adına layiq bir əsər yazmağa çalışdım. Qüsurlarıma görə məni bağışla! Keçmiş və gələcək günahlarımı əfv et! Sənin uca adına layiq yeni əsərlər yazmaq üçün mənə güc ver!***

# Q A Y N A Q L A R

## Azərbaycan türkcəsində


1. *Abbasov Ə.* Nizami Gəncəvinin «İskəndərnamə» poeması. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1966.
2. *Ağayev Ə.* Nizami və dünya ədəbiyyatı. Azərbaycan dövlət nəşriyyatı, Bakı, 1964.
3. *Araslı H.* Şərqdə «Leyli və Məcnun» əsərləri. Nizami, Birinci kitab, Azərnəşr, Bakı, 1940.
4. *Araslı H.* Nizami əsərlərinin el variantları. Müqəddimə, Azərnəşr, Bakı, 1941.
5. *Araslı H.* «Yeddi gözəl» və «Yeddi cam» əsərlərinin müqayisəsi. Nizami, Üçüncü kitab, Azərnəşr, Bakı, 1941.
6. *Araslı H.* Nizami Gəncəvi. Azərnəşr, Bakı, 1947.
7. *Araslı H.* Nizami və Azərbaycan xalq ədəbiyyatı. Nizami, Məqalələr məcmuəsi, Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1947.
8. *Araslı H.* Nizami və Vətən. Azərnəşr, Bakı, 1948.
9. *Araslı H.* Şairin həyatı, «Gənclik» nəşriyyatı, Bakı, 1967.
10. *Araslı H.* Nizami Gəncəvi. «Sirlər xəzinəsi». Filoloji tərcümə. Giriş, «Elm» nəşriyyatı, Bakı, 1981.
11. *Araslı H.* Nizamidə xalq sözləri, ifadə və zərb-məsəlləri. Azərbaycan SSR EA-nın «Xəbərlər»i, Bakı, 1942, № 8.
12. *Araslı H.* Nizami Gəncəvi. Qəzəllər. Bakı, 1956.
13. *Araslı N.* Nizami və türk ədəbiyyatı. «Elm» nəşriyyatı, Bakı, 1980.
14. *Araslı N.* Nizaminin poetikası, Bakı, «Elm», 2004.
15. *Arif M.* «Yeddi gözəl», Nizami Gəncəvi. «Yeddi gözəl», Azərnəşr, Bakı, 1941. (Ön söz əvəzi).
16. *Arif M.* «Yeddi gözəl», Nizami Gəncəvi. «Yeddi gözəl». Filoloji tərcümə, Müqəddimə, Bakı, 1983. (Ön söz əvəzi).
17. *Azadə R.* Nizami Gəncəvi (həyatı və sənəti), «Elm» nəşriyyatı, Bakı, 1979.
18. *Azadə R.* Nizami və onun poeziya sələfləri, Bakı, «Elm», 1999.
19. *Azadə R.* Azərbaycan epik şeirinin inkişaf yolları, Bakı, «Elm», 1975.
20. Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. Birinci cild. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1960.

21. *Babayev X. B.* Nizaminin «Xəmsə»sində Quran ayələri və qissə motivləri, Bakı, 1999.
22. *Beqdeli Q.* Şərq ədəbiyyatında «Xosrov və Şirin» mövzusu, «Elm» nəşriyyatı, Bakı, 1971.
23. *Bertels Y. E.* Nizami və Firdovsi. Nizami, İkinci kitab. Azərnəşr, Bakı, 1940.
24. *Bertels Y. E.* Nizaminin «Leyli və Məcnun» poemasının mənbələri Nizami, Birinci kitab, Azərnəşr, Bakı, 1940.
25. *Bertels Y. E.* Böyük Azərbaycan şairi Nizami. SSRİ EA-nın Azərbaycan filialı. Bakı, 1940.
26. *Bertels. Y.E.* Nizami və bədii yaradıcılıq, «Nizami», Bakı, 1947.
27. *Cahani Q.* Azərbaycan ədəbiyyatında Nizami ənənələri, «Elm» nəşriyyatı, Bakı, 1979.
28. *Əbu Əli Həsən İbn Əli Xacə Nizamülmülk.* Siyasətnamə, «Elm» nəşriyyatı, Bakı, 1987.
29. Əbu Bəkir əl-Valibi və onun «Əxbarul-Məcnun va əşaruhu» əsəri, (Tədqiqat, filoloji tərcümə, şərhlər və izahlar f.e.n. İmamverdi Həmidovundur), Bakı, 1999.
30. *Ələkbərov M.* Nizami və xalq yaradıcılığı. Namizədlik dissertasiyası, Bakı, 1947. (Əlyazması).
31. *Əliyev R.* Nizami (qısa biblioqrafik məlumat). «Yazıçı» nəşriyyatı, Bakı, 1982.
32. *Əlizadə L.* Mücirəddin Beyləqaninin lirikası, Bakı, 2001.
33. *İbrahimov M.* Günəş kimi parlaq. Nizami Gəncəvi. «Leyli və Məcnun». Bədii tərcümə. «Yazıçı» nəşriyyatı, Bakı, 1983.
34. *Hacı S.* «Həzrət Hizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)», I kitab, «Nafta-Press», Bakı, 2007.
35. *Hüseynov X.* Nizaminin «Sirlər xəzinəsi», «Elm» nəşriyyatı, Bakı, 1983.
36. *Xalisbəyli T.* Nizami Gəncəvi və Azərbaycan şifahi xalq ədəbiyyatı. APİ-nin nəşri. Bakı, 1988.
37. *Xalisbəyli T.* Nizami Gəncəvi və Azərbaycan qaynaqları, Bakı, 1991.
38. *Köçərli F. B.* Şeyx Əbu Məhəmməd İlyas ibn Yusif ibn Müəyyəd Nizami. Azərbaycan ədəbiyyatı. İki cilddə. Birinci cild. Bakı, 1978, (səh. 129-133)

39. *Qətran Təbrizi.* Divan, Azərbaycan SSR EA nəşriyyatı. Bakı, 1967 (fars dilindən çevirəni və çapa hazırlayanı Q. Beqdeli).
40. *Quliyeva M.* Klassik Şərq bəlağəti və Azərbaycan ədəbiyyatı, Bakı, 1999.
41. *Quluzadə M. Y.* Nizami Gəncəvi. Həyat və yaradıcılığı. Azərnəşr, Bakı, 1953.
42. *Levkiyevski İ. V.* «Məxzənül-əsrar» əsəri. Nizami. İkinci kitab. Azərnəşr, Bakı, 1940.
43. *Məmməd C.* Nizaminin fikir dünyası. «Yazıçı» nəşriyyatı, Bakı, 1982.
44. *Məmmədov Z. C.* Azərbaycanda XI-XII əsrlərdə fəlsəfi fikir, «Elm» nəşriyyatı, Bakı, 1978.
45. *Mir Cəlal* «Yeddi gözəl»dəki hekayələr haqqında. Nizami, Məqalələr məcmuəsi. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1947.
46. *Mübariz Ə.* Nizami Gəncəvi. Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. Birinci cild. Azərbaycan SSR EA nəşriyyatı. Bakı, 1960.
47. *Nəvai Ə.* Yeddi Səyyarə. Bakı. 1979.
48. *Nizami Gəncəvi.* Sirlər xəzinəsi. Bədii tərcümə. «Yazıçı» nəşriyyatı, Bakı, 1981.
49. *Nizami Gəncəvi.* Xosrov və Şirin. Bədii tərcümə. «Yazıçı» nəşriyyatı, Bakı, 1982.
50. *Nizami Gəncəvi.* Leyli və Məcnun. Bədii tərcümə. «Yazıçı» nəşriyyatı, Bakı, 1983.
51. *Nizami Gəncəvi.* Yeddi gözəl. Bədii tərcümə. «Yazıçı» nəşriyyatı, Bakı, 1983.
52. *Nizami Gəncəvi.* İskəndərnamə. Bədii tərcümə. «Yazıçı» nəşriyyatı, Bakı, 1982.
53. *Nizami Gəncəvi.* Sirlər xəzinəsi. Filoloji tərcümə. «Elm» nəşriyyatı, Bakı, 1981.
54. *Nizami Gəncəvi.* Xosrov və Şirin. Filoloji tərcümə. «Elm» nəşriyyatı, Bakı, 1981.
55. *Nizami Gəncəvi.* Yeddi gözəl. Filoloji tərcümə. «Elm» nəşriyyatı, Bakı, 1983.
56. *Nizami Gəncəvi.* Leyli və Məcnun. Filoloji tərcümə. «Elm» nəşriyyatı, Bakı, 1981.
57. *Nizami Gəncəvi.* İskəndərnamə. Filoloji tərcümə. «Elm» nəşriyyatı, Bakı, 1983.

58. *Nizami Gəncəvi.* Məqalələr məcmuəsi. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1947.
59. *Nizami Gəncəvi.* Xosrov və Şirin. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1947.
60. *Nizami Gəncəvi.* Leyli və Məcnun. Azərbaycan «Mədəni rabitə» cəmiyyəti. Bakı, 1947.
61. *Nizami Gəncəvi.* Yeddi gözəl. Azərnəşr, Bakı, 1941.
62. *Nizami Gəncəvi.* İskəndərnamə. Azərnəşr, Bakı, 1941.
63. *Nizami Gəncəvi.* Lirika. «Gənclik»nəşriyyatı, Bakı, 1980.
64. Nizami Gəncəvi almanaxı. Birinci kitab. «Elm» nəşriyyatı, Bakı, 1984.
65. Nizami Gəncəvinin həyat və yaradıcılığında ümumtəhsil məktəblərində tədrisi məsələləri. Bakı, 1987.
66. *Nizami.* Birinci kitab. Azərnəşr, Bakı, 1940.
67. *Nizami.* İkinci kitab. Azərnəşr, Bakı, 1940.
68. *Nizami.* Üçüncü kitab. Azərnəşr, Bakı, 1941.
69. Nizami əsərlərinin el variantları. Azərnəşr, Bakı, 1941.
70. Nizaminin müasirləri. Azərnəşr, Bakı, 1940.
71. Nizami və Şərq ədəbiyyatı. (Elmi əsərlərin tematik məcmuəsi) S. M. Kirov adına Azərbaycan Dövlət Universitetinin nəşri, Bakı, 1983.
72. *Ordubadi M. S.* Nizaminin dövrü və həyatı. Nizami, Birinci kitab, Azərnəşr, Bakı, 1940.
73. *Paxamov Y. A.* Nizami epoxasında Şirvan qalası, Nizami, Birinci kitab. Azərnəşr, Bakı, 1940.
74. *Paşayev S.* Nizami və folklor. Azərbaycan SSR «Bilik» cəmiyyəti, Bakı, 1976.
75. *Paşayev S.* Nizami və xalq əfsanələri. «Gənclik» nəşriyyatı, Bakı, 1983.
76. *Rəfili M.* Nizami, həyatı və yaradıcılığı, Bakı, 1939.
77. *Rəfili M.* Nizamiyə qədər Azərbaycan kulturası. Nizami. İkinci kitab. Azərnəşr, Bakı, 1940.
78. *Sasani Ç. S.* Nizaminin «Leyli və Məcnun» poeması. «Elm» nəşriyyatı, Bakı, 1985.
79. *Səfərli Ə., Yusifov X.* Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, «Maarif» nəşriyyatı, Bakı, 1982.

80. *Sultanlı Ə.* «İskəndərnamə» və Qərbi-Avropa ədəbiyyatı, Nizami Gəncəvi. Məqalələr məcmuəsi. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1947.
81. *Şirvani Y. Z.* «Leyli və Məcnun» əsərinin meydana gəlməsi məsələsinə dair. Nizami, Üçüncü kitab. Azərnəşr, Bakı, 1941.
82. *Yusifov X.* Nizaminin lirikası. Azərbaycan SSR EA nəşriyyatı. Bakı, 1968.
83. *Yusifov X.* Şərqdə intibah və Nizami Gəncəvi. «Yazıçı» nəşriyyatı, Bakı, 1982.

**Türkiyə türkcəsində**

84. *Abdurrahman Azam.* Rasuli-Ekremin Örnek Ahlakı (türkceye çeviren, Hayreddin Karaman), İstanbul, 1978.
85. *Prof.* Dr. Abdullah Kahraman. İslamda ibadetlerin değişmezliği, İstanbul, 2002.
86. *Prof.* Dr. Abdullah Kahraman. Klassik fıkhı literatüründe kadının cemaatle ibadeti konusundakı yaklaşımlarda fitne söyleminin rolü, «Maarife», yıl, 4, sayı :22, Konya, 2004.
87. *Ahmed Kabaklı.* Türk Edebiyyatı Tarihi, c. I, İstanbul, 1980.
88. *Ahmet Aymutlu.* Süleyman Çelebi ve Mevlidi-Şerif, İstanbul, 1958.
89. *Ahmet Ateş.* Vesiletün Necat, Ankara, 1957.
90. *Ayverdi Samiha.* Edebi ve Manevi Dünyası içinde Fatih, İstanbul, 1968.
91. *Avni Konuk.* Fususul-Hikem Tercüme ve Şerhi, c. IV, İstanbul, 1992.
92. *Abdülbakı Gölpınarlı.* Mesnevi Şerhi, İstanbul, 1973.
93. *Ağırakça Mustafa.* Asri-Saadette Ordu ve Savaş Stratejisi, Bütün Yönleriyle Asri-Saadette İslam, İstanbul, 1994.
94. *Ağırman Mustafa.* Hz. Muhammed (s.a.s.) Devrinde Mescid ve Fonksiyonları, İstanbul, 1997.
95. *Ağırman Mustafa.* Hz. Peygamberin Savaş Stratejisi, Erzurum, 1992.
96. *Ahmed Cevdet Paşa.* Tarihi-Cevdet, İstanbul, 1972.
97. *Akbulut Ahmet.* Sahabe Devri Siyasi Hadiselerinin Şekillendirdigi Kelam Meseleleri, İstanbul, 1992.
98. *Arnold T.* İntişari-İslam Tarihi (çeviren Halil Halid), Ankara, 1982.

99. *Atalar Münir.* Osmanlı Devletinde Sure-i Humayun ve Sure Alayları, Ankara, 1991.
100.*Atar Fahrettin.* İslamda Adliye Teşkilatı, Ankara, 1978.
101. *Asim Efendi.* Kamus, c. I-IV, İstanbul, 1305.
102.*Abdurrahman Güzel, Mustafa Tatçı.* Yunus Emre, Ankara, 1991.
103.*Ahmed bin Hanbel.* El-müsned, c. I-IV, İstanbul, 1992.
104.*Attar Feridüddin.* Mantikut-Tayr (çevireni A. Gölpınarlı), c. III, İstanbul, 1962.
105.*Attar Feridüddin.* Tezkiretül-Evliya, Tahran, 1346.(çeviren Mehmet Kanar, Tasavvufta insan Meselesi), İstanbul, 1990.
106.*Annemaria Schimmel.* Tasavvufun Boyutları, (çevireni Yaşar Keçeci), İstanbul, 2000.
107.*Annemaria Schimmel.* Çağın Mevlanası Muhammed İkbal, (çevireni, Seneil Özkan), İstanbul, 2001.
108.*Abdülbaki Gölpınarlı.* Yunus Emre ve Şiirleri, İstanbul, 1938.
109.*Abdülbaki Gölpınarlı.* Yunus Emre ve Tasavvuf, İstanbul, 1961.
110.*Aristoteles.* Metafizik, (çevireni, Ahmet Arslan), İstanbul, 1996.
111.*Aynı M. Ali.* Hacı Bayram Veli, İstanbul, 1986.
112.*Ahmet Cevizçi.* Felsefe sözlügü, Ankara, 1996.
113.*Ahmed Yesevi.* Divani-Hikmet Seçmeler, (hazırlayan Kemal Ersalan), Ankara, 1991.
114.*Abdülkadir Geylani.* İlahi Armağan (çeviren, Abdülkadir Akçiçek), Ankara, 1962.
115.*Abdülbaki Gölpınarlı*. Melamilik ve Melamiler, İstanbul, 1992.
116.*Abdülkerim Kuşeyri*. Kuşeyri Risalesi (hazırlayan, Süleyman Uludağ), İstanbul, 1991.
117.*Ağırakça Mustafa.* «Asr-i Saadette Ordu ve Savaş Stratejisi», Bütün Yönleriyle Asr-ı Saadette İslam, İstanbul, 1944.
118.*Ağırman Mustafa.* Hz. Muhammed (s.a.s.) Devrinde Mescid ve fonksiyonları, İstanbul, 1977.
119.*Ahmed Naim-Kamil Miras.* Sahihi-Buhari Muhtasarı Tecridi-Sarih Tercemesi, 12 cild, Ankara, 1970-1973.
120.*Atay Hüseyn.* Kurana Göre İman Esasları,Ankara, 1961.
121.*Akar, Metin.* Türk Edebiyatında Manzum Miracnameler, Ankara, 1987.
122.*Alkan Naim.* Türk-halk edebiyatı, Ankara, 1973.

123.*Arat Reşid Rahmeti, Edib Ahmed b.* Mahmud Yükneki, Atabetül-Hakayık, İstanbul, 1951.
124.*Arat Reşid Rahmeti, Yusuf Has Hacib.* Kutadqu Bilig I, Metin, 2, bsk. Ankara 1979.
125.*Arat Reşid Rahmeti, Yusuf Has Hacib*. Kutadqu Bilig II, Çeviri, 2, bsk. Ankara 1974.
126.*Arat Reşid Rahmeti.* Kutadqu Bilig III,İndeks. Haz.Kemal Eraslan, O.Sertkaya, N.Yüce, İstanbul 1979.
127.*Armutçuoğlu İlhan.* Kaside-i bürde, Konya, 1983.
128.*Arslan Ahmet Turan.* «Asr-ı Saadet Arefesinde İslami Edebiyata Basamak Olan Arap Edebiyyatı» İslami Edebiyat, S. 1, Mayıs 1988.
129.*Arslan Ahmet Turan.* «Asr-ı Saadette Edebiyat» İslami Edebiyat, S. 3, Kasım-Aralık-Ocak 1988-1989.
130.*Asya Arif Nihat.* Dualar ve Aminler, İstanbul, 1967.
131.*Ateş Süleyman.* Yüce Kuranın Çağdaş Tefsiri, İstanbul, 1988.
132.*Ayan Hüseyin.* Fuzuli Leyla vü Mecnun, İstanbul, 1981.
133.*Ayan Hüseyin ve dig.* «XVII Yüzyıl Divan Nazim ve Nesri» maddesi, Büyük Türk Klasikleri, C. V, İstanbul, 1987.
134.*Bakir Abdulhalik.* Hz. Ali Dönemi, Ankara, 1991.
135.*Banarlı Nihad Sami.* «Türklerde Peygamber Sevgisi», Yeşilay, s. 420, Kasım 1968.
136.*Barthold-Köprülü.* İslam Medeniyeti Tarihi, Ankara, 1977.
137.*Can Şefik.* Mesnevi Tercümesi, I-VI, İstanbul, 1997.
138.*Canan İbrahim.* Hadis Ansiklopedisi, I-XVIII, İstanbul.
139.*Coşan M. Esad.* «Türk Edebiyatında Natlar», Hakses (Hicret Özel Sayısı), Eylül-Ekim 1979.
140.*Cerrahoğlu İsmail.* Tefsir Tarihi, Ankara, 1988.
141.*Cunbur Müjgan.* «Şemail-i Şerife ve Hilye-i Nebeviler», Diyanet Dergisi Özel Sayı, Ankara, 1970.
142.*Cunbur Müjgan.* «Hilye», Türk Ansiklopedisi, I-XIX, Ankara, 1971.
143.*Çağatay Saadet.* «Türkce Dini Tabirler», Necati Luqal Armağanı, Ankara. 1968.
144.*Çağatay.* Neşet, İslam Öncesi Arap Tarihi ve Cahiliyye çağı, Ankara, 1971.
145.*Çelebioğlu Amil.* «Türk Edebiyatında Manzum Dini Eserler», Şükrü Elçin Armağanı, Ankara. 1983.

146.*Derman.* Türk Hat Sanatının şaheserleri, İstanbul, 1982.
147.*Derveze İzzet.* Kurana Göre Hz. Muhammedin Hayatı, I-III, (çev. Mehmet Yolçu), İstanbul, 1989.
148.*Devalibi.* Maruf, islamda Devlet ve İktidar, (çev. Mehmed S. Hatiboğlu), İstanbul, 1985.
149.*Devellioğlu Ferrit.* Osmanlıca-Türkçe Ansiklopedik Lügat, Ankara, 1990.
150.Diyanet Dergisi Peygamberimiz (s.a.s.) Özel Sayısı, Aralık 1989.
151.*Eraslan Kemal.* Ahmed-i Yesevi, Divan-i Hikmetten Seçmeler, Ankara, 1983.
152.*Ethem Cebecioğlu.* Tasavvuf terimleri ve deyimleri sözlüğü, İstanbul, 2005.
153.*Fayda Mustafa.* Allahın Kılıcı Halid b. Velid, İstanbul, 1992.
154.*Fayda Mustafa.* «Hz. Ömerin Divan Teşkilatı», Doğuştan Günümüze Büyük İslam Tarihi (II cild), İstanbul, 1986.
155.*Fığlalı.* Ethem Ruhi: İmamiye Şiası, Ankara, 1984.
156.*Fığlalı.* Çağımızda İtikadi İslam Mezhepleri, İstanbul, 1980.
157.*Gölpınarlı Abdülbaki.* Mevlevi Adab ve Erkanı, İstanbul, 1963.
158.*Gölpınarlı Abdülbaki.* Divan-ı Kebir Tercümesi, C. IV, İstanbul, 1962.
159.*Gölpınarlı Abdülbaki. Mevlana müzesi Yazmalar Kataloqu, C. I-III, Ankara, 1967-1972.*
160.*Gölpınarlı Abdülbaki.* Mevlanadan Sonra Mevlevilik, İstanbul, 1953.
161.*Gölpınarlı Abdülbaki.* Tasavvuftan Dilimize Geçen Deyimler ve Atasözleri, İstanbul, 1977.
162.*Gülşehri, Mantıkut-Tayr.* Yay.: Agah Sırrı Levend, Ankara, 1957.
163.*Günaltay M. Şemseddin.* İslamda Tarih ve Müverrihler, İstanbul, 1991.
164.*Hacıtahiroğlu Abdullah Öztemiz.* Hazret-i Payğambere Şiirler Antolojisi (Natlar), İstanbul, 1966.
165.*Hamidullah Muhammed.* İslam Müesseselerine Giriş, trc. İhsan Süreyya Sırma, İstanbul, 1984.
166.*Hamidullah Muhammed.* Hazreti Peygamberin Savaşları, (çev. Salih Tuğ), İstanbul, 1962.
167.*H. İbrahim Şener.* Kaside-i bürde Kaside-i Bür-e ve Su Kasidesi, İzmir, 1995.

168.*Hüseyn Algül.* İslam Tarihi, c. I-III, İstanbul, 1986.
169.*Hüseyn Algül.* Akabe Hadisesi-Hicret ve Getirdikleri, Diyanet Dergisi Hicret Özel sayısı, 1981.
170.*İmam Rabbani.* Mektubat, İstanbul, 1963.
171.*İpekten Haluk.* Eski Türk Edebiyatı Nazim Şekilleri, Ankara, 1985.
172.*İpekten Haluk ve dig.,*Tezkirelere Göre Divan Edebiyatı İsimler Sözlügü, Ankara, 1988.
173.İslam Ansiklopedisi «Bürde» maddesi, C.II, İstanbul,t.y.s.837.
174.*Kabaklı Ahmet.* Türk Edebiyatı, İstanbul, 1973.
175.*Kandemir, M. Yaşar.* Örneklerle İslam Ahlakı, İstanbul, 1980.
176.*Kapar M. Ali.* Hz. Muhammedin Müşriklerle Münasibeti, İstanbul, 1987.
177.*Kara Mustafa.* Din, Hayat, Sanat Acısından Tekkeler, Zaviyeler, İstanbul, 1980.
178.*Karaman Hayrettin. «*Adalet», DİA, I, 343-344, İstanbul, 1988.
179.*Karaman Hayrettin.* Anahatlarıyla İslam Hukuku, Ensar Neşriyat, İstanbul, 1984.
180.*Kazıcı Ziya.* İslam Medeniyeti ve Müesseseleri Tarihi, İstanbul, 1999.
181.*Kazıcı Ziya.* Hz. Muhammedin (s.a.s.) Eşleri ve Aile Hayatı, İstanbul, 1991.
182.*Kitapçı Z.* Yeni İslam Tarihi ve Türkistan, İstanbul, 1986.
183.*Kocatürk Sadettin.* Gülşehri ve Felek-Name, Ankara, 1982.
184.*Kocatürk Vasfi Mahir.* Tekke Şiri Antolojisi, 2, Ankara, 1968.
185.*Köksal M. Asim.* İslam Tarihi, I-III, İstanbul, 1981.
186.*Köprülü Mehmed Fuad.* «Fuzuli maddesi» İslam Ansiklopedisi, C. IV, İstanbul, 1977.
187.*Köprülü Mehmed Fuad.* Edebiyat Araştırmaları, Ankara, 1986.
188.*Köprülü Mehmed Fuad.* Türk Edebiyatında İlk Mutasavvıflar, Ankara, 1966.
189.*Köse Ali.* Neden İslamı Seçiyorlar, İstanbul, 1997.
190.*Kürkçüoğlu Kemal Edib.* Fuzuli, Beng ü bade, İstanbul, 1955.
191.*Kürkçüoğlu Kemal Edib.* Seyid Nesimi Divanından Seçmeler, Ankara, 1985.
192.*Levend.* Agah Sırrı, Divan Edebiyatı, 1980.
193.*Lewis Bernard.* Tarihte Arablar, çev. H.D. Yıldız, İstanbul, 1979.
194.*Lings Martin.* Hz. Muhammedin (s.a.s.) Hayatı, İstanbul, 1988.

195.*Mazıoğlu (Çatbaş), Hasibe.* Fuzuli, Farsça Divan, Ankara, 1962.
196.*Mehmed Doğan.* Büyük Türkçe Sözlük, İstanbul, 1994.
197.*Mevlana Celaleddin-i Rumi.* Mesnevi (trc. Veled İzbudak), I-VI, İstanbul, 1956-1957.
198.*Mevlana Celaleddin er- Rumi.* Fihi Ma Fih, (trc. A.Avni Konuk), İstanbul, 1994.
199.*Nihat Keklik.* Muhyiddin-i Arabının Eserleri ve Kaynakları, İstanbul, 1974.
200.*Nizami.* Hüsrev ü Şirin, (Ter.: Sabri Sersevil), İstanbul, 1955.
201.*Nizami.* Leyla İle Mecnun, (Çev.: Ali Nihad Tarlan), İstanbul, 1985.
202.*Osman Nuri Topbaş.* Hazret-i Muhammed Mustafa, cild, I, İstanbul, 2005.
203.*Osman Nuri Topbaş.* Hazret-i Muhammed Mustafa, cild, II, İstanbul, 2005.
204.*Ömer Çelik.* Kuran ayetlerinin Bilimsel ve Teknolojik Gelişmelerle İlişkisi, İstanbul, 2001.
205.*Önkal Ahmet.* Resullahın Davet Metodu, Konya, 1994.
206.*Önkal Ahmed.* Resulüllahın İslama Davet Metodu, Konya, 1995.
207.*Resulzade M. E.* Azerbaycan şairi Nizami, Ankara, 1951.
208.*Şapolyo Enver Behnan.* Mezhepler, Tarikatler Tarihi, İstanbul, 1964.
209.*Tahirul-Mevlevi.* Edebiyat Lügati, haz. Kemal Edib Kürkçüoğlu, Enderun Kitabevi, İstanbul, 1973.
210.*Tahirul-Mevlevi.* Müslümanlıkta İbadet Tarihi, Ankara, 1998.
211.*Tarlan Ali Nihad.* Mevlana, İstanbul, 1974.
212.*Tarlan Ali Nihad.* Divan Edebiyatında Tevhidler, İstanbul, 1936.
213.*Tarlan Ali Nihad.* İran Edebiyatı, İstanbul, 1944.
214.*Tarlan Ali Nihad.* «Natlar Arasında», Hilal, C. III, Ankara, 1962.
215.*Tarlan Ali Nihad.* «Natlar Arasında», Hilal, C. IV, Ankara, 1963.
216.*Tarlan Ali Nihad.* «Natlar Arasında», Hilal, C. IV, Ankara, 1964.
217.*Tarlan Ali Nihad.* «Natlar Arasında», Hilal, C. IV, Ankara, 1964.
218.*Tarlan Ali Nihad.* «Fuzuliye Göre Hz.Peygamber», Yeni Asya Qazetesi, 7 Mart 1975.
219.*Tarlan Ali Nihad.* Fuzuli Divanı Şerhi, C. III, Ankara, 1985.
220.*Timurtaş Faruk Kadri.* Yunus Emre, Divan, İstanbul, 1972.

221.*Timurtaş Faruk Kadri.* Şeyhi ve Hüsrev ü Şirini, İnceleme-Metin, İstanbul, 1980.
222.*Togan Z.* Velidi, Tarihte Usul, İstanbul, 1969.
223.*Türk Dili ve Edebiyatı Ansiklopedisi.* «Nat» maddesi, C. VI, istanbul, 1986.
224.*Uçman Abdullah.* «XVI. Yüzyıl Tekke Şiiri» maddesi, Büyük Türk Klasikleri, C. II, İstanbul, 1986.
225.*Uçman Abdullah.* «XV. Yüzyıl Tekke Şiiri» maddesi, Büyük Türk Klasikleri, C. III, İstanbul, 1986.
226.*Uçman Abdullah.* «XVI. Yüzyıl Tekke Şiiri» maddesi, Büyük Türk Klasikleri, C. IV, İstanbul, 1986.
227.*Uçman Abdullah.* «XVII. Yüzyıl Tekke Şiiri» maddesi, Büyük Türk Klasikleri, C. VI, İstanbul, 1987.
228.*Uçman Abdullah.* «XVIII. Yüzyıl Tekke Şiiri» maddesi, Büyük Türk Klasikleri, C. VII, İstanbul, 1988.
229.*Uludağ Süleyman.* İslam Açısından Musikı ve Sema, İstanbul, 1976.
230.*Watt M.* Modern Dünyada İslam Vahyi, trc. Mehmet S. Aydın, Ankara, 1982.
231.*Watt M.* Hz. Muhammed Mekkede, çev. A. Yüksel, R. Ayas, Ankara, 1986.
232.*Yazır Elmalılı Muhammed Hamdi.* Hak Dini Kuran Dili, C. I-X, İstanbul, 1982.
233.*Yeniterzi Emine.* Türk Edebiyatında Natlar, Ankara, 1993.
234.*Zebidi Zeynuddin Ahmed.* Tecrid-i sarih Tercümesi, trc. Ahmed Naim-Kamil Miras, İstanbul, 1991.
235.*Ziya Nur Aksun.* Osmanlı Tarihi, İstanbul, 1994.

**Rus dilində**

236.*Azade R.* Nizami Qəndjevi. İzdatelğstvo «Glm», Baku, 1981.
237.*Aliev Q. Ö.* Leqenda o Xosrove i Şirin v literaturax narodov Vostoka. Moskva, 1960.
238.*Aliev Q.* İz istorii vozniknovenię Farxada v literaturax narodov Vostoka – «Kratkie soobhenię İnstituta vostokovedenię», T-27, Moskva, 1968, s. 50-58.
239.*Aliev Q. Ö.* Temı i söjetı Nizami v literaturax narodov vostoka. İzdatelğstvo «Nauka», Moskva, 1985.

240.*Alieva T. A.* Osnovnoy söjet pogmı «Semğ krasaviü» Nizami i eqo svəzğ s vostoçnımi predaniəmi. AQU, 1958, № 5.
241.*Antokolğskiy P. Q.* Nizami. Vıdaöhiesə russkie uçenıe i pisateli o Nizami Qəndjevi. İzdatelğstvo «Əzıçı», Baku, 1981.
242.*Arzumanova İ. Q.* İzuçenie tvorçestva Nizami v anqloəzıçnom literaturovedenii, avtoref. diss. k filol. nauk. Baku, 1984.
243.*Bertelğs E. G.* Nizami, İzd. AN SSSR. Moskva, 1956.
244.*Bertelğs E. G.* Nizami. Tvorçeskiy putğ pogta. Moskva, 1956.
245.*Bertelğs E. G.* İstoriə persidskoy-tadjikskoy literaturı, Moskva, 1960.
246.*Bertelğs E. G.* İzbrannıe trudı. Nizami i Fizuli, Moskva, İzdatelğstvo Vostoçnoy literaturı. Moskva, 1962.
247.*Boldırev A. N.* Xaqani, Nizami, Rustaveli. M.- L.,1935.
248.*Boldırev A. N.* Dva şirvanskix pogta Nizami i Xaqani. V sb. «Pamətniki gpoxi Rustaveli», Leninqrad, 1938.
249.Vıdaöhiesə russkie uçenıe i pisateli o Nizami Qəndjevi. İzdatelğstvo «Əzıçı», Baku, 1981.
250.*Quseynov X. M.* İdeyno-xudojestvennıe osobennosti «Sokrovihniüı tayn» Nizami Qəndjevi. Avtoref. kand. diss. Baku, 1970.
251.*Dodxudaeva L. N.* Pogmı Nizami v srednevekovoy literaturnoy jivopisi, izd. «Nauka», Moskva, 1985.
252.*Kəzimov M. D.* «Xaft peykar» Nizami i tradiüiə v persoəzıçnoy literature XIV-XVI vv., Baku, 1987.
253.*Kraçkovskiy İ. Ö.* Rannəə istoriə povesti o Medjnune i Leyli v arabskoy literature. İzb. soç., tom II, M-L., 1956.
254.*Kraçkovskiy İ. Ö.* Rannəə istoriə povesti o Medjnune i Leyli v Arabskoy literature. Vıdaöhiesə russkie uçenıe i pisateli o Nizami Qəndjevi. İzdatelğstvo «Əzıçı», Baku, 1981.
255.*Krımskiy A. E.* Nizami i eqo sovremenniki. İzdatelğstvo «Glm», Baku, 1981.
256.*Krımskiy A. E.* Nizami i eqo izuçenie. Vıdaöhiesə russkie uçenıe i pisateli i Nizami Qəndjevi. İzdatelğstvo «Əzıçı», Baku, 1981.
257.*Makovelğskiy A. O.* Mısli Nizami o sile i o xudojestvennom tvorçestve. Vıdaöhiesə russkie uçenıe i pisateli o Nizami Qəndjevi. İzdatelğstvo «Əzıçı», Baku, 1981.
258.Materialı nauçnoy konferenüii, posvəhennoy probleme «Azerbaydjanskaə kulğtura XI-XII vekrv i tvorçestva Nizami Qəndjevi». İzdatelğstvo «Glm», Baku, 1980.
259.*Mustafaev Dj.* Filosofskie i gstetiçeskie vozzreniə Nizami, Baku, 1962.

260.*Rafili M.* Nizami i Azerbaydjanskaə kulğtura XII veka, Nizami sbornik statey. Azerneşr, Baku, 1947.
261.*Rubinçik Ö. A.* Persidsko-russkiy slovarğ. Moskva, 1983.
262.*Samoylova D.* Skazanie o Medjnune iz plemeni Benu Amir, Moskva, 1976.
263.*Sasaniən Ç.* S. Pogma «Leyli i Medjnun», Nizami. Avtoref. kand. dis. Baku, 1970.
264.*Semenov A.* Velikiy azerbaydjanskiy pogt Nizami, Literatura i isskustvo Uzbekistana, kn. 3, 1939.
265.*Taqirdjanov A. Q.* O proisxojdenii, povesti «Leyli i Medjnun» NAA. 1977, № 2, s. 37-39.
266.*Tixonov N. S.* Nizami, vıdaöhiesə russkie uçenıe i pisateli o Nizami Qəndjevi. İzdatelğstvo «Əzıçı», Baku, 1981.

## Fars dilində

267. آذر بیگدلی. آتشکده. تهران، 1340.
268. بدیع الزمان فروزانفر. سخن وسخنسرایان. ج 2 تهران، 1312.
269. بهروز ثروتیان. بیان در شعر فارسی، تهران، 1369.
270. برات زنجانی. تأثیر نظامی از دیگران. فروغ آزادی. تبریز، 1375، تیرماه.
271. برات زنجانی. صور خیال در خمسه نظامی. تهران، 1377.
272. جلال الدین هماتی. فنون بلاغت وصناعات ادبی. تهران، 1377.
273. (بکوشش حسین نخعی)، تهران، 1336.
274. دکتر خیامپور فرهنگ سخنوران. تبریز، 1340.
275. دیوان خاقانی شروانی بکوشش حسین نخعی، تهران، 1336.
276. دیوان خاقانی شروانی به کوشش دکتر ضیاءالدین سجادی، 1374.
277. دولتشاه سمرقندی، تذکرة الشعرا، بمبی، 1318.
278. ذبیح الله صفا. تاریخ ادبیات درایران 11 ج تهران، 1336.
279. زین العابدین موتمین. تحول شعر فارسی. تهران، 1339.
280. رضازاده شفق. تاریخ ادبیات ایران، اصفهان، 1338.
281. شبلی نعمان. شعر العجم یا تاریخ شعرا وادبیات ایران. تهران، 1338.
282. شهابی علی اکبر. نظامی شاعر داستانسرا. تهران، 1338.
283. شمس الدین محمد بن قیس الرازی. کتاب العجم فی معایر اشعار العجم بتصحیح محمد بن عبدالوهاب قزوینی، تهران، 1314.
284. فخر الدین اسعد گرگانی. ویس و رامین. بکوشش محمد جعفر محجوب، تهران، 1339.
285. فخر الدین اسعد گرگانی. ویس و رامین. بتصحیح مالکی تودا وآلکساندر گواخاریا تهران، 1369
286. فردوسی. شاهنامه. 1-8، مسکو، 1960/1970 .
287. فلکی شیروانی. دیوان به اهتمام و تصحیح تحیره شهاب طاهری، تهران، 1345.

288. گنجینه گنجوی. یادگار هفتم. یادگار وارمغان وحید دستگردی، تهران، 1331.
289. محمد رضا شفیعی کدکنی. صور خیال در شعر فارسی. تهران 1366.
290. نظامی گنجوی. مخزن الاسرار. بکوشش وحید دستگردی، تهران، 1313.
291. نظامی گنجوی. خسرو و شیرین یادگار وارمغان وحید دستگردی، تهران، انتشارات ارمغان، 1313.
292. نظامی گنجوی. لیلی و مجنون. یادگار وارمغان وحید دستگردی، تهران، 1313.
293. نظامی گنجوی. نامه هفت پیکر. یادگار وارمغان وحید دستگردی، تهران، 1315.
294. نظامی گنجوی. شرفنامه. یادگار وارمغان وحید دستگردی، تهران، 1313.
295. نظامی گنجوی. اقبالنامه. یادگار وارمغان وحید دستگردی، تهران، 1318.
296. نظامی گنجوی. قصائد و غزلیات با مقدمه وحواشی وبکوشش سعید نفیسی، تهران، 1338
297. نظامی گنجوی. مخزن الاسرار، متن علمی وانتقادی بسعی واهتمام ع.ع.علی زاده، باکو، 1960
298. نظامی گنجوی. خسرو وشیرین. ترتیب دهندهٔ متن علمی وانتقادی له و الکسندرویج خه تاقوروف. باکو، 1960.
299. نظامی گنجوی. لیلی و مجنون. متن علمی و انتقادی بسعی واهتمام اژدر علی اوغلی اصغرزاده و ف. بابایف، باکو، 1965
300. نظامی گنجوی. شرفنامه. ترتیب دهندهٔ متن علمی وتدقیقی ع.ع.علی زاده، باکو، 1947.
301. نظامی گنجوی. اقبالنامه. ترتیب دهندهٔ متن علمی وتدقیقی. ف. بابایف، باکو، 1967
302. نظامی گنجوی. هفت پیکر. متن علمی وانتقادی مقدمه وحواشی بقلم طاهر احمداوغلی محرم اوف، مسکو، 1987.
303. ولی الله ظفری. حبسیه درادب فارسی (از آغاز شعر فارسی تا پایان زنیده)، تهران، 1375.
304. خرابات. ادیب مشهور ضیاء بک. مطبعه عامر، 1393.
305. قسطمونلی لطیفی. تذکرهٔ الطیفی. اقدام مطبعه سی، 1312.

**SİRACƏDDİN HACI**

# HƏZRƏT NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞINDA PEYĞƏMBƏRLİK ANLAYIŞI VƏ HƏZRƏT MƏHƏMMƏD (s.a.s.)

2-ci kitab

Bakı – 2008

*Nəşriyyatın direktoru:* **Hafiz Abıyev**
*Kompüter tərtibçisi:* **Qabil Xeyrullaoğlu**
*Korrektoru:* **Xəlil Nəbiyev**
*Operator:* **Vəfa İbrahimova**

Çapa imzalanmışdır: 15.04.2008. Sifariş № 15. Həcmi 28 ç.v. Formatı 84x108 $^{1/32}$. Tirajı 200 nüsxə. Qiyməti müqavilə ilə.

*Azərbaycan MEA Geologiya İnstitutu «Nafta-Press» nəşriyyatının mətbəəsi. Bakı, H.Cavid pr. 29A. Tel.: 4393972*